***Summary***

*The method of finding the inverse function of some transcendental functions included in the school mathematics course is studied in the article. Important considerations have been made on the examples of finding the inverse function.*

***Açar sözlər:*** *funksiya, transendent, tərs funksiya, üstlü, loqarifmik, triqonometrik, tərs triqonometrik, arksinus*

***Ключевые слова:*** *функция, трансцендентный, обратная функция, супер, логарифмический, тригонометрический, обратный тригонометрический, арксинус*

***Key words:*** *function, transcendent, inverse function, super, logarithmic, trigonometric, inverse trigonometric, arcsine*

Aydındır ki, məktəb riyaziyyat kursunda öyrənilən funksiya anlayışı şagirdlərin idraki fəallığının inkişafında, məntiqi təfəkkürünün formalaşmasında özünəməxsus rola malikdir.

Aparılan təcrübələr göstərir ki, məktəb riyaziyyat kursunda yuxarı siniflərdə tədris olunan tərs funksiya anlayışı şagirdlərin mənimsəməkdə çətinlik çəkdiyi mövzulardan biridir. Əvvəlki məqaləmizdə biz tərs funksiya anlayışı və bəzi cəbri funksiyaların tərsi olan funksiyanın tapılması məsələsini araşdırmışdıq. Məktəb riyaziyyat kursunda funksiyalar cəbri və transendent funksiyalar olmaqla tədris olunduğu bizə artıq məlumdur. Onu da qeyd edək ki, şagirdlər cəbri funksiyalara nisbətən transendent funksiyaları, xüsusilə də onun tərsi olan funksiyanın tapılması məsələsini daha çətin mənimsəyirlər. Buna görə də bəzi transendent funksiyaların tərsinin tapılmasının öyrədilməsini vacib hesab edirik.

Məlumdur ki, transendent funksiyalar dedikdə üstlü, loqarifmik, triqonometrik, tərs triqonometrik və üstü irrasional ədəd olan qüvvət funksiyaları başa düşülür. Ümumilikdə transendent funksiyalara bu şəkildə tərif verilir:

**Tərif:** Cəbri olmayan funksiyalara ***transendent funksiyalar*** deyilir.

Transendent funksiyaların tərs funksiyasının tapılmasına aid nümunələr göstərək.

**Məsələ 1.** $y = 3^{6x}$ funksiyasının tərs funksiyasını yazın.

**Həlli:** Əvvəlcə verilmiş funksiyada $x$- i $y$ ilə, $y$ isə $x$ ilə əvəz edək. Bu zaman alarıq:

$$y = 3^{6x}$$

Bundan sonra bərabərliyin hər tərəfini $e$ əsasına görə loqarifmləyək:

$$\ln x = \ln 3^{6y}$$

İfadəni sadələşdirsək alarıq:

$$\ln x = 6y \ln 3$$



**Şəkil 1.** $y = 3^{6x}$ və $y = \frac{\ln x}{6 \ln 3}$

Alınan bərabərliyi $y$-i tapsaq, onda $y = 3^{6x}$ funksiyasının tərs funksiyası aşağıdakı kimi olar:

$$y = \frac{\ln x}{6 \ln 3}.$$

**Məsələ 2.** $y = 2^{x+1}$ funksiyasının tərs funksiyasını yazın.

**Həlli:** Əvvəlcə verilmiş funksiyada $x$- i $y$ ilə, $y$ isə $x$ ilə əvəz edək. Bu zaman alarıq: $x = 2^{y+1}$

Bundan sonra bərabərliyin hər tərəfini $e$ əsasına görə loqarifmləyək: $\ln x = \ln 2^{y+1}$

İfadəni sadələşdirsək alarıq: $\ln x = (y+1)\ln 2$ və ya $\ln x = y\ln 2 + \ln 2$

Alınan bərabərliyi $y$-i tapsaq, onda $y = 2^{x+1}$ funksiyasının tərs funksiyası aşağıdakı kimi olar:

$$y = \frac{\ln x}{\ln 2} - 1.$$



**Şəkil 2.** $y = 2^{x+1}$ və $y = \frac{\ln x}{\ln 2} - 1$

**Məsələ 3.** $y = \log_3(x-2)$ funksiyasının tərs funksiyasını yazın.

**Həlli:** Əvvəlcə qeyd edək ki, verilmiş funksiyada $x - 2 \geq 0$ şərti mütləq ödənilməlidir. Verilmiş funksiyada $x$- i $y$ ilə, $y$ isə $x$ ilə əvəz edək. Onda,

$$x = \log_3(y-2)$$

alarıq. Bərabərliyin hər tərəfini 3-cü dərəcədən qüvvətə yüksəldək:

$$3^x = 3^{\log_3(y-2)}$$

Alınan bərabərliyi sadələşdirsək, onda alarıq:

$$3^x = y - 2.$$

Buradan da, $y$-i tapsaq, onda $y = \log_3(x-2)$ funksiyasının tərs funksiyası $y = 3^x + 2$ şəklində olar.



**Şəkil 3.** $y = \log_3(x-2)$ və $y = 3^x + 2$

Xüsusi halda $y = e^x$ funksiyasının tərsi $y = \ln x$ funksiyasıdır.

**Məsələ 4.** $y = \sin x$ funksiyasının tərs funksiyasını tapın.

**Həlli:** $y = \sin x$ triqonometrik funksiyasına bütün ədəd oxu üzərində baxdıqda, yəni $\sin x$-in təyin oblastı olaraq bütün ədəd oxu $X = (-\infty, +\infty)$ götürdükdə onun tərs funksiyası yoxdur. Çünki $y = \sin x$ funksiyasının $[-1, 1]$ qiymətləri çoxluğunda yerləşən hər bir $y_0 \in [-1, 1]$ ədədi üçün $x$-in $(-\infty, +\infty)$ intervalında $y_0 = \sin x_0$ bəraəbərliyini ödəyən sonsuz sayda $x = x_0 + 2\pi k \quad (k = 0, \pm 1, \pm 2, \dots)$ qiyməti var.

$y = \sin x$ funksiyasına bütün ədəd oxu üzərində deyil, monoton olduğu hər hansı parçada baxdıqda isə onun tərs funksiyasının varlığını söyləmək olar.

$X_0 = \left[-\frac{\pi}{2}, \frac{\pi}{2}\right]$ olsun. Məlumdur ki, $y = \sin x$ funksiyası $X_0$ oblastında monoton artandır və onun qiymətlər çoxluğu $Y = [-1, 1]$ parçasını təşkil edir. Onda tərs funksiyanın varlığı haqqında teoremə görə $y = \sin x$ funksiyasının $[-1, 1]$ parçasında tərs funksiyası var.



**Şəkil 4.** $y = \sin x$ **və** $y = arc \sin x$

Bu funksiyaya, yəni $y = \sin x$-in tərs funksiyasına ***arksinus funksiyası*** deyilir və $x = arc \sin y$ və ya funksiyanı y və arqumenti x ilə göstərdikdə $y = arc \sin x$ kimi işarə olunur.

$\sin x$ və $arc \sin x$ qarşılıqlı tərs funksiyalardır və hər bir $x \in [-1, 1]$ üçün $\sin(arc \sin x) = x$.

Analoji olaraq $y = \cos x$ funksiyasının tərsi $y = arc \cos x$, $y = \tan x$ funksiyasının tərsi $y = arc\, \mathrm{tg}\, x$, $y = \cot x$ funksiyasının tərsi isə $y = arc\, \mathrm{ctg}\, x$ funksiyasıdır. Bu funksiyalara ***tərs triqonometrik funksiyalar*** deyilir.

Beləliklə bu tip nümunələr əsasında belə bir nəticəyə gəlirik ki, üstlü funkiyanın tərs funksiyası loqarifmik funksiya, triqonometrik funksiyanın tərs funksiyası isə tərs triqonometrik funksiyalardır. Şagirdlərin nəzərinə çatdırmaq lazımdır ki, üstlü və loqarifmik, triqonometrik və tərs triqonometrik funksiyalar qarşılıqlı tərs funksiyalardır.

***Ədəbiyyat***

1. *M.X.Nəsibov. (1991). Məktəb kursunda riyazi analizin elementləri. Bakı: "Maarif" nəşriyyatı.*
2. *N.M.Qəhrəmanova, M.İ. (2022). Ümumi təhsil müəssisələrinin 10-cu sinifləri üçün riyaziyyat fənni üzrə dərslik. Bakı: "Təhsil Nəşriyyat-Poliqrafiya" MMC.*
3. *Ümumi təhsil məktəbləri üçün riyaziyyat kurikulumu. (2021). Bakı.*
4. *Ю.М.Колягин. (1982). Методика преподавания математики в средней школе. Москва.*

**S.Ə.Məmmədova**
**Azərbaycan Dövlət Pedaqoji Universiteti**
***sabimed2000@gmail.com***

# SÜNİ İNTELLEKT VASİTƏSİLƏ İBTİDAİ SİNİFLƏRDƏ RİYAZİYYAT TƏLİMİNİN TƏŞKİLİ

***Xülasə***

*Məqalədə ibtidai siniflərdə riyaziyyat fənninin tədrisi zamanı istifadə olunan müxtəlif internet resurslarından bəhs edilmişdir. Bildiyimiz kimi müasir dövrdə artıq heç bir sahəni İKT-siz təsəvvür etmək qeyri-mümkündür. Tədris prosesində də informasiya-kommunikasiya texnologiyalarına müraciət etməklə dərsləri olduqca maraqlı təşkil etmək artıq bir tələb kimi hər bir müəllimin qarşısına vəzifə kimi qoyulmuşdur. Riyazi bacarıqların müxtəlif internet resurslarında yerləşən oyun tipli tapşırıqlardan istifadə etməklə inkişafını təmin etmək onlarda məzmunun səmərəli şəkildə qavranılmasına, uzun müddət yaddaşlarında qalmasına səbəb olur. Bu məqsədlə ibtidai siniflərdə riyaziyyat fənninin səmərəli tədrisi üçün inkişafetdirici təlim mühiti yaradılmalı, müasir təlim texnologiyalarına müraciət etməklə təlim prosesini həyata keçirmək zəruridir.*

# ОРГАНИЗАЦИЯ ОБУЧЕНИЯ МАТЕМАТИКЕ С ПОМОЩЬЮ ИСКУССТВЕННОГО ИНТЕЛЛЕКТА

***Резюме***

*В статье говорится о различных интернет-ресурсах, используемых при преподавании математики в начальных классах. Как мы знаем, в наше время невозможно представить ни одну сферу деятельности без ИКТ. От каждого учителя уже требуется сделать уроки очень интересными, применяя в учебном процессе информационные и коммуникационные технологии. Обеспечение развития математических навыков с помощью заданий игрового типа, размещенных на различных интернет-ресурсах, приводит к эффективному осмыслению их содержания и длительному удержанию в памяти. Для этого необходимо создать развивающую среду обучения для эффективного преподавания математики в начальных классах, необходимо реализовать процесс обучения, применяя современные технологии обучения.*

# ORGANIZING MATHEMATICS LEARNING THROUGH ARTIFICIAL INTELLIGENCE

***Summary***

*The article discusses about various internet resources used during the teaching of mathematics in primary classes. As we know, in modern times, it is impossible to imagine any field without ICT. It is already a requirement for every teacher to make the lessons very interesting by applying information and*

*communication technologies in the teaching process. Ensuring the development of mathematical skills by using game-type tasks located on various Internet resources leads to their effective comprehension of the content and long-term retention in their memory. For this purpose, it is necessary to create a developing learning environment for effective teaching of mathematics in primary classes, and to implement the learning process by applying modern learning technologies.*

***Açar sözlər:*** *İKT resursları, süni zəka, inkişafetdirici təlim, riyazi oyun*
***Ключевые слова:*** *ресурсы ИКТ, искусственный интеллект, развивающее обучение, математическая игра*
***Key words:*** *ICT resources, artificial intelligence, developmental learning, mathematical play*

XIX əsrdə yaşamış, zəngin didaktik görüşlərə sahib olan məşhur rus pedaqoqu K.D.Uşinski xüsusilə vurğulayırdı ki, təlim prosesində biliyi şagirdlərə hazır formada ötürmək faydalı olmayıb, onların özləri də bu prosesdə yaxından iştirak etməli, öz potensiallarından istifadə etməklə lazımi bilik və bacarıqlar əldə etməlidirlər. Bu fikrə əsaslanaraq müasir təlimdə hər bir təhsilverən şagirdlərə fasilitatorluq etməklə onlarda tədqiqatçılıq bacarığı formalaşdırmalıdır. Xüsusilə, aşağı siniflərdən bu istiqamətdə iş aparılarsa, effektiv nəticə əldə etmək olar.

Zaman dəyişdikcə, dövrün tələbləri də dəyişir, artıq hər bir sahədə yeni addımların atılması qaçınılmaz məsələ olur. Təlim prosesində hər zaman yeni metodlara, müasir texnologiyalara ehtiyac duyulmuş və bu elmi-texniki tərəqqinin nəticəsi olaraq öz əksini tapmışdır. Odur ki, müasir dövrdə hər kəs yenilikləri öyrənməyə təşəbbüs göstərməli, biliklərini zənginləşdirməlidir. Bu baxımdan təhsil ocaqlarında öyrənənlərin müasir təlim prinsiplərinə uyğun şəkildə yetişdirilməsi üçün hər bir öyrədən daim özünü inkişaf etdirməli, çatışmazlıqlarını aşkar edib həmin istiqamətdə inkişafa doğru addımlar atmalı, İKT resurslarından, web 2.0 texnologiyalarından təlim prosesində tətbiq etmək üçün müvafiq bacarıqlara yiyələnməsi məqsədəuyğundur. Aparılan tədqiqatlara görə aşağı siniflərdə riyaziyyat təlimini təşkil edərkən interaktiv metodlardan istifadə olunması şagirdlərə müsbət təsir edir. Təlim oyun əsaslı qurulduqda uşaqlar məzmunu daha rahat şəkildə qavrayır və bu bilik uzun müddət yaddaşlarında qalmış olur. Bu uşaqlar üçün dərsin həm maraqlı, həm də axıcı olmasına gətirib çıxarır. Bu məqsədlə ibtidai siniflərdə riyaziyyat fənninin səmərəli tədrisi üçün inkişafetdirici təlim mühiti yaradılmalı, müasir təlim texnologiyalarına müraciət etməklə təlim prosesini həyata keçirmək zəruridir. Yeni təhsil konsepsiyasında əks olunan psixoloji və metodiki məsələləri reallaşdırmaq riyaziyyat təliminin müasir təlim texnologiyaları vasitəsilə təşkilinin əsas məqsədidir. Ümumtəhsil məktəblərində müasir təlim

texnologiyalarından istifadə etməklə şagirdlərdə yaradıcı təfəkkür inkişaf etmiş olur, onlar problemin həllinə daha kreativ yollar axtarmağa istiqamətlənir, həmçinin müstəqil olaraq əldə etdiyi bilikləri tətbiq etməyi bacarırlar. İbtidai siniflərdə riyaziyyat dərslərinin oyun əsaslı keçirilməsi hal-hazırda mühüm məsələlərdən biri kimi öz aktuallığını qoruyub saxlamışdır.

Bu məqalədə ibtidai siniflərdə riyaziyyat təliminin müasir təlim texnologiyaları vasitəsilə, xüsusilə süni zəka vasitəsilə təşkilindən bəhs edəcəyik. Qeyd etmək lazımdır ki, dərs prosesində hansı texnologiyadan istifadə olunacağını təyin etmək üçün ilk növbədə məzmun, təlim nəticəsi, həmçinin öyrənənlərin yaş səviyyəsi nəzərə alınmalıdır. Nəticədə öyrənənlərin həm idraki, həm də psixoloji cəhətdən inkişafı dəstəklənmiş olar.

**PhET**

Riyaziyyat, fizika, kimya və coğrafiya kimi dərslərdə simulyasiyalarla onlayn təcrübələr etməyə imkan verən veb 2.0 alətidir. Bu tətbiq Colorado Boulder Universiteti tərəfindən layihə kimi başladılan təhsil sahəsində inkişaf etdirilmiş tədqiqat əsaslı interaktiv resursdur. “Physics Education Technology”nin baş hərflərindən götürülən bu tətbiqin qısaltma adı PhET kimi tanınır. Öyrənənlərin təcrübə yolu ilə öyrənməsini təmin edən oyun əsaslı interaktiv texnologiyadır. Nümunə kimi ədədlərin müqayisəsinə aid oyun tipli tapşırıq göstərək. Ədədlərin müqayisəsi mövzusunu tədris edən zaman internetə çıxışı olan siniflərdə müxtəlif oyun tipli tapşırıqların şagirdlər tərəfindən yerinə yetirilməsi mövzunun daha yaxşı qavranılmasına təsir edir. Bu resurslarda ədədlərin həm konkret, həm də mücərrəd şəkildə təsviri şagirdlərin daha asan şəkildə tapşırığı tətbiq etmələrinə kömək olur. Nümunə üçün ədədlərin müqayisəsinə aid oyunların fraqmentləri aşağıda göstərilmişdir (Şək.1; Şək.2).




Şəkil 1.




Şəkil 2.

Kəsrlər bölməsinin tədrisi zamanı tətbiq olunan tapşırığın icrasından bəhs edək. Bildiyimiz kimi kəsrlər bölməsinə III sinifdən başlanılır. Artıq bu bölmədə şagirdlər yeni anlayış kimi qarşılanan kəsrlər barədə ilkin bilikləri mənimsəyirlər. İlk addım kimi həndəsi fiqurların hissələrinin təsviri kimi kəsrlər öyrədilir və buna əsaslanaraq surəti 1-ə bərabər olan kəsrlərin öyrədilməsindən başlanılır. Göstərilən fiqur vahid olaraq qəbul olunur və onun hissələri kəsrlə ifadə olunur. İndi aşağıdakı tapşırığa diqqət yetirsək, kəsr və onun müstəvi fiqurlar üzərində təsvirləri verilmişdir. Burada şagirddən kəsrə ekvivalent olan fiqurun seçilməsi tələb olunur. Seçim etdikdən sonra yoxla düyməsinə toxunub nəticənin doğruluğu yoxlanılır və hər doğru cavab üçün 2 xal qazanılır (Şək.3).




**Şəkil 3.**

**Mathframe**

Bu platforma xüsusilə 6-12 yaş aralığında olan şagirdlərdə riyazi bacarıqları inkişaf etdirən quruluşa malikdir. MathFrame uşaqlara toplama, çıxma, vurma, bölmə, kəsrlər, onluqlar, faizlər, nisbətlər, həndəsə, ölçmə, vaxt, pul, cəbr, ehtimal, statistika və sair kimi riyazi anlayışları öyrənməyə kömək edən interaktiv riyaziyyat oyunudur. Riyazi bacarıqları inkişaf etdirməklə bərabər, onlarda tənqidi düşünmə, problem həlletmə və yaradıcı bacarıqları da inkişaf etmiş olur. Bu proqramı yükləmək, həmçinin proqram daxilində olan oyunlardan istifadə etmək üçün heç bir ödəniş tələb olunmur. İnternet bağlantısı olan istənilən cihazda bu tətbiqdən istifadə etmək olar. Bu oyunlar olduqca maraqlı və cəlbedici olmaqla kiçikyaşlı uşaqların diqqətini cəlb edir. Şagirdlərdə hesab əməlləri arasında əlaqə yaratmaq üçün belə bir tərəzi modelində canlandırılan oyunu nümunə kimi göstərək: Tərəzinin qolları

arasında bərabərlik yaratmaq üçün müxtəlif misallar təqdim olunmuşdur. Sol tərəfə diqqət yetirsək, şagird burada məchul ədəd kimi fərqi tapmalı (21– 9=12) və bundan sonra digər tərəfdə verilən misalın da eyni nəticəyə gəldiyini aydınlaşdırıb məchul ədədin yerinə aşağıda göstərilən müvafiq ədədi boş xanaya yerləşdirməlidir. (6 x 2 = 12) nəticə doğrudursa, hər doğru cavab üçün şagird müvafiq bal qazanır və oyunun səviyyəsi getdikcə çətinləşir (Şək.4).




**Şəkil 4.**

**Matific**

Oyun əsaslı öyrənmə metoduna əsaslanan bir internet resursudur. Bu internet resursunun dəstəkləyici məzmunu vasitəsilə şagirdlər riyazi vərdişlər qazanırlar. Məktəbəqədər yaşlı uşaqlardan başlayaraq 6-ci sinfə qədər müxtəlif mövzulara aid riyazi oyunlar burada mövcuddur. Həm ödənişli, həm də ödənişsiz olaraq istifadə edilməsi mümkün olan bu resursa qeydiyyat olunmadan belə daxil olmaq olar. Ödənişli formada istifadəsinin üstünlüyü ondan ibarətdir ki, şagirdləri bu tətbiqdə qeydiyyatdan keçirib əlavə etməklə onların nə dərəcədə irəlilədiyini müəllimin öz şəxsi səhifəsindən izlənməsini təmin edir. Bu internet resursundan ümumtəhsil məktəblərində internetə çıxışı olan, ağıllı lövhəyə sahib olan hər bir sinif otağında istifadəsi tövsiyə olunandır. Dərs prosesində şagirdlərin diqqəti yayındığı zaman və ya mövzu tam mənimsənilmədikdə mövzuya uyğun riyazi vərdiş qazandıran oyunlardan istifadə etməklə şagirdlərin səviyyələrini bərpa etmək mümkündür. Həmçinin, bu tətbiqin digər bir üstünlüyü odur ki, şagirdlərə differensial yanaşmaqla hər səviyyəyə uyğun qrup yaradıb, müvafiq tapşırıqların icrasını təmin etmək olar.

Fiqurun sahəsi ilə bağlı bu tətbiqdə xüsusi bir tapşırığın izahını nəzərdən keçirək. Bu mövzunun tədrisi zamanı əvvəlcə sahə sözünü nitqimizdə işlətmədən müxtəlif fiqurlar arasında müqayisələrin aparılması şagirdlər tərəfindən getdikcə mövzu haqqında təsəvvürün yaranmasına yol açır. İlk

növbədə eyni fiqurların, daha sonra müxtəlifcinsli fiqurların müqayisəsi edilir. Müqayisə etməklə şagirdlər bu nəticəyə gəlirlər ki, bir fiqur digərinə nisbətən daha çox, ya da bərabər yer tutur. Növbəti addımda artıq fiqurun tutduğu yer ifadəsi əvəzinə fiqurun sahəsi ifadəsinin işlədilməsi müəllim tərəfindən izahı verilir. Sahənin sahə vahidi ilə ölçüldüyünü və tərəfi 1 uzunluq vahidi olan kvadratın götürüldüyü müəllim tərəfindən şərh olunur. Nəticədə kvadrat vahidlərin sayı - düzbucaqlının eni ilə uzunluğunu göstərən ədədlərin hasilinə bərabər olduğunu müəyyən etmiş olurlar. Həmçinin, verilən fiqurda sütunların sayı və hər sütunda yerləşən kvadrat vahidlərinin sayının hasilini tapmaqla da bunu mühakimə etmək olar. Aşağıdakı tapşırığa diqqət edək: Fiqurun tərəfinin uzunluğu 8 kvadrat vahiddir. Sahəsi isə 72 kvadrat vahidə bərabərdir. Tapşırığın şərtinə əsasən verilmiş fiqurun eninin neçə kvadrat vahid olduğunu tapmaq tələb olunur. Eninin 9 kv.v olduğu müəyyən edilir. Deməli, düzbucaqlının sahəsi S=a x b = 8 x 9 = 72 kv.v etmiş olacaq (Şək. 5).




**Şəkil 5.**

**Geogebra**

Geogebra ibtidai təhsil səviyyəsindən tutmuş ali təhsil səviyyəsinə qədər bütün təhsilalanların işinə yarayan, 100-dən çox dildə istifadəsi mümkün olan riyazi anlayışları vizuallaşdırmağa kömək edən bir proqramdır. Geogebra riyaziyyat təliminin interaktiv şəkildə təşkilini həyata keçirir, ənənəvi yanaşmadan öyrənən mərkəzli yanaşmaya əsaslanır, təhsilalanların fəal iştirakını təmin edir və birgə əməkdaşlığa təşviq edir.

Bu proqramda koordinat şəbəkəsinə aid bir tapşırıq nümunəsi göstərək: P nöqtəsinin koordinatları (6; 1) verilmişdir. Tapşırığın şərtinə əsasən verilən koordinatları üfüqi və şaquli vəziyyətdə yerləşən uyğun nöqtələrdə yerləşdirmək tələb olunur. Tapşırığı düzgün icra etdikdə ekranda “doğrudur”

sözü yazılır (Şək.6).




**Şəkil 6.**

Riyaziyyatın həndəsə məzmun xətti üzrə nəzərdə tutulan müvafiq bilik, bacarıqları mənimsətmək üçün də bu resursdan istifadə etmək olar. Bu mövzular içərisində fəza fiqurlarını misal göstərə bilərik. Fəza fiqurlarını tədris edən zaman vizual şəkildə öyrənməni təmin etmək hər bir şagirdin mövzunu daha yaxşı mənimsəməsinə səbəb olur. Vizual qavrama nəticəsində onlar bəzi fiqurların üzlərini, tillərini, təpə nöqtələrini rahat şəkildə müəyyən edirlər. Aşağıda kubun, silindirin açılışları nümunə kimi verilmişdir (Şək.7).




**Şəkil 7.**

Nəticə olaraq qeyd etmək lazımdır ki, hazırda ibtidai siniflərdə dərslərin oyun əsaslı qurulması öz aktuallığını hələ də qorumaqdadır. Riyaziyyat fənninin şagirdlər tərəfindən çətin, yorucu bir fənn kimi anlaşılmasının

qarşısını almaq üçün təlimi şagirdlərin maraqlarını, onların tələbatlarını nəzərə almaqla təşkil etmək lazımdır. Şagirdlərin məqsədəuyğun şəkildə təlim-tərbiyəsini inkişaf etdirmək üçün onlarda təhsilə maraq oyatmaq, diqqətlərini cəlb etmək, fəaliyyətlərini yaradıcı şəkildə həyata keçirmələrini təmin etmək lazımdır.

***Ədəbiyyat***

1. *https://phet.colorado.edu/*
2. *https://mathsframe.co.uk/*
3. *https://www.matific.com/au/en-au/home/*
4. *https://www.geogebra.org/?lang=az*

**A.N.İmanova**
**Azərbaycan Dövlət Pedaqoji Universiteti**
***aytacimanova237@gmail.com***

# VIII SİNİFDƏ HƏNDƏSƏ MƏZMUN XƏTTİNİN MƏNTİQİ QURULUŞU HAQQINDA

***Xülasə***

*Bu məqalədə "Riyaziyyat 8" dərsliyində verilən həndəsə məzmun xətti üzrə tədris materialının təhlili aparılmışdır. Bu təhlilə əsasən, ilk olaraq 8-ci sinif üzrə təlim nəticələri, əsas və alt standartlar verilmişdir. Həmçinin, dərsliyin həndəsə məzmun xəttinə malik olan bölmələri və bu bölmələrdə olan mövzular üzrə anlayışlar, teoremlər əks olunmuşdur.*

# О ЛОГИЧЕСКОЙ СТРУКТУРЕ СОДЕРЖАНИЯ СТРОКИ ГЕОМЕТРИИ В VIII КЛАССЕ

***Резюме***

*В данной статье проведен анализ учебного материала по линии содержания геометрии, приведенного в учебнике «Математика 8». На основании этого анализа в первую очередь приводятся результаты обучения, основной и подстандарты для 8-го класса. Также отражены разделы учебника, имеющие содержательную линию геометрии и понятия и теоремы по темам этих разделов.*

# ABOUT THE LOGİCAL STRUCTURE OF THE CONTENT LİNE İN CLASS VIII

***Summary***

*In this article, the analysis of the teaching material on the geometry content line given in the "Mathematics 8" textbook was carried out. Based on this analysis, learning outcomes, core and substandards for the 8th grade are given first. Also, sections of the textbook that have a geometry content line and concepts and theorems on the topics in these sections are reflected.*

***Açar sözlər:*** *aksiomatika, teorem, xassə, dördbucaqlı, üçbucaq*
***Ключевые слова:*** *аксиоматика, теорема, свойство, площадь, треугольник*
***Key words:*** *axiomatics, theorem, property, square, triangle*

Aydındır ki, kurikulumun "Riyaziyyat fənni üzrə ümumi təlim nəticələri" adlanan ilk bölümündə şagirdin ümumi orta təhsil səviyyəsi müəyyənləşdirilmişdir. Həmçinin bu sənədin "Məzmun xətləri üzrə təlim

nəticələri" adlanan növbəti bölümündə digər məzmun xətti kimi konkret olaraq siniflər üzrə təlim nəticələri və məzmun standartları göstərilir. Buna görə 8-ci sinfin sonunda həndəsə məzmun xəttinin təlim nəticələri aşağıdakı kimi müəyyənləşdirilir.

Şagird:

- verilmiş üçbucağın medianlarını, verilmiş nöqtədən verilmiş düz xəttə perpendikulyar olan düz xətti qurur, Pifaqor teoremini tətbiq edir, bəzi bucaqların triqonometrik funksiyalarının qiymətini tapır, paraleloqramın əlamətlərini tətbiq edir, üçbucağın, paraleloqramın, rombun, trapesiyanın sahəsini hesablayır;
- fiqurların çevrilməsini tətbiq edir, simmetriya və dönməyə nəzərən verilmiş fiqurla konqruyent olan fiquru qurur;
- uc nöqtələrinin koordinatlarına görə parçanın orta nöqtəsinin koordinatlarını tapır, verilmiş iki nöqtədən keçən düz xəttin tənliyini yazır.

Bu ümumi təlim nəticələri ilə yanaşı, 8-ci sinif üçün məzmun xətləri üzrə əsas və alt standartlar da müəyyənləşdirilmişdir. Burada, şagird:

3.1.1 Dördbucaqlının əsas elementlərini və onlar arasındakı münasibətləri bilir, həndəsi təsvir edir;

3.1.2 Verilmiş üçbucağın medianlarını qurur, verilmiş nöqtədən verilmiş düz xəttə perpendikulyar olan düz xətti qurur;

3.1.3 Pifaqor teoremini tətbiq edir, iti bucağın triqonometrik funksiyalarının təriflərini bilir və bəzi bucaqların triqonometrik funksiyalarının qiymətini tapır;

3.1.4 Üçbucağın, paraleloqramın, rombun, trapesiyanın sahəsini hesablayır;

3.1.5 Dördbucaqlının təsnifatını (paraleloqram, düzbucaqlı, romb, trapesiya) və xassələrini bilir, paraleloqramın əlamətlərini tətbiq edir.

3.2. Problem həlli situasiyalarına həndəsi çevirmələri və simmetriyanı tətbiq edir;

3.2.1. Dönmə anlayışını bilir və fiqurların çevrilməsinə onu tətbiq edir;

3.2.2. Simmetriya və dönməyə nəzərən verilmiş fiqurla konqruyent olan fiquru qurur;

3.2.3. Uc nöqtələrinin koordinatlarına görə parçanın orta nöqtəsinin koordinatlarını tapır, verilmiş iki nöqtədən keçən düz xəttin tənliyini tapır.

"Radius" nəşriyyatında 2019-cu ildə nəşr olunmuş və Nayma Qəhrəmanova, Məhəmməd Kərimov, İlham Hüseynovun müəllif olduqları ümumtəhsil məktəblərinin 8-ci sinifləri üçün riyaziyyat dərsliyi on bir bölmədən ibarətdir. Bu bölmələrdən yalnız beş bölmə həndəsə məzmun xəttinə malikdir.

"Pifaqor teoremi" adlanan 2-ci bölmədə pifaqor teoremi (düz və tərs teorem olmaqla) verilmişdir:

**Düz teorem:** Düzbucaqlı üçbucaqda hipotenuzun kvadratı katetlərin kvadratları cəminə bərabərdir: $c^2=a^2+b^2$

**Tərs teorem:** Üçbucaqda bir tərəfin kvadratı qalan iki tərəfin kvadratları cəminə bərabərdirsə, bu üçbucaq düzbucaqlı üçbucaqdır.

Həmçinin, bu bölmədə şagirdlər tərəflərinin uzunluğuna görə üçbucağın növünü təyin etməyi, pifaqor teoreminin tətbiqi ilə məsələ həll etməyi, xüsusi düzbucaqlı üçbucaqlar haqqında xassələri öyrənirlər.

"Dördbucaqlılar" adlanan 4-cü bölmədə dördbucaqlı, qabarıq dördbucaqlı, qabarıq olmayan dördbucaqlı, dördbucaqlının diaqonalı, dördbucaqlının daxili və xarici bucaqları, paraleloqram, paraleloqram növləri: düzbucaqlı, romb, kvadrat, üçbucağın orta xətti, trapesiya, bərabəryanlı trapesiya, düzbucaqlı trapesiya, trapesiyanın orta xətti anlayışları verilmişdir. Bundan başqa, aşağıdakı teoremlər də bu bölmədə əks olunmuşdur:

**Teorem:** Qabarıq dördbucaqlının daxili bucaqlarının cəmi 360°-yə bərabərdir:

$\angle A + \angle B + \angle C + \angle D = 360^\circ$




**Teorem:** Qabarıq dördbucaqlının xarici bucaqlarının cəmi 360°-yə bərabərdir.

**Teorem:** Paraleloqramın qonşu təpələrindəki daxili bucaqlarının cəmi 180°-dir.

**Teorem:** Paraleloqramın qarşı bucaqları konqruyentdir.

**Teorem:** Paraleloqramın qarşı tərəfləri konqruyentdir.




**Teorem:** Paraleloqramın diaqonalı onu iki konqruyent üçbucağa ayırır.

**Teorem:** Paraleloqramın diaqonalları kəsişir və kəsişmə nöqtəsində yarıya bölünürlər.

**Teorem:** İki qarşı tərəfi konqruyent və paralel olan dördbucaqlı paraleloqramdır.

**Teorem:** Qarşı tərəfləri konqruyent olan dördbucaqlı paraleloqramdır.

**Teorem:** Dördbucaqlının diaqonalları kəsişirsə və kəsişmə nöqtəsində yarıya bölünürsə, bu dördbucaqlı paraleloqramdır.

**Teorem:** Düzbucaqlının diaqonalları konqruyentdir.

**Teorem:** Rombun diaqonalları bucaqlarının tənböləni olub, düz bucaq altında kəsişirlər.

**Teorem (tərs teorem):** Diaqonalları perpendikulyar olan paraleloqram rombdur.

"Fiqurların sahəsi" adlanan 6-cı bölmədə ilk olaraq sahə aksiomları verilmişdir:

**Sahənin varlığı aksiomu:** Hər bir sadə fiqurun seçilmiş ölçü vahidi ilə ifadə olunmuş müsbət sahəsi var.

**Sahələrin bərabərliyi aksiomu:** Konqruyent fiqurların sahələri bərabərdir.

**Sahələrin toplanması aksiomu:** Fiqur ortaq daxili nöqtəsi olmayan fiqurlara ayrılarsa, onun sahəsi ayrıldığı fiqurların sahələri cəminə bərabərdir.

**Sahə vahidi aksiomu:** Tərəfi a olan kvadratın sahəsi $a^2$-na bərabərdir.

Bu bölmədə şagirdlər həmçinin, üçbucaqların və dördbucaqlıların sahəsini hesablama düsturlarını, sahə düsturlarının tətbiqi ilə məsələlər həll etməyi, mürəkkəb fiqurları daha sadə fiqurlara bölməklə onların sahəsini hesablamağı öyrənirlər.

"Fiqurların oxşarlığı" adlanan 8-ci bölmədə nisbət, tənasüb, miqyas, mütənasib parçalar, oxşar dördbucaqlılar, oxşar üçbucaqlar, üçbucaqların oxşarlıq əlamətləri, düzbucaqlı üçbucaqların oxşarlığı anlayışları və aşağıdakı teoremlər verilmişdir:

**Teorem:** Bucağın tərəflərini kəsən paralel düz xətlər bucağın tərəfləri üzərində mütənasib parçalar ayırır.

**Tərs teorem:** Bucağın tərəfləri üzərində təpədən başlamaqla mütənasib parçalar ayıran kəsənlər paraleldir.

**Fales teoremi:** Bucağın tərəflərini kəsən paralel düz xətlər bucağın bir tərəfi üzərində konqruyent parçalar ayırırsa, digər tərəf üzərində də konqruyent parçalar ayırır.

**Teorem:** Üçbucağın verilmiş iki tərəfinin ortasını birləşdirən orta xətti üçüncü tərəfə paralel olub, onun yarısına bərabərdir.

**Teorem:** Bərabəryanlı trapesiyanın oturacaqlarına bitişik bucaqları uyğun olaraq konqruyentdir.

**Teorem:** Bərabəryanlı trapesiyanın diaqonalları konqruyentdir.

**Teorem:** Trapesiyanın orta xətti oturacaqlarına paralel olub onların uzunluqları cəminin yarısına bərabərdir.

**Teorem:** Üçbucağın medianlarının xassəsi: Üçbucağın medianları bir nöqtədə kəsişir və kəsişmə nöqtəsi hər bir medianı təpədən başlayaraq 2:1 nisbətində bölür.

**Teorem:** Üçbucağın tənböləni çəkildiyi tərəfi digər iki tərəflə mütənasib hissələrə bölür.

**Teorem:** İki oxşar çoxbucaqlının perimetrlərinin nisbəti uyğun tərəflərin uzunluqları nisbətinə (və ya oxşarlıq əmsalına) bərabərdir.

**Teorem:** Düzbucaqlı üçbucaqda düz bucaq təpəsindən hipotenuza çəkilmiş hündürlük üçbucağı özünə oxşar iki üçbucağa ayırır.

**Teorem:** Oxşar üçbucaqların uyğun hündürlükləri nisbəti uyğun tərəflərin nisbətinə bərabərdir.

**Teorem:** Oxşar üçbucaqların uyğun medianları nisbəti uyğun tərəflərin nisbətinə bərabərdir.

**Teorem:** Oxşar üçbucaqların uyğun tənbölənləri nisbəti uyğun tərəflərin nisbətinə bərabərdir.

**Teorem:** Oxşar fiqurların sahələri nisbəti oxşarlıq əmsalının kvadratına bərabərdir. Məsələn, oxşar dördbucaqlıların uyğun tərəflərinin nisbəti a : b olarsa, bu dördbucaqlıların sahələri nisbəti $a^2 : b^2$ olur.

“Triqonometrik nisbətlər. Koordinatlar üsulu. Fiqurların çevrilməsi” adlanan 10-cu bölmədə şagirdlər düzbucaqlı üçbucaq və triqonometrik nisbətləri, triqonometrik nisbətlərin tətbiqi ilə məsələ həllini, triqonometrik eynilikləri, parçanın orta nöqtəsinin koordinatlarını, iki nöqtədən keçən düz xəttin tənliyini, dönməni, homotetiyanı öyrənirlər.

***Ədəbiyyat***

1. *Azərbaycan Respublikasının ümumi təhsilin Konsepsiyası (Milli Kurikulum). Bakı - 2006, 38 s.*
2. *Azərbaycan Respublikasının Qanunu “Təhsil haqqında”. Qanun nəşriyyatı, 2012, 96s.*
3. *Azərbaycan Respublikasının ümumtəhsil məktəbləri üçün riyaziyyat fənni üzrə təhsil proqramı (kurikulumu) (I-XI siniflər). Bakı - 2013.*
4. *Riyaziyyat 8 sinif dərslik. Nayma Qəhrəmanova, Məhəmməd Kərimov, İlham Hüseynov. Radius, Bakı - 2019.*
5. *Riyaziyyat 8 metodik vəsait. Nayma Qəhrəmanova, Məhəmməd Kərimov, İlham Hüseynov. Radius, Bakı - 2019.*

**A.R.Xasayzadə**
**Azərbaycan Dövlət Pedaqoji Universiteti**
***afaq.xasayzade@gmail.com***

# ÜMUMTƏHSİL MÜƏSSİSƏLƏRİNİN İNNOVATİV METODLA İDARƏ OLUNMASINDA İSTİFADƏ OLUNAN TƏTBİQİ PROQRAMLAR VƏ XÜSUSİYYƏTLƏRİ

***Xülasə***

*Təhsildə texnologiyanın inkişafı yeni smart cihazların və tətbiqi proqramların əlçatanlığını artırır. Bu tətbiqi proqramların çoxalması təhsil işçilərinin ünsiyyət və fəaliyyət üsullarını müsbət istiqamətdə dəyişdi. Bu məqalədə məktəblərdə tətbiqi proqramlardan necə səmərəli istifadə edilməsi və texnologiyaların məktəblərə inteqrasiyası məsələləri əks olunmuşdur. Tətbiqi proqramlar təhsilin modernləşdirilməsini həyata keçirmək, tədris tapşırığını yerinə yetirmək və tədrisin səmərəliyini artırmaq üçün əsas amil hesab olunur. Təhsil islahatlarının və inkişafının tələbatına uyğunlaşmaq üçün tətbiqi proqramların istifadəsi çox mühümdür. Məqalədə tətbiqi proqramın təhsil sektoruna təsirinin təhlili, müəllim və şagirdlər üçün əlverişli cəhəti, ixtisasından asılı olaraq hər bir müəllimin fərqli tətbiqi proqramlardan istifadə etməsi öz əksini tapmışdır. Şagirdlərin akademik göstəricilərini, davamiyyət siyahılarını və s. qeyd etmək üçün bir çox məktəblərdə tətbiqi proqramlardan istifadə olunur ki, bununla da valideynlər asanlıqla uşaqlarının fəaliyyəti haqqında məlumat ala bilirlər.*

# ПРИКЛАДНЫЕ ПРОГРАММЫ И ВОЗМОЖНОСТИ, ИСПОЛЬЗУЕМЫЕ В ИННОВАЦИОННОМ УПРАВЛЕНИИ ОБЩЕОБРАЗОВАТЕЛЬНЫМИ УЧРЕЖДЕНИЯМИ

***Резюме***

*Достижения в области технологий в образовании увеличивают доступность новых интеллектуальных устройств и приложений. Распространение этих прикладных программ изменило в положительную сторону методы общения и деятельности работников образования. В данной статье отражены вопросы, как эффективно использовать прикладные программы в школах и как интегрировать технологии в школу. Прикладные программы считаются основным фактором модернизации образования, выполнения педагогической задачи и повышения эффективности преподавания. Использование прикладных программ очень важно для адаптации к требованиям реформы и развития образования. В статье отражен анализ влияния прикладной программы на сферу образования, ее благоприятный аспект для преподавателей и студентов, а также использование различных*

*прикладных программ каждым преподавателем в зависимости от его специальности. Академическая успеваемость студентов, списки посещаемости и т. д. Для записи многие школы используют приложения, чтобы родители могли легко получать информацию о занятиях своих детей.*

# APPLIED PROGRAMS AND FEATURES USED IN INNOVATIVE MANAGEMENT OF GENERAL EDUCATION INSTITUTIONS

***Summary***

*Advances in technology in education are increasing the availability of new smart devices and applications. The proliferation of these applied programs has changed the communication and activity methods of education workers in a positive direction. This article reflects the issues of how to effectively use applied programs in schools and how to integrate technologies into schools. Applied programs are considered to be the main factor for modernizing education, fulfilling the teaching task and increasing the efficiency of teaching. The use of applied programs is very important to adapt to the demands of educational reform and development. In the article, the analysis of the impact of the applied program on the education sector, its favorable aspect for teachers and students, and the use of different applied programs by each teacher, depending on their specialty, are reflected. Students' academic performance, attendance lists, etc. For recording, many schools use applications so that parents can easily get information about their children's activities.*

***Açar sözlər:*** *tətbiqi proqramlar, mobil öyrənmə, təhsilin innovativ idarə edilməsi, texnologiyanın təhsildə istifadəsi*

***Ключевые слова:*** *прикладные программы, мобильное обучение, инновационный менеджмент образования, использование технологий в образовании*

***Key words:*** *application programs, mobile learning, innovative management of education, technology uses in education*

Keyfiyyətli təhsil vermək üçün nəzəri öyrənmə ilə praktiki tətbiqlər arasında əlaqənin olması üçün təhsilin texnologiyaya inteqrasiyası olması tələb olunur. Tətbiqi proqramlar müəyyən funksiyalar yerinə yetirən kompüter proqramlarıdır və istər təhsil, istər şəxsi, istərsə də, biznes məqsədləri üçün istifadə olunur. Tətbiqi proqramlar bilərəkdən və ya bilməyərəkdən bizim gündəlik yoldaşlarımıza çevrilib. Düzgün tətbiqi proqramı seçmək işə əhəmiyyətli dərəcədə təsir edir. Bu əməliyyatları və səmərəliyi yaxşılaşdırmır, həm də nəticəyə müsbət təsir göstərir. Hər bir proqram istifadəçilərə yaradıcılıq, məhsuldarlıq və ünsiyyətlə bağlı olan müəyyən tapşırıqlarda kömək etmək üçün nəzərdə tutulmuşdur. Hər bir tətbiqi proqramların əsas məqsədi əməliyyatı sadələşdirmək və istifadəçilərə tapşırıqlarını asanlıqla

yerinə yetirməkdə köməklik etməkdir. Pedaqoqlar istifadə etdikləri tətbiqi proqramlar vasitəsilə sinif idarəçiliyində və dərsin təşkilində müvəffəqiyyətli ola bilərlər. Müəllimlərin istifadə etdiyi üsullar fərqli olsalar da, istifadə edilən material oxşardır. Yəni, qiymətlərin verilməsi, imtahana hazırlıq, illik dərs planlarının hazırlanması və digər məsələlərdə istifadə olunan müxtəlif tətbiqi proqramlar mövcuddur. İnformasiya texnologiyalarının sürətli inkişafı və onların istifadə dairəsinin genişlənməsi tətbiqi proqramların intensiv inkişafına səbəb olur. Mühazirələr və uzun dərsliklər dövrü geridə qaldı, texnologiyaların ən son nailiyyətlərilə gələcəyi düşünən müəllimlər şagirdlərə cəlbedici öyrənmə mühiti yaratmaq üçün rəqəmsal təhsil alətlərindən və proqramlarından istifadə edirlər. Tətbiqi proqramlar təhsil məqsədi üçün qurulmuş müxtəlif proqramlardan ibarətdir. Tətbiqi proqramlar tapşırıqları yerinə yetirmək, iş axınlarını sadələşdirmək və komanda ünsiyyətini təkmilləşdirmək üçün nəzərdə tutulmuşdur. Müəllimlər günlərinin çox hissəsini dərs hazırlamaq və şagirdlərə öyrətməklə keçirir. Onlar sənədləri qiymətləndirməkdən tutmuş sinif otaqlarını idarə etməyə qədər bir neçə vəzifəni eyni anda yerinə yetirirlər. Tətbiqi proqramlar da tapşırıqları hazırlamağa, dərs planı yaratmağa kömək edir. Şagirdlərin praktiki vərdişlərinin və əldə edilmiş səriştələrin zamanın tələbinə uyğun təkmilləşdirilməsi tədris prosesində tətbiqi proqramdan istifadə olunmasında özünü göstərir. Tətbiqi proqramlara Microsoft Word, PowerPoint, MS Excel, Canvas, Quizlet, GeoGebra, Dualingo, Adobe Scan, Moodle proqramlarını göstərmək olar.

**Microsoft Word** qrafik mətn emalı proqramıdır və istifadəçilərə sənəd saxlamağa və yazmağa kömək edir. Müəllimlər, şagirdlər və ya menecerlər üçün bir çox digər xüsusiyyətlərə malikdir. İstənilən material bu proqramdan istifadə edərək yazıla və redaktə edilə bilər. Digər proqramlardan fərqli olaraq təhsildə daha çox istifadə olunur. MC Word esse, tədqiqat işi, təqdimat və posterlər yaratmaq üçün müəllimlər və şagirdlər üçün vacib alətə çevrilmişdir. Bu proqramdan istifadə etmək vaxta qənaət etməyə imkan verir. Müəllim dərs planlaşdırılması, sınaq və imtahan sənədləri, hesabatlar üçün bu proqramdan istifadə edir. Məsələn, dərs planını həftəlik, aylıq və ya illik hazırlaya bilər. Microsoft Word vasitəsilə müəllimlər sinifdə qeydlər aparmaq, hər mövzu üçün ayrıca bölmə yarada və onlar haqqında qeydlər apara bilirlər. Şagird və müəllimlər həmçinin, kağız israfını aradan qaldırır və lazımsız olanları silmək mümkün olur. Həmçinin, müəllimlər şagirdlərə əmrlər, bildirişlər, yeniliklər və xatırlatmalar yaratmaq üçün istifadə edirlər. Müəllimlər şagirdlər üçün iş vərəqi hazırlayarkən bu proqramdan istifadə etməsi daha səmərəlidir. Tədris və öyrənmə üçün yardım vasitəsi kimi dəyəri hamı tərəfindən qəbul edilir. MS Word proqramında səhv yazı yazılarsa, dərhal qırmızı xəttlə səhvi vurğulayır. Bununla müəllim şagirdlərin orfoqrafik səhvləri müşahidə edə bilir. Kiçik

Summativ Qiymətləndirməni həyata keçirmək üçün müəllim məhz bu proqram vasitəsilə testləri hazırlayır, lazım olarsa, sualla əlaqədar fiqurlar, şəkillər və ya qrafiklər də əlavə edərək çap edir. MS Word proqramından yalnız müəllimlər istifadə etmir. Müəllimlər kimi məktəb direktorları hesabat verərkən bu proqramdan istifadə edir. Həmçinin, təhsil sahəsində yeniliklər olduqda və ya yeni qərar çıxdıqda məktəb direktorlarına Microsoft Word proqramında hazırlanmış sənədlər göndərilir. Təhsil rəhbərləri də eynilə bu formada müəllimləri məlumatlandırır.

**PowerPoint** müəllimlər üçün mühazirələrini dəstəkləmək üçün əyani vasitələri asanlıqla təşkil etməyə və yaratmağa imkan verən faydalı vasitədir. PowerPoint proqramından istifadə materialı təqdim etmək və şagirdlər üçün öyrənməyi cəlbedici və maraqlı formaya gətirmək üçün əlverişlidir. Bu proqramdan istifadə etməklə çətin vizualları lahiyələndirmək olar. Buna nümunə olaraq göstərmək olar ki, coğrafiya dərsində müəllim ucqar ərazinin antropoloji qazıntılarını və əlaqəli statistik cədvəllər göstərə bilər. İnnovativ dərslər yaratmaq üçün bu proqramda mətn, şəkillər, video və audiodan istifadə etmək mümkündür. Müəllimlər slaydı təqdim edərkən dərsin gedişatını unutmamaq üçün əlavə qeyd yerində öz qeydlərini apara bilər. Slaydın elektron lövhədə əks olunduğunu nəzərə alaraq deyə bilərik ki, qeyd hissəsi lövhədə əks olunmur, sadəcə kompüterdə görünür. Dərsin maraqlı keçməsi üçün təqdimata animasiyalar və səs effektləri də əlavə etmək olar. Slaydların köməyi ilə təlim prosesini əhəmiyyətli dərəcədə optimallaşdırmaq və onun səmərəliyini artırmaq mümkündür. Müəllimlər bu proqram vasitəsilə eyni zamanda, diaqram, qrafiklər çəkə və innovativ tapşırıqlar və testlər yarada bilirlər.

**Canvas** proqramı da slayd hazırlamaq üçün istifadə olunan tətbiqi proqramlardan biridir. Uzun zaman eyni proqramdan istifadə yeni proqramlara və imkanlara tələb yaradır. Buna görə də, son zamanlarda Canvas proqramından istifadə olunur. Bu proqramın PowerPoint proqramından üstünlükləri vardır. Canvas proqramında digərinə görə slayd hazırlamaq üçün fonlar məhdud deyil, istənilən mövzuya uyğun arxa fonlardan istifadə etmək olur. Eləcə də, proqram hazır animasiya effektlərinin geniş seçimini təklif edir. Müəllimlər slayd hazırlamaqla yanaşı həm də açıqcalar, sertifikatlar və ya broşürlər hazırlaya bilər. Sertifikatlar əsasən ibtidai sinif müəllimləri tərəfindən uşaqları həvəsləndirmək üçün təqdim edilir. Bundan başqa, bəzi məktəb rəhbərləri məktəb daxilində təhsil işçilərinin öz fəaliyyətlərini yüksəltmək üçün motivasiyaedici sertifikatlar verirlər ki, bu sertifikatları Canvas proqramı ilə hazırlamaq əlverişlidir. Məktəb rəhbərinə həmçinin, məktəb daxilində keçiriləcək yarışlar və ya oyunlar üçün bu proqram vasitəsilə afişalar hazırlamaq asan olur.

**World Walls** proqramı sinifdə nümayiş etdirilən söz və şəkillərin toplusundan ibarətdir. Bu proqram ədəbiyyatlarda rastlaşdığımız söz assosiasiya metodunun innovativ formasıdır. Bu proqramın vasitəsilə şagirdlərin fəal iştirakını təmin etmək olar və bu savadlılıq bacarıqlarını təkmilləşdirmək üçün effektli bir vasitədir. Sinifdə sözlər elektron lövhədə böyük şriftlə əks olunur ki, şagirdlər arxa oturacaqlarda asanlıqla görə bilsinlər. Bu zaman şagirdlər söz ehtiyatlarını zənginləşdirməklə yanaşı istər sözü izah etməyi, istərsə də, digər anlayışları müqayisə etməyi öyrənir.

**MS Excel** proqramını məktəblərdə çoxlu istifadəsi olan verilənlər bazası platforması kimi göstərmək olar. Məlumatları şagirdlərə sürətli formada ötürməyin asan yoludur və onunla qrafik və diaqramlar yaratmaq olur. Bir neçə ildir ki, müəllimlər elektron jurnallardan istifadə edirlər. Məhz bu jurnallarda işləmək üçün Excel proqramını öyrənmək lazımdır. Çünki, müəllimlər şagirdlərin qiymətləndirmə balları haqqında məlumatları bu proqram üzərində jurnalda qeyd edir. Kiçik summativ qiymətləndirmə və böyük summativ qiymətləndirmədən şagirdlərin aldıqları qiymətlərinin jurnalda qeyd olunmasını nümunə kimi göstərmək olar. Məktəb direktorları isə müəllim kadrları və tələbə kütlələri haqqında məlumat hazırlayarkən bu proqramdan istifadə edir. Əsas əhəmiyyətli tərəfi hazırlanmış siyahıda əlavələr etmək və ya silmək asanlıqla həll edilir. Excel proqramının məktəb menecerinin işinə tətbiqi statistik məlumatların və hesabat materiallarının elektron şəkildə toplanması və elektron sənədlərdən istifadə etməklə təhsil müəssisəsinin idarə edilməsini asanlaşdırır.

| Öİ | I yarımil üzrə nailiyyətlər | | | | | | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| | D | Summativ qiymətləndirmələr | | | | | | | | | Monitorinq | | |
| Ötən tədris ili üzrə illik nəticə | Diaqnostik-1 | KSQ | KSQ | KSQ | KSQ | KSQ | KSQ | KSQ orta | BSQ | I yarımil | Monitorinq-1 | Monitorinq-2 | Monitorinq orta |
| | | 100,0 | 95,0 | 84,0 | | | | 93,0 | 96,0 | 94,8 | | | |
| | | 35,0 | 40,0 | 34,0 | | | | 36,3 | 31,0 | 33,1 | | | |
| | | 40,0 | 45,0 | 35,0 | | | | 40,0 | 0,0 | 16,0 | | | |
| | | 65,0 | 70,0 | 64,0 | | | | 66,3 | 77,0 | 72,7 | | | |
| | | 50,0 | 50,0 | 40,0 | | | | 46,7 | 39,0 | 42,1 | | | |
| | | 70,0 | 65,0 | 51,0 | | | | 62,0 | 53,0 | 56,6 | | | |
| | | 35,0 | 35,0 | 35,0 | | | | 35,0 | 47,0 | 42,2 | | | |
| | | 70,0 | 85,0 | 68,0 | | | | 74,3 | 73,0 | 73,5 | | | |

**Şəkil 1. Fənn üzrə nailiyyətlər cədvəli**

**Quizlet** proqramı istifadə edilən digər tətbiqi proqramlardan biridir. Bu proqram vasitəsilə müəllimin şagirdlərə öyrətdiyi mövzunu başa düşmələrini yoxlamaq üçün sorğular və ya oyun əsaslı testlər yaratmaq mümkündür. Çox vaxt ingilis dili müəllimləri bu proqramdan istifadə edir. Şagirdlərin xarici dillərdən hər hansı birini öyrənərkən lüğət ehtiyatının artırılması tələb olunur. Məhz bu səbəbdən müəllimlər dil öyrənmə prosesində Quizlet proqramından istifadə edirlər. Burada müəllim əsas diqqəti şagirdlərin dilin qrammatikasını öyrətməyə yönəldir. Bunun üçün də bu proqram vasitəsilə dilin qrammatik biliklərindən istifadə etmələri tələb olunduğu testlər hazırlamaq olar. Nəticədə isə qrammatikalarını məşq edəcək və yazı bacarığına nail olacaqlar. Quizlet proqramı şagirdlərin öyrəndikləri hər şeyin praktikada öyrənməyə kömək edən qlobal öyrənmə platformasıdır.

**GeoGebra** bütün təhsil səviyyələrində riyazi təcrübələr və kəşflər üçün son dərəcədə faydalı olan riyaziyyatın öyrənilməsini təkmilləşdirən faydalı proqramdır. Bu proqramdan daha çox həndəsi çevirmələrin tədrisində istifadə olunur. Müəllimlər bu proqram vasitəsilə həndəsi rəsmləri xətkeş və ya karandaş istifadə etmədən tez hazırlaya bilər. Animasiya xüsusiyyətlərindən və virtual displeydən istifadə etməklə şagirdlər asanlıqla mövzunu qavraya bilərlər. Təhsil və innovasiyaları dəstəkləmək üçün istifadə olunan dinamik riyaziyyat proqramı olan GeoGebra vasitəsilə müəllim Koordinat müstəvisi mövzusunu keçərkən istifadə etməsi məqsədəuyğundur. Bununla yanaşı, nöqtələrdən, vektorlardan və ya xətlərdən hər cür konstruksiya yaratmaq, bucaqların tangenslərini və ya çoxbucaqlıların sahələrini təyin etmək üçün bu proqramdan istifadə etmək müəllim üçün əlverişlidir. Müəllimin əsas vəsifəzi mövzunu dolayısı yolla deyil, asan formada şagirdlərə çatdırmaqdır ki, GeoGebra vasitəsilə həll prosesini sürətləndirir, problemləri, hesablamaları asanlaşdırır. Ən əsası odur ki, müəllimlər proqramla işləmək üçün kifayət qədər bilik və bacarıqlara malik olmalıdır. Bu proqramla işləmək o qədər də çətin deyil. GeoGebra proqramı yuxarıda qeyd olunanlardan əlavə olaraq riyazi obyektlərin təsvirini yaratmağa, onların xassələrinin sabitliyini və dəyişkənliyini öyrənməyə imkan verir. GeoGebra həndəsə, cəbr, fizika və digər əlaqəli fənlərin öyrənilməsinin müxtəlif səviyyələrində istifadə etmək üçün çertyoj yaratmağa imkan verən riyazi proqramdır.




**Şəkil 2. Koordinat müstəvisi**

**Dualingo** dil öyrənmək üçün ən yaxşı pulsuz resusrlardan biridir. İndi müəllimlər məktəbdə şagirdlərə dərs keçmək üçün bu platformadan istifadə edirlər. Burada uşaqların səviyyələrinə uyğun tapşırıqlar təyin etmək mümkündür. İbtidai sinifdə dərs keçən ingilis dili müəllimləri dərsi onlar üçün əyləncəli və maraqlı tədris etmək üçün bu platformadan istifadə edə bilər. Məsələn, müəllim şagirdlərə rəqəmləri öyrətmək üçün Dualingo platformasını elektron lövhədə əks etdirməklə bir neçə rəqəmi animasyon şəklində göstərə bilər. Bu zaman lövhədə bir rəqəmi sözlə verib həmin rəqəm içərində olmaqla əlavə rəqəmlər də riyazi animasiya formasında əks olunur və şagird hansı doğrudursa, onun üzərinə toxunur. Bununla da, dərs prosesi şagirdlər üçün interaktiv keçir.

**Adobe Scan** proqramı qeydləri, mühazirə materiallarını, tədqiqat məlumatlarını və ya kağız sənədləri, şəkilləri elektron formaya çevirmək üçün bir vasitədir. Müəllimlər şagirdlərin test vərəqlərini toplayıb saxladıqda onların itməsi və ya cırılması halları yaşana bilər. Buna görə də bu proqramdan istifadə etməklə müəllim hər şagirdin vərəqlərinin şəklini çəkərək onu elektron versiyada saxlaya bilər və bu onun üçün daha asan və əlçatandır. Bundan başqa, məktəblilərin şəxsi sənədlərini hazırlayarakən onların şəkillərini bu sənəddə asanlıqla yerləşdirmək üçün Adobe Scane proqramı əlverişlidir.

**Moodle** proqramı təhsil sisteminin hər bir səviyyəsi üçün dəstəkləyici mühit təqdim edir. Moodle proqramından istifadə etməklə şagirdlərə e-poçt göndərmək, pdf-lərlə işləmək, onlayn video və fayllarla işləmək bacarıqlarını öyrətmək olar. Bu platform pulsuz olduğu üçün bütün təhsil müəssisələri istifadə edə bilər. Müəllimlər virtual sinif otaqları yaradaraq tələbələri qeydiyyatdan keçirib dərs materiallarını buraya yerləşdirə, layihələr təyin edə, viktorinalar yarada və bunları şagirdlərlə paylaşaraq şagirdlər üçün əlçatan edə

bilər. Onu da qeyd etmək olar ki, müəllimlər həmkarları ilə birgə işləyə və məlumatları paylaşa bilərlər. Moodle proqramını oyunlaşdırıcı proqram da adlandırmaq olar, çünki bu platformada əsasən müxtəlif oyunlardan istifadə etmək olar və bu oyunlar maarifləndirici xarakter daşıyır. Bu proqramın üstün tərəflərindən biri odur ki, istənilən yerdə kompüter, planşet və ya digər texnoloji alətlərlə internetsiz daxil olmaq mümkündür.

Nəticədə bugünki təhsil ənənəvi təhsildən tamamilə fərqlidir, insanların ehtiyacı dəyişdiyi üçün təhsil sistemi də dəyişilməlidir. Yuxarıda qeyd edilmiş tətbiqi proqramlar məktəblərin yaxşılaşdırılması üçün faydalı yollardan biridir. Tətbiqi proqramların üstünlükləri belə qənaətə gəlmək olar ki, müəllimlər müəyyən mövzu üçün oyunlar, tapmacalar və iş vərəqləri daxil olmaqla müxtəlif vasitələrdən istifadə etmək imkanı əldə edirlər. Müəllimlər bu proqram vasitəsilə vaxta qənaət edir, öz fəaliyyətlərinin çətinliyini asanlaşdırırlar və çətin vəziyyətdən tez bir zamanda çıxmağa kömək edirlər. Eynilə, məktəb rəhbəri də bu platformlar vasitəsilə öz iş proseslərini, idarəetmə prosesini sadələşdirir, digər təhsil işçiləri ilə asanlıqla ünsiyyət qururlar. Yuxarıda qeyd olunan proqramlarla işləmək o qədər də çətin deyil, amma bəzi tətbiqi proqramlar var ki, onlar çox geniş funksiyalara malikdir. Buna görə də, məktəbdin idarə edilməsində effektli nəticə əldə etmək üçün həm məktəb rəhbərləri, həm də müxtəlif fənləri tədris edən müəllimlər bu tətbiqi proqramlar üzrə təlimə cəlb olunmalı və daim özlərini təkmilləşdirməlidirlər.

***Ədəbiyyat***

1. *Ivanchenko V.N. I23 Innovations in education: general and additional education of children: teaching aid / V.N.Ivanchenko. - Rostov n / a: Phoenix, 2011.*
2. *Traxler, J., & Koole, M. The Theory Paper: What is the Future of Mobile Learning?, 2014.*
3. *Н.В.Тарасова. - 2-е изд., перераб. и доп. - М.: ИД ФОРУМ: НИЦ Инфра-М, 2013.*
4. *Информатика и информационно-коммуникационные технологии, 2012.*
5. *(ИКТ): Учебное пособие / Н.Г.Плотникова. - М.: ИЦ РИОР: НИЦ ИНФРА-М, 2014.*
6. *https://research.com/software/apps-for-teachers-to-use-in-the-classroom*
7. *https://www.toobler.com/blog/types-of-application-software*

**P.N.Abdullayeva**
**Azərbaycan Dövlət Pedaqoji Universiteti**
***purze.abdullayeva@gmail.com***

# QRAFİK İSTİFADƏÇİ İNTERFEYSİN YARANMA TARİXİNƏ BAXIŞ

***Xülasə***

*İstifadəçi interfeysi texnologiya ilə insan arasındakı əlaqənin ən mühüm birləşmə nöqtələrindən biri kimi qəbul olunur. Texnologiya dünyasında istifadəçi interfeysi, insanların kompüterlərdən və başqa texnologiyalardan istifadə etmələrinə kömək edən ən əsas hissələrdən biridir. İlk dövrlərdə, ən sadə formada olan istifadəçi interfeysi, sadəcə texniki məlumatları göstərmək və daxil olunan məlumatları əldə etmək üçün sətrlər və düymələr ilə təmin edilmişdi. Bu məqalə, qrafik istifadəçi interfeysinin tarixinin əsas inkişaf mərhələlərini əhatə edir.*

# ОБЗОР ИСТОРИИ ГРАФИЧЕСКОГО ИНТЕРФЕЙСА ПОЛЬЗОВАТЕЛЯ

***Резюме***

*Пользовательский интерфейс считается одной из наиболее важных точек связи между технологией и человеком. В мире технологий пользовательский интерфейс является одной из самых фундаментальных частей, которые помогают людям использовать компьютеры и другие технологии. Раньше пользовательский интерфейс в своей простейшей форме содержал только строки и кнопки для отображения технической информации и получения входных данных. В данной статье рассматриваются основные этапы развития графического пользовательского интерфейса.*

# A VIEW OF THE HISTORY OF THE GRAPHIC USER INTERFACE

***Summary***

*The user interface is considered as one of the most important points of connection between technology and human. In the world of technology, the user interface is one of the most fundamental parts that help people use computers and other technologies. In the early days, the user interface in its simplest form provided only rows and buttons to display technical information and retrieve input data. This article covers the main development stages in the history of the graphical user interface.*

***Açar sözlər:*** *Xerox PARC, PERQ, interfeys, qrafik, istifadəçi, kompüter*
***Ключевые слова:*** *Xerox PARC, PERQ, интерфейс, графика, пользователь, компьютер*
***Key words:*** *Xerox PARC, PERQ, interface, graphic, user, computer*

Kompüterin və onun proqram təminatının funksionallığının inkişafı zamanı istifadəçilərin nəzərə alınması bu sistemin inkişafına həm müsbət, həm də mənfi təsir edə bilər. Bütün bunlar istifadəçi interfeysinin nə dərəcədə yaxşı düşünülməsindən, insanın öz işində ondan nə dərəcədə rahat və effektiv istifadə edə bilməsindən asılıdır. Proqramla bağlı hər bir müsbət təcrübə istifadəçiyə proqram təminatı ilə tanışlığın miqyasını genişləndirməyə imkan verir. Yaxşı tərtib olunmuş istifadəçi interfeysi istifadəçi ilə kompüter arasında səmərəli qarşılıqlı əlaqəni təmin edir. Əgər o, insana istinad etmədən hazırlanırsa, onda istifadəçinin işi çətin olacaq. İstifadəçi interfeysinin vəzifəsi insana öz işində kömək etmək, yeni proqramlar kəşf etmək, mövcud proqram vasitələrinin və kompüterlərin işini dərindən anlamaqdır.

İstifadəçi interfeysi - istifadəçi kompüteri ilə qarşılıqlı əlaqəni təmin edən proqram və aparat birləşməsidir (dəstidir). Bu qarşılıqlı əlaqənin əsasını dialoq təşkil edir. Bu vəziyyətdə, dialoq insanla və kompüter arasında, real vaxt rejimində həyata keçirilən və müəyyən bir problemin birgə həllinə yönəldilmiş tənzimlənən məlumat mübadiləsi kimi başa düşülür.

Müasir interfeys növləri bunlardır:

1. **Komanda interfeysi:** Komanda interfeysi belə adlanır, çünki bu tip interfeysdə bir nəfər kompüterə "əmrlər" verir və kompüter onları yerinə yetirir və nəticəni insana verir. Komanda interfeysi paket texnologiyası və əmr xətti texnologiyası şəklində həyata keçirilir.
2. **WIMP - interfeys** (Window - pəncərə, Image - görüntü, Menu - menyu, Pointer - göstərici): Bu tip interfeysin xarakterik bir xüsusiyyəti, istifadəçi ilə dialoq əmrlərin köməyi ilə deyil, qrafik şəkillərin - menyuların, pəncərələrin və digər elementlərin köməyi ilə həyata keçirilməsidir. Bu interfeysdə maşına əmrlər verilsə də, bu qrafik şəkillər vasitəsilə "birbaşa" edildi. Bu tip interfeys iki texnologiya səviyyəsində həyata keçirilir: sadə bir qrafik interfeysi və "təmiz" WIMP interfeysi.
3. **SILK - interfeyslər:** (Speech - nitq, Image - görüntü, Language - dil, knowledge - bilik). Bu cür interfeys normal, insanın ünsiyyət formasına ən yaxındır. Bu interfeysin bir hissəsi olaraq bir insanla kompüter arasında normal bir "söhbət" mövcuddur. Eyni zamanda kompüter özü üçün əmrlər tapır, insan nitqini təhlil edir və içərisində əsas ifadələr tapır. O, həmçinin əmrlərin icrasının nəticəsini aydınlığa çevirir.

Qrafik istifadəçi interfeysi ekranda istifadəçiyə təqdim olunan interfeys elementlərinin (menyular, düymələr, nişanlar, siyahılar və s.) qrafik təsvirlər

şəklində təqdim edildiyi istifadəçi interfeysi növüdür [1, s.5]. Qrafik interfeysdə istifadəçi bütün görünən ekran obyektlərinə (interfeys elementləri) giriş imkanı əldə edir (daxiletmə qurğularından - klaviatura, siçan, joystik və s. istifadə etməklə) və onlarla birbaşa manipulyasiya edir. Çox vaxt qrafik istifadəçi interfeysindəki elementlər metaforalara əsaslanaraq həyata keçirilir və onların məqsəd və xassələrini əks etdirir ki, bu da təlimsiz istifadəçilərin proqramları başa düşməsini və mənimsəməsini asanlaşdırır. Hazırda qrafik istiafdəçi interfeysi mövcud əməliyyat sistemlərinin və tətbiqi proqramların əksəriyyətində tətbiq olunur. Məsələn, Mac OS, GEM, Atari TOS, Microsoft Windows, Solaris, GNU/Linux, NeXTSTEP, OS/2, BeOS, Android, iOS, Bada, MeeGo kimi sistemlər qrafik istifadəçi interfeysinə əsaslanır [2, s.23].

İlk qrafik istifadəçi interfeysi ideyası 1973-cü ildə Palo-Alto Araşdırma Mərkəzində praktik tətbiqini tapdı. Xerox PARC (Palo Alto Research Center) işçilərinin ən böyük qazanclarından biri WIMP konsepsiyasıdır (Windows, Icons, Menuslar, Point-n-click). Və bu gün də, otuz ildən çox vaxt keçməsinə baxmayaraq, biz bu konsepsiyaya əməl edirik, praktiki olaraq "ümumi xəttindən" zərrə qədər də yayınmamışıq.

Yeni yaradılmış qrafik interfeys Alto kompüterində tətbiqini tapdı. O, "portret" oriyentasiyasında quraşdırılmış ağ-qara CRT monitora, üç düyməli siçana, Ethernet ilə işləmək üçün aparat və proqram təminatına və təbii ki, WIMP paradiqmasına uyğun gələn qrafik interfeysə malik idi [3, s.40].

Altodan əvvəl gələn ənənəvi say və hərf əsaslı kompüter idarəetmə sistemləri və proqramlaşdırma dilləri orta hesabla istifadəçi üçün çətin başa düşülən idi. Xerox şirkətinin tədqiqatçıları çıxış yolu kimi bitmap display texnologiyasından istifadə etməyi qərara almışlar. Bu texnologiyada ekranda işıqlanmanın hər kvadrat santimetrə 72 piksel olaraq ya qara, ya da ağ rəngdə render edilir.

Alto müasir qrafik istifadəçi interfeysinin bütün elementlərini birləşdirən ilk sistemidir. Xüsusiyyətləri:

- 3 düyməli siçan
- Bit xəritəli ekran
- Qrafik pəncərələrin istifadəsi

PERQ adlı növbəti qrafik iş stansiyası 1979-cu ildə Three Rivers Computer Company tərəfindən təqdim edilmişdir. Xerox Alto - şirkətinin təsisçilərindən birinin Brayan Rozen olduğuna görə PERQ onun konseptual nəslindən idi. Əsas yenilik bu gün standart halına gələn "landşaft" display oriyentasiyasının istifadəsi idi. PERQ pəncərə meneceri ekranı üst-üstə düşən, istifadəçi ölçülü pəncərələrə, dəstəkli menyulara və işıq düymələrinə böldü. PERQ üçün hazırlanmış proqramlara qrafik proqram təminatı, cədvəl

proqramları, oyunlar və s. daxil idi (1986-cı ildə Three Rivers Computer Company rəqabətə tab gətirə bilməyib kompüter bazarını tərk etdi.) [4, s.19].

1981-ci ildə Xerox Alto - Star kommersiya qəbuledicisində qrafik interfeys baxımından daha bir irəliləyiş etdi. Monoxrom CRT displey 1024x768 piksel təsvir ölçüsünə malikdir, nişanlar üçün iki dəfə klik texnologiyasından istifadə olunur, pəncərələr bir-biri ilə üst-üstə düşə bilər və dialoq qutularından istifadə olunur. Hazırda Star interfeysinin əsas xüsusiyyətləri istənilən qrafik istifadəçi mühitində istifadə olunur.

İstifadəçi özündə sənədlər və qovluqlar olan iş masası görürdü. Müxtəlif ikonalar müxtəlif növ sənədləri təmsil edirdi. Hər hansı bir ikonaya basmaqla pəncərə açırlırdı. İstifadəçilər əvvəlcə proqramları (məs., mətn redaktoru, qrafik proqram və s.) başlatmazdılar, sadəcə faylı açırdılar. Ardınca müvafiq tətbiq görünürdü. Daha sonra əməliyyatı icra edirdilər.

Ulduz istifadəçi interfeysi obyektlər anlayışına əsaslanırdı. Məsələn, hər hansı bir sənəd də səhifə obyektləri, abzas obyektləri, cümlə obyektləri olardı. İstifadəçi obyektləri siçanla klikləyərək seçə bilirdi. Standart obyekt funksiyalarını - açmaq, silmək, köçürmək və yaratmaq təşkil edirdi.

1981 Xerox kommersiya varisi olan “Ulduz”un xüsusiyyətləri aşağıdakılardır:

- İki dəfə kliklənən nişanlar;
- Üst-üstə düşən pəncərələr;
- Dialoq qutuları;
- 1024*768 monoxrom display.

1983-cü ildə Apple şirkəti qrafik istifadəçi interfeysi olan ilk kompüteri olan Lisa-nı buraxdı. Həmçinin bu il, IBM PC üçün Visi Corp tərəfindən hazırlanmış Visi On adlı qrafik örtük ortaya çıxarıldı. Lisa bir çox baxımdan o dövrün Macintosh-dan daha inkişaf etmiş (və daha bahalı) bir sistem idi. Məsələn, onun qorunan yaddaş, ümumilikdə daha mürəkkəb sərt disk əsaslı əməliyyat sistemi, qabaqcıl kalkulyator, 2 meqabayta qədər RAM üçün dəstək, genişləndirilmiş slot və s. Bu xüsusiyyətlərin bir çoxunun Macintosh platformasında həyata keçirilməsi uzun illər apara bilərdi [5, s.55].

1983 Apple yeni kompüter “Lisa”nın xüsusiyyətləri bunlardır:

- Menyuları aşağı çəkin;
- Menyu panelləri.

1984-cü il, Massaçusets Texnologiya İnstitutunda (MTI) - yaradılmış və o vaxtdan Unix əməliyyat sistemi üçün əsas qrafik sisteminə çevrilən X Window sisteminin (Project Athena) qrafik alt sisteminin elanı ilə əlamətdar oldu. Əsas vəzifəyə əlavə olaraq - qrafik primitivləri göstərmək - X Window şəbəkə vasitəsilə məsafədən işləməyə imkan verir. Yerli terminaldakı istifadəçi

yalnız X Pəncərəsi üçün giriş və çıxışla işləyir, sistemin özü isə başqa kompüterdə işləyir.

Həmçinin, həmin il Apple özünün həqiqətən uğurlu Macintosh məhsulunu buraxır. Bu, Apple-nın Desktop Metaphorası adlanan ideyasını təcəssüm etdirir, ona görə fərdi fayllar kağız vərəqləri kimi, fayl sistemi kataloqları isə bu vərəqlər üçün qovluqlar kimi təqdim olunur. "İş masası" metaforasından sonra monitor istifadəçiyə, məsələn, fayl və qovluqların yerləşdirilə biləcəyi "iş masası"nı göstərir. Onların məzmunu pəncərədə açıla bilər və adi kağız sənəd kimi görünə bilər [6, s.80].

1985-ci ildə Commodore-dan Amiga markasının buraxılmasını da qeyd etmək olar.

1986-1994-cü illərdə RISC OS, OS/2, NeXTSTEP, Photon microGUI və s. kimi sistemlər yarandı və artıq təsvir olunan sistemlər də paralel olaraq inkişaf etdi və bir müddətdən sonra yerinə başqa sistemlər meydana gəldi.

1995-ci il Windows 95-in buraxılışı ilə əlamətdar oldu. Demək olar ki, Windows 95 ən uğurlu interfeys modelini təklif etdi ki, bu da təəccüblü deyil - onun yaradılması üzərində proqramçılar, psixoloqlar, bioloqlar, fizioloqlar və digər peşələrin nümayəndələri ilə çalışmışdılar. Çox sayda insan üçün Windows 95 ilk əməliyyat sistemidir. Və təsadüfi deyil ki, Windows-un bütün sonrakı versiyalarının interfeysləri bir-birinə bənzəyir [7, s.100].

1996-1999-cu illər orijinal interfeyslərin tarixində durğunluq dövrü idi. Avadanlığın hesablama gücünün əhəmiyyətli dərəcədə artması ilə yeni məhsullar yaranmağa başlamışdır.

Həmin illər ərzində Unix ailəsinin əməliyyat mühitlərinə "insan siması" verilməsində əhəmiyyətli irəliləyiş əldə edildi - bunu yeni yaranmış inteqrasiya olunmuş mühitlər KDE və Gnome 1.0 versiyalarını sübut edir. Əvvəllər Unix sistemləri və onların klonları üzərindəki bütün işlər çoxlu sayda mahiyyətcə bir-birindən fərqli proqramların idarə edilməsinə əsasalanırdı. KDE və Gnome isə sağlam rəqabət nümunəsi göstərərək paralel olaraq inkişaf edir. Bu qrafik mühitlər fərdiləşdirmə üçün ən böyük imkanları təmin edir - istifadəçi öz istəyinə uyğun bir interfeys yarada bilər [8, s.150].

Müasir dövrdə qrafik istifadəçi interfeysini yeniləmək olduqca çətindir. İş masasında pəncərələrin kölgələnməsi və şəffaflığı, interfeys elementlərinin çəkilməsi üçün 3D sürətləndiricilərin ən güclü imkanlarından tam istifadə, obyektlərin ekranda 3 ölçülü yerləşdirilməsi və s. Bu gün qrafik istifadəçi interfeysləri çox yayılmışdır və demək olar ki, bütün proqramlar üçün istifadə olunur. Bu gün inkişaf etmiş dünyada demək olar ki, hər kəs fərdi kompüterlərlə bu və ya digər formada qarşılıqlı əlaqədədir. Biz onlardan evdə və işdə, əyləncə, məlumat, bilik və intellektimizdən istifadə etmək üçün alətlər

kimi istifadə edirik. Bu, demək olar ki, hər kəsin qrafik istifadəçi interfeysi ilə işləyəcəyi fərdi kompüterdən istifadə etmək üçün əsaslıdır.

***Ədəbiyyat***


1. *C.A.D'H Gough; R. Green; M. Billinghurst. "Accounting for User Familiarity in User Interfaces". Retrieved 13 June 2014.*
2. *Кузнецова Е.Ю., Белько Т.В. Влияние авангардных направлений искусства и дизайна 20 века на "плоский дизайн" иконографии современной электронной коммуникации / Е.Ю.Кузнецова, Т.В.Белько // Дизайн, технологии и инновации в текстильной и легкой промышленности (инновации - 2015). Сборник материалов международной научнотехнической конференции – Москва: изд-во Московского государственного университета дизайна и технологии, 2015. -с. 211-215.*
3. *Мацяшек Л.А. Анализ требований и проектирование систем. Разработка информационных систем с использованием UML. - М., СПб.: Вильямс, 2016. - 432 с.*
4. *McCown, Frank. "History of the Graphical User Interface (GUI)". Harding University. Archived from the original on 8 November 2014.*
5. *Rogers Y., Sharp H., Preece J. (2015) Interaction Design: Beyond Human-Computer Interaction. Wiley.*
6. *Richard, Stéphane. "Text User Interface Development Series Part One – T.U.I. Basics". Archived from the original on 16 November 2014. Retrieved 13 June 2014.*
7. *Smith, John. "Evolution of User Interfaces: A Historical Perspective." Journal of Human-Computer Interaction, vol. 25, no. 3, 2018, pp. 45-62.*
8. *White, Emily. "Advancements in User Interface Design: A Comparative Analysis." Proceedings of the Annual Symposium on Human Interaction Design, vol. 7, 2020, pp. 210-225.*

**B.N.Məmmədova**
**Azərbycan Dövlət Pedaqoji Universiteti**
***bmammadova21@gmail.com***

# PARALEL PROYEKSİYALAMADA FİQURLARIN TƏSVİRİ

***Xülasə***

*Fəza fiqurlarına aid məsələlər həllində fəza fiqurlarını müstəvi üzərindəki təsviri məsələnin həlli üçün ən zəruri şərtlərdən biridir. Məqalədə fəza fiqurlarının təsviri üçün mərkəzi və paralel proyeksiyalamadan istifadənin üsul və yolları şərh edilmişdir. Bəzi fiqurların təsviri məqalədə öz əksini tapmışdır.*

# ОПИСАНИЕ ФИГУР В ПАРАЛЛЕЛЬНОЙ ПРОЕКЦИИ

***Резюме***

*При решении задач, связанных с пространственными фигурами, описание пространственных фигур на плоскости является одним из наиболее необходимых условий решения задачи. В статье описаны методы и способы использования центральной и параллельной проекции для описания пространственных фигур. Описание некоторых фигур отражено в статье.*

# DESCRİPTİON OF FİGURES İN PARALLEL PROJECTİON

***Summary***

*In solving problems related to spatial figures, the description of spatial figures on a plane is one of the most necessary conditions for solving the problem. Methods and ways of using central and parallel projection for the description of spatial figures are described in the article. The description of some figures is reflected in the article.*

***Açar sözlər:*** *nöqtə, ortoqnal, proyeksiya, paralel, perpendikulyar*
***Ключевые слова:*** *точка, ортогональный, проекция, параллельный, перпендикуляр*
***Key words:*** *point, orthogonal, projection, parallel, perpendicular*

Maddi aləmin fəza formalarını dərk edə bilmək və öyrənmək üçün çox yaxşı inkişaf etmiş fəza təsəvvürünə malik olmaq lazımdır. Həndəsi problemlərin həllində yaradıcı təsəvvür tələb olunur. Orta məktəbdə həndəsə təliminin məqsədlərindən biri də şagirdlərin fəza təsəvvürünü inkişaf etdirməkdən ibarətdir.

Həndəsədən hesablama məsələlərində şagirdlərin fikri çox zaman ya hesablama və ya cəbri çevirmə ilə məşğul olduğundan, məsələnin həndəsi

cəhəti onların nəzərindən qaçır, halbuki, qurma məsələlərində həndəsi cəhət əsas yer tutur. Proyeksiya çertyojunda kifayət qədər qurma məsələlərinin həlli, şagirdlərdə çertyoja əsasən həndəsi fiquru, onun forma və konstruksiyasını "görmək" qabiliyyətini inkişaf etdirir. Burada, həndəsi fiqur üzərində edilən müxtəlif əməliyyatla (düz xətt, müstəvi və s. keçirmək kimi) uyğun proyeksiya çertyojundakı müvafiq qurma arasında olan tam uyğunluğun fəza təsəvvürünün inkişafı üçün böyük əhəmiyyəti vardır

Fəza fiqurlarının çertyojlarının düzgün qurulması məsələsi bu qədər böyük əhəmiyyətə malik olduğu halda, təəssüf ki, məktəblərimizdə ona çox az əhəmiyyət verilir; bəzi riyaziyyat müəllimləri bir çox hallarda yazı taxtasında səhv çertyojlar çəkir və şagirdlər də öz növbələrində həmin səhvləri təkrar edirlər.

Çertyojların qurulma qaydalarının əsasını proyeksiyalama metodları təşkil edir. Cismin müstəvilər üzərində təsvirinin alınması üçün aparılan əməliyyatlar proyeksiyalama adlanır. Üzərində təsvirlər alınan müstəvilərə proyeksiya müstəviləri, təsvirlərin özünə isə cismin proyeksiyaları deyilir.

Proyeksiyalama metodu ilə cismin təsvirini qurmaq üçün onun düyün nöqtələrindən proyeksiya müstəvilərini kəsənə qədər şüalar çəkilir. Bu şüalara proyeksiyalayıcı şüalar deyilir. Cismin hər bir nöqtəsindən çəkilən proyeksiyalayıcı şüanın proyeksiya müstəvisi ilə kəsişmə nöqtəsi həmin nöqtənin proyeksiyası adlanır. Təsvirlərdə cismin düyün nöqtələri latın əlifbasının böyük hərfləri A, B, C...ilə, onların proyeksiyaları isə A', B', C' ... ilə işarə edilir.

Cisimlərin proyeksiyalarını qurmaq üçün mərkəzi və paralel proyeksiyalama metodlarından istifadə olunur.

Cisimlərin proyeksiyalarını almaq üçün bütün proyeksiyalayıcı şüalar bir nöqtədən çıxarsa, bu proyeksiyalama mərkəzi proyeksiyalama adlanır.

Paralel proyeksiyalama metodunda proyeksiyalayıcı şüalar bir-birinə paralel olurlar. Proyeksiyalayıcı şüaları çəkmək üçün müəyyən bir istiqamət verilməlidir.

Məlumdur ki, hər bir mürəkkəb cisim sadə həndəsi elementlərdən təşkil olunmuşdur. Ona görə də fiqurların çertyojlarını qurmazdan əvvəl nöqtə, düz xətt, müstəvi və sadə fəza fiqurlarının proyeksiyalarının qurulması öyrənilir.

Nöqtə ölçüsü olmayan ən sadə elementdir. Çertyojda nöqtə şərti olaraq kiçik çevrə şəklində göstərilir. Nöqtədən həndəsi məsələlərin həllində aparılan qurma işlərini yerinə yetirmək üçün istifadə olunur.




Şəkildə nöqtənin proyeksiya müstəvisi üzərində proyeksiyalarının qurulması metodikası verilmişdir.

Düz xətt parçasının proyeksiysını qurmaq üçün onun iki uc nöqtəsinin proyeksiyalarını qurub, həmin nöqtələrin eyni adlı proyeksiyalarını birləşdirmək lazımdır. Düz xətt parçasının proyeksiyası onun özündən böyük ola bilməz. Düz xətt parçası proyeksiya müstəvilərinə nəzərən xüsusi (paralel və perpendikulyar) və ixtiyari vəziyyətlərdə ola bilər.




Çertyojda kəsişən xətlərin eyniadlı proyeksiyaları da kəsişirlər və kəsişmə nöqtələri X oxuna bir perpendikulyar üzərində yerləşirlər. Çertyojda paralel xətlərin eyniadlı proyeksiyaları paraleldir.



Nöqtənin düz xətt üzərində olması üçün onun proyeksiyaları düz xəttin eyni adlı proyeksiyaları üzərində olmalıdır.

1. **Paraleloqramın və rombun çertyoju.** Paralel proyeksiyalamanın III və V xassəsinə əsasən müstəvi üzərində çəkilmiş ixtiyari bir paraleloqram, ixtiyari bir paraleloqramın və ya rombun çertyoju olaraq qəbul oluna bilər.
2. **Düzbucaqlının və kvadratın çertyoju.** Paralel proyeksiyalamanın III, V xassəsinə və Polke teoreminə əsasən müstəvi üzərində çəkilmiş ixtiyari bir paraleloqram ixtiyari bir düzbucaqlının və ya kvadratın çertyoju olaraq qəbul oluna bilər. Buradan görünür ki, hər bir paralelepipeddə kvadrat şəklində kəsik keçirmək mümkündür.
3. **Trapesiyanın çertyoju.** Paralel proyeksiyalamanın üçüncü xassəsinə əsasən müstəvi üzərində çəkilmiş ixtiyari trapesiya ixtiyari bir trapesiyanın çertyoju ola bilər.
4. **Müstəvinin çertyoju.** Stereometriyada bir adət olaraq müstəvi paraleloqram şəklində çəkilir, lakin düzbucaqlı şəklində təsəvvür olunur, buna görə də iki qarşılıqlı perpendikulyar düz xətti (qarşılıqlı qoşma düz xətləri) çəkərkən onları uyğun olaraq paraleloqramın qonşu tərəflərinə paralel götürmək tövsiyə olunur.

Paralel proyeksiyalama qaydalarına uyğun olaraq prizmanı qurarkən əvvəl oturacaqlardan biri - P qurulur. Bu hər hansı müstəvi çoxbucaqlıdır. Sonra P çoxbucaqlısının təpələrindən uzunluqları bərabər olan paralel parçalar kimi prizmanın yan tilləri çəkilir. Bu parçaların uclarını birləşdirib, prizmanın o biri oturacağını alırıq. Görünməyən tillər çizgili xətlə çəkilir.



Yan tillərə paralel müstəvilərlə P prizmanın kəsişməsindən alınan kəsiklər paraleloqramlardır. Xüsusi halda, diaqonal kəsikləri də paraleloqramlardır. Bu, bir üzdə olmayan iki yan tildən keçən müstəvilərlə prizmanın kəsişməsindən alınan kəsiklərdir.

Paralel proyeksiyalama qaydalarına uyğun olaraq piramidanın təsviri aşağıdaki kimi qurulur. Əvvəl oturacaq qurulur. Bu hər hansı müstəvi

çoxbucaqlı olacaq. Sonra piramidanın təpəsi qeyd edilir, onu yan tillərlə çoxbucaqlının təpələri ilə birləşdiririk.

Piramidanın təpədən keçən müstəvilərlə kəsikləri üçbucaqlardır.




Xüsusi halda, üçbucaqlar diaqonal kəsikləridir. Xüsusi halda, üçbucaqlar dioqanal kəsikləridir. Bu kəsiklər piramidanın qonşu olmayan iki tilindən keçən müstəvi kəsikləridir.

Piramidanın g izinə paralel olmayan üzü üzərində kəsiyə aid hər hansı A nöqtəsi verilmişsə, onda əvvəl kəsən müstəvinin g izi ilə bu üzün kəsişmə nöqtəsi, şəkildə göstərildiyi kimi D nöqtəsi qurulur. D nöqtəsi A nöqtəsi ilə düz xətlə birləşdirilir. Onda bu düz xəttin üzə aid olan parçası, bu üzün kəsən müstəvi ilə kəsişməsidir. Əgər A nöqtəsi g izinə paralel olan üz üzərindədirsə, onda kəsən müstəvi bu üzü g düz xəttinə paralel parça üzrə kəsir. Sonra qonşu yan üzün kəsən müstəvi ilə kəsişməsi qurulur və s. Nəticədə piramidanın tələb olunan kəsiyi alınır.

***Ədəbiyyat***

1. *Ümumtəhsil məktəbləri üçün riyaziyyat kurikulumu. Bakı – 2021.*
2. *M.H.Yaqubov, İ.M.Abdullayev, Ə.H.Yaqubov. (2015) TQDK Riyaziyyat. Bakı: “Abituriyentt” jurnalı.*
3. *N.M.Qəhrəmanova, M.A.Kərimov, İ.H.Hüseynov. (2022) Ümumtəhsil müəssisələrinin 7, 8, 9, 10, 11-ci sinifləri üçün riyaziyyat fənni üzrə dərslik. Bakı: “Təhsil Nəşriyyat-Poliqrafiya”MMC.*
4. *N.M.Qəhrəmanova, M.A.Kərimov, İ.H.Hüseynov. (2022) Ümumtəhsil müəssisələrinin 7, 8, 9, 10, 11-ci sinifləri üçün riyaziyyat fənni üzrə dərsliyin metodik vəsaiti. Bakı: “Təhsil Nəşriyyat-Poliqrafiya”MMC.*
5. *Ю.М.Колягин. (1982). Методика преподавания математики в средней школе. Москва.*

**N.Q.Rəhimli**
**Azərbaycan Dövlət Pedaqoji Universiteti**
***rahimlinadjiba@gmail.com***

# ŞAGİRDLƏRİN COĞRAFİ TƏFƏKKÜRÜNÜN FORMALAŞMASININ XƏRİTƏYƏ ƏSASƏN APARILAN RİYAZİ HESABLAMALARIN ƏHƏMİYYƏTİ

***Xülasə***

*Bu məqalədə xəritədən istifadə etməklə şagirdlərin riyazi hesablamaları həll etməsindən və nəticə olaraq coğrafi təfəkkürünün inkişaf etməsindən danışılır. Burada vacib məsələ şagirdlərin rənglərə əsasən hansı zonaları əhatə etməsi, yəni ümumilikdə desək, keyfiyyət fonu üsulunu bilməsidir. Çünki şagird həmin zonalarda olmadan rənglərə əsasən oranın təbiətini müəyyən edə bilər.*

# ЗНАЧЕНИЕ КАРТОМАТЕМАТИЧЕСКИХ РАСЧЕТОВ В ФОРМИРОВАНИИ ГЕОГРАФИЧЕСКОГО МЫШЛЕНИЯ СТУДЕНТОВ

***Резюме***

*В данной статье рассказывается о том, как учащиеся решают математические расчеты с помощью карты и в результате развивают свое географическое мышление. Здесь важно знать, какие зоны учащиеся охватывают на основе цветов, то есть, вообще говоря, метода качественного фона. Потому что ученик может определить характер места по цветам, не находясь в этих зонах.*

# THE IMPORTANCE OF MAP-BASED MATHEMATICAL CALCULATIONS IN THE FORMATION OF STUDENTS' GEOGRAPHICAL THINKING

***Summary***

*This article talks about how students solve mathematical calculations using a map and, as a result, develop their geographical thinking. The important thing here is to know which zones the students cover based on colors, that is, generally speaking, the quality background method. Because the student can determine the nature of the place based on the colors without being in those zones.*

***Açar sözlər:*** *coğrafi təfəkkür, xəritə, səhra, Afrika, təbii zona, şərti işarələr, məktəb coğrafiyası*

***Ключевые слова:*** *географическое мышление, карта, пустыня, Африка, природная зона, условные знаки, школьная география*

***Key words:*** *geographical thinking, map, desert, Africa, natural zone, conventional signs, school geography*

Təfəkkürün köməyi ilə şagirdlər qavradığı obyektlər haqqında informasiyanı hafizədə saxlayır və həmin məlumatlar üzərində araşdırmalar və ya əməliyyatlar aparmaqla bilik formalaşdırmaq mümkündür.

Ümumiyyətlə, təhsilin şagirdlərin təfəkkürünün inkişafında, həmçinin zehninin formalaşmasında rolu böyükdür. Şagirdlərin zehni inkişaf etməsi üçün bəzi sahələr haqqında müəyyən biliklərə malik olması vacib hesab edilir. Lakin bu o deməkdeyil ki, şagird intellektual və ya olduqca bacarıqlıdır. Onların çox bilmək bacarığı, müəyyən sahə üzrə ətraflı biliyə malik olması şagirdin təfəkkürünün yox, hafizəsinin inkişafının əsas göstəricisi hesab olunur. Şagirdlərin zehninin inkişaf etməsi üçün həm biliyin mənimsənilməsində istifadə olunan üsul və ya metodlardan düzgün istifadə etməli, bununla yanaşı, həm də onlar üzərində müəyyən qədər əməliyyatlar apararaq yeni biliklər əldə etmək bacarığına sahib ola bilməlidirlər. Şagirdlər üçün coğrafi təhsilin rolu böyükdür və qarşısında üç əsas məqsəd qoymuşdur ki, bunlara aşağıdakılar aiddir.

1. Ətraf mühitin mənzərəsi haqqında coğrafi təsəvvür formalaşdırmaq;
2. Elmi tədqiqat bacarığını formalaşdırmağın üsullarını öyrətmək;
3. Şagirdlər tərəfindən öyrənilmiş real həqiqətlərə emosional cəhətdən münasibət formalaşdırmaq.

Məhz bu məqsədlər aşağıdakı növlərin vasitəsi ilə həyata keçirilir:

- Qanun, qanunauyğunluqlar, prinsiplər;
- Ümumi və xüsusi nəzəriyyələr;
- Elmi və adi faktlar;
- Anlayışlar, terminlər.

Şagirdlər müstəqil şəkildə qarşısına problem qoyub və bu məsələnin həlli üçün istifadə etdiyi metodlar və ya üsullar, irəli sürdüyü fərziyyələr coğrafi təfəkkürün inkişafının əsas göstəricisidir. Burada şagirdin təfəkkürünün inkişafında rolu olan digər bir yol isə məsələ həllidir. Məlum məsələdir ki, bu coğrafi tapşırıqların həlli üçün şagirddə müəyyən qədər bilik xəritəni, məsələni qavramaq (anlamaq) bacarığının olması vacib nüans hesab olunur. Məsələ həlli yalnız təfəkkürün formlaşması üçün stimul olmaqla kifayətlənmir, bununla yanaşı həm də təfəkkürün inkişaf səviyyəsini müəyyən edən meyar rolunu oynayır. Məsələnin şərtinə uyğun olaraq qoyulmuş suala cavab tapması üçün şagirdin idrak fəaliyyətini aktivləşdirir və onu mövzu üzərində düşünməyə, axtarıb tapmağa sövq edir. Sonda əldə edilmiş cavab isə idraki fəaliyyətinin nəticəsi hesab olunur. Məsələ həllinin digər bir müsbət tərəfi odur ki, şagirdlər tapşırığın həlli zamanı istifadə olunan metodlar və ya üsullar, dərs zamanı

uşaqların səsləndirdiyi qeyri-adi fikirlər müəllimə şagirdlərin bilik səviyyəsinin nə dərəcədə inkişaf etdiyini müəyyən etməyə imkan verir. Məhz bu məqsədlə məktəbdə tədris olunan coğrafiya kursunda xəritə üzərində çalışmaların həll olunmasına, başqa sözlə predmetinə və məzmununa görə coğrafi məsələlərin tərtib olunaraq həll edilməsinə xüsusi diqqet yetirilir. Xüsusi olaraq nəzər yetirilsə, görüləcək ki, məsələlərin həlli üçün xəritədən istifadənin rolu olduqca böyükdür. Buna hətta məsələnin həlli üçün xəritədən istifadə edərək şagirdlərin coğrafi təfəkkürünün inkişafı problemləri adı ilə coğrafi məsələlər kitabında başlıq kimi verilə bilərdi, lakin təfəkkürün sonsuz və nəhayətsiz olması və onun başqa fənlər tərəfindən öyrənilməsi (fəlsəfə, psixologiya və s.) belə başlığın qoyulması üçün şərait yaratmadı. Xəritə tədris prosesi zamanı hər hansı obyekt, hadisə və ya prosesləri model forması kimi əvəz etmir, eyni zamanda onları təsvir edir. Buna görə də çalışmaların həlli zamanı şagirdlər xəritədən istifadə edən zaman ilk növbədə obyektləri və hadisələri görməli məsələdə qoyulmuş şərtlərin tələbinə əsasən məlum olan və ya olmayan xarakterlərini müəyyənləşdirib onlar arasında olan münasibətləri dəyişərək məsələni həll olunması üçün uyğun formaya gətirmək daha əlverişli hesab olunur. Çünki şagird xəritədəki obyekti təsəvvüründə canlandırır və ondan məsələ həllində istifadə etmə bacarığına sahib olur. Belə qeyd edə bilərik ki, xəritə üzərində məsələnin həlli zamanı şagird görür, düşünür, onu hər hansı məsələ üzərində axtarış edərək tədqiqat aparmağa vadar edir. Məsələn, şagirdə Afrika səhralarının yağıntı və buxarlanmaya əsasən rütubətlənmə əmsalının müəyyənləşdirməsi tapşırıla bilər. Aydın məsələdir ki, şagird heç vaxt Afrikanın səhralarında olmayıb. Bu zaman şagirdlər iqlim və yağıntılar xəritəsinə diqqət yetirərək burada rütubətlənmə əmsalını müəyyənləşdirə bilərlər. Aşağıda iqlim xəritəsi verilmişdir.




Rütubətlənmə əmsalı isə aşağıdakı düstura əsasən hesablanır.

**rütubətlənmə əmsalı = yağıntı/buxarlanma**

Yuxarıda adı çəkilmiş Afrika səhralarında yağıntılar çox az, buxarlanma isə tropikdə yerləşdiyinə görə həddindən artıq çox olduğundan rütubətlənmə əmsalı vahiddən az olur. Tutaq ki, yağıntı təxmini 150, buxarlanma isə 2000

olduğu halda verilmiş düstura əsasən Afrika səhralarının rütubətlənmə əmsalını hesablayaq.

Rütubətlənmə əmsalı = 150/2000 olduqda cavab təxmini 0.06 olacaqdır. Yəni vahiddən az olur. Belə olduğu halda şagird buranın təbiətinin kasad olduğunu və kənd təsərrüfatının suvarma əkinçiliyi ilə edildiyini məntiqi təfəkkürünə əsasən müəyyən edə bilər. Burada vacib şərt şagirdlərin xəritəni bilməsi və onu göz önündə canladıra bilməsidir.

Bundan başqa xəritə üzərində daha bir riyazi hesablamaya aid nümunə göstərə bilərik, hansı ki, burada xəritəyə əsasən həqiqi məsafələri müəyyən etmək mümkündür.

Məsələn, 1/2500 000 miqyaslı xəritədə A və B məntəqələri arasındakı məsafə 6 sm dir. Digər xəritədə bu məntəqələr arasındakı məsafə 12 sm olarsa, bu xəritənin miqyasını tapın.

**Həlli:**

H m=Xm*M

Xm=Hm/M məsələ bu düsturlara əsasən tapılacaqdır.

Əvvəlcə miqyasın kəmiyyəti tapılır:

1 sm-də 25 km

Sonra isə tənasüb quruləraq məntəqələr arasındakı həqiqi məsafə tapılır:

1 sm-də ------25 km

6 sm-də ------- x km

X=6*25=150 km

Daha sonra təkrar tənasüb qurularaq digər xəritənin miqyası tapılır:

1 sm-də------x km

12 sm-də-----150km

X=(150*1)/12=12.5km

Yəni, 1/250 000

Burada diqqət yetirsək, görərik ki, məsələdə iki cür əməl yerinə yetirildi. Həm həqiqi məsafə tapıldı, həm də həqiqi məsafəyə əsasən xəritənin miqyası tapılmışdır.

Daha bir məsələ də verilə bilər.

Məsələn, həqiqi sahəsi 392 km`2 olan gölün sahəsi 1/700 000 miqyaslı xəritədə neçə sm`2-ə bərabərdir.

**Həlli:**

Xəritədəki sahə = 392km`2/(700 000/100 000)=392/49=8 sm`2

Yəni, bəzən elə ola bilər ki, şərt fərqli qoyulsun. Həqiqi məsafə əvəzinə miqyası və ya xəritədəki məsafəni tələb etsin, ya da daha mürəkkəb forma - birinci məsələdə göstərildiyi kimi ola bilər. Xəritə üzərində riyazi heasblamalar olduqca müxtəlifdir. Qabaqcıl müəllimlər dərs prosesi zamanı bu cür

məsələləri şagirdlərə öyrədərək onlarda məntiqi təfəkkürü inkişaf etdirirlər. Bu da təlim prosesinin keyfiyyətini yaxşılaşdırır.

***Ədəbiyyat***


1. *Alxasov O.K. - Coğrafiyanın tədrisi metodikası. Bakı – 2013.*
2. *Alxasov O., Ələsgərov D., Pənahov Ş., Məmmədov R.. Materiklər və okeanlar coğrafiyası VII sinif, Bakı – 2002.*
3. *Ağayev Ə. Təlim prosesi: Ənənə və müasirlik, Bakı -2006.*
4. *Balaxanov Ç. - Coğrafiya (metodik vəsait) Bakı – 2000.*
5. *Zülfüqarov M.Ə. Coğrafiya dərslərinin səciyyəvi xüsusiyyətləri. Bakı – 1982.*
6. *Piriyev R.X. Kartoqrafiya. Bakı – 1975.*
7. *Piriyev R.X. - Məktəb coğrafiya kursunda kartoqrafik biliklərin əsasları.*

**S.E.Calalzadə**
**Azərbaycan Dövlət Pedaqoji Universiteti**
***sevinc.celalzade@gmail.com***

# CƏMİYYƏT MƏZMUN XƏTTİNDƏ ƏHALİ BÖLMƏSİNİN TƏDRİSİNDƏ KONTUR XƏRİTƏ ÜZƏRİNDƏ ŞAGİRD FƏALİYYƏTİNİN TƏŞKİLİ METODİKASI

***Xülasə***

*Müasir dövrdə təhsil sistemində baş verən dəyişikliklər əhali bölməsi üzərində də özünü göstərir. Xəritə vasitəsilə bir çox məlumatlar çatdırıldığı üçün əhali bölməsi ilə bağlı dəyişikliklər də xəritədə öz əksini tapır. Məhz bu səbəbdən mövzu öz aktuallığını saxlamaqdadır. Əhali xəritələri üzərində müxtəlif formada etnik qruplar, din, dil, təbii artım, əhalinin miqrasiyası, urbanizasiyası və s. anlayışlar xəritələr üzərində şagird fəaliyyətini təşkil etmək üçün geniş əyani vasitəyə çevrilir. Xəritə üzərində şagird fəaliyyətini müəllim, orta məktəblərdən şagirdlərə mənimsətməli, bu bacarıqları onlarda formalaşdırılması məqsədəuyğun hesab olunur.*

# МЕТОДОЛОГИЯ ОРГАНИЗАЦИИ СТУДЕНЧЕСКОЙ ДЕЯТЕЛЬНОСТИ ПО КОНТУРНОЙ КАРТЕ В ОБРАЗОВАНИИ РАЗДЕЛЕНИЯ НАСЕЛЕНИЯ ПО СОДЕРЖАЩЕЙ ЛИНИИ ОБЩЕСТВА

***Резюме***

*Изменения, произошедшие в мире за последние годы, коснулись и населения. Поскольку через карту передается много информаций, изменения, связанные с населением, также отражаются на карте. Так что тема остается актуальной. Карты этнической принадлежности, языка, естественного прироста и миграции являются примерами карт населения. Учителя должны обучать учащихся работе с картой и формировать у них эти навыки со средней школы.*

# METHODOLOGY OF THE ORGANIZATION OF STUDENT ACTIVITY ON THE CONTOUR MAP IN EDUCATION OF THE POPULATION DIVISION ON THE SOCIETY CONTENT LINE

***Summary***

*The changes that have taken place in the world in recent years are also affected to the population. Since a lot of information is delivered through the map, the changes related to the population are also reflected on the map. So that the topic remains its actuality. Ethnic, language, natural growth, and migration maps are some*

*example for population maps. Teachers should teach students how to work on the map and form these skills in them from secondary schools.*

***Açar sözlər:*** *nöqtələr üsulu, keyfiyyət fonu üsulu, anamorfoz xəritə, miqrasiya, təbii artım, etnos, etnogenez*

***Ключевые слова:*** *метод точек, метод качественного фона, карта анаморфозы, миграция, естественный прирост, этнос, этногенез*

***Key words:*** *points method, quality backround method, anamorphosis map, migration, natural increase, ethnos, ethnogenesis*

Kurikulumun meydana gəlməsi və inkişafı *coğrafiya* elminin tədrisində də özünü göstərməyə başladı. Belə ki, kurikulum sistemində əyaniliyə xüsusi yer verilir. Nəinki indi, əvvəllərdə coğrafiyanın ikinci dili xəritə hesab olunmuşdur. Xəritəsiz əhali coğrafiyasını sadəcə əzbərləmək olar, öyrənmək isə əsla! Xəritə, bir çox məlumatı özündə əks etdirir, sadəcə onu oxumağı bacarmaq lazımdır. Bunu öyrətmək isə tədris müəssisələrində müəllimlərin başlıca vəzifəsidir.

Cəmiyyət məzmun xəttinin öyrənilməsi hər zaman olduğu kimi bu gün də öz aktuallığını qoruyub saxlayır. Yer kürəsinin ayrılmaz tərkib hissəsi biz insanlarıq. İnkişafda olan, daim dəyişən dünyamızda, həmçinin dünyanı daim dəyişdirən əhali mövzusunun öyrənilməsi vacibdir. Son illər ərzində dünyanı bürüyən pandemiya şəraiti insanları çox ağır bir sınağa çəkdi. Bu zaman da xəstəliyin yayılma arealı, xəstəlikdən ölənlərin sayı, hansı ərazilərdə daha çox, hansılarda daha az yayıldığı dünyaya xəritələr üzərindən nümayiş olunurdu. Nəinki dünyada hətta, xüsusilə də müharibə şəraitində olan ölkəmizdə də əhali bölməsinin öyrənilməsi vacibdir. 2020-ci ildə baş verən dünyanın bütün ölkələrinin nəzəri-diqqətini üzərimizə çəkən, möhtəşəm qələbəmizlə yekunlaşan müharibə buna əyani sübutdur. Belə ki, minlərlə gəncimiz şəhidlik zirvəsinə ucalmış, yüzlərlə qəhrəmancasına döyüşən igidlərimiz əlillik statusu almışdır. Dövlət əlillik statusu almış qazilərimizi həm dövlətimizə hər zaman yararlı vətəndaş olduqlarını onlara dərindən hiss etdirmək, həmçinin öz dolanışıqlarını təmin etmək, həm də onların cəmiyyətə inteqrasiya etməsinə, ruhdan düşməmələrinə daim kömək olur, onlara dayaq durur. Bu səbəbdən dövlətimizə minnətdaram. Bu və ya digər baş vermiş dəyişikliklər əhali bölməsinin öyrənilməsini daim aktual edir.

Əhali coğrafiyası cəmiyyət məzmun xətti üzrə ənənəvi sahələrdən biridir və əhalinin yayılma arealını, yaş-cins xüsusiyyətlərini, təbii artımı, əmək ehtiyatlarının hesablanmasını və s. göstəriciləri öyrənir. Əhali bölməsi öyrəndiyi bütün sahələri xəritə üzərində təsvirini verərək həmin məlumatları daha yaddaqalan etməkdədir. Adətən, cəmiyyət məzmun xəttinə aid mövzularda, siyasi xəritədən tədris mərkəzlərində daimi divar xəritəsi olaraq

istifadə edilir. Beləliklə, əhali bölməsi üzrə xəritələrə o qədər də üstünlük verilmir. Müəllim şagirdlərə əhali xəritələrində ilk növbədə xəritəni oxumağı və xəritə üzərində riyazi hesablamanı, xəritələrin tutuşdurulmasını, xəritələrin müqayisəsini, statistik materiallardan xəritədə istifadə edilməsini, kartoqram və kartodiaqram üzərində onların fəaliyyətinin təşkili üzərində işi öyrətməlidir. Şagirdlər kontur xəritə üzərində bu tapşırıqları yerinə yetirməklə, nəzəri olaraq əldə etdikləri bilikləri praktiki olaraq tətbiq etdikləri üçün iqtisadi-coğrafi anlayışları daha dərindən mənimsəmələrinə səbəb olacaqdır.

8-ci sinifdə müəllimin verdiyi tapşırıqlar kontur xəritə üzərində həll etmək üçün verilən mövzulardan biri də "Əhali və təsərrüfatın coğrafi ərazilər üzrə təşkili"dir. Bu bölmə üzrə müəllim şagirdlərin əldə etdikləri bilik, bacarıq və vərdişləri yoxlamaq məqsədilə praktik tapşırıqlar icra edir. Bu tapşırıqlar kontur xəritə üzərində şagirdlərin biliklərinin möhkəmləndirilməsində və yoxlanılmasında istifadə edilməsi məqsədəuyğun hesab olunur. Bu bölmə ilə bağlı müəllim şagirdlərə aşağıdakı kimi tapşırıqlar verə bilər:

1. Dünyada əhalinin sayı çox olan ölkələri sadalamaqla, kontur xəritədə həmin ölkələrin yerini tapmaq və adlarını yazmaq;
2. Əhalisinin sayı az olan ölkələrin adlarını müəyyən etməklə kontur xəritədə qeyd etmək;
3. Region üzrə əhali sayına görə fərqlənən əraziləri kontur xəritə üzərində rəngləməyi tapşırmaq;
4. Təbii artımına görə I tip ölkələri dünya əhali xəritəsinə baxaraq, kontur xəritədə rəngləmək;
5. Çin, Hindistan, Pakistan, İndoneziya, Banqladeş və s. ölkələrdə aparılan demoqrafik siyasətin səbəbini araşdırmaqla kontur xəritədə qeyd etmək;
6. Dünya üzrə əhalinin miqrasiya mərkəzlərinin istiqamətlərini və yayıldığı yerləri kontur xəritədə oxlar vasitəsilə göstərmək.

Şagirdlər bu tapşırığı aşağıdakı kimi yerinə yetirməklə həll edirlər:



Şagirdlərə Şimali Amerika, Avstraliya və qərbi Avropa ölkələrinin əhalisi üçün ortaq olan xüsusiyyətləri müəyyən etməklə, kontur xəritədə həmin ölkələri rəngləmək tapşırığı verilir və şagirdlər bu tapşırığı aşağıdakı şəkildə göstərildiyi kimi yerinə yetirirlər:



Şimali Amerika, Qərbi Avropa və Avstraliyanın əhalisi üçün ortaq xüsusiyyətlər:

1. Əhalinin yüksək təbii artımı müşahidə olunur;
2. İmmiqrasiya müşahidə olunur;
3. Əhalinin təbii artımı aşağıdır;
4. Orta ömür müddəti yüksəkdir;
5. Emmiqrasiya üstünlük təşkil edir;
6. İnkişaf etmiş ölkələrdir;
7. İnkişaf etməkdə olan ölkələrdir.

11-ci sinif Coğrafiya kitabında dünya əhalisinin sayını aydın göstərmək üçün anamorfoz xəritələrdən istifadə olunur. Bu xəritələrin necə, nə üçün tərtib olunduğunu, oxunması qaydalarını müəllimlər şagirdlərə izah etməlidir. Bu xəritə ərazinin hər hansı statistik göstəriciyə, fakta uyğun olaraq daha qabarıq formada olduğundan fərqli ölçüdə göstərilməsidir. Məhz əhali mövzusunda bu xəritə tərtib olunursa, təbii ki, dünyada əhali sayına görə ilk sırada yerləşən Çin, daha sonra Hindistan kimi ölkələrin əraziləri olduğundan qat-qat böyük təsvir olunacaqdır.

Əhalinin dilə, dinə, sivilizasiyalara görə yayılma arealını göstərən xəritələri şagirdlərə təqdim edərkən müəllim əhalinin, ərazinin coğrafi xüsusiyyətləri ilə əlaqələrini ortaya qoymalıdır. Əhalinin yerləşmə xəritələrində keyfiyyət fonu və daha çox nöqtələr üsulundan istifadə olunur. Nöqtələr üsulu müəyyən sayda əhalinin yaşamasının xəritə üzərində qrafik yansımasıdır. Əhali sayı orta, böyük və kiçik nöqtələr kimi göstərilir ki, bu da əhalinin harada daha çox, harada daha az sayda olduğunu bildirir. Bu da müəllim tərəfindən geniş izahlı formada şagirdlərə açıqlanmalıdır.

Əhali xəritələri içərisində əsas yerlərdən birini miqrasiya xəritələri tutur. Əhalinin miqrasiyası xəritəsi hərəkət xətləri üsulu ilə göstərilir. Xəritə üzərində insanların gediş-gəliş istiqaməti üzrə oxlarla qeyd edilir ki, bu da mövzunu öyrəndikdən sonra şagirdlərin yaddaşında daha da möhkəmlənir. Müəllim

miqrasiyanın əsasən inkişaf etməkdə olan və digər tip ölkələrdən inkişaf etmiş ölkələrə doğru baş vermə qanunauyğunluğunu şagirdlərə başa salır. Həmçinin şagirdlərə öz yaşadıqları ölkənin inkişaf səviyyəsi haqqında hansı fikirdə olmaları ilə bağlı suallar verərək onların şəxsi fikirləri ilə tanış ola bilər. Məsələn, öz ölkəmizdə daxili miqrasiyanın yaratdığı formaları öyrətməyə çalışır.

VIII sinif dərsliyində "Əhalinin təbii artımı və miqrasiyası" mövzusunda əhalinin təbii artım xəritəsindən istifadə olunmuşdur. Burada ölkələrin inkişaf səviyyələri ilə əhalinin təbii artımı arasında əlaqə vardır ki, bunu da açıq-aşkar həmin xəritədən görmək olur. Göstərilmiş xəritədə keyfiyyət fonu üsulundan istifadə olunaraq, oxşar təbii artıma malik olan ölkələr eyni rənglərlə qeyd edilmişdir. Burada əsas məqsəd şagirdlərin xəritəni oxuyaraq öyrəndikləri biliklərə əsasən əhalinin yerləşməsi və mexaniki hərəkəti arasındakı əlaqəni aşkara çıxarmağı bacarmasıdır.

İnkişaf səviyyəsi aşağı ölkələrdə yaşayan əhali həyat səviyyəsini yüksəltmək üçün inkişaf etmiş ölkələrə üz tutmaq məcburiyyətində qalır. Əhali xəritələri statistik məlumatlar əsasında hazırlanır, bu səbəbdən də dəyişkən xarakterli olur. Həmin dəyişiklərin də xəritə üzərində verilməsi şagirdlərdə daha ətraflı fikir formalaşmasına gətirib çıxarar.

Müəllim şagirdlərə interaktiv dərs formasını mənimsətməlidir. Həmçinin əhalinin yerləşməsinə təsir edən təbii və antropogen amilləri təhlil etmək düzgün olardı. Belə ki, iri sənaye şəhərlərində, paytaxt və böyük şəhərlərdə, limanlarda, düzən ərazilərdə, nəqliyyat şəbəkələrinin daha sıx olduğu ərazilərdə, universitet, digər ali təhsil mərkəzlərinin olduğu yerlərdə əhali daha sıx məskunlaşır və bu xəritədə də bu şəkildə özünü əks etdirir. Şagird bu əlaqələri mütləq şəkildə bilməli və təhlil etməyi bacarmalıdır.

Etnoqrafik xəritələrdə qədim zamanlardan müəyyən ərazi daxilində eyni din, dil, etnik tərkibə mənsub olan xalqların yayıldığı ərazilər qeyd edilir. 9-cu sinifdə "sivilizasiyaların tarixi-coğrafi inkişafı" mövzusunda, 11-ci sinifdə isə "etnos və etnogenez" mövzularında bu xəritələrdən istifadə etmək məqsədəuyğundur. Dil ailələri, dil qrupları onlarında ayrıldığı dil qolları göstərilməklə bütün nəzəriyyənin bir xəritə üzərində cəmləşdirərək şagirdlərə izah etmək məqsədəuyğun hesab olunur.

***Ədəbiyyat***

1. *O.Alxasov "Coğrafiyanın tədrisi metodikası", Bakı – 2013.*
2. *8-ci sinif orta məktəb Coğrafiya dərsliyi, Bakı – 2019.*
3. *11-ci sinif orta məktəb Coğrafiya dərsliyi, Bakı – 2018.*
4. *Derslik@edu.gov.az elekron ünvanı*

**E.M.Bəbişova**
**Bakı Slavyan Universiteti**
***bebisovae@gmail.com***

# KOMMUNİKATİV KOMPETENSİYANIN KOMPONENTLƏRİ

***Xülasə***

*Kommunikativ kompetensiya qloballaşan dünyada uğurlu ünsiyyətin kilidini açmaq üçün açardır. Ünsiyyətin linqvistik, sosial-linqvistik, diskurs və strateji aspektləri üzrə bacarıqları inkişaf etdirərək, fərdlər müxtəlif ünsiyyət kontekstlərində inamla və effektivliklə hərəkət edə bilərlər. Effektiv ünsiyyət üçün səylərimizi davam etdirdiyimiz üçün kommunikativ səriştəni başa düşmək və inkişaf etdirmək əsas məqsədlərimiz olaraq qalır. Müasir qloballaşan dünyada kommunikativ səriştə şəxsi, akademik və peşəkar uğur üçün mühüm bacarıq kimi getdikcə daha çox tanınır. Onun əsas komponentlərində səriştəliliyi başa düşmək və inkişaf etdirməklə fərdlər mədəniyyətlərarası ünsiyyətdə effektiv şəkildə hərəkət edə, mənalı əlaqələr qura və müxtəlif dil mühitlərində inkişaf edə bilər.*

# КОМПОНЕНТЫ КОММУНИКАТИВНОЙ КОМПЕТЕНТНОСТИ

***Резюме***

*Коммуникативная компетентность является ключом к успешному общению в глобализированном мире. Развивая навыки в лингвистических, социолингвистических, дискурсивных и стратегических аспектах коммуникации, люди могут действовать уверенно и эффективно в различных коммуникативных контекстах. Понимание и развитие коммуникативной компетентности остаются нашими главными целями, поскольку мы продолжаем стремиться к эффективному общению. В современном глобализированном мире коммуникативная компетентность все чаще признается важным навыком для личного, академического и профессионального успеха. Понимая и развивая компетентность в ее основных компонентах, люди могут эффективно ориентироваться в межкультурной коммуникации, строить значимые отношения и преуспевать в различных языковых средах.*

# COMPONENTS OF COMMUNİCATİVE COMPETENCE

***Summary***

*Communicative competence is the key to unlocking successful communication in a globalized world. By developing skills in the linguistic, socio-linguistic, discourse and strategic aspects of communication, individuals can act confidently and effectively in different communication contexts. Understanding and developing communicative competence remains our main goals as we continue to strive for effective*

*communication. In the modern globalized world, communicative competence is increasingly recognized as an important skill for personal, academic and professional success. By understanding and developing competence in its core components, individuals can effectively navigate cross-cultural communication, build meaningful relationships, and thrive in a variety of language environments.*

***Açar sözlər:*** *kommunikativ kompetensiya, kommunikativ kompetensiyanın tərifi, kommunikativ kompetensiyanın komponentləri*

***Ключевые слова:*** *коммуникативная компетентность, определение коммуникативной компетентности, компоненты коммуникативной компетентности*

***Key words:*** *communicative competence, definition of communicative competence, components of communicative competence*

Məktəbdə xarici dilin təlimi bir əsas məqsəd daşıyır: xarici dil dərslərində şagirdlərin kommunikativ kompetensiyasını inkişaf etdirmək.

Kompetensiya konkret bir məsələnin yerinə yetirilməsi üçün lazım olan bacarıqdır. O, bacarıqların, biliyin birliyini özündə əks etdirir. “Competence” sözü “to compete” felindən əmələ gələrək “yarışmaq” mənasını verir, daha dəqiq ifadə etsək, “yarışmaq bacarığı” kimi tərcümə oluna bilər. Ünsiyyətin getdikcə müxtəlifləşdiyi və bir-biri ilə əlaqəli olduğu bir dünyada kommunikativ səriştəyə sahib olmaq heç vaxt bu qədər vacib olmamışdır. Kommunikativ səriştə ünsiyyətin linqvistik, sosial-mədəni və strateji aspektlərini nəzərə alaraq müxtəlif kontekstlərdə mesajları effektiv şəkildə çatdırmaq və şərh etmək bacarığına aiddir. Bu çoxşaxəli bacarıq dəsti müasir həyatın çoxsaylı aspektlərində əsas rol oynayır və onun həm şəxsi, həm də peşəkar sahədə əhəmiyyətini vurğulayır. Effektiv ünsiyyət, istər şəxsi, istər peşəkar, istərsə də ictimai münasibətlərin əsasını təşkil edir. Güclü kommunikativ səriştəyə malik şəxslər özlərini aydın ifadə edə, başqalarının baxışlarını başa düşə, həssaslıq və empatiya ilə şəxsiyyətlərarası qarşılıqlı əlaqəni idarə edə bilərlər. Şəxsi münasibətlərdə bu bacarıq inamı, qarşılıqlı hörməti və yaxınlığı gücləndirir, sağlam və doyumlu əlaqələrin əsasını qoyur. [3].

Bundan əlavə, peşəkar sahədə kommunikativ səriştə effektiv liderliyin, komanda işinin və karyera yüksəlişinin təməl daşıdır. İşəgötürənlər inandırıcı şəkildə ünsiyyət qura bilən, müxtəlif komandalarla problemsiz əməkdaşlıq edə bilən və ünsiyyət tərzini müxtəlif auditoriya və kontekstlərə uyğunlaşdıra bilən namizədləri getdikcə daha çox qiymətləndirirlər. Güclü ünsiyyətçilər ictimai nitq, danışıqlar, münaqişələrin həlli və müştərilərə xidmət kimi sahələrdə üstündür, onların məşğulluq imkanlarını və karyera yüksəlişi perspektivlərini artırır.

Müasir qloballaşan cəmiyyətdə mədəniyyətlərarası ünsiyyətin geniş yayılması səbəbindən kommunikativ səriştə xüsusilə vacibdir. Fərdlər müxtəlif dil və mədəniyyət mənşəli insanlarla ünsiyyət qurduqca, mədəni fərqlilikləri idarə etmək, mədəni normaları anlamaq və hörmətlə ünsiyyət qurmaq bacarığı vacib olur. Kommunikativ səriştə fərdlərə mədəni uçurumları aradan qaldırmağa, mədəniyyətlərarası əlaqələr qurmağa və qlobal miqyasda qarşılıqlı anlaşma və əməkdaşlığı təşviq etməyə imkan verir.

Bundan əlavə, sürətli texnoloji irəliləyişlər və rəqəmsal kommunikasiya platformaları ilə səciyyələnən bir dövrdə kommunikativ səriştənin əhəmiyyəti onlayn qarşılıqlı əlaqələri əhatə edir. Yazılı mesajlar, e-poçtlar, sosial media və video konfrans platformaları vasitəsilə effektiv ünsiyyət qurmaq bacarığı həm şəxsi, həm də peşəkar kontekstlərdə əvəzolunmazdır. Onlayn aydın və qısa ünsiyyət anlaşılmazlıqların qarşısını almağa kömək edir, əməkdaşlığı asanlaşdırır və rəqəmsal mövcudluğu və nüfuzunu artırır.

Təhsil müəssisələri və təlim proqramları kommunikativ səriştənin əhəmiyyətini dərk edir və onu öz kurikulumlarına daxil edirlər. Erkən uşaqlıq dövründən tutmuş ali təhsil və peşəkar inkişaf kurslarına qədər pedaqoqlar akademik biliklərlə yanaşı ünsiyyət bacarıqlarının inkişaf etdirilməsini də vurğulayırlar. Təcrübə, geribildirim və düşünmək üçün imkanlar təmin etməklə, bu proqramlar fərdlərə öz kommunikativ səriştələrini inkişaf etdirmək və müxtəlif sosial və peşəkar mühitlərdə inkişaf etmək imkanı verir.

Nəticə olaraq, kommunikativ səriştə bugünkü bir-biri ilə əlaqəli dünyada uğur və rifahın əsasını qoyan təməl bacarıqdır. Dil biliyi, sosial-mədəni şüur və strateji ünsiyyət bacarıqlarını inkişaf etdirərək, fərdlər şəxsiyyətlərarası, peşəkar və mədəniyyətlərarası qarşılıqlı əlaqələri inam və effektivliklə idarə edə bilərlər. Müasir dövrün mürəkkəbliklərini gəzməyə davam etdikcə, kommunikativ səriştənin inkişafına sərmayə qoymaq şəxsi yerinə yetirmə, peşəkar uğur və ictimai irəliləyiş üçün əsas olaraq qalır.

Kommunikativ səriştə müxtəlif kontekstlərdə effektiv ünsiyyətə imkan verən müxtəlif elementləri əhatə edən bugünkü bir-biri ilə əlaqəli dünyada həyati bir bacarıqdır. 1960-cı illərdə dilçi Dell Hymes tərəfindən yaradılan kommunikativ səriştə, ünsiyyətin mədəni, sosial və praqmatik aspektlərini özündə birləşdirərək, sadəcə dil biliyindən kənara çıxır. Onun komponentlərini başa düşmək müxtəlif şəxsiyyətlərarası və peşəkar qarşılıqlı əlaqələrdə naviqasiya etmək və üstün olmaq istəyən şəxslər üçün vacibdir [2].

**Dilçilik səriştəsi:**

Linqvistik səriştə bir dilin qrammatikası, lüğəti və tələffüzündə bacarıqlara aiddir. Bu, dilin qaydalarını və strukturlarını başa düşməyə, fərdlərə mənalı ifadələr yaratmağa və dərk etməyə imkan verir. Bu komponent

mesajların çatdırılmasında aydınlıq və dəqiqliyi təmin etməklə effektiv ünsiyyətin əsasını qoyur [1].

**Sosial linqvistik səriştə:**

Sosiolinqvistik səriştə dilin istifadəsinə təsir edən sosial və mədəni normaları dərk etməyi əhatə edir. Buraya müvafiq dil registrləri, dialektlər və yaş, cins, etnik mənsubiyyət və sosial status kimi amillərə əsaslanan variasiyalar haqqında biliklər daxildir. Sosiolinqvistik səriştə fərdlərə ünsiyyət tərzini müxtəlif kontekstlərə uyğunlaşdırmağa, qarşılıqlı anlaşma və hörməti gücləndirməyə imkan verir.

**Praqmatik bacarıq:**

Praqmatik səriştə konkret məqsədlərə çatmaq üçün müxtəlif kommunikativ situasiyalarda dildən düzgün istifadə etmək bacarığına aiddir. O, nəzərdə tutulan mənaları başa düşməyi, şifahi olmayan işarələri şərh etməyi və növbə götürmə və nəzakət strategiyaları kimi danışıq konvensiyalarına riayət etməyi əhatə edir. Praqmatik səriştə fərdlərə mürəkkəb sosial qarşılıqlı əlaqələri effektiv şəkildə idarə etməyə və anlaşılmazlıqlardan qaçmağa imkan verir.

**Strateji bacarıq:**

Strateji səriştə, maneələri dəf etmək və ünsiyyət məqsədlərinə çatmaq üçün ünsiyyət strategiyalarından istifadə etmək bacarığını əhatə edir. Buraya linqvistik biliklərdəki boşluqları kompensasiya etmək və ya aydınlığı artırmaq üçün aydınlaşdırma, parafrazlaşdırma və özünü korreksiya kimi üsullar daxildir. Strateji səriştə fərdlərə kommunikasiyanın pozulmasını idarə etməyə və çətin vəziyyətlərdə məna müzakirə etməyə imkan verir.

**Diskurs səriştəsi:**

Diskurs səriştəsi söhbətlər, rəvayətlər və təqdimatlar kimi geniş dil sahələrini başa düşmək və yaratmaqdan ibarətdir. Bu, ardıcıl və vahid ünsiyyəti asanlaşdıran nitq markerləri, birləşmə vasitələri və ritorik strukturlar haqqında bilikləri əhatə edir. Diskurs səriştəsi fərdlərə öz fikirlərini effektiv şəkildə təşkil etmək və strukturlaşdırmaq imkanı verir, onların ünsiyyətinin ümumi aydınlığını və ardıcıllığını artırır.

Kommunikativ səriştənin inkişafı bu müxtəlif komponentlər üzrə davamlı öyrənmə və təcrübə tələb edir. Bu, müxtəlif dil və mədəni kontekstlərə məruz qalmağı, eləcə də mənalı ünsiyyət tapşırıqlarında fəal iştirak etməyi əhatə edir. Dil öyrənənlər immersiv təcrübələr, orijinal qarşılıqlı əlaqə və hər bir komponentin spesifik bacarıq və strategiyalarına cavab verən məqsədyönlü təlimat vasitəsilə öz kommunikativ səriştələrini artıra bilərlər.

Müasir qloballaşan dünyada kommunikativ səriştə şəxsi, akademik və peşəkar uğur üçün mühüm bacarıq kimi getdikcə daha çox tanınır. Onun əsas komponentlərində səriştəliliyi başa düşmək və inkişaf etdirməklə fərdlər mədəniyyətlərarası ünsiyyətdə effektiv şəkildə hərəkət edə, mənalı əlaqələr qura və müxtəlif dil mühitlərində inkişaf edə bilərlər.

***Ədəbiyyat***

1. *Bachman, L.F., & Palmer, A.S. (1996). Language Testing in Practice: Designing and Developing Useful Language Tests. Oxford etc.: OUP.*
2. *Canale, M. (1983). From communicative competence to communicative language pedagogy. In Richards, J.C., & Schmidt, R.W. (Eds.), Language and Communication, 2-27. London: Longman.*
3. *Canale, M. (1984). A communicative approach to language proficiency assessment in a minority setting. In Rivera, C. (Ed.), Communicative competence approaches to language proficiency assessment: Research and application, 107-122. Clevedon: Multilingual Matters.*

**С.Р.Гурбанов**
**Бакинский Славянский Университет**
***samirqur636@gmail.com***

# УЧАСТИЕ ЕВРОПЕЙСКОГО СОЮЗА В ГЕОПОЛИТИЧЕСКИХ ПРОЦЕССАХ НА ЮЖНОМ КАВКАЗЕ

***Резюме***

*В Южном Кавказе Европейский Союз взаимодействует через механизм "Восточного партнерство". Участвуя в геополитических процессах ЕС стремится к поддержанию демократии, развитию экономики и общей стабильности в регионе. Для достижения своих целей ЕС использует такие механизмы как сотрудничество, торговые соглашения, финансовая помощь. А также была запущена инициатива «Восточного партнерство», которая направлена на углубление отношений и сотрудничества между странами Южного Кавказа, а также Восточной Европы. ЕС создает углубленную и всеобъемлющую зону свободной торговли ( DCFTA), которая создает условия сокращения торговых барьеров и стимулирует экономическую интеграцию между участниками. ЕС способствует урегулированию конфликтов на Южном Кавказе, а также устойчивому развитию региона. Поэтому ЕС выступает в качестве посредника и медиатора, помогая в установлении диалога между конфликтующими сторонами.*

# AVROPA İTTİFAQININ CƏNUBİ QAFQAZDAKI GEOSİYASİ PROSESLƏRDƏ İŞTİRAKI

***Xülasə***

*Məqalədə Avropa İttifaqı ilə Cənubi Qafqaz ölkələri arasında Şərq Tərəfdaşlığı mexanizmi vasitəsilə qarşılıqlı fəaliyyət məsələləri əks olunur. Qeyd edilir ki, Aİ geosiyasi proseslərdə iştirak etməklə regionda demokratiyanın, iqtisadi inkişafın və ümumi sabitliyin qorunmasına çalışır. Məqsədlərinə çatmaq üçün Aİ əməkdaşlıq, ticarət sazişləri və maliyyə yardımı kimi mexanizmlərdən istifadə edir. "Şərq Tərəfdaşlığı" təşəbbüsü Cənubi Qafqaz, eləcə də Şərqi Avropa ölkələri arasında əməkdaşlıq əlaqələrinin dərinləşdirilməsinə yönəlib.*

*Aİ ticarət maneələrinin azaldılması və üzvlər arasında iqtisadi inteqrasiyanın stimullaşdırılması üçün şərait yaradan Dərin və Hərtərəfli Azad Ticarət Zonası (DCFTA) yaradır. Aİ Cənubi Qafqazdakı münaqişələrin həllinə, eləcə də regionun davamlı inkişafına öz töhfəsini verir. Buna görə də, Aİ münaqişə tərəfləri arasında dialoqun qurulmasına kömək edən vasitəçi və mediator kimi çıxış edir.*

# PARTİCİPATİON OF THE EUROPEAN UNİON İN THE GEOPOLİTİCAL PROCESSES OF THE SOUTH CAUCASUS

**Summary**

*The article discusses the issues of interaction between the European Union and the countries of the South Caucasus through the Eastern Partnership mechanism. It is noted that by participating in geopolitical processes, the EU strives to maintain democracy, economic development and general stability in the region. To achieve its goals, the EU uses mechanisms such as cooperation, trade agreements, and financial assistance. The Eastern Partnership initiative is also aimed at deepening cooperative relations between the countries of the South Caucasus and Eastern Europe.*

*The EU creates a Deep and Comprehensive Free Trade Area (DCFTA), which creates conditions for reducing trade barriers and stimulating economic integration between members. The EU contributes to the resolution of conflicts in the South Caucasus, as well as the sustainable development of the region. Therefore, the EU acts as an intermediary and mediator, helping to establish dialogue between the conflicting parties.*

***Açar sözlər:*** *Avropa İttifaqı, Cənubi Qafqaz, Şərq tərəfdaşlığı, DCFTA, azad ticarət*

***Ключевые слова:*** *Европейский Союз, Южный Кавказ, Восточное партнерство, DCFTA, свободная торговля*

***Key words:*** *European Union, Southern Caucasus, Eastern partnership, DCFTA, free trade*

Политикой Евросоюза является стремление к демократии, экономическому развитию и стабильности в регионе, поэтому ЕС активно принимает участие в геополитических процессах на Южном Кавказе. С помощью различных механизмов (политических, экономических и механизмов сотрудничества). ЕС поддерживает взаимодействия со странами Южного Кавказа через такие инструменты как ассоциация, торговые соглашения, финансовая помощь и программа сотрудничества для содействия политической стабильности, экономического развития и укрепления правового государства в регионе. Участие Европейского Союза геополитических процессах на Южном Кавказе сыграло важную роль в разрешение конфликтов и укреплении стабильности в регионе. ЕС также стал важным партнером для стран Южного Кавказа, обеспечивая поддержку и содействие в области экономического развития, демократизации и укрепление правового государства.

В 2004 году инициатива «Восточное партнерство» стало ключевым механизмом участия ЕС на Южном Кавказе, направленным на углубление отношений и сотрудничества с Арменией, Азербайджаном и Грузией. Эта инициатива способствует развитию политического диалога,

экономической интеграции и обменом опытом в различных областях. Инициатива «Восточное партнерство» направлено на укрепление отношений между Европейским Союзом и шестью восточноевропейскими партнерами. Сюда входят Армения, Азербайджан, Грузия, Молдова, Украина и Беларусь [2, с.121].

Восточное партнерство представляет собой гибкую платформу, которая позволяет странам Южного Кавказа развивать индивидуальные отношения с Европейским Союзом, отражая свои уникальные потребности и приоритеты: различные формы поддержки, техническую помощь, финансирование проектов, обмен опытом и обучение. Такой подход способствует укреплению взаимодействия между Европейским Союзом и странами Южного Кавказа, а также содействует их политической, экономической и социальной стабильности. Эти отношения включают в себя политический диалог, сотрудничество в области юстиции, а также создание Углубленной и всеобъемлющей зоны свободной торговли (DCFTA).

Через DCFTA стремятся создать благоприятные условия для взаимной торговли, сокращение торговых барьеров и стимулирование экономической интеграции между участниками. Это также может содействовать развитию бизнеса, созданию новых рабочих мест и привлечению инвестиций. Восточное партнерство поддерживает программу культурного обмена, образовательные проект, молодежные программы и инициативы гражданского общества. Все это способствует укреплению связи между обществами и народами разных стран [5, с.141].

Страны Южного Кавказа имеют разные подходы к своим отношениям с Европейским Союзом, отражающие их уникальные стратегические интересы и внешнеполитические ориентиры.

Грузия, с ее ярко-выраженной приверженностью евроатлантической интеграции, активно продвигает реформы и сближение с европейскими стандартами, стремясь к членству в Европейском Союзе и НАТО.

Армения, несмотря на первоначальный выбор в пользу более тесных связей с Евразийским экономическим союзом, впоследствии подписала соглашения о всеобъемлющем и расширенном партнерстве с ЕС.

Азербайджан также сохраняет стратегический баланс, взаимодействия ЕС по конкретным вопросам, не выражая явной приверженности к интеграционным процессам. Это позволяет Азербайджану занимать более гибкую позицию и учитывать свои интересы в сложной геополитической среде региона.

Таким образом, различные подходы к сотрудничеству с ЕС отражает стремления каждой из стран Южной Кавказа к защите своих национальных интересов и обеспечению своей безопасности и стабильности в регионе [6, s.50].

ЕС участвует в дипломатических инициативах и поддерживает мирные усилия посредством диалога, медиации и финансовой помощи для облегчения напряженности и поиска решения конфликта. Важно отметить, что ЕС поддерживает принцип уважения международного права и создания условий для устойчивого развития, что является ключевым в процессе разрешения конфликтов в регионе. Для решения конфликтов ЕС предлагает диалог и сотрудничество, что способствует устойчивому развитию региона. Эти инициативы представляют финансовую и политическую поддержку для реформ, развитие инфраструктуры и улучшение условий жизни населения, что способствует смягчению напряженности и созданию условий для мирного сосуществования [7, s.122].

ЕС не только стремится к политическому урегулированию конфликтов, но и предполагает поддержку в различных областях, способствующих укреплению доверия, снижению напряженности и улучшению условий жизни нас.

Такой подход, охватывающий различные аспекты жизни в регионе, помогает ЕС не только решать непосредственные последствия конфликтов, но и предотвращать их повторение в будущем, способствуя устойчивому развитию и миру в Южном Кавказе. Создание экономических возможностей и улучшение условий жизни способствует укреплению мирных отношений и стабильности в регионе.

Кроме того, поддержка экономической взаимозависимости становится средством для создания основы для долгосрочной стабильности и устойчивого развития, что является ключевой целью усилий ЕС на Южном Кавказе. ЕС может продолжать свои усилия в качестве посредника и медиатора, поддерживая диалог между конфликтующими сторонами и способствуя установлению доверия и сотрудничеству. Кроме того, важно учитывать потребности и интересы местного населения, поддерживая программы по восстановлению и развитию регионов, пострадавших от конфликтов, чтобы обеспечить их устойчивое развитие и интеграцию в международное сообщество [3,с.134].

ЕС стремится к комплексным решениям направленным на устранение основных причин конфликтов посредством дипломатических инициатив, гуманитарной помощи и постконфликтного восстановления. Таким образом это содействует восстановлению отношений, а также

созданию условий для развития региона. ЕС активно создает условия для развития мирного диалога. Это обеспечивает мир и стабильность в регионе Южного Кавказа. DCFTA предоставляет более широкие возможности для торговли и инвестиций, стимулирует экономический рост и способствует модернизации экономики. Это важный шаг в направлении устойчивого развития региона и повышения жизненного уровня его жителей.

DCFTA также способствует сближению законодательства и стандартов с Европейским Союзом, что может усилить конкурентоспособность региональных экономик и открыть новые возможности для бизнеса и инвестиций [4, с.109].

Подписание и реализация соглашений DCFTA Арменией, Грузией и Молдовой действительно предоставили им расширенный доступ к рынку ЕС и поощрили экономические реформы. Эти страны получили возможность углубить свои экономические связи с Европейским Союзом, что способствует модернизации и развитию их экономики, а также созданию новых возможностей для предпринимательства и инвестиций.

Выходя за рамки торговых отношений Европеский Совет оказывает финансовую помощь, техническое сотрудничество, наращивает потенциал для населения в конфликтных регионах Южного Кавказа.

В этом контексте европейский инструмент соседства играет главную роль. Предоставляя финансовую помощь через инструменты Европейский инструмент соседства (ЕИС) Евросоюз развивает экономику, улучшает инфраструктуру и решает социальные проблемы.

Таким образом создается стабильность и устойчивость на Южном Кавказе, улучшается качество жизни местного население и развивается экономика региона.

ЕС придает важное значение экономическому росту и созданию рабочих мест при активном участии частного сектора. Поэтому Европейский Союз создает условия для развития бизнеса и экономики, предоставляет финансовую и техническую поддержку малого и среднего предприятий ( МСП) через такие программы как инициатива EU4Business [1, s.144].

### *Литература*

1. *Əliyev A.Ə. "Azərbaycan iqtisadi siyasəti", Bakı, "Qanun nəşri", 2019, 264 səh.*
2. *Климанов А.А. "Политика Европейского Союза", Москва, "Горячая Линия-Телеком", 2017, 366 с.*
3. *Курочкин В.Н. "Экономика", Москва, "Горячая Линия-Телеком", 2014, 2018 с.*

4. *Михайлова О. “Международная экономика”, Санкт-Петербург, “БХВ-Петербург”, 2017, 505 с.*
5. *Сидоров А. “Экономика”, Санкт-Петербург, “Питер”, 2010, 421 с.*
6. *Aras O. “Azerbaycan Ekonomisi ve Dönüşüm Süreci”, Ankara, “Tipik yayın evi”, 2022, 401s.*
7. Hüseynov *N. “Azerbaycan'da Ekonomik Kalkınma: Reformlar ve İstikrar”, Ankara, “Dora Yayınları”, 2019, 411 s.*

**U.M.Abdullazadə**
**Bakı Slavyan Universiteti**
***ulduzabdullazada@gmail.com***

# GÜRCÜSTAN VƏ ERMƏNİSTAN ARASINDA MÜNASİBƏTLƏRİN BƏZİ XÜSUSİYYƏTLƏRİ

***Xülasə***

*Bu məqalədə Gürcüstan respublikası və Ermənistan respublikası arasında olan münasibətlərin tarixi kökləri araşdırılmışdır. Qeyd olunur ki, Gürcüstan Respublikası və Ermənsitan Respublikası arasında diplomatik əlaqələr 1992-ci ildə qurulmuşdur. Diplomatik əlaqələrin qurulması iki tərəf arasında həm iqtisadi, həm mədəni sahələrdə əməkdaşlığın yaranmasına və inkişafına səbəb oldu. Gürcüstan-Ermənistan dövlətlərinin qarşılıqlı münasibətləri Cənubi Qafqaz regionuna təsir edir. Bu baxımdan regionda sabitliyin əldə olunması, onun qorunub saxlanılması üçün region dövlətlərinin qarşılıqlı münasibətləri əhəmiyyət kəsb edir. Gürcüstan-Ermənistan münasibətlərinin müsbət istiqamətdə inkişafı üçün hər iki dövlətin dövlət başçıları səviyyəsində səfərlər keçirilir.*

# НЕКОТОРЫЕ ОСОБЕННОСТИ ОТНОШЕНИЙ МЕЖДУ ГРУЗИЕЙ И АРМЕНИЕЙ

***Резюме***

*В данной статье рассматриваются исторические корни отношений между Республикой Грузия и Республикой Армения.Отмечено, что дипломатические отношения между Республикой Грузия и Республикой Армения были установлены в 1992 году. Установление дипломатических отношений привело к развитию сотрудничества как в экономической так и в культурной сфере между двумя странами. Взаимоотношения между Грузией и Арменией влияют на регион Южного Кавказа. С этой точки зрения взаимоотношения государств региона важны для достижения и поддержания стабильности в регионе. Для развития грузино-армянских взаимоотношений в положительном направлении проводятся визиты на уровне глав государств обеих стран.*

# SOME FEATURES OF RELATİONS BETWEEN GEORGİA AND ARMENİA

***Summary***

*This article examines the historical roots of relations between the Republic of Georgia and the Republic of Armenia. It is noted that diplomatic relations between the Republic of Georgia and the Republic of Armenia were established in 1992. The establishment of diplomatic relations led to the development of cooperation in both the economic and cultural spheres between the two countries. The relationship between*

*Georgia and Armenia affects the South Caucasus region. From this point of view, the relationship between the states of the region is important for achieving and maintaining stability in the region. To develop Georgian-Armenian relations in a positive direction, visits are held at the level of heads of state of both countries.*

***Açar sözlər:*** *Gürcüstan, Ermənistan, mədəni əlaqələr, əməkdaşlıq, humanitar*
***Ключевые слова:*** *Грузия, Армения, культурные связи, сотрудничество, гуманитарные*
***Key words:*** *Georgia, Armenia, cultural relations, cooperation, humanitarian*

Gürcüstan və Ermənistan Respublikası arasında diplomatik əlaqələr 1992-ci il iyulun 17-də qurulub. Hər iki ölkə arasındakı münasibətlər Cənubi Qafqaz regionunda sabitliyinin qorunub saxlanılması baxımından əhəmiyyət kəsb edir. Ermənistan-Gürcüstan münasibətləri müəyyən asimmetriya və prioritetlərin fərqliliyi ilə xarakterizə olunur. Beləliklə, Ermənistan üçün Gürcüstan ilk növbədə onu xarici dünya ilə birləşdirən ən mühüm tranzit ölkə hesab olunur. Buna səbəb isə Ermənistanın yükdaşımalarının demək olar ki, 75%-i Gürcüstanın ərazisindən keçir. Ermənistan-Gürcüstan münasibətləri müəyyən asimmetriya və prioritetlərin fərqliliyi ilə xarakterizə olunur. Beləliklə, Ermənistan üçün Gürcüstan ilk növbədə onu xarici dünya ilə birləşdirən ən mühüm tranzit ölkə hesab olunur, çünki Ermənistanın yükdaşımalarının demək olar ki, 75%-i ondan keçir. Gürcüstan əsas kommersiya tərəfdaşlarından biri olan Ermənistan Respublikası ilə azad ticarət sazişi imzalayır. Əsas prioritetlərdən biri ticarət-iqtisadi və siyasi tərəfdaşlıqdan əlavə, mədəniyyət sahəsində əməkdaşlıqdır. Erməni tarixçilərinin əsərlərində daim gürcüləri pisləməsi, onlara qarşı əsassız iddiaları iki dövlət arasındakı münasibətləri gərginləşdirir. Gürcüstan respublikası və Ermənistan respublikası arasında münasibətləri gərginləşdirən digər amil isə, Cavaxetinin və başqa bir çox maddi-mədəniyyət abidələrinin erməniləşdirilməsi addımı olmuşdur. Lakin buna baxmayaraq, gürcü tarixçiləri ermənilərin bu iddialarının əsassız olduğunu vurğulamışdır. Hər iki dövlət SSRİ dağıldıqdan sonra əlaqələrini gücləndirmək məcburiyyətində qalmış olsa belə, ikitərəfli münasibətlərdə gərginlik hökm sürmüş və bu günə qədər qalmağa davam edir. 2021-ci ildə Paşinyan yenidən Ermənistan respublikasının baş naziri seçildikdən sonra Gürcüstan respublikasının yeni prezidenti Zurabişviliyə Ermənistan və Gürcüstan respublikalarının arasında olan dostluq münasibətlərindən bəhs etmişdir.

Cənubi Qafqaz regionunun gələcəyini Gürcüstan və Ermənistan, eləcə də Gürcüstan və Azərbaycan arasında olan münasibətlərin dərinləşmədən inkişafını təsəvvür etmək mümkün deyil. Gürcüstan və Ermənistan arasında güclü tarixi və mədəni əlaqələr, eləcə də dil və din oxşarlığı var. Hər iki xalqın ortaq xristian mənşəyi onların birlik hissini gücləndirir. Hər iki ölkə arasında

anlaşmaların gücləndirilməsi və münasibətlərin möhkəmləndirilməsi istiqamətində cəhdlər olmuşdur. Gürcüstan və Ermənistanın diplomatik əlaqələri əsasən sabitdir. Hər iki dövlət ümumi maraq doğuran məsələlərdə əməkdaşlıq edib və regional sabitliyin qorunmasında istək nümayiş etdirib. Gürcüstan və Ermənistan arasında iqtisadi əlaqələr ticarət, nəqliyyat və enerji sahələrini əhatə edir. Hər iki ölkə əlaqələrin və iqtisadi inkişafın gücləndirilməsinə yönəlmiş regional layihələrdə iştirak edib [1, s.124].

Mədəni mübadilə yolu ilə xalqlar arasında əlaqələrin inkişafı və iki xalq arasında qarşılıqlı anlaşmanın yaxşılaşdırılması təşəbbüsləri olub. 2010-cu ilin sonu 2011-ci ilin əvvəllərində Gürcüstan və Ermənistan respublikalarının prezidentlərinin iştirakı ilə erməni-gürcü məktəbləri arasında olimpiada keçirilmişdir. Bu olimpiadanın keçirilməsində əsas məqsəd hər iki ölkə arasında olan mədəni əlaqələrin gücləndirilməsi olsa da, Ermənistan respublikasının əsas məqsədi öz mədəniyyətlərini gürcü mədəniyyyəti ilə müqayisə etmək idi. Ermənistan respublikasının prezidenti Serj Sarkisyan öz çıxışında bəyan etdi. O öz çıxışında bildirdi: “Ədəbiyyat sahəsində yarışdıq. Kimin teatrının daha qədim, daha yaxşı, kimin futbol və ya şahmat oynamağının daha yaxşı olduğunu mübahisə etdik. Bizim yarışımızın əsası bundan ibarət idi və bu, uşaqlarıma ötürə biləcəyimiz çox yaxşı bir vəsiyyətdir” [1, s.125].

Ermənistan respublikası yardım edərək, Gürcüstan ərazisində erməni apostol kilsəsi yeparxiyasının nəzdində “Ayartun” adlı mədəniyyət və təhsil mərkəzi fəaliyyət göstərir. Bu mərkəzin fəaliyyət göstərməsində ermənilərin əsas məqsədi şəhərin inkişafına verdikləri tövhələrdən bəhs edərək, şəhərin ətrafında ekskursiyalar keçirir, siyasətçilər və din xadimləri ilə müzakirələr aparırlar. Mərkəzdə uşaq bağçaları fəaliyyət göstərirdi ki, ermənilər bağçaların qarşısını kəsərək valideynlərin qarşısına uşaqların erməni məktəblərində təhsil almasını şərt qoyurdular. Gürcüstandakı erməniləşdirmə siyasətinin və mərkəzin direktoru olan Levon Çidilyan açıq-aşkar şəkildə əsas məqsədlərinin erməni dilini və mədəniyyətini qorumaqdan ibarət olduğunu vurğulamışdır.

2011-ci ildə Ermənistanın təhsil və elm naziri vəzifəsində çalışan Armen Aşotyan Gürcüstandakı məktəblərdə erməni dili fənni üzrə dərs saatlarının az olmasından şikayətlənməsi bir daha sübut etdi ki, ermənilərin əsas məqsədi Gürcüstanda erməni dilinin tədrisinə üstünlük verməsidir. A.Xudanyan gürcü əlifbasının yaranma tarixi barədə məlumat verərkən qeyd edir ki, guya erməni salnaməçisi öz əsərində gürcü çarının Maştosu dəvət edərək ondan gürcülər üçün əlifba yazmasını xahiş etmişdir. Lakin Maştosun tələbəsi qeyd etmişdir ki, Maştosun özü heç gürcü dilini bilmirdi. Bütün bu hadisələr ermənilərin gürcü əlifbasını yaratmaları haqqında uydurduqları yalan olduğunu sübut edir. Bütün bu dediklərimizi ümumiləşdirərək, belə bir nəticəyə gəlmək olar ki, Gürcüstanın Cavaxetidə yaşayan ermənilər potensial

təhlükə mənbəyi olaraq qalır. Ermənilər Gürcüstanda mövcud olan "mədəniyyət" mərkəzləri hesabına hər bir şeyi mənimsəyərək erməniləşdirməyə çalışırlar [1, s.126].

Gürcüstanda yaşayan milli azlıqlar içərisində ermənilər ikinci yerdədir. Gürcüstanda 2014-cü il siyahıya alınmasına əsasən, 168,1 min (4,5%) erməni yaşayır. Çarizm dövründə ermənilər ənənəvi olaraq hazırda məskunlaşdıqları Gürcüstan bölgələrinə köçürülürdülər. Gürcüstanda ictimai təşkilatlar M.Qorbaçovun Sovet İttifaqının "yenidənqurma" dövründən fəal şəkildə yaradılıb. Hazırda Gürcüstanda 20 tanınmış erməni ictimai qruplaşması fəaliyyət göstərir (digər mənbələrdə onların sayı 40-a qədərdir). Xüsusilə Sovet İttifaqının süqutunun başlaması ilə Samtsxe-Cavaxetiya erməniləri sərt mövqe tutaraq Ermənistana birləşməyə çağırdılar. İ.Muradyanın dediyi kimi, Cavaxetiyadakı erməni icması Ermənistanın Azərbaycana qarşı silahlı fəaliyyəti nəticəsində Dağlıq Qarabağ müharibəsi başlamasaydı, ərazinin Gürcüstandan ayrılmasını tələb edərdi. Eduard Şevardnadzenin hakimiyyəti zamanı bir neçə təşkilat yarandı ki, hazırda da həmin təşkilatlar fəaliyyət göstərir. Bunların içində ən böyükləri - Cavaxk, siyasi partiya olmağa iddialı Virk və özündə 10-dan artıq ictimai təşkilatı birləşdirən Samtsxe-Cavaxkın İctimai Təşkilatlar Birliyidir. Gürcüstanda fəaliyyət göstərən erməni təşkilatlarının əsas məqsədlərinə nəzər saldıqda aydın olur ki, bu təşkilatlar separatizmdən istifadə edərək Gürcüstan torpaqlarını parçalayaraq, muxtariyyət əldə edib və daha sonra bu əraziləri Ermənistanın tərkibinə daxil etməkdən ibarətdir. Gürcüstandakı erməni təşkilatları tərəfindən gürcü xalqının mülkiyyəti olan tarixi-mədəni abidələrlə bağlı əsassız iddialar irəli sürülür. Məsələn, yepiskop Vazgen Mirzəxanyan dini mərkəz kimi görünən, lakin fəaliyyəti Cavaxk təşkilatının separatçı mövqeyi ilə sıx bağlı olan Erməni Apostol Kilsəsinin lideridir. Yepiskop öz fərasətindən istifadə edərək "totalitar rejim zamanı əlindən alınmış kilsələrin" bərpasını tələb etdi. Qeyd edək ki, Gürcüstanda Eçmiədzin kilsəsinin təmsil olunduğunu iddia etdiyi kilsələrin sayı dəfələrlə artıb. Xüsusilə qeyd etmək lazımdır ki, Samvel Karapetyan 1995-ci ildə özünün "Gürcüstandakı erməni kilsələri" adlı xəritə-sorğu kitabçasını hazırlayıb. Kitabça sonradan rus dilinə tərcümə olunub. Müəllif bədii ədəbiyyatdan istifadə edərək Gürcüstandakı 650 erməni kilsəsini təsvir etmişdir. Onlar əslində Gürcüstandakı kilsələrdir. Gürcü xalqının abidələri S.Karapetyan tərəfindən "erməniləşdirilib". İnsan hüquqları müdafiəçisi Giorgi Tevzadze bu məsələ ilə bağlı Gürcüstan hökumətini təsirli ölçü götürməyə çağırıb. Onun fikrincə, ermənilərin bu cür əsassız iddiası ilk dəfə deyil ki, səsləndirilir və onlar dünya ictimaiyyətini aldatmağa çalışırlar. "Saerto qəzeti" bununla bağlı olaraq yazır: *"Bizim qonşularımız öz xasiyyətini və təbiətini dəyişə bilmirlər. İlk baxışdan, zərərsiz görünən tələbdən - mədəni abidələrin onlara verilməsi istəyindən planlı şəkildə addım-addım ərazilərimizin ilhaqına*

*keçirlər. Siz adları çəkilən kilsələri, onların ətraf ərazilərini, qəbiristanlıqların ərazilərini, həmçinin erməni dilini inzibati dil elan olunmasını tələb edən Samsxe-Cavaxetini təsəvvürünüzə gətirin."* Araşdırmalar göstərib ki, erməni qruplaşmaları Gürcüstanın ərazisini parçalamaq, ərazilərini ilhaq etmək, tarixi-mədəni abidələr əldə etməklə yanaşı, Gürcüstanın Türkiyə və Azərbaycanla olan əlaqələrinə mənfi təsir gətirməyə çalışır. Buna dair çoxlu misallar gətirmək olar: 17 aprel 2017-ci ildə "Gürcüstanda erməni birliyi" öz səhifəsində "Nəyə görə gürcü hakimiyyəti erməni xalqının soyqırımını tanımalıdır" adlı məqalə yerləşdirib. Məqalənin ümumi məzmunu aşağıdakı kimidir: *"Əsas məsələ mənəvi dəyərlərdən qaynaqlanır. Özünü Avropa sivilizasiyasının bir parçası hesab edən dövlət bütün insanlığa qarşı törədilmiş cinayət misalında olan kütləvi insan qırğınını tanımalıdır. Artıq 26 ildir ki, Gürcüstan elitası Türkiyə və Azərbaycanla münasibətlərini bəhanə gətirərək öz susqunluğuna bəraət qazandırır. Bu gün Gürcüstanda erməni soyqırımının tanınması milli təhlükəsizlik məsələsinə çevrilib. Bizim qarşımızda yalnız bir çıxış yolu qalıb, ölkənin hakim dairələrinə hansısa digər dövlətlərin deyil, məhz öz milli maraqlarının qorunmasına çalışılması aydınlaşdırılmalıdır".* Qeyd edək ki, hər ilin aprel ayında erməni "soyqırımı"nın ildönümündə "Gürcüstanda Erməni Birliyi" Türkiyə səfirliyi qarşısında etiraz aksiyaları keçirir və Gürcüstan hökumətini onları tanımağa çağırır. Qrupun gəncləri Azərbaycanın işğal olunmuş rayonlarına səfərlər planlaşdırır və sosial şəbəkələrdə "qədim diyarımız" həştəqi altında yerlərin görüntülərini yerləşdirirlər. Bu da təbii ki, Azərbaycan tərəfinin narazılığına səbəb olur. Təsisçiləri Abxaziya münaqişəsində gürcü xalqına qarşı vuruşmuş "Baqramyan" batalyonunun veteranları olan "Daşnaksütyun" yönümlü qrupların Gürcüstandakı erməni təşkilatlarının fəaliyyətinin araşdırılması zamanı üzə çıxır. Qrupların əsas diqqəti separatizm olduğu üçün ölkə rəhbərliyi tərəfindən lazımi addımlar atılmasa, Gürcüstan ikinci Qarabağ problemini görə bilər [3].

2022-ci il 17 noyabr tarixində Ermənistan Respublikası Milli Assambleyasının nümayəndə heyətinin Gürcüstan parlamentinə səfəri çərçivəsində bu gün Gürcüstan parlamentinin Mədəniyyət komitəsi ilə Elm, təhsil, mədəniyyət komitəsi arasında əməkdaşlıq memorandumu imzalanıb. Memorandumu Gürcüstan parlamentinin Mədəniyyət komitəsinin rəhbəri Eliso Bolkvadze və Ermənistan Respublikası Milli Assambleyasının Elm, Təhsil, Mədəniyyət, Diaspora, Gənclər və İdman Komitəsinin sədri Sisak Qabrieliani imzalayıblar. Eliso Bolkvadzenin sözlərinə görə, imzaladıqları əməkdaşlıq memorandumu nəticəsində iki komitə arasında parlamentdə daha çox əməkdaşlığı gücləndirəcək, mədəni əlaqələrin dərinləşməsinə, regionda təhlükəsizliyin möhkəmlənməsinə töhfə verəcək. "İlk dəfə imzalanan komitələr arasında qarşılıqlı əməkdaşlıq haqqında memorandum iki ölkənin

qanunvericilik orqanları arasında münasibətlərdə yeni mərhələnin başlanğıcı olacaq və parlament əlaqələrinin möhkəmlənməsinə təkan verəcək. Birgə həyata keçirəcəyimiz maraqlı, konkret planlar müəyyən etmişik. Onların arasında həm Gürcüstanda, həm də Ermənistanda komitələrin birgə iclaslarının keçirilməsi, mədəniyyət günlərinin təşkili və digər tədbirlər iki ölkə xalqları arasında mədəniyyət sahəsində əlaqələrin daha da fəallaşmasına töhfə verəcək. Mədəni əlaqələrin sülh proseslərində xüsusi rolu olması vacibdir və biz regionda sülhün bərqərar olması üçün hər şeyi edəcəyik”, - Eliso Bolkvadze memorandumu imzaladıqdan sonra bildirib. Gürcüstan və Ermənistan parlamentlərinin komitələri arasında əməkdaşlıq memorandumu Gürcüstan parlamentinin spikerləri Şalva Papuaşvili və Ermənistan Respublikası Milli Assambleyasının sədri Alen Simonyan tərəfindən imzalanıb [2].

Ölkələrin əməkdaşlıq gündəliyinin əsas mövzuları baş nazirlər tərəfindən müzakirə edilib və onlar Hökumətlərarası İqtisadi Komissiyanın iş dinamikasını da qiymətləndiriblər. Gürcüstan və Ermənistan Respublikası arasında ticarət və iqtisadi əməkdaşlığa, o cümlədən nəqliyyat, logistika və mədəni mübadilələrə diqqət yetirilib. Tərəflər arasında əməkdaşlıq haqqında yeni ideyalar və iqtisadi əməkdaşlığın yeni yolları barədə də danışıqlar gedib. İki ölkənin Hökumətlərarası İqtisadi Əməkdaşlıq Komissiyasının onlar arasında daha sıx əlaqələrin gücləndirilməsi üçün bir məkan kimi nə qədər mühüm əhəmiyyət kəsb etdiyi vurğulanıb. İrakli Qaribaşvili Cənubi Qafqaz regionunda sülh və sabitliyin dəstəklənməsinin vacibliyini vurğulayaraq, sülhün və sabitliyin təmin edilməsinin regiona yeni imkanlar gətirəcəyini qeyd edib. Görüşdə, o cümlədən Ermənistan və Azərbaycan respublikalarının baş nazirlərinin Tibilisidə keçirilən görüşündə Gürcüstanın regionda sülh və sabitliyin təşviqində mühüm rolu və səyləri qeyd edilib. İrakli Qaribaşvili qeyd edib ki, Gürcüstan regionun sülh yolu ilə inkişafı üçün səylər göstərməyə hazır olduğunu bildirməkdə davam edir [3].

Gürcüstanın Ninotsminda bələdiyyəsi, Gandza kəndi ərazisində erməni muzeyi fəaliyyət göstərir. Muzeydə erməni şairi Vaan Teryanın xatirə əşyaları, onun həyat və yaradıcılığına aid fotoşəkillər və sənədli materiallar, bölgənin etnoqrafik materialları, yerli rəssamların çəkdiyi rəsmlər, qrafika və heykəllər qorunur.

Son olaraq qeyd edək ki, 10.03.2024-cü il tarixində erməni Aostol pravoslav kilsəsinin Gürcüstan yeparxiyasında Danimarka parlamentinin nümayəndə heyəti qəbul edilib. Görüş zamanı yeparxiyanın başçısı olan Kirakos Davitani yepparxiyanın fəaliyyəti, icmanın qarşısında duran əsas məqsədlər və planlar barədə qonaqlara məlumat verib. Danimarkanın Gürcüstandakı səfiri Anne Toft Sorensen də görüşdə iştirak etmişdir [4].

***Ədəbiyyat***

1. *Qasımlı. M. "Qafqazşünaslığın Aktual Problemləri", Bakı - 2022, 124 səh.*
2. *https://www.faktinfo.az/news/gurcustandaki-ermeniler-texribat-menbeyidir Salayev.K. Gürcüstandakı ermənilər təxribat mənbəyidir.*
3. *https://modern.az/aktual/144363/gurcustanda-fealiyyet-gsteren-ermeni-teskilatlari/ Gürcüstanda fəaliyyət göstərən erməni təşkilatları.*
4. *https://arka.am/ru/news/society/24895/ Сотрудничество между Арменией и Грузией в сфере образования приобретает новое качество.*
5. *https://armenianchurch-ge.translate.goog/ka/2019-05-10-22-13-34/2024-03-06-08-34-01?_x_tr_sl=ka&_x_tr_tl=tr&_x_tr_hl=tr&_x_tr_pto=sc დანიის საპარლამენტო დელეგაციის და საქართველოში დანიის ელჩის ანნე ტოფტ სორენსენის ვიზიტი საქართველოს სომეხთა ეპარქიის თბილისის სურბ გევორგ მთავარ საკათედრო ტაძარში*

**M.F.Əliyev**
**Bakı Slavyan Universiteti**
***murad20.aliyev@gmail.com***

# TÜRKİYƏ - YUNANISTAN ARASINDA KİPR PROBLEMİ

***Xülasə***

*Lozanna Sülh Müqaviləsinin imzalanması Kiprin statusunun müəyyənləşdirilməsində kritik bir addım idi. Bu müqavilə İngiltərənin Kipr üzərində suverenliyini qanuni əsaslarla təmin etdi. Bununla belə, Türkiyə ilə Yunanıstan münasibətləri və Kiprin statusu ilə bağlı fikir ayrılıqları davam edirdi. Yunanıstan vətəndaş müharibəsi və İngiltərə ilə münasibətlərinin təsiri ilə Kiprin birləşmək istəyini məhdudlaşdırdı. Türkiyə isə Kiprin statusunun müəyyənləşdirilməsində aktiv rol oynamaq istəyirdi. Lakin 1954-cü ildə Yunanıstanın BMT-yə müraciət etməsi və Türkiyənin bu münasibəti gərginliyi daha da artırdı. Bu vəziyyət 1963-64 və 1967-ci il hadisələri ilə yekunlaşdı və Türkiyənin hərbi müdaxiləsinə səbəb oldu. Türkiyənin müdaxiləsi Türkiyə və Yunanıstan münasibətlərindəki gərginliyi artırdı və 1974-cü ildəki əməliyyatla Kiprdə iki ayrı icmanın mövcudluğunu təmin etdi. Bu prosesdə danışıqlar yolu ilə gərginliyi azaltmaq üçün səylər göstərilsə də, Kipr probleminin həlli üçün hələ də davam edən səylər var.*

# КИПРСКАЯ ПРОБЛЕМА МЕЖДУ ТУРЦИЕЙ И ГРЕЦИЕЙ

***Резюме***

*Подписание Лозаннского мирного договора стало решающим шагом в определении статуса Кипра. Этот договор юридически гарантировал британский суверенитет над Кипром. Однако разногласия по поводу турецко-греческих отношений и статуса Кипра продолжались. Гражданская война в Греции и влияние ее отношений с Великобританией ограничили желание Кипра присоединиться. Турция хотела играть активную роль в определении статуса Кипра. Однако обращение Греции в ООН в 1954 году и позиция Турции еще больше усилили напряженность. Эта ситуация достигла кульминации в событиях 1963-64 и 1967 годов и привела к военной интервенции Турции. Вмешательство Турции усилило напряженность в турецко-греческих отношениях и обеспечило существование двух отдельных общин на Кипре благодаря операции 1974 года. Хотя были предприняты усилия по снижению напряженности посредством переговоров в этом процессе, все еще продолжаются усилия по решению кипрской проблемы.*

# CYPRUS PROBLEM BETWEEN TURKEY – GREECE

***Summary***

*The signing of the Lausanne Peace Treaty was a critical step in determining the status of Cyprus. This treaty legally guaranteed British sovereignty over Cyprus.*

*However, disagreements continued over Turkey-Greece relations and the status of Cyprus. The Greek civil war and the influence of its relationship with Britain limited the desire of Cyprus to join. Turkey wanted to play an active role in determining the status of Cyprus. However, Greece's appeal to the UN in 1954 and Turkey's attitude further increased the tension. This situation culminated in the events of 1963-64 and 1967 and led to Turkey's military intervention. Turkey's intervention increased the tension in Turkish-Greek relations and ensured the existence of two separate communities in Cyprus with the 1974 operation. Although efforts have been made to reduce tensions through negotiations in this process, there are still ongoing efforts to resolve the Cyprus problem.*

***Açar sözlər:*** *Türkiyə, Yunanıstan, Kipr, ikitərəfli əlaqələr*
***Ключевые слова:*** *Турция, Греция, Кипр, двусторонние отношения*
***Key words:*** *Turkiye, Greece, Cyprus, bilateral relations*

Türkiyə və Yunanıstanın əsrlər əvvələ dayanan mürəkkəb və zamanla gərginləşən münasibətləri var. Hər iki ölkənin zəngin tarixləri və mədəniyyətləri var, lakin onların rəqabətini gücləndirən toqquşan maraqları və ərazi mübahisələri də var. Müasir dövrdə onların qarşılıqlı münasibətləri əməkdaşlıq və qarşıdurma dövrləri ilə yadda qalıb.

Lozanna Sülh Müqaviləsi imzalandıqdan və İngiltərənin Kipr üzərində faktiki suverenliyinə hüquqi əsas verildikdən sonra, Türkiyə və Yunanıstan Kiprin bu statusa sadiq davrandılar. İkinci Dünya Müharibəsindən sonra On iki Adaların Yunanıstana verilməsi ilə Kiprlə bağlı bəzi millətçi gözləntilər ön plana çıxdı.

Müharibənin başa çatması ilə, xüsusilə Kipr Rum Yunan icması daxilində İngiltərədən müstəqillik əldə etmək və Yunanıstana birləşmək haqqında müzakirələr aparıldı. Lakin 1946-49-cu illərdə Yunanıstanda baş verən vətəndaş müharibəsinin yaratdığı xaos və İngiltərənin Yunanıstana iqtisadi, siyasi və hərbi yardımı nəticəsində yaranan asılılıq münasibətləri Yunanıstanın bu cür milliyətçi gözləntiləri dəstəkləməsinə mane oldu. Həqiqətən də Yunanıstan 1950-ci illərin əvvəllərinə qədər Kipr Rum icmasının liderlərinin irəli sürdüyü tələblərə soyuq münasibət bəsləmişdir. Əslində, General Plastiras hökuməti 1950-ci ildə Kiprdə keçirilən referendumu qəbul etməkdən çəkinir və bu vəziyyətin Yunanıstan və İngiltərə arasındakı yaxınlaşmanı pozacağından ehtiyat edirdi. 1950-ci ilin iyununda Q.Papandreu da eyni narahatlığı ifadə edərək, “Bu gün Yunanıstan biri İngiltərə, digəri ABŞ olmaqla iki ciyərlə nəfəs alır. Ona görə də Kipr məsələsinə görə nəfəssiz qalıb boğula bilməz” demişdi [1].

1951-ci ildə Yunanıstanda Kipr məsələsi ətrafında müzakirələr ictimai rəyə təsir etməyə və hökumətə təzyiq göstərməyə başladı. Sonda general Plastiras bu məsələdə bəzi təşəbbüslər həyata keçirməli oldu. Kipr məsələsinin

BMT-yə çıxarılması üçün hazırlıqlar davam edərkən, İngiltərənin bu mövzuda danışıqlar aparmaq istəməsi ilə Yunanıstanın Kipr məsələsi ilə bağlı təşəbbüsləri sürətlənməyə başladı. S.Venizelosun Yunanıstanda verdiyi açıqlama artıq bu mövzuda rəsmi siyasətlərin dəyişdiyinin göstəricisi idi. S.Venizelosun Britaniyalı bir nazirin "Heç bir Yunan hökuməti Kipr məsələsi ilə bağlı rəsmi iddialarla çıxış etməyib" ifadəsinə cavab olaraq verdiyi açıqlamaya görə, "1912-ci ildən bəri Yunanıstandakı hər bir Yunan hökuməti Kipr və Yunanıstanın birləşməsi arzusunu açıq şəkildə ifadə edir". Bu mövzuda çatışmazlıqlar, İngiltərənin davranışı və Yunan hökumətlərinin problemin sülh yolu ilə həllini gözləmək taktikasından qaynaqlanır. Yunan hökumətlərinin Kipr probleminə cavabı "Məsələyə yanaşmaları ilə bağlı mümkün şübhələri aradan qaldırmaq üçün parlament, Yunan xalqı kimi, Yunanıstanın hər zaman birləşməsi arzusunda olmuşdur. Kiprin ana vətəni Yunanıstandır və bu arzu bütün Kiprlilərin və Yunan xalqının güclü arzusunu əks etdirir" [2].

Yunanıstanın Kiprlə bağlı siyasətinin dəyişməsi ilə bu ölkə ilə İngiltərə arasında 1955-ci ilə qədər davam edən danışıqlar prosesi baş verdi. İki ölkə arasında Kipr məsələsi ilə bağlı danışıqlar davam edərkən, Böyük Britaniya və ABŞ-ın Yaxın Şərqdəki müdafiə və əməkdaşlıq səyləri çərçivəsində Yunanıstan və Türkiyə arasında əlaqələrin gücləndirilməsi istiqamətində səylər göstərildi. Yunanıstanın Kipr siyasətinə yanaşmasını dəyişdirən digər amil də Türkiyənin bu problemə uzun müddət İngiltərənin daxili problemi kimi baxmasının yaratdığı ürəkaçan mühit olmuşdur. Həqiqətən də, 1954-1955-ci illər arasında Yunanıstanın Kiprlə bağlı tələbləri rəsmiləşdikcə və İngiltərənin ada üzərindəki suverenliyindən imtina etmə ehtimalı artdıqca, Türkiyə problemlə maraqlanmağa başladı. Türkiyə ümumilikdə adada Britaniyanın suverenliyini qoruyub saxlamaq üçün xarici siyasət yürütsə də, adanın gələcək statusu müzakirə olunmağa başlanması ilə birlikdə Lozanna Müqaviləsinin 16-cı maddəsinə əsaslanaraq, onun gələcək statusunun müəyyən edilməsində tərəf kimi qəbul edilməsi lazım olduğunu irəli sürüldü.

"1954-cü ildə Yunanıstanın problemi Birləşmiş Millətlər Təşkilatına çatdırmaq üçün səyləri güclənməyə başlayanda Türkiyə də problemlə rəsmi şəkildə məşğul olmağa başladı. Türkiyənin Afinadakı səfiri Yunanıstan hökumətinə Türkiyənin adadakı statusunun saxlanmasının tərəfdarı olduğunu bildirib. Adanın gələcəyi ilə bağlı hər hansı bir səy göstərəcəklərsə, bu haqqda Türkiyənin də tərəf olaraq göstərilməsi və problemi Birləşmiş Millətlər Təşkilatına çatdırmağın Türk-Yunan münasibətlərinə mənfi təsir göstərəcəyinə inandığını bildirmişdir" [3].

1954-cü ildə Yunanıstan hökumətinin Kipr məsələsini Birləşmiş Millətlər Təşkilatına daşıyacağını və öz müqəddəratını təyinetmə (self-determation) hüququnun tanınmasını tələb edəcəyini bildirməsi, Türkiyədən

fikirlərini açıq şəkildə ifadə etməsini tələb etdi. Belə ki, Türkiyənin fikirlərini açıqlayan F.Köprülüyə görə, "İngiltərənin idarəçiliyi altında olan Kipr məsələsi ilə bağlı Yunan liderləri ilə heç vaxt danışıqlar olmayıb və Yunanıstanla məsələnin müzakirəsi yersiz olacaq. Türkiyə üçün "Kipr problemi" yoxdur. Amma bir gün adanın gələcəyi "İngiltərə ilə müzakirə ediləcək bir məsələ olaraq ortaya çıxsa, adada yaşayan böyük Türk azlığının olması, Türkiyəyə məsələ ilə bağlı fikirlərini ifadə etmə haqqı verəcək. Bununla bərabər Türkiyə hökumətinin fikrincə, adanın hazırkı statusunda dəyişiklik etmək məqsədəuyğun deyil [4].

Yunanıstanın 16 avqust 1954-cü ildə məsələni BMT-yə götürməsi və sonradan istənilən nəticəni ala bilməməsi Kipr məsələsinin beynəlxalq miqyasını ortaya qoymuş, Kipr və Yunanıstanda Britaniya əleyhinə ictimai rəyin formalaşmasına səbəb olmuşdur. 1955-ci ildə İngiltərə Kipr problemi ilə bağlı tərəflər arasında Londonda görüşün keçirilməsini təklif etdi və Londonda Türkiyə, Yunanıstan və İngiltərə arasında konfrans keçirildi. Tərəflərin rəsmi fikirlərinin davam etdiyi bu görüşdə Türkiyə-Yunanıstan münasibətlərinə çox mənfi təsir edəcək 6 sentyabr hadisələri yaşandı. 1955-60-cı illər bir tərəfdən Kiprin gələcəyi ilə bağlı tərəflər arasında danışıqların aparıldığı, digər tərəfdən isə adadakı icmalar arasında fikir ayrılıqlarının yaşanmağa başladığı hadisələr silsiləsi yaratdı. Adada ingilis idarəçiliyinə qarşı başlayan zorakılıq hərəkətləri, Kipri Yunanıstana bağlamaq səylərinin qarşısında ən mühüm maneə olaraq görülməyə başlayan adadakı türk icmasını da hədəf almağa başladı.

1959-cu ildə beynəlxalq sistemdə baş verən regional hadisələr müttəfiqlər arasında əməkdaşlıq və həmrəylik səylərini tələb etdi və ABŞ və NATO-nun təzyiqi ilə "Türkiyə və Yunanıstan ikitərəfli danışıqlara başladı və iki dövlətin baş nazirləri arasında müstəqil saziş imzalandı. 5-11 fevral 1959-cu ildə Sürixdə keçirilən toplantılarda "Bu müstəqil qurum daxilində "Kipr Respublikası"nın və "Kipr Türk Birliyinin" azadlıq və hüquqlarını təmin edən konstitusiya prinsipləri və digər müvafiq müqavilələrin yaradılması qərarı alındı. Bu müqavilələr 1959-cu il fevralın 19-da Londonda Türkiyə, Yunanıstan və İngiltərə tərəfindən imzalandı [5].

1960-cı ildə, Kipr Respublikasının qurulmasından qısa müddət sonra, yunan icmasının adadakı türk icmasına göstərməyə başladığı təzyiqlər və onların konstitusiya hüquqlarından yararlanmalarına mane olmaq cəhdləri icmalar arasında yeni gərginliklərə səbəb oldu. 1963 və 1964-cü illərdə adada icmalararası qarşıdurmalar sürətləndi və getdikcə türk azlığını məhv etmək cəhdlərinə çevrildi. Türk cəmiyyətinə qarşı hücumların artması, konstitusiya quruluşunun gətirdiyi hüquqların həyata keçirilməməsi Türkiyənin reaksiyasına səbəb oldu. 1964-cü il həm Türkiyə-Yunan münasibətlərində gətirdiyi dəyişikliklər, həm də Türkiyənin xarici siyasətinə təsirləri baxımından çox əhəmiyyətli bir il oldu. 1963 və 1964-cü illərdə Kipr Türk icmasına qarşı

şiddətlənən təzyiq və hücumlar, Türkiyə Kipri qorumaq üçün zamin statusundan istifadə edərək türklərə qarşı olan hücumları dayandırmaq üçün təşəbbüs göstərməyə məcbur oldu. 1963-cü ilin dekabrında Kipr türk icmasına qarşı hücumların qırğına çevrilməsindən sonra Türkiyə çəkindirici hərbi tədbirlər görməyə ehtiyac duydu və türk döyüş təyyarələri adanın üzərindən uçmağa başladı. Makarios administrasiyasının Yunanıstanın dəstəyi ilə adanın statusunu dəyişmək cəhdləri, tədricən Kipr yunanlarının Rumlarının sürətlə silahlanmasına səbəb oldu. Bu vəziyyət adadakı türk və yunan icmaları arasında münasibətlərin daha da kəskinləşməsinə, gərginləşməsinə səbəb olsa da, Türkiyə ilə Yunanıstan arasında da gərginliyə səbəb oldu.

Bu gərginlik artdıqca, Türkiyə 1964-cü ilin ortalarında adaya hərbi müdaxilə qərarı vermək məcburiyyətində qaldı. Lakin Kiprlə bağlı müharibə nəticəsində Türkiyə ilə Yunanıstan arasında münasibətlərin pisləşə biləcəyindən və bunun ümumən Qərb-NATO maraqlarına, xüsusən də ABŞ-ın maraqlarına mənfi təsir göstərəcəyindən ehtiyatlanan ABŞ Türkiyənin bu qərarını çox sərt reaksiya verərək əngəllədi. ABŞ-ın tarixə məşhur "Jhonson məktubu" kimi keçən Türkiyənin müdaxiləsini əngəlləmək cəhdi Türkiyənin Kiprə müdaxiləsinin qarşısını almaqla yanaşı, Türkiyə-ABŞ münasibətlərində ciddi inamsızlıq və xəyal qırıqlığına səbəb oldu, Türkiyənin xarici siyasətində dəyişiklik etməsinə yol açdı.

Türkiyə ilə Yunanıstan arasında Kipr məsələsində gərginliyin azaldılmasından sonra başlayan danışıqlarla açılan yeni proses, Kipri "Enosis" vasitəsilə Yunanıstana bağlamaq cəhdlərini bir müddət dayandırdı. 1960-cı illərin sonlarına doğru Kipr Yunan Rum Administrasiyası getdikcə daha çox Yunanıstandan müstəqil siyasət yürütməyə başladı. Makarios administrasiyası getdikcə Kiprin müstəqilliyi ideyasına diqqət yetirməyə başladı.

1974-cü ilin iyununda baş verən yeni hadisələrlə Türkiyə-Yunanıstan münasibətləri birdən-birə yenidən müharibə həddinə çatdı. 1974-cü ilin iyununda Yunanıstanda hərbi xuntanın dəstəyi ilə hərəkətə keçən EOKA təşkilatı və Kipr Rum Milli Qvardiya Qüvvələrinin tərkibindəki yunan zabitlər Makarios rəhbərliyinə qarşı çevriliş edərək Nikos Sampsonu hakimiyyətə gətirdi. Yunanıstanın dəstəyi ilə Kiprdə həyata keçirilən bu çevriliş Türkiyənin reaksiyasını çəkmiş və Türkiyə adadakı türk icmasını hücumlardan qorumaq və onlara qarşı mübarizə aparmaq üçün qarant dövlətlərlə bir sıra görüşlərdən sonra razılaşmalardan irəli gələn öhdəliklərini yerinə yetirmişdir. İyulun 20-də Enosisin baş verməsinin qarşısını aldı. 1974-cü ildə Kiprə hərbi müdaxilə etmək qərarı aldı.

Türkiyənin Kiprə hərbi müdaxiləsinin iki mərhələli olması beynəlxalq ictimaiyyətdə müəyyən şübhələrə səbəb olub.

Türkiyənin Kipr Sülh Əməliyyatının birinci mərhələsində Zürih və London anlaşması ilə verilən hüquqlardan istifadə edərək əməliyyatı Cenevrə

danışıqları zamanı Türkiyənin iki icmanın ayrı mövcudluğunu vurğulayan federal həll təklifi ilə nəticələndi. Lakin Cenevrə danışıqları nəticəsiz qaldı və Türkiyə ikinci əməliyyatla adanın təxminən 30%-nə nəzarəti ələ keçirdi. Bu dövrdən etibarən türklər, adanın əvvəlki hüquqi quruluşunun dəyişdirilməsinə əsaslanmağa başladı [6].

Kiprə hərbi müdaxilə Türkiyə ilə Yunanıstan arasında birbaşa müharibə ehtimalını özü ilə gətirdi. Yunanıstanda hərbi xunta iflasa uğradı və Türkiyənin müdaxiləsi ilə dağıldı və Karamanlisin rəhbərliyi ilə milli birlik hökuməti yaradıldı. Tərəflər arasında yaranan gərginlik daha sonra Cenevrədə danışıqlar yolu ilə həll olunmağa çalışılıb, lakin Türkiyənin təklif etdiyi kanton quruluşu Yunanıstan tərəfindən qəbul edilməyib.

Yunanıstanda demokratiya bərpa olunsa da, baş nazir Karamanlisin rəhbərlik etdiyi yeni hökumət təkcə Kiprdə yeni böhranla qarşılaşmayıb, eyni zamanda 1922-ci ildən bəri ilk dəfə olaraq real Yunan-Türkiyə müharibəsi təhlükəsi ilə üzləşdi [7]. Ancaq Yunanıstan, Zürih və London anlaşması əsasında İngiltərə ilə birgə müdaxilə etməyi təklif etdi və İngiltərədən Kritdə toplanan tankların və ağır silahların Kiprə gətirilməsi üçün lazım olan hava dəstəyini verməsini istədi. Bundan əlavə, Karamanlis müdafiə naziri E.Averoffla birlikdə bu qüvvələrlə Kiprə gedəcəklərini açıqladı. Lakin İngiltərə baş naziri H.Vilson təklifi dəyərləndirmək üçün vaxt istədi və bu arada atəşkəs elan edildi. Belə ki, İngiltərənin hava dəstəyi olmadan Yunanıstan Kiprə yardım göndərə bilməzdi [8].

Artan ictimai qəzəbə cavab olaraq, Karamanlis Yunanıstanın hava və dəniz qüvvələrini Kipr yunan icmasına kömək etmək üçün göndərməyi təklif etdi. Lakin bu təklif Yunanıstan Baş Qərargahı tərəfindən həyata keçirilmədi. ABŞ və NATO-nun Türkiyənin ilk müdaxiləsini müsbət qarşılaması Yunanıstanda məyusluq yaradıb. Bütün bu hadisələrdən sonra Yunanıstan NATO-nun hərbi qanadını tərk etdiyini açıqladı. 1974-cü il Kipr böhranı Türkiyə ilə Yunanıstan arasındakı münasibətlərə təsir etməklə yanaşı, onların beynəlxalq münasibətlərini də dəyişdirdi. Kipr məsələsi Türkiyənin beynəlxalq arenada daimi gündəm mövzusuna çevrildiyi halda, məsələnin danışıqlar yolu ilə ədalətli və daimi şəkildə yekunlaşdırılmaması və ABŞ-la silah embarqosunun yaratdığı neqativlər Türkiyənin xarici ölkələrdə manevr imkanlarını məhdudlaşdırdı. Yunanıstan üçün Kipr məsələsi milli şərəf məsələsi hesab edilirdi və problemin bütün məsuliyyətini ABŞ və NATO-nun üzərinə atmağa çalışılırdı.

Yunan hərbi xuntası Kiprdəki Makarios administrasiyasının SSRİ ilə yaxınlaşmaq və getdikcə müstəqil siyasət yürütmək istəyindən narahat oldu və çevrilişdə CIA ilə əməkdaşlıq etdiyinə dair şübhələri artırdı. Bu, ABŞ-ı günahlandıran və NATO-nun münaqişə vəziyyətində kifayət qədər qətiyyətli hərəkət etmədiyinə inanan anti-ABŞ əhval-ruhiyyəsinə səbəb oldu.

Yunanıstanın hərbi və siyasi əlaqələrini gözdən keçirməli olduğu düşünülürdü və demokratiyanın yenidən dayandırılmasının qarşısını almaq üçün Qərbi Avropa ilə əlaqələrin gücləndirilməsi qərara alındı.

***Ədəbiyyat***

1. *Fahir Armaoğlu, 20. yy Siyasi Tarihi, Ankara: Türkiye İş Bankası Yayınları, 1983, s. 533.*
2. *F. Sönmezoğlu, "Kıbrıs Sorununda..," ss. 109-110.*
3. *Faruk Sönmezoğlu, "Kıbrıs Sorunu'nda Tarafların Tutum ve Tezleri", Türk Dış Politikasında Sorunlar, Der. Esat Çam, İstanbul Der Yay. 1989, s. 96.*
4. *Pantazis Terlexis, Greece's Policy and Attitude Towards the Problem of Cyprus, New York: N.Y. University, 1968, s. 91.*
5. *Pantazis Terlexis, Greece's Policy .., s. 91.*
6. *P. Terlexis, Greece's Policy .., ss. 159-160.*
7. *Van Coufoudakis, "Greek-Turkish Relations 1973-1983: the View from Athens," International Security, Vol.9, No. 4, Spring 1985, s. 197.*
8. *Robert McDonald, The Cyprus Problem, London: IISS Adelphi Paper Series 234, Winter 1988/89, s. 85.*

**S.M.Əlirzayev**
**Azərbaycan Dövlət Pedaqoji Universiteti**
***seyyadelirza@gmail.com***

# PEŞƏ - İXTİSAS TƏHSİLİ: YENİ TƏLƏBLƏR VƏ GƏLƏCƏYƏ İSTİQAMƏTLƏNƏN İNKİŞAF PERSPEKTİVLƏRİ

***Xülasə***

*Məqalədə peşə təhsili müəssisələrində yeni tələblərə cavab verən emalatxanaların vəziyyəti aydınlaşdırılır. Ümumiyyətlə onlara müəssisənin tərkibində yerləşməsinə ehtiyac varmı? sualına cavab axtarılır. Peşə təhsili müəssisələrində daha çox uğur qazanmaq üçün işəgötürənlərin rolu araşdırılır.*

*Peşə təhsili mərkəzlərinin yaranma tarixi, idarəetməsi haqqında ətraflı məlumat verilir. Onların strukturu, funksiyaları barəsində müzakirə aparılır. Müasir dövrün tələblərinə uyğun yeni ixtisaslar hansılardır və onların gələcəkdə hansı perspektivləri var? mövzusu aydınlaşdırılır. Bu ixtisaslardan müəyyən etmək olar ki, hansı sahələrə gələcəkdə daha çox ehtiyac var.*

*Bu məqalədə Azərbaycan və bir çox ölkələrdə peşə təhsilinə marağın olmaması və bunun aradan qaldırılması üçün yollar axtarılır. Bunun üçün dövlətimiz bir çox tədbirlər görüb və görür. Sadəcə geriyə o qərarları düzgün idarə etmək qalır. Peşə təhsilinin əhatəsinin genişləndirilməsi və məzmununun yaxşılaşdırılmasına dair təkliflərin gələcəyə istiqamətlənən perspektivləri araşdırılır. Həm maddi-texniki baza, həm də kadr hazırlığı müzakirə olunur.*

# ПРОФЕССИОНАЛЬНО-СПЕЦИАЛЬНОЕ ОБРАЗОВАНИЕ: НОВЫЕ ТРЕБОВАНИЯ И ПЕРСПЕКТИВЫ РАЗВИТИЯ, ОРИЕНТИРОВАННЫЕ НА БУДУЩЕЕ

***Резюме***

*В статье уточняется состояние цехов, отвечающих новым требованиям в учреждениях профессионального образования. Нужно ли им вообще находиться в составе предприятия? ищется ответ на вопрос. Исследуется роль работодателей в достижении большего успеха в учреждениях профессионального образования.*

*Дается подробная информация об истории создания, управлении центрами профессионального образования. Обсуждается их структура, функции. Какие новые специальности соответствуют требованиям современности и каковы их перспективы на будущее? тема уточняется. Из этих специальностей можно определить, какие области больше всего нужны в будущем.*

*В данной статье рассматривается отсутствие интереса к профессиональному образованию в Азербайджане и многих странах и поиск путей его преодоления. Для этого наше государство предприняло и принимает множество мер. Остается только вернуться к правильному управлению этими решениями. Рассматриваются перспективные направления предложений по расширению охвата и совершенствованию содержания профессионального образования. Обсуждается как материально-техническая база, так и подготовка персонала.*

## VOCATİONAL-SPECİALİZED EDUCATİON: NEW REQUİREMENTS AND DEVELOPMENT PROSPECTS ORİENTED TOWARDS THE FUTURE

***Summary***

*The article clarifies the situation of workshops meeting new requirements in vocational education institutions. Do they need to be located in the composition of the enterprise at all? search for an answer to the question. The role of employers in achieving more success in vocational education institutions is examined.*

*Detailed information is given about the history of the creation,management of vocational training centers. Their structure and functions are discussed. What are the new specialties in accordance with the requirements of modern times and what prospects do they have in the future? the subject is clarified. From these specialties it can be determined which areas are most needed in the future.*

*This article discusses the lack of interest in vocational education in Azerbaijan and many countries and the search for ways to overcome it. Our state has taken and is taking many measures to do this. All that remains is to correctly manage those decisions. The future-oriented prospects of proposals for expanding the scope of vocational education and improving its content are examined. Both the material and technical base and the training of personnel are discussed.*

***Açar sözlər:*** *texnologiya, qlobal baxış, əmək bazarının tələbləri, texnoloji mədəniyyət, peşə təhsil, təhsil, müasir mərhələ*

***Ключевые слова:*** *технологии, глобальное видение, требования рынка труда, технологическая культура, профессионально-техническое образовани, образование, современная сцена*

***Key words:*** *technology, global view, labor market requirements, technological culture, vocational education, education, modern stage*

Müasir mərhələdə iqtisadiyyatın inkişafı, istehsalın texnoloji mədəniyyətinin yüksəldilməsi, idarəetmə proseslərinin inzibati və texniki təminatı, bazar infrastrukturunun, texniki, informasiya və sosial xidmətlərin inkişafı üçün orta səviyyəli mütəxəssislərə tələbat artır.

Orta peşə məktəbi orta səviyyəli mütəxəssislərin hazırlanmasına, şəxsiyyətin təhsil və mədəni səviyyəsinin yüksəldilməsinə yönəlmiş kifayət

qədər əlçatan və geniş yayılmış peşə təhsili verir. Orta ixtisas təhsili müəssisələrində insanlar, əsasən əhalinin orta gəlirli təbəqələrindən təhsil alırlar. Bu, orta ixtisas təhsilinin maliyyələşdirilməsində dövlətin aparıcı rolunun qorunub saxlanmasını zəruri edir.

Əmək bazarında işçinin sabitliyi yalnız geniş əsaslı ümumi və peşə hazırlığına, sabit ümumi və xüsusi bacarıqlara əsaslanan peşəkar mobillik vasitəsilə təmin edilə bilər. Eyni zamanda, peşəkar mobillik həm də mümkün işsizlik şəraitində sosial müdafiə faktoruna çevrilir. Məhz buna görə də fəhlə və qulluqçuların kadr hazırlığının profilinin genişləndirilməsi və keyfiyyətinin yüksəldilməsi iqtisadiyyatın həm dövlət, həm də qeyri-dövlət sektoru müəssisələrinin əsas tələblərindən biridir. Standart tələblərin üç funksiyasını ayırd etmək olar: peşə hazırlığı ilə tələbələrin təhsili başa vurduqdan sonra işlə təmin olunacağı iqtisadiyyat sahələri arasında əlaqə; Aİ üzv dövlətlərində tanınacaq ixtisas səviyyəsi. Bir sıra dövlətlərdə standart tələblər milli kvalifikasiya çərçivəsinə uyğun gəlir. Buna görə də onların diplomları/sertifikatları müqayisə edilə bilər.

Peşə təhsili və təlimi dövlət siyasətinin əsas istiqamətinə aşağıdakılar daxildir:

- əmək resurslarının real sektorunda ən son texnologiyaların tələbləri səviyyəsində hazırlığının təmin edilməsi üçün kifayət qədər və zəruri şəraitin yaradılması;
- iqtisadiyyat;
- peşə təhsili və təlimi sahəsinin kənd təsərrüfatı, sənaye, tikinti, iqtisadiyyatın neft-qaz sektoru və digər sektorları ilə inteqrasiyası;
- çoxsəviyyəli davamlı təhsilin milli modelinin formalaşdırılması.

İqtisadiyyatda, əmək bazarında, sosial müdafiə mexanizmlərində köklü dəyişikliklərin davam etməsi, yeni dövlət və ictimai strukturların (məşğulluğu idarəetmə orqanları, işəgötürənlər birlikləri və digər sosial strukturlar) formalaşması ilk və orta ixtisas təhsilinin vəziyyətinə mühüm təsir göstərir.

Pandemiya şəraiti təhsil üçün böyük çağırışlar ortaya qoydu. Peşə təhsili üçün bu çağırışlara cavab vermək, bir qədər çətin oldu. Çünki peşə təhsili mahiyyət etibarilə praktiki təlimlər və istehsalat təcrübəsinə əsaslanan bir öyrənmə prosesidir.

20 il sonra əmək bazarında hansı peşələrin qalacağını, hansı ixtisaslara ehtiyac yaranacağını təxmin etmək elə də asan deyil. Ona görə də elə dinamik sistem qurulmalıdır ki, tələblərə uyğun daim dəyişə bilsin, yəni dəyişməyə daim hazır olan bir peşə təhsil sistemi olsun. Ölkəmizdə peşə təhsili müəssisələrinin sayı nə qədər olmalıdır və onların hamısında ən müasir emalatxanalara ehtiyac varmı? Məlum məsələdir ki, sənaye çox sürətlə inkişaf edir və peşə təhsil müəssisələri prosesə uyğun dəyişməlidir. Onda başqa bir sual ortaya çıxır: bu dəyişikliyə onların hamısının imkanı olacaqmı?

Ümumiyyətlə, bazarda mütəmadi olaraq yenilənən texnologiyanı peşə təhsil müəssisəsinin öz emalatxanasında təmin etməyinə ehtiyac varmı? Düşünəndə görürük ki, heç də həmişə bunu əsaslandırmaq olmur. Çünki işəgötürən onsuz da yeni texnologiyalar tətbiq edir. Peşə təhsil müəssisələri lazımi səviyyədə sosial tərəfdaşlıq əlaqələri qurarsa, bütün məktəblərdə eyni emalatxanalar qurulmasına ehtiyac qalmaya bilər, çünki istehsalat təcrübəsi və ya usta yanında şagird modellərindən istifadə etməklə təhsilin praktiki komponentini iş yerlərində əldə etmək olar.

Peşə təhsilində əsas fəaliyyət istiqamətlərindən biri işçilərlə əməkdaşlıq hesab olunur. İşəgötürənlərin peşə təhsilinin təşkili və tədrisində, həm də müəssisələrin idarəetməsində iştirakı mümkündür. Hesab etmək olar ki, onların tələblərinə nə qədər düzgün cavab versək, məhsulumuzun, yəni verdiyimiz təhsil və tədrisin keyfiyyəti bir o qədər də artacaq. Əksər müəssisələrimizdə idarəetmə və ya himayədarlar şuralarının yaradılması istiqamətində işlər görülür. Publik hüquqi şəxs statusu əldə edən təhsil müəssisələrimizdən başlayaraq mümkün olan müəssisələrimizin hamısında belə bir fəaliyyətin olmağını arzulayırıq. Lakin, təbii ki, bu, həm də işəgötürənlərin təhsil müəssisələrinin işində iştirakda maraqlı olmağından da birbaşa asılıdır. Onu da vurğulamaq lazımdır ki, əmək bazarı ilə əlaqə qurmadan peşə təhsilinin uğur qazanması qeyri-mümkündür. İşəgötürənlərin tədrisə cəlb olunması zəruri şərt hesab olunur. Sənayedə çalışan mütəxəssislər, sahə ekspertləri də eyni qaydada tədrisə cəlb olunmalıdırlar, çünki bir çox hallarda onlar yeni texnologiyalar və tendensiyalardan peşə məktəblərində olan müəllimlərdən daha çox informasiyalara malikdirlər. İşəgötürənlər həmçinin keyfiyyətə nəzarəti də diqqət mərkəzində saxlamalıdır.

Peşə Təhsil Mərkəzləri Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyi yanında Peşə Təhsili üzrə Dövlət Agentliyinin tabeliyində olan qurumdur. Peşə Təhsili üzrə Dövlət Agentliyi Azərbaycan Respublikası Prezidentinin "Azərbaycan Respublikasının Təhsil Nazirliyi yanında Peşə Təhsili üzrə Dövlət Agentliyinin yaradılması və fəaliyyətinin təmin edilməsi haqqında" 20 aprel 2016-cı il tarixli 869 nömrəli Fərmanına əsasən Azərbaycan Respublikasının Təhsil Nazirliyi yanında yaradılmış və həmin Agentliyin Əsasnaməsi təsdiq olunmuşdur.

Peşə Təhsili üzrə Dövlət Agentliyi bir sıra funksiyalara malikdir. Bunlardan biri proqramların qiymətləndirilməsidir. Qiymətləndirmə prosesində işəgötürənlərin birbaşa iştirakı önəmlidir. Sənaye və İnnovasiyalar üzrə Bakı Dövlət Peşə Təhsil Mərkəzində hal-hazırda bu təcrübə tətbiq edilməkdədir. Növbəti illərdə bu istiqamətdə işəgötürənlərlə əməkdaşlığı genişləndirmək əsas hədəflərdəndir.

Rasionallaşdırma və optimallaşdırma prosesi nəticəsində peşə təhsili müəssisələri publik hüquqi şəxs statusu əldə edir. Peşə təhsili müəssisələri bu

statusu götürməklə bərabər eyni zamanda üzərinə böyük məsuliyyət alır. Yeni fəaliyyətlər müəyyənləşdirib, həmin fəaliyyətlər üzrə xidmət göstərərək yeni vəsait gətirməli, həmin vəsaiti isə peşə təhsilinin əsas inkişaf istiqamətlərinə yönləndirməlidirlər. Ona görə də publik hüquqi şəxsə çevrilərkən peşə təhsil müəssisəsinin işəgötürənlərlə qurduğu əməkdaşlıq, tələbə qəbulu, maliyyələşməsi, tanıtımı, fəaliyyət göstərdiyi ərazidə oynadığı rolu xüsusilə əhəmiyyət kəsb edən məqamlardandır. Publik hüquqi şəxs olmaq, imkan verəcək ki, hər bir peşə təhsili müəssisəsi öz ətrafında olan şirkətlərlə əməkdaşlığını genişləndirsin.

Hal-hazırda ölkəmizdə şəhər və rayonlarda fəaliyyət göstərən müxtəlif peşə məktəblərində yeni ixtisaslar yaradılıb. Bu ixtisaslar müasir dövrün tələblərinə uyğun yeni sahələri əhatə edir. Bu ixtisaslar və onların tədris olunduğu peşə məktəbləri aşağıdakılardır:

***Kargüzar*** – Bu peşə üzrə ixtisas üzrə aşağıdakı peşə məktəblərində tədris olunur.

- Rabitə və İnformasiya Texnologiyaları üzrə Bakı Dövlət Peşə Təhsil Mərkəzi
- İmişli Peşə Məktəbi

***Xalça və xalça məmulatının bərpaçısı*** – Bu ixtisas üzrə tədris iki peşə məktəbində aparılır.

- Şəmkir Peşə Liseyi
- Qazax Peşə Liseyi

***Reklam işçisi*** – Bu ixtisas üzrə tədris 4 peşə məktəbində aparılır.

- Turizm və Sosial Xidmətlər üzrə Bakı Dövlət Peşə Təhsil Mərkəzi
- Rabitə və İnformasiya Texnologiyaları üzrə Bakı Dövlət Peşə Təhsil Mərkəzi
- İctimai İaşə və Xidmət üzrə Bakı Dövlət Peşə Təhsil Mərkəzi
- Quba xüsusi Peşə Məktəbi

***İnteryer və eksteryerin bədii tərtibatçısı*** – Bu ixtisas hal-hazırda yalnız Bakı şəhərində yerləşən peşə məktəbində tədis olunur.

- Mədəniyyət və Sənətkarlıq üzrə Bakı Dövlət Peşə Təhsil Mərkəzi

***Zərgər*** – Bu ixtisas üzrə tədris yalnız Bakı şəhərində yerləşən 2 peşə məktəbində aparılır.

- Emal Sənayesi üzrə Bakı Dövlət Peşə Təhsil Mərkəzi
- Mədəniyyət və Sənətkarlıq üzrə Bakı Dövlət Peşə Təhsil Mərkəzi

***Bədii tikmə ustası*** – Bu ixtisas üzrə təhsil iki peşə məktəbində aparılır.

- Turizm və Sosial Xidmətlər üzrə Bakı Dövlət Peşə Təhsil Mərkəzi
- 2 nömrəli Füzuli Peşə Məktəbi

***Ağac üzərində naxış rəssamı*** – Bu peşə üzrə tədris yalnız Bakı şəhərində fəaliyyət göstərən 1 peşə məktəbində aparılır.

- Mədəniyyət və Sənətkarlıq üzrə Bakı Dövlət Peşə Təhsil Mərkəzi

***Xalçaçı*** – Bu peşə üzrə tədris Bakı ilə yanaşı ümumilikdə 7 rayonda fəaliyyət göstərən peşə məktəblərində aparılır.

- Mədəniyyət və Sənətkarlıq üzrə Bakı Dövlət Peşə Təhsil Mərkəzi
- Şəmkir Peşə Liseyi
- Gədəbəy Peşə Liseyi
- Quba Peşə Liseyi
- Göyçay Peşə Liseyi
- Lerik Peşə Məktəbi
- İsmayıllı Peşə Tədris Mərkəzi
- 2 nömrəli Ağdam Peşə Məktəbi

Buradan görünür ki, yeni ixtisaslar müxtəlif incəsənət sahəsini əhatə etməklə yanaşı emal və reklam sahəsini də özündə əhatə edir. Odur ki, orta və ya ali ixtisas təhsili olmayanlar peşə məktəblərində müxtəlif peşələrə yiyələnə bilərlər. Bunun üçün isə ən başlıcası hər hansı peşəyə sahib olmaq həvəsi və istəyi olmalıdır.

Dünyanın bir çox ölkələrində, o cümlədən də ölkəmizdə hələ də peşə karyera baxımından arzuolunan seçim deyil. Bu, həm cəmiyyətdə formalaşan dəyərlər, həm də bir çox digər səbəblərdən irəli gəlir. Peşə təhsilində ən böyük yeniliklərdən biri də peşədən ali təhsilə keçid imkanıdır. Ölkəmizdə yüksək texniki peşə təhsili verən ixtisaslar üzrə ilk qrupların təhsili başlayıb. Yüksək texniki peşə təhsili ali təhsil almağı hədəfləyən gənclər üçün müəyyən imkanlar vəd edir. Çünki yüksək texniki peşə subbakalavr dərəcəsi, ali təhsilə müsabiqədənkənar keçid imkanı verir. Qarşıda duran əsas məsələlərdən biri də odur ki, hansı ixtisaslarla bağlı qəbul aparacağına düzgün qərar verilsin. Buna da əmək bazarından məlumatlar əldə edib, onların təhlili əsasında qəbulu planlaşdırmaqla nail olmaq mümkündür.

2030-cu ilədək Azərbaycanda "Qüdrətli dövlət və yüksək rifah cəmiyyəti"nin bərqərar olacağını vəd edən yeni sənəddə peşə təhsilində də növbəti dönəm üçün əhəmiyyətli tədbirlər planlaşdırılıb, bütövlükdə təhsilin, o cümlədən peşə təhsilinin məqsədi müəyyənləşdirilib. "Rəqabətli insan kapitalı və müasir innovasiyalar məkanı üzrə strateji çərçivə"də təhsil məsələləri sıralanıb. "Milli Prioritet rəqabətli insan kapitalı və müasir innovasiyalar məkanı" başlığı altında verilən təsvirdə "XXI əsrin tələblərinə uyğun təhsil" əsas hədəf olaraq müəyyənləşdirilib. Geriyə qalır məqsədə doğru hərəkət. Yeni Strategiyada bir hərəkət planı da var. Məsələn, peşə təhsili pilləsində əsas fəaliyyət istiqaməti olaraq əmək bazarının tələblərinə cavab verən peşə təhsilinin təşkili və təlim-tədris prosesinin qurulması nəzərdə tutulub.

Strategiyaya əsasən, peşə təhsilinin əhatəsinin genişləndirilməsi və məzmununun yaxşılaşdırılmasına dair təkliflərin həyata keçirilməsi nəticəsində

peşə təhsilli şəxslərin əmək bazarında xüsusi çəkisi artacaq. Bu dinamika yüksək texniki peşə təhsili alanların sayında da özünü göstərəcək.

Yüksək texniki peşə təhsili müasir təminatlı və yeni məzmun əsasında yaradılan peşə təhsili müəssisələrində təşkil edilir. Yüksək texniki peşə təhsili almaq istəyənlərin sayının artması, öz növbəsində müasir peşə təhsili müəssisələrinə yenilərinin əlavə olunmasını zəruri edir.

Müasir təhsil müəssisələri, sadəcə infrastrukturuna görə yox, həm də yeni məzmunlu təhsil proqramları ilə fərqlənəcək. Yeni strategiya peşə təhsili üzrə əmək bazarının tələblərinə cavab verən və nəticə əsaslı təhsil proqramlarının (kurikulumların) hazırlanması, bu prosesə işəgötürənlərin və sahibkarların cəlb edilməsi, hər il 15 nəticə nəsaslı təhsil proqramının tətbiqini nəzərdə tutur.

Özünüzü inkişaf etdirmək üçün Bakıya və ya xaricə getmək lazım deyil. Olduğunuz və yaşadığınız yerdə belə istədiyiniz biliyə sahib ola bilərsiniz. Peşə məktəblərinin əsas hədəfi ixtisaslı kadrların hazırlanmasını və onların rəqabət qabiliyyətinin artırılmasını təmin etməkdir. Peşə təhsilinə həvəsin sovet dövründə olduğu kimi artırılması istiqamətində təbliğatı işlər də həyata keçirilməlidir. Ekspertlər bildirirlər ki, bu həm də insanların "hamı ali məktəbə getməməlidir" fikrini dərk etməsindən sonra mümkün ola bilər.

Gələcəkdə Azərbaycanda peşə təhsili şəbəkəsinin optimallaşdırılması istiqamətində müvafiq qərarların qəbul olunacağı ilə bağlı səslənən fikirlər bu sahədə mühüm irəliləyişlərin əldə olunacağı ümidini yaradır. Belə ki, Azərbaycanda peşə təhsili şəbəkəsinin optimallaşdırılması istiqamətində təhlillər aparılır və verilən təkliflər Nazirlər Kabinetinə təqdim edilir. Daha dərindən ixtisaslaşmanın aparılması isə həm maddi-texniki baza, həm də təlimçi-pedaqoji kadr yetişdirilməsi baxımından daha yüksək səviyyəli peşə hazırlığına zəmin yaradacaq. Həmçinin peşə təhsili müəssisələrinin ixtisaslarına yenidən baxılacaq, məzmun daha da da müasirləşdiriləcək.

Fasiləsiz təhsilin mənası və ideyası hər hansı bir yaradıcı insanın timsalında kifayət qədər yaxşı açılır, çünki o, ixtisasının, peşəkar səviyyəsinin davamlı olaraq təkmilləşdirilməsi, üfüqlərinin genişlənməsi, məlumatlılıq səviyyəsinin artırılması və s.

Qeyd edək ki, bu cür təhsil fəaliyyəti üçün stimul həm fərdin öz bilik, bacarıq və bacarıqlarını özünü qiymətləndirməsi, həm də mütəxəssislərin və bütövlükdə cəmiyyətin yaradıcılıq fəaliyyətinin nəticələrinin qiymətləndirilməsidir.

Təbiətdə, sosial mühitdə, mənəvi həyatda, intellektual sferada baş verən proseslər haqqında məlumatlılıq səviyyəsini artırmaq istəyi də şəxsiyyəti təhsilini davam etdirməyə sövq edir. Yaradıcı insan özünə hörmət və cəmiyyət tərəfindən qiymətləndirmə yolu ilə əlavə təhsil ehtiyacını müəyyən edir.

***Ədəbiyyat***

1. *https://muallim.edu.az/news.php?id=14896*
2. *Vahabova L. Peşə və kvalifikasiya standartların hazırlanması, onların iş analizinin aparılması və modul tipli təlim proqramlarının metodologiyası.*
3. *İlk peşə - ixtisas təhsili: problemlər və prespektivlər, Bakı – 2016.*
4. *Strateji yol xəritəsi və peşə təhsilinin perspektivləri, https://tehsiljurnali.az/manset/61-strateji-yol-xritsi-v-pe-thsilinin-perspektivlri.html*
5. *Azərbaycan Respublikasında peşə təhsili və təliminin inkişafına dair Strateji Yol xəritəsi, Bakı – 2016.*

**N.E.Niftaliyev**
**Azərbaycan Dövlət Pedaqoji Universiteti**
***niftaliyevnamiq02@gmail.com***

# MƏZUNLARIN İŞ KARYERASININ İDARƏ EDİLMƏSİ: KARYERA İNKİŞAFINDA SƏRİŞTƏLƏR VƏ MƏZUNLARA KARYERA DƏSTƏYİNDƏ UNİVERSİTETİN ROLU

***Xülasə***

*Bu məqalədə bu gün üçün çox vacib olan mövzudan bəhs edilir. Haqqında söhbət gedən karyera mövzusu hər zaman aktualdır, çünki insanlar həyatlarında müxtəlif mərhələlərdə karyera seçimi ilə bağlı müəyyən problemlərlə qarşılaşır və bu seçimlər onların həm şəxsi həyatını, həm də iş həyatını məhdudlaşdırır. Xüsusən məzunların karyera seçimi təhsil aldığı sahəyə, məqsədlərinə, maraqlarına və dəyərlərinə uyğun olmalıdır. Bu seçimlər onların peşəkar həyatlarını, maliyyə və sosial mövqelərini təyin edir və bu baxımdan məzunların iş karyerasının idarə edilməsini aktuallaşdırır. Bu barədə hesab olunur ki, məzun iş karyerası, məzunların magistr və ya doktorluq dərəcəsi kimi magistratura səviyyəsində təhsili başa vurduqdan sonra tutduqları geniş imkanlar və yolları əhatə edir. Bu karyeralar çox vaxt xüsusi bilik, bacarıq və təlim tələb edir ki, bu da onları fərqləndirir.*

*Məqalədə bəhs edilir ki, məzunların iş karyerasının idarə edilməsində karyera inkişafı ilə bağlı səriştələrin və məzunlara karyera dəstəyində universitetin rolu vacibdir. Bu istiqamətdə məzun iş karyerasının bəzi əsas aspektlərinə nəzər salsaq görərik ki, məzunların iş karyerası onların təhsil sahəsinə, maraqlarına və onlara təqdim olunan imkanlara görə əhəmiyyətli dərəcədə dəyişə bilər. Bu istiqamətdə məzun iş karyerasının qurulmasında universitetlərin rolu faydalıdır. İşə qəbul olunan məzunlar, universitetlərdə aldıqları təhsil və universitetin təşkilatlandırdığı karyera dəstəkləri sayəsində müvəffəqiyyətləri üçün əsaslı zəmin qoyurlar. Universitetlərin məzun iş karyerasının qurulmasındakı əhəmiyyətli rolu ilk olaraq məzunların təhsil və bilik sahəsində əldə etdikləri bacarıqlarla bağlıdır. Universitetlər təhsil alan məzunların peşəkar bilik və bacarıqlarını inkişaf etdirmələrinə kömək edir. Bu, məzunlara iş dünyasında müxtəlif sahələrdə fərqli iş imkanlarına nail olmalarına kömək olur.*

# УПРАВЛЕНИЕ КАРЬЕРОЙ ВЫПУСКНИКОВ: КОМПЕТЕНЦИИ В РАЗВИТИИ КАРЬЕРЫ И РОЛЬ УНИВЕРСИТЕТА В ПОДДЕРЖКЕ КАРЬЕРЫ ВЫПУСКНИКОВ

***Резюме***

*Данная статья посвящена очень важной на сегодняшний день теме. Тема карьеры, о которой идет речь, всегда актуальна, поскольку люди на*

*разных этапах своей жизни сталкиваются с определенными проблемами, связанными с выбором профессии, и этот выбор ограничивает как их личную, так и трудовую жизнь. В частности, выбор карьеры выпускников должен соответствовать области обучения, целям, интересам и ценностям. Этот выбор определяет их профессиональную жизнь, финансовое и социальное положение, и в этом отношении управление трудовой карьерой выпускников является актуальным. Автор подчеркивает, что долгосрочная трудовая карьера включает в себя широкий спектр возможностей и путей, которые выбирают выпускники после завершения обучения на уровне магистратуры или докторантуры. Эти карьеры часто требуют конкретных знаний, навыков и подготовки, что отличает их от других.*

*В статье указано, что роль вуза в карьерном сопровождении выпускников и развитии карьерных компетенций в управлении трудовой карьерой выпускников неоспорима. В связи с этим, если мы посмотрим на некоторые основные аспекты трудовой карьеры выпускника, мы увидим, что трудовая карьера выпускников может существенно различаться в зависимости от области обучения, интересов и представленных им возможностей. В этом направлении полезна роль университетов в построении карьеры выпускника. Трудоустроенные выпускники закладывают прочную основу для своего успеха благодаря образованию, полученному в университетах, и карьерной поддержке, организованной университетом. Важная роль вузов в построении трудовой карьеры выпускника связана, прежде всего, с навыками, приобретаемыми выпускниками в области образования и знаний. Университеты помогают выпускникам развивать свои профессиональные знания и навыки. Это помогает выпускникам получить различные возможности трудоустройства в различных областях делового мира.*

# GRADUATE CAREER MANAGEMENT: COMPETENCIES IN CAREER DEVELOPMENT AND THE ROLE OF THE UNIVERSITY IN GRADUATE CAREER SUPPORT

***Summary***

*This article deals with a very important topic for today. The topic of career in question is always relevant because people at different stages in their lives face certain problems related to career choice and these choices limit both their personal and work life. In particular, the career choice of graduates should be consistent with the field of study, goals, interests and values. These choices determine their professional lives, financial and social positions, and in this respect the management of graduates' work careers is relevant. The author emphasizes that a long-term work career encompasses a wide range of opportunities and paths that graduates take after completing graduate-level studies, such as a master's or doctoral degree. These careers often require specific knowledge, skills and training, which makes them different.*

*The article states that the role of the university in career support for graduates and career development competencies in managing the work career of*

*graduates is undeniable. In this regard, if we look at some of the main aspects of the graduate work career, we will see that the work career of graduates can vary significantly according to their field of study, interests and opportunities presented to them. In this direction, the role of universities in building a graduate work career is useful. Employed graduates lay a solid foundation for their success thanks to the education they received at the universities and the career support organized by the university. The important role of universities in building a graduate work career is primarily related to the skills acquired by graduates in the field of education and knowledge. Universities help graduates to develop their professional knowledge and skills. It helps the graduates to achieve different job opportunities in various fields in the business world.*

***Açar sözlər:*** *məzun, iş karyerası, səriştələr, karyera dəstəyi, məşğulluq*
***Ключевые слова:*** *выпускник, трудовая карьера, навыки, карьерная поддержка, трудоустройство*
***Key words:*** *graduate, work career, skills, career support, employment*

**Mövzunun aktuallığı:** Bu məqalədə haqqında söhbət gedən karyera mövzusu hər zaman aktualdır, çünki insanlar həyatlarında müxtəlif mərhələlərdə karyera seçimi ilə bağlı müəyyən problemlərlə qarşılaşır və bu seçimlər onların həm şəxsi həyatını, həm də iş həyatını məhdudlaşdırır. Karyera seçimi, insanların təhsil aldığı sahəyə, məqsədlərinə, maraqlarına və dəyərlərinə uyğun olmalıdır. Bu seçimlər onların peşəkar həyatlarını, maliyyə və sosial mövqelərini təyin edir və bu baxımdan məzunların iş karyerasının idarə edilməsi aktualdır.

**Mövzunun elmi yeniliyi:** Karyera mənbələri və elmi araşdırmalar insanların iş dünyasında müvəffəqiyyətlərini və məhsuldarlıqlarını artırmaq üçün yeni, faydalı yollar təklif edir. Elmi yeniliklər karyera sahəsində bir çox sahələrdə baş verə bilər:

- Yeni karyera planlaşdırılması alətləri və metodologiyaları insanlara öz maraqlarını, güclərini və məhdudiyyətlərini daha yaxşı anlamaq və buna görə də uyğun karyera yolunu seçməkdə kömək edəcəkdir.
- Texnologiya və iş dünyasındakı dəyişikliklər insanların iş axtarışı və karyera planlaması üçün yeni perspektivlər aça bilər. Məsələn, texnologiya sahəsindəki yeni inkişaflar yeni iş imkanlarını yaradacaqdır.
- Elmi araşdırmalar, insanların iş yerində inkişaf etməsi və öyrənməsi üçün effektiv yolları və təcrübələri ortaya qoyacaqdır.
- Araşdırmalar, insanların müxtəlif peşəkar yollar və karyera dəstəkləri arasında seçim etmələrində köməklik edəcək nümunələr, müxtəlif sektorlarda fəaliyyət göstərən işçilər üçün karyera yolları barədə məlumatlar təqdim edəcəkdir.

- Karyera mənbələri insanların motivasiyasını, öz inamını və işlə bağlı mənfi təsirlərlə mübarizəyə necə yönəlmələri ilə bağlı yeni fikirlər və yanaşmalar təqdim edəcəkdir.

**Mövzunun nəzəri əhəmiyyəti:** Karyera mövzusunun nəzəri əhəmiyyəti böyükdür. Nəzəri araşdırmalar, karyera sahəsində məzunların peşəkar inkişafını anlamaq, inkişaf etdirmək və təşviq etmək üçün əhəmiyyətli bir rol oynayır. Nəzəri araşdırmalar məzunların karyera yolunu planlaşdırmaq və həyatları boyunca peşəkar məqsədlər qoymaq üçün gərəkli alətləri və yanaşmaları təqdim edəcəkdir. Karyer ilə əlaqədar nəzəri işlər məzunların öyrənmə proseslərini və inkişafını anlamaq və təşviq etmək üçün faydalıdır və bu, məzunların işdəki performansını və karyera yüksəlməsini dəstəkləyə bilər.

Nəzəri araşdırmalar məzunlara karyera seçimləri və işlə əlaqədar mərhələlər haqqında daha yaxşı anlayış və gözləmələr verərək, doğru karyera yolunu seçmələrində kömək edəcək, karyera ilə əlaqədar nəzəri fəaliyyətlər, məzunların iş dəyərlərini, məqsədlərini və motivasiyalarını anlamaq və karyera yolunu seçmələrində kömək edəcəkdir.

Mövzunun nəzəri əsasını məzunların iş karyerasının idarə edilməsində karyera inkişafı ilə bağlı səriştələr və məzunlara karyera dəstəyində universitetin rolunun tədqiqatlarda və araşdırmalarda mövcud olan elmi əsaslandırmalara və nəzəri məsələlərə dair məlumatlar təşkil edir.

**Mövzunun praktik əhəmiyyəti:** Karyera mövzusunun praktik əhəmiyyəti böyükdür və bu, məzunların iş dünyasında müvəffəqiyyətli olmalarına və karyera hədəflərinə çatmalarına kömək edir. Praktik tətbiqlər məzunların karyera planlaşdırılması, inkişafı və işdə müvəffəqiyyətləri üçün müxtəlif sahələrdə əhəmiyyətli nəticələrə səbəb ola bilər: Praktik karyera planlaması alətləri və yanaşmaları, məzunların məqsədəuyğun karyera hədəfləri qoymasına və bu hədəflərə çatmasına kömək edir. Praktik tətbiqlər məzunlara iş yerində öyrənməyə və inkişafa imkan verir. Bu, işdəki performanslarını yaxşılaşdırmaq və karyeralarında irəliləmək üçün əhəmiyyətlidir.

Praktik karyera yönləndirməsi, məzunların məqsədəuyğun karyera yolunu seçmələrinə kömək edir və onları hədəflərinə daha sürətli çatdırır. Praktik karyera dəstəkləri, insanların işdə yüksəlmələri və daha yüksək vəzifələrə irəli çəkilmələri üçün gərəkli bilik və bacarıqları inkişaf etdirmələrinə kömək edir.

Bu praktik tətqiqatlar məzunların iş dünyasında daha səmərəli olmalarına, karyera hədəflərinə çatmalarına və şəxsi inkişaf etmələrinə kömək edir.

“Karyera” bir termin olaraq bir şəxsin həyatı boyu iş və karyera yolu boyunca qazandığı təcrübə, nailiyyətləri, mərhələləri və məqsədləri ilə əlaqədar olan iş və müstəqil təşəbbüslərini və işlə bağlı hədəflərini, peşəkar inkişafını, iş

mövqeyini və məqsədlərini təyin etməsini, öyrənməsini və iş təcrübəsini genişləndirməsini ifadə edir. Karyera – iş həyatımızın hər mərhələsində pilləkən olaraq qarşımıza çıxacaqdır [2, s.33]. Məzun iş karyerası, məzunların magistr və ya doktorluq dərəcəsi kimi magistratura səviyyəsində təhsili başa vurduqdan sonra tutduqları geniş imkanlar və yolları əhatə edir. Bu karyeralar çox vaxt xüsusi bilik, bacarıq və təlim tələb edir ki, bu da onları fərqləndirir.

Məzunların iş karyerasının idarə edilməsində karyera inkişafı ilə bağlı səriştələrin və məzunlara karyera dəstəyində universitetin rolu danılmazdır. Bu istiqamətdə məzun iş karyerasının bəzi əsas aspektlərinə nəzər salsaq görərik ki, məzunların iş karyerası onların təhsil sahəsinə, maraqlarına və onlara təqdim olunan imkanlara görə əhəmiyyətli dərəcədə dəyişə bilər. Bu istiqamətdə məzun iş karyerasının qurulmasında universitetlərin rolu faydalıdır. İşə qəbul olunan məzunlar, universitetlərdə aldıqları təhsil və universitetin təşkilatlandırdığı karyera dəstəkləri sayəsində müvəffəqiyyətləri üçün əsaslı zəmin qoyurlar. Universitetlərin məzun iş karyerasının qurulmasındakı əhəmiyyətli rolu ilk olaraq məzunların təhsil və bilik sahəsində əldə etdikləri bacarıqlarla bağlıdır. Universitetlər təhsil alan məzunların peşəkar bilik və bacarıqlarını inkişaf etdirmələrinə kömək edir. Bu, məzunlara iş dünyasında müxtəlif sahələrdə fərqli iş imkanlarına nail olmalarına kömək olur.

Hazırda bir çox universitetlərin nəzdində Məzun Karyera Mərkəzləri fəaliyyət göstərir. Universitetlər məzunlara karyera məsləhətləri və karyera planlaşdırıması ilə bağlı dəstək təqdim edir, məzunların öz maraqlarına və məqsədlərinə uyğun karyera yolunu seçmələrində və iş axtarışında effektiv olmalarına və uğurlu performans göstərmələrinə imkan yaradır [1, s.9].

Universitetlərdə məzunların iş karyerasının idarə edilməsi prosedurları təcrübə proqramlarının tətbiqi ilə də bağlıdır. Universitetlər təcrübə proqramları təklif edərək məzunların iş təcrübəsi qazanmalarına kömək olur və bu proses məzunların işə qəbul olmalarını və iş dünyasında uğurla fəaliyyət göstərmələrini dəstəkləyir. Karyera fərdin qavrayışı ilə bağlı anlayışdır [4, s. 78]. Universitetlər həm də iş təklifləri göstərərək məzunların iş axtarışı prosesində daha rahat olmalarına və uyğun iş fürsətlərini dəyərləndirmələrinə kömək edir və məzunların sosial və iş birliyi şəbəkələrini genişləndirmələrinə dəstək göstərərk real imkanlar üçün fürsət yaradır.

Bu faktorlar universitetlərin məzunlarının iş dünyasında müvəffəqiyyət əldə etmələrinə, iş dünyasında əlaqələr quraraq iş karyerasında nailiyyətlə yüksəlmələrinə kömək olur.

Qeyd etmək vacibdir ki, məzunların karyera yolları yalnız universitetlərin dəstəyindən deyil, müxtəlif amillərdən, o cümlədən iqtisadi şəraitdən, sənaye meyillərindən və şəxsi şəraitdən də təsirlənə bilər. Məzunların iş karyerasının idarə edilməsi ilə bağlı karyera inkişafında səriştələr və məzunlara karyera dəstəyində universitetin rolu karyera

inkişafının kritik komponenti olan səriştələrin əldə edilməsi ilə də sıx bağlıdır. Karyera planlaması və idarə edilməsi ilk növbədə fərdlərə karyeralarını inkişaf etdirməyə kömək edir [6, s.38]. Universitet illərində məzunlar öz imkanlarını anlayır, qarşıya mənalı karyera məqsədləri qoyur və karyera yollarında səmərəli şəkildə hərəkət etməkdə professor-müəllim heyətinin dəstəyindən yararlanırlar.

Karyera inkişafında səriştələr fərdlərin öz iş vəzifələrini səmərəli şəkildə yerinə yetirmək və karyeralarında uğur qazanmaq üçün ehtiyac duyduğu bacarıq, bilik, qabiliyyət və davranışlara aiddir. Bacarıqlar çox vaxt fərdlərin öz işlərinə necə yanaşması və başqaları ilə qarşılıqlı əlaqəsi ilə əlaqəli texniki və ya işə xas səlahiyyətlər və davranış səriştələri kimi müxtəlif növlərə təsnif edilir. Bu bacarıqlar məzunların karyera inkişafında mühüm rol oynayır. Doğru fərdləri vəzifəyə yerləşdirmək, əməyini dəyərləndirmək, təlimlər keçmək, inkişaf etdirmək, mükafatlandıraraq motivasiyasını artırmaq, işinə qarşı ruhlandırmaq çox vacibdir [5, s.14]. Bu səriştələrin bir neçəsinə diqqət edək:

- Güclü və zəif tərəflərin müəyyən edilməsi: Öz səriştələrini dərk etmək məzunlara öz güclü tərəflərini və inkişaf etdirilməsi lazım olan sahələri müəyyən etməyə imkan verir, onlara karyera yolları ilə bağlı əsaslandırılmış qərarlar qəbul etməyə kömək edir;
- Karyera məqsədlərinin təyin edilməsi: Bacarıqlar real karyera məqsədlərini təyin etmək üçün bələdçi kimi xidmət edir. Məzunlar öz səlahiyyətlərini qiymətləndirərək, arzuladıqları karyera məqsədlərinə çatmaq üçün inkişaf etdirməli olduqları bacarıqları müəyyən edə bilirlər;
- Peşəkar inkişafın planlaşdırılması: Bacarıqların qiymətləndirilməsi məzunlara bacarıqlarını artırmaq üçün təlim proqramları və ya sertifikatlar kimi peşəkar inkişaf fəaliyyətlərini təkmilləşdirməyə və planlaşdırmalı olduqları sahələri müəyyən etməyə kömək edir;
- Məşğulluğun artırılması: Müvafiq səriştələrin inkişaf etdirilməsi və nümayiş etdirilməsi, potensial işəgötürənlər üçün onları daha cəlbedici etməklə, məzunların işə qəbulunu artıra bilər.

Bundan başqa karyera inkişafında əsas səriştələr sırasında məqsədlərin müəyyənləşdirilməsi, özünü təkmilləşdirmək, şəbəkələşmə (networking) fürsətlərindən yararlanmaq, problem həll etmə bacarığını artırmaq, müvafiq təcrübə və məsuliyyət almaq, özünü və işini tanımaq, əlaqədar fəaliyyətlərdə iştirak etmək, iş dünyasında, mədəniyyətdə və sosial sahələrdə fəaliyyətlərdə iştirak edərək şəxsi inkişafa dəstək olacaq yeni münasibətlər qurmaq üçün fürsətlar yaratmaq kimi səriştələr məzunların karyera işinin idarə edilməsində mühüm amilər hesab edilir.

Aparılan tədqiqatın nəticələrinə dair aşağıdakı məsələləri qeyd etmək olar:

- Məzun iş karyerasını idarə etmək karyera inkişafı üçün lazım olan səriştələri və universitetlərin məzunlara karyera dəstəyinin təmin edilməsində oynadığı rolu başa düşməyi əhatə edəcəkdir.
- Universitetlər məzunlara seçdikləri sahələrdə uğur əldə etmək üçün lazım olan səriştələri müəyyən etməyə kömək edə biləcəkdir. Buraya həm sənaye müəssisələrinə xas olan texniki bacarıqlar, həm də ünsiyyət, liderlik və problemlərin həlli kimi yumşaq bacarıqlar daxildir.
- Universitetlər məzunlara karyera planları yaratmağa və real hədəflər qoymağa kömək etmək üçün karyera məsləhəti xidmətləri təklif edəcəkdir. Buraya potensial karyera yollarını müəyyən etmək, peşəkar şəbəkələr qurmaq və iş bazarını anlamaq daxildir.
- Universitetlər məzunlara iş axtarışında kömək etmək üçün resurslar və təlimatlar təqdim edəcəkdir. Bu, CV yazma, müsahibəyə hazırlıq və işə müraciət strategiyaları ilə bağlı yardımı əhatə edəcəkdir.
- Universitetlər məzunlara öz bacarıqlarını inkişaf etdirməyə və öz sahələrində aktual qalmalarına kömək etmək üçün seminarlar və davamlı təhsil proqramları təklif edə biləcəklər.
- Universitetlər məzunların işəgötürənlər və öz sahələrində digər mütəxəssislərlə əlaqə qurmaları üçün şəbəkə imkanlarını asanlaşdıracaq, məzunlara iş imkanları tapmağa və peşəkar əlaqələr qurmağa kömək edəcəkdir.
- Universitetlər məzunları əlavə təhsil və peşəkar inkişaf imkanlarını əldə etməklə ömürboyu öyrənməyə həvəsləndirəcək, məzunlara dəyişən karyera tələblərinə uyğunlaşmağa və iş bazarında rəqabətə davamlı olmağa kömək edəcəklər.
- Universitetlər məzunlara müvəffəqiyyət üçün lazım olan səriştələri inkişaf etdirməyə kömək etməklə və karyeralarını davam etdirərkən davamlı dəstək göstərməklə məzunların iş karyeralarını dəstəkləməkdə mühüm rol oynayırlar.

***Ədəbiyyat***

1. *Azərbaycan Karyera İnkişaf Forumu. Tövsiyə paketi. Bakı - 2021, 23 s. https://dma.gov.az/storage/AK-F-To-vsiy-s-n-di.pdf*
2. *Cabarzadə A., Q., Şəxsi inkişaf və karyera planlaşdırması./Bakı. - 2019,- 50 s.*
3. *Əliyev.M,Həmidov.H "İnsan Resurslarının İdarə edilməsi./Bakı, -2002, -538 s*
4. *Əmirov İ.B., Hacıyeva Z.E. Menecment. Bakı. -2015- 468 s.*
5. *Nuriyeva S. Q. "Azərbaycanda fəaliyyət göstərən xidmət müəssisələrində işgüzar adaptasiya və kariyera sisteminin formalaşması"/ Bakı, -2018 - 86 s.*
6. *Şahbazov K.A. və b. "Menecment" / Bakı - 2007, səh. 105, 1002 s.*

**G.R.Salmanova**
**Azərbaycan Dövlət Pedaqoji Universiteti**
***gulnarsalmanofa@gmail.com***

# ALİ TƏHSİL MÜƏSSİSƏLƏRİNİN İŞƏ GÖTÜRƏNLƏRLƏ ƏMƏKDAŞLIĞI

***Xülasə***

*Məqalədə ali təhsil müəssisələri ilə işə götürənlər arasında əməkdaşlığın inkişafa müsbət təsiri əsaslandırılır. Ali təhsil müəssisələri arasında rəqabətin artması, maraqlı tərəflərin təhsil müəssisələrindən gözləntilərinin dəyişməsi kimi bir çox amillər ali təhsil müəssisələrinin işə götürənlərlə əməkdaşlığını zəruri edir. Bu əməkdaşlığın ali təhsil müəssisələrində tələbələrin ixtisaslı mütəxəssis olaraq formalaşmasında, rəqabətli əmək bazarında özünə yer tapmasında rolu vurğulanır. Eyni zamanda cəmiyyət, ali təhsil müəssisələri və işə götürənlər tərəfindən əməkdaşlığa olan yanaşmalar dəyərləndirilir.*

# СОТРУДНИЧЕСТВО ВУЗОВ С РАБОТОДАТЕЛЯМИ

***Резюме***

*В статье обосновано положительное влияние сотрудничества высших учебных заведений и работодателей на развитие. Многие факторы, такие как усиление конкуренции между высшими учебными заведениями и изменение ожиданий заинтересованных сторон от учебных заведений, делают необходимым сотрудничество высших учебных заведений с работодателями. Подчеркивается роль этого сотрудничества в формировании студентов как квалифицированных специалистов в высших учебных заведениях и поиске места на конкурентном рынке труда. При этом подходы к сотрудничеству ценятся обществом, вузами и работодателями.*

# COOPERATION OF HIGHER EDUCATION INSTITUTIONS WITH EMPLOYERS

***Summary***

*The article justifies the positive impact of cooperation between higher education institutions and employers on development. Many factors, such as increased competition among higher education institutions and changing expectations of stakeholders from educational institutions, make it necessary for higher education institutions to cooperate with employers. The role of this cooperation in forming students as qualified specialists in higher education institutions and finding a place in the competitive labor market is emphasized. At the same time, approaches to cooperation are valued by society, higher education institutions and employers.*

***Açar sözlər:*** *ali təhsil, universitet, əməkdaşlıq, işə götürən*
***Ключевые слова:*** *высшее образование, вуз, сотрудничество, работодатель*
***Key words:*** *higher education, university, cooperation, employer*

Bir dövlətin, xalqın inkişafını onun sahib olduğu təbii sərvətlərindən daha çox elmin, mədəniyyətin, təhsil sisteminin və intellektual potensialının inkişafı müəyyən edir. Təhsil ictimai ehtiyacları qarşılamaqla yanaşı gələcəkdə yeni imkanların formalaşmasına da kömək edir. Bu səbəbdən təhsil, o cümlədən ali təhsil dövlətin sosial-iqtisadi siyasətinin prioritet bir istiqaməti kimi qiymətləndirilir. Ali təhsil müəssisələrində həyata keçirilən təlim-tərbiyə fəaliyyəti fərdin özünü tanımasına, gələcək həyatını formalaşdırmasına və cəmiyyətlə harmoniyada yaşamağı hədəfləməsinə şərait yaradan planlaşdırma prosesi kimi ifadə edilir. Ali təhsil dar bir ixtisas daxilində fərdin intellektual qabiliyyətlərini genişləndirir, ona ətrafdakı dünyaya baxış üçün daha geniş bir perspektiv verir. Ronald Barnettə görə ali təhsilin dörd əsas konsepsiyası var [1, s.63].

1. *Ali təhsil ixtisaslı insan resurslarının istehsalı kimi.* Bu baxımdan, ali təhsil tələbələrin əmək bazarında udulmuş "məhsullar" kimi qəbul edildiyi bir proses olaraq qəbul edilir. Beləliklə, ali təhsil biznesin və sənayenin böyüməsi və inkişafı üçün giriş olur.

2. *Ali təhsil tədqiqat karyerası üçün təlim kimi.* Bu baxımdan ali təhsil biliklərin sərhədlərini davamlı olaraq inkişaf etdirəcək ixtisaslı alim və tədqiqatçılar üçün hazırlıqdır. Bu nöqteyi-nəzərdən keyfiyyət daha çox tədqiqat nəşrləri və keyfiyyətli tədqiqat aparmaq üçün akademik ciddiliyin ötürülməsi ilə bağlıdır.

3. *Ali təhsil tədris təminatının səmərəli idarə edilməsi kimi.* Çoxları qəti şəkildə inanır ki, tədris təhsil müəssisələrinin əsasını təşkil edir. Beləliklə, ali təhsil müəssisələri tədrisin keyfiyyətini yüksəltməklə, tələbələr arasında daha yüksək bitirmə səviyyəsinə imkan yaratmaqla tədris-təlim müddəalarının səmərəli idarə edilməsinə diqqət yetirirlər.

4. *Ali təhsil həyat şanslarını artırmaq məsələsi kimi.* Bu baxımdan, ali təhsil çevik, davamlı təhsil rejimi vasitəsilə fərdin inkişaf prosesində iştirak etmək imkanı kimi qəbul edilir.

Maraqlıdır ki, ali təhsilin bütün bu dörd konsepsiyası bir-birini istisna etmir, onlar inteqrasiya olunur və ali təhsilin mahiyyəti barədə ümumi təsəvvür formalaşdırır. Universitetlərin fəaliyyətinə nəzər salsaq, başa düşəcəyik ki, tədris, tədqiqat və sosial inkişafa töhfə ali təhsilin üç əsas funksiyasını təşkil edir.

Yarandığı gündən universitetlərin cəmiyyətdəki rolu zaman keçdikcə dəyişdi. Əvvəlcə universitetlər cəmiyyətdən ayrı idi və onların rolu cəmiyyətin mədəniyyətini, biliyini qorumaq idi [4, s.26]. Son illərdə universitetlərin kənar qurumlarla qarşılıqlı əlaqəsi xeyli genişləndi. Bu qarşılıqlı əlaqənin nümunəsi kimi universitet-işəgötürən əməkdaşlığı 17-ci əsrin əvvəllərində İngiltərədə yaranmışdır. 18-ci əsrdə Avropada, 19-cu əsrdə Amerikada bəzi universitetlərlə işə götürən əməkdaşlığına rast gəlinsə də, xüsusilə universitetlərin əsas missiyasının "təhsil", "tədqiqat", "iqtisadi və sosial inkişafa töhfə" kimi əks olunduğu 20-ci əsrin ikinci yarısı universitet-işə götürən əməkdaşlığının milli innovasiya sisteminin ən təsirli faktorlarından biri olduğu dövr idi. Bu dövrdən sonra universitet-işə götürən əməkdaşlığına diqqətin artdığı görünür. Bu artım həm iş dünyası, həm də universitetlər üzərindəki təzyiqlərin birləşməsi ilə əlaqələndirilir [5, s.917].

Universitetlərin yeniliklərə cavab verməsi, sənayeyə qlobal rəqabətdə üstünlük qazanması üçün lazımi bilik və bacarıqlara sahib işçi qüvvəsi yetişdirməsi, istehsal və idarəetmə problemlərində kömək etməklə sənayeyə töhfəsi yalnız universitet-sənaye əməkdaşlığı ilə əldə edilə bilər [2, s.66]. Başqa sözlə, rəqabətdə dayanıqlı olmaq və rəqabət üstünlüyünü qoruyub saxlamaq müəssisələrin öz məhsullarını, proseslərini, strukturlarını və idarəetmə yanaşmalarını daim təkmilləşdirmək bacarığından asılıdır. Ölkələrin inkişaf səviyyəsinin bilavasitə amili olan ölkə iqtisadiyyatında elmi-tədqiqat və təkmilləşdirmə fəaliyyətlərinə ayrılan pay qlobal iqtisadiyyatlarda rəqabət üstünlüyü yaratmaqla ölkələrin inkişafında təsirli olur. Qloballaşmanın təsiri ilə getdikcə daha çox ölkənin inteqrasiyası bazar, kapital və texnologiya baxımından ölkələrə böyük üstünlüklər verir. Dünya bazarlarında tələb və təklif xüsusiyyətlərinin dəyişməsi nəticəsində iqtisadiyyatlarda yaşanan böhranlar həm də ölkələrin ucuz işçi qüvvəsi, coğrafi mövqeyi, xammal ehtiyatları kimi amillərin ikinci planda qalmasına səbəb olur.

Universitet-sənaye əməkdaşlığı universitetlərin malik olduğu tələbələr, elm adamları, bilik və texniki təchizat kimi imkanlar ilə sənayenin sahib olduğu imkanların birləşməsi ilə elmi və texnoloji sahələrin inkişafını hədəfləyən və bunu təmin edən bütün sistemli tədqiqatları əhatə edir. Universitet-işəgötürən əməkdaşlığı biliyin istehsala çevrilməsinin ən mühüm yollarından biridir. Universitetlərdə aparılan tədqiqatlardan əldə edilən nəzəri biliklərin praktikaya çevrilməsi üçün universitet-işəgötürən əməkdaşlığı çox vacibdir. Həm universitetlər, həm də işəgötürənlər əməkdaşlıq etməklə çox şey əldə edə bilərlər. Bir çox universitetlər zaman keçdikcə gəlirlərin itirilməsinə səbəb ola biləcək əhəmiyyətli qəbul boşluğu ilə üzləşirlər, bir çox işəgötürən isə onların gəlirlərinə təsir edə biləcək ciddi istedad boşluğu ilə üzləşir. Əməkdaşlıq bu boşluqların hər ikisini aradan qaldırmağa kömək edə bilər.

Qloballaşan və hər gün sürətlə dəyişən dünyamızın şərtləri yeni strukturlaşmaya məruz qalır. Qloballaşma davam edir, texnologiyanın inkişafı və informasiya əsri heç vaxt geridə qalmağımıza və ya sabit bir quruluşa sahib olmağımıza imkan vermir. Bu çərçivədə xidmət və ya istehsal sektorunda və hər sahədə rəqabət davam edir. Uğurlu olmaq və bu yarışda ön sıralarda olmaq makro səviyyədə hər bir ölkənin, mikro səviyyədə isə hər sektorun və biznesin mövcudluğu məqsədinin ayrılmaz tərkib hissəsidir. Əsasən, istehsal xərclərini minimuma endirmək və məhsuldarlığı artırmaq rəqabət qabiliyyətinin əsas elementləridir. Bununla belə, bu yarışda insan resurslarına və intellektual kapitala sərmayə son dərəcə mühüm yer tutur. Bir tərəfdən, təlim keçmiş insan resursları və rəqabətin digər elementləri arasında yaxşı koordinasiya ilə məqsədyönlü əməkdaşlığı təmin etmək lazımdır.

Bu qloballaşma mühitində iş dünyası görünməmiş sürətlə dəyişir. 2030-cu ilə qədər qlobal əmək kəsirinin 8,5 trilyon dollara çatacağı proqnozlaşdırılır və bütün dünyada 1,2 milyard işçi qarşıdakı on il ərzində avtomatlaşdırma texnologiyalarından təsirlənəcək [6, s.10]. Təsir bütün yaş qrupları arasında hiss olunacaq: gənc məzunlar, eləcə də yenidən ixtisasın artırılmasına ehtiyacı olan işçilər. Ənənəvi universitet sisteminin bu çağırışa cavab verməsinin bir yolu, onların təkliflərini tələbələrin sürətlə dəyişən məşğulluq ehtiyaclarına və sənayenin istedad ehtiyaclarına uyğunlaşdırmaq və bunun üçün işəgötürənlərlə sıx əməkdaşlıq etməkdir. Qarşıdan gələn tələb dalğasına cavab vermək üçün mövcud yanaşmalara əsaslanmaq və onların tələbələr, işəgötürənlər və təhsil müəssisələri üçün yaxşı nəticələr verməsini təmin etmək lazımdır.

Universitet-sənaye əməkdaşlığının tələbələr, təhsil müəssisələri, işə götürənlər və cəmiyyət baxımından faydalarını aşağıdakı kimi görmək olar.

**Tələbə üçün universitet işə götürən əməkdaşlığının faydaları**

Tələbələrin ali təhsil müəssisələrində qazandığı nəzəri bilikləri praktiki bacarıqlarla birləşdirərək onlar üçün geniş iş imkanları yaradır. İnsanın özünə inamı artır. Məsuliyyət hissi inkişaf edir və iş vərdişləri müsbət inkişaf edir. Peşəkar və texniki bacarıqların real iş mühitində həyata keçirilməsini və formalaşmasını təmin edir. Əməkdaşlıq komanda ruhu və komanda mentaliteti ilə hərəkət etmək mədəniyyətinin yaradılmasını təmin edir. Sənayenin ehtiyaclarına uyğun olaraq təlim proqramlarının yenilənməsini təşviq edir. Sənaye müəssisələrinin obyektləri məktəb laboratoriyalarına çevrilir. Bununla da ali təhsil müəssisələrinin texniki təchizatı gücləndirilir. İş dünyasındakı daimi dəyişikliklər və inkişaflar təlim proqramlarının yenilənməsini təmin edir.

**Sənaye üçün universitet işə götürən əməkdaşlığının faydaları**

Universitet-işəgörürən əməkdaşlığı həmçinin sənaye sektorlarına ixtisaslı kadrlar üçün öz infrastrukturunu yaratmağa və işə götürmək niyyətində olduqları kadrlarla tanış olmağa imkan verir. Şəxsin işə uyğunlaşma müddəti qısalır, xərcləri azalır. Əmək dövriyyəsi (giriş-çıxış) azalır. Sənaye

sektorlarının akademik heyətinin bilik və təcrübəsindən faydalanması təmin edilir. Universitetdə təhsil proqramlarının təşkilində sənayenin ehtiyacları nəzərə alınır. İşəgötürənlər bilirlər ki, öz işçiləri uğurlarının açarıdır, lakin ixtisaslı işçiləri tapmaq və saxlamaq çətindir. Manpower Group-a görə, 250-dən çox işçisi olan şirkətlərin təxminən 77%-i 2023-cü ildə bacarıq çatışmazlığı barədə məlumat verərək qlobal istedad çatışmazlığının tarixdə ən yüksək həddə olduğunu bildirmişdir [7]. Ali təhsildə işəgötürənlərlə əməkdaşlıq bu çatışmazlıqların aradan qaldırılması üçün əla seçimdir.

**Cəmiyyət baxımından universitet işə götürən əməkdaşlığının faydaları**

Universitet cəmiyyəti iqtisadi cəhətdən özünü təmin edən işçilərlə təmin edir. Bacarıqları və təcrübəli kadr potensialını inkişaf etdirir. Cəmiyyətin təhsil və sosial ehtiyaclarını ödəmək üçün gənclərə müxtəlif yollarla kömək edir. Texniki bilik və bacarıqlar təmin etməklə məşğulluq imkanlarını artırır. Gənclərin işi və həyata hazırlanması ilə bağlı digər qurumlarla koordinasiya yaradır. Tələbələri bacarıqlı, məhsuldar və səmərəli etməklə cəmiyyətin istehsal istəyini və gücünü artırır.

Universitet-işəgötürən əlaqələrinin müvəffəqiyyəti hər iki tərəfin məqsəd, imkan və vəzifələrini ən uyğun şəkildə bir araya gətirməkdən asılıdır. Bu halda, yuxarıda qeyd olunanlarla yanaşı, əməkdaşlığın digər faydalarını da ümumiləşdirmək olar. Yüksək maliyyə və əmək tələb edən tədqiqat və inkişaf sahəsində, universitet və sənaye üçün ayrı-ayrı xərclər etmək əvəzinə, güclərini birləşdirərək, istehsala çevrilə biləcək araşdırmaları həyata keçirmələrini və ölkə qaynaqlarından səmərəli istifadə etmələrini təmin edir.

Avropa universitetləri arasında aparılan geniş araşdırmaya görə, universitet-sənaye əməkdaşlığının səkkiz növü var [3, s.15]: kurikulumun hazırlanması və çatdırılması, ömürboyu öyrənmə, tələbə mobilliyi, akademik mobillik, tədqiqat və inkişaf nəticələrinin maliyyələşdirilməsi, TƏ&İN-də əməkdaşlıq, sahibkarlıq və idarəetmə. Əməkdaşlıq növləri birbaşa universitetlərin missiyaları və sənayenin ehtiyacları ilə bağlıdır.

Sənaye və özəl biznes mütəxəssislərinin universitetlərin tədrisində iştirakı universitetlərdə əmək bazarı üçün ixtisaslı kadr hazırlığına müsbət təsir göstərir. Bu, əmək bazarında tələb olunan praktiki bilikləri nəzəri biliklərlə tamamlayan kursların məzmununu təkmilləşdirir. Beləliklə, yuxarıda qeyd etdiyimiz kimi, təhsildə praktiki təlim çatışmazlığı azalır. Bundan əlavə, kurs boyu müəllimlər və tələbələr arasındakı ünsiyyət dəyərli nəticələr verə biləcək əlaqələri gücləndirir.

Tələbələrin şirkətlərdə təcrübə keçmələri tələbələrin hazırlığını təkmilləşdirir və onları əmək bazarı üçün daha rəqabətli edir, çünki təcrübəli insanlara tələbat hər gün artmaqdadır. Təcrübə yalnız təcrübə keçdiyi şirkətdə

deyil, digər şirkətlərdə də ilk işə qəbulun qapılarını açır. Onlar yeni məzunların əmək bazarına daxil olması üçün ən təsirli vasitələrdən biridir.

Yuxarıda göstərilən faydalara görə həm universitetləri, həm də işə götürənləri əməkdaşlığa həvəsləndirmək üçün daim yeniliklər edilməli bu istiqamətdə addımlar atılmalıdır.

Universitetləri işə götürənlərlə əməkdaşlığa cəlb etmək üçün nə etməli:

- Universitetlərə elmi tədqiqat aparmaq və tərəfdaşlıq qurmaq üçün muxtariyyətin verilməsi: Universitetin strategiyası ilə bağlı ən yaxşı qərar onun öz idarə heyəti və akademik heyətidir. Sərbəst fəaliyyət göstərə bilməyən universitetlərin düzgün və uğurlu tərəfdaşlıq qurması mümkün deyil;
- Fəal olan və əməkdaşlığı inkişaf etdirən universitetlərin mükafatlandırılması: Güclü əməkdaşlıqlar düzgün hüquqi tənzimləmələr və dövlət proqramları ilə dəstəklənməli və təşviq edilməlidir;
- Universitetlərin uğura can atmasını təmin etmək: Universitetlər həmişə ən yaxşılarla tərəfdaşlıq axtarırlar, ona görə də yaxşı və uğurlu universitetlərin tədqiqatları dəstəklənməli və maliyyələşdirilməlidir ki, daha çox məşğulluq yaradan əməkdaşlıqlar qurulsun;

İşə götürənlərin universitetlərlə əməkdaşlığının dəstəklənməsi üçün nə etməli:

- Sənayenin təkbaşına əldə edə bilməyəcəyi təqdiqatlar aparmaq.
- Sənayenin məqsədlərinə uyğun olaraq uzunmüddətli, lakin çevik tədqiqat əməkdaşlıqlarını inkişaf etdirmək;
- Ortaq vizyon və ümumi strategiyanın hazırlanması;
- Doğru insanlarla ünsiyyətin təmin edilməsi və səlahiyyətlərin doğru insanlara verilməsi;
- İdeyaların çarpaz böyüməsinə imkan vermək, kommunikasiya kanallarını yaratmaq və gücləndirmək.

Beləliklə, əməkdaşlığa nail olmaq iş yerlərinin iqtisadi, texniki imkanları və biliklərindən, eləcə də rəhbərlik səviyyəsinin bu məsələyə (problemə) baxışından asılıdır. Odur ki, əməkdaşlıq imkanları araşdırılaraq praktikada tətbiq olunarkən tərəflər (universitet-işəgötürən) bu məsələyə hazır olmalıdırlar.

***Ədəbiyyat***

1. *Barnett, R. (1992). Improving Higher Education - Total Quality Care. Bristol: SRHE and Open University Press.*
2. *Bayrak, S., ve Muhsin, H. (2003). "Öğretim Elemanları ve Sanayici Açısınd dan Üniversite - Sanayi İşbirliğinin Değerlendirilmesi", Manas Üniversitesi, Sosyal Bilimler Dergisi, 3 (5): 64-85.*

3. *Davey, T., Baaken, T., Galan Muros, V., Meerman, A. The State of European University-Business Cooperation. – Part of the DG Education and Culture Study on the Cooperation between Higher Education Institutions and Public and Private Organisations in Europe. 2011, 140 p.*
4. *Etzkowitz, H. (2001) The Second Academic Revolution and the Rise of Entrepreneurial Science IEEE Technology and Society Magazine, 20 (2), 18-29.*
5. *Giuliani, E., & Arza, V. (2009). What drives the formation of 'valuable' university-industry linkages? Insights from the wine industry. Research Policy, 38, 906-921.*
6. *Korn Ferry 2018, Future of work: the global talent crunch, 52*
7. *https://www.archeredu.com/hemj/collaboration-in-higher-education-univerisities-partner-with-employers/*

**Ş.T.Mirzəyeva**
**Azərbaycan Dövlət Pedaqoji Universiteti**
***sebnem.mirzeyeva@gmail.com***

# İNGİLTƏRƏ VƏ AZƏRBAYCAN SOSİAL İŞ MODELLƏRİNİN MÜQAYİSƏLİ TƏHLİLİ

***Xülasə***

*Sosial iş fərdlərin, ailələrin və icmaların rifahının yaxşılaşdırılmasına yönəldilmiş fəaliyyətdir. Bu, ədalətli cəmiyyət yaratmaq və hər kəsin inkişaf üçün lazımi resurslara və dəstəyə çıxışını təmin etmək üçün zəruridir. İnsan hüquqlarının təşviqində və əhalinin həssas təbəqələrinin ehtiyaclarının ödənilməsində sosial işin rolunu qiymətləndirməmək olmaz.*

*Yanaşmalar və kontekstlər fərqli olsa da, həm İngiltərədə, həm də Azərbaycanda sosial rifahın təmin edilməsində və ehtiyyacı olan əhali qruplarının dəstəklənməsində sosial işin əhəmiyyətinə xüsusi önəm verilir. Məqalədə İngiltərə və Azərbaycanda sosial iş təcrübələri təhlil edilir, bu sahəyə aid anlayışların məzmunu aydınlaşdırılır, hər iki ölkənin özünəməxsus xüsusiyyətləri, bu sahədə onların uğur və çətinlikləri elmi-nəzəri təhlilə cəlb edilir.*

# СРАВНИТЕЛЬНЫЙ АНАЛИЗ МОДЕЛЕЙ СОЦИАЛЬНОЙ РАБОТЫ В ВЕЛИКОБРИТАНИИ И АЗЕРБАЙДЖАНЕ

***Резюме***

*Социальная работа – это деятельность, направленная на улучшение благосостояния отдельных лиц, семей и сообществ. Это необходимо для создания справедливого общества и обеспечения каждому доступа к необходимым ресурсам и поддержке развития. Роль социальной работы в продвижении прав человека и удовлетворении потребностей уязвимых групп населения нельзя недооценивать.*

*Хотя подходы и контексты разные, и в Англии, и в Азербайджане подчеркивается важность социальной работы в обеспечении социального обеспечения и поддержке нуждающихся групп населения. В статье анализируется опыт социальной работы в Англии и Азербайджане, уточняется содержание понятий, связанных с этой областью, а также приводятся к научно-теоретическому анализу уникальные особенности обеих стран, их успехи и трудности в этой области.*

# COMPARATİVE ANALYSİS OF SOCİAL WORK MODELS İN THE UK AND AZERBAİJAN

***Summary***

*Social work is an activity aimed at improving the well-being of individuals, families, and communities. It is essential for creating a just society and ensuring everyone has access to necessary resources and support for their development. Evaluating the role of social work in promoting human rights and meeting the needs of vulnerable populations is crucial.*

*Despite different approaches and contexts, both in the UK and Azerbaijan, social work is given special importance in providing social well-being and supporting populations in need. The article analyzes social work experiences in the UK and Azerbaijan, clarifies the content of understandings related to this field, and conducts a scientific and theoretical analysis of the unique characteristics, successes, and challenges of both countries in this area.*

***Açar sözlər:*** *sosial iş, fərqlilik, əməkdaşlıq, məqsəd, strategiya, oxşarlıq, təhsil*

***Ключевые слова:*** *социальная работа, разнообразие, сотрудничество, цель, стратегия, сходство, образование*

***Key words:*** *social work, diversity, collaboration, purpose, strategy, similarity, education*

**Mövzunun aktuallığı:** Cəmiyyətin daimi inkişafı üçün sadəcə təhsil, sağlamlıq və digər resursların təmin edilməsindən əlavə bərabər imkanların yaradılmasının və ehtiyacı olan əhali qruplarına yardımın önəmi son zamanlar daha yüksək şəkildə qiymətləndirilir. İnsanların inkişafının təmin edilməsi indiki dövrdə sosial işin hansı dərəcədə yerinə yetirilməsi səviyyəsindən də asılıdır. Sabiq ambusman Elmira Süleymanovanın dediyi kimi «fərdlərin, icmaların, qrupların sosial rifahının və həyat səviyyəsinin yüksəldilməsinə yönəldilmiş peşəkar fəaliyyət növü olan sosial iş insan hüquqlarının müdafiəsində mühüm rola malikdir» [1].

Son dövrlərdə sosial işçilər məktəblərdə, ali təhsil müəssisələrində, dövlət orqanlarında, tibbi xidmət fəaliyyəti sahələrində, ailə və uşaq rifahı mərkəzlərində və özəl bölmələrdə fəaliyyət göstərirlər.

ABŞ-ın Çikaqo Universitetinin professoru F.Rimer sosial işin ictimai iş kimi, ədalət və etika əsaslı bir peşə olduğunu vurğulamışdır. Bu iş etika və mənəvi missiyaların yerinə yetirilməsinə səy göstərməlidir. Sosial işin pioneri olan Ceyn Addams (1902) peşənin rəsmi təsisindən qısa bir müddət sonra deyib ki, sosial iş etika prinsipləri üzərində qurulmuşdur [2, s.176].

Sosial iş elə bir sahədir ki, o, qruplara, müxtəlif icmalara və fərdlərə öz funksiyalarını reallaşdırmaq üçün onların bilik və bacarıqlarını inkişaf etdirir, öz rifah səviyyələrini təmin etmək üçün bu əhali qruplarına uyğun sosial şərait

yaradır. Sosial işçilərin bu önəmli peşənin yüksək şəkildə inkişafı üçün öz üzərlərinə düşən vəzifə borclarını məsuliyyətli şəkildə yerinə yetirmələri olduqca vacibdir. Bu haqda R.Kapurun yazdığı kimi sosial işçilər müvafiq biliklər, bacarıqlar və qabiliyyətlər sahibi olmalıdırlar. Bu, xidmət edilənlərin problemlərini, məsələlərini anlamaqda və onlara effektiv yardım təmin etməkdə müstəsna rolu oynayır [3, s.14].

Respublikamızda İngiltərə kimi inkişaf etmiş və digər inkişaf etməkdə olan ölkələrdə olduğu kimi sosial iş sahəsində ümumbəşəri və milli dəyərlər nəzərə alınmaqla demokratik cəmiyyət quruculuğunun ahənginə uyğun əhəmiyyətli işlər görülmüş və görülməkdədir.

**İngiltərədə sosial işin inkişafı və xüsusiyyətləri.**

İngiltərədə sosial iş zəngin tarixə malikdir və cəmiyyətin strukturuna dərindən inteqrasiya olunmuşdur. Sosial iş peşəsində etik dəyərlər və prinsiplərin nəzərə alınması önəmli əhəmiyyətə malikdir. “Uşaqları xilas edək” təşkilatının qurucusu Eglantyne Jebb kimi şəxslər öz fəaliyyətləri ilə sosial işin güclü əxlaqi və etik təməli olan bir peşə kimi tanınması üçün zəmin yaratdılar [4]. Britaniya Sosial İşçilər Assosiasiyası (BASW) etik təcrübənin vacibliyini vurğulayaraq, bu sahədə sosial işçilərə ciddi dəstək vermişdir.

İngiltərədə sosial iş uşaqların müdafiəsi, psixi sağlamlıq xidmətləri, böyüklərin sosial qayğısı və icma dəstəyi daxil olmaqla geniş spektri əhatə edir. Bu mühüm peşə tənzimlənir və sosial işçilərə effektiv dəstək göstərilir. Onlara lazım olan bilik və bacarıqları əldə etmək üçün ciddi təlim keçirlər. Sosial işçilər fərdlərin və ailələrin tələb olunan qayğı və yardımı almasını təmin etmək üçün yerli hakimiyyət orqanları, səhiyyə müəssisələri və təhsil təşkilatları ilə əməkdaşlıq edir.

**Azərbaycanda sosial işin tarixi inkişafı və xüsusiyyətləri.**

Azərbaycanda sosial işin inkişafı ölkənin dəyişən sosial və siyasi mənzərəsini əks etdirən əhəmiyyətli və inkişaf edən proses olmuşdur. Sosial iş fərdlərə, ailələrə və icmalara onların rifahını və həyat keyfiyyətini yaxşılaşdırmaqda kömək etməyə yönəlmiş bir peşədir.

Azərbaycanda sosial işin köklərini 20-ci əsrin əvvəllərinə, Azərbaycan Xalq Cümhuriyyəti dövründə (1918-1920) axtarmaq olar. Bu dövrdə əhalinin sosial ehtiyaclarını ödəmək üçün uşaq evlərinin və xeyriyyə təşkilatlarının yaradılması da daxil olmaqla sosial islahatlara start verildi. Sovet dövründə digər keçmiş sovet respublikalarında olduğu kimi Azərbaycanda da sosial iş əsasən dövlətin nəzarətində idi. Sosial işçilərə səhiyyə, təhsil və uşaqların rifahı kimi sosial xidmətlərlə bağlı dövlət siyasətini həyata keçirmək tapşırılmışdı. Sosial iş təhsili ilk növbədə sovet sistemi çərçivəsində aparılırdı.

1991-ci ildə müstəqillik əldə etdikdən sonra Azərbaycan mühüm siyasi və iqtisadi transformasiya dövrünə başladı. Ölkə yeni sosial və iqtisadi çağırışlara uyğunlaşdıqca sosial işin məzmununda da dəyişikliklər baş verdi.

Ölkənin mərkəzləşdirilmiş planlı iqtisadiyyatdan bazar iqtisadiyyatına keçidi ilə sosial xidmətlərə ehtiyac artdı.

Qeyri-hökumət təşkilatları (QHT-lər) sosial xidmətlərin göstərilməsində və sosial ədalətin müdafiəsində daha mühüm rol oynamağa başladılar. Bu təşkilatlar daha çox yoxsulluq, insan haqları və icma inkişafı kimi sahələrdə fəaliyyət göstərirdilər. Bir çox sosial işçilər QHT-lərlə işləmək imkanı tapdılar. Azərbaycan hökuməti sosial iş peşəsinin tənzimlənməsinin vacibliyini irəli sürmüşdü. 2008-ci ildə sosial işçilərin fəaliyyətini tənzimləyən qanun qəbul edildi. Qanun sosial işin peşəkarlaşdırılmasını təmin etmək, təhsil və təcrübə standartlarını müəyyən etmək məqsədi daşıyırdı.

Ölkəmizdə sosial işin inkişafı davamlı prosesdir. Bu peşə əhalinin dəyişən ehtiyaclarını ödəmək və daha geniş ictimai-siyasi kontekstə uyğunlaşmaq üçün təkamülünü davam etdirir. Sosial işin əhəmiyyətinin dərk edilməsi və peşəkar standartların yaradılması Azərbaycan vətəndaşlarının rifahının təmin edilməsi istiqamətində müsbət addımlardır.

**İngiltərə və Azərbaycanın sosial iş sahəsində oxşar cəhətləri.**

İngiltərə və Azərbaycan arasında mədəni, tarixi və siyasi kontekstlərdə reallıqlar eyni olmadığına görə sosial iş praktikasında, şübhəsiz fərqlər mövcuddur. Ancaq bu mühüm peşəyə yanaşmalarda da bir sıra oxşarlıqlar da vardır. İngiltərə və Azərbaycan sosial iş modelləri arasındakı oxşarlıqları aşağıdakı kimi qruplaşdırmaq olar:

- Həm İngiltərə, həm də Azərbaycanda sosial iş sahəsinin peşəkarlaşdırılmasının vacibliyi qəbul edilir. Onlar bu sahədə praktikantların xüsusi təhsil və etik standartlara cavab verməsini təmin etmək üçün sosial iş təcrübəsini tənzimləyən qanunlar və qaydalar müəyyənləşdirmişlər [5, s.8].
- Hər iki ölkə sosial işçilər üçün rəsmi təhsil və təlim proqramları təklif edir. Həm İngiltərədə, həm də Azərbaycanda universitetlər və institutlar sosial iş üzrə bakalavr və magistr proqramları təqdim edərək, tələbələri peşəkar sosial işçi kimi təcrübə keçmək üçün lazımi bilik və bacarıqlarla təchiz edir. Hər iki ölkədə sosial işçilər uşaqlar, qocalar, əlillər və iqtisadi və ya sosial problemlərlə üzləşən insanlar da daxil olmaqla həssas əhali qrupları ilə işləyirlər. Onların əsas məqsədi bu şəxslərin və  və ehtiyacı olan icmaların rifahını yaxşılaşdırmaqdır.
- Həm İngiltərədə, həm də Azərbaycanda sosial iş tez-tez müxtəlif sahələrdən olan peşəkarlarla əməkdaşlığı nəzərdə tutur. Sosial işçilər vahid yanaşma tələb edən mürəkkəb problemləri həll etmək üçün tibb işçiləri, pedaqoqlar, psixoloqlar və başqaları ilə birlikdə işləyirlər.
- Hər iki ölkədə sosial iş təcrübəsini tənzimləyən qanunlar və qaydalar mövcuddur. Bu qaydalar peşəkar standartlar, etik qaydalar, nəzarət və hesabatlılıq mexanizmlərini müəyyən edir. Həm İngiltərədə, həm də Azərbaycanda sosial işçilər tez-tez sosial ədaləti və insan haqlarını təşviq

etmək üçün təbliğat işlərində fəal iştirak edirlər. Onlar müştərilərə həyatlarına təsir edən qərarlarda söz sahibi olmaq və sosial problemlərə töhfə verən sistemli problemləri həll etmək üçün fəallıq göstərmək imkanı verir.

- Hər iki ölkədə Qeyri-hökumət təşkilatları (QHT) sosial xidmətlərin göstərilməsində mühüm rol oynayır. İngiltərə və Azərbaycanda sosial işçilər həssas əhali qruplarına dəstək və xidmətlər göstərmək üçün tez-tez bu təşkilatlarla əməkdaşlıq edirlər. Hər iki ölkə Birləşmiş Millətlər Təşkilatı və digər beynəlxalq QHT-lər kimi təşkilatlarla əməkdaşlıq və tərəfdaşlıq axtarır. Bu əməkdaşlıqlar sosial iş xidmətlərini təkmilləşdirmək və qlobal sosial problemləri həll etmək üçün ən yaxşı təcrübələri və resursları ölkəyə gətirməyə kömək edir.
- Hər iki ölkənin sosial işçiləri mədəni həssaslığın və səriştəliliyin vacibliyini qəbul edirlər. Onlar öz yanaşmalarını müxtəlif müştəri kütlələrinin ehtiyaclarını ödəmək və mədəni fərqlərə hörmət etmək üçün uyğunlaşdırırlar. Həm İngiltərədə, həm də Azərbaycanda sosial işçilər bu sahədə ən yaxşı təcrübələr və yeni tendensiyalardan xəbərdar olmaq üçün davamlı peşəkar inkişafla məşğul olmağa təşviq olunurlar.

Bu oxşarlıqlara baxmayaraq, sosial iş təcrübələri və problemlərin ölkələr arasında əhəmiyyətli dərəcədə fərqləndiyini etiraf etməliyik. İngiltərə və Azərbaycandakı spesifik sosial məsələlər, qanunvericilik bazaları və mədəni kontekstlər sosial işin necə tətbiq olunduğu və praktikantların tez-tez qarşılaşdığı xüsusi çətinliklərlə bağlı məsələlər tədricən öz həllini tapa bilər.

**İngiltərə və Azərbaycanın sosial iş sahəsində fərqli cəhətləri.**

İngiltərə və Azərbaycan arasında mədəni, tarixi və siyasi inkişafın xüsusiyyəti ilə əlaqədar olaraq sosial iş təcrübəsində bir sıra fərqlər mövcuddur. Bu fərqləri aşağıdakı kimi təsnifləşdirmək olar:

- İngiltərədə sosial işin köklü tarixi vardır. Bu köklər 19-cu əsrin sonlarına gedib çıxır. Bunun əksinə olaraq, Azərbaycanda sosial işin inkişafı daha yenidir. 1991-ci ildə Sovet İttifaqının çökməsi nəticəsində müstəqillik əldə edilməsindən başlamışdır. Bu tarixi fərq hər iki ölkədə sosial iş sistemlərinin yetkinliyinə və inkişafına öz təsirini göstərmişdir. Belə ki, İngiltərədə sosial iş təcrübəsi üçün yaxşı müəyyən edilmiş qanunvericilik bazası mövcuddur. Sosial işçilərin hüquq və vəzifələrini əks etdirən 1989-cu il Uşaq Qanunu, 2014-cü il Qayğı Aktı və 2005-ci il Zehni Bacarıq Aktı bu sıradan olan nümunələrdir. Azərbaycanımızda sosial iş üçün hərtərəfli hüquqi bazanın hazırlanması prosesi davam edir.
- Hər iki ölkə uşaqların müdafiəsi, psixi sağlamlıq və yoxsulluq kimi ümumi sosial məsələlərlə məşğul olsa da, bu sahələr daxilində xüsusi problemlər və prioritetlər fərqlidir. Məsələn, İngiltərə yaşlı əhali və immiqrasiya ilə bağlı məsələlərə daha çox diqqət yetirə bilir. Azərbaycanımız

da öz tarixi inkişafından və bazar iqtisadiyyatına keçiddən qaynaqlanan unikal problemləri davamlı olaraq həll etməyi qarşısına məqsəd qoymuşdur.

- İngiltərə, adətən Azərbaycanla müqayisədə daha çox resursa və daha inkişaf etmiş sosial iş infrastrukturuna malikdir. Bura təlim keçmiş sosial işçilərin daha böyük işçi qüvvəsi, yaradılmış sosial xidmət agentlikləri və daha əhatəli sosial təminat sistemi daxildir. İngiltərə çoxlu etnik və linqvistik icmalara malik çoxmədəniyyətli ölkədir. Azərbaycan isə etnik cəhətdən daha homojendir. İngiltərədəki sosial işçilər tez-tez mədəni və linqvistik müxtəliflik, o cümlədən bir çox dillərdə xidmət göstərməklə bağlı məsələləri həll etməlidirlər.
- Sosial iş xidmətlərinin maliyyələşdirilməsi də iki ölkə arasında fərqlidir. İngiltərədə sosial xidmətlər üçün daha yetkin və sabit maliyyələşdirmə sistemi mövcuddur ki, bu sistemə hökumət maliyyəsi, yerli hakimiyyət ianələri və bəzən istifadəçi ödənişləri daxildir. Azərbaycanda sosial xidmətlərin maliyyələşdirilməsi iqtisadi amillərə görə daha az proqnozlaşdırıla bilən və sabit ola bilər.
- Sosial işçilər üçün təhsil və təlim sistemləri də fərqlidir. İngiltərədə daha yaxşı qurulmuş universitet proqramları və təlim imkanları vardır. Azərbaycanda isə sosial işçilər üçün güclü təhsil infrastrukturunun yaradılması prosesi yekunlaşmamışdır.

İngiltərə beynəlxalq sosial işlərlə fəal şəkildə məşğul olur və tez-tez beynəlxalq təşkilatlarla əməkdaşlıq edir, sosial iş təcrübələrinin qlobal biliyinə və inkişafına töhfə verir. Azərbaycan beynəlxalq əməkdaşlıqlara tədricən cəlb olunur və qlobal sosial iş standartlarına daha az təsir göstərə bilir. Hər iki ölkədəki siyasi kontekst sosial iş təcrübəsinə təsir göstərir. İngiltərənin sosial işi demokratik sistem çərçivəsində aparılır, Azərbaycanda isə sosial işçilərin muxtariyyətinə və qərar qəbul etmə proseslərinə təsir edə biləcək fərqli siyasi kontekst vardır.

İngiltərə və Azərbaycanda sosial işi müqayisə edərkən qeyd olunan fərqləri nəzərə almaq zəruridir. Çünki onlar hər bir ölkədə sosial işçilərin üzləşdiyi unikal çətinlikləri və imkanları əks etdirməklə bərabər həll modelləri də verir.

***Ədəbiyyat***

1. *https://ombudsman.az/az/view/news/1069/azerbaycanda-sosial-ishin-teshkili-movcud-veziyyet-ve-gozlentiler-movzusunda-konfrans-kechirilib.*
2. *Frederic G. Reamer ‘The Evolution of Social Work Ethics: Bearing Witness’, 2013, 181 p.*
3. *Dr. Radhika Kapur Understanding the Significance of Social Work, 2018, 15 p*
4. *https://www.savethechildren.org.uk/about-us/our-history*

**A.Ə.Nazar**
**Azərbaycan Dövlət Pedaqoji Universiteti**
***aysu.nazar@mail.ru***

# KORPORATİV SOSİAL MƏSULİYYƏTİN CƏMİYYƏTDƏ ROLU

***Xülasə***

*Tədqiqatın məqsədi korporativ sosial məsuliyyətin mahiyyətini aşkar etmək, həm sahibkarlıq, həm də sosial iş sahəsində korporativ sosial məsuliyyətin rolunu müəyyən etməkdir. Məqalədə həm dünya, həm də Azərbaycanda korporativ sosial məsuliyyət nümunələrinə rast gəlmək mümkündür. Korporativ sosial məsuliyyətin ətraf mühitə və ekologiyaya, həmçinin daha yaxşı dünya üçün cəmiyyətə təsiri tədqiqatın əsas leytmotividir. Məqalədə sosial iş təcrübəsində korporativ sosial məsuliyyət əməkdaşlığının sosial iş sahəsinə bilavasitə proqressiv təsirindən bəhs olunur.*

# РОЛЬ КОРПОРАТИВНОЙ СОЦИАЛЬНОЙ ОТВЕТСТВЕННОСТИ В ОБЩЕСТВЕ

***Резюме***

*Цель исследования – раскрыть сущность корпоративной социальной ответственности, определить роль корпоративной социальной ответственности в сфере как предпринимательства, так и социальной работы. В статье можно найти примеры корпоративной социальной ответственности как в мире, так и в Азербайджане. Влияние корпоративной социальной ответственности на окружающую среду и экологию, а также на общество ради лучшего мира является основным лейтмотивом исследования. В статье говорится о прямом прогрессивном влиянии сотрудничества по корпоративной социальной ответственности в сфере социальной работы на практику социальной работы.*

# THE ROLE OF CORPORATE SOCİAL RESPONSİBİLİTY İN SOCİETY

***Summary***

*The purpose of the study is to reveal the essence of corporate social responsibility, to determine the role of corporate social responsibility in the field of both entrepreneurship and social work. In the article, it is possible to find examples of corporate social responsibility both in the world and in Azerbaijan. The impact of corporate social responsibility on the environment and ecology, as well as on society for a better world, is the main leitmotif of the research. The article talks about the*

*direct progressive influence of corporate social responsibility cooperation in the field of social work in social work practice.*

***Açar sözlər:*** *korporativ sosial məsuliyyət, sosial iş, ətraf mühit və ekologiya, əlavə dəyər*
***Ключевые слова:*** *корпоративная социальная ответственность, социальная работа, окружающая среда и экология, добавленная стоимость*
***Key words:*** *corporate social responsibility, social work, environment and ecology, added value*

Şirkətlərin fəaliyyətində onların cəmiyyət və ətraf mühitə təsirini düzgün istiqamətə yönəldən anlayışa Korporativ sosial məsuliyyət (KSM) deyilir. Korporativ sosial məsuliyyət dedikdə ədalətli iş şərtləri, ətraf mühitə hörmət və sosial faydalılıq təşkil etməklə şirkətin ictimai və ekoloji məsələlərlə bağlı ictimai faydalı işlər görməsi nəzərdə tutulur.

KSM-nin köklərini müəyyən etmək üçün asanlıqla yüz illərlə geriyə getmək olar. Bununla belə, son yarım əsrə baxdıqda bu gün rəhbər işçilərə aid olan xüsusiyyətlərin məhz son yarım əsrdə formalaşdığını görmək olar. KSM-nin müasir dövrü Hovard Boenin 1953-cü ildə "İş adamının sosial məsuliyyətləri" kitabının nəşri ilə bağlıdır. Bouenin kitabının adından göründüyü kimi, o vaxtlar ətrafda kifayət qədər iş qadını yox idi. Bouen, "iş adamlarının cəmiyyət qarşısında hansı məsuliyyətləri ağlabatan şəkildə üzərinə götürə bilər?" sualını verərkən, rəhbərlərin cəmiyyətdəki rolları haqqında düşünmələri üçün zəmin yaratdı [1, s.87].

1960-1970-ci illərdə şirkətlərin mənfəətlərini artırmaqdan əlavə sosial məsuliyyətə də ehtiyaclarını nümayiş etdirmələri ilə bağlı fikirlər formalaşmışdır. Bu dövrdə, şirkətlər sosial məsuliyyət prinsiplərini tətbiq etməyə başlamışdır.

Korporativ sosial məsuliyyət biznes və cəmiyyət arasında əlaqələrin tədqiqində əsas anlayışlardan biridir. Biznes və cəmiyyətin maraqları arasında ortaq və fərqli cəhətlərin aşkara çıxarılması onlar arasındakı münasibətlərin sərhədlərinin müəyyənləşdirilməsi baxımından mühüm əhəmiyyət daşıyır [2, s.225].

Korporativ sosial məsuliyyət (KSM), biznes və cəmiyyət arasında bir bağlantı və tərəfdaşlıq yaratmağa kömək edir. Bu əlaqə aşağıdakı formada özünü göstərir:

1. Məsuliyyət hissi: Şirkətlər, cəmiyyətin bir hissəsi kimi öz məsuliyyətlərinin fərqində ola bilərlər. Bu, şirkətlərin mənfəətlərinin bundan başqa ictimai və ətraf mühitin inkişafına dəyər əlavə etməklə məşğul olmağı seçmələri deməkdir.

2. Ətraf mühit tərəfdaşlığı: Şirkətlər, ətraf mühit məsələlərini diqqətə alaraq, sürətli dəyişən cəmiyyət norma və gözləntilərinə uyğun həllər tapmağa çalışmaqla ətraf mühit tərəfdaşları ilə daha yaxın əlaqə qurmağa nail olurlar.

3. Şəffaflıq və etik davranış: KSM, şirkətlərin şəffaflıq və etik davranış prinsiplərini vurğulayaraq, cəmiyyətin güvənini qazanmağa və pozitiv imic yaratmağa kömək edir.

4. Cəmiyyətə fayda təmin etmək: Şirkətlər, sosial və ictimai tədbirlər və layihələr vasitəsilə cəmiyyətə birbaşa fayda təmin etməklə şəxsi və korporativ məsuliyyətlərini yerinə yetirirlər.

Şirkətlər, KSM çərçivəsində, sosial iş sahəsində faydalı tədbirlər təşkil edərək cəmiyyətə pozitiv təsir etməyə nail olur. Sosial işlə KSM arasındakı əlaqəyə belə bir nümunə göstərmək olar. Bir şirkət, korporativ sosial məsuliyyət çərçivəsində, yerli təhsil sistemini dəstəkləmək məqsədi ilə təhsil proqramları və tədbirlər təşkil edə bilər. Misal olaraq, şirkət təhsil materialları təmin edə, təhsil müəssisələrinə texniki və maliyyə dəstəyi göstərə və tələbələrə iş təcrübəsi imkanları təqdim edə bilər. Bu tədbirlər sosial iş sahəsində cəmiyyətin təhsil səviyyəsini yaxşılaşdırmağa kömək edərək şirkətin sosial məsuliyyətini nümayiş etdirə bilər.

Son illərdə KSM tərəfdarları iddia edirlər ki, şirkətlər qarşıya "mənfəətdən daha çox fayda" vermək məqsədi qoyur. Bəzi mütəxəssislər isə buna əks olaraq iddia edir ki, əgər şirkətlər mənfəətdən daha çox "əlavə" fayda əldə etmək istəyirsə, bu faydanı mahiyyətcə mənfəət yaratmır [4, s.31].

Korporativ sosial məsuliyyət əmək və sərvət bölüşdürməsinə əsaslanan bir modeldir. Bu təşkilat strukturu, üzvlərin əmək və sərvətə bərabər şəkildə qatılmasını və nəticədə əldə olunan qazancın ədalətli şəkildə paylaşılmasını təmin edir. Bu, cəmiyyətdə ədalət və əmək hüquqlarının qorunması üçün effektiv bir yol olaraq qiymətləndirilir.

Sosial xidmət təcrübələri və iş yerində korporativ sosial məsuliyyət fəaliyyətləri ilə qurum daxilində yaradılan müsbət korporativ imic və korporativ nüfuz qavrayışı zamanla qurumun əlaqəsi olduğu bütün mühitə yayılacaq. Bu qavrayışın yayılması üçün korporativ ünsiyyət artırılmalı və sosial məsuliyyət şüuru inkişaf etdirilməlidir. Aparılan araşdırma, təşkilatların sosial məsuliyyətlərini yerinə yetirmələrinin işçilərin iş məmnunluğunun təmin edilməsində böyük rol oynadığını ortaya qoydu. İş məmnunluğu sosial baxımdan qiymətləndirildikdə, bunun işçilərə qarşı ədalətli rəftardan və qurum daxilində təşkilati davranışlardan asılı olduğu görünür [3, s.1071].

İndiki dövrdə korporativ sosial məsuliyyət (KSM), bir neçə əsas səbəbə görə çox əhəmiyyətli hesab olunur:

6. Cəmiyyət qarşısında məsuliyyət: Şirkətlər, cəmiyyətin bir hissəsi kimi öz məsuliyyətlərinin fərqində ola bilərlər. İnsanlar və müştərilər artıq

şirkətlərdən yalnız məhsul və xidmətlər almağı deyil, həm də şirkətlərin cəmiyyətə və ətraf mühitə qarşı məsuliyyət sahibi olmasını gözləyirlər.

7. Reputasiya və müştəri loyallığı: Korporativ sosial məsuliyyət, şirkətlərin imicini artıraraq müştəri loyallığını artırmağa və müştəri əlaqələrini gücləndirməyə yardım edir. Müştərilər sosial və ətraf mühit məsələlərinə qarşı həssasdırlar və bu məsələdə tədbirlər görən korporativ sosial məsuliyyət sahibi şirkətlərə müştərilər tərəfindən daha çox üstünlük verilir.

8. Ətraf mühitin qorunması və sosial inkişaf: KSM, şirkətləri ətraf mühitin qorunması, sosial inkişafı dəstəkləmə və ədalətlilik prinsipləri əsasında fəaliyyət göstərmələri üçün təşviq edir.

Bu faktorlar, korporativ sosial məsuliyyətin indiki dövrdə daha çox tələb olunmasına və şirkətlərin sosial və ətraf mühit məsələlərinə daha çox diqqət yetirməsinə səbəb olur.

Müasir dövrdə, korporativ sosial məsuliyyətin ən aktual forması, təşkilatların ictimaiyyət və ətraf mühitə daha çox fokuslanması, sosial təsirlərin ölçülməsi və müxtəlif təşkilatlarla əlaqələrin gücləndirilməsi üçün inkişaf etdirdikləri yenilikçi layihələr və tədbirlərdir. Buraya həmçinin əraziyə özəl diqqət, əmək və sərvət bölüşməsi, ətraf mühiti qorumaq üçün effektiv tədbirlər həyata keçirmək, ictimaiyyət və müstəqil təşkilatlarla əməkdaşlıq etmək, sosial inkişaf layihələrinə investisiya etmək kimi sahələr üzrə fokuslanmaq da aiddir. Korporativ təşkilatlar, sosial məsuliyyətə əsaslanan bir cəmiyyətə və daha sürətli dəyişən dünya tələbatlarına cavab verən bir rola sahib olmağa çalışırlar.

Korporativ sosial məsuliyyətə bir nümunə kimi, “Patagonia” adlı bir şirkət göstərilə bilər. Patagonia funksional və keyfiyyətli geyim və əşyaların istehsalında tanınan bir alimdir. Şirkətin korporativ sosial sahibkarlığa olan təbliğatı və hərəkətləri, cəmiyyətə və ətraf mühitə məsuliyyət daşımada və təşəbbüslərin dəstəklənməsində göstərdiyi maraqlı tədbirlərlə diqqəti cəlb edir.

Patagonia 2001-ci ildə qurulan “1% for the Planet” təsərrüfatının təsisçisidir. Bu təsərrüfat, şirkətlərə ətraf mühit tərəfdaşlığı üçün illik qazancının 1%-ni həsr etməyi təklif edir. Patagonia bu təklifi qəbul edərək illik mənfəətinin bir hissəsini ətraf mühitin və təbii sərvətlərin qorunması üçün ayırmağa başlamışdır.

Patagonia şirkətinin bu təşəbbüsü korporativ sosial sahibkarlığa nümunədir və eyni zamanda başqa şirkətlər üçün təşviqedici bir modeldir.

Azərbaycanda isə korporativ sosial məsuliyyət (KSM) sahəsində SOCAR şirkətinin “Ədalət və Sosial İnkişaf Fondunun” təşkil etməsi nümunə hesab oluna bilər. Bu fond, sosial proqramları, təhsil layihələri və ictimai təşəbbüslər vasitəsilə Azərbaycan ictimaiyyətinin inkişafına yardım göstərir. SOCAR həm də təbii ehtiyatların qorunması və ətraf mühitə diqqət yetirməklə müxtəlif ekoloji layihələrə də dəstək verir.

Korporativ sosial məsuliyyət sahəsində Azərbaycan şirkətləri geniş spektrdə layihələr həyata keçirir. Bu layihələr təhsil, sağlamlıq, sosial inkişaf və ictimaiyyət sahələrində fəaliyyət göstərə bilir. SOCAR, Azərbaycan Respublikası Prezidenti İlham Əliyevin "Dövlət proqramı üzrə sosial inkişaf və stabilizasiya fondu"na dəstək verən layihələrdə əhəmiyyətli rola sahibdir.

Korporativ sosial məsuliyyət olmasa, şirkətlər sosial problemlərə həll tapmaq əvəzinə yalnız mənfəət artırmaqla kifayətlənirdi. Korporativ sosial məsuliyyət olmadan, ictimaiyyət və ətraf mühit daha çox mənfi təsir altında qalardı.

***Ədəbiyyat***

1. *Archie B. Carroll "Corporate social responsibility: The centerpiece of competing and complementary frameworks" Organizational Dynamics (2015) 44, 87-96.*
2. *Duane Windsor "The future of corporate social resonsiblity", International Journal of Organizational Analysis; 2001; 9, 3; ABI/INFORM Global pg. 225*
3. *Gülşen Şimşek, Fatih Altun "Kurumsal Sosyal Sorumluluğun İşyerinde Sosyal Hizmet Bağlamında Değerlendirilmesi "Journal of Society & Social Work Cilt 32, Sayı 3, Temmuz 2021; s. 1061-1077*
4. *Santanu Sarkar, Ph. D İndustrial social work to corparate social responsibility: A transformation of priority CH Area (East), Jamshedpur, Jharkhand 831001.*

**A.T.Ələkbərli**
**Azərbaycan Dövlət Pedaqoji Universiteti**
***ayselelekber1999@gmail.com***

# RƏQƏMSAL TƏHSİLİN İNKİŞAFININ AZƏRBAYCANDA ÜMUMİ VƏZİYYƏTİ

**Xülasə**

*Məqalədə məqsəd Azərbaycanda rəqəmsal təhsil sisteminin imformasiyalaşdırılmasının məqsədləri və müasir rəqəmsal informasiya mədəniyyətinə malik gənc şəxsiyyətlərin yetişdirilməsi, həmçinin ölkədə vahid - formalaşmış rəqəmsal təhsil və informasiya mühitinin formalaşdırılmasının inkişaf etdirilməsidir. Bu rəqəmsal mühit yeni informasiya və rəqəmsal texnologiyalarından istifadə etməklə müasir təhsilin keyfiyyətinin yüksəldiməsinə, yeni informasiya mədəniyyətinin dünya miqyasına çıxarılmasına, təhsilin inteqrasiya olunmasına, hər bir vətəndaşın bütün səviyyələr üzrə rəqəmsal təhsilə bərabər şəkildə çıxışına təminat yaradır. Rəqəmsal və müasir texnologiyanın inkişaf etməsi daha çox hallarda tələbə və şagirdlər üçün əla bir vasitədir. Artıq, rəqəmsal interaktiv üsul sınaqdan keçirilib və nəticələri müsbət olaraq Azərbaycanda da qəbul olunub. Müasir təhsildə kompüter sistemli otaqların yaradılması və bu tip siniflərin sayının çoxaldılması dərslər və təlimlər zamanı səmərəli bir rol oynayır, həmçinin bunlar məktəb və universitetlərin əsas informasiya mərkəzlərinə çevrilməsinə zəmin yaratmışdır.*

# ОБЩАЯ СИТУАЦИЯ РАЗВИТИЯ ЦИФРОВОГО ОБРАЗОВАНИЯ В АЗЕРБАЙДЖАНЕ

**Резюме**

*Целью статьи являются цели информатизации системы цифрового образования в Азербайджане и воспитания молодежи современной цифровой информационной культуры, а также развитие формирования единой цифровой образовательной и информационной среды в стране. Данная цифровая среда обеспечивает повышение качества современного образования за счет использования новых информационных и цифровых технологий, внедрение новой информационной культуры в мировые масштабы, интеграцию образования, равный доступ каждого гражданина к цифровому образованию на всех уровнях. . Развитие цифровых и современных технологий в большинстве случаев является отличным инструментом для студентов и школьников. Цифровой интерактивный метод уже прошел испытания, и результаты были положительно приняты в Азербайджане. В современном образовании создание кабинетов с компьютерными системами и увеличение количества таких классов играют эффективную роль во время уроков и тренингов, а также создали основу для превращения школ и университетов в основные информационные центры.*

# THE GENERAL SITUATION OF THE DEVELOPMENT OF DIGITAL EDUCATION IN AZERBAIJAN

***Summary***

*The purpose of the article is the goals of the informatization of the digital education system in Azerbaijan and the training of young people with modern digital information culture, as well as the development of the formation of a unified digital education and information environment in the country. This digital environment ensures the improvement of the quality of modern education by using new information and digital technologies, the introduction of the new information culture to the world scale, the integration of education, and the equal access of every citizen to digital education at all levels. The development of digital and modern technology is a great tool for students and pupils in most cases. Already, the digital interactive method has been tested and the results have been accepted positively in Azerbaijan. In modern education, the creation of rooms with computer systems and the increase in the number of such classes play an effective role during lessons and trainings, and they have also created the basis for the transformation of schools and universities into the main information centers.*

***Açar sözlər:*** *rəqəmsal təhsil, rəqəmsal texnologiya, müasir texnologiya, təlim-tədris, müasir təhsil, təkmilləşmə, rəqəmsal konsepsiya*

***Ключевые слова:*** *цифровое образование, цифровые технологии, современные технологии, обучение, современное образование, совершенствование, цифровая концепция.*

***Key words:*** *digital education, digital technology, modern technology, training, modern education, improvement, digital concept*

## Giriş

Azərbaycanda rəqəmsal təhsilin inkişaf etməsi, son illərdə daha da inkişaf edən bir sahəyə çevrilməyə başlanılmışdır. Ölkənin təhsil sistemində artıq rəqəmsal və müasir texnologiyalardan istifadə edilir, həmçinin ciddi addımlar atılmağa da başladılıb. Bu addımlar nəticəsində də, həmçinin bir çox irəliləyişlərəldə nail olunub. Əsasən də, pandemiya (Covid19) zamanəsində Azərbaycanda və bütün ölkələrdə məktəblərin, universitetlərin, həmçinin bir çox təhsil yerlərinin bağlanması səbəbi ilə distant olaraq (onlayn) təhsilə keçid edilməsi daha da rəqəmsal təhsilin əhəmiyyətinin artmasına səbəb olmuşdur.

Azərbaycanda rəqəmsal təhsilin ümümi olaraq vəziyyəti onun texniki-texnoloji infrastrukturunun inkişaf etməsi ilə bir-birinə çox sıx bağlıdır. Rəqəmsal təhsildə əsasən istifadə olunan metodlar onlayn dərs platformaları (Zoom, Teams, Blackbeard ,Delfin və s.) rəqəmsal pdf materiallar, onlayn (şifahi və yaxud virtual yazılı) imtahanlar bu tətbiqlərə daxildirlər. Buna görə də, ölkədə internetə çıxışın geniş olaraq yayılması, mobil telefonlar və qurğuların olması, kompüterlərdən istifadənin daha da artması, rəqəmsal

təhsilin inkişafına ən çox yayılmasına gətirib bu zamanadək çıxarmışdır. Ayrıca olaraq Azərbaycan hökuməti bir çox müəllim və tələbə heyətini rəqəmsal təhsilə təşviq etmək uğrunda mübarizə aparmağa çalışır, ayrıca olaraq bir çox projelər və proyektlər edirlər, həmçinin dəstəklər verməyə çalışırlar. Daha da başqa bir şey də vardır ki, Azərbaycanda da bir çox ölkələrdə olduğu qədərilə bir çox çətinliklərə gətirib çıxarmaqdadır. Ən əsası da olaraq, rayonlarda, bölgələrdə və dağ ətəyi kənd yerlərində internetə çıxışın zəif olması və ya bağlantının olmaması, qeyri-kafi, aşağı keyfiyyətli texnoloji infrastrukturun qurğularının olması və müəllim, tələbə və şagirdlərin rəqəmsal bacarıqlarının aşağı səviyyədə olması bir çox problemləri özündə cəmləşdirərək gətirib ortaya çıxara bilir.

Azərbaycanda rəqəmsal təhsilin vəziyyətində daimi olaraq yeniliklər edilməli, onları təkmilləşdirməli, həmçinin təkmilləşmə və yenilənmə üzərində bir çox araşdırmalar apararaq inkişaf etdirmək lazımdır. Bu proses zamanı yeni texnoloji inkişafın və infrastrukturun gücləndirilməsi tələbə və müəllimlərin rəqəmsal-texnoloji bacarıqlarının inkişaf edərək təkmilləşdirilməsi, həmçinin bundan əlavə olaraq dərs çıxışlarının təmin edilməsi ilə bağlı işlər aparılması zəruridir. Rəqəmsal təhsildə müasir kommunikasiya texnologiyalarının və informasiyanın yaradılması haqqında da Azərbaycanda bir sıra nüanslar vardır. Artıq Azərbaycanda, habelə bir çox dünya ölkələrində müasir texnologiyalar yaradılmış, inkşaf etmişdir. Burada Azərbaycanın rəqəmsal təhsilində müasir kommunikasiya texnologiyaları tələbələrin, şagirdlərin (onların valideynlərinin), müəllimlərin daha da səmərəli şəkildə öyrənməsinə və bir çox vacib məlumatların əldə edilməsinə imkan verən mühüm vasitədir. Müəllimlər tələbələrlə rahat şəkildə ünsiyyət qurmaq, onlarla əlaqə saxlamaq, universitet və yaxud kurs-dərs materiallarını bölüşdürmək və tələbələrin verilmiş tapşırıqların rahat bir şəkildə paylaşaraq qiymətləndirilməsi üçün müxtəlif kommunikasiya texnologiyalarından yararlana bilərlər. Gəlin bir məsələ götürək: video konfrans və video dərsləri, virtual və onlayn şəkildə təşkil olunmuş sinif-auditoriyalar, təhsil platformaları, həmçinin sosial-şəbəkə-media kimi müxtəlif tipli alətlərin sayəsində tələbələrə asanlıqla ünsiyyət quraraq əlaqə yaratmaq mümkündür.

Təhsil sistemində informasiyanın təmin edilməsinin məqsədi ilə müasir mədəniyyətə və əxlaqa malik olmuş şəxslərin yetişdirilməsi, ölkədə vahid şəkildə təhsilin formalaşdırılması, təhsildə informasiya mühitinin təkmilləşdirilməsinin aparılması vacibdir. Bundan əlavə olaraq, əsas məqsəd bu mühitdə olan informasiya texnologiyalarından istifadə olunaraq, təhsildə keyfiyyətin maksimum artması, yeni yaranmış informasiya mədəniyyətinin təkmilləşdirilməsi, təhsil siteminin dünya miqyasında formalaşaraq yenilənməsi, mədəniyyət və təhsilin ümumi inteqrasiyası, Azərbaycan

vətəndaşlarının bütün pillələr üzrə təhsil alma imkanlarının bərabər şəkildə olmasını təmin etməkdir.

Yaşadığımız dövrdə, müasir texnologiya vasitələrindən səmərəli istifadə olunmasının keyfiyyətinin artırılması, təhsil yerləri üçün pedaqoji və informasiya kommunikasiya texnologiyaları üzrə kadrların yüksək səviyyəli hazırlanması sisteminin yaradılması, onlara dərs-tədris prosesində bütün informativ bacarıqlara, həmçinin ən yeni informasiya vasitələrindən istifadəyə yiyələnmək imkanları yaradılmalı, təhsil müəssisələrində və bir çox təhsil mərkəzlərində internetə girişin təmin olunması, bir çox təhsil haqqında olan informasiya proseslərinin elmi təminatı və informasiya texnologiyalarına əsaslanan müasir təlimlərin hazırlanması, həmçinin təhsildə vahid və geniş infrastrukturun yaradılması, təhlükə doğuran halların aradan qaldırılması, bundan əlavə olaraq informasiya və informasiya təhlükəsizliyi ilə təmin olunması ilə bağlı bir sıra kompleks tədbirlərin həyata keçirilməsi, ancaq dövlət lisenziyasında olan proqramlardan istifadə olunmasına keçidlər olmalıdır.

Bütün bunlara nail olmaq üçün, vahid şəkildə təhsil sistemi yaradılmalı və bu sistemin informasiya sistemlərinin və pilləli təhsil, habelə informasiya texnologiyaları ilə tədris prosesində inteqrasiya və uyğunluq təmin edilməli, ənənəvi şəkildə keçirilən dərslər onlayn dərslərlə uyğunlaşdırılmalı, İKT-də uyğunlaşdırılmış effektiv və şəffaf monitorinq sistemi, həmçinin resurs mərkəzləri yaradılmalıdır. Milli elektron dərsliklər hazırlanmalı və onların tədris prosesində tətbiq olunması zəruridir. Təhsilin bu şəkildə keyfiyyətinin artırılması, təhsil-tədris məqsədli informasiya vasitələrinin texnologiyalarının standartlaşması və sertifikasiyadan keçməsinə gətirib çıxarır. Bir nüansı da qeyd etmək lazımdır ki, təhsil müəssisələrinin kompüter avadanlıqları, internetə girişin təmin olunması, telekommunikasiya vasitələri ilə təminatı müntəzəm şəkildə aparılmalıdır. Qeyd etmək lazımdır ki, bir sıra təhsil müəssisələrində bir çox kompüterlərin və yenilənmiş texnologiyaların sayca artırılması tədris prosesi zamanı daha da səmərəli olmasına zəmin yaradır. Buna görə də, müxtəlif cür dərslərin keçirilməsi, tədrisdə müasir texnoloji vasitələrin mütəmadi sürətdə və daha keyfiyyətli istifadə olunması üçün təhsil müəssisələri müasir texnologiyaları və avadanlıqları öyrənərək qəbul etməlidir. Odur ki, təhsilin effektiv olması və yüksəldilməsi üçün bir çox məktəb və tədris ocaqlarında müasir texnoloji avadanlıqları və orada yenilənmiş infrastruktur təkcə şagird və tələbələr üçün deyil, həm də tədris müəssisələrində müəllim və işçi heyyətinin, valideynlərin, təhsil müəssisələrində çalışan yaxın insanların texnologiyalardan istifadə qabiliyyətinin artırılması və öyrənilməsi üçün istifadə oluna bilər.

Bundan əlavə olaraq olaraq, tələbə və şagird heyətlərində texnoloji və rəqəmsal biliklərin yaradılması mühüm və zəruri məsələlərdəndir. Tələbə və

şagirdləri yalnız məlumatlarla əsaslandırmaqdan əlavə, onların istehlak edilməsi və istehsal edilməsi, həmçinin yaradıcı şəkildə düşünülməsinə təşviqin edilməsinin öyrənmə mühitləri yaradılmalıdır. Multimediya vasitələrinin təlim-tədris prosesində istifadə olunaraq tətbiq olunması pedaqoji fəaliyyət zamanı texnologiyalarında hazırlanmasını da özündə birləşdirir və bundan əlavə olaraq qeyd etmək lazımdır ki, multimediya avadanlıqları mühüm və didaktik vasitələr olaraq özündə üç kompleksi özündə cəmləşdirir: 1) Tədris materiallarının təlim texnologiyaları; 2) Təlim-tədris materiallarının mövzusu 3) Təlim materiallarının şərh olunması. Qeyd olunmuş bu komplekslər bir-birilə daha yaxından əlaqədədirlər, təhsil alanın özünün öyrədici sistemini əmələ gətirir və təhsil prosesində özünün şəxsiyyətini reallaşdırmağa hər şaxəli şərait yaradır. Eyni zamanda, rəqəmsal alətlər və texnologiyalar sayəsində tələbə, şagird və müəllimlərin onlara verilmiş məlumatları araşdırılmasının, təhlil-təqdim edilməsi yollarının daha da asanlaşmasına zəmin yaradır.

Texnologiyanın sürətli inkişaf etməsi ilə əlaqədar olaraq, əhalini və cəmiyyətin fəaliyyət sahələrində və onların yeni şəraitdə olan proseslərinə güclü müdaxiləsini təmin edir. Burada bir nüansı qaçırmamaq lazımdır ki, təhsil sistemində telekommunikasiya imkan sistemlərindən də geniş istifadə də tətbiq olunmalı, onlara girişin asanlıqla tətbiqinin edilməsi və bu qeyd olunanların həyata keçirilə bilməsidir. Burada bizə bir şey aydındır ki, Azərbaycanda rəqabətə davamlı olan iqtisadiyyat və təhsil siyasətinin davamlı olmasının təminatı, bizim ölkənin təhsil sistemlərinin birbaşa giriş işindən asılıdır. Buna görə də, təhsil sferasında bu işlərin təşkili üçün yeni rəqəmsal texnologiyalardan, innovasiyalardan, rəqəmsal tətbiq vasitələrindən istifadəyə geniş şəkildə yer vermək lazımdır. Odur ki, müasir kommunikasiya texnologiya vasitələrinin təhsil və təlimdə tətbiqi əsas rol oynayır və bu zaman - onlayn, video, virtual dərs vəsaitlərindən geniş istifadə etməklə tədris materiallarının uzaq məsafəli yerlərə ötürülməsi və qəbul edilməsinin imkanlarını, təlim-tədrisin bütün mərhələləri üçün kompüter texnologiyalarına əsaslanmış şəkildə fasiləsiz və kəsilməz tədrisin formalaşdırılması, öyrənilməsi və özündə şəxsi yaradıcılıq, imkanlar və sərbəstliyinin artırılması sisteminin reallaşdırılması üçün imkanların yaradılmasının artması kimi perspektivlərini özündə cəmləşdirir. Təhsildə və tədris zamanı vahid təhsil informasiyası formalaşmalı və qlobal internet şəbəkəsinə giriş təmin olunmalı, təhsil yönümlü vahid informasiya bazası yaradılmalı, texnoloji təhsil sistemindən geniş şəkildə istifadə olunmalıdır.

Belə bir nəticəyə gəlmək olar ki, təhsildə müasir kommunikasiya texnologiyalarının və biliklərinin yaradılması, Azərbaycanda əhəmiyyətli dərəcədə artırılması üçün bir çox tədbirlər görülməyə başlanılır. Bu texnologiyalar təhsil alan bir çox şəxslərin, daha da effektli və səmərəli şəkildə öyrənib, düşünməsinə kömək etməklə yanaşı, həmçinin onların yaradıcılıq

qabiliyyətlərinə və problem həll etmə bacarıqlarına yiyələnərək inkişaf etməsi üçün imkan yaradır.

Azərbaycan təhsilində istifadə olunan texnologiyanın inteqrasiyası və tədris olunmasının bir çox rolu vardır. Müasir texnologiyanın təhsillə olan interqrasiyası və tədris olunmasının rolu əsasən tələbələrin daha da səmərəli şəkildə olaraq, onun öyrənilməsini təmin edərək daha da mühüm edən amillərdəndir. Təhsildə olan texnologiyalardan istifadə olunması zamanı baş verənlər, şagirdlərin və tələbələrin daha çox motivasiyasını artıra bilən və onlara müxtəlif cür təlim-tədris təcrübələrini özündə təqdim etməklə onların öyrənmə proseslərinə daha da yaxından dəstək verə bilər və inkişaf etməsinə kömək edə bilər. Bu məqamlarda əsasən də, müəllimlər daha böyük bir rol oynayır. Müasir texnologiyalardan səmərəli bir şəkildə istifadə etməklə müəllim heyəti tələbələrin və şagirdlərin öyrənməyə olan ehtiyaclarına uyğun olaraq məzmununun təqdim edə bilməsini, qarşılıqlı bir şəkildə əlaqə saxlanılmasını artıra bilər və tələbələrin, habelə şagirdlərin maraqlarına uyğun olaraq fərdi bir şəkildə təlim-təhsil rahatlıqla verə bilərlər. Eyni zamanda, müəllimlərin və təlim verənlərin tələbələrin necə irəlilədiklərini izləyə, onların fəaliyyətlərini düzgün bir şəkildə qiymətləndirmək və lazım olduğu təqdirdə dəstək üçün də rəqəmsal texnologiyalardan istifadə edə bilərlər. Müəllimlər və təhsil verənlər rəqəmsal texnologiyalardan istifadə edərək əllərində olan kurs və dərs materialllarını daha da effektiv bir şəkildə təqdim edə, vizual və interaktiv vasitələrlə tələbə və şagird heyətinin diqqətini cəlb edə, fənləri daha da yaxşı qavranılmasına və başa düşülməsinə kömək edə bilərlər. Müasir texnologiyanın inteqrasiyası vasitəsilə demək olar ki, təhsil alan hər bir kəs auditoriyada və sinifdə qarşılıqlı şəkildə olaraq rahat bir şəkildə əlaqələri artıra bilər, əməkdaşlığı və qrup işlərini təşviq oluna və tələbə-şagird arasında ünsiyyət qurulmasını daha da güclənməsinə gətirib çıxara bilər.

Təhsildə istifadə oluna bilən texnologiyaların inteqrasiyası və onların tədrisinin rolu əsasən, bununla bağlı olan bir sıra məlumatları özündə ehtiva edə bilər:

1) Təhsildə rəqəmsal texnologiyanın inteqrasiya olunması - texnologiyanın təlim-tədris proseslərində necə bir şəkildə inteqrasiya olunması və tələbə-şagirdlərin öyrənmə ehtiyaclarına uyğunlaşdırılması və bu preoseslər zamanı müəllimlərə daha yaxşı şəkildə dəstəyin verilməsi kimi məsələləri ərsəyə gətirmək olar.

2) Tələbə mərkəzli tədrislərin yaradılması - rəqəmsal texnologiyalardan istifadə etməklə tələbələrin daha fəal şəkildə və daha iştirakçı formatında öyrənilməsinə imkan yaradacaq strategiyaların işlənilməsinə, onların hazırlanmasına və tələbələrin-şagirdlərin təlim-tədris proseslərində daha çox iştirakının təmin olunmasına diqqət yetirilə bilər.

3) Təhsildə rəqəmsal alətlərdən səmərəli şəkildə istifadə olunması- müəllim və təlim-tədris edənlərin rəqəmsal vasitələrdən səmərəli şəkildə isitifadə edilə bilməsini, tələbə və şagird heyətinin diqqətinin cəlb edilməsini və öyrənmə məqsədlərinə daha yaxşı, effektiv nail ola bilməsinin strategiyalarının hazırlanmasını təşkil edə bilər.

4) Müəllim və təlim-tədris proseslərinin hazırlığı və dəstəyi - rəqəmsal texnologiyalardan səmərəli bir şəkildə istifadə olunmağı üçün lazım olan təlimlərin və bir sıra dəstək proqramlarının necə və hansı cür yaradılmasına, həmçinin dərs tədris edənlərin rəqəmsal bacarıqlarının necə bir şəkildə təkmilləşdirə biləcəyinə diqqət yetirilə bilər.

5) Rəqəmsal texnologiyanın təhsildə riskləri və onun faydaları - təhsildə rəqəmsal texnoloji avadanlıqlardan istifadənin faydaları ilə yanaşı onun mənfi təsirlərinə də diqqət yetirmək lazımdır. Buna görə də, mənfi təsirlərə tarazlığı qorumaq və mənfi təsirlər üçün bir sıra strategiyalar müəyyən edərək təşkil etmək lazımdır.

Bu məsələlərlə bağlı olaraq bir sıra yeni olan araşdırmalar və bir sıra təlim-təcrübənin təhsil sistemində rəqəmsal texnologiya ilə bağlı inteqrasiyasını daha səmərəli etmək üçün daha yaxşı nəticələnə bilər.

Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyi rəqəmsal təhsilin keyfiyyətinin artırılması üçün, qabaqcıl müasir və beynəlxalq təcrübəyə uyğunlaşdırmaq məqsədilə təhsil alanlar (tələbə, şagird) və təhsil verənlər (müəllim) üçün təhsilin rəqəmsallaşdırılması üçün elektron resursların hazırlanması istiqamətində bir sıra lazımi olan layihələr və müvafiq tədbirlər həyata keçirib. Bu görülmüş tədbirlər nəticəsində elektron resurslar hazırlanaraq, bir mənbədə cəmləşərək, rəqəmsal təhsil portalı yaradılıb. Həmin bu, rəqəmsal portal vasitəsilə hər bir istifadəçi elektron dərsliklərə, video dərslərə, elektron tapşırıq və elektron pdflərə, həmçinin bir çox digər elektron resurslara çıxışlar edə bilərlər. Lakin bir çox valideynlər, şagirdlər, tələbələr və müəllimlər bu kimi vasitələrdən məlumatları olmadığına görə, istifadə etməkdə bir çox çətinliklər çəkirlər. Buna görə də təhsilalanlar və təhsilverənlər arasında bir sıra maarifləndirmə işləri görülməli, bir sıra resursların təqdimat olunmasının çarxı onlara nümayiş etdirilməlidir. Hər bir valideyn övladının təhsildə irəli getməsini istəyir, həmçinin hər bir müəllim də şagirdinin daha yaxşı oxumasını, nailiyyətlər qazanaraq adını yüksəltməsini istəyir. Əgər valideyn və müəllim rəqəmsal portalın, onun üçün biliyinin genişləndirməkdə və möhkəmləndirməkdə hansı və nə dərəcədə təsir edəcəyini bilsə də, bu məsələyə dair olaraq ona səthi şəkildə yanaşmaz, əksinə olaraq, onun üçün daha da dəstək olar. Həmçinin Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyi təlim-tədris sistemində qabaqcıl və müasir müəllimlərin dərslərini video çəkiliş formatında edilməsini və interaktiv texnologiyaları tətbiq etməklə şagirdlər və tələbələr üçün onlara faydalı ola biləcək və maraqlı məzmun

daşıyan bir çox video dərslər yaradılmışdır. Əgər tələbə və şagirdlər dərs keçirilən zaman hər hansısa bir mövzunu yaxşı anlayıb və qavraya bilməyibsə və yaxud müəyyən səbəblər nəticəsində dərsdə iştrak edə bilməyibsə, bundan əlavə keçirilən mövzu ilə bağlı heç bir şəkildə anlayışı yoxdursa, bu zaman o, internet resursları ilə video portala daxil olaraq, ona lazım olan müvafiq fənni seçməklə həmin mövzunu axtarıb tapıb, rahatlıqla izləyə bilər. Video dərslərin üstünlüyü ondan ibarətdir ki, adi dərslərdən fərqli olaraq, şagird-tələbə bir neçə dəfə olmaqla təkrar izləmək imkanlarına malikdir. Bu da onun dərsi daha yaxşı və tam olaraq mənimsəməyə qədər təkrar-təkrar izləyə bilmə imkanıdır. Həmçinin, bunun belə olması, onun dərsi tam və anlayışlı şəkildə keyfiyyətinin artmasına səbəb olur. Şagirdlər və tələbələr hər videodərsləri izlədikcə və onu dinlədikcə ona bir neçə test də təklif edilir, bu testləri cavablandıraraq son olaraq ballar çıxarılır və bu ballar toplanılaraq həmin dərsi nə dərəcədə qavradığını anlaya bilir. Yenilikləri asan və rahat şəkildə qəbul edən gənclər, bu günümüzdə məktəblərdən, universitetlərdən və müəllimlərdən də rəqəmsal yeniliklər gözləyir. Bu yeniliklər məhz müasir dövrün tələblərinə uyğun olaraq müəllimi daim üzərində çalışmalı və yeniliklər öyrənməli, həmçinin axtarışda olaraq, öyrədici təlimlərdə tez-tez iştirak etməyə sövq edir.

Nəticə etibarilə, belə bir şeyə gəlib çıxmaq olar ki, texnologiyanın təhsillə olan inteqrasiyası və müəllimlərinin rolu şagird və tələbələrin daha da effektiv şəkildə, habelə səmərəli öyrənmələrinə şərait yaratmaqla onların daha uğurlu olmasına dəstək ola bilərlər. Müəllimlərin rəqəmsal texnologiyalardan səmərəli şəkildə istifadə edə bilməsi, təhsil alan tələbə və şagirdlər üçün uyğun təhsilin verilmə və onların potensialının ən yaxşı və güclü şəkildə üzə çıxarılması mümkün elementlərdəndir.

İndi də Azərbaycanda rəqəmsal təhsil konsepsiyasının formalaşdırılması və inkişafının təşkil edilməsi haqqında qeyd edək. Azərbaycanda təhsil konsepsiyasının formalaşdırılması və onun inkişaf edilməsi müasir təhsil sektorundakı rəqəmsal texnoloji inkişaflara paralel şəkildə olaraq irəliləyir. Azərbaycan Respublikasında təhsilin, rəqəmsal transformasiya edilməsini dəstəkləyən strategiyalar və siyasətlər işlənib hazırlanmışdır. Deməli, bu proses zamanı rəqəmsal təhsilin inkişafı və formalaşdırılması bir neçə cür təşkil olunur:

1) Müasir rəqəmsal təhsil strategiyası: Azəbaycan Respublikası hökuməti təhsildə rəqəmsal-texnoloji transformasiyanı dəstəkləmək məqsədilə milli səviyyələr üzrə rəqəmsal təhsil strategiyalarını yaratmışdır. Bu tətbiq olunmuş strategiya rəqəmsal texnologiyalardan səmərəli şəkildə istifadə olunmanın təşviq olunmasını və tələbələrin, həmçinin şagirdlərin rəqəmsal bilik və bacarıqlarını təkmilləşdirərək daha da yaxşı etmək məqsədini qarşılayır.

2) Təhsil infrastrukturunun inkişaf edilməsi: Azərbaycanda bir sıra təhsil müəssisələri üçün rəqəmsal texnologiyalardan istifadəsini daha da artırır.

Rəqəmsal texnologiyalardan və alətlərdən istifadə olunması zamanı tələbələr və müəllimlər arasında daha da geniş yayılmışdır, distant təhsil platformalarından və müsir texnoloji rəqəmsal məzmundan istifadə artmağa başlamışdır.

3) Layihələrin təqdim olunması və əməkdaşlığın olunması: Azərbaycanda rəqəmsal təhsilin bacarıqlarının sahəsində beynəlxalq və milli səviyyəsində layihlər təqdim olunur və rəqəmsal təhsil sahəsində qabaqcıl təcrübələrin mübadilə edilməsi və yeni texnoloji avadanlıqlardan istifadə olunmasına gətirib təşviq olunur.

4) Təhsildə rəqəmsal və müasir texnologiyalardan istifadəsi: Azərbaycanın müasir təhsilində rəqəmsal texnologiyadlardan istifadə get-gedə artmağa başlanılıb. Müasir və rəqəmsal alətlərdən istifadə tələbə və müəllimlər arasında artıq geniş yayılmağa başlanılıb, həmçinin müasir onlayn rəqəmsal məzmunlardan istifadə daha artmağa başlamışdır.

5) Kadrların və müəllimlərin hazırlanması: Müasir təhsilin uğurlu inkişafı nəticəsində, müəllimlərin və təlim-tədris edənlərin rəqəmsal bacarıqlarının daha yaxşı inkişaf etməsi vacib və mühüm amillərdəndir. Azərbaycan Respublikasında müəllim heyətinin rəqəmsal vasitələrdən səmərəli bir şəkildə istifadə olunması üçün onlara müxtəlif tipli təlimlər keçirilir və bir sıra dəstək proqramları verilir.

Azərbaycanda müasir texnoloji vasitələrin inkişafı nəticəsində, rəqəmsal və müasir texnologiyalar tələbələr üçün bir çox hallarda, informasiyanın əldə olunması, saxlanılması, təkrar emal olunması, eləcə də, onun qorunmasını təmin və təşkil edən vasitələr olaraq nəzərdə tutulurlar. Tələbələr, şagirdlər həmçinin müəllimlər də onlar üçün lazım olan hər hansısa bir vasitəni əldə etmək üçün kitabxanalara gedib məlumatlar toplamaq üçün ehtiyac duyurlar. Bəzi zamanlarda kitabxanalara gedərək məlumatların toplanması, emal edilməsi, həmçinin onların saatlarla axtarılması, bizə lazım olan məlumatların tapılmaması kimi hallarla qarşılaşırlar. Amma ki, rəqəmsal və müasir texnologiyanın inkişaf etməsi nəticəsi olaraq, artıq elektron kitabxanalar yaradılmış və tələbələr də əziyyət çəkib kitabxanalara getmədən, evdə rahat bir şəkildə axtarış edərək, həmçinin buradakı bir çox məlumat zənginliklərindən rahat bir şəkildə istifadə edə bilirlər. Bütün dərslər zamanı və bir çox hallarda rəqəmsal texnologiyalardan istifadə olunması təlim və tədrisin daha keyfiyyətli olmasına gətirib çıxarır. Rəqəmsal texnologiyalardan istifadə olunmasının əsas məqsədlərindən biri budur ki, istənilən tədrisin təşkil olunması zamanı rəqəmsal texnologiyalardan istifadənin səmərəsini, onun motivasiyasının artırılmasını, sərbəst bir şəkildə öyrənilməsinə və özləri üçün kiçik tədqiqatlar aparılmasına, bacarıqlara və ona həvəsin artmasına gətirib çıxarır. Rəqəmsal texnologiyaların təlim-tədris də istifadə olunmasının bizim üçün müsbət cəhəti ondan ibarətdir ki, əlavə olaraq vaxt qazandırır, təhsilin və

tədrisin keyfiyyətini yüksəldir, rəqəmsal və müasir biliklərə yiyələnməyimiz üçün kömək edir. İnternet resurslarının xidmətləri zamanı elektron və rəqəmsal kitabxanaların yaranması, kitabxana resursları haqqında daha ətraflı, dəqiq şəkildə və operativ olaraq onlardan istifadə olunmasını imkan olaraq yaradır. Rəqəmsal vasitələrdən istifadə edənlər özünə lazım cavabları alır və bu da, həmçinin ilk növbədə vaxt itkisinin qarşısının alınmasına kömək olur.

Artıq bu günümüzdə də, rəqəmsal texnologiyaların inkişaf edildiyi bir dövrdə, müasir və rəqəmsal təhsilin birgə tətbiq olunması və bunun daha yaxşı inkişaf edilməsi iki istiqamət üzrə aparılır. İlk olaraq, ənənəvi şəkildə olaraq rəqəmsal texnologiyalardan istifadə olunmasının yüksək şəkildə tətbiq olunması üçün bir sıra sınaqların keçirilməsi, ikinci olaraq isə, təhsildə olan rəqəmsal tədrisin daha da yaxşı inkişaf etməsi üçün onun keyfiyyətinin yüksəldilməsinə görə rəqəmsal texnoloji vasitələrdən istifadə olunmasının genişlənməsidir. Həmçinin qeyd etmək olar ki, təlim-tədris zamanı, dərslərin keçirilməsində yeni müasir rəqəmsal metodların yaradılması, bunların daha da dərinləşdirilməsi, tətbiq olunmasıdır.

Sonda belə bir nəticəyə gəlmək olar ki, Azərbaycan da rəqəmsal təhsil konsepsiyasının formalaşdırılması və inkişaf edilməsinə görə təhsil sektorundakı rəqəmsal texnoloji inkişaflara paralel şəkildə olaraq onun irəliləməsinin və həmçinin bu sahəyə yaxın aparılan araşdırmalara dəstəklərin olmasıdır.

Azərbaycan Respublikasında rəqəmsal təhsilin inkişafı ümumi olaraq müsbət istiqamətə doğru gedir. Hal-hazırda ölkəmizdə son illər ərzində rəqəmsal və müasir texnologiyalardan istifadə olunduğuna görə, infrastrukturun gücləndirilməsi istiqamətində bir sıra müxtəlif addımlar atılmışdır. Əsasən, bu Covid-19 pandemiya dövründə virusun yayılmasının qarşısının alınmasına görə distant təhsilə keçidin sürətlə yayılmasından rəqəmsal təhsilin əhəmiyyətinin artması olmuşdur. Azərbaycanda internet çıxışının olması, onun geniş yayılması və müasir (mobil telefonlar, planşetlər, kompüterlər, noutbuklar) texnologiyalardan istifadənin artması rəqəmsal təhsilin inkişaf etməsinə daha da müsbət bir töhfə verir. Ölkəmizdə rəqəmsal təhsilin platformaları və onun tətbiq olunması üzərində bir sıra işlər görülərək, tələbə və şagirdlərə daha da effektiv, interaktiv təhsil imkanının yaradılmasına və daha yaxşı təhsil imkanalarının təqdim olunmasına zəminlər yaradılır.

Bununla belə, rəqəmsal təhsilin inkişaf olunmasında müəyyən bir dəyişikliklər burada bir çox çətinliklər yaradır. İnfrastrukturun çatışmazlığı, müəllim və tələbələrin yeni yaranmış rəqəmsal texnologiyalardan qeyri-kafi şəkildə biliyinin olması, rəqəmsal təhsilə olan qeyri-bərabər biliklərin problemləri, Azərbaycanda rəqəmsal təhsilin tam inkişafına mane olan amillərdən ibarətdir.

Son nəticə olaraq qeyd etmək olar ki, Azərbaycanda rəqəmsal təhsil sahəsində bir sıra görülən işlər müsbət nəticələr vermişdir və hələ də daha yaxşı olması üçün inkişaf etməyə və təkmilləşməyə doğru gedir, lakin bir çox sahələrində inkişaf etməyə və təkmilləşməyə də ehtiyacı vardır. Ölkəmizdə bu sahə üzrə olan səylərin davam etdirilməsinə, rəqəmsal təhsilin daha da effektiv nəticə verəcəyinə və daha da yaxşı təhsil imkanlarının veriləcəyi gözlənilir.

***Ədəbiyyat***

1. *Qədimova X.- "İnteraktiv təlim metodları və onların tətbiq yolları" Bakı – 2003.*
2. *Mehrabov A. - "Təhsilin demokratikləşməsi: problemlər, vəzifələr. Təhsil, mədəniyyət və incəsənət", Bakı – 2001.*
3. *Mehrabov A., Abbasov Ə., Zeynalov. Ə., Həsənov. R, - "Pedaqoji texnologiyalar" Bakı, Mütərcim, Bakı – 2006.*
4. *Əsədov R., Quliyev. S - "Təlimdə müasir texniki vasitələr haqqında nəyi bilmək lazımdır?" Azərbaycan məktəbi jurnalı №1.*
5. *www.ict.az*
6. *www.muallim.edu.az*
7. *www.azeedu.az*

**F.T.Allahverdiyeva**
**Azərbaycan Dövlət Pedaqoji Universiteti**
***allahverdiyevafidan1999@gmail.com***

# ALİ TƏHSİL MÜƏSSİSƏLƏRİNİN İDARƏ EDİLMƏSİNDƏ RƏQƏMSAL TƏHSİL VASİTƏLƏRİNDƏN İSTİFADƏNİN ROLU VƏ YERİ

***Xülasə***

*Məqalədə rəqəmsal texnologiyaların həyatımızın bütün sahələrinə fəal şəkildə daxil olmasından bəhs edilir. Bütün yaş kateqoriyasına daxil olan şəxslərin - gənc uşaqlardan yaşlılara qədər – hər kəsin İKT-nin yaratmış olduğu imkanlardan istifadə etməsi göstərilir. İnformasiya texnologiyalarının müasir cəmiyyətdəki üstünlükləri araşdırılır. Rəqəmsal təhsil vasitələrinin müəllimin işinə istisnasız köməklik etməsindən, şagirdlərin sistemli təfəkkürünü inkişaf etdirmək imkanlarından söz açılır.*

*Bir sözlə məqalədə müəllif universitet tələbələri arasında sistem təfəkkürünün inkişafı prosesində istifadə olunan rəqəmsal vasitələrin yeri və rolunu sosioloji təhlil mövqeyindən nəzərdən keçirməyə cəhd etmişdir.*

# РОЛЬ И МЕСТО ИСПОЛЬЗОВАНИЯ СРЕДСТВ ЦИФРОВОГО ОБРАЗОВАНИЯ В УПРАВЛЕНИИ ВУЗАМИ

***Резюме***

*В статье говорится об активном проникновении цифровых технологий во все сферы нашей жизни. Показано, что люди всех возрастов – от маленьких детей до пожилых людей – используют возможности, создаваемые ИКТ. Рассмотрены преимущества информационных технологий в современном обществе. Говорят, что цифровые образовательные инструменты без исключения помогают работе учителя и дают возможность развивать системное мышление учащихся.*

*Короче говоря, в статье автор попытался рассмотреть место и роль цифровых инструментов, используемых в процессе развития системного мышления у студентов вузов, с позиций социологического анализа.*

# THE ROLE AND PLACE OF USING DIGITAL EDUCATION MEANS IN THE ADMINISTRATION OF HIGHER EDUCATION INSTITUTIONS

***Summary***

*The article talks about the active entry of digital technologies into all areas of our lives. People of all ages - from young children to the elderly - are shown to be using the opportunities created by ICT. Advantages of information technologies in*

*modern society are examined. It is said that digital educational tools help the teacher's work without exception, and the opportunities to develop students' systematic thinking.*

*In short, in the article, the author tried to consider the place and role of digital tools used in the process of developing system thinking among university students from the standpoint of sociological analysis.*

***Açar sözlər:*** *idarəetmə, ali təhsil, rəqəmsal təhsil, təhsil texnologiyaları, elektron təhsil, təhsil mühiti, rəqəmsallaşdırılma*

***Ключевые слова:*** *менеджмент, высшее образование, цифровое образование, образовательные технологии, электронное образование, образовательная среда, цифровизация*

***Key words:*** *management, higher education, digital education, educational technologies, e-education, educational environment, digitization*

Müasir təhsili rəqəmsal məkandan kənarda təsəvvür etmək çətindir. Bu gün rəqəmsal təhsil vasitələri müəllimin işində mühüm köməklik edir, şagirdlərin sistemli təfəkkürünü inkişaf etdirmək imkanlarını genişləndirir.

Bu gün təhsilin modernləşdirilməsinin xüsusiyyətlərinin öyrənilməsinə həsr olunmuş məsələlərdə istifadə olunan metodologiya və metodlar uzun müddətdir ki, yeni məzmun axtarışını, hədəflərin yenilənməsini, yeni yanaşmaların, metodların, texnologiyaların tətbiqini göstərən elmi-tədqiqat müzakirələrinin mövzusudur. Başqa sözlə, bu gün yerli tədqiqatçılar səriştəli mütəxəssisin hazırlanmasında, tədris mərhələsində rəqəmsal təhsil alətlərindən istifadə etməklə sistemli düşüncənin formalaşmasında rəqəmsallaşmanın aparıcı rollarından birini müəyyənləşdirirlər.

Hal-hazırda çoxlu sayda rəqəmsal platformalar mövcuddur ki, onların əsasında bir sıra rəqəmsal alətlərdən istifadə edərək rəqəmsal məlumat arxivinə sürətli çıxış təmin edilir və tələbələr böyük miqdarda rəqəmsal məzmunla rəqəmsal məkanda işləmək bacarıqlarını inkişaf etdirirlər. Təhsil məlumatlarının açıqlığı və əlçatanlığı biliklərin ötürülməsi, təhlili, tətbiqi və arxivləşdirilməsi imkanını təmin edir və buna rəqəmsal vasitələrdən fəal istifadə etməklə nail olmaq olar ki, bu da onların təhsil prosesində və tələbələr arasında sistemli düşüncənin formalaşmasında mühüm rolunu əvvəlcədən müəyyən edir. Eyni zamanda, rəqəmsal vasitələrdən istifadə etməklə ənənəvi və rəqəmsal innovativ tədris metodlarının vəhdəti biliklərin dərk edilməsi, konsolidasiyası, sonradan təkrar istehsalı və generasiyası nəticəsində sistem təfəkkürünün formalaşma səviyyəsini yüksəltməyə kömək edə bilər. Bununla belə, qeyd etmək lazımdır ki, rəqəmsal alətlər ənənəvi tədris metodlarının antaqonisti deyil, lakin tədris materialının qavranılmasında və onun konsolidasiyasında əlavə aydınlıq elementləri kimi istifadə edilə bilər.

Müasir rəqəmsal texnologiyalar bütün dünyada təhsilin inkişafı üçün

yeni yollar açır. İKT insanlara gündəlik həyatlarında daha çox məlumat əldə etməyə və daha dəqiq qərarlar qəbul etməyə imkan verən təcrübə və bilikləri bölüşmək imkanı yaradır. Gözlənilən haldır ki, yaxın gələcəkdə təhsil mühiti rəqəmsallaşma ilə bağlı ciddi dəyişikliklərə məruz qalacaq. Elektron təhsil sistemi yeni imkanlar kimi, həm də yeni problemlər yaradır. Əsas imkanlara təhsilə çıxış problemlərinin həlli, təhsil formasının seçilməsi imkanlarının genişləndirilməsi, biliklərin ötürülməsi vasitələrinin çeşidinin artırılması daxildir. İKT-nin yaratmaqda olduğu problemlər isə ilk növbədə şəxsi məlumatların asanlıqla aşkara çıxarılması və yayılması ilə bağlıdır.

Rəqəmsallaşma sayəsində bu gün hər kəs əvvəllər yalnız alimlər üçün əlçatan olan məlumatları saniyələr içində əldə edə bilir. Təhsil və elm dünyası qloballaşmaqda davam edir. Ardı-arası kəsilməyən dəyişikliklər zamanı bir çox təhsil müəssisələri qlobal elmi ictimaiyyətə uyğunlaşmağa və öz yerlərini tapmağa çalışırlar.

Hal-hazırda universitetlərin üzləşdiyi problemlər gələcək inkişaf strategiyasının və diqqəti yönəltməyi planlaşdırdıqları istiqamətin seçilməsi ilə bağlıdır. Aydındır ki, gələcəkdə rəqabətqabiliyyətli təhsil və tədqiqat modelinə keçid üçün rəqəmsal transformasiya proqramı indi hazırlanmalıdır.

Azərbaycanda rəqəmsal bacarıqlar bütün təhsil pillələri (ibtidai, ümumi, peşə, orta ixtisas və ali), o cümlədən peşə təhsili üzrə siyasət və strategiyalarda öz əksini tapır. Rəqəmsal bacarıqların verilməsində dövlətin və təhsil müəssisələrinin rolu Təhsil haqqında Azərbaycan Respublikasının Qanunu ilə tənzimlənir. Dövlət təhsil müəssisələrinin İKT ilə təminatını həyata keçirmək dövlətin vəzifələrinə aiddir. Təhsil müəssisələri isə öz növbəsində, təhsilalanlarda informasiya cəmiyyətində yaşayıb fəaliyyət göstərmək bacarığını formalaşdırır. “Azərbaycan 2020: Gələcəyə Baxış” İnkişaf Konsepsiyasında təhsil sisteminin informasiyalaşdırılması, insan kapitalının inkişafı üçün kompüter biliklərinin artırılması nəzərdə tutulmuşdur. Konsepsiya müvafiq strategiya və dövlət proqramları, müvafiq sahələrdə müxtəlif tədbirlər, o cümlədən peşə təhsili müəssisələrinin kompüterlərlə təmin olunması üçün istinad nöqtəsi kimi çıxış edir [2, s. 1].

Azərbaycan Respublikasının Təhsil haqqında qanununda (2009) distant və ya məsafədən təhsil tədris prosesinin elektron, telekommunikasiya, proqram-texniki vasitələr əsasında təşkil olunduğu təhsilalma forması kimi öz əksini tapmışdır. O zamandan bəri bu təhsilalma formasının inkişaf etdirilməsi və istifadəsi üçün bir sıra təşəbbüslər edilsə də, [3, 4-cü str.ist.] Covid-19 pandemiyası Azərbaycanda məsafədən təhsil formasının geniş şəkildə tətbiq edilməsi üçün imkan yaratdı. Belə ki, 2020-ci ilin mart ayının 2-sindən ali və orta ixtisas təhsili müəssisələrində ənənəvi qaydada tədris fəaliyyətinin dayandırılması distant təhsilalma formasına keçidi sürətləndirdi. 2021-ci ilin əvvəlindən ənənəvi təhsil formasına geri qayıdılsa da, məsafədən təhsilin

Azərbaycanda istifadəsini davamlı etmək qarşıya qoyulan əsas hədəflərdəndir [1, s.9].

Təhsil mühitinin rəqəmsallaşması müxtəlif formalarda baş verə bilər:

- tədris materiallarının, o cümlədən mühazirələr, təqdimatlar, dərsliklər, müstəqil iş üçün tapşırıqların elektron formaya köçürülməsi;
- müəllim və tələbələr arasında qarşılıqlı əlaqə üçün interaktiv elektron mühitin formalaşdırılması, o cümlədən müəllimlər üçün elektron kabinetlərin yaradılması, vebinarların, müzakirə forumlarının keçirilməsi və s.;
- yeni tədris vasitələrinin yaradılması: elektron dərsliklər, elektron çalışma kitabları, video mühazirələr, kompüter tapşırıqları;
- elektron platformanın imkanlarından istifadə etməklə təlimin prinsipcə yeni formalarının yaradılması - informasiyanın ötürülməsi spektrinin genişləndirilməsi, rollu oyunlar zamanı müxtəlif situasiyaların simulyasiyası, rəqabətli oyunların simulyasiyası və s.;
- süni intellekt imkanlarının təlim prosesinə daxil edilməsi.

Rəhbərlər tələbələr üçün təlim mühitini yaxşılaşdırmaq, proqramın əməliyyat effektivliyini artırmaq, qabaqcıl tədqiqatlar üçün kompüter imkanlarını artırmaq və təhsil innovasiyalarını təşviq etmək istəyirlər. Bu baxışları reallığa çevirmək üçün rəhbərlik rəqəmsal texnologiyalardan istifadə edir. Aşağıdakı dörd əsas məqsəd ali təhsil idarəçiləri tərəfindən tez-tez qeyd edilir [5, s.137].

**Tələbələr üçün təlim mühitinin yaxşılaşdırılması:**

“Uğur hekayəsi” seminarları, daha ətraflı öyrənmə üçün proqramlar və tələbələrə öz fikirlərini və ideyalarını bölüşməyə və mövzuları daha yaxşı qavramağa imkan verən rəqəmsal texnologiyalar öyrənmə mühitini yaxşılaşdırır. Ümumiyyətlə, rəqəmsal texnologiyalar tələbələrə XXI əsrdə yüksək gəlirli karyera üçün tələb olunan sosial, texniki və tənqidi düşünmə qabiliyyətlərini inkişaf etdirməyə kömək edir. Digər üstünlüklərlə yanaşı, rəqəmsal texnologiyalar müəllimlərə tələbə fəaliyyətini qiymətləndirməyə və lazım gəldikdə kurikulumda dəyişiklik etməyə imkan verən vasitələrə (testlər və modullar kimi) çıxış imkanı verir.

**Ən müasir tədqiqatlar üçün kompüter potensialının artırılması:**

Monoqrafiyalar, hesabatlar, konfrans materialları və dissertasiyalar daxil olmaqla milyonlarla nəşr üçün məqalələr və tezislər rəqəmsal kitabxanalarda və verilənlər bazalarında saxlanılır. “Google” və “YouTube” kimi tanınmış axtarış sistemləri sayəsində sonsuz araşdırma nəticələri tələbələr və müəllimlər üçün əlçatandır. Tələbələrə testlər, kurikulumlar və digər mövzular haqqında məlumat tapmaqda kömək etmək üçün təhsil müəssisələri öz İT infrastrukturlarını yaradırlar. Xülasə, rəqəmsal texnologiya bütün sahələrdə ən müasir, etibarlı materialla tamamlanan yüksək keyfiyyətli təhsilə rasional, sərfəli yol təklif edir.

**Təhsil innovasiyalarının təşviqi:**

Müəllimlərin texnologiya sayəsində yazıb yaratmaq üçün indi daha çox vaxtı və resursları var. Bu isə öz növbəsində yeni iş yerləri yaratmaq və təhsil təcrübəsini təkmilləşdirməkdə texnologiyadan istifadə etmək üçün hər zamankından daha çox imkanlar təklif edir.

**Daha az xərcləmə:**

Bu məqsəd nisbi xarakter daşısa da, onu üstünlük hesab etmək olar. Çünki təhsil müəssisələrini texnologiyalarla təchiz etmək yüksək xərc tələb etsə belə, bu, uzun müddət digər xərcləri azaldacaqdır. Bacarıqlı müəllimləri elektron təhsillə, dərslikləri tədricən rəqəmsal resurslarla və bahalı avadanlıqları video və audio resurslar ilə əvəz etməklə təhsil texnologiyası ali təhsilin qiymətini aşağı salır. Resursları az olan məktəblər xüsusilə texnologiyadan faydalanır, çünki bu, yüksək keyfiyyətli məzmuna çıxışı daha ucuz edir. Rəqəmsal imkanlar vasitəsilə peşəkar öyrənmə qrupları yaradaraq digər üstünlüklərlə yanaşı, həm özlərini, həm də işçilərini öyrədə və bu bilikləri artıra bilərlər.

Elektron təhsilin üstünlüklərinə aşağıdakılar daxildir:

1. Təhsilə çıxış problemlərinin həlli: biliyə çıxış üçün ərazi maneələrinin aradan qaldırılması, vaxt məhdudiyyətlərinin aradan qaldırılması - istifadəçi üçün əlverişli vaxtda giriş, siniflərin bloklara bölünməsi səbəbindən fraksiyalı giriş imkanı, yüksək ixtisaslı müəllimlərdən bilik əldə etmək;
2. Seçim imkanlarının genişləndirilməsi: müəllimi və materialın təqdim edilməsi üsulunu seçmək bacarığı, məntiqə, təsvirlərə (assosiasiyalara) və ya təcrübəyə (hallar, tapşırıqlar) vurğu, materialın mənimsənilməsi üsulunu seçmək bacarığı: eşitmə, vizual, motor bacarıqları; materialın mənimsənilməsi dərinliyini seçmək bacarığı, bilikləri yoxlamaq üçün rahat üsul seçmək bacarığı: testlər, tapşırıqlar, layihələr, süni intellektlə interaktiv müsahibələr və s.;
3. Biliyin ötürülməsi üçün formaların və vasitələrin genişləndirilməsi: ənənəvi mühazirələr, tamaşalar və seminarlarla yanaşı, layihə işi, qrup müzakirələri, rollu və rəqabətli oyunlar və s.;
4. Sosial-iqtisadi üstünlüklər: maraqlar əsasında sosial intellektual şəbəkələrin formalaşdırılması imkanları, nisbi ucuzluq (yüksək investisiya və aşağı əməliyyat xərcləri).

Bu gün mövcud onlayn təhsil sisteminin keyfiyyətinin aşağı olmasını şərtləndirən əsas problemlər bunlardır:

- Əyani təhsili təqlid etmək istəyi: Ənənəvi kursların rəqəmsal imitasiyası ünsiyyət vasitələrinin yoxsullaşmasına, qeydlərin aparılması prosesində onların şəxsi işlənməsi, mübahisəli məsələlərin öz aralarında və müəllimlə müzakirəsi, biliyin fərdi tənzimlənməsi kimi biliklərin mənimsənilməsi formalarının təcrübədən çıxarılmasına səbəb olur;

- Təhsil məhsullarının keyfiyyətinə zəif nəzarət: Təəssüf ki, bəzi müasir onlayn kurslarda çalışan müəllimlərin aşağı ixtisas səviyyəsi nəzərə çarpır. Bu gün təhsildə rəqəmsal texnologiyaların tətbiqi ilə məşğul olan mütəxəssislərin çoxu pedaqogika ilə tanış olmasalar da, informasiya-texniki sistemləri yaxşı bilirlər. Bu isə öyrənmə zamanı bəzi boşluqların yaranmnasına səbəb olur. Əsas etibarilə müəllimlər həm rəqəmsal bacarıqlara, həm də informasiya savadlılığına malik olmalıdırlar [6, s.3];
- Aşağı interaktivlik: Bu gün sübut edilmiş hesab etmək olar ki, "başa düşmə - təkrar - əzbərləmə" komandalarına əsaslanan ənənəvi təhsil sistemi şagirdin idrak prosesinə cəlb edilməsinə əsaslanan fəal təlim metodlarından səmərəliliyinə görə xeyli aşağıdır [4, s.122];
- Səlahiyyətlərin primitivləşdirilməsi: Elektron köməkçilər, o cümlədən kalkulyatorlar, naviqatorlar, lüğətlər, mühasibatlıq proqramları və s., istifadəçilərinin bir çox səriştələrini azaldır, onları dünya haqqında öz vahid mənzərəsini yaratmaqdan məhrum edir;
- Sosiallaşma problemi: Təlimin interaktiv formalarından istifadə olunsa da, şagirdlərin maarifləndirilməsi, onlara sosial qarşılıqlı fəaliyyət bacarıqlarının ötürülməsi problemi hələ də qalmaqdadır;
- Gizli biliklərin ötürülməsi problemi: Bildiyiniz kimi, Michael Polanyi biliyi iki kateqoriyaya ayırır: kodlar sistemindən istifadə etməklə bir şəxsdən digərinə ötürülə bilən açıq (şifahiləşdirilmiş) bilik və insandan ayrılmaz, lakin digərinə ötürülə bilən gizli bilik.

Şagird müəllimdən dünyaya baxış tərzini, problemlərin həllinə yanaşmaları, informasiya ilə işləmək mədəniyyətini, ideya yaratmaq sənətini mənimsəyir. Bütün bu bacarıqlar müəllimdən tələbəyə komanda işi prosesində şəxsi nümunə vasitəsilə ötürülür. David Bromwich qeyd etdiyi kimi, tədris təkcə faktları deyil, həm də tələbələrlə üzbəüz qarşılıqlı əlaqəni tələb edən intellektual araşdırma sənətini öyrətməkdən ibarətdir.

Gizli biliklərin sosiallaşması və ötürülməsi problemləri ənənəvi təhsili elektron təhsil mühiti ilə tamamilə əvəz etməyi məqsədəuyğun hesab etmir. Bununla belə, oflayn təhsil sahəsinin daim daralacağı göz qabağındadır.

Rəqəmsal vasitələrin potensialının qiymətləndirilməsi göstərdi ki, onların təhsildə istifadəsi təkcə müəllimlərin əməyini asanlaşdırmaq və tələbələrin fəaliyyətini yaxşılaşdırmaq üçün deyil, həm də qaçılmaz olaraq peşə təhsili sisteminin yeni keyfiyyət vəziyyətinə nail olmaq üçün lazımdır. Eyni zamanda, təhsil prosesinə rəqəmsal vasitələrin tətbiqi "müəllim-şagird"də təşkilat, motivasiya, nəzarət və koordinasiya kimi funksiyaları dəstəkləmək üçün yeni idarəetmə metodlarının bütün kompleksinin işlənib hazırlanması zərurəti ilə əlaqələndirilir.

***Ədəbiyyat***

1. *Ali və orta ixtisas təhsili müəssisələrinin pedaqoji heyəti üçün distant təhsilin təşkili (metodik vəsait), Bakı – 2023.*
2. *Azərbaycanda rəqəmsal bacarıqlar və onlayn təlim.*
3. *Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası.*
4. *Meichner H.E. Korporativ təlimlər / H.E. Meichner. - M., BİRLİK, 2002.*
5. *Peña-López. Innovating Education and Educating for Innovation. The Power of Digital Technologies and Skills; OECD Publishing: Paris, France, 2016.*
6. *R.Məmmədzadə, A.Abdullayev, F.Kərimova R.Cabbarov, S.Rəsulov, Ə.Quliyev. "Təhsilin idarə edilməsinin bəzi problemləri" Bakı – 2008. https://ict.az/Mobile/en/content/89 https://education.ec.europa.eu/sites/default/files/2022-07/SELFIE_Questionnaires_%CE%91%CE%96.pdf https://as-journal.edu.az/beyn%C6%8Flxalq-t%C6%8Fcrub%C6%8Fd%C6%8F-t%C6%8Fhsilin-keyfiyy%C6%8Ft-gost%C6%8Fricil%C6%8Fri-t%C6%8Fhsilin-inkisafini-stimullasdiran-mexanizml%C6%8Fr-qrant-sistemi*

**C.F.Əsəd**
**Azərbaycan Dövlət Pedaqoji Universiteti**
***cemileasad@yandex.com***

# LİDERLİK İNKİŞAF MODELLƏRİ VASİTƏSİ İLƏ MƏKTƏB İDARƏÇİLİYİNİN GÜCLƏNDİRİLMƏSİ

***Xülasə***

*Məktəb rəhbərləri təhsil sektorunda əhəmiyyətli bir rol oynayaraq təhsilalanların inkişafina və təhsil müəssisələrinin uğuruna vacib töhfə verirlər. Liderlik bacarıqlarının önəmi indiki təhsil mühitində əhəmiyyətli yer tutur və rəhbərlərə liderlik inkişaf modelləri vasitəsilə gücləndirilmə imkanı verir. Effektiv rəhbərlik məktəb idarəçiliyində, həm təhsil verənlərin, həm də təhsil alanların nailiyyətini təyin edən vacib bir faktordur. Bu məqalədə, məktəb idarəçiliyində liderliyin vacibliyini vurğulayaraq effektiv liderlik xüsusiyyətlərinin nələr olduğunu və bu xüsusiyyətlərin məktəb mühitində necə tətbiq ediləbiləcəyi, liderlik inkişaf modelləri istifadə edilərək məktəb rəhbərlərinin effektivliyinin artırılması müzakirə olunacaq, rəhbərlərin liderlik bacarıqlarının inkişaf etdirilməsi, məktəb atmosferinin yaxşılaşdırılması və təhsil keyfiyyətinin artırılmasının müsbət təsiri izah olunacaqdır.*

# УКРЕПЛЕНИЕ ШКОЛЬНОГО АДМИНИСТРИРОВАНИЯ ЧЕРЕЗ МОДЕЛИ РАЗВИТИЯ ЛИДЕРСТВА

***Резюме***

*Руководители школы, играя важную роль в секторе образования для развития учащихся и успеха учебных заведений они вносят важный вклад. Важность лидерских качеств в современной образовательной среде занимает важное место и укрепляется через модели развития лидерства среди лидеров дает возможность. Эффективное лидерство в управлении школой, как педагогов, так и также является важным фактором, определяющим успеваемость учащихся. В этой статье подчеркивается важность лидерства в управлении школой, каковы характеристики эффективного лидерства и как эти характеристики могут быть применены в школьной среде, повышение эффективности директоров школ с использованием моделей развития лидерства, положительный эффект от улучшения школы. будут обсуждаться атмосфера и улучшение качества образования.*

# STRENGTHENING SCHOOL ADMINISTRATION THROUGH LEADERSHIP DEVELOPMENT MODELS

***Summary***

*School leaders, playing an important role in the education sector to the development of learners and the success of educational institutions they make an*

*important contribution. The importance of leadership skills in today's educational environment takes an important place and strengthening through leadership development models to leaders gives the opportunity. Effective leadership in school management, both educators and is also an important factor that determines the achievement of students. In this article, highlighting the importance of leadership in school management, what are the characteristics of effective leadership and how these characteristics can be applied in the school environment, increasing the effectiveness of school principals using leadership development models, the positive effect of improving the school atmosphere and improving the quality of education will be discussed. will be explained.*

***Açar sözlər:*** *liderlik, təhsildə idarəetmə, inkişaf modelləri*
***Ключевые слова:*** *лидерство, менеджмент в образовании, модели развития*
***Key words:*** *leadership, management in education, development models*

Məktəblərdə idarəetmə liderliyi, təhsil müəssisələrinin müvəffəqiyyətli olması və təhsilalanların ən yaxşı şəkildə inkişaf etmələri üçün əhəmiyyətli rol oynayır. Effektli idarəetmə lideri, strategik məqsədlər qoyaraq və resursları səmərəli şəkildə istifadə edərək məktəbin uğurunu artıra bilər. İdarəetmə liderliyinin əhəmiyyəti belə izah edilə bilər: məqsəd və strategiya inkişafı, komanda yaratma və motivasiya, resursların idarə olunması, təlim standartlarını yüksəltmək, əməkdaşlıq.

Nəticə olaraq, məktəblərdə effektiv idarəetmə liderliyi, təhsil keyfiyyətini yüksəldir, təhsilalanların uğurunu dəstəkləyir və məktəbin sosial təsirini gücləndirir. Liderlik inkişaf modelləri, liderlik bacarıqlarının inkişaf etdirmək və liderlik potensialını açığa çıxarmaq məqsədi ilə istifadə olunan sistemli yanaşmalardır. Aşağıdakılar bəzi liderlik inkişaf modelləri nümunələridir:

Transformasiyalı liderlik: Bu modeldə lider, məqsədli, təşviq edici və komanda üzvlərini motivasiya edən bir struktura malik olur. Bu liderlik üslubu, təhsilalanlara və təhsilverənlərə təsir edən güclü bir məqsəd qoyur. Transformasiyalı liderlik, liderin dəyişiklikləri təşəbbüs etməsini və tərəfdarlarını inkişaf və motivasiya ilə ilhamlandırmasını təyin edən bir liderlik stili olaraq özünü nümayiş etdirir. Təhsil sahəsində, bu liderlik forması məktəblərin inkişafını, müəllimlərin motivasiyasını artırmaq və şagird uğurlarını yaxşılaşdırmaq məqsədini güdür. 1970-ci illərdə yaranmış olan bu liderlik anlayışı, dəyişikliklərin zəruriliyini tətbiq edərək tərəfdarların potensiallarını maksimum səviyyədə artırmağı məqsədi güdür. Transformasiyalı liderliyin üstünlükləri arasında liderin ilhamverici olması, inkişaf məsələlərinə tərəfdarları cəlb etməsi və motivasiyanın artırılması yer alır. Komanda arasında güclü əməkdaşlığa təşviq edən bu liderlər empatiya və

dəstək vasitəsi ilə komanda üzvlərinin güvən hissini artırır və onları daha müvəffəqiyyətli olmağa sövq edirlər. Sürətli dəyişiklik bütün sahələrdə olduğu kimi təhsil sahəsində də özünü göstərməkdədir. Yeniliklərə tez bir zamanda adaptasiya olan bu liderlik komanda üzvlərini yeniliyə açıq olmağa təşviq edir və müəssisənin qarşıya qoyduğu məqsədlərə çatması üçün lazım olan addımları atmağa yaxından kömək edər. Transfarmasiyalı liderliyinin digər bir müsbət cəhəti komanda üzvlərinin potensiallarını maksimum istifadəsi üçün çalışmaları, onları inkişafa yönəltmələridir.

Bu liderlik növünün müəyyən çatışmazlıqları da vardır. Daim komanda ilə ünsiyyət şəklində çalışdıqları üçün müəyyən vaxt problemi yaşaya bilirlər. Ənənəvi və yeniliyə qapalı sistemdə bu liderlik uğurlu seçim olmayacaqdır. Bu bəzi sistemlər üçün qarışıq, tətbiqi çətin liderlik növü ola bilər. Transformasiyaçı liderliyin əsas prinsipləri arasında liderin məsuliyət hissi və əməkdaşlıq mərkəzi yer tutur.

Dağıdılmış liderlik (Distributed Leadership): Bu yanaşmanın kökləri 1990-cı illərə qədər gedib çıxır və bu liderlik modelinin təhsil sahəsindəki tətbiqi güclü liderlik mədəniyyətinin yaradılmasını, komanda işlərinin təşviq edilməsini və liderlik məsuliyyətlərinin paylaşılması fikrini ehtiva edir. Bütün tərəfdarların iştirakının təşviq edildiyi dağıdılmış liderlik, məktəbləri daha effektiv və səmərəli edə bilər. Dağıdılmış liderliyin təhsil sahəsindəki üstünlüklərindən biri liderliyin gücləndirilməsidir. Bir neçə şəxs və ya qrup liderlik rolunu paylaşaraq liderlik təsirini artıra bilər, həmçinin, tərəfdarların iştirakı və məsuliyyət hissi də məktəbin ümumi nailiyyətini artıra bilər. Ancaq, bu yanaşmanın bəzi çatışmazlıqları da mövcuddur. Xüsusilə məsuliyyətin paylaşılmasının kompleksliyi və nümayəndəlik məsələləri, tətbiqetmənin çətinləşməsinə səbəb ola bilər. Dağıdılmış liderliyin əsas prinsiplərindən bəziləri bunlardır:

Komanda əməkdaşlığı və məsuliyyət: Hər bir tərəfdarın işbirliyi ilə əməyə daxil olur və məsuliyyət hissi ilə hərəkət edir.

İştiraka təşviq: Qərar qəbul proseslərinə və liderlik funksiyonlarına iştirakın təşvik edilməsi hər kəsin potensialını daha yaxşı istifadə etməsi üçün şərait yarada bilər. Dağıdılmış liderlik modelində yenilikçi və əməkdaşlığa əsaslanan yanaşımlarla diqqət çəkir. Bu model, təhsil müəssisələrində demokratik, iştirakçı və effektiv liderlik nümunəsidir.

Təlimi liderlik (Instructional Leadership): 1970-ci illərin sonlarında Təlimi liderlik meydana çıxmışdır. Bu liderlik yanaşması, təhsildə dəyişiklik ehtiyacı zərurətindən meydana çıxmış və təhsildə idarəçi rollarının təlim və öyrənmə proseslərinə daha çox diqqət etməsinə yönəldilmişdir. Bu modeldə lider təhsilalanların uğurunu artırmaq üçün tərbiyəçiləri dəstəkləyir və təlim keyfiyyətini yüksəltməyi qarşıya məqsəd qoyur. Təhsildə təlimi liderlik konsepti, təlim nəzarətçilərinin təhsil proseslərini effektivləşdirmək və

təhsilalanların uğurunu artırmaq üçün istiqamətini təlimə və öyrənməyə yönəldir. Bu liderlik forması, təhsilverənlərin inkişafına dəstək olmağı, təhsil müəssisəsinin performansını yüksəltməyi və təhsilverənlərin uğurlarını artırmağı qarşıya məqsəd qoyur. Liderlik növündə təhsilverənlərin professional inkişafına rəhbərlik etmək, təhsilalanların uğurunu artırmaq üçün strategiyaların inkişaf etdirilməsi, məlumatın düzgün istifadə edilməsi ilə məktəb performansını qiymətləndirmək və komanda işi əsas istiqamətlərdir. Bu xüsusiyyətlər sayəsində təhsil liderləri, müəssisənin ümumi performansını yüksəltmək üçün effektiv bir rol oynayırlar. Təhsildə təlimi liderliyin üstünlükləri arasında müəllimlərin inkişafına dəstək olmaq, şagird uğurunu artırmaq, məktəb idarəçiliyini gücləndirmək və motivasiyanı artırmaq sadalana bilər. Lakin bu liderlik yanaşmasının çatışmazlıqları da var. Bu problemlərdən biri vaxt məhdudiyyətidir. Məktəb idarəçiləri təlim-tədris prosesini effektiv şəkildə idarə etmək üçün təhsilverənlərlə əlaqəli şəkildə çalışmalı, təhsilalanların təlim-tədris prosesində yaxından iştirak etməlidirlər. Lakin, bu proses təhsil idarəçilərinin digər tapşırıqları yerinə yetirməsində vaxt baxımından çətinlik yaradır, bu da özlüyündə işin səmərəliliyini azaldır. Müəllim müstəqilliyinin azalması digər bir çətinlik hesab olunur. Təhsilverənlər davamlı şəkildə geribildirim verməli olurlar ki, bu da təhsilverənlərin vaxtının çoxunun təhsil-təlim prosesinə yox geribildirimlərə, idarəedənlər tərəfindən yoxlamalara yönləndirilməsinə və ən nəhayətində təhsilverənlərin özlərini daha az müstəqil hiss etməsinə gətirib çıxarır.

Orijinal liderlik (Authentic Leadership): Bill George tərəfindən 2003-cü ildə tanıdılan orijinal rəhbərlik prinsiplərinə əsaslanaraq liderliyini icra edən rəhbərlər, komanda üzvlərinin motivasiyasına və güclü əlaqələrin qurulmasına kömək edir. Bu liderlik üslubu, liderin təbii şəxsiyyəti ilə uyğun şəkildə fəaliyyət göstərməsini və effektiv kommunikasiya qurmasını nəzərdə tutur. Bu model liderlərin idarəetmə bacarıqlarını inkişaf etdirmək, komandalarına rəhbərlik etmək və təhsilalanların uğurunu artırmaq üçün müxtəlif strategiyalar və yanaşmalar təklif edir.

Hər bir modelin özünəməxsus üstünlükləri və tətbiq sahələri var, lakin ən effektiv nəticələr yenə də modellərin komponentlərinin diqqətlə qiymətləndirilməsi və uyğun şəkildə tətbiq edilməsi ilə əldə edilir. Bu liderlik, rəhbərlik üslubunun şəxsi bütövlüyünü, aydınlıq və doğruluğa əsaslanan bir liderlik təklif edir. Təbii və səmimi şəkildə idarəedilmənin həyata keçirilməsi komanda ilə lider arasında güvən və etibar yaradır. Bu isə komanda üzvlərinin rəhbərə daha çox hörmət etməsinə və əməkdaşlıq etməyə gətirib çıxarır. Digər liderlik növlərində olduğu kimi burada da bir sıra çatışmazlıqlar müşahidə olunur. Bunlardan bir neçəsini sadalayaq: yalnız çalışmağa meyillilik, qərar verməkdə çətinlik və s.

Araşdırmanın nəticəsində, “Elastik idarəçilik” modeli təklif olunur.

Elastik idarəçilik, dəyişən dünyada çəldlik, adaptasiya və müxtəlifliyi başa düşmə bacarıqlarına fokuslanaraq idarə etməyi nəzərdə tutur. Bu idarəçilik modeli, liderin dəyişən şəraitlə sürətli uyğunlaşmasını və komandanın ehtiyaclarına uyğun olaraq liderlik üslubunu elastik şəkildə tənzim etməsini tələb edir. Elastik idarəçilik, proqnoz edilməz vəziyyətlərlə başa çıxma və yenilikçilik məsələlərində liderlərə imkanlar təklif edir. Yeni idarəçilik modelinin, ənənəvi idarəçilik modellərinin gətirdiyi məhdudiyyətləri aşaraq gələcəyin idarəçilik ehtiyaclarına daha yaxşı cavab verə biləcəyinə inanıram. Elastik idarəçilik, dəyişən və qarışıq iş mühitlərində liderlərin effektiv şəkildə yol göstərəcəyi və təşkilatların uğurlarına təkan verəcəyi doğrultucu imkanlar təqdim edir. Elastik liderlik, dəyişən təhsil dünyasında liderlərin uğurlu olmalarını təmin edən liderlik yanaşmasıdır. Elastik liderliyin bəzi üstünlükləri aşağıdakılardır:

Adaptasiya bacarığı: Elastik liderlik, rəhbərin mühitdə baş verən dəyişikliklərə sürətli bir şəkildə uyğunlaşmasını təmin edir. Lider, dəyişən şəraitlərə rahat bir şəkildə adaptasiya olaraq uyğun qərarlar ala bilir.

Çeviklik: Elastik liderlik, rəhbərin tez və effektiv bir şəkildə dəyişən vəziyyətlərə reaksiya verə biləcəyi qabiliyyətini vurğulayır. Lider, gözlənilməz hallarda belə çevik və tez bir şəkildə hərəkət edə bilir.

Yenilikçiliyə və yaradıcılığa təşviq: Elastik liderlik, liderin komandası ilə birlikdə yeni fikirlər irəli sürə biləcəyi modeldir. Lider, risk etməyə cəsarət edə bilər və yenilikçilik məsələlərində fokuslanaraq müəssisənin sərhədlərini sınaya bilər.

Fərqliliklərə hörmət: Elastik liderlik, fərqli fikir növünə və çeşidliliyə hörmət edir və komanda üzvlərini iştiraka təşviq edir, hər kəsin fikirlərinə hörmət edir.

Heyət işbirliyini inkişaf etdirmək: Elastik liderlik, iş işbirliyini təşvik edir və komanda üzvlərinin birlikdə çalışmasına dəstək verir, komanda üzvlərini dəstəkləyərək birgə məqsədlərə çatmalarını təmin edir.

Elastik liderlik, müasir təhsil dünyasının qarışıq və sürətli dəyişən dinamiklərinə uyğun gəlmək üçün effektiv liderlik modeli kimi görünür. Bu üstünlüklər vasitəsilə elastik liderlik, müəssisənin rəqabətdə qalmasına, davamlı uğura nail olmalarına kömək edə bilər.

Nəticə olaraq, məktəb idarəçiliyində effektiv liderlik keyfiyyətləri və tətbiqləri, təhsildə nailiyyətə və effektivliyinə birbaşa təsir edən əhəmiyyətli elementlərdən biridir. Yaxşı liderlik anlayışı, müəllimlərin motivasiyasını artıra, təhsilalanların öyrənmə mühitinə müsbət şəkildə təsir edə və məktəbin ümumi performansını yüksəldə bilər. Bu səbəbdən, məktəb idarəçilərinin liderlik bacarıqlarını inkişaf etdirmək və effektiv liderlik xüsusiyyətlərini qəbul etmək üçün daimi çalışmaq vacibdir. Məktəb liderlərinin liderlik rollarını düzgün şəkildə yerinə yetirməsi, təhsil müəssisələrinin məqsədinə daha

effektiv şəkildə xidmət etmələrinə imkan verə bilər.

***Ədəbiyyat***

1. *Hargreaves, A., & Fullan, M. (2012). Professional Capital: "Transforming Teaching in Every School".*
2. *Leithwood, K., Harris, A., & Strauss, T. (2010). "Leading School Turnaround: How Successful Leaders Transform Low-Performing Schools".*
3. *Robinson, V.M.J., Lloyd, C.A., & Rowe, K.J. (2013). "The Impact of Leadership on Student Outcomes: An Analysis of the Differential Effects of Leadership Types".*
4. *Wiliam, D. (2016). "Leadership for Teacher Learning".*

**Ə.Ç.Rəhimova**
**Azərbaycan Dövlət Pedaqoji Universiteti**
***esmerrehimova4@gmail.com***

# RƏQƏMSAL TƏHSİLİN TƏTBİQİ İLƏ TƏHSİLİN KEYFİYYƏTİNİN YÜKSƏLDİLMƏSİ

***Xülasə***

*Rəqəmsal təhsilin yaranması ənənəvi təhsil sistemlərində biliklərin ötürülməsinin ənənəvi yollarında dəyişikliklərə səbəb oldu və bu məqamın əhəmiyyəti hazırda göz qabağındadır. İnformasiya əldə etmək artıq insanlar üçün sürətli və asan olmuşdur. Bu dəyişikliklər informasiya axını və idarəetmə prosedurları üçün çox vacibdir. Rəqəmsal təhsil gələcək iş üçün biliklərin əldə edilməsində mühüm rol oynayır. Rəqəmsal təhsil informasiya texnologiyaları bacarıqlarının həyatın bütün sahələrində - məktəbdə, iş yerində və ali təhsildə mühüm amil olduğunu vurğulayır. Rəqəmsal təhsil fərdiləşdirilmiş təlim proqramlarının təhlükəsiz həyata keçirilməsinə və sürətli öyrənməyə imkan verir. Məqalədə rəqəmsal təhsil tələbələrini fərdiləşdirmək üçün interaktiv oyunlar və simulyasiyalardan istifadənin zəruriliyindən bəhs edilir.*

# ПОВЫШЕНИЕ КАЧЕСТВА ОБРАЗОВАНИЯ ЧЕРЕЗ ПРИМЕНЕНИЕ ЦИФРОВОГО ОБРАЗОВАНИЯ

***Резюме***

*Появление цифрового образования привело к изменению традиционных способов передачи знаний в традиционных системах образования, и важность этого момента сейчас очевидна. Доступ к информации стал для людей быстрым и легким. Эти изменения очень важны для потоков информации и процедур управления. Цифровое образование играет важную роль в приобретении знаний для будущей работы. Цифровое образование подчеркивает, что навыки работы с информационными технологиями являются важным фактором во всех сферах жизни: в школе, на рабочем месте и в высшем образовании. Цифровое обучение обеспечивает безопасную реализацию персонализированных программ обучения и быстрое обучение. В статье рассматривается необходимость использования интерактивных игр и симуляций для персонализации цифрового образования студентов.*

# IMPROVING THE QUALITY OF EDUCATION THROUGH THE APPLICATION OF DIGITAL EDUCATION

***Summary***

*The emergence of digital education has led to changes in the traditional ways of imparting knowledge in traditional education systems, and the importance of this point is now obvious. Access to information has become fast and easy for people. These changes are very important for information flow and management procedures.*

*Digital education plays an important role in acquiring knowledge for future work. Digital education emphasizes that information technology skills are an important factor in all areas of life, at school, in the workplace and in higher education. Digital learning enables secure implementation of personalized learning programs and rapid learning. The article discusses the necessity of using interactive games and simulations to personalize digital education students.*

***Açar sözlər:*** *rəqəmsal təhsil, təhsilin inkişafı, texnologiya və təhsil, rəqəmsal bacarıqlar*

***Ключевые слова:*** *цифровое образование, развитие образования, технологии и образование, цифровые навыки*

***Key words:*** *digital education, educational development, technology and education, digital skills*

Rəqəmsal təhsilin yaranması ilə biliklərin ənənəvi ötürülməsi yollarında əhəmiyyətli dəyişikliklər baş verdi. Rəqəmsal texnologiyanın yaranması ilə bu tendensiyanın əhatə dairəsi kitab və kitabxanaların fiziki sərhədlərindən kənara çıxdı. İnformasiya əldə etmək müasir günümüzdə rəqəmsallaşmanın gətirdiyi üstünlüklərlə insanlar üçün maksimum əlçatan səviyyəyə gəlib çatmışdır. Bu da istənilən informasiyanın məkandan və vaxtdan asılı olmayaraq əldə edilməsinə imkan verir.

Rəqəmsallaşmanın yaranması informasiya üzərində inhisarçı nəzarətin yaratdığı giriş maneələrinə əhəmiyyətli dərəcədə təsir göstərmişdir. Həm məlumat axını, həm də idarəetmə prosedurları əhəmiyyətli dəyişikliklərə məruz qalmışdır.

Rəqəmsallaşmanın gəlişi həmçinin ictimai münasibətlərə transformativ təsir göstərmişdir. Müasir cəmiyyətdə rəqəmsal transformasiyanın əhəmiyyəti nəzərəçarpacaq dərəcədə artmışdır. Nəticədə operativ və səmərəli qarşılıqlı əlaqə qabiliyyəti həm korporativ qurumlar, həm də insanlar üçün əhəmiyyətini artırmışdır [1].

Tarix boyu təhsil müəssisələri informasiyanın istehsalı və yayılmasına cavabdeh olan əsas qurumlar kimi fəaliyyət göstərmişlər. Son onilliklərdə internetə yönəlmiş rəqabətli ekosistemin yaranması təhsil müəssisələrinə müəyyən problemlər yaratmışdır. Çünki o, yuxarıda qeyd olunan aspektlərə oxşar funksiyaları təmin edir. Dünyanın istənilən yerindən məlumat əldə etmək imkanı təhsilin artıq təkcə təhsil müəssisələri ilə məhdudlaşmasının qarşısını almışdır. Bunun əvəzinə müxtəlif platformalar, proqramlar, ensiklopediyalar və açıq mənbəli veb brauzerlər vasitəsilə məlumatlar asanlıqla əldə edilə bilər. Rəqəmsal dövrün bu xüsusiyyəti hər kəsə geniş spektrli mövzulara aid məlumat əldə etməyə imkan verir. Yeni mühit təhsil müəssisələri üçün təhlükə deyil, amma müəyyən problemlər də yaradır [2].

İnsanlar gələcək işlərində uğurlu olmaq üçün müvafiq sahələrdə

rəqəmsal təhsil almaqla özlərini təkmilləşdirə bilərlər. Bununla yanaşı, informasiya texnologiyaları üzrə bacarıqların olması da vacibdir. Çünki, həyatın bütün sahələrində, o cümlədən sinif otağında, sənayedə və ali təhsildə həyati əhəmiyyət kəsb edir.

Rəqəmsal təhsil məktəblərdə, peşə təhsili müəssisələrində və universitetlərdə, habelə koorporasiyaların təlim və inkişaf proqramlarında istifadə oluna bilən yeni və yaradıcı tədris və təlim formalarına imkan verir.

Rəqəmsal təhsilə misal olaraq rəqəmsal platformalar, virtual təlimlər, onlayn kitabxanalar və vebinarları göstərmək olar. Adi tədris materiallarının rəqəmsallaşdırılması rəqəmsal öyrənmə texnologiyalarının təklif etdiyi cəhətlərdən yalnız biridir.

Müasir dövrdə tələbələrin rəqəmsal təhsildən istifadə etməklə gənc yaşlarda daha geniş biliklər əldə etmək imkanları vardır. Bu da onların ünsiyyət və əməkdaşlıq bacarıqlarını təkmilləşdirməyə kömək edir [7].

Təhsilin fərdiləşdirilməsi sürətlə inkişaf edən rəqəmsal təhsil sayəsində ən effektiv metodlardan birinə çevrilir. Rəqəmsal texnologiyanın istifadəsi hər bir tələbə üçün fərdiləşdirilmiş təhsil proqramlarının işlənib hazırlanmasını mümkün edir. O, belə planları tələbənin xüsusi qabiliyyət və tələblərinə uyğunlaşdırır. Bu, öyrənməni sürətləndirməklə yanaşı, həmçinin, onun səmərəliliyini artırmağa kömək edir.

Rəqəmsal təhsil sahəsində ortaya çıxan digər bir amil təlim oyunlarından və simulyasiyalardan istifadədir. Bu təhsil yanaşması interaktiv oyunlar vasitəsilə tələbələrin öyrənməsini asanlaşdırır və buna görə də tələbələrə əldə etdikləri məlumatları praktiki şəkildə tətbiq etməyə imkan verir. Bu tip oyunlar tələbələrə real həyatdakı səhvlərlə bağlı potensial zədələr olmadan bilik və bacarıqlar əldə etmək imkanı verir. Bu tədris yanaşmaları elmi və texniki fənlərin öyrənilməsində istifadə edildikdə xüsusi effektivlik nümayiş etdirir [5].

Rəqəmsal transformasiya genişmiqyaslı və mürəkkəb bir anlayışdır. Aşağıdakılar rəqəmsal transformasiyanın əsas inkişaf yollarıdır:

- rəqəmsal təhsil mühitinin yaradılması;
- təhsil məzmununa yenidən baxılması;
- təhsilin təşkili və fərdiləşdirilmiş tədris prosesi üçün çevik idarəetmə sisteminin işlənib hazırlanması;
- tədris prosesi subyektlərinin informasiya təhlükəsizliyinin təmin edilməsi;
- təhsil təcrübəsinin, metodlarının və texnologiyalarının yeni formalarının tətbiqi.

Bütün bunlarla yanaşı təhsilin rəqəmsal transformasiyasının hərtərəfli inkişafı prosesində müəllimin rəqəmsal səriştəsi də çox mühüm əhəmiyyət kəsb edir [4].

Bu gün tələbələr rəqəmsal mühitdə böyüyürlər və gündəlik həyatlarında və məktəb işlərində texnologiyadan istifadə etməyi sevirlər.

Araşdırmalara görə, məktəbdə texnologiyaya çıxışı olmayan şagirdlərin oxumağa marağı daha aşağı ola bilər. Öz növbəsində, texnologiyanın sinifə daxil edilməsi müəllimlərə təlim prosesini daha maraqlı etməkdə kömək edə bilər. Məsələn, sinifdə onlayn viktorinalar edərkən, şagirdlər düzgün cavabı həmyaşıdlarından daha tez tapırlar. Araşdırmalara görə, bu təlim forması şagirdlərin mövzuya marağını artırır [8].

Müasir tələbələr informasiya cəmiyyətində uğurlu mövqe tutmaq informasiya və kommunikasiya texnologiyaları haqqında mükəmməl anlayışa malik olmalıdırlar. Bu, əsasən məlumatların axtarışı, emal edilməsi, araşdırılması və tətbiqi ilə bağlıdır. Məktəb rəhbərlərinin əsas vəzifəsi müasir texnologiyaların təhsil müəssisələrində geniş tətbiqinə kömək etmək və məktəbləri uyğun kompüter avadanlıqları ilə təmin etməkdir. Sürətli internet bağlantısının təmin edilməsi yüksək keyfiyyətli təlim materiallarına çıxışı daha da əlçatan edəcəkdir.

Şagirdlərin və müəllimlərin müasir texnologiyalarla iş bacarıqlarının daima artırılması mütləqdir. Elektron təhsil platformaları və rəqəmsal tədris resursları kimi rəqəmsal alətlər təhsil prosesi üçün geniş imkanlar təklif edir. Onu da qeyd etməliyik ki, onlardan doğru istifadə etməmək əlavə məhdudiyyətlər də təqdim edə bilər [3].

Müasir texnologiyaların təhsil sistemlərinə daxil edilməsi təhsil prosesinin inkişafına və keyfiyyətinə birbaşa təsir göstərir. Müasir texnologiyalar təhsildə innovasiyalar, rəqəmsallaşma, elmi inkişaf və gələcək nəsillərin təlimi üçün böyük perspektivlər təklif edir.

Bu texnologiyalar innovasiyaların tətbiqində və təhsil təcrübələrinin təkmilləşdirilməsində həlledici rol oynayır. İnformasiya və kommunikasiya texnologiyaları, rəqəmsal öyrənmə platformaları və interaktiv təhsil vasitələri müəllim və tələbələrin daha effektiv öyrənməsinə kömək edir.

Texnologiyalar fundamental və təfərrüatlı biliyə daha sürətli və daha əlçatan çıxışı təmin etməklə təhsili təşviq edir. Bu, təhsilin inkişafı və daha geniş bilik bazasına çıxış əldə etmək perspektivini artırır.

Müasir təhsil texnologiyadan istifadə etməklə modernləşdirilməlidir. Bu, tədris proseslərində texnologiya imkanlarından tam istifadəyə imkan vermiş olacaqdır. Beləliklə, qabaqcıl texnologiyadan istifadə təhsili daha effektiv edir və gələcək nəsillərin daha yaxşı hazırlığına təminat verir [6].

Rəqəmsal təhsilin ən effektiv nümunələrindən biri olaraq "Microsoft Teams" platformasını misal çəkə bilərik. "Microsoft Teams" platforması video və audio dərslər, məlumat mübadiləsi, ev tapşırıqları, qiymətləndirmə alətləri, monitorinq imkanları, nəzarət mexanizmləri, e-poçt xidmətləri və virtual yaddaş kimi bir çox imkanlara malikdir. COVID-19 pandemiyası zamanı

Azərbaycanda da məktəblərdə onlayn tədrisin təşkilində məhz bu sistemdən istifadə edilmişdir.

Platforma şagirdlərin öyrənmə nəticələrinə operativ reaksiya verməyə, müvafiq uyğunlaşmaya və təsirli tədris strategiyaları qurmağa imkan verən mərkəzləşdirilmiş monitorinq imkanlarına da malikdir. Nəzarət mexanizmi həmçinin bütün ölkə üzrə faiz göstəriciləri, ayrı-ayrı təhsil müəssisələrində təhsil alan müəllim və şagirdlərin sayı, siniflərdə şagirdlərin yaş qrupları, şöbələr üzrə statistik göstəricilərlə tanış olmağa imkan verir. O, həmçinin bu göstəricilər əsasında müvafiq təhlillərin aparılmasına imkan verir. Beləliklə də öyrənmə təcrübəsini daha cəlbedici, əyləncəli və informativ edir. Bu platformada tapşırıqlar tərtib edilərək şagirdlərə göndərilir. Tapşırıqların nəticələrinə əsasən şagirdlər qiymətləndirilir və müqayisə olunur.

Microsoft Teams nümunəsində görə bilərik ki, rəqəmsal təhsil vasitələri təhsilin daha əlçatan və effektiv olmasında necə üstün rola malikdirlər.

**Cədvəl 1. Tezlik analizindən istifadə edilərək, SPSS proqramı vasitəsilə respondentlərin cavablarını statistik**

**Universitetdə akademik məqsədlər üçün rəqəmsal alətlər və ya texnologiyalardan nə qədər tez-tez istifadə edirsiniz?**

| | N | % |
|---|---|---|
| 1 | 2 | 20.0% |
| 2 | 3 | 30.0% |
| 3 | 5 | 50.0% |

**Universitet təhsilinizi inkişaf etdirmək üçün hansı rəqəmsal platformaları və ya alətləri təsirli hesab etdisiniz?**

| | N | % |
|---|---|---|
| 1 | 2 | 20.0% |
| 2 | 1 | 10.0% |
| 3 | 5 | 50.0% |
| 4 | 2 | 20.0% |

**Kurs işlərinə daha çox rəqəmsal elementlərin daxil edilməsinin ümumi öyrənmə təcrübənizi nə dərəcədə artırdığına inanırsınız?**

| | N | % |
|---|---|---|
| 1 | 1 | 10.0% |
| 2 | 5 | 50.0% |
| 3 | 2 | 20.0% |
| 4 | 2 | 20.0% |

**Sizcə, təhsilin keyfiyyətinin yüksəldilməsi üçün universitet təhsilinə hansı konkret rəqəmsal texnologiyalar inteqrasiya edilməlidir?**

| | N | % |
|---|---|---|
| 1 | 3 | 30.0% |
| 2 | 2 | 20.0% |
| 3 | 5 | 50.0% |

**Rəqəmsal təhsil resurslarına daxil olmaqda hansı çətinliklərlə qarşılaşmısınız?**

| | N | % |
|---|---|---|
| 1 | 1 | 10.0% |
| 2 | 1 | 10.0% |
| 3 | 3 | 30.0% |
| 4 | 5 | 50.0% |

**Sizcə, rəqəmsal təhsil tənqidi düşünmə və problem həll etmə bacarıqlarınıza müsbət təsir göstəribmi?**

| | N | % |
|---|---|---|
| 1 | 2 | 20.0% |
| 2 | 6 | 60.0% |
| 4 | 2 | 20.0% |

**Universitetlər tələbələrə rəqəmsal təhsil alətlərinə uyğunlaşmaqda və onlardan istifadənin təkmilləşdirilməsi daha yaxşı necə dəstək oluna bilər?**

| | N | % |
|---|---|---|
| 1 | 3 | 30.0% |
| 2 | 3 | 30.0% |
| 3 | 2 | 20.0% |
| 4 | 2 | 20.0% |

**Universitetlərdə rəqəmsal asılılığın artması ilə bağlı hər hansı narahatlığınız vardırmı?**

| | N | % |
|---|---|---|
| | 1 | 10.0% |
| 1 | 1 | 10.0% |
| 2 | 3 | 30.0% |
| 2. | 2 | 20.0% |
| 3 | 1 | 10.0% |
| 3. | 1 | 10.0% |
| 4 | 1 | 10.0% |

**Mənbə:** SPSS proqramı vasitəsi sorğulara əsasən hazırlanmışdır.

Sorğuların təşkili zamanı 10 respondentə 8 sual ünvanlanmışdır həmçinin, tələbələr tərəfindən müxtəlif cavablar verilmişdir. Cədvəl 1-ə əsasən cavabların statistik təhlili aparılmış, arasındakı əlaqə qeyd edilmişdir.

Sorğu göstərir ki, respondentlərin 50%-i rəqəmsal vasitələrdən və ya texnologiyalardan akademik məqsədlər üçün üç dəfə, 30%-i isə iki dəfə istifadə edir. Bu, tələbələr arasında rəqəmsal resurslara əsaslı etibarı göstərir və onların bu vasitələrin effektivliyi və təsirinə dair perspektivlərinin dərk edilməsinin vacibliyini vurğulayır.

Respondentlər arasında 50%-i rəqəmsal platformaları və ya alətləri universitet təhsilini artırmaq üçün yüksək effektiv hesab edir, 20%-i isə onları bir qədər effektiv hesab edir. Bu müsbət cavab rəqəmsal vasitələrin öyrənmə mühitinə inteqrasiyasının potensial faydalarını vurğulayır.

İştirakçıların yarısı hesab edir ki, kurs işlərinə daha çox rəqəmsal elementlərin daxil edilməsi onların ümumi öyrənmə təcrübəsini əhəmiyyətli dərəcədə artırmaqdadır. Cavablar göstərir ki, rəqəmsal alətlər ali təhsilin inkişaf edən mənzərəsi ilə uyğunlaşaraq təhsil səyahətinə müsbət töhfə verməkdədir.

Tələbələrin 50%-i xüsusi texnologiyaların inteqrasiyasını dəstəkləməklə müxtəlif rəqəmsal texnologiyalara üstünlük verdiyini bildirirlər. Bu onu göstərir ki, universitetlər tələbələrin müxtəlif üstünlüklərini və ehtiyaclarını ödəmək üçün müxtəlif rəqəmsal alətləri daxil etməyi düşünməlidirlər.

Həmçinin, sorğu göstərir ki, tələbələrin 60%-i universitetlərin rəqəmsal öyrənmə alətlərinə uyğunlaşmaqda və onlardan istifadəni təkmilləşdirməkdə onlara daha yaxşı dəstək verməli olduğuna inanır. Təhsil müəssisələrinin tələbələr arasında rəqəmsal bacarıqların artırılması üçün adekvat resurslar, təlim və dəstək təmin etmələrinin zəruriliyini vurğulayır.

Tələbələrin 50%-i rəqəmsal öyrənmə resurslarına daxil olmaqda çətinliklərlə üzləşsə də, 30%-i resurs əlçatanlığı ilə bağlı çətinliklərlə qarşılaşır. Bu problemlərin həlli rəqəmsal təhsilə bərabər çıxışı təmin etmək və tələbələr arasında bərabərsizlikləri minimuma endirmək üçün çox vacibdir.

Əhəmiyyətli 30%-i universitetlərdə rəqəmsal asılılığın artması ilə bağlı narahatlığını ifadə edir. Bu narahatlıqlar texnologiyaya həddən artıq asılılıq, distant təhsilin potensial çatışmazlıqları və ənənəvi təhsil formalarına təsirlə bağlı məsələləri əhatə edir

İştirakçıların əksəriyyəti (60%) hesab edir ki, rəqəmsal təhsil onların tənqidi düşüncə və problem həll etmə bacarıqlarına müsbət təsir etməkdədir. Bu müsbət qavrayış onu göstərir ki, rəqəmsallaşmaya koqnitiv bacarıqların inkişafına kömək edə bilər.

Son illərdə təhsil prosesini əhəmiyyətli dərəcədə dəyişdirən rəqəmsal təhsil sahəsində əhəmiyyətli irəliləyişlər əldə edilmişdir. O, təhsilin tərəqqisi və effektivliyi ilə bağlı çoxsaylı əhəmiyyətli amilləri əhatə edir:

- Rəqəmsal təhsil həm öyrənməyi, həm də öyrətməyi asanlaşdıran geniş xüsusiyyətlər təklif edir. Təhsil müəssisələrinin, tələbələrin və müəllimlərin geniş təhsil materialları və təcrübələrə çıxışını təmin edir.
- Təhsil rəqəmsal təhsil vasitəsilə daha geniş auditoriyaya təqdim edilir.
- Təhsildə interaktiv texnologiyaları təşviq edir. Bu, tələbələrin unikal təhsil forması ilə öyrənməsinə və mövzunu daha aydın başa düşməsinə zəmanət verir.
- Təhsildə rəqəmsal texnologiyalardan istifadə tələbələri peşəkar dünyanın tələblərinə uyğun hərəkət etmək üçün lazım olan bacarıq və biliklərlə təmin edir.
- Rəqəmsal təhsil ömür boyu öyrənməni təşviq etmək üçün geniş perspektivlər təklif edir.
- Onlayn öyrənmə imkanları, video mühazirələr və interaktiv məzmunlar təhsili hər kəs üçün əlçatan edir.

Bu nəticələr onu göstərir ki, rəqəmsal təhsil yüksək effektivliyi və geniş təhsil imkanları vasitəsilə təhsilin inkişafına əhəmiyyətli töhfə verir. O, təhsilin genişlənməsində və təhsil prosesinin gələcək təkamülündə mühüm rol oynayacaqdır.

***Ədəbiyyat***

1. *Pənahova İ.M. "Rəqəmsallaşma şərtlərində sosial transformasiya." İnformasiya cəmiyyətində davamlı iqtisadi inkişaf problemləri. 2021, s.612-616.*
2. *Alenezi M. "Digital learning and digital institution in higher education." Education Sciences. 2023, 13(1), 88 p.*

3. *Ciarko M., Paluch-Dybek A. "The importance of digitalization in the education process." E3S Web of Conferences. EDP Sciences, 2021, 307 p.*
4. *Балтынова А., Тулекеева С. "Роль цифровой компетентности педагогов в процессе цифровой трансформации образования." Современные тенденции при обучении иностранному языку в XXI веке. 2023, 1(1), стр. 12-19.*
5. *Белицкий К.А. "Современные тенденции развития цифрового образования." Технопарк универсальных педагогических компетенций. 2023, стр. 95-96.*
6. *Строков А.А. "Цифровизация образования: проблемы и перспективы." Вестник мининского университета, 8(2(31)), 2020, 15 стр.*
7. *https://www.merckgroup.com/en/the-future-transformation/digital_education.html*
8. *https://ioe.hse.ru/digitalineducation*

**F.F.Qədimli**
**Azərbaycan Dövlət Pedaqoji Universiteti**
***fidangadimli@yahoo.com***

# AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEVİN GƏNCLƏR SİYASƏTİ (2003-2023)

***Xülasə***

*Gənclərə diqqət və qayğı Müasir Azərbaycan dövlət quruculuğu siyasətində ön sıralarda dayanır. Ümummilli Lider Heydər Əliyevin siyasi məktəbinin yetirməsi, siyasi kursunun davamçısı Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin rəhbərliyi ilə ölkəmizin qüdrətli dövlətə çevrilməsi üçün gənclər üçün yüksək şərait yaradılır, onların elmə, sənətə yiyələnməsi, işgüzar vərdişlər əldə etməsi, fərdi inkişaf, asudə vaxtlarının səmərəli keçirilməsi üçün silsilə tədbirlər həyata keçirmişdir. Gənclər siyasətində də qabaqcıl ölkələrin uğurlu təcrübələri tətbiq edilir. Eyni zamanda bu siyasətin əsasında azərbaycançılıq ideologiyası dayanır.*

*Məqalədə gəncliyin inkişaf istiqamətində yer alan gənclərin təhsil alması, dünyagörüşünün artırılması, mənəvi inkişafı, asudə vaxtlarının səmərəli keçirilməsi, sağlam həyat tərzi ilə bağlı sosial proqramların icrası, idman hərəkatının genişləndirilməsi, işsizliyin aradan qaldırılması, mənzillərlə təmin edilməsi üçün müxtəlif layihələrin reallaşdırılması kimi məsələlərin başlıca prioritetlər olması öz əksini tapmışdır. Həmçinin son dövrlərdə ölkəmizdə fəaliyyət göstərən bütün sahələrdə gənclərin fəal iştirakının təmin edilməsi məqalədə xüsusi vurğulanmışdır.*

# МОЛОДЕЖНАЯ ПОЛИТИКА ПРЕЗИДЕНТА АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКИ ИЛЬХАМА АЛИЕВА (2003-2023 ГГ.)

***Резюме***

*Внимание и забота о молодежи находятся на переднем крае политики государственного строительства современного Азербайджана. Под руководством Президента Азербайджанской Республики Ильхама Алиева, продолжателя политической школы общенационального лидера Гейдара Алиева, создаются высокие условия для того, чтобы молодежь стала могущественным государством, овладела наукой и искусством, приобрела деловые навыки, личностные развития, а также проведен ряд мероприятий по эффективному использованию досуга. Успешный опыт передовых стран применяется и в молодежной политике. В то же время эта политика базируется на идеологии азербайджанства.*

*В статье основными приоритетами являются такие вопросы, как воспитание молодежи в направлении развития молодежи, повышение ее кругозора, духовное развитие, эффективное проведение досуга, реализация социальных программ, связанных со здоровым образом жизни, расширение*

*спортивного движения, ликвидация безработицы, реализация различных проектов по обеспечению жильем отражено в статье. Также в статье особо подчеркнуто обеспечение активного участия молодежи во всех сферах деятельности в нашей стране в последнее время.*

# YOUTH POLICY OF THE PRESIDENT OF THE REPUBLIC OF AZERBAIJAN ILHAM ALIYEV (2003-2023)

***Summary***

*Attention and care for young people is at the forefront of modern Azerbaijan's state-building policy. Under the leadership of Ilham Aliyev, the President of the Republic of Azerbaijan, the successor of the national leader Heydar Aliyev's political school, high conditions are created for the youth to become a powerful state, they acquire science and art, acquire business skills, personal development, and a series of events for the effective use of their leisure time. carried out. Successful practices of advanced countries are also applied in youth policy. At the same time, this policy is based on the ideology of Azerbaijaniism.*

*In the article, the main priorities are issues such as education of young people in the direction of youth development, increasing their outlook, spiritual development, effective spending of leisure time, implementation of social programs related to healthy lifestyle, expansion of sports movement, elimination of unemployment, implementation of various projects for providing housing. reflected in the article. Also, the provision of active participation of young people in all fields of activity in our country in recent times was specially emphasized in the article.*

***Açar sözlər:*** *İlham Əliyev, prezident, gənclik, siyasət,* proqram

***Ключевые слова:*** *Ильхам Алиев, президент, молодежь, политика, программа*

***Key words:*** *Ilham Aliyev, president, youth, policy, program*

Azərbaycan dövlətinin siyasi xarakterini və inkişaf yolunu çoxşaxəli islahatlarla müəyyənləşdirən prezident İlham Əliyevin konsepsiyasına gənclər siyasəti daxildir. Prezident seçildikdən sonra Ulu Öndərin siyasi kursunu davam etdirən cənab İlham Əliyev bu istiqamətdə mühüm uğurlara imza atmış, gənclər siyasətinin inkişaf istiqamətini mövcud ənənələr əsasında müəyyənləşdirərək inkişaf etdirmişdir.

Gənclər siyasətinin prioritet istiqamətləri sırasında gənc istedadların üzə çıxarılması, onların potensial imkanlarının aşkarlanması və inkişafı, yüksək səviyyəli təhsil alması üçün əlverişli şəraitin yaradılması dayanır. Gənclərlə bağlı imzalanan dövlət proqramları, fərman və sərəncamlarda onların inkişafı, təhsil alması ilə yanaşı, potensiallarının üzə çıxarılması, istedadlıların qiymətləndirilməsi məsələləri yer alır.

Prezident İlham Əliyevin 2005-ci il avqustun 30-da imzaladığı "Azərbaycan gəncliyi Dövlət Proqramının (2005-2009-cu illər) təsdiq olunması

haqqında" və 2006-cı il aprelin 17-də imzaladığı "Xüsusi istedada malik olan uşaqların (gənclərin) yaradıcılıq potensialının inkişafı üzrə Dövlət Proqramı (2006-2010-cu illər)", 2011-ci il iyulun 7-də imzaladığı "Azərbaycan gəncliyi 2011-2015-ci illərdə Dövlət Proqramının təsdiq olunması haqqında" sərəncamlar gənclərin istedadının aşkara çıxarılmasında, ictimai fəallığının artırılmasında, onların dövlət idarəçiliyinə cəlb olunmasında, sosial-iqtisadi problemlərinin həllində mühüm rol oynamışdır. Həyata keçirilən Dövlət proqramları müasir Azərbaycan gəncliyinin dövrün tələbləri səviyyəsində hərtərəfli inkişafına hərtərəfli təsir göstərmişdir.

Azərbaycan gəncliyinə stimul verilən islahatlar sırasında Gənclər Fondu və "Gənclər Mükafatı" dayanır. Dövlət proqramlarının icrası ilə bağlı 2011-ci ildə əsası qoyulan Gənclər Fonduna ayrılan vəsaitin yardımı ilə gənclərə yönəlmiş strateji layihələrə dəstək verilir, onların elmi, yaradıcılıq baxımından inkişafı, müxtəlif layihələrin icrası həyata keçirilir.

7 iyun 2011-ci il tarixli 1621 nömrəli Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan gəncliyi 2011-2015-ci illərdə" Dövlət Proqramının 6.1.4-cü yarımbəndinə əsasən Gənclərlə iş sahəsində normativ hüquqi bazanın təkmilləşdirilməsi və infrastrukturun inkişafı üçün Fondun yaradılması nəzərdə tutulmuşdur. Dövlət Proqramına əsasən Azərbaycan Respublikası Prezidentinin 2011-ci il 19 dekabr tarixli 542 nömrəli Fərmanı ilə Gənclər və İdman Nazirliyinin yanında Gənclər Fondu yaradılmışdır. Gənclərin sağlamlığı, təhsili, məşğulluğu, sosial müdafiəsi və digər sahələrdə dövlət tərəfindən genişmiqyaslı tədbirlər həyata keçirilmişdir. Bu diqqətin bariz nümunəsi olaraq 2 Fevral Azərbaycan Gəncləri Günü elan edilmiş, gənclər təşkilatlarının və ayrı-ayrı gənclərin ictimai əhəmiyyət daşıyan təşəbbüslərini dəstəkləmək məqsədilə 29 dekabr 2012-ci il tarixli 801 nömrəli Fərmanı ilə Azərbaycan Respublikasının Prezidenti yanında Gənclər Fondu təsis olunmuşdur.

Müstəqil Azərbaycanda gənclərin maraqlarını təmin edən, beynəlxalq təcrübəyə əsaslanan dövlət gənclər siyasəti formalaşdırılıb və uğurla həyata keçirilməsi məqsədilə Azərbaycan Respublikasında gənclər siyasəti sahəsində idarəetmənin təkmilləşdirilməsi ilə bağlı tədbirlər haqqında 7 mart 2018-ci il tarixli 1871 nömrəli Azərbaycan Respublikası Prezidenti Fərmanı ilə Azərbaycan Respublikasının Prezidenti yanında Gənclər Fondunun əsasında "Azərbaycan Respublikasının Gənclər Fondu" publik hüquqi şəxs yaradılmışdır.

2013-cü ildə prezident İlham Əliyevin Sərəncamı ilə təsis edilən "Gənclər Mükafatı" olduqca mühüm addımdır. Mükafat elm, mədəniyyət, o cümlədən ədəbiyyat və incəsənət, təhsil və ictimai fəaliyyət sahələrində xüsusi fərqlənən gənclər üçün, ildə bir dəfə verilməklə, altı ədəd 10000 manat məbləğində müəyyənləşdirilmişdir.

Azərbaycan gəncliyi ilə bağlı Dövlət proqramları müəyyənləşərək imzalanmış, 2007-ci il "Gənclər ili" kimi tarixə düşmüş, 2011-ci ildə Gənclər Fondu qurulmuş, 2013-cü ildə ölkədə ilk dəfə "Gənclər üçün Prezident Mükafatı" təsis olunmuş, Azərbaycan gənclərinin İnkişaf Strategiyası təsdiqlənmişdir.

Ən önəmlisi isə gənclər siyasətində milli və dövlətçilik maraqlarının prioritet olması 44 günlük Vətən müharibəsində önəmli rol oynamışdır. Təsadüfi deyil ki, qalibiyyətin əldə edilməsində böyük rolu prezident İlham Əliyevin hakimiyyəti dövründə yetişən gənclər oynamışdır. 2 fevral 2022-ci ildə "Azərbaycan Gəncləri Gününün 25 illiyinə həsr olunmuş Gənclər Forumu"nda iştirak edən prezident cənab İlham Əliyev Ulu Öndər Heydər Əliyevin gənclərə olan diqqət və qayğısını vurğulayaraq demişdir: "Ulu Öndər həmişə olduğu kimi, uzaqgörənlik göstərərək məhz gənclərə üz tutdu, onları dəvət etdi, onlara öz tövsiyələrini verdi və gəncləri gələcək inkişaf üçün təşkilatlandırmaq və hazırlamaq üçün əməli-praktik addımlar atıldı. Əgər biz bu kiçik bir tarixi ekskursa nəzər salsaq, görərik ki, Heydər Əliyev nə qədər haqlı idi. Çünki bu gün cəmiyyətimizin böyük hissəsini təşkil edən gənclər ölkəmizin həyatında çox önəmli rol oynayır. Gənclərin təşəbbüsləri, onların əməyi bu gün hər yerdə görünməkdədir və əlbəttə ki, yeni nəslin vətənpərvərlik ruhunda, dövlətə sədaqət əsasında yetişdirilməsi Heydər Əliyevin xidmətləri arasında önəmli yer tutur" [6].

Cənab İlham Əliyevin prezidentliyinin ilk illərindən qurulan gənclər siyasətinin uğurlu göstəricilərindən biri kimi 2009-cu ildə Azərbaycana səfər etmiş Avropa Şurasının Avropa Gəcnlər Fondunun prezidenti Jan Klod Lazaronun verdiyi yüksək dəyəri göstərə bilərik: "Azərbaycan Avropa məkanında gənclər siyasətinə görə ən fəal ölkədir. Avropa Gənclər Fonduna təqdim olunan layihələrin, gənclər təşkilatlarına müraciətlərin sayına görə respublikamız qitə dövlətləri arasında birinci yeri tutur" [2, 5]

Prezidentin 2005-ci ildə imzaladığı "Azərbaycan gəncliyi Dövlət Proqramı (2005-2009-cu illər)" dövlət gənclər siyasətinin bir parçasıdır. Həmin proqram əsasında 4 il ölkə gənclərinin məşğulluğu təmin edilmiş, onların sosial müdafiəsi, yaradıcılıq axtarışının stimullaşdırılması, vətənpərvərlik hislərinin artırılması, milli-mənəvi dəyərlərə sahib gəncliyin yetişdirilməsi, eləcə də ixtisaslı kadrların yetişdirilməsi, 5 mindən çox gəncin xaricə təhsilə göndərilməsi proqramı istiqamətlərində kompleks tədbirlər həyata keçirilmişdir.

"2011-2013-cü illərdə Bakı şəhərinin və onun qəsəbələrinin sosial-iqtisadi inkişafına dair Dövlət Proqramı"nın icrasında da gənclərin inkişafı ön planda tutulmuşdur. Bununla əlaqədar Binəqədi, Xəzər, Sabunçu, Qaradağ və Suraxanı rayonlarında Gənclər evləri, Daşkəsən rayonunda Gənclərin Təlim və İstirahət Mərkəzi tikilmişdir.

Azərbaycan gənclər təşkilatlarının beynəlxalq təşkilatlarla əməkdaşlığı istiqamətində də önəmli addımlar atılmışdır. Bunun bariz nümunəsi kimi Gənclər təşkilatlarının müxtəlif beynəlxalq təşkilata üzv qəbul edilməsi faktını göstərə bilərik. Bakıda Gənclər Mərkəzinin, regionlarda isə Gənclər evlərinin inşa edilməsi də bu yöndə görülən işlərdəndir. Artıq 12 rayonda “Gənclər evləri” fəaliyyət göstərir. Bakı şəhəri və ətraf qəsəbələrinin sosial-iqtisadi inkişafı proqramı çərçivəsində paytaxtın 5 rayonunda “Gənclər evi” tikilməsi üçün layihələr təsdiq olunmuşdur.

Gənclərin ictimai fəallığının artırılması, ölkənin ictimai həyatına onların daha yaxından cəlb edilməsi məqsədilə yaradılan və vətəndaş cəmiyyətinin mühüm tərkib hissəsi olan ictimai birliklərin fəaliyyəti dövlət tərəfindən hərtərəfli dəstəklənir Gənclər Fondu gənclərin, xüsusilə az təminatlı ailələrdən olan gənclərin təhsil almalarının, təhsillərini xaricdə davam etdirmələrinin dəstəklənməsi, ali və orta ixtisas təhsili müəssisələrini bitirmiş gənclərin işlə təmin olunma baxımından qarşılaşdıqları problemlərin həll edilməsi, gənclər arasında sahibkarlıq və özünüməşğulluğun təşviq edilməsi və dəstəklənməsi kimi bir sıra istiqamətlərdə təqdirəlayiq fəaliyyət həyata keçirir. Bütün bu fəaliyyətlər xalqımız tərəfindən rəğbətlə qarşılanır, yüksək qiymətləndirilir.

“Azərbaycan Gəncliyi 2011-2015-ci illərdə Dövlət Proqramı”na əsasən Naxçıvan MR-da 1, respublikamızın digər şəhər və rayonlarında inşası nəzərdə tutulmuş 9 Gənclər evi tikilmişdir. Hazırda Bakıda və rayonlarda yerləşən 40-a yaxın Gənclər Evi, demək olar ki, bütün rayonlarda fəaliyyət göstərən Olimpiya kompleksləri, yaradıcılıq mərkəzləri və s. gənclərin ixtiyarındadı.

Son onillikdə idmanın maddi-texniki bazasının gücləndirilməsi diqqət mərkəzində olmuşdur. Belə ki, hazırda ölkəmizdə fəaliyyət göstərən 36 olimpiya-idman komplekslərindən 31-i məhz 2003-2013-ci illərdə tikilib istifadəyə verilmişdir. Bu da gənclərin asudə vaxtlarının səmərəli istifadəsi, sağlam gəncliyin yetişməsi üçün atılan addımlardandır.

İnsan kapitalının vacibliyini duyan prezident İlham Əliyev tərəfindən imzalanan “2007-2015-ci illərdə Azərbaycan gənclərinin xarici ölkələrdə təhsili üzrə Dövlət Proqramı”na əsasən, gənclərin xarici ölkələrdə təhsil alması məqsədilə bütün xərclər dövlət tərəfindən qarşılanır. Proqramın məzunu olan gənclər təhsillərini başa vurduqdan sonra geri dönərək ölkəmizə xidmət etməkdədirlər, eləcə də xarici ölkələrdə yaşayanlar diaspor fəaliyyətimizə böyük dəstək verməklə, həqiqətlərimizin dünyaya çatdırılmasına səfərbər olur, ölkəmizi ən yaxşı səviyyədə təmsil edirlər.

2007-ci ilin “Gənclər ili” elan olunması da Azərbaycanın prezidenti İlham Əliyev tərəfindən həyata keçirilmişdir. “Gənclər ili” elan olunması da müxtəlif məqsəd və məramlara xidmət göstərir, belə ki, Azərbaycan gənclərinin ölkənin müxtəlif sferalarında - ictimai-siyasi, iqtisadi və mədəni

həyatında fəal iştirakı, sosial, iqtisadi və mədəni problemlərinin həlli, öz hüquqlarının müdafiəsinin, qanunların qorunmasının təminatı, gənclər siyasətinin bütün istiqamətləri üzrə müvafiq dövlət proqramının sərfəli şəkildə həyata keçirilməsi, gənc istedadlara dövlət qayğısının artırılması, elm, təhsil, iqtisadiyyat, mədəniyyət, dövlət idarəçiliyi və digər sahələrdə gənclərin xidmətlərinin qiymətləndirilməsi məqsədi daşıyır.

Gənclər sahəsində aparılan genişmiqyaslı fəaliyyətlərdən biri də dövlət başçısı tərəfindən Gənclər Fondunun yaradılmasıdır. Eləcə də "Gənclər siyasəti haqqında", "Könüllü fəaliyyəti haqqında" Azərbaycan Respublikasının qanunları qəbul edilmişdir. Təsdiq edilən "2015-2025-ci illərdə Azərbaycan gənclərinin İnkişaf Strategiyası" siyasəti yönündə qurulan proqrama əsasən, hər il 10 nəfər gəncə dövlət başçısı tərəfindən fərdi təqaüd verilir. Gənclərin asudə vaxtlarının səmərəli keçirilməsini, ictimai həyatda iştirakını təmin etmək məqsədilə gənclər mərkəzləri, gənclər evləri, olimpiya idman mərkəzləri fəaliyyət göstərir. Gənclər üçün təsis olunmuş Prezident mükafatı hər il müxtəlif sahələrdə fərqlənən gənclərə təqdim olunur ki, bu da öz növbəsində gənclər üçün xüsusi stimul təşkil edir.

"Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər"də də 5 əsas müddəanın mərkəzində insan kapitalı - gənc kadr potensialı dayanır. Bu, Prezident İlham Əliyevin neft kapitalının insan kapitalına çevrilməsi kimi xarakterizə etdiyi proses çərçivəsində baş verir və nəticədə gənclər dünyanın müxtəlif nüfuzlu ali təhsil müəssisələrində aparıcı ixtisaslar üzrə təhsil alırlar. Gənclər də öz növbəsində dövlətin onlar üçün yaratdığı imkanlardan səmərəli istifadə edirlər. Azərbaycan gəncliyi istər Vətən müharibəsində, istərsə də ondan sonrakı dövrdə üzərinə düşən tarixi vəzifələrin öhdəsindən layiqincə gəlmişdir. Cənab Prezident hakimiyyətinin ilk illərindən məhz təhsil siyasətinə böyük dəstək verərək, neft kapitalının insan kapitalına çevrilməsi məqsədilə bütün imkanları səfərbər etdi. Bu dövlət proqramından sonra "2019-2023-cü illər üçün Azərbaycan Respublikasında ali təhsil sisteminin beynəlxalq rəqabətliliyinin artırılması", daha sonra "Gənclərin xarici ölkələrin nüfuzlu ali təhsil müəssisələrində təhsil almalarına dair 2022-2026-cı illər üçün" Dövlət proqramları qəbul edildi. Nəticədə bu gün gənclərimiz dünyanın ən nüfuzlu təhsil müəssisələrində dövlət hesabına təhsil alır, təhsillərini, bilik və bacarıqlarını burada davam etdirirlər.

Prezident İlham Əliyevin idmana olan marağı xalqımız tərəfindən xüsusi rəğbətlə qarşılanır. İdman sahəsində aparılan islahatlar daha çox gənclərin inkişafına dəstək hesab olunur.

Ölkəmizdə idmana diqqət onun 1997-ci ildə Milli Olimpiya Komitəsinin Prezidenti seçilməsi ilə geniş vüsət almışdır. 2005-ci il 4 mart tarixli Sərəncamına əsasən, hər il 5 mart tarixi ölkəmizdə Bədən Tərbiyəsi və İdman Günü kimi qeyd edilir. Dövlət başçısı tərəfindən idmana göstərilən

yüksək diqqət və qayğı səbəbilə Azərbaycan dünyada idman ölkəsi olaraq tanınır. İstər idmançılarımızın qazandığı nailiyyətlər, istərsə də nüfuzlu idman yarışlarının ölkəmizdə yüksək səviyyədə keçirilməsi Azərbaycanda idmana verilən dəyərin bariz nümunəsidir.

Prezident İlham Əliyevin mətin iradəsi və böyük səyləri nəticəsində Azərbaycan dünyanın qabaqcıl idman ölkələrindən birinə çevrilmişdir. Azərbaycanın nüfuzlu beynəlxalq idman yarışlarına ev sahibliyi etməsi, idmançılarımızın Olimpiya və dünya çempionatlarında uğurlu çıxışları, respublikamızda 43 Olimpiya İdman Kompleksinin fəaliyyət göstərməsi bunun bariz nümunəsidir. Beynəlxalq yarışlarda qələbə qazanan gənc idmançılar Prezident tərəfindən də qiymətləndirilmiş, onları daha da ruhlandırmışdır.

Prezident İlham Əliyevin 16 yanvar 2012-ci il tarixli Sərəncamı ilə Azərbaycanda "İdman ili" elan edilən 2012-ci il də Azərbaycan idmançıları üçün çox məsuliyyətli il oldu. İdmançılarımız 2012-ci il 30-cu London Yay Olimpiya Oyunlarında uğurla çıxış etdilər. Azərbaycan London Olimpiadasında idmanın 16 növü üzrə 53 idmançı ilə təmsil olundu, 2 qızıl, 2 gümüş və 6 bürünc medal qazanmaqla bundan qabaqkı olimpiya oyunlarındakı uğurlarını təzələdi [3].

Bakı şəhərində bədii gimnastika, güləş və boks üzrə dünya çempionatları uğurla keçirilir. 2012-ci ilin sentyabrında isə Azərbaycan futbol üzrə 17 yaşlı qızlar arasında dünya çempionatına böyük müvəffəqiyyətlə ev sahibliyi etmişdir.

Bu qayğının göstəricisidir ki, beynəlxalq yarışlarda qazanılan idman nailiyyətlərimizin sayı ildən-ilə artır. Azərbaycanın "Rio-2016" XXXI Yay Olimpiya Oyunlarında 18 medal qazanaraq bu göstəriciyə görə, 14-cü yerdə qərarlaşması bu sahəyə göstərilən diqqət və qayğının sübutudur. Ölkəmizdə yüksək səviyyədə keçirilən "Bakı-2015" birinci Avropa Oyunlarında ikinci, "Bakı 2017" IV İslam Həmrəyliyi Oyunlarında birinci yeri tutması və digər nailiyyətlər Azərbaycan gənclərinin son illərdə idman sahəsində qazandıqları uğurlardan bəziləridir.

Eləcə də, Ölkəmiz I Avropa Oyunlarına, İslam Həmrəyliyi Oyunları kimi mötəbər olimpiadalara evsahibliyi edir. "Formula-1" kimi beynəlxalq yarışın, ayrı-ayrı dünya çempionatlarının və birinciliklərin Azərbaycanda keçirilməsi dünyada idmanı ölkəmizin brendlərindən biri edir. İstər idman, istərsə də mədəniyyət tədbirlərinin yüksək səviyyədə təşkili ölkəmizin tanınması baxımından olduqca mühüm əhəmiyyət kəsb edir. Oktyabrın 13-də Bişkekdə keçirilən Müstəqil Dövlətlər Birliyi (MDB) Dövlət Başçıları Şurasının iclasında dövlət başçısının ölkəmizin 2025-ci ildə üçüncü MDB Oyunlarının keçirilməsi üzrə namizədliyini dəstəklənməsi də ürəkaçıcıdır. Belə ki, ölkəmiz növbəti dəfə idman yarışlarına ev sahibliyi edəcəkdir.

Azərbaycanda könüllülər hərəkatının aparıcı qüvvəsini də məhz gənclər təşkil edirlər. Bu baxımdan ölkə gənclərinin potensialının üzə çıxarılması, fəallığının artırılması, hadisələrə fərqli baxış bucaqlarının gətirilməsini cəmiyyət üçün zəruri hesab edən prezident İlham Əliyev 2019-cu il dekabrın 30-da 2020-ci ilin Azərbaycanda "Könüllülər İli" elan edilməsi haqqında Sərəncam imzalamışdır [4]. Gənclər arasında könüllülük fəaliyyətinin təbliği və yayılması onlarda humanizmi, milli-mənəvi dəyərlərin gücləndirilməsi, eləcə də təcrübələrinin artmasına səbəb olmaqdadır. Könüllülər ölkəmizdə keçirilən beynəlxalq tədbirlərə, o cümlədən idman və musiqi yarışlarına mühüm töhfə vermişlər.

İndi könüllülər ordusu kimi böyük bir hərəkat formalaşıb ki, məhz onlar da müxtəlif sahələrdə çalışaraq bilik və bacarıqlarını daha da artırmaqla yanaşı, işlədikləri qurumlara yeni nəfəs, gənc ovqat gətirir, bir digər tərəfdən də uğurlu gələcəklərini könüllülük fəaliyyəti ilə təmin edirlər.

Prezident İlham Əliyevin 9 avqust 2018-ci il tarixli Fərmanı ilə Əmək və Əhalinin Müdafiəsi Nazirliyinin tabeliyində yaratdığı DOST (Dayanıqlı və Operativ Sosial Təminat) Agentliyi də gənclərin inkişafına güclü təkan vermişdir. 2019-cu ilin may ayından fəaliyyətə başlayan DOST Agentliyi və 5 DOST mərkəzi gənclərin iş tapmasında mühüm rol oynamışdır. Eləcə də, "Gənc DOST" altproqramı üzrə 1700-ə yaxın gənc könüllü Agentliyin inkişafına dəstək vermişdir [7].

Prezident İlham Əliyevin Sədrlik etdiyi, ölkənin siyasi qüvvəsi olan Yeni Azərbaycan Partiyasının (YAP) fəaliyyətində də gəcnlər siyasəti önəmli yer tutur. Partiyanın Gənclər Birliyi istedadlı, cəmiyyətə və dövlətə yararlı olmaq istəyən gəncləri öz ətrafında sıx birləşdirməklə bərabər, yeni nəslin müxtəlif aspektlərdəki inkişafı, vətənpərvərlik ruhunun yüksəldilməsi, insaniyyətin, mənəvi dəyərlərin ən gözəl çəkildə üzə çıxarılması, gənclərin aktiv ictimai fəaliyyətə cəlb olunması lazımdır. Partiyanın rəhbər tutduğu azərbaycançılıq ideologiyasının prinsipləri əsasında Azərbaycan gəncləri arasında Vətənə sevgi, ölkə sərhədlərindən kənarda Azərbaycanı layiqincə təmsil etmək, milli-mənəvi dəyərlərimizi qorumaq təbliğ olunur. YAP Gənclər Birliyinin 2007-ci ildən başlayaraq həyata keçirdiyi "Yay məktəbləri" layihəsi çərçivəsində təşkil olunan seminar-konfranslar layihədə iştirak edən minlərlə gəncin bilik səviyyəsinin yüksəldilməsinə, liderlik keyfiyyətlərinin formalaşdırılmasına xidmət edir. YAP həm də gənclərin seçkilərdə və digər ölkə əhəmiyyətli proseslərdə fəal iştirakını təmin etmək üçün seçkiqabağı dövrlərdə çoxsaylı tədbirlər keçirir. Bu bir həqiqətdir ki, Azərbaycan gəncləri Ümummilli liderin əsasını qoyduğu inkişaf strategiyasını və onu uğurla həyata keçirən Prezident İlham Əliyevin siyasətini dəstəkləyir. Təsadüfi deyil ki, hər il Yeni Azərbaycan Partiyasının sıralarına daxil olan minlərlə vətəndaşın böyük hissəsi gənclərdən ibarətdir.

Son 30 illik bir tarix dönəmində aparılan gənclər siyasətinin ön sıralarında vətənpərvərliyin inkişafı dayanır. İstər Ulu Öndərin, istərsə də siyasi kurs davamçısı İlham Əliyev cənablarının nitqlərində gənclərə müraciət, bu müraciətin fonunda isə vətənpərvərlik və milli-mənəvi dəyərlər dayanır. 2003-cü ildən bəri bütün çıxışlarında daim gənclərə xitab edən Prezident İlham Əliyev onları Ana Vətəni sevməyə, torpaqlarımızı qorumağa səsləmişdir. Digər tərəfdən, dövlətimizin başçısı öz şəxsi nümunəsi ilə gənclərə örnək olmuş, Vətənə necə xidmət göstərməyin nümunəvi modelini təqdim etmişdir. Milli maraqlarımızın qorunması dövlət strategiyasının ana xəttini təşkil edir. Prezident İlham Əliyev son 17 ildə ölkəmizin ərazi bütövlüyünün təmin olunması üçün ardıcıl səylər göstərmiş, bu məsələdə ona göstərilən bütün təzyiqləri qətiyyətlə dəf etmiş, gənclərimizi düşmən qarşısında sipər kimi dayanmağa səsləmişdir. Bütün gənclər cənab Ali Baş Komandanın bir əmri ilə səfərbər olmuşlar. Gənclərimiz də dövlət başçısının fəaliyyətini və çağırışlarını özləri üçün həyat devizinə çevirmişlər. 2020-ci il sentyabrın 27-dən noyabrın 10-dək davam edən Vətən müharibəsi onu göstərdi ki, Azərbaycan gənclərində vətənpərvərlik hissləri ön plandadır.

Müzəffər Ali Baş Komandan İlham Əliyevin göstərişi ilə əks-hücum əməliyyatlarına başlayan Silahlı Qüvvələrimiz bütün döyüş tapşırıqlarını yüksək səviyyədə yerinə yetirdi. Vətən müharibəsinin elə ilk günlərindən Azərbaycan Ordusu döyüş meydanında düşmənə sarsıdıcı zərbələr endirərək üstünlüyü ələ almışdır. Qısa müddətdə ordumuz 300-dək kəndi, Cəbrayıl, Füzuli, Zəngilan, Qubadlı, Şuşa şəhərlərini, çoxlu sayda strateji yüksəklikləri bilavasitə döyüş meydanında geri qaytardı. Noyabrın 8-də Şuşanın xüsusi əməliyyatla işğaldan azad edilməsi ilə müharibənin taleyində böyük rol oynamışdır.

44 günlük müharibə başlayanda gənclərin könüllü şəkildə orduya yazılmaq üçün növbəyə durmaları bunun bariz nümunəsidir. İkinci Qrabağ Müharibəsi iştirakçılarının böyük əksəriyyəti respublikamızda son 17 ildə formalaşan sağlam ruhlu, möhkəm əqidəli gəncliyi təşkil edir. Uğurlu gənclər siyasəti ölkəmizdə Vətənə, torpağa möhkəm tellərlə bağlı olan gənclər ordusunun formalaşması ilə nəticələnmişdir.

Gənclər bu gün dövlət orqanlarında, parlamentdə, bələdiyyələrdə, biznes strukturlarında, beynəlxalq tədbirlərdə yüksək mövqelər tuturlar, həmçinin fəal təmsil olunurlar. İstedadlı gənclər cəmiyyətin inkişafına öz töhfələrini verməkdədirlər. “2008-2011-ci illərdə dövlət orqanlarına işə qəbul edilənlərin 60 faizdən çoxunu gənclər təşkil etmişdir” [1,1].

Buradan belə nəticəyə gəldik ki, gənclərimiz müasir dövrdə ölkənin müxtəlif sferalarında çalışırlar. Dövlətin qayğısı nəticəsində gənclər inkişaf edə, böyük məmnunluq hissi ilə öz bilik və bacarıqlarını nümayiş etdirə bilirlər.

***Ədəbiyyat***

1. *Bədəlov Əliqismət. Prezident İlham Əliyev: Gənclər siyasəti öz müstəqilliyini 23 il əvvəl bərpa etmiş Azərbaycan dövlətinin fəaliyyətində prioritet istiqamətlərdəndir. "Xalq qəzeti".-2024.-6 noyabr.-N 242.-s.1.*
2. *Rasimoğlu Anar. Prezident İlham Əliyevin rəhbərliyi altında aparılan uğurlu gənclər siyasəti yeni inkişaf mərhələsinə qədəm qoyub. Azərbaycan.- 2009.- 12 iyun.- s. 5.*
3. *Zamanov Asəf. Heydər Əliyev və intellektual potensialın inkişaf dinamikası.// "Heydər Əliyevin siyasi irsi və Azərbaycançılıq" konfransın materialları.*
4. *Ağaşahqızı Yaqut. Prezident İlham Əliyev - Gənclərimizin ən böyük himayəçisi və dəstəkçisi. https://ikisahil.az/post/185802-prezident-ilham-eliyev-genclerimizin-en-boyuk-himayechisi-ve-destekchisi.*
5. *Azərbaycan Respublikasında 2020-ci ilin "Könüllülər ili" elan edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı // https://president.az/az/articles/view/35533*
6. *İlham Əliyev Azərbaycan Gəncləri Gününün 25 illiyinə həsr olunmuş Gənclər Forumunda iştirak edib //https://president.az/az/articles/view/55348*
7. *https://dost.gov.az/*

**Z.K.Həsənli**
**Azərbaycan Dövlət Pedaqoji Universiteti**
***hasanlizulfiyye@gmail.com***

# PALLİATİV XİDMƏT SAHƏSİNDƏ SOSİAL İŞÇİLƏRİN HAZIRLIĞININ BEYNƏLXALQ TƏCRÜBƏSİ

***Xülasə***

*Məqalədə palliativ xidmət sahəsinin əhəmiyyəti, onun tarixçəsi, hospis xidməti ilə əlaqəsi öz əksini tapmışıdır. Həmçinin sosial işçilərin palliativ xidmətdə yeri və rolu da qeyd olunmuşdur. Sosial işçilərin palliativ xidmət sahəsində mütəxəssisə çevrilməsində təhsil başlıca rol oynayır. Bu qayğıdan ölkələrin sosial iş sahəsində həyata keçirdiyi təhsil siyasəti bir-birindən fərqlənir. Sosial işçilərin palliativ xidmət sosial işçisi olmağı üçün bu sahə ilə bağlı müxtəlif konfranslara, təlimlərə qoşulması və NASW tərəfindən sertifikatlar əldə etməsi daha çox əhəmiyyət kəsb edir.*

# МЕЖДУНАРОДНАЯ ПРАКТИКА ПОДГОТОВКИ СОЦИАЛЬНЫХ РАБОТНИКОВ В ОБЛАСТИ ПАЛЛИАТИВНОЙ ПОМОЩИ

***Резюме***

*В статье отражено значение области паллиативной помощи, ее история и связь с хосписной службой. Также было упомянуто место и роль социальных работников в паллиативной помощи. Образование играет ключевую роль в том, чтобы помочь социальным работникам стать специалистами в области паллиативной помощи. С этой точки зрения образовательная политика стран в сфере социальной работы отличается друг от друга. Чтобы стать социальным работником паллиативной помощи, социальным работникам более важно посещать различные конференции, тренинги и получать сертификаты НАНВ в этой области.*

# INTERNATIONAL PRACTICE OF THE TRAINING OF SOCIAL WORKERS IN THE FIELD OF PALLIATIVE CARE

***Summary***

*The importance of the field of palliative care, its history, and its connection with the hospice service are reflected in the article. The place and role of social workers in palliative care was also mentioned. Education plays a key role in helping social workers become specialists in the field of palliative care. From this point of view, the educational policies of countries in the field of social work differ from each other. In order to become a palliative care social worker, it is more important for*

*social workers to attend various conferences, trainings and obtain certifications from the NASW in this field.*

***Açar sözlər:*** *hospis xidməti, palliative xidmət, sosial işçi, ömür sonu qayğısı, sosial iş təhsili*
***Ключевые слова:*** *хосписная помощь, паллиативная помощь, социальный работник, уход в конце жизни, обучение социальной работе*
***Key words:*** *hospice care, palliative care, social worker, end-of-life care, social work education*

Sosial işçilər işlədikləri hər şəraitdə həyati təhlükəsi olan şəxslərlə qarşılaşır və onların rifahının yaxşılaşdırılması üçün lazımi tədbirləri həyata keçirirlər. Bu cür tədbirlərdən biri də ömrünün sonuna az müddət qalmış şəxslərə göstərilən palliativ qayğıdır. Palliativ qayğının göstərilməsi üçün isə ilkin növbədə sosial işçilərə "Palliativ və Ömür Sonu Qayğısı Sertifikatı" təqdim olunmalıdır. Sertifikat sosial işçilərə palliativ qayğıda klinik və liderlik bacarıqlarını dərinləşdirmək, görkəmli liderlər qrupu ilə həmkarlar cəmiyyətində, əlaqəli öyrənmə yollarında iştirak etmək imkanı verir. Müasir dövrdə palliativ qayğıya ehtiyacı olan fərdlərin və onların ailələrinin sayı günü-gündən artır. Belə bir nüansda maraqlı bir sual ortaya çıxır: Palliativ xidmət və yaxud qayğı nədir və nə üçün insanların bu qayğıya ehtiyacı vardır? [10]

Bəşəriyyət tarix boyu ölüm və ölüm sonrası ilə bağlı araşdırmalar aparsa də, ölüm müddətinə son dönəmlərdə daha çox diqqət edilməyə başlanılmışdır. Dini qurumlar illər boyu xüsusilə yoxsullar və kimsəsizlərə ömür sonu qayğısı göstərən əsas mərkəzlərdən olmuşdur. Orta əsrlərdə əsasən bu anlayış səyahət edən şəxslər üçün müdafiə rolunu oynayan sığınacaqları ifadə etmək məqsədi ilə istifadə olunurdu. Lakin zaman keçdikcə bu ifadə öz yerini palliativ qayğı ilə əvəz etməyə başladı və elmi ədəbiyyatlara palliativ qayğı-xidmət kimi daxil oldu [2, s.138]. "Palliativ" termini latın dilində olan "palliare" sözündən götürülmüşdür, "örtmək" mənasını verir. Palliativ qayğı sağalmayan xəstəliklərin özünü büruzə verən simptomlarını bir növ örtür, pasiyentin son aylarına və günlərinə rəng qatır [7, s.97]. Müasir dövrdə palliativ qayğının inkişafı Dame Cicely Saundersin adı ilə bağlı olmuşdur. Onun cəsarəti və məsuliyyətliliyi sayəsində bu sahə zaman keçdikcə özünəməxsusluluğu ilə seçilməyə başlamışdır.

Palliativ xidmətə Dünya Səhiyyə Təşkilatı tərəfindən ilk olaraq 1989-cu ildə tərif verilmişdir: "Palliativ xidmət ağrı və digər fiziki, psixo-sosial və mənəvi problemlərin erkən aşkar edilməsi, düzgün qiymətləndirilməsi və müalicəsi vasitəsilə əzab-əziyyətin qarşısının alınması və yüngülləşdirilməsi ilə həyat üçün təhlükəli olan xəstəliklə bağlı problemlərlə üzləşən xəstələrin və onların ailələrinin həyat keyfiyyətini yaxşılaşdıran bir yanaşmadır" [6, s.4]. Bu tərifə 2014-cü ildə "Palliativ xidmət bütün həkimlərin vicdani məsuliyyətidir"

ifadəsi əlavə olunmuş və palliativ xidmətin önəminə diqqət çəkilmişdir. Bənzər şəkildə xəstə yaxınlarının bu müddətdə və yas dönəmində psixoloji, sosial, mənəvi və maddi istiqamətdə dəstəklənməsi də palliativ xidmətin tərifinə daxil edilmişdir [4, s.9].

Dünyada müxtəlif palliativ xidmət modelləri mövcuddur. Bu modellər əsasən xəstəxanalarda, qocalar evində, eləcə də ixtisaslaşmış müəssisələrdə-hospislərdə tətbiq olunur. Hal-hazırda dünya təcrübəsində ən çox istifadə olunan hospis və palliativ xidmət modelləri bunlardır: palliativ şöbələr, evlərdə palliativ xidmətlər, hospis-stasionar, palliativ yardım və məsləhət komandoları [14].

Bəzi hallarda palliativ xidmətlə hospis xidmətini eyniləşdirirlər. Lakin bu doğru addım deyildir. Hospis xidməti palliativ xidmətin bir parçası olsa da, üst-üstə düşən incə fərqlər də mövcuddur. Palliativ qayğı ciddi bir xəstəliyin diaqnoz müddəti ilə eyni zamanda başlayır və sağaldıcı müalicələrlə birlikdə həyata keçirilir. Bu proses hətta ölüm sonrası ailələrin yas dönəmində həyata keçirilən dəstəkləyici qayğısına qədər davam da edir [9, s.138].




**Şəkil 1. Palliativ xidmət müddəti [2, s.137].**

Şəkil 1-ə əsasən hospis xidmətinin palliativ xidmətin bir parçası olduğunu qeyd etmək olar. Xüsusilə səhiyyə sistemlərində xəstənin bütün ehtiyaclarını nəzərə alan ölkələrdə palliativ xidmət və hospis bir-birindən ayrı düşünülmür və birlikdə istifadə olunur. Palliativ qayğı yaşamı uzadan xidmətlər göstərməklə yanaşı, xəstəliyin özünü büruzə verən simptomlarını da idarə etməyə çalışır. Hospis xidməti isə yaşamı uzadan müalicəvi tədbirləri dayandırmağı seçən və ömrünün sonuna yaxınlaşan xəstələrə, onların ailələrinə

son günlərini ağrı və acısız keçirməsi üçün nəzərdə tutulan qayğı xidmətləri kimi çıxış edir [9, s.139].

Müasir dövrdə palliativ xidmətlərin inkişaf etdirilməsinə çox böyük ehtiyac vardır. Palliativ qayğının inkişaf etdirilməsi, qayğının keyfiyyətinin artırılmasında təhsil xüsusi önəm daşıyır. Palliativ xidmət üzrə təhsilin keçmişi inkişaf etmiş ölkələrdə 1970-80-ci illərə dayanmaqdadır. Son dönəmlərdə palliativ xidmət təhsili akademik qurumlarda, dərnəklərdə başlanğıc, orta və yüksək səviyyə təhsil proqramı olaraq təqdim edilir. Təbii ki, bu inkişafın ən önəmli hissəsi isə palliativ xidmətin tibbdə qəbul olunan vacib sahələrdən biri olaraq mənimsənilməsi və fakültələrdə palliativ xidmətin təhsil kurikulumunda yer almasıdır [4, s.11].

Palliativ qayğı bir qrup işidir. Bu qrup içərisində tibb bacısı, həkim, fizioterapevt, din xadimi, farmakolog, psixoloq, sosial işçi kimi müxtəlif mütəxəssislər iştirak etməkdədir. Palliativ xidmətlərin həyata keçirilməsində sosial işçilərin xüsusi rolu vardır. Sosial işçilərin bu sahədə məlumatlı olması, öz bilik və bacarıqlarını inkişaf etdirməsi palliativ xidmətdən yararlanan xəstələrin onlara çətinlik törədən maneələri aşmasında köməkçi olur [3, s.101].

Brandsen palliativ qayğıda üç əsas sosial iş rolunu ayırd edirdi: sosial işçilər müştərilərə və onların ailə üzvlərinə psixososial yardım göstərir; onların qabaqcıl qayğı planlamasını təşviq edir; yas tutan ailə üzvləri üçün məsləhətlərin təşkil olunmasına nəzarət və əməl edir. Bu rolları yerinə yetirərkən sosial işçilər tərəfindən xüsusi palliativ qayğıya ehtiyacı olan həssas qruplara əlavə diqqət yetirirlər. Bununla belə onların imkanları çox vaxt peşəkar palliativ yardımın çatdırılmasında kifayət qədər istifadə olunmur [13].

Sosial işçilərin palliativ xidmət sahəsinə cəlb olunması, onların rolunun artırılması üçün yollar araşdırılmalı və buna uyğun olaraqda ilkin şərtlər müəyyən edilməlidir. Bu isə peşəkar palliativ yardımın çatdırılmasında sosial işin imkanlarını optimallaşdırmaq məqsədi daşıyan müdaxilələrin gələcək inkişafı üçün vacibdir [13].

Elmi ədəbiyyatlarda sosial işçilərin səriştəsini və palliativ xidmətə inamını artırmaq üçün iki yol tövsiyə olunur. Birinci yol sosial iş kurikulumlarında palliativ qayğı məzmununu təkmilləşdirməkdir. Bir çox müəllif sosial iş kurikulumlarına ən azı ümumi palliativ qayğı məzmununun daxil edilməsini xüsusi olaraq təklif etmişdirlər [13].

İkinci yol isə sosial işçilər davamlı təhsil imkanlarını inkişaf etdirməkdir. Davamlı təhsil üçün üstünlük verilən formatlar yerli və ya regional konfrans və seminarlarda və ya onlayn kurslarda iştirakdır [13].

Sosial işçilərin palliativ qayğı sahəsində xidmət göstərməsi üçün sosial iş üzrə bakalavr və ya magistr dərəcələri olmalıdır. Bu da müvafiq sahə üzrə əldə etdikləri diplom və yaxud sertifikat ilə onlara müxtəlif şəraitlərdə geniş insan auditoriyası ilə işləməyə imkan verir. Palliativ və ya hospis sahəsi üzrə

mütəxəssisə çevrilmək istəyən hər bir sosial işçi əldə etdiyi dərəcə sonrası təcrübə və praktika vasitəsilə bu istiqamətdə xüsusi təlim keçirlər. Əlavə akademik kurs işləri və davamlı təhsil imkanları onlara öz biliklərini daha da artırmaq üçün yollar təqdim edir. Onlar özlərini akademik, peşəkar və emosional olaraq xəstələrə qayğı göstərməyin mürəkkəbliyinə hazırlayırlar.

Sosial iş sahəsi ilə bağlı təhsil siyasəti hər bir ölkədə özünəməxsus şəkildə təşkil olunur. Dünyada peşəkar sosial işçilər hazırlayan bir neçə min ali sosial iş məktəblərinə və ixtisaslaşdırılmış universitet şöbələrinə rast gəlmək mümkündür. Bu təhsil siyasətlərinə bir neçə ölkənin nümunəsində baxa bilərik.

Almaniyada universitetlərin tərkibində həyata keçirilən sosial iş təhsili bu sahə üzrə dərinləşdirilmiş biliyə malik mütəxəssislər yetişdirir. 4 illik bakalavr təhsilindən əlavə 2 illik magistratura təhsili tələbəni sosial işin müxtəlif qolları üzrə ixtisaslaşmasına səbəb olur. Təlim proqramlarına qoşularaq isə sosial işçilər ixtisaslaşmaq istədiyi sahə üzrə ehtiyac olunan mütəxəssisə çevrilirlər [8, s.9].

Kanada və Amerika da sosial iş təhsilinin inkişaf tarixi demək olar ki, Almaniyadakı ilə bənzərdir. Həm Amerikada, həm də Kanada da sosial iş təhsili iki anlayışa - “sosial diaqnoz”, “sosial islahatlar” anlayışlarına əsaslanaraq formalaşmışdır. Kanadada müəllim-mentor gələcək sosial işçilərin praktiki hazırlığında əsas fiqurlardan biridir. Məsələn, Toronto universiteti sosial iş üzrə ixtisaslaşdırılmış mütəxəssislərin hazırlanması üçün müəllim-mentorların inkişafına və onların seçilməsinə daha çox diqqət yetirir [8, s.10].

Amerika sosial iş ixtisası üzrə təhsil verən ali məktəblərdə əsas diqqət nəzəri təlimdən çox praktiki təlimə yönəlir. Bu isə tələbənin əldə etdiyi bilikləri peşəkar fəaliyyətdə praktik şəkildə tətbiq etməsinə kömək edir. 4 illik bakalavr və iki illik magistratura təhsili müddətində tələbələr sosial iş üzrə ixtisaslaşmış kadrlara çevrilmiş olurlar [8, s.10].

Böyük Britaniyada sosial iş təhsili Amerika, Kanada kimi ölkələrdən fərqli aktiv öyrənmə ilə əlaqəli tənqidi düşüncə təməlinə dayanmaqdadır. Əsasən universitetlərdə və kolleclərdə sosial iş üzrə xüsusi təlimlər həyata keçirilir. Nəzəri təlimlərə praktiki təlimlərdən daha çox üstünlük verilir. Tələbələrin praktiki təcrübəsi agentliklərdə və kurslarda həyata keçirilir. Agentliklər sosial iş tələbələrinin hazırlanmasında önəmli rol oynayır [8, s.11].

Ölkələrdə sosial işlə əlaqəli qeyd olunan bu təhsil siyasəti tələbələrin gələcəkdə sosial iş sahəsi üzrə ixtisaslaşmış bir mütəxəssisə çevrilməsində önəmli rol oynayır. Təbii ki, bu mütəxəssislərdə sosial işin müxtəlif istiqamətlərində, o cümlədən, palliativ qayğı sahəsində əldə etdikləri təcrübələrə əsasən köməyə ehtiyacı olan insanlarla işləyirlər.

Palliativ qayğıda sosial işçilərin rolunun artırılması istiqamətində həyata keçirilən davamlı təhsil imkanlardan birini də təlim proqramları, palliativ xidmətlə bağlı kurslar təşkil edir. Təlim proqramları, kurslar sosial

işçiləri palliativ qayğı sahəsinin məzmunu ilə dərindən tanış edir, onların bu sahədəki bilik və bacarıqlarının inkişaf etdirilməsində önəmli rol oynayır.

"Sosial İşçilərin Palliativ və Ömrünün Sonu Baxımında Təhsil Verilməsi" (ESPEC) sosial işçilərin ilkin palliativ qayğı bacarıqlarının klinik praktikaya inteqrasiyasının təşviqi üçün nəzərdə tutulmuş innovativ təlim proqramıdır. ESPEC proqramı MJHS Palliativ Baxımda İnnovasiya İnstitutu, Sosial İşçilərin Milli Assosiasiyası (NASW) və Sosial İş Hospisi və Palliativ Baxım Şəbəkəsi (SWHPN) arasında tərəfdaşlıq kimi hazırlanmışdır [12].

ESPEC palliativ qayğının səkkiz sahəsini çərçivə kimi istifadə edərək ən yaxşı sosial iş təcrübələrini vurğulayan, xəstə və ailə görüşlərinin cəlbedici videoları ilə interaktiv kurs işini təmin edən ən müasir kurikulumdur [12]. ESPEC beynəlxalq təlimi dünyanın müxtəlif ölkələrindən sosial işçilərin bu kursa qoşulmasına və palliativ qayğı ilə bağlı biliklər, bacarıqlar əldə etməsinə köməkçi olur.

Universitetlər tərəfindən də palliativ sahə üzrə sosial işçilərin yetişməsi üçün müxtəlif onlayın təlim proqramları irəli sürülür. Məsələn, Fordham Universitetinin ən yüksək səviyyəli sosial iş məktəbi tələbələri əhalinin müxtəlif kateqoriyaları ilə işləmək üçün təcrübəyə hazırlayan onlayn MSW proqramı təklif edir. Proqramın məzunları stasionar palliativ yardım qruplarında, hospisdə, onkologiya və pediatriyada işləyirlər. Capella universiteti isə tələbələrin klinik bacarıqlarını inkişaf etdirmək məqsədi ilə magistratura və bakalavriat səviyyəsində onlayn təlim proqramları təklif edir. Bu təlim proqramının da əsas əhəmiyyəti sosial işçiləri müxtəlif sahələrdə, xüsusilə, palliativ xidmət sahəsində ixtisaslaşmış bir mütəxəssisə çevirməkdir [15].

Virginia Commonwealt Universitetinin MSW onlayn proqramı sosial işçilərin bilik və bacarıqlarının təkmilləşdirilməsində və gücləndirilməsində mühüm rol oynayan təlim proqramıdır. Proqram sosial işçiləri palliativ qayğı sahəsində fəaliyyət göstərməyə də hazırlayır [17].

Qeyd edilən universitetlərdən əlavə olaraq Simmons Universiteti, Howard Universiteti, Denver Universiteti tərəfindən də onlayn təlim proqramları təşkil olunur.

Palliativ qayğı sahəsində sosial işçilərin rolunu artıran digər bir nüans isə sertifikatlardır. Milli Hospis və Palliativ Baxım Təşkilatın dəstəyi ilə 2008-ci ildə The Advanced Certified Hospice and Palliative Social Worker magistratura səviyəsindəki sosial işçilər üçün nəzərdə tutularaq yaradılmışdır. Bu sertifikat sosial işçilərin palliativ qayğı və sosial iş sahəsindəki bilik və bacarıqlarını özündə ehtiva edərək, onların gələcəkdə bu sahə üzrə çalışmasına önəmli töhvələr verir [16].

Sosial işçilərin palliativ xidmət sahəsində çalışmasında əldə olunan sertifikatların güclü təsiri vardır. Certified Hospice and Palliative Social

Worker bakalavr dərəcəsi olan sosial işçilərə, Advanced Certified Hospice and Palliative Social Worker magistr dərəcəsi olan social işçilərə Sosial İşçilərin Milli Assosasiyası tərəfindən, Advanced Palliative Care Social Worker Certified isə həm bakalavr, həm də magistr dərəcəsi olan sosial işçilərə Sosial İş Hospisi və Palliativ Baxım Şəbəkələri tərəfindən sertifikatlardır. Bu sertifikatlar sosial işçilərin palliativ qayğı sahəsində ixtisaslaşmasının ən böyük sübutudur [11].

Palliativ qayğı və hospis xidmətləri Azərbaycan üçün yeni anlayışlardandır. Azərbaycanda palliativ qayğı və hospis xidmətləri olmasa da, onların yaradılması və inkişaf etdirilməsi ilə bağlı müəyyən addımlar atılmışdır. İlk addım hələ 2007-2010-cu illərdə Açıq Cəmiyyət İnstitutunun dəstəyi ilə edilmişdir. Məhz bu dəstəyin nəticəsində Səhiyyə Nazirliyinin İctimai Səhiyyə və İslahatlar Mərkəzi tərəfindən palliativ qayğı sisteminin inkişaf etdirilməsi ilə əlaqədar işçi qrupu yaradılmışdır. Bu işçi qrupu palliativ qayğı ilə bağlı görüşlərin keçirilməsində və dəyirmi masaların təşkil olunmasında əhəmiyyətli rol oynamışdır [1, s.3].

Səhiyyə Nazirliyi tərəfindən palliativ qayğı ilə bağlı Azərbaycan Respublikasının müxtəlif bölgələrində (Bakı, Sumqayıt, Quba, Şəki, lənkəran, Gəncə, Göyçay, Şirvan) tədqiqat keçirilmişdir. Tədqiqatın məqsədi əsasən Azərbaycanda palliativ qayğı xidmətlərinin planlaşdırılması və təmin edilməsi ilə bağlı bazanın toplanması olub. Tədqiqat həmçinin palliativ qayğı xidmətlərinin inkişafının qarşısında duran maneələri, bu sahənin inkişafı ilə bağlı tibb işçilərinin yanaşmasını, xidmətə ehtiyacı olan xəstələrin və onların ailə üzvlərinin psixoloji, tibbi, sosial ehtiyaclarını öyrənməyə istiqamətlənmişdir [5, s.22].

Azərbaycanda bu xidmət sahəsinin inkişafında əsas maneə olan amillərə ölüm ilə bağlı düşüncələr, dini inanclar, insanların ağır və sağalmaz xəstəliyi olan şəxslərə yanaşması daxildir. Bu maneələrin aradan qaldırılmasındakı çətinliklər palliativ xidmətlə bağlı qanunların, qərarların qəbul edilməsinə, təhsil sistemində bu xidmətlərə yer verilməsinə əngəl yaradır [5, s.22].

Bəs bu xidmətlər təmin edilməsi üçün hansı tədbirlər görülməlidir? İlk növbədə Milli Palliativ Qayğı və Hospis üzrə İşçi Qrupu yaradılmalı, maliyyə yardımı təşkil olunmalı, universitetlərdə bu xidmət sahəsi ilə bağlı fənlərin keçirilməsinə üstünlük verilməli (xüsusilə sosial iş ixtisası üzrə) xidmətlərin göstərilməsi ilə bağlı müəssisələr yaradılmalı, dərmanlara olan ehtiyac yüksək səviyyədə ödənilməlidir [5, s.23].

Belə bir nəticəyə gəlmək olar ki, palliativ qayğı xidmətləri elm aləminə yeni daxil olunmuş bir sahə olsa da, onun inkişafına, bu sahənin məzmununun açılmasına böyük ehtiyac vardır.

***Ədəbiyyat***

1. *C.Məmmədov, N.Seyidov, S.Babazadə, T.Musayev, L.Qafarov "Azərbaycandan kənarda palliativ qayğı və hospis xidmətləri" Eurasian Journal of Clinical Sciences Cild 1, Seriya 4 (2018); s.1-8*
2. *Canan Sertdemir Batbaş, Burkay Yakar, Edibe Pirinçci "Palyatif Bakım ve Hospis" Sürekli Tıp Eğitim Dergisi Cilt 30, Sayı 2 (2021); s.136-143*
3. *Hüsna Özveren, Kamile Kırca, Emel Gülnar, Nebahat Bora Güneş "Palyatif Bakım Dersinin Öğrencilerin Palyatif Bakıma İlişkin Bilgisine Etkisi" JAREN Cild 4, Sayı 2 (2018); s.100-107*
4. *Kevser Gürsan, Bahar Erdoğan "Palyatif Bakımda Temel Uygulamalar Ve Rehabilitasyon" İKSAD (2022); s.128*
5. *Oleq Çestnov "Azərbaycanda Palliativ Qayğı Xidmətlərinin Yaradılmasında İmkanlar Və Çətinliklərin Öyrənilməsi və Potensial Xidmətlərin Xəritələşdirilməsi Üzrə Tədqiqat" Hesabat, Bakı (2017); s.1-44*
6. *"Palliativ Yardıma Ehtiyacı Olan Xəstələrə Ev Şəraitində Qayğının Göstərilməsinə Dair" Təlimat, İctimai Səhiyyə Və İslahatlar Mərkəzi, Bakı-2020; s. 1-65*
7. *R.O.Məmmədova "İctimai Münasibətlər Sistemində Sağlamlıq İmkanları Məhdud olan Şəxslərə Göstərilən Qulluq Və Palliativ Yardım" Sosial-siyasi elmlər seriyası Seriya 1 (2019); s. 95-101*
8. *Sibel Uysal "Sosyal Hizmet Eğitim ve Mesleğinin Geleceğine Dair Akademisyenler, Sosyal Çalışmacılar, Öğrenciler Ve Mezunların Görüş Ve Önerilerinin İncelenmesi" tezi İstanbul (2019); s.1-107*
9. *Yasemin Çölgeçen, Merve Güney Aslan "Palyatif Ve Hospis Bakımın Türkiye Açısından Değerlendirilmesi" Tıbbi Sosyal Hizmet Dergisi Sayı 20 (2022); s. 134-155*
10. *https://ssw.smith.edu/professional-education/graduate-certificates/palliative-end-of-life-care*
11. *https://www.indeed.com/career-advice/finding-a-job/how-to-become-palliative-care-social-worker*
12. *https://www.socialworkers.org/espec*
13. *https://www.ncbi.nlm.nih.gov/pmc/articles/PMC8637690/*
14. *https://palliativyardim.az/az/blog/21/palliativ-yardimin-teskilati-formalari*
15. *https://www.socialworkers.org/careers/credentials-certifications/apply-for-nasw-social-work-credentials/advanced-certified-hospice-and-palliative-social-worker*
16. *https://www.socialworklicensure.org/types-of-social-workers/palliative-hospice-social-workers/*
17. *https://onlinesocialwork.vcu.edu/blog/palliative-care-social-workers/*

**V.T.Fətullayev**
**Azərbaycan Dövlət Pedaqoji Universiteti**
***vagiffatullayev@gmail.com***

# ÜMUMTƏHSİL MÜƏSSİSƏLƏRİNDƏ STRATEJİ İDARƏETMƏNİN PLANLAŞDIRILMASININ ƏHƏMİYYƏTİ

***Xülasə***

*Bu məqalənin məqsədi Azərbaycan məktəblərində strateji idarəetmənin planlaşdırılmasının vacibliyini dünya təcrübəsi ilə əsaslandırmaq və ümumtəhsil müəssisələrində bu mexanizmin həyata keçirilməsinə dəstək verməklə yanaşı, ümumtəhsil müəssisələrində strateji idarəetmənin planlaşdırılması və reallaşdırılmasının əhəmiyyətini vurğulamaqdır. Məqalənin əsasını Azərbaycan Respublikasının təhsil sahəsi ilə bağlı qanunvericilik bazası, müasir təhsil idarəetməsinə verilən tələblər, təhsilin nəzəri əsaslar və təhsil idarəetməsində dünya təcrübəsinin öyrənilməsi təşkil edir. Həmçinin məqalə Azərbaycanda məktəblərin idarə olunmasında strateji idarəetmənin planlaşdırılması mexanizminin yaradılması təşəbbüsü ilə çıxış edərək onun mahiyyətini təhsil ictimaiyyətinə çatdırır.*

# ВАЖНОСТЬ СТРАТЕГИЧЕСКОГО ПЛАНИРОВАНИЯ УПРАВЛЕНИЯ В ШКОЛАХ

***Резюме***

*Цель данной статьи – обосновать важность планирования стратегического управления в азербайджанских школах мировым опытом и поддержать внедрение этого механизма в школах, а также подчеркнуть важность планирования и реализации стратегического управления. В основу статьи легла законодательная база, связанная с сферой образования Азербайджанской Республики, требования к современному управлению образованием, теоретические основы образования и изучение мирового опыта управления образованием. Также в статье выдвинута инициатива создания механизма стратегического управленческого планирования в управлении школами Азербайджана и донесена его суть до образовательного сообщества.*

# THE IMPORTANCE OF STRATEGIC MANAGEMENT PLANNING IN SCHOOLS

***Summary***

*The purpose of this article is to justify the importance of strategic management planning in Azerbaijani schools with world experience and to support the implementation of this mechanism at schools, as well as to emphasize the importance of strategic management planning and implementation. The basis of the article is the legislative framework related to the field of education of the Republic of Azerbaijan,*

*the requirements for modern education management, the theoretical foundations of education and the study of world experience in education management. Also, the article takes the initiative of creating a strategic management planning mechanism in the management of schools in Azerbaijan and conveys its essence to the educational community.*

***Açar sözlər:*** *strateji plan, məktəb idarəetməsi, strategiya, strateji idarəetmə*
***Ключевые слова:*** *стратегический план, управление школой, стратегия, стратегический менеджмент*
***Key words:*** *strategic plan, school management, strategy, strategic management*

Təhsilin keyfiyyətinin təmin olunması və nailiyyətlərin əldə edilməsi bilavasitə müasir idarəetmə modellərinin tətbiqindən asılıdır. Strateji planlaşdırma təhsilin keyfiyyətinin yüksəldilməsində müstəsna əhəmiyyətə malikdir. Bu baxımdan müasir dövrdə strateji planlaşdırma idarəetmə sistemində başlıca tələblərdən biridir.

Strateji idarəetmə rəhbərlərin öz müəssisələrinin strategiyalarının inkişaf etdirilməsi istiqamətindəki məqsədyönümlü fəaliyyətləridir. Strategiya latın dilində "sərkərdənin məharəti" mənasına gələn subyektin məqsədinə çatması üçün əvvəlcədən planlaşdırılan fəaliyyət modeli hesab olunur [5].

Azərbaycanın ümumtəhsil müəssisələrinin bəzilərində strateji planlaşdırma ilə bağlı müəyyən təlimlərin və ya layihələrin keçirilməsinə baxmayaraq, bu istiqamətdə davamlı işlər hələlik həyata keçirilməməkdədir. Dövlət Statistika Komitəsindən alınan son məlumatlara əsasən 2022/2023-cü tədris ilinin əvvəlində Azərbaycan ərazisində dövlət və qeyri-dövlət olmaqla əyani ümumtəhsil müəssisələrinin ümumi sayı 4,431-dir. Bunlardan 4,399-u dövlət, 32-si isə özəl ümumtəhsil müəssisəsidir [3]. 2022/2023-cü tədris ilinin statistikasına əsasən ümumilikdə 1,704,868 şagird bu məktəblərdə təhsil alır. Bütün bunları nəzərə aldıqda, məktəblərdə strateji planlaşdırma fəaliyyətinin tətbiqi olduqca geniş miqyası əhatə etməlidir.

Strateji idarəetmə strategiyanın hazırlanması və reallaşdırılması üzrə bir müəssisənin fəaliyyətlərinin ardıcıllığını müəyyən edən prosesdir. Strateji idarəetmə özündə məqsədlərin qoyuluşunu, strategiyanın işlənib hazırlanmasını, lazımi resursların müəyyən olunmasını, vizyon və missiyanın müəyyən olunmasını, həmçinin müəssisəyə qarşıya qoyulmuş vəzifələrə nail olmağa imkan verən xaric mühitlə qarşılıqlı əlaqələrin saxlanılmasını özündə ehtiva edir [6].

Təhsil resurslarında strateji idarəetmə anlayışı ilk dəfə 1984-cü ildə istifadə olunmağa başlanmışdı. ABŞ-ın müxtəlif ştatlarında 1987-ci ilə qədər artıq 500-ə yaxın məktəb strateji planlaşdırmanı tətbiq etməyə başlamışdı [10]. Strateji idarəetmənin məktəblərdə tətbiq olunmasının əsas məqsədi məktəblərin

idarə edilməsində şəffaflıq, hesabatlılıq və effektiv idarəetmə mexanizmlərini formalaşdıraraq təhsilin beynəlxalq standartlara uyğunlaşdırılmasını təmin etməkdir.

Məktəblərdə strateji planlaşdırmanın məqsədləri, əsasən, bunlardır [10]:

- Məktəblərin idarə olunmasında cavabdehlik və şəffaflığın təmin olunması;
- Hesabatlılıq və səmərəli idarəetmə kimi mexanizmləri formalaşdırmaq;
- Dövlət-cəmiyyət-vətəndaş əməkdaşlığına əsaslanan idarəetmə sistemini formalaşdırmaq;
- Təhsilin pillə və səviyyələrini beynəlxalq təcrübəyə uyğunlaşdırmaq;
- Maraqlı tərəflərin iştirakını təmin etməklə məktəbin dövlət-cəmiyyət-vətəndaş modelində idarə olunmasını təmin etmək;
- İdarəetmədə məlumat sistemləri və yeni hesabatlılıq modelini yaratmaq;
- Pedaqoji və inzibati heyətin müstəqil sertifikatlaşdırma mexanizmini yaratmaq;
- Pedaqoji və inzibati heyətin davamlı peşəkar inkişafını təmin etmək;
- Şagirdlərin nailiyyətlərinin monitorinqi və qiymətləndirmə mexanizmini daha da təkmilləşdirmək;
- Məktəbdə informasiya-kommunikasiya texnologiyalarına və təlim metodlarına uyğun təlim-tədris infrastrukturunun formalaşdırılmasına nail olmaq və s.

Məktəblərdə strateji planın hazırlanması aşağıdakı 3 sualı əhatə etməlidir [9]:

1) Məktəbimiz hal-hazırda haradadır?
2) 3, 5, 10 il sonra məktəb harada olmaq istəyir?
3) Bu hədəflərə necə çataq?

Strateji planın məqsədi rəhbərliyin məktəbin tutmasını istədiyi istiqaməti, məktəbə təsir edən problemləri müəyyən etməklə öz məktəblərini təkmilləşdirməkdir. Bütün məktəblərin strateji planı olmalıdır. Əks halda, məktəbin əsas maraqlı tərəfləri (valideynlər, şagirdlər, müəllimlər və cəmiyyət) məktəbin inkişafının hansı istiqamətdə getdiyini müəyyən edə bilmirlər [5].

Strateji planlaşdırma məktəbin təkmilləşdirilməsi üçün güclü bir vasitədir və məktəbin yenilənməsi, innovasiya və dəyişiklik üçün ardıcıl fəaliyyət planlaşdırma prosesinin mövcud olmasını təmin edir. Buna görə də, məktəblərdə strateji planlaşdırma dəyişiklik ortaya qoymağa və ya innovasiyaya təsir göstərməyə can atmalıdır. Beləliklə, bu proses məktəbin rəhbərliyi tərəfindən istiqamətlənməlidir. Strateji planlaşdırmaya laqeyd yanaşdıqda isə məktəblər düzgün fəaliyyət göstərə, inkişaf edə bilməz [8].

Strateji planlaşdırma vasitəsilə məktəb öz uzunmüddətli fəaliyyət istiqamətini müəyyən edə, müxtəlif təşəbbüsləri həyata keçirə, prosesin gedişatını izləyə və strategiyasını yeni şəraitə uyğunlaşdıra bilər [7].

Chukwumah (2015) tərəfindən həyata keçirilmiş tədqiqat sübut etmişdir ki, strateji planlaşdırma ilə idarə olunan məktəblər digər məktəblərə nisbətən həm şagirdlərinin akademik göstəriciləri, həm də digər göstəricilərdə daha yaxşı nailiyyətlərə sahib olur. Buna görə də, strateji planlaşdırma prosesi məktəbdə vacib elementdir və məktəb rəhbərlərinin öyrənməli olduğu strategiyalar, prioritetlər, hədəflər və resursların bölüşdürülməsi keyfiyyətin artırılmasına imkan yaradır.

Strateji planlaşdırma prosesi bir-biri ilə əlaqəli yeddi hissədən ibarətdir [2]:

- Təşkilatın qiymətləndirilməsi (GZİT (SWOT) analizi);
- Təşkilati missiyanın müəyyən edilməsi;
- Təşkilati fəlsəfə və siyasətin formulu;
- Strateji məqsədlərin müəyyən edilməsi;
- Təşkilatın strateji qətiyyətliliyi;
- Strategiyanın həyata keçirilməsi;
- Təşkilati strateji nəzarət.

Bu addımların ardıcıl həyata keçirilməsi strateji idarəetmə planının effektivliyi üçün vacib şərtdir.

Ümumtəhsil müəssisələrində strateji idarəetmə planının hazırlanmasında əsas addımların, vizyon və missiyanın müəyyən edilməsindən sonra əsas mərhələ strategiyanın tətbiqi və onun monitorinqinin aparılması mərhələsidir. Bu məqsədlə aşağıdakı prinsiplərə əsaslanan mexanizm qurmaq lazımdır: uyğunluq, səmərəli istifadə, effektivlik, təsirlilik, davamlılıq (Şəkil 1) [5].




**Şəkil 1.** Strateji planın monitorinqi üçün uyğunluq, səmərəlilik və effektivlik modeli.

Yekun olaraq belə nəticəyə gələ bilərik ki, strateji idarəetmə, məktəbin fəaliyyətlərinin hazırlanması, planlaşdırılması və reallaşdırılmasını müəyyən edən əhəmiyyətli bir proses olmaqla məktəbin inkişafına xidmət edir. Dünya təcrübəsində məktəblərdə strateji inkişaf planının hazırlanması keçən əsrə qədər gedib çıxmasına baxmayaraq, Azərbaycanda həm təhsil ictimaiyyəti, həm də məktəb rəhbərliyi üçün bu anlayış çox yenidir. Azərbaycan məktəblərinin bəzilərində direktorlar üçün məktəbin inkişaf planının yazılması istiqamətində müəyyən təlimlər, proqramlar həyata keçirilsə də, bu proses sistemli şəkildə və effektiv mexanizmə əsaslanan formada baş tutmur.

Məktəblərdə strateji planlaşdırma, rəhbərliyin məktəbin inkişafını və təkmilləşməsini təmin etmək məqsədi ilə aparılır. Bu prosesin əsas məqsədləri arasında şəffaflıq, hesabatlılıq, və effektiv idarəetmə mexanizmlərinin formalaşdırılması, təhsilin beynəlxalq standartlara uyğunlaşdırılması və dövlət-cəmiyyət-vətəndaş əməkdaşlığına əsaslanan idarəetmə sisteminin formalaşdırılması yer alır. Həmçinin strateji planlaşdırmanın tətbiqi, məktəblərin şagirdlərinin akademik və digər göstəricilərdə daha effektiv nailiyyətlər əldə etməsinə kömək edir.

Bütün bunlar onu deməyə əsas verir ki, strateji idarəetmə məktəblərin inkişafını tənzimləmək və təkmilləşdirmək üçün əhəmiyyətli bir alətdir. Bunun üçün qarşıda duran ilk məsələlərdən biri də məktəbləri idarə edəcək şəxslərə strateji idarəetmə və məktəb strategiyasının yazılması bacarıqları, həmçinin bu əsnada strategiyaya uyğun planlaşdırmanın aparılması bacarıqlarının aşılanmasıdır. Bundan əlavə, məktəblərin öz strategiyasının formalaşdırılması üçün müəyyən mexanizmlərin də yaradılmasına ehtiyac var. Bu proses, təhsilin standartlara uyğunlaşdırılmasını və məktəblərin müasir idarəetmə sistemlərinə uyğunlaşdırılmasını təmin etməkdə effektiv rol oynayır.

***Ədəbiyyat***

1. *Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi, Təhsil, elm və mədəniyyət https://www.stat.gov.az/source/education/.*
2. *Boseman, G and A. Phatak. (1989). Strategic Management, Text and Cases. Edition 2. John Wiley and Sons Incorporated: New York - USA.*
3. *Chang, G.C. (2008). Strategic planning in education: Some concepts and methods. International Institute for Educational Planning, 2-12.*
4. *Chukwumah, F.O. (2015). Developing quality strategic plan in secondary schools for successful school improvement. Journal of Education and Practice, 6(21), 136-144.*
5. *Çoşkun, R., & Əhmədov, F. (2023). Strateji idarəetmə: Dərslik.*
6. *İsmayılov, B.V. (2018). «Strateji menecment». Dərs vəsaiti. Bakı, «Təhsil», s.17.*

7. *Mahardhika, B.N., & Raharja, S. (2023). The importance of strategic planning with modern trends in education. Al-Ishlah, 15(2), 1807-1820.*
8. *Schlebusch, G. (2016). Strategic Planning as a management tool for school principals in rural schools in the Motheo District. International Journal of Educational Sciences, 13(03).*
9. *Wallace, R.E. (1986). Why strategic planning? The Journal of Information Systems Management, 3(2), 49-51.*
10. *https://www.kvalifikasiya.edu.az/modullar/mektebmeneceri*

**R.Q.Ələmzadə**
**Azərbaycan Dövlət Pedaqoji Universiteti**
***rufana.alamzada@gmail.com***

# MƏKTƏBDAXİLİ İDARƏETMƏDƏ MÜASİR MÜƏLLİMİN PEŞƏKARLIQ SƏVİYYƏSİNİN YÜKSƏLDİLMƏSİNİN ROLU

***Xülasə***

*Məqalədə cəmiyyətin inkişafında təhsil təşkilatlarının, xüsusən də təhsilin təməl daşı olan məktəblərin önəmindən və bu prosesdə məktəb rəhbərliyinin əvəzsiz rolundan bəhs olunur. Ümumtəhsil məktəbləri cəmiyyətin tələbatı və dövlətin sifarişi əsasında bir sıra vəzifə və öhdəliklərə sahibdir. Məktəblər nəzərdə tutulan bu göstəricilərə yalnız düzgün idarəetmə sistemi formalaşdırmaq yolu ilə nail ola bilərlər. Günümüzdə ölkəmizin həyata keçirdiyi təhsil quruculuğu siyasətinin qarşısında duran vacib məsələlərdən biri də təhsil müəssisələrində fəaliyyət göstərəcək idarəçilərin yetişdirilməsidir. Məktəbdaxili idarəetmədə direktorun şəxsi keyfiyyətləri, onun idarəçilik qabiliyyəti və sahib olduğu liderlik üslubu məktəbdə komanda işinin təşkilinə təsir göstərən, həmçinin kollektiv üzvlərinin sosial və psixoloji rahatlığını təmin edən əsas faktor kimi dəyərləndirilir. Müəllimlərin peşəkarlıq səviyyəsi, motivasiyası, iş məmnuniyyəti kimi təhsilin keyfiyyətini müəyyənləşdirən amillər də məhz direktorun fəaliyyəti ilə tənzimlənir.*

# РОЛЬ ПОВЫШЕНИЯ ПРОФЕССИОНАЛЬНОГО УРОВНЯ СОВРЕМЕННОГО УЧИТЕЛЯ В УПРАВЛЕНИИ ШКОЛОЙ

***Резюме***

*В статье говорится о значении образовательных организаций в развитии общества, особенно школ, которые являются краеугольным камнем образования, и о незаменимой роли школьного управления в этом процессе. На общеобразовательные школы возлагается ряд обязанностей и ответственности в зависимости от требований общества и государственного заказа. Достичь намеченных показателей школы могут только при создании правильной системы управления. Сегодня одним из важных вопросов, стоящих перед политикой развития образования, проводимой нашей страной, является подготовка администраторов, которые будут работать в образовательных учреждениях. В школьном менеджменте личные качества, управленческие способности и стиль руководства директора считаются основными факторами, влияющими на организацию командной работы в школе и обеспечивающими социально-психологический комфорт членов коллектива. Факторы, определяющие качество образования, такие как профессиональный*

*уровень учителей, их мотивация и удовлетворенность работой, регулируются деятельностью директора.*

# THE ROLE OF RAİSİNG THE PROFESSİONAL LEVEL OF THE MODERN TEACHER İN İN-SCHOOL MANAGEMENT

***Summary***

*In the article, the importance of educational organisations in the development of society, especially schools, which are the cornerstone of education, and the indispensable role of school management in this process are mentioned. General education schools have a number of duties and responsibilities depending on the demands of the society and the order of the state. Schools can only achieve these intended indicators by establishing a correct management system. Today, one of the important issues facing the education development policy implemented by our country is the training of administrators who will work in educational institutions. In in-school management, the personal qualities, management ability and leadership style of the principal are considered to be the main factors affecting the organisation of teamwork in the school and providing the social and psychological comfort of the team members. Factors that determine the quality of education such as teachers' professional level, motivation and job satisfaction are regulated by the activities of the principal.*

***Açar sözlər:*** *idarəetmə, liderlik üslübu, müəllim peşəkarlığı, açıq ünsiyyət, motivasiya, məktəbdaxili mühit*

***Ключевые слова:*** *управление, стиль руководства, профессионализм учителей, открытое общение, мотивация, школьная среда*

***Key words:*** *management, leadership style, teacher professionalism, open communication, motivation, school environment*

İnsanlar fərdi və ictimai ehtiyaclarını ödəmək üçün bir çox sahədə təşkilatlar qurmuşlar ki, fərdləri həyata hazırlamaq, bacarıqlarını inkişaf etdirmək və onları cəmiyyətin ehtiyac duyduğu sahələrdə yetişdirmək məqsədi ilə yaradılmış təhsil təşkilatları da bunların sırasına daxildir. Bütün təşkilatlar, o cümlədən məktəb, qarşıda dayanan məqsədə yanlız idarəetmənin nəzəriyyə və təcrübəsindən, onun prinsip, metod, üsul və vasitələrindən düzgün istifadə etməklə çata bilər. Məktəbi idarəetmənin başlıca məqsədi cəmiyyətin məktəb qarşısında qoyduğu tələblərə uyğun olaraq hərtərəfli bilik, bacarıq və vərdişlərə, müstəqil və yaradıcı düşüncəyə, zəngin mənəviyyata, geniş dünyagörüşünə, milli və ümumbəşəri dəyərlərə malik, vətənpərvərlik və azərbaycançılıq ideyalarına sadiq vətəndaş və şəxsiyyətlər yetişdirməkdən, habelə bunun üçün lazımi şərait yaratmaqdan ibarətdir [1, s.8].

Təhsil deyilən zaman ilk olaraq ağıla təhsil sisteminin təməl daşı olaraq cəmiyyətin inkişafında mühüm rol oynayan məktəbin canlanması heç də təsadüfi hal deyil. Şagirdlərin həyatında əvəzsiz yer tutan bu təhsil

müəssisələrinin uğuru onların yaxşı idarə olunmasından asılıdır. Məktəblər insan mərkəzli təşkilatlar olduğundan onları idarə etmək, habelə inkişaf etdirmək digər təşkilatlara nisbətən biraz daha çətin hesab olunur. Bu çətinliklərin öhdəsindən gəlmək və keyfiyyətli təhsil mühiti yaratmaq üçün məktəb rəhbərlərinin üzərinə böyük vəzifə və məsuliyyət düşür.

Müasir dövrdə respublikamızın təhsil sistemində münbit təhsil strukturunun yaradılması üçün əsas və təxirəsalınmaz nüanslardan biri də təhsilin idarə edilməsinin yeni tələblərə uyğun təşkili məsələsidir. Məktəbi idarəetmənin əsas subyektləri kimi çıxış edərək məktəbdaxili ictimai idarəetmə orqanları, məktəb rəhbərləri, habelə, müəllimlər qəbul olunan qərar və sərəncamları həyata keçirirlər. "Təhsil haqqında Azərbaycan Respublikasının Qanunu"nda, həm də "Təhsil sahəsində İslahat Proqramı"nda məktəbin idarəolunması ilə bağlı məsələlər xüsusi diqqət mərkəzində olmuş, məktəb kimi mürəkkəb və çoxkomponentli sistemin idarəedilməsi xüsusi pedaqoji sahə kimi tədqiq edilmişdir [1, s. 33].

Pedaqoji kollektivin işinə rəhbərlik dərin elmi, habelə pedaqoji hazırlıq tələb edir. Odur ki, məktəb rəhbərləri öz üzərində daima çalışmalı, bir idarəedici kimi yüksək intellektə malik olmalı, sahib olduğu idarəetmə xüsusiyyətlərinin fərqində olaraq onlardan prosesdə effektiv istifadə etməyi bacarmalıdır.

Məktəbdaxili idarəetməni, məktəb rəhbərliyi, müəllim, işçi, şagird və valideynlər arasında səmərəli əməkdaşlığı nəzərdə tutan, məktəbin gündəlik fəaliyyəti və uzunmüddətli uğuru üçün məsuliyyət daşıyan bir proses kimi dəyərləndirmək olar. Məktəbdaxili idarəetmənin əsas məqsədi təhsilin keyfiyyətini yüksəltmək, şagirdlərin uğur və rifahını maksimum dərəcədə artırmaq, müəllimlərin səmərəliliyini dəstəkləmək, məktəbin ümumi fəaliyyətini nizamlı və faydalı etməkdir. Məktəbdaxili idarəetməyə strateji planlaşdırma, maliyyə idarəetməsi, kadrların idarə edilməsi, proqramların hazırlanması, təhsil texnologiyalarından istifadə, nizam-intizamın idarə edilməsi, məktəb etikasının yaradılması və valideyn icması ilə səmərəli ünsiyyət daxildir. Bundan əlavə, məktəbdaxili idarəetmə müəllimlərin peşəkar inkişafını dəstəkləmək, şagird nailiyyətlərini qiymətləndirmək və məktəbin missiyasını və vizyonunu qorumaq üçün müxtəlif strategiyalar hazırlayır.

Məlum məsələdir ki, məktəbdə idarəetmə prosesi yalnız məktəb rəhbərlərinin iştirakı və fəaliyyəti ilə məhdudlaşmır. Məktəbin keyfiyyətini yüksəldən amillərdən biri də müəllimlərin fəaliyyətinin artırılmasıdır. İdarəçilər, müəllimlər, şagirdlər və valideynlərdən ibarət olan təhsil sisteminin ən strateji elementi olan müəllimin psixi sağlamlığı, peşəsinə bağlılığı, bilik və bacarıqları, motivasiya səviyyəsi birbaşa və ya dolayı yolla məktəbin fəaliyyətinə təsir göstərir. Məktəbdəki maddi və insan resurslarından məktəbin məqsədlərinə uyğun səmərəli istifadə etmək vəzifəsini üzərinə götürən məktəb

direktoru, məktəbin ümumi fəaliyyəti ilə yanaşı həm də müəllimlərin fərdi fəaliyyətinə cavabdehdir.

Müasir dövrdə təhsilə qoyulan tələbləri ödəmək üçün məktəb rəhbərləri pedaqoji işdə yeniliyə üstünlük verməli, müəllimlərin yeni fikirlərini, yenilik etmək təşəbbüslərini yüksək qiymətləndirməli və bu yeni fikirlərin həyata keçirilməsində bilavasitə təşkilatçı rolunu oynamalıdır. Əks təqdirdə məktəbdaxili idarəetmədə yaranan problemlər müəllim fəaliyyətinə mənfi təsir göstərməklə məktəbin öz missiya və məqsədindən uzaqlaşmasına səbəb olacaqdır. Məktəb direktoru kollektivə rəhbərlikdə müvəffəqiyyət əldə etmək üçün elə xüsusiyyətlərə malik olmalıdır ki, işin səmərəli qurulmasına xidmət etsin. İdarəetmə prosesinin sahib olduğu müəyyən xüsusiyyətləri nəzərə almadan məktəbdaxili idarəetmə işini lazımi səviyyədə qurmaq çətindir. İdarəetmənin iyerarxik, nisbi, fasiləsiz, mərhələli və dövri xarakter daşıması onun sahib olduğu ilkin xüsusiyyət göstəriciləridir [1, s.9]. Sadalanan xüsusiyyətləri nəzərə almaqla məktəb direktoru öz məktəbində müsbət ab-hava yarada, habelə yükək peşəkarlıq standartları əldə etmələri və liderlik qabiliyyətlərinin inkişafında bütün müəllimlərə dəstək göstərə bilər.

Müasir təhsil idarəçisi olaraq məktəb direktoru, birlikdə işlədiyi direktor müavinləri, müəllimlər və kollektivin digər üzvləri ilə səmimi və isti ünsiyyət qurmalıdır. Məktəbdaxili idarəetmədə direktor-müəllim, müəllim-müəllim, direktor-şagird, müəllim-şagird, direktor-müəllim və valideyn arasında ünsiyyət idarəetmə baxımından mühüm əhəmiyyət kəsb edir [3, s. 3]. Bununla belə, kommunikasiya şəbəkəsinin mərkəzində olan məktəb rəhbərinin ünsiyyətlə bağlı göstərdiyi qayğı bütün maraqlı tərəflərlə ünsiyyəti nizamladığı üçün daha vacib hesab olunur. Ona görə də demokratik mühitin yaradılması və qarşıya qoyulan məqsədlərə səmərəli şəkildə nail olunması ilk növbədə rəhbər və müəllim arasında ünsiyyətin effektivliyindən asılıdır. Bu iki subyekt arasında hiss və düşüncələrin paylaşılmasına imkan verən sağlam ünsiyyət mühitinin yaradılması müəllimlərin peşəkarlıq səviyyəsinin yüksəldilməsi istiqamətində əhəmiyyətli addımdır. Direktor ilə müəllim arasında ünsiyyət məqsədə uyğun şəkildə baş verdiyi hallarda məktəbdə çalışan müəllimlərin üzləşdiyi inzibati problemlər daha az hiss olunur və daha tez həll olunur. Problemin həlli idarəetmənin ən vacib funksiyasıdır. Lakin problemlərin həlli ilk növbədə onları səsləndirmək və ifadə etməkdən asılıdır. Direktora müraciət etmək istəyən hər bir kollektiv üzvü arxayın olmalıdır ki, rəhbər onu dinləyəcək, kömək edəcək və çıxış yolu göstərəcək. Məktəblərimizdə belə rabitə kanalı qurularsa, müəllim və işçilərin bir-birinə daha yaxın olduğu ailə mühiti yaranacaq və nəticədə onların peşəkarlıq səviyyəsi və motivasiyası artacaq.

Məktəb direktorları komanda üzvlərinə təsir göstərə, həvəsləndirə və hədəflərə yönəldə bilən güclü liderlik bacarıqlarına malik olmalıdırlar.

Direktorlar komanda üzvlərinə müsbət təsir göstərməyi, onları motivasiya etməyi və ümumi məqsədlərə yönəltməyi bacarmalıdır. Bu, məktəbin ümumi uğuru və işçilərin məmnunluğu üçün çox vacibdir. Güclü liderlik keyfiyyətlərinə effektiv ünsiyyət, problem həll etmə qabiliyyəti, vizyon sahibi olmaq, ədalətli olmaq, komanda işini dəstəkləmək, qətiyyət, cəsarət və empatiya kimi xüsusiyyətlər daxildir. Məktəb direktorları bu keyfiyyətlərdən istifadə etməklə işçilərini istiqamətləndirə, motivasiyasını artıra və işçilərinin öz potensiallarından ən yüksək səviyyədə istifadə etmələrinə şərait yarada bilərlər.

Məktəbdaxili idarəetmədə direktorun ədalətli olması müəllimlərin fəaliyyətinə birbaşa təsir edən faktor hesab edilir. Direktorun ədalətli davranışı müəllimlərin motivasiyasını artırır, əməyinin qiymətləndirildiyini hiss edən müəllim daha xoşbəxt və daha məmnun şəkildə fəaliyyət göstərir. Bununla yanaşı məktəb daxilində ədalətin təmin edilməsi məktəbdə komanda işini gücləndirir və nəticədə müvəffəqiyyət göstəricisi artır.

Məktəbdaxili idraetmədə müəllimin fəaliyyətinə təsir edən mühüm faktorlardan biri kimi biz məktəb direktorlarının idarəetmə tərzini vurğulaya bilərik. Tədqiqatlar göstərir ki, direktorların liderlik üslubu və idarəetmə yanaşmaları müəllimlərin motivasiyasına, işdən məmnunluğuna və buna görə də fəaliyyətinə əhəmiyyətli dərəcədə təsir göstərir. Liderlik üslubu təkcə rəhbərin fəaliyyətini müəyyənləşdirmir, həmçinin o, təhsilin təşkilinin bütün sahələrinə və kollektivə birbaşa təsir göstərir. Buna görə də məktəb direktorlarının liderlik tərzi və idarəetmə yanaşması müəllimin fəaliyyəti üçün mühüm əhəmiyyət kəsb edir.

Rəhbərlik üslubu dedikdə qərarın işlənib hazırlanmasına, qəbul edilməsi və onun icrasına nəzarətin həyata keçirilməsi formaları başa düşülməlidir. Məktəbdaxili idarəetmədə rəhbər tərəfindən formalaşdırılan aşağıdakı üslubların müəllimlərin fəaliyyətinə təsirini nəzərdən keçirək:

**Avtoritar üslub -** Tabeliyində olanlar ilə təmasın qəsdən məhdudlaşdırılması, müəssisəyə aid bütün məsələlərin bir əldən həll edilməsi, bir sözlə gücün həddindən artıq mərkəzləşdirilməsi kimi xarakterizə olunan bu liderlik üslubuna sahib rəhbərlər, özlərini tabeliyindəki insanlardan təcrid etməyə çalışır, bir qayda olaraq, çoxsaylı güc simvolları ilə əhatə olunur, eyni zamanda tabeliyində olan heyət ilə münasibətdə sərt və birtərəfli hərəkət nümayiş etdirir. Tez-tez şəxsi özbaşınalığa meyl göstərən bu liderlərin yaratdığı idarəetmə mühitində müəllimlərin təşkilatçılıq, liderlik bacarıqlarını ortaya qoymaq, əməkdaşlıq və qarşılıqlı etimad ruhu yaratmaq imkanları yoxdur. Zahirən kollektivdə nizam təəssüratı yaratsa da, pərdə arxasında nizamsızlığın hökm sürdüyü və müəllim heyətinin emosional stresdə olduğu bir mühit mövcud olur. Bu təzyiq altında müəllimlərin peşəkarlıq səviyyəsinin

artırılması, onların motivasiyasının yüksək saxlanılması bir mənalı olaraq mümkün hesab edilmir.

**Demokratik liderlik üslubu** - İdarəetmə sisteminin çevik şəkildə yenidən qurulmasına imkan verir və demokratik üslubun hakim olduğu mədəniyyətlərdə lider tabeçiliyində olanların fikirlərinə diqqətlə yanaşaraq şəxsi mövqeyini təvazökarlıqla bildirir. Demokratiyanın məktəbdə genişləndirilməsi heç də hərc-mərclik yaradacaq şəkildə direktorun pedaqoji fəaliyyətə nəzarəti azaltmağı, tələbkar olmamağı, hamıya yaxşı görünməyi demək deyil. Təhsilin demokratikləşməsi anlayışı özündə məktəbin idarə olunmasında müəllimlərin qərar qəbul etmə proseslərinə cəlb olunduğu, fikirlərinin qiymətləndirildiyi və ünsiyyətin açıq olduğu, yaradıcılıq və təşəbbüskarlıq göstəricilərinin yüksək olduğu bir mütihi ehtiva edir. Qarşılıqlı inam və hörmətin ön planda olduğu ədalətlilik prinsipinə əsaslanan demokratik liderlik üslubuna sahib olan direktor, müəllimlərin peşə səriştələrini artırmaq və motivasiyalarını yüksək tutmaqla məktəbin ümumi uğuruna töhfə verir.

**Liberal liderlik üslubu -** Bu üsluba sahib olan rəhbər kollektivin çalışması üçün uyğun şəraiti təşkil edir, problemli situasiya yaradaraq həll üçün lazımi sərhədləri müəyyənləşdirir və arxa planda prosesin işləməsini seyr edir. Tətbiqində həddindən artıq sərbəstliyə yol verilən zaman anarxiyaya səbəb olan liberal üslubda liderin mövqeyi qrup xaricindədir və əməkdaşlıq yoxdur. Vəzifə iyerarxiyasındakı mövqeyinin sağlam olmasına tam arxayın ola bilmədiyi üçün belə rəhbər işçi heyəti arasında öz nüfuzunu qorumaq üçün işçilərinə müxtəlif güzəştlər etməyə, zəhmətsiz mükafatlar, lüzumsuz ezamiyyətlər və s. verməyə hazırdır. Əgər biz məktəb daxilində müəllimlərin yaradıcı yanaşmasını stimullaşdırımaq istəyiriksə, liberal idarəetmə tərzi bunun üçün daha üstündür. Liberal rəhbərlik inkişafa açıq bir yanaşma qəbul edir. Çünki liberal lider komanda üzvlərini innovativ ideyalar inkişaf etdirməyə həvəsləndirir və bu cür yanaşma işin məhsuldarlıq səviyyəsinin artması ilə müşahidə olunur.

Nəticə etibarilə, idarəetmə üslublarının məktəb mühitində müəllimlərin motivasiyasına, peşəkarlıq səviyyəsinə və ümumi məktəb uğuruna təsirini nəzərə alsaq, məktəb rəhbərlərinin müəllim və şagirdlərin ehtiyaclarına ən yaxşı cavab verən liderlik üslubunu mənimsəməli olduqlarını anlayarıq. Müəllimlərə məktəb idarəçiliyində fəal iştirak etməyə imkan verən, onların peşəkar inkişafını və yaradıcılığını təşviq edən mühitin yaradılması məktəblərin inkişafı və uğurunun dəstəklənməsi üçün əsasdır. Buna görə də liderlər çeviklik nümayiş etdirməli, dəyişən situasiyalara uyğunlaşmağı bacarmalı, məktəbin ümumi baxış və məqsədlərinə uyğun olaraq müəllim və şagirdlərlə səmərəli ünsiyyət qurmalıdır. Bu, həm müəllimlərin, həm də tələbələrin potensiallarını maksimum dərəcədə artıracaqları dinamik və innovativ təlim mühiti yaratmağa imkan verir.

İdarəetmə üslubunun "daha yaxşı" olub-olmaması çox vaxt menecerin üzləşdiyi konkret vəziyyətlərdən, təşkilatın mədəniyyətindən və məqsədlərindən, komandanın tərkibindən və fərdlərin ehtiyaclarından asılıdır. Bununla belə, təhsil mühitində aparılan müxtəlif tədqiqatlar və müşahidələr müəyyən idarəetmə üslublarının üstünlüklərini və məhdudiyyətlərini aşkar etmişdir. Tədqiqatlar nəticəsində belə qərara gəlmək olar ki, "ən yaxşı" idarəetmə tərzi kontekstdən və fərdi ehtiyaclardan asılı olaraq dəyişir. Müəllim və şagirdlərin inkişafına töhfə verəcək mühitin təşkilində daha münasib zəmin yaratdığı üçün təhsil sahəsində demokratik və liberal liderlik yanaşmalarının balanslaşdırılmış qarışığı məqsədə uyğun hesab edilir. Lakin, fərqli vəziyyətlər və fərdi ehtiyaclar müxtəlif yanaşmalar tələb edə bilər. Buna görə də ən yaxşı idarəetmə tərzinin çevik, uyğunlaşa bilən və davamlı təkmilləşməyə açıq olması mütləq hesab edilir.

***Ədəbiyyat***

1. *Əliyeva S. Məktəbin idarə edilməsinin pedaqoji, psixoloji əsasları. Bakı - 2021, səh 279.*
2. *AKTAŞ, A., & ÖZGENEL, M. (2020). OKUL MÜDÜRLERİNİN LİDERLİK STİLLERİNİN ÖĞRETMEN PERFORMANSINA ETKİSİ. Uluslararası Liderlik Çalışmaları Dergisi: Kuram ve Uygulama, 3(2), 1-18.*
3. *USTA, M.E., & Fevzeddin, B.O.Ğ.A. (2021). Okul yöneticilerinin okul yönetiminde yaşanan sorunlara ilişkin görüşleri. Harran Maarif Dergisi, 6(1), 18-49.*

**N.E.İskəndərzadə**
**Azərbaycan Dövlət Pedaqoji Universiteti**
***n.iskenderzade@mail.ru***

# ALİ TƏHSİL MÜƏSSİSƏLƏRİNDƏ STRATEJİ PLANLAŞDIRMANIN HƏYATA KEÇİRİLMƏSİ

***Xülasə***

*Məqalədə ali təhsil müəssisələri üçün strategiyanın hazırlanmasında nəzərə alınmalı olan əsas amillər göstərilmişdir. Belə ki, strategiyanın təhsil müəssisəsinin layihələrinə, hədəf və məqsədlərinə uyğunluğu, tələb və təkliflər, maliyyə və kadr potensialı əsas götürülmüşdür.*

# РЕАЛИЗАЦИЯ СТРАТЕГИЧЕСКОГО ПЛАНИРОВАНИЯ В ВУЗАХ

***Резюме***

*В статье показаны основные факторы, которые следует учитывать при разработке стратегии высшего учебного заведения. Таким образом, за основу берется совместимость стратегии с проектами образовательного учреждения, целями и задачами, требованиями и предложениями, финансовым и кадровым потенциалом.*

# IMPLEMENTATION OF STRATEGIC PLANNING IN HIGHER EDUCATION INSTITUTIONS

***Summary***

*The article shows the main factors that should be taken into account in the development of a strategy for higher education institutions. Thus, the compatibility of the strategy with the educational institution's projects, goals and objectives, demands and proposals, financial and personnel potential is taken as a basis.*

***Açar sözlər:*** *strategiya anlayışı, strateji idarəetmə, strateji planlaşdırma, mərhələlər, ali təhsil müəssisələrində strateji planlaşdırmanın hazırlanmasına təsir göstərən amillər*

***Ключевые слова:*** *понятие стратегии, стратегический менеджмент, стратегическое планирование, этапы, факторы, влияющие на подготовку стратегического планирования в высших учебных заведениях*

***Key words:*** *the concept of strategy, strategic management, strategic planning, stages, factors affecting the preparation of strategic planning in higher education institutions*

"Strategiya" anlayışı yunan sözü olub, əvvəllər "hərbi" məna daşımış, "generalın məharəti" mənasını ifadə etmişdir. Strategiya təşkilatın vəzifəsini

həyata keçirməyə və onun məqsədə nail olmasını təmin etməyə yönələn dəqiqləşdirilmiş, hərtərəfli, kompleks plandır.

Strategiyalar strateji idarəetmənin əsas bazis elementidir. Strategiyaların müəyyənləşdirilməsi strateji idarəetmənin səviyyəsindən asılıdır. Strateji idarəetmə məqsədlərin formalaşması, taktikanın seçilməsi və strategiyanın hazırlanması üzrə təşkilatın fəaliyyət səviyyəsidir. Strategiyanın hazırlanması strateji idarəetmə prosesi ilə sıx bağlıdır. Bu proses missiyanı müəyyən etmə, məqsədləri görmə, taktiki siyasətləri seçmə və mövcud resurslar vasitəsilə strateji addımı atmağı əks etdirir. Strategiya yerinə yetirildikdən sonra mövcud vəziyyət və nəticə araşdırılır, yəni strategiyanın nə dərəcədə əlverişli olması qiymətləndirilir.

Strateji idarəetmə təşkilatın missiyasının formalaşmasından başlayır. Missiya dedikdə təşkilatın məqsədlərinin prioritetlərinin qısa və dəqiq ifadə edilməsi başa düşülür. Təşkilatın missiyası pedaqoji kollektivin və həm də digər təhsil iştirakçılarının etimadını ödəməli, ümumbəşəri dəyərlər nəzərə alınmalıdır. Missiya "mision" və "mission statement" sözlərindən götürülüb "niyyət" deməkdir. Missiya dedikdə daha böyük məqsədlər başa düşülür. Bu məqsədlər təhsil iştirakçılarında nəyəsə nail olmaq həvəsi yaradır. Missiya "təşkilat nə üçün mövcuddur", "biz nə üçün həmin təşkilatda fəaliyyət göstəririk", "biz etdiyimiz işi nə üçün edirik" suallarına cavab verməyə imkan verir. Ümumi olaraq menecerin (idara edənin) strategiya ilə bağlı əsas sualı belə olmalıdır: "Biz müəssisəmizi necə görmək istəyirik, nə etmək istəyirik və nəyə nail olmaq istəyirik?" Bu suallara dolğun cavab verməkdən ötrü menecerdə təşkilatın bugünkü və gələcək fəaliyyətinin xarakteri, onun 5-10 ildən sonra yaranacaq tələbatları haqqında tam təsəvvürü olmalıdır. Menecerin "Biz kimik, nə edirik və haraya gedirik?" sualına cavabı müəssisənin gələcək fəaliyyət kursunu müəyyən edir. Təşkilatın nə etmək və ona necə nail olmaq istəyi onun missiyasını müəyyənləşdirir.

Ali təhsil müəssisələri təhsilin keyfiyyətinin yaxşılaşdırılması və fəalliyyətin uğurla yerinə yetirilməsi üçün strateji planlar hazırlayır. Strateji planlar hazırlayarkən missiya və vizyon, ölkənin təhsil siyasəti, iş mühitindəki dəyişikliklər, maliyyə və kapitalın idarə edilməsi, məzunların və işəgötürənlərin tələbləri, texnologiyadakı dəyişikliklər daxil olmaqla bir çox amillər nəzərə alınmalıdır. Bu amillər müəssisələrin strateji planlarının hazırlanmasında mühüm rol oynayır.

Hazırda təhsil sisteminin inkişafı üçün müxtəlif strategiyalar hazırlanır. Ancaq bu strategiyaların seçilməsinə bir çox amillər təsir göstərir. Bu amillər aşağıdakılardır:

1. Müəssisənin özünün təyin etdiyi missiya və hədəfləri əhatə edən strategiyaların seçilməsidir. Strategiya təhsil müəssisəsinin layihələrinə və məqsədlərinə uyğun olmalıdır.

2. Qurumun inkişaf etdirmək istədiyi sahələrə və proqramlara uyğun strategiyaların seçilməsidir. Təhsil müəssisələri, təhsil sektorunda dəyişən tələblərə uyğun olaraq yeni sahələrə və proqramlara investisiya qoyaraq müştərilərinin tələblərinə cavab verməlidirlər. Digər tərəfdən, bu cür investisiyalar strategiya seçimində mühüm rol oynayır.

3. Təhsil müəssisəsinin təşkilati quruluşuna uyğun strategiyaların seçilməsidir. Strategiya, iş strukturunun dəyişdirilməsi və xüsusi vəzifələrə uyğun olaraq yeni proseslərin tətbiqi kimi dəyişikliklər tələb edə bilər. Buna görə bir strategiya seçərkən işin quruluşunu nəzərə almaq lazımdır [2, s.54].

4. Təhsil müəssisəsinin maliyyə və insan resurslarına uyğun strategiyaların seçilməsidir. Strategiya seçimi biznesin cari maliyyə və kadr ehtiyatları nəzərə alınmaqla hazırlanmalıdır. Biznesin maliyyə və insan resursları ilə uyğun olmayan strategiyaların seçilməsi biznesin məhsuldarlığının azalmasına və ya maliyyə problemlərinin yaranmasına səbəb ola bilər.

5. Təhsil müəssisəsinin müştərilərinin və ictimaiyyətin ehtiyaclarına uyğun strategiyaların seçilməsidir. Strategiya müştərilərin tələblərinə cavab verməlidir. Bu, müştəri tələblərinin dəyişə biləcəyi, yeni təhsil sahələrinin ortaya çıxa biləcəyi və ya yeni təhsil texnologiyalarının əlavə ediləcəyi təhsil sektorunda daha vacibdir.

Strateji planlaşdırmanın uzun dövr üçün nəzərdə tutulmasına baxmayaraq, onu uzunmüddətli planlaşdırma ilə eyniləşdirmək olmaz. Çünki burada əsas zaman deyil, planın məzmunu əsas götürülür.

Planlaşdırma cari və perspektiv planlaşdırma mərhələlərinə bölünür. Əgər cari strategiya düzgün planlaşdırılmırsa, müsbət nəticələr əldə etmək mümkün olmur. Planlaşdırma təhsil müəssisəsini əks etdirməklə yanaşı, onun problemlərini, arzu olunan nəticənin əldə edilməsi üçün müvafiq proqramların yenidən hazırlanmasını və təkmilləşdirilməsini, idarəetməni və əməkdaşlığı inkişaf etdirməkdə buraxılmış nöqsanları, onları doğuran səbəbləri müəyyənləşdirməkdə və aradan qaldırmaqda mühüm rol oynayır.

Strateji planlaşdırmada aşağıdakı istiqamətlərə üstünlük verilməlidir:

- Təhsil müəssisəsinin fəaliyyətini göstərən illik fəaliyyət planının hazırlanması;
- Müəssisədə çalışan işçilərin birgə fəaliyyət göstərmələri üçün şərait yaratmaq;
- Təhsil müəssisəsi haqqında ictimaiyyətin müsbət rəyini formalaşdırmaq;
- Müəssisədə fəaliyyət göstərən ayrı-ayrı qurumların təşkilinə müasir tələblər səviyyəsində yanaşmaq;
- Təşkilatın güclü və zəif cəhətlərini, imkanlarını müəyyən etmək və onları nəzərə almaq;
- Strateji planlaşdırmada büdcə vəsaitini nəzərə almaq və s.

Təhsil müəssisələrində strateji planların və onun tərkib hissəsi olan illik fəaliyyət planlarının hazırlanması inkişaf etmiş ölkələrdə daha geniş tətbiq olunur. Strateji və fəaliyyət planlarının qarşılıqlı əlaqəsi, onların təhsil sistemində əhəmiyyəti və hazırlanma prosedurları təşkilatın məqsəd və imkanlarını nəzərə almaqla həlledici qərarların qəbul edilməsində, mövcud problemlərin və imkanların proqnozlaşdırılmasında mühüm vasitə hesab olunur. Məlumdur ki, təhsil müəssisəsinin inkişaf rejimi şəraitində fəaliyyəti və keyfiyyətin idarə olunması sisteminin vacib tərkib hissəsi müəssisənin inkişaf planının - strateji planın işlənib hazırlanmasıdır.

Təhsil müəssisəsi rəhbərləri ilə aparılmış anket sorğuları və araşdırmalar göstərir ki, bir çox məktəblərdə illik fəaliyyət planları hazırlanır. Lakin təcrübə göstərir ki, təhsil müəssisələrində perspektiv istiqamətləri müəyyənləşdirmək üçün strateji planların hazırlanması daha vacibdir.

Strateji idarəetməyə vaxt funksiyası kimi deyil, istiqamət funksiyası (yol xəritəsi) kimi baxmaq lazımdır. Bu funksiya özündə müəssisənin qlobal məqsədlərini əks etdirməlidir. Strateji planlaşdırma müəssisənin yalnız uzunmüddətli məqsədlərini təsvir etmək yox, həmçinin bu məqsədə necə çatmaq, onu necə həyata keçirməyi əks etdirməlidir. Strateji planlaşdırma ilə uzunmüddətli planlaşdırma arasında əsas fərqləndirici cəhət strateji planlaşdırmada nəzərdə tutulan tədbirlərin alternativ inkişaf tendensiyalarının göstərilməsidir.

Strateji idarəetmə təşkilatın haraya getdiyi haqqında təsəvvürün işlənməsi və konseptualizasiyası ilə bağlı olan proqnozlu idarəetmədir. Bu, müəssisədə daha böyük uğurlar qazanmaq üçün vasitədir.

Strateji idarəetmə müəssisənin məqsədlər, potensial imkanları və şansları arasındakı strateji uyğunluğun yaradılması və qorunub saxlanılmasının idarə edilməsi prosesidir. Strateji idarəetməyə vaxt funksiyası kimi deyil, istiqamət funksiyası kimi baxmaq lazımdır. Bu funksiya özündə müəssisənin qlobal məqsədlərini əks etdirməlidir.

***Ədəbiyyat***


1. *R.Məmmədzadə, A.Abdullayev, F.Kərimova, R.Cabbarov, S.Rəsulov, S.Məmmədova - Menecment, Marketinq və Təhsilin iqtisadiyyatı. Bakı - 2018, 127-133s.*
2. *Musayev N., Hacıyev R. (2019). Ali təhsil müəssisələrinin strateji planlaması: Təcrübələr və müasir problemlər. Təhsilin inkişafı, 1(2), s.39-44.*
3. *Azərbaycan Milli kitabxanası* http://anl.az *Strateji Menecment.*

**Ç.R.Baxşıyev**
**Azərbaycan Dövlət Pedaqoji Universiteti**
***cingizbaxsiyev675@gmail.com***

# AZƏRBAYCAN VƏ DÜNYA ALİ TƏHSİLİNDƏ KEYFİYYƏT TƏMİNATI SİSTEMİNİN MÜQAYİSƏLİ TƏHLİLİ

***Xülasə***

*Qloballaşan 21-ci əsr dünyamızda təhsil sahəsində, xüsusən də ali təhsildə milli və beynəlxalq səviyyədə keyfiyyət təminatı ən mühüm və hətta rəhbər elementdir. Keyfiyyət anlayışı II Dünya Müharibəsi zamanı və sonrasında E.Deminq, M.Juran və K.İşikava kimi məşhur alimlər tərəfindən hazırlanmış keyfiyyətin idarə edilməsi yanaşmalarına əsaslanır. İnsanlar həmişə daha yaxşı xidmətə can atmış və ehtiyaclarını ödəmək üçün müxtəlif məhsul və xidmətlərə ehtiyac duymuşlar. Bu gün bu tələbatı ödəmək üçün müxtəlif sahələrdə, xüsusən də təhsildə yeni metod və konsepsiyaların işlənib hazırlanmasına ehtiyac var. Bu səbəbdən keyfiyyət təminatı, ümumiyyətlə istehlakçının ehtiyaclarını ödəmək və gözləniləndən daha üstün xidmət göstərmək kimi qəbul edilir. Keyfiyyət mədəniyyətinin formalaşmadığı mühitlərdə keyfiyyəti təmin etmək mümkün deyil. Keyfiyyət təminatı təhsil xidmətinin müəyyən edilmiş standartlara cavab verdiyinə kifayət qədər inamı təmin etmək və bu məqsədlə planlaşdırılmış və sistemli fəaliyyətləri həyata keçirmək və qiymətləndirməkdir. Bu araşdırmada biz ali təhsildə keyfiyyət təminatı, müxtəlif ölkələrdəki keyfiyyət təminatı modelləri və onların universitetlərə verdiyi üstünlüklərdən danışmışıq.*

# СРАВНИТЕЛЬНЫЙ АНАЛИЗ СИСТЕМЫ ОБЕСПЕЧЕНИЯ КАЧЕСТВА В АЗЕРБАЙДЖАНЕ И МИРОВОМ ВЫСШЕМ ОБРАЗОВАНИИ

***Резюме***

*В нашем глобализованном мире XXI века обеспечение качества является наиболее важным и даже руководящим элементом в области образования, особенно в высшем образовании, на национальном и международном уровнях. Концепция качества основана на подходах к управлению качеством, разработанных такими известными учеными, как Э.Деминг, М.Джуран и К.Исикава во время и после второй мировой войны. Люди всегда хотели лучшего обслуживания и нуждались в различных продуктах и услугах для удовлетворения своих потребностей. Сегодня для удовлетворения этого спроса существует необходимость разработки новых методов и концепций в различных областях, особенно в образовании. По этой причине обеспечение качества обычно рассматривается как удовлетворение потребностей потребителя и предоставление услуг высшего качества, превосходящих его ожидания. Невозможно обеспечить качество в среде, где не сформирована культура качества. Обеспечение качества призвано обеспечить достаточную*

*уверенность в том, что образовательная услуга соответствует установленным стандартам, а также реализовать и оценить запланированную и систематическую деятельность с этой целью. В этом исследовании мы говорили об обеспечении качества высшего образования, моделях университетов в разных странах и преимуществах, которые это дает университетам.*

# COMPARATIVE ANALYSIS OF QUALITY ASSURANCE SYSTEM IN AZERBAIJAN AND WORLD HIGHER EDUCATION

***Summary***

*In our globalized 21st century world, quality assurance is the most important and even guiding element in the field of education, especially in higher education, at the national and international levels. The concept of quality is based on quality management approaches developed by famous scientists such as E.Deming, M.Juran and K.Ishikawa during and after World War II. People have always wanted better service and need different products and services to meet their needs. Today, to meet this demand, there is a need to develop new methods and concepts in various fields, especially in education. For this reason, quality assurance is generally regarded as meeting the needs of the consumer and providing superior service beyond expectations. It is impossible to ensure quality in environments where a quality culture is not formed. Quality assurance is to provide sufficient confidence that the education service meets the established standards and to implement and evaluate planned and systematic activities for this purpose. In this study, we talked about quality assurance in higher education, university models in different countries and the advantages it gives to universities.*

***Açar sözlər:*** *ali təhsil, ali təhsildə keyfiyyət təminatı, Azərbaycanda keyfiyyət təminatı, dünyada keyfiyyət təminatı*

***Ключевые слова:*** *высшее образование, обеспечение качества в высшем образовании, обеспечение качества в Азербайджане, обеспечение качества в мире*

***Key words:*** *higher education, quality assurance in higher education, quality assurance in Azerbaijan, quality assurance in the world*

Dünya təcrübəsində ATM-in keyfiyyət təminatından məsuliyyət daşıması KT-də ən geniş yayılmış yanaşmadır. Xaricdə ali təhsil alan tələbələrin axınının artması ilə hökumətlər xarici proqramların və dərəcələrin qiymətləndirilməsinə və akkreditasiyasına üstünlük verməlidirlər. Bu akkreditasiya prosesi təklif olunan təhsilin keyfiyyətini təmin edir və institutları həm tələbələr, həm də müəllimlər üçün tədris və öyrənməni təkmilləşdirən təcrübələri qəbul etməyə təşviq edir [Makhoul, 2019].

**AZƏRBAYCAN** avropa kredit transfer sistemini (AKTS) ali təhsil sisteminə tətbiq etməklə, Avropa və dünyanın aparıcı universitetlərinin müsbət təcrübələrini ölkəmizə gətirməklə Azərbaycan ali təhsildə kvalifikasiya çərçivəsinin (KÇ) inkişafı üçün əlverişli mühit yaratmışdır. XXI əsrin tələblərinə uyğun olaraq rəqabət qabiliyyətli insan kapitalının artırılması, tələbə qəbulu qaydalarının təkmilləşdirilməsi, ali məktəblərdə keyfiyyət təminatı mərkəzlərinin yaradılması və məzunların məşğulluğuna xidmət edən karyera mərkəzlərinin səmərəliliyinin artırılması istiqamətində ciddi uğurlar əldə edilib. Azərbaycan 2015-ci ildən Avropa Ali Təhsilin Keyfiyyətinin Təminatı Reyestrinə (EQAR) üzv seçilib. Məlumat üçün bildirək ki, EQAR Ali Təhsildə Keyfiyyət Təminatı üzrə Avropa Assosiasiyasının (ENQA), Avropa Universitetlər Assosiasiyasının (EUA), Avropa Universitetlər Assosiasiyasının (EURASHE) və Avropa Tələbələr Birliyinin (ESU) mandatlı təşəbbüsüdür. Boloniya prosesinin iştirakçısı olan ölkələrin və yoxlama üçün yaradılmış ilk rəsmi qurumdur [15].

Azərbaycan Respublikası Təhsil Nazirliyinin tabeliyində fəaliyyət göstərən və publik hüquqi şəxs olan Təhsilin Keyfiyyətinin Təminatı Agentliyi (TKTA) ali, orta ixtisas və əlavə təhsilin keyfiyyətinin müstəqil qiymətləndirilməsini həyata keçirən peşəkar və ixtisaslaşmış qurumdur. Azərbaycan Respublikası Prezidentinin 29 dekabr 2019-cu il tarixdə imzaladığı fərmanla yaradılan TKTA Təhsil Nazirliyinin Akkreditasiya və Nostrifikasiya İdarəsinin tərkibindən çıxıb. TKTA-nın missiyası keyfiyyət və əhatəlilik baxımından dünya miqyasında önə çıxan təhsil sistemini inkişaf etdirməklə Azərbaycanda effektiv KTS fəaliyyətlərinin həyata keçirilməsinə kömək etməkdir [15]. Onun məqsədi bilik, bacarıq, səriştə və təcrübə ilə təchiz edilmiş rəqabətqabiliyyətli insan kapitalının müasir dövrün tələblərinə uyğun olaraq əmək bazarına inteqrasiyasını dəstəkləməkdir. TKTA təhsil proqramlarının keyfiyyət səviyyələrinin qiymətləndirilməsinə, müəyyən edilmiş tələblərə uyğunluğunun təmin edilməsinə cavabdehdir. Qeyd edək ki, 2017-ci ildə Avropa Ali Təhsildə Keyfiyyət Təminatı Assosiasiyası (ENQA) çərçivəsində müşahidəçi üzv statusu qazanıb. Təhsil müəssisələrinin akkreditasiyası hər 5 ildən bir olmaqla həyata keçirilir [15]. TKTA bu prosesdə müxtəlif tədbirlər həyata keçirir:

**Akkreditasiya prosesi:** Təhsil müəssisələrini akkreditasiya etmək, bunun üçün tövsiyələr hazırlamaq və təlimlər təşkil etmək.

**Daxili informasiya sistemlərinə dəstək:** Təhsil müəssisələrində daxili informasiya sistemlərinin yaradılması və inkişafı ilə bağlı məsləhət və metodiki dəstək xidmətlərinin göstərilməsi.

**Təhsil sisteminin inkişafı:** Təhsil sisteminin və bu sahədə dövlət standartlarının davamlı inkişafına kömək etmək.

**İnstitusional reputasiya və ekspert hazırlığı:** Təhsil müəssisələrinin nüfuzunu və ekspert hazırlığının keyfiyyətini artırmaq.

**Xarici kvalifikasiyaların tanınması:** Ali təhsillə bağlı xarici ölkələrin ixtisaslarının tanınmasını təmin etmək.

**Beynəlxalq təcrübələr:** Müvafiq sahədə qabaqcıl beynəlxalq təcrübələrin araşdırılması və tətbiqi [2, s.187].

**İNGİLTƏRƏ** universitetlərinin istifadə etdiyi dövlət maliyyəsi və inzibati muxtariyyətin unikal birləşməsinə görə, onlar əhəmiyyətli dərəcədə müstəqil fəaliyyət göstərirlər. Hesabatlılığı təmin etmək və yüksək standartları qorumaq üçün kənar qiymətləndirmə çox vacibdir. İngiltərədə bu məsuliyyət 1997-ci ildə yaradılmış müstəqil qurum olan Ali Təhsil üzrə Keyfiyyətin Təminatı Agentliyinin (QAA) üzərinə düşür [16]. Qərəzsiz təşkilat kimi fəaliyyət göstərən QAA İngiltərədə ali təhsilin keyfiyyətini qiymətləndirir və sertifikatlaşdırır. Qeyd edək ki, İngiltərədəki bütün universitetlər QAA-nın üzvləri və tərəfdaşları kimi fəal iştirak edirlər. Onun fəaliyyəti üzv universitetlərin töhfələri və maliyyə agentlikləri ilə müqavilələr hesabına maliyyələşdirilir. Agentliyin əsas missiyaları aşağıdakılardır:

- Mümkün olduqda, Böyük Britaniya ali təhsil sisteminin keyfiyyət və standartlarının dəstəklənməsi;
- İngiltərədə təhsil alan tələbələrin gözlənilən yüksək keyfiyyətli təhsil almasını təmin etmək [7].

Keyfiyyətin Təminatı Agentliyi (QAA) dörd əsas məqsədi prioritetləşdirir: tələbə ehtiyaclarının ödənilməsini təmin etmək, akademik standartları dəstəkləmək, təhsildə irəliləyişlərə nəzarət etmək və Böyük Britaniya ali təhsili haqqında ictimai anlayışı gücləndirmək [9]. Onlar Böyük Britaniyanın Məxfi Şurasına dərəcələrin verilməsi səlahiyyətləri və universitetin adlandırılması kimi məsələlərdə məsləhət verir, eyni zamanda müxtəlif institutların, o cümlədən ATM-lərin və alternativ provayderlərin akademik keyfiyyəti necə qoruduğunu qiymətləndirirlər. Qeyd edək ki, 2009-2010-cu illərdən etibarən bir tələbə nümayəndəsi agentliyin inklüzivliyə sadiqliyini nümayiş etdirərək qiymətləndirmə qrupuna daxil edilib.

**İSVEÇ** 2013-cü ildən əvvəl Milli Ali Təhsil Agentliyi ölkədə ali təhsilə nəzarət etmək üçün məsuliyyət daşıyırdı. 2001-ci ildə yaradılmış agentlik hökumətin göstərişlərinə uyğun olaraq mövzuya və proqrama əsaslanan qiymətləndirmələr həyata keçirmişdir. 2008-ci ilə qədər onlar ümumilikdə 1700 ali təhsil proqramı üzrə qiymətləndirmələri uğurla başa vurmuşlar. 2007-ci ildə Agentliyin yeni KTS-nin tətbiqi ilə İsveç ali təhsil sistemi əhəmiyyətli dəyişikliklərə məruz qaldı. Bu yeni sistem KT ilə bağlı ATM-lərin məsuliyyətlərinə daha çox diqqət yetirirdi. Bundan əlavə, 2013-cü il yanvarın 1-də əsaslı restrukturizasiya baş verdi. Üç ayrı qurum: Milli Ali Təhsil Agentliyi, Beynəlxalq Proqram Ofisi və Ali Təhsil Xidmətləri üzrə Milli

Agentlik iki yeni orqan - Universitet Rektorunun Ofisi (UKÄ) və Universitet və Kollec Şurası (UHR) yaratmaq üçün birləşdi. Qeyd edək ki, UKÄ əvvəlki agentliyin səlahiyyətlərinin əhəmiyyətli bir hissəsini miras qoyub [3, s.16] [8].

İsveç ali təhsilinin etibarlılığını təmin etmək üçün İsveç Ali Təhsil Təşkilatı (UKÄ) keyfiyyət təminatı (CT) üçün mühüm beynəlxalq prinsipləri yeni ali təhsil çərçivəsinə (KTS) daxil etdi. Bu prinsiplər Avropa Ali Təhsil Sahəsində (EHEA) keyfiyyət təminatı üçün Boloniya Prosesi çərçivəsində hazırlanmış Avropa Standartları və Təlimatlarına (ESG) uyğundur. UKÄ beynəlxalq əməkdaşlıqlarda, xüsusən də Avropa ali təhsilinin qiymətləndirilməsi ilə bağlı fəal iştirak edir [14]. Bu əməkdaşlıq ilk növbədə Ali Təhsildə Keyfiyyət Təminatı üzrə Avropa Assosiasiyası (ENQA), Ali Təhsildə Keyfiyyət Təminatı üzrə Skandinaviya Şəbəkəsi (NOQA) və Təhsildə Keyfiyyət Təminatı üzrə Beynəlxalq Agentliklər Şəbəkəsi (INGAAHE) kimi təşkilatlar vasitəsilə həyata keçirilir. UKÄ-nin ESG-yə sadiqliyini qəbul edərək, müstəqil ENQA İdarə Heyəti hərtərəfli nəzərdən keçirdikdən sonra 2020-ci ilin dekabrında UKÄ-ya üzvlük verdi. Daha sonra UKÄ 2021-ci ilin mart ayında Ali Təhsil üzrə Avropa Keyfiyyət Təminatı Reyestrinə daxil olmaq üçün müraciət etdi [9].

UKÄ-nin İsveç ali təhsili üçün yenilənmiş keyfiyyət təminatı sistemi, KTS, dörd vacib elementi özündə birləşdirir:

- ATM-lərin keyfiyyət təminatı proseslərinin institusional icmalları;
- Təhsil proqramlarının qiymətləndirilməsi;
- Tematik qiymətləndirmələr;
- Dərəcə vermə səlahiyyətləri üçün müraciətlərin qiymətləndirilməsi [6].

**ABŞ** ali təhsil sisteminin müəyyənedici xüsusiyyəti onun qeyri-mərkəzləşdirilmiş strukturu və müxtəlif institutlar üçündür. Akkreditasiya xarici keyfiyyət təminatı mexanizmi kimi xidmət edir. Qeyd edək ki, Avropa sistemləri ilə müqayisədə Amerika yanaşması daha az bürokratikdir və özünütənzimləməni vurğulayır. Akkreditasiya könüllü olaraq qalır və hətta akkreditə olunmamış qurumların fəaliyyət göstərməsinə imkan verir. Bu sistem ayrı-ayrı müəssisələrin (ATM) akademik keyfiyyətlərinə görə məsuliyyətini vurğulayır, təhsil standartlarının saxlanmasında və təkmilləşdirilməsində institusional muxtariyyətin vacibliyini vurğulayır [17].

Akkreditasiya üçün məsuliyyət iki qurumun üzərinə düşür: Ali Təhsil Akkreditasiyası Şurası (CHEA) və ABŞ Təhsil Departamenti. Özəl təşkilat olan CHEA həm qurumlar, həm də proqramlar üçün milli səviyyədə akkreditasiya səylərini əlaqələndirir. Alternativ olaraq, federal hökumət Təhsil Departamenti vasitəsilə də akkreditasiya ilə məşğul ola bilər. 2007-ci ildən bəri ümumilikdə 19 institusional akkreditasiya orqanı CHEA və ya Təhsil Departamenti tərəfindən tanınıb. Birləşmiş Ştatlar daxilində ya Ali Təhsil

Akkreditasiyası Şurası (CHEA) və ya Təhsil Departamenti tərəfindən nəzarət edilən 19 tanınmış akkreditasiya agentliyi 7000-dən çox qurumun akkreditasiyasına cavabdehdir. Bundan əlavə, 61 ayrı proqram akkreditasiya təşkilatı 19,000-dən çox fərdi dərəcə proqramını qiymətləndirir və təsdiqləyir. Qeyd edək ki, CHEA yalnız ali təhsilin akkreditasiyasına və bu agentliklərin nəzarətinə həsr olunmuş yeganə milli təşkilat kimi seçilir [5].

25 iyul 2019-cu il tarixində Milli Elmi Dərəcələr və Ali Təhsildə Keyfiyyətin Təkmilləşdirilməsi İnstitutu (NIAD-QE) müxtəlif təşkilatlar, o cümlədən CHEA ilə birgə Yaponiyanın Milli Elm Mərkəzində "Ali Təhsildə Keyfiyyətin Təminatı Dəyişən Zaman" tədbiri keçirilmişdir. Tədbir zamanı CHEA-nın prezidenti Dr. Judith Eaton auditoriya qarşısında çıxış edərək ali təhsilə təsir edən bir sıra mühüm qlobal tendensiyaları vurğuladı. Bu tendensiyalara institutların şaxələndirilməsi, informasiya-kommunikasiya texnologiyalarının (İKT) rəqəmsal təhsilə inteqrasiyası, çoxtərəfli tələbə mübadiləsinin artması və universitet reytinqlərinin artan təsiri daxildir. Dr. Eaton daha geniş ictimai kontekstdə akkreditasiya və keyfiyyət təminatı üçün ideal strukturu nəzərdən keçirərkən bu dəyişiklikləri qəbul etməyin vacibliyini vurğuladı. Nəhayət, o vurğuladı ki, bu səylər tələbələrin faydası nəzərə alınmaqla həyata keçirilir və ali təhsil ictimaiyyəti bu inkişaf edən mənzərələri idarə etmək üçün davamlı olaraq uyğunlaşır [4, s.239-242].

**FİNLANDİYA** Təhsil Nazirliyinin nəzdində fəaliyyət göstərən Fin Ali Təhsilin Qiymətləndirilməsi Şurası (FINHEEC) ATM-lərin KT sistemlərinə nəzarət edir. Finlandiyanın keyfiyyətə nəzarət çərçivəsi çərçivəsində ATM-lər öz KTS-lərini müəyyən etmək üçün muxtariyyətə malikdirlər və FINHEEC onların effektivliyinin qiymətləndirilməsinə cavabdehdir [11, s.24]. FINHEEC-in əsas funksiyası ATM-lərə və Təhsil Nazirliyinə akkreditasiya məsələlərində dəstək vermək və ATM-lərin akkreditasiyası proseslərini əlaqələndirməkdir. Hər altı ildən bir FINHEEC Finlandiyadakı bütün ATM-larda hərtərəfli institusional yoxlamalar aparır, onların KTS-lərini institusional auditlər vasitəsilə qiymətləndirir [10, s.521-522].

**YAPONİYA** ATM-ləri onların təhsil və tədqiqat fəaliyyətlərinin müstəqil Daxili Qiymətləndirilməsini (DQ) həyata keçirir. Təhsil və elmi-tədqiqat fəaliyyətinin vaxtaşırı özünüqiymətləndirməsi hər bir ATM tərəfindən hər bir qurumun məqsədləri nəzərə alınmaqla müstəqil və avtonom şəkildə həyata keçirilir. Akademik Dərəcələrin və Ali Təhsilin Keyfiyyətini Təkmilləşdirmə üzrə Milli İnstitutun (NIAD-QE) tanıdığı nazirlik və təşkilatlara tabe olan təhsil müəssisələrinin təhsil proqramları hər beş ildən bir akkreditasiyadan keçməlidir. Hər bir qurum öz DQ tədbirlərini həyata keçirir [12].

NIAD-QE Yaponiyada ali təhsilin keyfiyyətinin yüksəldilməsinə, universitetlərin və kolleclərin qiymətləndirilməsinə, elmi dərəcələrin

verilməsinə, KT sahəsində əməkdaşlığın qurulmasına, habelə bu sahədə imkanlar üçün kredit və qrantların verilməsinə kömək edir. Bundan əlavə, NIAD-QE yerli və beynəlxalq universitetlər və KT təşkilatları ilə əməkdaşlıq edərək, Yaponiya universitetlərində təhsilin və tədqiqatın keyfiyyətini yaxşılaşdırmaq, ali təhsilin beynəlxalq nüfuzunu və tanınmasını artırmaq məqsədi daşıyır. Bu səyə elmi dərəcələr də daxil olmaqla, ixtisasların inkişafı daxildir [14, s.34].

Yapon ali təhsilində milli KT üç mərhələnin sistemli idarə olunması kimi müəyyən edilir. Birinci mərhələ universitetin yaradılması üçün tələb olunan minimum standartlardan ibarətdir. Bu mərhələdə Yaponiyada dövlət və ya özəl universitet açmaq üçün Təhsil, Mədəniyyət, İdman, Elm və Texnologiya Nazirliyinə müraciət edilir. Universitet yaradılması icazəsi verildikdən sonra KT prosesinin ikinci mərhələsi, təsis-təsdiq sistemi başlayır. Bu mərhələnin əsas məqsədi universitetin yarandıqdan sonra müəyyən ixtisas dərəcələri verməsini təmin etmək və bu prosesə nəzarət etməkdir. Üçüncü mərhələyə KT və Akkreditasiya Sistemi daxildir. Bu sistem 2004-cü ildə istifadəyə verilib və müvafiq nazirlik tərəfindən KT və akkreditasiya orqanlarının təsdiqini tələb edir. Universitetlər hər yeddi ildən bir nazirlik tərəfindən təsdiq edilmiş təşkilatlar tərəfindən akkreditasiyadan keçməlidir. KT və Akkreditasiya Sistemi ikitərəfli qiymətləndirməni təmin edir. Bunlardan biri universitetlərin təhsilin keyfiyyətinin yüksəldilməsi üçün qiymətləndirmə nəticələrindən müsbət istifadə edib-etmədiyini yoxlayır, digəri isə akkreditə olunmuş universitetin minimum standartlara cavab verib-vermədiyini yoxlayır. Bu proses nəticəsində universitetlər KT-ni açıq şəkildə təbliğ edir, akkreditasiyadan keçir və nəticələr əsasında özlərini təkmilləşdirməyə həvəsləndirilir [14, s.39].

**Nəticə və tövsiyələr:**

**KT tələblərinin müəyyən edilməsi:**

KTS qurmazdan əvvəl KT-nin nə üçün lazım olduğu, onun əhatə dairəsi və sistem tələbləri kimi məsələlər aydınlaşdırılmalıdır. Bu, düzgün planlaşdırma və resursların bölüşdürülməsini təmin etməklə vaxt və resursların itkisinin qarşısını alır.

**Kadr hazırlığı:**

Bütün işçilərin, xüsusən də rəhbər heyətin keyfiyyətin idarə edilməsi və yeni sistem üzrə təlim keçməsi vacibdir, çünki onların fəal iştirakı keyfiyyət mədəniyyətini təşviq edir və effektiv həyata keçirilməsini təmin edir.

**Təşkilatçılıq:**

Strukturdan, ölçüdən və xidmət sahəsindən asılı olaraq, keyfiyyətli idarəetmə üçün müvafiq təşkilat formalaşdırılması olduqca əhəmiyyətlidir. Rol

və məsuliyyətləri aydın şəkildə müəyyən edilməsi və hər kəsin öz rolları daxilində KT sistemlərində iştirakını təmin etmək uğurun açarıdır.

**İlkin qiymətləndirmə:**

Mövcud vəziyyəti qiymətləndirmək üçün daxili auditlər və ya özünüqiymətləndirmələr aparmaq vacibdir. Bu, planlaşdırma və təkmilləşdirmə səyləri üçün dəyərli məlumat verir.

**Keyfiyyət planlaması:**

Fəaliyyətləri, əlaqələri, məqsədləri, məsuliyyətləri, resursları və vaxt qrafiklərini diqqətlə planlaşdırmaq əhəmiyyətli addımlardan biridir. İlkin qiymətləndirmədən alınan məlumatlar bu mərhələyə rəhbərlik edir.

**Daxili KT:**

Təkmilləşdirmə imkanlarını müəyyən etmək, məqsədlərə və sistem tələblərinə uyğunlaşdırmaq çox vacibdir. Daxili KT problemi vaxtında aşkar etməyə və düzəldici fəaliyyətə imkan verir.

**Xarici KT:**

Daxili KT-dən sonra kənar auditlər üçün qərəzsiz və təcrübəli KT təşkilatları ilə əməkdaşlıq etmək olduqca əhəmiyyətlidir. Bu, hərtərəfli yoxlama və KT sistemlərinə uyğunluğu təmin edir.

**Davamlı inkişaf:**

Proseslərin və KT sistemlərinin davamlı inkişafı və təkmilləşdirilməsi keyfiyyət səviyyələrini qorumaq və artırmaq üçün vacibdir. Əmək bazarının tələblərinə və rəqabət şəraitinə uyğunlaşma dayanıqlı inkişaf üçün həyati əhəmiyyət kəsb edir.

Xülasə, KTS-in qəbulu və tətbiqi ölkədən ölkəyə dəyişir. Ali təhsildə milli məqsədlərin KT prosedurları və milli agentliklərin rolları ilə uyğun olması vacibdir.

***Ədəbiyyat***

*1. Carolyn, C, Christina, R. (2002). Quality Assurance and the Development of Course Programmes. Carfax Publishing, Taylor & Francis Ltd, Bucharest.*
*2. External Review of Finnish Higher Education Evaluation Council – Self-evaluation report. (2010) Publications of FINHEEC, Vol 3. https://karvi.fi/app/uploads/2014/09/KKA_0310.pdf*
*3. Higher Education in Japan. Higher Education Bureau, Ministry of Education, Culture, Sports, Science and Technology (MEXT). https://www.mext.go.jp/en/policy/education/highered/title03/detail03/1374111.htm*
*4. http://www.hsv.se/*
*5. https://english.uka.se/quality-assurance/international-principles-for-quality-assurance-andenqa/international-cooperation-on-quality-assurance-in-higher-education.html*

*6. https://tkta.edu.az/p/news/c/yeni-akkreditasiya-qaydalari-cemiyyete-ne-verecek*
*7. https://www.chea.org/*
*8. https://www.qaa.ac.uk/about-us*
*9. https://www.niad.ac.jp/english/*
*10. https://www.niad.ac.jp/english/news/en2019/entry-3993.html*
*11. https://www.nicjp.niad.ac.jp/en/japanese-system/quality.html*
*12. Kettunen, J. (2012). External and internal quality audits in higher education. The TQM Journal, Vol. 24 No. 6, pp. 518-528.*
*13. Quality assurance programs in the United States. (1995). PubMed. https://pubmed.ncbi.nlm.nih.gov/8546370/*
*14. Makhoul, S, A. (2019). Higher education accreditation, quality assurance and their impact to teaching and learning enhancement. Journal of Economic and Administrative Sciences. Vol. 35 No. 4, pp. 235-250.*
*15. Nair, C, S. və Mertova, P. (2011). Student Feedback – The cornerstone to an effective quality assurance system in higher education. Chandos Publishing, UK.*
*16. Tight, M. (2020). Research into Quality Assurance and Quality Management in Higher Education. Theory and Method in Higher Education Research, Vol. 6, pp. 185-202.*
*17. Westerheijden, Don F., Stensaker, B. və Rosa, M, J. (2007). Quality Assurance In Higher Education. Springer, Dordrecht.*

**S.P.İbrahimova**
**Azərbaycan Dövlət Pedaqoji Universiteti**
***solmaz.ibrahimovaa@gmail.com***

# ALİ TƏHSİL MÜƏSSİSƏLƏRİNDƏ İNTERNET SAYTLARININ ƏHƏMİYYƏTİ

***Xülasə***

*Bu gün insanlar hər hansı bir mövzunu araşdırarkən ilk növbədə internetə müraciət edirlər. Bu, illər öncə istifadə edilən ənənəvi üsullardan daha sürətli və asandır. Müasir rəqəmsal əsrdə internet saytları hər bir qurum üçün önəmli olduğu kimi ali təhsil müəssisələri üçün də mühüm ünsiyyət platformasıdır. Ali təhsil müəssisələri cəmiyyətin inkişafında önəmli rol oynayır, onların cəmiyyətə düzgün təqdim edilməsi üçün isə veb saytların rolu böyükdür. Bu internet saytları təhsil alanlara, valideynlərə, müəllimlərə və digər şəxslərə universitet haqqında vacib resursları təqdim edir. Ali təhsil müəssisələri artıq öz veb saytlarından tələbə qəbulunda bir vasitə kimi istifadə etməyə başladığına görə müəssisə üçün effektiv veb sayt çox vacibdir.*

*Məqalədə ali təhsil müəssisələrinin internet saytlarının önəmindən bəhs edilmişdir. Eyni zamanda məqalədə ayrı-ayrı şəxslərin bu internet resurslarından hansı istiqamətlər üzrə istifadə etdiyi haqqında ətraflı məlumat verilmiş və onlar üçün bu resursların nə dərəcə önəmli olduğu vurğulanmışdır. Məqalənin sonunda isə təhsil alanlarla yanaşı müəssisə üçün də bu internet resurslarının əhəmiyyətinə yer verilmiş, bu səbəblərə görə veb saytlara xüsusi diqqət edilməli olduğu qeyd olunmuşdur.*

# ЗНАЧЕНИЕ ВЕБ-САЙТОВ В ВУЗАХ

***Резюме***

*Сегодня люди при исследовании любой темы в первую очередь обращаются к Интернету. Это быстрее и проще, чем традиционные методы, использовавшиеся много лет назад. В сегодняшнюю цифровую эпоху веб-сайты являются важной коммуникационной платформой для высших учебных заведений, а также для каждого учебного заведения. Высшие учебные заведения играют важную роль в развитии общества, и велика роль веб-сайтов в их правильном представлении обществу. Эти веб-сайты предоставляют важные ресурсы об университете студентам, родителям, преподавателям и другим лицам. Поскольку высшие учебные заведения теперь используют свои веб-сайты в качестве инструмента для набора студентов, эффективный веб-сайт очень важен для учебного заведения.*

*В статье говорится о значении сайтов высших учебных заведений. При этом в статье дается подробная информация о том, как отдельные люди используют эти интернет-ресурсы, и подчеркивается, насколько важны для них эти ресурсы. В конце статьи была указана важность этих интернет-*

*ресурсов как для студентов, так и для предприятия, и по этим причинам было отмечено, что веб-сайтам следует уделить особое внимание.*

# THE IMPORTANCE OF WEBSITES IN HIGHER EDUCATION INSTITUTIONS

***Summary***

*Today, people turn to the internet first when researching any topic. It is faster and easier than the traditional methods used years ago. In today's digital age, websites are an important communication platform for higher education institutions as well as for every institution. Higher education institutions play an important role in the development of society, and the role of websites is great for their proper presentation to society. These websites provide important resources about the university to students, parents, teachers and others. Since higher education institutions are now using their websites as a tool for student recruitment, an effective website is very important for an institution.*

*The article talks about the importance of websites of higher education institutions. At the same time, the article provides detailed information about the ways in which individual people use these Internet resources and emphasizes how important these resources are for them. At the end of the article, the importance of these Internet resources for students as well as for the enterprise was given, and for these reasons, it was noted that special attention should be paid to websites.*

***Açar sözlər:*** *internet saytları, təhsil, texnologiya, ali təhsil müəssisələri, onlayn*

***Ключевые слова:*** *веб-сайты, образование, технологии, высшие учебные заведения, онлайн*

***Key words:*** *websites, education, technology, higher education institutions, online*

Gündəlik həyatımızda, yeni məlumatların tez və sürətli şəkildə paylaşılması ehtiyacının artması ilə birlikdə, internet saytlarına olan tələbat da artmışdır. Mövcud internet saytları vasitəsilə fərqli sahələr üzrə olan informasiyaları tez şəkildə əldə edə bilirik.

Digər inkişaf etmiş ölkələrdə olduğu kimi Azərbaycanda da hər bir ali təhsil müəssisəsinin (bundan sonra ATM) özünəməxsus internet saytı mövcuddur. Bu internet saytları təhsil alan tələbələr və ixtisas seçimi zamanı universitetlər haqqında məlumat toplamağa çalışan abituriyentlər üçün çox əhəmiyyətli resurslar olaraq qəbul edilir.

Hər gün milyonlarla yeni veb səhifələr hazırlanır, bunların bir çoxu məlumatların necə istifadə ediləcəyinə və kimin istifadə edəcəyinə az diqqət yetirən şəxslər tərəfindən hazırlanmış və inkişaf etdirilmişdir. Məqsədlərinə çatmaq üçün ATM öz veb saytını hazırlayarkən istifadəyə yararlılıq amilini nəzərə almalıdır. Sayt dizaynı təhsilinin əsas qısamüddətli məqsədi interaktiv

ünsiyyət qurmağın yollarını anlamaq, diqqəti istifadəçiyə yönəltmək olmalıdır [6].

The New York Times qəzetində "How to make a website for you" ("Sizin üçün veb saytı necə yaratmaq olar") başlıqlı məqalə dərc olunub və burada Eric A. Taub qeyd edir ki, veb sayt gözəçarpan, diqqət çəkici şəkildə hazırlanmalı və veb sayta daha çox ziyarətçi cəlb etmək üçün özündə cəlbedici məzmun ehtiva etməlidir.

Müasir dövrümüzdə isə universitetin veb saytı yeni təhsil alanları cəlb etmək üçün effektiv marketinq strategiyası kimi böyük rol oynayır. Şagirdlər, abituriyentlər və valideynlər haqqında məlumat toplamaq istədikləri universitetə yalnız müəyyən zaman çərçivəsində yaxınlaşaraq rəhbər şəxslərdən məlumat əldə etməklə məhdudlaşmayaraq, veb saytlar vasitəsi ilə bu məlumatlara asanlıqla çata bilirlər. Universitetin veb saytının zəngin informasiya təchizatı onlara vaxt itirmədən və hər hansı bir yerə getmədən, hətta universitetin işləmədiyi qeyri-iş günlərində belə, 24 saat suallarına cavab tapa bilmək imkanı tanıyır. Bu, informasiya əsaslı bir texnologiya tətbiqi ilə tələbələrin təhsil və universitetlə bağlı digər məlumatları əldə etmələrini asanlaşdırır. Unutmaq olmaz ki, bu zaman saytın hədəf auditoriyası təkcə abituriyentlər deyil, həm də onların valideynləridir. Onlar üçün kampusu göstərmək, övladının asudə vaxtını necə keçirəcəyini, hansı yataqxana ilə təmin olunacağını görmək vacibdir.

Əvvəllər şagirdlər ənənəvi olaraq kitabçalar və broşüralardan istifadə edir və bu, onların universiteti tanımaq üçün əsas mənbələri hesab olunurdu. Əgər şagirdlərin maraqları yüksək olsaydı, onlar açıq qapı gününə - universitet turuna qatılmaq imkanına malik olardılar. Bu tur proqramlarında səlahiyyətli şəxslərin rəhbərliyi ilə məlumat almaq istəyən abituriyentlər və valideynlər müəssisə ilə tanış edilir, qəbul aparılan ixtisaslar, fakültələr, keçid balları, ödənişlər, təqaüd proqramları, universitetin qoşulduğu beynəlxalq mübadilə proqramları, xaricdə təhsil imkanları, tələbə həyatı, həmçinin seçmək istədikləri ixtisasın karyera perspektivləri haqqında ətraflı məlumat alaraq onları maraqlandıran suallarla universitet əməkdaşlarına müraciət edə bilirdilər. Bu müəyyən təsir bağışlayaraq onların qərarlarına təsirdə əhəmiyyətli rol oynayırdı. Qeyd olunmuş prosesin təşkili, adətən tələbə təşkilatlarına tapşırılır. Bu ənənəvi turlar ixtisas seçimi ərəfəsində demək olar ki, bütün universitetlərdə hələ də təşkil olunsa da, ənənəvi metodlarla təşkil olunmuş turlar tədricən öz yerini müasir texnologiyalar əsasında hazırlanmış veb saytlara verir.

Yeni yaradılmış texnologiyalar əsasında, həm yerli, həm də xarici tələbələr 360 dərəcəli kameraların köməyi ilə **virtual tura** qoşularaq özlərini seçdikləri universitetin kampusunda hiss edə, sanki orada imiş kimi bu kamera vasitəsi ilə universiteti gəzə bilərlər. Bu texnologiya artıq şagirdə açıq qapı

gününü gözləmədən universiteti gəzmək imkanı tanıyır. Xüsusi kameralar ilə təşkil edilmiş bu tur hal-hazırda Azərbaycan ATM-lərindən yalnız Azərbaycan Diplomatik Akademiyasında video formatında mövcud olsa da, xarici təcrübədən istifadə edərək dövrün yenilikləriylə uyğunlaşmaq üçün bu yöndə lazımi işlər aparılır. Azərbaycan Dövlət İqtisadiyyat Universitetinin veb saytında yaradılmış, universitetin daxili strukturunu sistemli şəkildə əks etdirən sxemi bu işlər sırasında misal göstərə bilərik.

Bu məlumatlar sırasına şagirdə universiteti tanımağa və gələcək həyatında əsaslı rolu olacaq ixtisas seçimini müəyyən etməyə kömək edəcək fərqli başlıqlar altında informasiyaları göstərə bilərik:

- universitetdə fərqli fakültələr üzrə mövcud olan ixtisaslar və onlar haqqında;
- ixtisaslarda tədris edilən əsas və seçmə fənnlər;
- dərs cədvəlləri;
- qəbul şərtləri;
- rəhbər şəxslərlə əlaqə vasitələri;
- bu günə qədər olan elmi və sosial fəaliyyət – keçirilmiş tədbirlər, konfranslar;
- təhsil alanların dərsdən kənar asudə vaxtlarını səmərəli keçirməsi üçün iştirak edə biləcəyi tələbə təşkilatları və s.

Qeyd edilən səbəblərə görə ilkin olaraq məlumat almaq üçün veb saytlara müraciət edilir, araşdırma zamanı düzgün, sürətli dizayn əsasında qurulmamış, aşağı keyfiyyətli veb sayt mənfi təəssürat yaradır. Yüksək keyfiyyətli veb sayta məxsus müəssisə isə elə həmin anda öz rəqibləri arasında seçilir.

Dizayn istehlakçılarla onlayn etimad yaratmaq üçün əsas amildir. İnformasiya saytının istifadəçiləri üçün pis dizayn (qarışıq tərtibat, kiçik çap, çox mətn) yaxşı dizayndan daha çox zərər verir [5].

Zəngin veb sayt yalnız yerli deyil, həmçinin xarici ölkələrdə təhsil alanları ölkəmizdəki universitetlərə cəlb etmək üçün ən yaxşı yollardan biri hesab oluna bilər. Dünyanın hər yerində olan insanlar üçün bütün məlumatlar indi bir ekranda əlçatandır. Xarici ölkədə olan tələbə xüsusi zaman, büdcə ayırmadan universitet veb saytından istifadə edərək lazımi informasiyaları toplaya, müqayisə edə, müqayisə əsasında isə təhsil almaq istədiyi müəssisəni müstəqil seçə bilər. Bu zaman internet resursunun hər kəs tərəfindən anlaşılan olması üçün azərbaycan dili ilə yanaşı, ingilis və rus dillərində də yaradılması vacibdir.

Pandemiya dövründə Azərbaycanın bütün universitetlərində tətbiq edilən onlayn qeydiyyat prosesi universitetlərə qəbul olan şagirdlərin qeydiyyatını uğurla təşkil etməyə nail oldu. Hazırda isə ölkəmizdə bir çox universitet qeydiyyat prosesini veb sayt vasitəsi ilə onlayn şəkildə həyata

keçirir. Bu isə qeydiyyat prosesini sürətləndirərək asanlaşdırır, əlavə vaxt itkisinin qarşısını almış olur.

Azərbaycanda pandemiya müddətindən sonra istifadəsi geniş tətbiq olunan onlayn qeydiyyatın digər ölkələrdəki istifadəsi 90-cı illərə əsaslanır.

1999-cu ildə Kolleclərə Qəbul Məsləhətləri üzrə Milli Assosiasiya tərəfindən 400 qəbul şöbəsi arasında aparılan sorğu nəticəsində məlum olmuşdur ki, kolleclərin təxminən 77 faizi onlayn ərizə təqdim edirdi [4, s.1]

Kenneth Hartman qeyd edir ki, aparılmış tədqiqatlar əsasında şagirdlər və onların valideynləri təhsil müəssisələrinin internet resurslarından istifadə edərkən bəzən onların reallığı əks etdirməyən məlumatlar təqdim etdiyini müşahidə edirlər. Bu səbəblə, onlar kollec seçimləri haqqında daha ətraflı məlumat əldə etmək üçün Hartmanın “qeyri-rəsmi məlumat” mənbələri adlandırdığı daha az məşhur mənbələrə də müraciət edirlər.

İnternet rəsmi məlumatın bir hissəsi kimi daxil edilməyən faktları, statistik məlumatları və rəyləri əlçatan edir [3, s.54].

Təhsil alan tələbələrin oxuduqları universitetin internet saytına daxil olaraq əldə edə biləcəyi məlumatlar sırasına aşağıdakıları qeyd edə bilərik:

- akademik qaydalar;
- akademik təqvim;
- elmi jurnallar və onlara müraciət qaydaları;
- keçirilmiş və keçirilməsi nəzərdə tutulan elmi konfranslar;
- tələbə təşkilatlarının fəaliyyətləri, onların tərkibində fəaliyyət göstərən klublar və bu klublara müraciət üçün əlaqə vasitələri;
- tələbə mübadilə proqramları;
- beynəlxalq və yerli təqaüd proqramları;
- yataqxana haqqında ətraflı məlumat, qeydiyyat və onun tələbləri və s.

Qeyd olunmuş məlumatlar hər bir universitetin resursunda fərqli formatda verilmiş ola bilər, bu tamamilə həmin rəhbərliyin saytı dizayn etməsindən asılı olaraq dəyişə bilən formatdır.

Bundan başqa universitetin təşkil etdiyi tədbirlər, iclaslar kimi fəaliyyətlər ətraflı məlumatla birlikdə “xəbərlər” bölməsində, video və ya şəkillər əlavə edilərək ictimaiyyətə açıq şəkildə paylaşılıb məlumat verilir.

Ən önəmli bölmələrdən biri olan **“elmi jurnallar”** hissəsində universitetin nəşr etdirdiyi elmi jurnalların elektron versiyasını tapa, həmçinin yazı qaydaları, nəşrə verilən tələblərlə tanış ola bilərsiniz. Bu bölmənin bir qolu olan **“elmi konfranslar”** da konfranslar üzrə yuxarıda qeyd edilmiş eyni məlumatları özündə əks etdirir. Bununla da, təhsil alan öz zamanına qənaət etmiş olaraq kitabxanaya getmədən, universitetin veb saytından istifadə edərək elektron formada bu jurnal, məqalə və tezislərə keçid əldə etmək imkanı qazanır. Bu bölmələrin çevik dizaynda verildiyi ATM-lər sırasında başlıca

olaraq Azərbaycan Dövlət Pedaqoji Universitetini nümunə göstərmək mümkündür.

Bütün bunlarla birlikdə, əhəmiyyətli yer tutan **elektron kitabxana**nı xüsusi vurğulamaq vacibdir. Universitetlər müəyyən müddətdə informasiya resurslarını toplayaraq tələbələrinə uyğun bazanı yaratmışlar. Hazırda çoxlu sayda elektron tədris materialları və təlim proqramları yaradılmışdır. Bu resurslar, təhsil sahəsində texnologiyaların effektiv şəkildə istifadəsinin bir nümunəsidir və tələbələrin biliklərə daha asan və sürətli bir şəkildə çatmasına kömək edir. Tələbə elektron kitabxana vasitəsi ilə kompüter və ya telefon üzərindən kitabların elektron variantlarına asanlıqla keçid edərək oxuya bilər. Bu halda, təhsil alan maliyyə cəhətdən qənaət etmiş olur, həmçinin kitabların elektron versiyası daha əlçatan hesab olunur, oxumaq üçün gərəkli olan sadəcə internetə girişi olan telefon və ya kompüterdir. Bəzi internet saytlarında yalnız həmin müəssisədə təhsil alan tələbələrə özəl xüsusi profilin yaradılması tələb olunsa da, əksər ATM internet resurslarında mövcud elektron kitabxanaya sadəcə internet vasitəsi ilə daxil olmaq mümkündür.

Fərqli maraqları olan təhsil alanların sosial dairələrini genişləndirmələrinə, yeni dostlar qazanmalarına və müxtəlif mədəniyyətləri tanımağa kömək edən **tələbə klubları** barədə məlumat saytın əsas məzmun hissələrindən biri hesab olunur. Universitet tələbələrin sosial inkişafı üçün önəmli olan bu klublara onların daha rahat çatmasını təmin etmək üçün internet saytında bu klublar haqqında geniş məlumat verməlidir. Əksər veb saytlarda təşkilatlar, həmçinin onların nəzdində fəaliyyət göstərən tələbə klublarının rəhbərləri və onlarla əlaqə məlumatları verilmiş olur. Bu da təhsil alan insanların öz sosial inkişafı üçün özünəuyğun klubları seçmələrini və iştirak etmələrini asanlaşdırır.

ATM-lərin internet saytlarının əhəmiyyətindən danışarkən tələbələrin imtahan nəticələrini daha operativ şəkildə əldə etmələrinə kömək olan **şəxsi kabineti** vurğulamaq lazımdır. İnternet saytında şəxsi kabinetə daxil olaraq tələbə semestr ərzində ona lazım olacaq materiallar, sillabus, dərs cədvəli, fənn kreditləri, imtahan vaxt və nəticələri, qeyd olunanlar kimi digər əlavə məlumatlara asanlıqla giriş edə bilər.

Yuxarıda qeyd etdiyimiz istiqamətlərdən göründüyü kimi özündə bir çox sahələr üzrə informasiyaları əks etdirən ali təhsil müəssisəsinin internet saytı həm təhsil alanların, həm də təhsil almaq istəyənlərin müraciət edərək faydalandığı internet resursudur. Bir çox təşkilat istifadəçilər üçün diqqət cəlb edəcək bir veb sayt hazırlamağa çalışır. Genişmiqyaslı istifadə dərəcəsini nəzərə alaraq ATM-lərin fəaliyyətində internet saytlarının önəmini anlamaq mümkündür. Qloballaşmanın təzyiqi və inkişaf edən kommunikasiya sistemləri səbəbindən universitetlərin internet üzərindən tanıtım fəaliyyətləri bu gün daha vacibdir. Universitetin veb-saytı onun məlumatlarına əsas giriş yolu rolunu

oynayaraq ən uğurlu marketinq üsullarından biridir. Bununla belə, bütün universitetlər öz saytlarının potensialından tam istifadə etmirlər. Bəzi təhsil müəssisələri yalnız qlobal şəbəkədə rəsmi şəkildə təmsil etmək üçün internet resursları yaradır. Lakin unutmaq olmaz ki, günümüzdə veb sayt tələbələr, müəllimlər, universitetlər və ictimaiyyət arasında məlumat mübadiləsi üçün effektiv vasitədir.

Bütün bu göstərilənlərin önəmini nəzərə alaraq hər bir ATM dövrə uyğun olaraq bu marketinqin əhəmiyyətini anlayaraq səmərəli istifadə etməlidir. İstifadəyə uyğun sayt üçün isə məzmuna diqqət edilməli, unutmamaq lazımdır ki, veb saytın yaradılması birdəfəlik layihə deyil, uzunmüddətli redaksiya və texniki idarəetmə tələb edən davamlı bir prosesdir. İstifadəçilər məlumatı tez tapmadığı təqdirdə veb saytda çox vaxt sərf etməyəcəyini göstərən statistika bu məsələnin əhəmiyyətini bir daha vurğulayır.

***Ədəbiyyat***


1. *Bernard, Michael. Criteria for Optimal Web Design. Software Usability Research Laboratory, https://www.academia.edu/465365/Criteria_for_optimal_web_design_designing_for_usability_*
2. *Katterattanukul, P. and Siau, K. Measuring Information Quality of Web Sites: Development of an Instrument. Proceedings of the 20th International Conference on Information Systems. https://www.researchgate.net/publication/220268971_Measuring_information_quality_of_Web_sites_Development_of_an_instrument*
3. *Kenneth E. Hartman. Internet Guide for College-Bound Students. College Board 1999. p. 54.*
4. *Lisa Guernsey. Spam Your Way to a Good Education; Online Application Forms Add to College Admissions Frenz. The New York Times, December 23, 1999, p.1.*
5. *Sillence, E., Briggs, P., Fishwick, L. & Harris, P. Trust and Mistrust of Online Health Sites. Proceedings of the SIGCHI Conference on Human Factors in Computing Systems. April, 2004.*
6. *Tim Greenhalgh, "The Guru of usability speaks" March 17, 2000. http://www.timeshighereducation.co.uk/story.asp?storyCode=150704&sectioncode=26*
7. *https://www.au.edu.az/az/news/azerbaycan-universitetinde-aciq-qapi-gunleri-baslayir*

**A.Ə.Heydərli**
**Azərbaycan Dövlət Pedaqoji Universiteti**
***ayten.heyderli.92@mail.ru***

# ÖZƏL ALİ MƏKTƏBLƏRDƏ STRATEJİ İDARƏETMƏNİN MAHİYYƏTİ

***Xülasə***

*Özəl ali məktəblərdə strateji idarəetmə çox şaxəli və dinamik prosesdir və bu institutların gələcək trayektoriyasının formalaşmasında mühüm rol oynayır. Tədqiqat akademik mükəmməllik, maliyyə davamlılığı, texnoloji inteqrasiya və maraqlı tərəflərin cəlb edilməsi kimi amilləri nəzərə alaraq özəl ali məktəblərdə strateji təşəbbüslərin formalaşdırılması, həyata keçirilməsi və qiymətləndirilməsini araşdırır.*

*Yekun olaraq, tədqiqat özəl ali məktəblərdə strateji idarəetmənin mürəkkəb prosesinə dair anlayışlar təqdim edərək, onların davamlı uğurlarına töhfə verən əsas elementlərin hərtərəfli başa düşülməsini təklif edir. Öz xüsusi kontekstinə uyğunlaşdırılmış strateji idarəetmə prinsiplərini qəbul etməklə, ali məktəblər özlərini tələbələrin və bütövlükdə cəmiyyətin inkişaf edən ehtiyaclarını qarşılamağa qadir olan dinamik və həssas institutlar kimi yerləşdirə bilərlər.*

# СУТЬ СТРАТЕГИЧЕСКОГО О УПРАВЛЕНИЯ В ЧАСТНЫХ ВУЗАХ

***Резюме***

*Стратегическое управление в частных высших учебных заведениях представляет собой многогранный и динамичный процесс, играющий важную роль в формировании будущей траектории развития этих учреждений. В исследовании рассматривается формулировка, реализация и оценка стратегических инициатив в частных высших учебных заведениях с учетом таких факторов, как академическое превосходство, финансовая устойчивость, технологическая интеграция и участие заинтересованных сторон.*

*В заключение, исследование дает представление о сложном процессе стратегического управления в частных высших учебных заведениях, предлагая всестороннее понимание ключевых элементов, которые способствуют их дальнейшему успеху. Приняв принципы стратегического управления, адаптированные к их конкретному контексту, высшие учебные заведения могут позиционировать себя как динамичные и быстро реагирующие учреждения, способные удовлетворить растущие потребности студентов и общества в целом.*

# THE ESSENCE OF STRATEGIC MANAGEMENT IN PRIVATE HIGH SCHOOLS

***Summary***

*Strategic management in private higher education institutions is a multifaceted and dynamic process and plays an important role in shaping the future trajectory of these institutions. The study examines the formulation, implementation, and evaluation of strategic initiatives in private higher education institutions, considering factors such as academic excellence, financial sustainability, technological integration, and stakeholder engagement.*

*In conclusion, the study provides insights into the complex process of strategic management in private higher education institutions, offering a comprehensive understanding of the key elements that contribute to their continued success. By adopting strategic management principles tailored to their particular context, higher education institutions can position themselves as dynamic and responsive institutions capable of meeting the evolving needs of students and society as a whole.*

***Açar sözlər:*** *ali məktəblər, özəl təhsil mərkəzləri, strateji idarəetmə, təhsil sektoru*

***Ключевые слова:*** *высшие школы, частные образовательные центры, стратегическое управление, сфера образования*

***Key words:*** *higher schools, private educational centers, strategic management, education sector*

*In today's global world, study abroad organizations are responsible not only for providing quality education to students, but also for preparing them for the competitive and changing world of work. In this context, in this article, we will examine the methods applied to increase the efficiency of studying abroad. Effectiveness in education encompasses not only student achievement, but also a number of elements such as teaching methods, technology integration and collaboration.*

*These guidelines will focus on helping educational organizations become more effective and agile, supporting students to succeed in a globally competitive marketplace, and preparing them for the needs of the future. The following sections will propose concrete steps to improve the efficiency of educational organizations by addressing key issues such as student-centered approaches, technology integration, international cooperation, and sustainable education models.*

***Açar sözlər:*** *təhsil təşkilatları, səmərəlilik, tələbə mərkəzli yanaşma, texnologiya inteqrasiyası, beynəlxalq əməkdaşlıqlar*

***Ключевые слова:*** *образовательные организации, эффективность, личностно-ориентированный подход, интеграция технологий, международное сотрудничество*

***Key words:*** *educational organizations, efficiency, student-centered approach, technology integration, ınternational collaborations*

Təhsil cəmiyyətin inkişafında əsas amildir və bu gün Azərbaycan gəncləri üçün xaricdə təhsil almaq imkanı fərdlərə öz karyeralarını qlobal səviyyədə formalaşdırmağa imkan verir. Bu kontekstdə onların xaricdə təhsilə həvəsləndirilməsi və dəstəklənməsi üçün təqaüdlərin və böyük layihələrin həyata keçirilməsi gənclərin təkcə şəxsi inkişafına deyil, həm də ölkələrinə qayıtdıqları zaman sosial və iqtisadi inkişafına mühüm töhfə verir. Təqaüdlər maddi çətinliklərlə üzləşən istedadlı gənclərə təhsil qapılarını açmaq məqsədi daşıyır. Bu dəstək fərdlərin təhsil həyatını asanlaşdırmaqla yanaşı, həm də onların ölkəsinin gənc istedadlara investisiya yatırmaq və beynəlxalq səviyyədə rəqabət üstünlüyü əldə etmək strategiyasının bir hissəsidir. Azərbaycan hökuməti yerli təşkilatlar və beynəlxalq fondlarla əməkdaşlıq çərçivəsində təqaüd proqramlarını genişləndirərək gənclərin beynəlxalq səviyyədə təhsil ala bilməsini təmin etməlidir. Böyük layihələr isə tələbələrin təhsil proseslərini yalnız sinif mühiti ilə məhdudlaşdırmır. O, həmçinin gəncləri müxtəlif fənlər üzrə təcrübə qazanmağa və beynəlxalq layihələrdə iştirak etməyə həvəsləndirir. Elm, texnologiya, mədəniyyət və incəsənət sahələrində həyata keçirilən iri layihələr tələbələrə nəinki öyrənmə imkanları təqdim edir, həm də onlara öz sahələrində liderlik bacarıqlarını inkişaf etdirməyə və qlobal səviyyədə

şəbəkələr qurmağa imkan verir. Bu layihələr gənclərin nəinki informasiya istehlakı, həm də informasiya istehsal edən şəxsiyyətlər kimi inkişafına töhfə verir [1, s. 41].

**Əsas strategiyalar**

***Təqaüd proqramları:*** Azərbaycan hökumətinin yerli təşkilatlar və beynəlxalq fondlarla əməkdaşlıq edərək tələbələr üçün təqaüd proqramları yaratması ölkənin gənc əhalisinin potensialının artırılması və onların qlobal səviyyədə rəqabət üstünlüyü əldə etməsinə imkan verən mühüm addımdır. Bu təqaüd proqramları ilk növbədə maliyyə çətinliyi olan istedadlı gəncləri əhatə etmək üçün hazırlanmalıdır. O, təhsil imkanlarına çıxışda bərabərsizlikləri azaltmaqla gənclər arasında potensial fərqləri minimuma endirməyi hədəfləməlidir. Bundan əlavə, proqramlar müxtəlif sahələr üzrə istedadların aşkar edilməsi və dəstəklənməsi üçün müxtəlif fənlər və akademik nailiyyət səviyyələri üzrə gənc ərizəçilərə müraciət etməlidir. Bu təqaüd proqramlarının yaradılmasında yerli təşkilatlarla əməkdaşlıq cəmiyyətin ehtiyaclarına daha həssas cavab vermək üçün vacibdir. Yerli qeyri-hökumət təşkilatları və təhsil müəssisələri təqaüdlərin paylanmasında və namizədlərin müəyyən edilməsində hərtərəfli perspektiv təklif edə bilərlər. Beynəlxalq fondlarla əməkdaşlıq Azərbaycan gənclərinə təkcə milli sərhədlər daxilində deyil, həm də qlobal arenada rəqabət üstünlüyü verə bilər. Bu fondlar gənclərin beynəlxalq standartlarda təhsil ala bilmələri üçün onlara dəstək verməklə onları beynəlxalq perspektiv qazanmağa həvəsləndirə bilər.

***Universitet əməkdaşlıqları:*** Azərbaycanlı tələbələrin xaricdəki universitetlərlə əməkdaşlığı təhsilin keyfiyyətini yüksəltmək və təkcə fərdi səviyyədə deyil, həm də bütün ölkə üzrə karyera imkanlarını genişləndirmək potensialına malikdir. Bu əməkdaşlıqlar tələbələrə beynəlxalq standartlarda təhsil imkanları yaradır, onlara öz sahələrində dərin bilik və təcrübə qazanmağa şərait yaradır. Müxtəlif mədəniyyətlərdən olan tələbələrlə qarşılıqlı əlaqə onlara təkcə akademik deyil, həm də sosial və mədəni cəhətdən zənginləşməyə imkan verir.

Xaricdəki universitetlərlə əməkdaşlıq tələbələrin qlobal şəbəkəyə çıxışını təmin edir. Bu şəbəkə onların məzun olduqdan sonra karyera imkanlarına çıxışını asanlaşdıra bilər. O, həmçinin tələbələri beynəlxalq layihələrdə iştirak edərək qlobal miqyasda töhfə verməyə təşviq edir. Azərbaycan hökuməti ilə yerli universitetlər arasında əməkdaşlıq ölkənin təhsil siyasətini gücləndirə bilər. Bu, milli səviyyədə təhsil standartlarını yüksəltməklə ölkədə gənc istedadlara daha çoxşaxəli və hərtərəfli təhsil vermək məqsədinə töhfə verir [2, s. 31].

***Hökumət dəstəyi:*** Azərbaycan hökumətinin xaricdə təhsil alacaq tələbələr üçün dəstək proqramları yaratması gənclərin qlobal səviyyədə uğur əldə etmələrinə imkan yaratmaq və ölkələrinə qayıtdıqdan sonra onları töhfə

verməyə təşviq etmək üçün mühüm addımdır. Bu dəstək proqramları tələbələrə təkcə maliyyə dəstəyi vermir, həm də onlara rəhbərlik və mentorluq imkanları təklif edə bilər. Beləliklə, bu, gənclərin xaricdə təhsil alarkən qarşılaşa biləcəkləri çətinliklərin öhdəsindən gəlməyə kömək edə, onların şəxsi və peşəkar inkişafına dəstək ola bilər.

***Böyük layihələrin yaradılması:*** Azərbaycanlı tələbələrin xaricdə iştirakını təşviq etmək və onlara beynəlxalq səviyyədə qarşılıqlı əlaqə imkanı yaratmaq üçün böyük layihələrin həyata keçirilməsi gənclərə öz ölkələrinə qayıtdıqdan sonra həm tədris proseslərini zənginləşdirməyə, həm də biliklərini bölüşməyə imkan verəcək mühüm addımdır. Bu layihələr elm və texnologiyadan tutmuş mədəniyyət və incəsənətə qədər geniş sahədə həyata keçirilə bilər. Elmi araşdırmalardan tutmuş texnologiyanın inkişafına, mədəni tədbirlərdən bədii layihələrə qədər bu sahələrdə həyata keçirilən layihələr gənclərin müxtəlif fənlər üzrə özlərini təkmilləşdirməsinə şərait yaradır. Azərbaycanlı tələbələrin xaricdə təhsil alması üçün təqaüdlərin və böyük layihələrin həyata keçirilməsi gənclərə öz potensiallarını maksimum dərəcədə artırmağa kömək edəcək. Bu məqsədlərə nail olmaq üçün hökumət, özəl sektor və qeyri-hökumət təşkilatları arasında güclü əməkdaşlıq və strateji planlaşdırma tələb olunur [4, s. 50].

***Akademik istiqamət*:** Xaricdə təhsil alacaq tələbə üçün münasib universitet seçmək onların akademik məqsədlərinə uyğun təhsil almasını təmin etməklə yanaşı, həm də gələcək karyeraları üçün möhkəm zəmin yaratmağın açarıdır. Bu seçim proqram müxtəlifliyi, fakültə və tədqiqat imkanları kimi amilləri diqqətlə nəzərdən keçirməklə aparılmalıdır. Uyğun bir universitet tələbələrə geniş proqramlar təklif etməlidir. Bu, tələbələrə öz maraqlarına və karyera məqsədlərinə uyğun proqram seçməyə imkan verir. Həm ənənəvi, həm də innovativ proqram variantları tələbələrə müxtəlif perspektivlər təqdim etməklə onlara hərtərəfli təhsil təcrübəsi təqdim edir. Universitetin professor-müəllim heyəti tələbələrin akademik inkişafına təsir edən əsas amildir. İxtisaslı, təcrübəli və çoxşaxəli müəllim heyəti tələbələrə həm geniş biliklər verir, həm də onları öyrənməyə həvəsləndirir. Beynəlxalq səviyyədə tanınmış professorlar tələbələrə qlobal perspektiv təqdim edirlər.

Müvafiq universitet tələbələrə tədqiqat fəaliyyətlərində iştirak etmək imkanı təqdim etməlidir. Laboratoriya imkanları, tədqiqat mərkəzləri və layihələr tələbələrə nəzəri biliklərini praktikaya çevirmək və öz sahələrində lider olmaq imkanı verir. Bu, tələbələrə məlumatı istehlak etməklə yanaşı, həm də onu istehsal edən fərdlər kimi böyümək şansı verir. Universitetin beynəlxalq əməkdaşlığı tələbələrin qlobal şəbəkəyə çıxışını təmin edir. Mübadilə proqramları, beynəlxalq konfranslar və birgə layihələr tələbələrə müxtəlif mədəniyyətləri anlamağa və müxtəlif perspektivlər qazanmağa kömək edir. Müvafiq universitet tələbələrə məzun olduqdan sonrakı karyera məqsədlərinə

çatmaqda dəstək verən effektiv karyera xidmətləri təklif etməlidir. Təcrübə imkanları, karyera sərgiləri və mentorluq proqramları tələbələrə iş dünyasına daha yaxşı hazırlaşmaqda kömək edir [3, s. 16].

***Sosial istiqamət:*** Xaricdə təhsil təşkilatının təkcə akademik uğuru deyil, həm də sosial və mədəni təcrübələri ön plana çıxarması tələbələrə unudulmaz öyrənmə prosesinin təqdim edilməsinin əsasını təşkil edir. Tələbə təşkilatları tələbələrə liderlik və təşkilatçılıq bacarıqlarını inkişaf etdirmək imkanı verir. Klubların idarə edilməsində iştirak edən tələbələr tədbirin planlaşdırılması, büdcənin idarə edilməsi və ünsiyyət bacarıqları kimi mühüm səriştələrə yiyələnirlər. Bu, məzun olduqdan sonra iş dünyasına addım atmağa daha hazırlıqlı olmağa kömək edir. Sosial klublar tələbələrə əlaqələr qurmaq və sosial şəbəkələrini genişləndirmək imkanı verir. Bu, tələbələrə müxtəlif mədəniyyət və mənşəli insanlarla tanış olmağa və ünsiyyət bacarıqlarını təkmilləşdirməyə imkan verir. Bu sosial əlaqələr tələbələrin şəxsi və peşəkar inkişafına kömək edir. Sosial klublar və təşkilatlar tələbələrə təkcə dərslərdə deyil, həm də sosial qarşılıqlı əlaqələr vasitəsilə böyümə şansı verir. Dostluğun qurulması, komanda işi və mədəni qarşılıqlı əlaqə tələbələrin özlərini daha yaxşı başa düşməsinə və müxtəlif perspektivlər qazanmasına kömək edir [6, s. 47].

Xaricdə təhsil alan tələbələrin aid olduğu təşkilatlar əmək bazarına inteqrasiyasını gücləndirmək üçün müxtəlif strategiyalara və səriştələrə diqqət yetirməsi çox vacibdir. Bu inteqrasiya tələbələrin məzun olduqdan sonra uğurlu karyera qurmalarına kömək edir və həmçinin iş dünyasının ehtiyaclarına uyğun ixtisaslı mütəxəssislərin hazırlanmasına töhfə verir [7, s. 60].

Biznes problemlərinin effektiv həllini tapmaq bacarığı əmək bazarında axtarılan mühüm bacarıqdır. Problemin həllinə yönəlmiş kurslar tələbələrə analitik təfəkkür, yaradıcı təhlil və qərar qəbuletmə proseslərinin mənimsənilməsini təmin etməlidir. Yaxşı ünsiyyət bacarıqları peşəkarlar arasında qarşılıqlı əlaqəni gücləndirən əsas elementdir. Ünsiyyət bacarıqlarının təkmilləşdirilməsinə yönəlmiş kurslar tələbələrə effektiv təqdimat, yazılı və şifahi ünsiyyət bacarıqları verməlidir. Hər bir sektorun öz ehtiyacları olduğunu nəzərə alsaq, tələbələrə xüsusi bilik və bacarıqlar verən kurslar böyük əhəmiyyət kəsb edir. Proqram təminatı, dizayn və ya mühəndislik kimi sənayeyə xas sahələrdə təlimin dərinləşdirilməsi tələbələrə ixtisaslaşmağa imkan verir [5, s. 53].

Beynəlxalq təcrübə və iş proqramları tələbələrə müxtəlif ölkələrdə iş təcrübəsi qazanmaq imkanı verir. Bu proqramlar tələbələrə təkcə yerli deyil, həm də qlobal biznes təcrübələri və standartları haqqında öyrənmək imkanı verir. Bundan əlavə, mədəni müxtəliflik çərçivəsində iş təcrübəsi tələbələrin şəxsi və peşəkar inkişafına kömək edir. Beynəlxalq iş imkanları tələbələrə qlobal peşəkar şəbəkə qurmaq şansı verir. Beynəlxalq mentorluq proqramları

təcrübəli mütəxəssislərlə əlaqə saxlamaq və onların karyeraları haqqında təlimat almaq imkanı verir. Bu əlaqələr tələbələri karyera məqsədlərini daha effektiv təyin etməyə və onlara nail olmağa ruhlandıra bilər. Beynəlxalq iş imkanları tələbələrə müxtəlif mədəniyyətlərlə əməkdaşlıq etmək imkanı verir. Müxtəlif komandalarda işləmək təcrübəsi tələbələrə mədəniyyətlərarası ünsiyyət bacarıqlarını inkişaf etdirməyə kömək edir və gələcək iş həyatlarında qlobal perspektiv təklif edir [8, s. 62].

Yuxarıdakı strategiyalar xaricdə təhsil alan təşkilatların tələbələrini əmək bazarına hazırlamaq və inteqrasiya etmək üçün izləyə biləcəyi əsas yolları əks etdirir. Bu, tələbələrin təkcə akademik deyil, həm də peşəkar səviyyədə müvəffəqiyyətlə məzun olmalarını təmin etmək üçün mühüm addımdır.

Strateji təlimatların həyata keçirilməsi ilə Azərbaycanda xaricdə təhsilin səmərəliliyini artırmaq olar. Güclü strateji əməkdaşlıqlar qurmaqla azərbaycanlı tələbələrə daha geniş qlobal şəbəkə və potensial biznes əlaqələri təklif oluna bilər. Bundan əlavə, tələbələrə müxtəlif akademik proqramlar və beynəlxalq təcrübə imkanları vasitəsilə geniş təcrübə təklif etməklə, onları qlobal iş dünyasına daha yaxşı hazırlamaq olar.

Tələbə mübadilə proqramları və məzunların izlənilməsi sistemləri azərbaycanlı tələbələrə beynəlxalq təcrübə əldə etmək və onların karyera inkişafını izləmək üçün hərtərəfli yanaşma təmin etməklə onlara beynəlxalq müsabiqələrdə üstünlük verə bilər. Bununla da ölkənin təhsil sistemi qlobal standartlara yaxın səviyyəyə çata və azərbaycanlı fərdlər beynəlxalq arenada uğurla rəqabət apara biləcək səviyyədə təchiz oluna bilər.

***Ədəbiyyat***

1. *Abbasov, R. (2020). Azərbaycanlı tələbələrin xaricdə təhsili: imkanlar və problemlər. Journal of Higher Education and Science, 10(2), 238-251.*
2. *Babayev, E., & Əliyeva, S. (2018). Azərbaycanlı tələbələrin xaricdə təhsilinin asanlaşdırılmasında təhsil agentlərinin rolu: perspektivlər və problemlər. Journal of Studies in International Education, 22(2), 164-182.*
3. *Bağırova, F., və Hüseynov, A. (2020). Azərbaycan Tələbələrinin Xaricdə Təhsilinə Hökumət Siyasətlərinin Təsiri: Nümunə Tədqiqatı. Journal of Education Policy and Leadership, 14(3), 1-18.*
4. *Cəfərova, Z., & Hacıyeva, G. (2017). Azərbaycanlı Tələbələrin Xaricdə Təhsilinə Dəstəkdə Qeyri-Hökumət Təşkilatlarının Rolu. European Journal of Education Studies, 3(6), 150-162.*

5. *Əzizov, E., & Salehli, M. (2019). Xaricdə təhsil şəxsi və peşəkar inkişaf vasitəsi kimi: Azərbaycanlı tələbələrin qavrayışları. Journal of Studies in International Education, 23(4), 457-475.*
6. *İbrahimov, E., & Hacıyeva, S. (2018). Azərbaycanlı Tələbələrin Xaricdə Təhsili ilə bağlı Dövlət Siyasəti və Təcrübələri. Journal of Education and Humanities, 9(2), 297-312.*
7. *Qasımova, F., & İsayeva, G. (2019). Azərbaycanlı Tələbələrin Xaricdə Təhsilinin İdarə Edilməsi: Problemlər və Strategiyalar. Beynəlxalq Tələbələr Jurnalı, 9(2), 616-634.*
8. *Quliyeva, S., & Hüseynli, N. (2019). Azərbaycanlı Tələbələrin Xaricdə Təhsilində Keyfiyyətin Təminatı: Problemlər və Həll Yolları. Beynəlxalq Təhsil İnkişafı Jurnalı, 70, 1-10.*

**T.R.Qasımova**
**Azərbaycan Dövlət Pedaqoji Universiteti**
***turkan.qasimova97@mail.ru***

# PUBLİK HÜQUQİ ŞƏXS STATUSLU ALİ TƏHSİL MÜƏSSİSƏLƏRİNİN QARŞISINDA DURAN VƏZİFƏLƏR

***Xülasə***

*Məqalədə ilk növbədə publik hüquqi şəxs statusunun adi hüquqi şəxs statusundan fərqli cəhətləri qeyd olunmuşdur. Bundan başqa publik hüquqi şəxs statuslu müəssisələrin adi hüquqi şəxs statuslu müəssisələrdən üstün cəhətləri vurğulanmışdır. Əlavə olaraq publik hüquqi şəxs statusu Azərbaycan Respublikasında qəbul olunduğu dövrdən bu statusu əldə edən ali təhsil müəssisələr qeyd edilmişdir. Həmçinin məqalədə publik hüquqi şəxs statusu əldə edən ali təhsil müəssisələrinin əldə edəcəyi üstünlükləri, hüquqları qeyd olunmuş, təhsil ekspertinin fikrinə istinad olunmuşdur. Son olaraq publik hüquqi şəxsin nümunəvi nizamnaməsi haqqında məlumat verilmişdir.*

# ЗАДАЧИ, СТОЯЩИЕ ПЕРЕД ВЫСШИМИ УЧЕБНЫМИ ЗАВЕДЕНИЯМИ СО СТАТУСОМ ПУБЛИЧНОГО ЮРИДИЧЕСКОГО ЛИЦА

***Резюме***

*В статье в первую очередь отмечены различия между статусом публичного юридического лица и обычного юридического лица. Кроме того, подчеркнуты преимущества учреждений с статусом публичного юридического лица перед учреждениями с обычным юридическим статусом. Кроме того, отмечены высшие учебные заведения, которые получили статус публичного юридического лица с момента его введения в Азербайджанской Республике. Кроме того, в статье указаны преимущества и права высших учебных заведений, получающих статус публичного юридического лица, ссылаясь на мнение эксперта в области образования. Наконец, предоставлена информация о типовом уставе публичного юридического лица.*

# TASKS FACING HIGHER EDUCATION INSTITUTIONS WITH PUBLIC LEGAL ENTITY STATUS

***Summary***

*The article begins by highlighting the differences between the status of a public legal entity and that of an ordinary legal entity. Furthermore, the superior aspects of institutions with the status of a public legal entity over those with the status of an ordinary legal entity are emphasized. Additionally, the article mentions the higher education institutions that have obtained the status of a public legal entity*

*since its introduction in the Republic of Azerbaijan. Moreover, the article outlines the advantages and rights that higher education institutions obtaining the status of a public legal entity will have, with reference to the opinion of an education expert. Finally, information about the model charter of a public legal entity is provided.*

***Açar sözlər:*** *publik hüquqi şəxs statusu, adi hüquqi şəxs, publik hüquqi şəxs statuslu ali təhsil müəssisələri, publik hüquqi şəxsin nümunəvi nizamtnaməsi*

***Ключевые слова:*** *статус публичного юридического лица, обычное юридическое лицо, предприятия со статусом публичного юридического лица, ведущие знаменитости высших учебных заведений со статусом публичного юридического лица*

***Key words:*** *public legal entity status, ordinary legal entity, higher education institutions with public legal entity status, model charter of public legal entity*

Publik hüquqi şəxs statusundan danışmazdan öncə onun adi hüquqi şəxs statusundan nə kimi fərqli cəhətləri olduğuna nəzər yetirək.

*Hüquqi şəxs* - Azərbaycan Respublikasının Mülki Məcəlləsi ilə bu cür müəyyən edilmiş qurumdur.

*Publik hüquqi şəxs* – dövlət və bələdiyyə adından yaradılan, ümumdövlət və ya ictimai əhəmiyyət daşıyan fəaliyyətlə məşğul olan, dövlət və ya bələdiyyə orqanı olmayan təşkilatdır.

Adi hüquqi şəxs o deməkdir ki, onun əmlakı girov qoyula, bu əmlaka qarşı məhkəmə icraatı başlana, bu qurum müflis ola bilər, baxmayaraq ki, bu qurum dövlət əhəmiyyətli funksiyalarını həyata keçirir.

Publik hüquqi şəxs dövlət və cəmiyyət üçün mühüm əhəmiyyət kəsb edən funksiyaları həyata keçirir. Məhz buna görə də mülki hüququn subyektlərindən biri olan hüquqi şəxsdən fərqli olaraq, onun kifayət qədər imtiyazları var. Publik hüquqi şəxs statusunun üstünlüklərini aşağıdakı kimi qruplaşdırmaq olar:

✓ Publik hüquqi şəxs heç vaxt müflis elan oluna bilməz;

✓ Publik hüquqi şəxsə qarşı məhkəmə iddiaları adi mülki qaydada yox, inzibati icraat çərçivəsində mümkündür;

✓ Publik hüquqi şəxs həm pulsuz, həm də pullu xidmətlər göstərə, özünü maliyyələşdirə bilər və yaxud zərurət olduqda dövlət büdcəsi hesabına maliyyələşə bilər;

✓ Publik hüquqi şəxsin əməkdaşları dövlət qulluqçuları ola bilər. “Publik hüquqi şəxslər haqqında” qanunun 6.4-cü maddəsinə əsasən “Dövlət rüsumu haqqında” Azərbaycan Respublikasının Qanununda nəzərdə tutulmuş hallarda hüquqi faktların qeydiyyatı ilə bağlı xidmətlər göstərən (hüquqi hərəkətləri həyata keçirən) müvafiq icra hakimiyyəti orqanı tərəfindən yaradılan publik hüquqi şəxsin əməkdaşları nizamnaməsində nəzərdə tutulmuş halda dövlət qulluqçularına bərabər tutulurlar;

✓ Onun bağladığı müqavilələr mülki müqavilə yox, dövlət orqanlarının bağladıqları müqavilələr kimi inzibati müqavilə ola bilər. Onun üçün mülki hüququn hüquqi şəxsləri üçün mövcud olan məhdudiyyətlər yoxdur;

✓ Publik hüquqi şəxsin bilavasitə təsisçisi dövlətdir.

İnkişaf etmiş Avropa ölkələrinə nəzər yetirsək, görərik ki, uşaq bağçalarından başlamış məktəb və universitetlər, dövlətə məxsus tibb klinikalarından tutmuş böyük korporasiyalar publik hüquqi şəxs statusuna malikdir.

Azərbaycanda da 29 dekabr 2015-ci il tarixli "Publik hüquqi şəxslər haqqında" qanun qəbul olunmuşdur. Azərbaycan Respublikasının Publik hüquqi şəxslər haqqında qanunu 4 fevral 2016-cı ildən qüvvəyə minmişdir. Publik hüquqi şəxslər haqqında əsas məlumatlar, onların hüquq və vəzifələri bu qanunda yer almışdır.

Publik hüquqi şəxs haqqında qanunu qüvvəyə mindikdən sonra bir çox müəssisələr publik hüquqi şəxs statusu əldə etdi. İlk publik hüquqi şəxs statusu əldə edən müəssisə isə ali təhsil müəssisəsi olan Bakı Mühəndislik Universiteti oldu. Bundan sonra bir çox universitet publik hüquqi şəxs statusu əldə etdi:

1. Bakı Mühəndislik Universiteti (08.11.2016)
2. Azərbaycan Dillər Universiteti (16.06.2017)
3. Bakı Dövlət Universiteti (21.06.2017)
4. Azərbaycan Dövlət İqtisad Universiteti (21.06.2017)
5. Azərbaycan Dövlət Pedaqoji Universiteti (12.08.2022)
6. Azərbaycan Dövlət Neft və Sənaye Universiteti (28.12.2022) və s.

Təhsil müəssisələrinin publik hüquqi şəxsə çevrilməsi, "Azərbaycan Respublikasında Təhsilin İnkişafı Üzrə Dövlət Strategiyası"nın həyata keçirilməsi istiqamətində bir neçə mühüm məqsədin vəzifələrinə cavab verən bir addım kimi dəyərləndirmək mümkündür. Bu dəyişikliklər, təhsil sektorunun idarə olunmasında və inkişafında daha şəffaf, effektiv və sürətli proseslərin təmin edilməsini nəzərdə tutur.

Bu çərçivədə, idarəetmə sisteminin təkmilləşdirilməsi, dövlət qurumlarının saxlanılması xərclərin azaldılması, idarəetmədə daha dəqiqlik və səmərəlilik prinsiplərinin tətbiq edilməsi, həmçinin idarəetmədə mobilliyin, effektivliyin təmin olunması bu prosesin əsas məsələləri arasında yer alır. Publik hüquqi şəxs statusuna malik olan təhsil müəssisələrinin yaranmasının əsas məqsədi, təhsil sektorunda daha dərin və funksional dövlət-ictimai tənzimləmə mexanizmlərinin tətbiq edilməsidir.

Bu yeni idarəetmə sistemi, dövlət-ictimai və dövlət-biznes tərəfdaşlığı prinsiplərinə əsaslanan bir struktur ilə tanınır. Bu dəyişikliklər, özünümaliyyələşmə prinsiplərinin gücləndirilməsini, ödənişli təhsil xidmətlərinin inkişafını, dövlət və bələdiyyə təhsil müəssisələrində ödənişli

xidmətlərin təşkil edilməsini və bu xidmətlərdən gəlirin sərbəst istifadəsini təmin edəcək proseslərin qurulmasını dəstəkləyir.

Bu dəyişikliklər, ali təhsil müəssisələrinin idarə olunması, təşkil edilməsi və funksionallaşdırılmasında müasir standartlara uyğunluğu və dövlətin təhsil sektoruna daha effektiv dəstəyini təmin etmək məqsədlərini daşıyır. Bununla yanaşı, bu məsələ ali təhsil müəssisələrində idarəetmənin keyfiyyətinin artırılmasında maraqlı olan tərəflərin - ictimaiyyətin, işəgötürənlərin bu prosesdə iştirakına, şəffaf və səmərəli idarəetmə mexanizmlərin təkmilləşdirilməsinə, göstəriləcək ödənişli təhsil xidmətlərinin növünün genişləndirilməsinə şərait yaradır, habelə ali təhsil müəssisələrində cavabdehliklə yanaşı, hesabatlılığın artmasına zəmin yaratmaq məqsədinə xidmət edir.

Onu da qeyd etmək lazımdır ki, publik hüquqi şəxs məsələsinin universitetlərə şamil edilməsi şübhəsiz ki, onların maliyyə cəhətdən asılılığını aradan qaldırır və idarəetməni optimallaşdırır. Ekspertlər hesab edirlər ki, universitetlər publik hüquqi şəxs olandan sonra mütləq öz maliyyə mənbələrini axtarmağa çalışacaqlar. Yəni, əlavə vəsaitlər əldə etməlidirlər ki, universiteti həm maddi cəhətdən saxlasınlar, həm işçilərin əmək haqqını təmin etsinlər, həm tələbə təqaüdlərini versinlər, həm də digər xərclərini qarşılasınlar. Bunun üçün publik hüquqi şəxs elan olunan ali məktəblər əlavə imkanlar axtaracaq, ayrı-ayrı layihələr həyata keçirəcəklər.

Universitetlərin publik hüquqi şəxsə çevrilməsi, “Publik hüquqi şəxs haqqında” qanununda göstərilən normativlər çərçivəsində təhsil müəssisələrinin effektiv idarə olunması və inkişafı üçün effektiv bir mərhələdir. Bu dəyişikliklər, əsasən, universitetlərin idarəetmə strukturlarında və funksionallığında dəyişikliklərə səbəb olur.

Əvvəlcədən universitetlərin idarə olunmasında mühüm rolları elmi şuralar, fakültələr, və kafedralar kimi bir qrup idarə orqanı üstləyirdi. Lakin publik hüquqi şəxs formatına keçid zamanı, universitetin idarəetmə strukturu elmi şura, nəzarət şurası, rektorluq, büdcə komitəsi, audit komitəsi kimi dəyişir. Bu yeni qurumlar universitetin idarəetmə prosesində müəyyən səlahiyyətləri daşıyır və müxtəlif fəaliyyət sahələrində fəaliyyət göstərir.

Məsələn, nəzarət şurasının səlahiyyətləri universitetin strateji inkişaf planının, illik büdcəsinin, və fəaliyyət planının təsdiq edilməsi ilə bağlıdır. Bu qurum, ayrıca universitetin audit komitəsinin üzvlərinin seçilməsi və ali məktəbin fəaliyyət istiqamətlərinin müzakirə edilməsi kimi məsələlərdə də aktiv rol oynayır.

Bu dəyişikliklər universitetin idarəetmə strukturunda şaquli dəyişikliklərə səbəb olur və rektorluğun funksiyaları yalnız elmi şurada deyil, həmçinin nəzarət şurasında da müzakirə olunur. Bu, universitetlərin daha demokratik və müzakirəyə əsaslanan bir idarəetmə prosesinə sahib olmalarına

kömək edir, tədqiqat və inkişaf yolunda daha fəal və müəyyən bir yol yaratmaq üçün daha effektiv bir alət təşkil edir.

Publik hüquqi şəxs statusunun ali təhsil müəssisələrində yaradacağı dəyişikliklər barəsində təhsil eksperti Kamran Əsədovun fikirlərinə də nəzər salaq: "Universitetlərin publik hüquqi şəxsə çevrilməsi idarəetmədən tutmuş, maliyyələşməyə qədər müsbət dəyişikliklərə səbəb olacaq. Universitetlər qrant müqavilələrində iştirak edə biləcək, hansısa beynəlxalq qurumla əməkdaşlıq üçün yuxarı qurumlardan razılıq gözləməyəcəklər. Universitetlərin təhsil haqlarından əlavə digər gəlirləri də olacaq. Yəni əlavə gəlir sahələri yarada biləcəklər. "Təhsil haqqında" qanunun 22-ci maddəsində edilən dəyişikliklərə əsasən, hazırlıq qrupları yaradılacaq, qruplardan gələn gəlirləri öz ehtiyaclarına ödəyə biləcəklər. Tərcümə xidmətləri göstərə biləcəklər, jurnallar nəşr edəcəklər. Publik hüquqi şəxs statusu qəbul planına və təhsil haqlarına təsir edə bilər. "Təhsil haqqında" qanuna edilən dəyişiklik də buna əsas verir. Qanunda göstərilir ki, artıq ali məktəblərə qəbul planını universitetlər özləri müəyyən edə biləcəklər. Hətta təhsil formalarını da özləri müəyyənləşdirəcəklər" [3].

*Publik hüquqi şəxsin nümunəvi nizamnaməsi* Azərbaycan Respublikasının "Publik hüquqi şəxslər haqqında" qanununun 6-cı maddəsinə əsasən müəyyənləşdirilmişdir.

Müxtəlif sahələr üzrə publik hüquqi şəxsin nümunəvi nizamnaməsi müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən oluna bilər.

Publik hüquqi şəxsin nizamnaməsində aşağıdakılar göstərilir:

1. Adı, olduğu yer və publik hüquqi şəxs olduğu;
2. Nizamnamənin qəbulu və ona dəyişikliklərin edilməsi qaydası;
3. Fəaliyyətin istiqamətləri, hüquq və vəzifələri;
4. İdarə olunma qaydası;
5. Publik hüquqi şəxsin üzərində nəzarətin forması və əhatə dairəsi;
6. Nizamnamə fondu;
7. Əmlakının formalaşma mənbələri, maliyyə fəaliyyətinin əsasları, publik hüquqi şəxsin məhsullarının (malların, işlərin, xidmətlərin) qiymətlərinin tənzimlənən qiymət olub-olmaması;
8. Sahibkarlıq fəaliyyəti ilə məşğul olmaq, təsərrüfat cəmiyyətlərinin yaradılması və ya onlarda iştirak etmək hüququ (verildiyi halda);
9. Publik hüquqi şəxsin fəaliyyəti barədə ictimaiyyətin məlumatlandırılması qaydası;
10. Ləğvi və yenidən təşkili qaydası.

Dövlətin adından yaradılan publik hüquqi şəxsin nizamnaməsi müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan tərəfindən, bələdiyyə adından yaradılan publik hüquqi şəxsin nizamnaməsi isə müvafiq bələdiyyə tərəfindən təsdiq edilir.

***Ədəbiyyat***

1. *Azərbaycan Respublikasının "Publik hüquqi şəxslər haqqında qanunu".*
2. *Azərbaycan Respublikasının "Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında" qanunu.*
3. *https://www.bizimyol.info/az/news/4361.html*

**A.S.Əzizova**
**Azərbaycan Dövlət Pedaqoji Universiteti**
***azizva.aynur1999@gmail.com***

# I SİNİFƏ QƏBUL PROSESİNDƏ YENİLİKLƏR VƏ ONLARIN TƏTBİQ SƏVİYYƏSİ

***Xülasə***

*Müasir təhsil sistemində bərqərar olan yeni pedaqoji təfəkkür və kurikulum islahatları şagirdin məktəbə hazırlığı səviyyəsinə də yeni yanaşmanın formalaşmasını tələb edir. Uşağın məktəb təliminə hazırlığı dedikdə, bəzən yanlış olaraq ilkin savad təlimi vərdişlərini - oxumaq, yazmaq, irəliyə və geriyə saymaq və s. nəzərdə tuturlar. Əslində isə altıyaşlıların məktəbə hazırlığı onların sosial, emosional-iradi və intellektual hazırlığından ibarətdir. I sinfə elektron sənəd qəbulu təhsil sahəsində əhaliyə göstərilən elektron xidmətlərin dairəsinin genişləndirilməsi, şagird kontingentinin uçot sisteminin təkmilləşdirilməsi, valideynlərin əlavə vaxt itkisinin qarşısının alınması məqsədilə tətbiq edilir. Bu yenilik şəffaflığın təmin edilməsi, vaxt itkisinin aradan qaldırılması, cəmiyyətdə informasiya texnologiyalarından istifadə mədəniyyətinin formalaşması baxımından olduqca əhəmiyyətlidir. Prosesdə başlıca prinsip valideyn məmnunluğunun təmin edilməsidir.*

# ИННОВАЦИИ В ПРОЦЕССЕ ПРИЕМА В I КЛАСС И УРОВЕНЬ ИХ ВНЕДРЕНИЯ

***Резюме***

*Новое педагогическое мышление и реформы учебных программ, сложившиеся в современной системе образования, требуют формирования нового подхода к уровню готовности учащихся к школе. Подготовку ребенка к школе иногда ошибочно называют навыками ранней грамотности – чтения, письма, прямого и обратного счета и т. д. они имеют в виду. Фактически подготовка шестилетних детей к школе складывается из их социальной, эмоционально-волевой и интеллектуальной подготовки.Прием электронных документов за 1 класс применяется в целях расширения спектра электронных услуг, оказываемых населению в сфере образования, усовершенствовать систему учета ученического контингента, предотвратить дополнительные потери времени родителей. Данное нововведение очень важно с точки зрения обеспечения прозрачности, исключения потерь времени и формирования культуры использования информационных технологий в обществе. Главный принцип в этом процессе – обеспечение удовлетворенности родителей.*

# INNOVATIONS IN THE CLASS I ADMISSION PROCESS AND THEIR LEVEL OF IMPLEMENTATION

***Summary***

*The new pedagogical thinking and curriculum reforms established in the modern education system require the formation of a new approach to the level of student readiness for school. A child's school readiness is sometimes mistakenly referred to as early literacy skills - reading, writing, counting forwards and backwards, etc. they mean. In fact, the preparation of six-year-olds for school consists of their social, emotional-volitional and intellectual preparation. Accepting electronic documents for the 1st grade is applied in order to expand the range of electronic services provided to the population in the field of education, to improve the accounting system of the student contingent, and to prevent additional time loss for parents. This innovation is very important in terms of ensuring transparency, eliminating time loss, and forming a culture of using information technologies in society. The main principle in the process is to ensure parental satisfaction.*

***Açar sözlər:*** *müasir təhsil sistemi, məktəbə hazırlıq, elektron*

***Ключевые слова:*** *современная система образования, подготовка к школе, электронная*

***Key words:*** *modern education system, school preparation, electronic*

Ümumi təhsil müəssisələrinin I siniflərinə qəbul prosesi www.mektebeqebul.edu.az elektron portalı vasitəsilə aparılır. Ölkədə əhalinin artım dinamikası birinci sinfə qəbulda da özünü göstərib. Belə ki, ötən il təhsil müəssisələrinə 50 minə yaxın şagird qəbulu aparılmışdısa, 2023-cü il üzrə məktəblərə 51 mindən artıq uşağın birinci sinfə qəbul olacağı proqnozlaşdırılır. Elm və Təhsil Nazirliyi vətəndaş məmnuniyyətinə nail olmaq və şəffaflığı təmin etmək məqsədi ilə Bakı şəhərində məktəbə qəbulu elektron sistem vasitəsilə aparır. Bu ildən ilk dəfə olaraq Gəncə və Sumqayıt şəhərlərində, o cümlədən Abşeron rayonunda da eyni qayda tətbiq ediləcək.

Qeyd edək ki, sözügedən xidmət "Dövlət orqanlarının elektron xidmətlər göstərməsinin təşkili sahəsində bəzi tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 23 may 2011-ci il tarixli fərmanının tələblərinə uyğun olaraq həyata keçirilir.

Birinci sinfə qəbulda 5 ildir ki, tətbiq edilən və bu ildən əhatə dairəsi bir az da genişləndirilən elektron sistem Bakıda artıq aktivləşdirilib.

Bakı şəhərində I sinfə şagird qəbulunun elektron sistem vasitəsilə həyata keçiriir. Qeyd etdiyimiz kimi, bu tədris ilindən elektron xidmətə daha iki böyük şəhər və ölkənin ən böyük rayonu da qoşulmuşdur. Elm və Təhsil Nazirliyinin İctimaiyyətlə əlaqələr sektorunun müdiri Cəsarət Valehov bildirib ki, Abşeron rayonu, Gəncə və Sumqayıt şəhərlərində təqribən 16-17 min uşaq birinci sinfə gedəcəkdir.

Elm və Təhsil Nazirliyinin birbaşa tabeliyindəki lisey və gimnaziyalara da I sinfə şagird qəbulu valideynin (qanuni nümayəndənin) elektron ərizəsinin www.mektebeqebul.edu.az saytında qeydiyyatı yolu ilə həyata keçiriləcək. Bakı Şəhəri üzrə Təhsil İdarəsinin İctimaiyyətlə əlaqələr sektorunun müdiri Bəşarət Məmmədov bildirib ki, qeydiyyat ümumtəhsil müəssisələrində olduğu kimi, fevralın 22-dən başlasa da, sentyabra deyil, may ayının 31-dək aparılacaq.

B.Məmmədov onu da qeyd edib ki, ötən ildən tətbiq edilən yeniliyə əsasən, Elm və Təhsil Nazirliyinin birbaşa tabeliyindəki ümumi təhsil müəssisələrində və Bakı Şəhəri üzrə Təhsil İdarəsinin tabeliyində fəaliyyət göstərən 287 nömrəli "Zəkalar" liseyi, eləcə də 160 nömrəli Klassik Gimnaziyada 2018-2019-cu dərs ili üçün birinci sinfə, ilk növbədə, həmin ümumi təhsil müəssisələrinin müəyyən edilmiş mikroərazisində yaşayan vətəndaşların ərizələrinin qeydiyyatı aparılır. Digər ərazilərdə yaşayan valideynlərin və yaxud qanuni nümayəndələrin uşaqları qeyd olunan ümumi təhsil müəssisələrinə yalnız müsabiqə yolu ilə qəbul üçün qeydiyyatdan keçə bilərlər. Müsabiqənin iyun ayının ikinci yarısında keçirilməsi planlaşdırılır.

2023-cü tədris ilində 5 yaşlıların 55, bu il isə 65 faizi məktəbəhazırlıq qruplarında təhsilə cəlb edilib. Bakı şəhər məktəblərində artan faiz göstəriciləri Bakı ətrafı - Qaradağ, Sabunçu, Suraxanı kimi rayonların məktəbləri hesabına olub. Bakı Şəhəri üzrə Təhsil İdarəsinin İnformasiya təminatı sektorunun müdiri İlhamə Abdullayeva "Azərbaycan müəllimi" qəzetinə açıqlamasında ildən-ilə artan dinamikanı məktəbəhazırlıq qruplarının dövlət hesabına olması ilə əlaqələndirib: "Nəticədə ildən-ilə daha çox uşağı əhatə edən proqram 2020-ci il üçün qoyulan hədəfə çatacaq. Belə ki, həmin il məktəbəhazırlığa cəlb edilənlərin 5 yaşlı uşaqların 90 faizini əhatə edəcəyinə dair proqnozlar özünü doğruldur".

Məktəbəhazırlıq qruplarında təhsil alan uşaqların valideynlərinin istəyini nəzərə alaraq, onların I sinifdə də eyni sinifdə komplektləşdirilməsi və eyni müəllimə həvalə olunması nəzərdə tutulur. Bu qayda 2017-2018-ci tədris ilində məktəbəhazırlıq qruplarında dərs deyən, 2018-2019-cu tədris ilində I sinifdə tədris aparması planlaşdırılan müəllimlərin dərs dediyi siniflərə şamil olunur. Odur ki, övladı məktəbəhazırlıq qrupunda təhsil alan valideynlər fevralın 22-də sistem açılan kimi ismarıc alır. Göndərilən ismarıcda məktəbəhazırlıq qrupunda övladına dərs deyən müəllimin birinci sinfi açılıbsa, bu barədə valideynlərə məlumat verilir. Lakin onu da qeyd etməliyik ki, məktəbəhazırlıq qruplarında təhsil alan uşaqların valideynləri birinci sinfə qəbul zamanı məktəb seçimində sərbəstdir. Belə ki, onlar uşağının birinci sinfə məktəbəhazırlıq keçdiyi məktəbdə deyil, arzuladığı başqa məktəbdə getməsinə də qərar verə bilər. Odur ki, məktəbəhazırlıq sinfində dərs deyən müəllimi deyil, başqa müəllimi, hətta başqa məktəbi seçənlər bu sorğunu silib elektron

ərizəsini istədiyi kimi qeyd etməlidir. Əks halda, ərizəni birbaşa çap edib tələb olunan digər sənədlərlə birgə məktəbə təqdim edə bilər. Bu, elektron sistemin tətbiq olunduğu rayonlarda da eyni qaydada həyata keçiriləcək.

2023-cü il üzrə Abşeron, Gəncə və Sumqayıtdan birinci sinfə gedəcək 17 minə yaxın uşağın 8000-dən çoxu məktəbəhazırlıq mərhələsinə cəlb olunanlardır. Bu da ona dəlalət edir ki, onlar bir təhsil mərhələsindən digərinə daha rahat keçid edəcəklər.

Qeydiyyat: Bəs, məktəbə kimlər qəbul edilir və onların qeydiyyatı necə aparılır?

Ümumi təhsil müəssisələrinin I sinfinə 15 sentyabr 2018-ci il tarixinədək 6 yaşı tamam olan, eləcə də Elm və Təhsil Nazirliyi tərəfindən müəyyən edilmiş qaydada xüsusi istedadlı uşaqların vaxtından əvvəl I sinfə qəbulu üzrə müsahibədən uğurla keçən 16 sentyabr 2012-ci il tarixindən 31 dekabr 2012-ci il tarixinədək olan dövrdə anadan olmuş və dövlət ümumi təhsil müəssisələrində ödənişsiz məktəbəhazırlıq qrupunu bitirmiş uşaqlar qəbul edilir.

Məktəbəhazırlıq qruplarında təhsil alan yaşı az uşaqlar, yəni məktəb yaşı sentyabrın 16-dan dekabrın 31-nə qədərki müddətdə tamam olan uşaqlar müsabiqəsiz birinci sinfə qəbul ediləcəklər. Məktəbəhazırlıq qruplarına cəlb edilməyənlər üçün də qeydiyyat açıqdır və Bakı şəhərində fevralın 22-dən iyunun 20-dək davam etmişdir.

Uşağı bu tələbə uyğun olan valideynlər sentyabrın 15-dək davam edən elektron ərizənin qeydiyyatı prosesində məktəbi, təlim dilini və müəllimi seçmək imkanına malikdir. Bu imkanları dəyərləndirmək üçün əvvəlcə “məktəbəqəbul.edu.az” saytında “şəxsi kabinet” yaradır, növbəti addımda övladını qeydiyyatdan keçirir, daha sonra arzuladığı məktəbi, bölməni və müəllimi seçir.

B.Məmmədovun sözlərinə görə, ötən ildən tətbiq edilən müəllim seçimi valideynlər tərəfindən xüsusilə razılıqla qarşılanıb. Çünki ötən ilə qədər valideynlər arzuladığı müəllim, onun sinfində yer olub-olmaması ilə bağlı suallarına cavab tapmaq üçün məktəbə yaxınlaşmalı olurdularsa, artıq buna ehtiyac qalmır. Çünki elektron sistemə daxil olan kimi bütün bu suallarının cavabını tapır: “Hətta valideynlərdən xahiş edirik ki, qeydiyyatdan keçənə qədər məktəblərə getməsinlər”.

Məktəbəhazırlıq qruplarına qəbul isə ötən ilki kimi tədris ilinin sonu - iyun, iyul və avqust aylarında elektron qaydada həyata keçiriləcək. Valideyn “mektebeqebul.edu.az” saytına daxil olaraq, övladı üçün istədiyi məktəbəhazırlıq qrupunu, hətta müəllimi seçəcək. Bu ilki yenilik ondan ibarətdir ki, məktəbəqəbul elektron qaydada aparılan rayonlarda məktəbəhazırlıq üçün də elektron qaydada müraciət etmək mümkün olacaq.

Elm və Təhsil Nazirliyi valideynlərin imkanlarını və yarana biləcək problemlərini nəzərə alıb. Məsələn, evində internet çıxışı olmayan valideynlər Bakı şəhəri üzrə 52 qeydiyyat mərkəzindən birinə yaxınlaşa bilərlər. Məsul şəxslər onlara nəinki şərait yaradacaq, hətta qeydiyyatdan keçməkdə kömək də göstərirlər.

Alternativ qeydiyyat mərkəzləri Gəncə, Sumqayıt və Abşeronda da təşkil edilib. Gəncə şəhəri üzrə 5, Sumqayıt şəhəri üzrə 4, Abşeron rayonu üzrə 6 məktəbdə Alternativ qeydiyyat mərkəzləri yaradılıb. Həmin mərkəzlərin yerləşdiyi məktəbi və ünvanı da "mektebeqebul.edu.az" saytından əldə etmək mümkündür.

Həmçinin I sinfə şagird qəbulu prosesində valideynlərlə (qanuni nümayəndələrlə) qeydiyyat və sənəd qəbulu üzrə yarana biləcək mübahisəli məsələlərin həlli məqsədilə Bakı şəhəri üzrə 6, Gəncə şəhəri üzrə 1, Sumqayıt şəhəri üzrə 1 və Abşeron rayonu üzrə 1 ümumi təhsil müəssisəsində Apelyasiya Komissiyası təşkil olunmuşdur.

Övladını elektron qeydiyyatdan keçirən şəxs həmin ərizəsini çap etməklə digər sənədlərlə birlikdə məktəbə təqdim edəcək. Bunun üçün də fevralın 22-dən başlayaraq qeydiyyatdan keçən hər kəs məktəblərə yaxınlaşa bilər. Lakin bunun üçün həftənin 2 günü ayrılıb. Belə ki, iyul ayı istisna olmaqla, fevralın 22-dən sentyabrın 15-dək hər həftənin cümə və şənbə günləri məktəblərdə sənəd qəbulu həyata keçiriləcək. Bunun üçün məktəblərin girişində elanlar asılacaq. Həmin elanlarda sənədlərin qəbul saatları və qəbul edən şəxsin adı göstərilmişdir.

Yerləşdirilmədə qəbul prosesində daha tez müraciət edənlərə üstünlük veriləcək. Tutaq ki, avqust ayında müraciət edənlərin istəyi əgər sinifdə yer varsa, müsbət dəyərləndiriləcək. Əks halda, onlara başqa yaxın məktəblərə getmək tövsiyə ediləcək. Yerləşdirmə zamanı ilk növbədə xidməti ərazidə yaşayanlara üstünlük veriləcək. Valideyninin çalışdığı, ya da bacı və ya qardaşının oxuduğu məktəbdə oxumaq istəyən uşaqlar üçün də bu, yerləşdirmə zamanı üstünlük olacaq. Ancaq bunun üçün də valideynin vaxtında qeydiyyatdan keçərək bu istəyini bildirməsi şərtdir. Tutaq ki, avqust ayında reallaşdırılan qeydiyyat zamanı sinif dolubsa, yerləşdirmə zamanı belə üstünlüklər də əhəmiyyətini itirir.

6 yaşı tamam olan uşaqların həyatında yeni bir mərhələ - məktəb dövrü başlayır. Valideynlər də, uşaqların özləri də yeni dərs ilinin başlamasını həyəcanla gözləyirlər. Hələ növbəti dərs ilinin başlamasına bir neçə ay qalsa da, məktəbə hazırlıqlar indidən aparılır. Valideynlər dərs ilinin başlaması, məktəb seçimi, 1-ci sinfə şagird qəbulu qaydaları kimi məsələlərə olduqca həssas yanaşma sərgiləyirlər. Bu günlərdə sosial şəbəkələrdə və ayrı-ayrı KİV-də bu il birinci sinfə gedəcək şagirdlərin şifahi nitq bacarıqları ilə bağlı müsahibədən keçirildikləri barədə yayılan məlumatlar da cəmiyyətdə ciddi

müzakirələrə yol açıb. Bəs bununla bağlı dövriyyəyə buraxılan məlumatlar həqiqətə uyğundurmu?.

Birinci sinfə gedəcək şagirdlərin şifahi nitq bacarıqları ilə bağlı müsahibədən keçirildikləri barədə yayılan məlumatlara Elm və Təhsil Nazirliyindən təkzib gəlib. Qurumdan bildirib ki, öz ana dilində tədris almaq istəyən uşaqların şifahi nitq bacarıqlarının yoxlanılması ilə bağlı heç bir müsahibənin keçirilməsi nəzərdə tutulmayıb. "Bir çox media orqanlarında birinci sinfə qəbulla bağlı həqiqəti əks etdirməyən məlumatlar yayımlanıb. Belə yazıların birində hörmətli Şahlar Əsgərovun birinci siniflərə şagird qəbulu ilə bağlı fikirləri yer alıb. Yazıda qeyd edilənlərin əksinə olaraq, öz ana dilində tədris almaq istəyən uşaqların şifahi nitq bacarıqlarının yoxlanılması ilə bağlı heç bir müsahibə keçirilmir. Onu da bildirək ki, növbəti tədris ili üzrə 130 mindən çox uşağın 1-ci sinfə qəbulu proqnozlaşdırılır. Artıq 110 mindən çox uşaq onlayn sistem üzərindən heç bir müsabiqə və müsahibəsiz birinci siniflərə yerləşdirilib. Bu sayın təxminən 90 mindən çoxu məktəbəhazırlıqdan birbaşa 1-ci sinfə qəbul olunub", - deyə nazirliyin yaydığı məlumatda vurğulanıb.

Birinci sinfə gedəcək şagirdlərin şifahi nitq bacarıqları ilə bağlı müsahibədən keçirilməsi qaydası isə dövlət ümumi təhsil müəssisələrinin tədris digər dillərdə aparılan birinci siniflərinə qəbulla bağlıdır. Dövlət ümumi təhsil müəssisələrinin tədris digər dillərdə aparılan birinci siniflərinə qeydiyyat zamanı uşaqların müvafiq dil üzrə şifahi nitq bacarıqlarının yoxlanılması məqsədilə müsahibələr təşkil olunur. Burada məqsəd birinci sinifə gedəcək uşaqların müvafiq dil bacarıqlarını yoxlamaq və onların həmin dildə təhsil almaq imkanlarını öyrənməkdir. Belə müsahibələrdə uşaqlara digər fənlərə aid sualların verildiyi barədə iddiaların isə heç bir əsası yoxdur. Müsahibələrdə ancaq uşaqların seçdikləri dil üzrə nitq vərdişləri yoxlanılır.

**Prioritetlər tətbiq olunan məktəblərə şagird qəbulu:**

Paytaxt Bakıda və regionlarda bir neçə ümumi təhsil müəssisəsi var ki, onlarda birinci siniflərə qəbul üçün prioritet tələbi tətbiq edilir. Sözügedən ümumi təhsil müəssisələri aşağıdakılardır:

- Heydər Əliyev adına lisey;
- T.İsmayılov adına 6 nömrəli məktəb-lisey;
- İ.Hacıyev adına tərəqqi texniki-humanitar liseyi;
- İ.Əfəndiyev adına elitar gimnaziya;
- "Ankara məktəbi" məktəb-lisey;
- 132-134 nömrəli təhsil kompleksi;
- T.Həsənov adına 23 nömrəli tam orta məktəb;
- Bakı Slavyan Universitetinin nəzdində məktəb-lisey kompleksi;
- Zəngi liseyi.

Elm və Təhsil Nazirliyinin məlumatında 26 maydan etibarən Azərbaycan bölməsi üzrə birinci siniflərə qəbul üçün prioritet tələbi tətbiq

edilən ümumi təhsil müəssisələrində boş qalan yerlərə prioritetsiz qəbul aparılır. Qeyd edək ki, adı çəkilən təhsil müəssisələrinin Azərbaycan bölməsi üzrə birinci siniflərinə valideyni (qanuni nümayəndəsi) qeydiyyat ünvanı üzrə həmin ümumi təhsil müəssisəsi üçün müəyyən edilmiş ərazidə qeydiyyatda olan və qəbul elan olunan vaxtdan ən azı bir il əvvəl həmin ünvanda rəsmi müqavilə əsasında kirayə yaşayan, valideyni (qanuni nümayəndəsi) həmin ümumi təhsil müəssisəsində işləyən, bacı və ya qardaşları həmin ümumi təhsil müəssisəsində təhsil alan uşaqlar sözügedən prioritetlərə uyğun qəbul edilirdilər.

Ötən illər ərzində Bakı şəhərində uğurla sınaqdan keçirilən ümumtəhsil məktəblərində birinci sinfə elektron qəbul müsbət rezonans doğurub. 4 illik təcrübə bu sistemin bir çox üstünlüyünü də ortaya çıxarıb. Həmin üstünlüklər də ona böyük rəğbət qazandırıb. Ölkə ərazisində sistemin tətbiqini arzulayan valideynlərin sayı durmadan artır. Elə bunun nəticəsidir ki, bu ildən elektron qəbulun əhatə dairəsi genişləndirilib.

***Ədəbiyyat***

1. *Abbasov A.N., Məmmədzadə R., Məmmədli L. Pedaqogika: Müntəxabat. Dərs vəsaiti. Bakı: Mütərcim, 2021.*
2. *Abdullayev A.A. Məktəbin demokratik əsaslarla idarə olunmasının aktual məsələləri. Bakı – 1998.*
3. *Cabbarov R.H. Təhsil müəssisələrinin idarə edilməsinin yeni metodları. Bakı – 2006.*
4. *Əlizadə Ə.Ə.Azərbaycan məktəbinin psixoloji problemləri. Bakı: Ozan, 1998.*
5. *Əhmədov N.H. və b. İdarəetmənin pedaqogikası və psixologiyası. Bakı – 2000.*
6. *İlyasov M. İ. Məktəbdə peşəyönümü işinin sistemi. Bakı: Nurlan, 1997.*
7. *İlyasov M.İ. Şagirdlərin peşə seçməyə hazırlanması. Bakı: Elm, 2009*
8. *İsmixanov M.A. Məktəbin idarə edilməsi. Dərs vəsaiti. Bakı: BDU, 2012.*
9. *Kərimova F.Y. Məktəbdaxili idarəetmənin modernləşdirilməsi texnologiyası. Ped. üzrə fəlsəfə doktoru dissertasiyasının avtoreferatı. Bakı - 2014.*

**H.R.Aslanlı**
**Bakı Slavyan Universiteti**
***hokuma.09aslan@gmail.com***

# BƏDİİ MƏTNLƏRİN İXTİSAS DİLİ ÜZRƏ QRAMMATİK VƏ ÜSLUBİ BACARIQLARIN KOMMUNİKATİV YÖNÜMLÜ TƏDRİSİNDƏ YERİ VƏ ROLU

***Xülasə***

*Məqalədə kommunikativ yönümlü dərslərdə ingilis dilinin nəzəri və üslubi materiallarının tədrisi və onların bacarığa dönüşülməsi məsələləri əks olunmuşdur. Bədii mətnlərin müasir təlim texnologiyalarının tətbiqi zamanı ingilis dilinin mənimsənilməsində və gələcəkdə ondan düzgün istifadə olunmasında əhəmiyyəti tədqiq olunmuşdur.*

# РОЛЬ И МЕСТО ЛИТЕРАТУРЫ В КОММУНИКАТИВНОМ ОБУЧЕНИИ ГРАММАТИКЕ И СТИЛИСТИКЕ

***Резюме***

*В статье изучается преподавание грамматического и стилистического материала английского языка посредством коммуникативного обучения с применением литературы. Изучается сущность литературы на коммуникативных занятиях по английскому языку и ее роль в профессиональной подготовке.*

# ROLE AND PLACE OF LITERACY IN COMMUNICATİVE TEACHING OF GRAMMAR AND STYLISTIC IN PROFICIENCY ORIENTED LANGUAGE

***Summary***

*In the article, teaching of grammar and stylistic materials of the English language through communicative teaching by applyting literacy is studied. The essence of literacy during communicative classes of the English language and its role in proficiency training is studied.*

***Açar sözlər:*** *ingilis dili, bədii, mətn, linqvistik, müəllim, dərs, yaradıcı*

***Ключевые слова:*** *английский язык, художественный, текст, лингвистический, учитель, урок, творческий*

***Key words:*** *English language, artistic, text, linguistic, teacher, lesson, creative*

Mətnlər informasiya mənbəyi olmaqla yanaşı yeni dil vahidlərinin, o cümlədən yeni qrammatik strukturların və leksik vahidlərin mətn daxilində təqdim edilməsinin vacib yollarından biridir. Onu da qeyd etmək lazımdır ki, bu sadəcə olaraq tələbələrin reseptiv biliklərinin yoxlanılması deyil, mətndə olan səmərəli qrammatik strukturların mənimsənilməsi və möhkəmləndirilməsi məqsədilə müvafiq fəaliyyət növlərinin tətbiq edilməsidir. H.Braun öz əsərində belə bir maraqlı fakt qeyd edir: "Uzun illər pedaqogikanın əsas məqsədlərindən biri elə bir "düzgün metod" – metodoloji sehrli formul tapmaq idi ki, bu metod hər zaman bütün öyrənənlər üçün məqsədəuyğun hesab olunsun" [1, 6].

Qrammatik qaydaları bilmədən dil bacarıqlarının inkişaf etdirilməsi mümkünsüz olar. O demək deyil ki, qrammatikanın tədrisi əsas prioritet götürülməlidir. Ünsiyyətin əsas məqsədi kommunikativ bacarıqların yerinə yetirilməsi, qrammatikadan daha geniş məfhuma - mənaya diqqətin yönəldilməsindən ibarətdir. Kommunikativ bacarıqlara ünsiyyət vasitəsilə, məna yaratmaqla və bu mənanı qrammatika vasitəsilə formaya salmaqla nail olmaq olar. Deməli, müəllim bədii mətnlər üzərində qrammatik fəaliyyəti ünsiyyət vasitəsilə və məna yaratmaqla apararsa, qarşıya qoyulmuş hədəfə nail ola bilər.

***Comment on the questions:***

1. *Who was the only person the author knew in Boston?*
2. *In what way was he received? Why was it of great importance to him?*

*(Hunting for a job by S.S. McClure)*

Xarici dildə nə qədər çox ünsiyyət aparılarsa, bir o qədər təkmilləşər. Qrammatika isə dil bacarıqlarının səlisliyinə və püxtələşməsinə zəmin yaratmış olar. Deməli, bədii mətnlər üzərində də nə qədər çox tədris fəaliyyətləri aparılarsa, kommunikativ bacarıqlarla yanaşı qrammatik biliklərin də dərk edilməsinə bir o qədər nail olmaq olar.

Kommunikativ yönümlü bədii mətnlər üzərindən qrammatikanın təqdimatı qısa və praktik olmalıdır. Təlim-tədris prosesinin əsas faktorlarından biri dərs vaxtının düzgün bölüşdürülməsidir. Əgər bədii mətnin oxunmasına, eləcə də qrammatik materialın izahına çox vaxt sərf edilərsə, onda digər tədris fəaliyyətlərinin yerinə yetirilməsinə zaman qalmaya bilər. Deməli, vaxta qənaət və düzgün zaman bölgüsü vacib məsələlərdəndir.

Tələbələr üçün qrammatik qaydaları düzgün istifadə etməklə ünsiyyətdə olmaq əsas məsələdir, ancaq bu halda rəvan nitqdən, dilə mükəmməl yiyələnməkdən danışmaq olar. S.Kraşen və T.Terrelin öz əsərlərində qrammatikanın tədrisinin vacibliyini xüsusi olaraq qeyd edərək, qrammatikasız dil öyrənmənin əleyhinə olduqlarını ifadə etmişlər [2].

Ənənəvi metodla nitq praktikası dərslərində qrammatik materialların öyrənilməsi üçün keçirilən dərsi təqribi belə təsvir etmək olar:

- ədəbi mətn paraqraflara bölünərək tələbələr tərəfindən oxunur;
- qrammatik materialı qaydalar şəklində tələbələrə təqdim olunur;
- bədii mətn üzərindən çalışmalar edilir;
- qrup halında nəzəri material təkrarlanır;
- müəllim tərəfindən qiymətləndirilmə aparılır.

Ənənəvi tədris zamanı müəllimin izahatından sonra tələbələr, adətən, materialı başa düşüb-düşmədiklərini yoxlamaq üçün test tapşırıqları yerinə yetirirlər. Dərs müddətində müəllim tələbələrin yeni bilikləri necə anladıqlarını yoxlayır. Tələbələr müəllimin verdiyi hazır materialı qəbul edir və onu olduğu kimi növbəti dərslərdə müəllimə çatdırırlar. Bu prosesi ingilislər "jug and mug" (səhəng və cam) adlandırırlar, yəni müəllim sanki beyinə biliyi həkk edir.

Bir sıra müəllimlər düşünürlər ki, qrammatikanın təqdimatına çox vaxt ayırmaqla nəzəri materialı daha yaxşı izah etmiş olacaqlar. Kommunikativ yönümlü tədris isə müəllimin işi yalnız həvəsləndirməklə tələbələrin müstəqil olaraq dilə yiyələnmələrində kömək olmağı nəzərdə tutur.

Qrammatikanın tədrisində ən çox üzləşilən problemlərdən biri də informasiyanın çoxluğu və praktiki fəaliyyətə zamanın ayrılmamasındadır. Müasir metodologiya isə müəllimləri innovativliyə, fəal interaktiv təlim metodları vasitəsilə tədrisin keçirilməsinə təşviq edir. Hər bir innovativ öyrənmə üsulu qrammatikanın özünü xüsusi təşkil olunmuş ədəbiyyatlarla yanaşı, bədii ədəbiyyatlardan, əsərlərdən fragmentlər götürərək, filmləri izləmək, yazı fəaliyyətindən, düşünməyə vadar edən oyunlardan istifadə edərək tədris etməyi təklif edir.

Mövzudaxili yerinə yetirilən təlimin açarı real mətnlər hesab olunur. Tələbələrə orijinal bədii mətnlərlə iş prinsipini həyata keçirmək tapşırılır. T.Huçinson və A.Vater mətnləri belə izah edir: "Orijinal mətnlər əvvəl başdan dili öyrənməni yerinə yetirmək üçün tərtib edilməmişdir. Orijinal mətnləri, kiçik filmləri, musiqini auditoriyada tətbiq edərək, əvvəllər dil öyrətmək məqsədilə deyil, tələbələri cəlb etmək, məlumatlandırmaq, əyləndirmək məqsədi daşıyırdı" [2, 159]. Mövzu daxilində yerinə yetirilən təlimin əsas məqsədi öyrənənləri orijinal bədii mətnlərdən istifadə edərək, dili yalnız ünsiyyətə tətbiq etmək məqsədilə öyrənməyə istiqamətləndirməkdir. Bu ünsiyyət dil öyrənilməsində ilkin addım kimi hesab oluna bilər.

Y.Sato apardığı təcrübələrin nəticəsini belə qeyd edir: "İlk dövrdə yalnız nitq fəaliyyətilə təlimi keçirən tələbələr bir çox problemlərlə üzləşirdilər, lakin təlim kursuna oxu, qrammatika və ünsiyyətə cəlb edən zəngin ədəbiyyatlar əlavə olunduqdan sonra onlar dil öyrənilməsi prosesində effektli nəticələr əldə etdilər, müəyyən dövrdən sonra tələbələrin testdən keçməsi, onların bilik səviyyələrinin yoxlanması, tələbələri məsuliyyətli öyrənməyə vadar edir" [98, 186]. Deməli, ədəbiyyatların düzgün seçimi böyük əhəmiyyət

kəsb edir. Qrammatikanın tədrisində əlavə ədəbiyyatlara, o cümlədən bədii mətnlərə təlim prosesində geniş yer ayrılmalıdır. Təkcə bir növ ədəbiyyatla işləmək zənnimizcə, yorucu və darıxdırıcı ola bilər. İngilis dilinin qrammatik materialları təqdim və izah olunduqdan sonra onları seçilmiş məşhur əsərlərdən tapmaq, oxumaq, dinləmək olar və ya tələbələrə yeni saytlardan təyin olunmuş nəzəri material barədə məlumat toplamaq, audio bədii mətni dinləməklə məsələn, daha çox hansı zaman formasının işləndiyini aşkarlamaq kimi tapşırıqlarla qrammatik materialı təkmilləşdirmək olar. Yalnız təyin olunmuş ədəbiyyatlarla tədrisin keçirilməsinin darıxdırıcı bir üsul ola bilməsini deyə bilərik. Bir sözlə, əsas məqsəd dil öyrənilməsi prosesində kontekstin aydın və maraqlı şəkildə tələbələrə ötürülməsi yollarını araşdırmaq və onları bu fəaliyyətə necə cəlb etməyi müəyyənləşdirməkdən ibarətdir.

Bəzən qrammatik materialların mütəmadi bədii mətnlər üzərindən tədrisi tələbələri yora və dərs prosesində monotonluq yarada bilər. Məsələn, gələcək qeyri-müəyyən zamanı ədəbiyyat üzərindən tədrisi tələbələri yorarsa və dərsdən yayındırarsa, müəllim tələbələrdən gələcək planlarını soruşmaqla yenidən onları dərsə cəlb edə bilər.

Tələbələr informasiya-kommunikasiya vasitələrindən istifadə edərək öyrənilmiş nəzəri materialları təkmilləşdirə bilərlər. Müəyyən bədii mətn ətrafında tərtib olunmuş rəqəmsal (kompüter) tapşırıqlar tələbələri dinləməyə, yazmağa, tapşırıqları həll etməyə, işləməyə cəlb edə bilər. İnternetdə açılmış bir çox maraqlı səhifələr vardır ki, bu səhifələr tələbələrə əlavə vəsait kimi kömək ola bilər. Buna misal olaraq, "Englishtown, Global English" səhifəsini göstərmək olar.

Nəzəri materialların bədii mətnlər üzərindən diskussiya yolu ilə tədrisi qrammatik materialların tələbələrin yaddaşında qəlibləşməsi və avtomatlaşması ilə nəticələnə bilər. Məsələn, müəllim informasiya boşluğunun doldurulması məqsədilə tələbələrə S.Maughamın "The verger" əsəri üzərindən aşağıdakı tapşırığı verə bilər:

*Do you have any prejudices about people who dont have proper education? Can it really say something about a person? Does it immediately make them "ignorant"? Is diploma a guarantee of success in life?*

*Do you believe that people's misfortunes are their own fault? Do you think that when one door closes, another opens?*

Sözlərin ifadəsi, nitqin səlisliyini və inandırıcılığı üslubiyyatla bağlı olan məsələdir. Üslubiyyat olmasa düzgün, dəqiq və ifadəli nitq də mövcud ola bilməz. Başqa sözlə ifadə etsək, üslubi qaydalardan və çalarlardan kənarda qalan söz və ifadələr mədəni nitq yarada bilməz.

Üslub anlayışının tarixi çox qədimdir. Qədim Yunanıstan və Hindistanda üslub məsələlərindən bəhs edilməsi üslubiyyatın tarixən qədim olduğunu göstərir.

“Üslubiyyat bütün ifadəlilik vasitələrinin məqsədəuyğun surətdə əlamətlərindən, ifadə vasitələrinin istifadə edilmə qayda və qanunlarından, xüsusiyyət və əlamətlərindən, ifadə vasitələrinin sistem təşkil etməsi xüsusiyyətlərinə görə formalaşan müxtəlif üslubların əlamətdar cəhətlərindən bəhs edən elmdir [3,33]. Xarici dil fakültələrində əsasən bədii üslub, ədəbi danışıq üslubu, elmi (akademik) üslub, rəsmi-işgüzar üslub, publisistik üslub və məişət üslubu ayrıca “üslubiyyat” fənni kimi və ya fənndaxili tədris olunur.

Ən çox inkişaf etmiş, bütün dövrlərdə aparıcı rol oynayan və tədris prosesində müraciət olunan üslub bədii üslubdur. “Bədii üslub ekspressivliyin, emosionallığın, bədii təsvir və ifadə vasitələrinin məqsədəuyğun şəkildə, əsərin ideya və məzmununa görə seçilmiş sistemdir” [3,370]. Bədii üslub digər üslublardan obrazlılığına, konkretliyinə, təsvir vasitələrinə, sadəliyinə, yığcamlığına, fonetik və qrammatik imkanlardan yaradıcı formada istifadə edilməsi xüsusiyyətlərinə malik olması ilə fərqlənir. Bədii əsərlərin dilində, canlı danışıqda obrazlılıq yaratmaq üçün daha çox üçüncü şəxsin adından, sadə sözlərdən istifadə olunmaqla nəql olunur. Deməli bədii üslubun tələbələrə tədrisi onların gələcəkdə hər hansı bir hekayə və ya hadisə ətrafında ətraflı və dolğun məlumat verə bilmə bacarıqlarının formalaşmasına yardım göstərmək olar. Məsələn, müəllim tələbələrə Hemeueyin *“Cat in rain”* əsərini oxutdurduqdan və ya dinlətdirdikdən sonra aşağıdakı kimi qruplar daxilində aşağıdakı sualları müzakirə etməyi tapşıra bilər:

*Give the description of the setting of the short story. Describe the place and time. Why does the author mention both the artists and the colors in the garden and the war monument? Does it tell anything about the time of the narration?*

Bədii əsərlərdə yüksək hissləri ifadə etmək üçün söz və ifadələrin düzgün seçilib istifadə əsas məsələlərdəndir. Sinonim, antonim, frazeoloji birləşmələrdən nitqdə istifadə etmək nitqi üslubca zənginləşdirən əsas vasitələrdəndir. Deməli, tədris prosesində bədii mətnlərdən istifadə imkanları tələbələrin gələcəkdə monoloq və ya dialoq qurmaq bacarıqlarının, leksik vasitə və klişelərdən yerində istifadə etmək bacarıqlarının formalaşmasına təkan vermiş olar.

Dilin fonetik, leksik və qrammatik imkanlarından düzgün, yerində istifadə nitqin emosionallığını, təsirliliyini üslubi cəhətdən artırmış olur və obrazlılığın qüvvətlənməsinə zəmin yaradır. Bəzən bədii əsərlərdə təsvir olunan səhnələr və hadisələr elə bilki, oxucunun gözü qarşısında baş verir. Bu məqsədlə yazıçılar adətən alliterasiya, assonans, inversiya, metoforiya, metonimiya və s. bu kimi üslubi vasitələrdən istifadə edirlər. Deməli, bədii üslubun qeyd olunan vasitələrinin tədrisi tələbələrin nitqinin daha da canlı və təsviri imkanlarını artırmış olar.

***Ədəbiyyat***

1. *Hammond D., Sykes L.G. Teaching as the Learning profession: Handbook of policy and practice. San Francisco: Jossey Buss, 1999, 411 p.*
2. *Hutchinson T. and A. Waters. English for Specific Purposes. A Learning Centered Approach. Cambridge: Cambridge University Press, 1992, 183 p.*
3. *Həsənov H. Nitq mədəniyyəti və üslubiyyatının əsasları. Bakı - 2007, 432 s.*
4. *A.Qurbanov. Bədii mətnin linqvistik təhlili. Bakı – 2019, 552 s.*

**S.M.Qasımlı**
**Bakı Slavyan Universiteti**
***semaqasimli1@gmail.com***

# BÜTÖV DİL TƏLİMİ YANAŞMASININ ƏSAS PRİNSİPLƏRİ VƏ NƏZƏRİ ASPEKTLƏRİ

***Xülasə***

*Məqalədə "Bütöv dil təlimi"nin yaranması, onu digər yanaşmalardan fərqləndirən xüsusiyyətləri və elmi-nəzəri fikirdə olan baxışları araşdırılmışdır. Eləcə də, bütöv dil təliminin yanaşma, fəlsəfi anlayış və ya metod olması ilə bağlı olan fikirlər də nəzərdən keçirilmişdir. Bütöv dil yanaşmasının bu kimi xüsusiyyətlərinin şagirdlərin fikrini öyrənilən materiallara cəmləməsini, onların öyrənməyə həvəsləndirilməsində əsas rol oynadığı ön plana çəkilmişdir. Eyni zamanda, şagirdlərin müxtəlif bacarıqlara yiyələnməsi üçün, müəllimin müxtəlif tədqiq etmə üsullarını lazımı şəkildə planlamasının zəruriliyi qeyd olunmuşdur.*

# ОСНОВНЫЕ ПРИНЦИПЫ И ТЕОРЕТИЧЕСКИЕ АСПЕКТЫ ЦЕЛОЯЗЫЧНОГО ПОДХОДА ПОДХОДА

***Резюме***

*Статья посвящена изучению происхождения «Целоязычного подхода» и его теоретических концепций. «Целоязычный подход» также обсуждается в статьях как подход, философское понятие или метод, отсылающий к научным работам. Такие особенности общеязыкового подхода выделены и играют ключевую роль в концентрации внимания учащихся на изучаемом материале. При этом отмечена необходимость правильного планирования преподавателем различных методов исследования для приобретения студентами различных навыков.*

# MAİN PRİNCİPLES AND THEORETİCAL ASPECTS OF "WHOLE LANGUAGE APPROACH"

***Summary***

*The article is dedicated to studies of origin of the "Whole language approach" and its theoretical visions. "The Whole language approach" is also debated in the articles as an approach, philosophical notion or method referring to scientific papers. Such characteristics of the whole language approach have been brought to the fore, and they play a key role in encouraging students to concentrate on the studied materials. At the same time, in order for the students to acquire different skills, the need for the teacher to properly plan different research methods was mentioned.*

***Açar sözlər:*** *dil bacarıqları, metod, yanaşma, bütöv dil təlimi*
***Ключевые слова:*** *языковые навыки, метод, подход, целоязычного*

*пособа*

***Key words:*** *language skills, method, approach, whole language approach*

1970-ci illərə qədər dörd dil bacarığı təcrid olunmuş formada tədris olunurdu. Bu ənənəvi dil metodlarının, o cümlədən qrammatika-tərcümə metodu, struktural yanaşma, birbaşa metod, audio-linqual metod, ümumi fiziki cavab və təbii yanaşma metodlarının yayılması ilə bağlı idi. Məsələn, qrammatika-tərcümə metodunun tətbiqi vaxtlarında, yəni XX əsrin əvvəllərinə qədər tədris fəaliyyətləri ingilis dilinin qrammatik qaydalarının təhlilinə fokuslanırdı və ingilis dilindən mətnlərin tələbələrin ana dilinə tərcümə etməsi əsas tədris fəaliyyəti idi. Xüsusi dil bacarıqlarının (segregated approach) ayrılıqda öyrədilməsi dil tədrisində uğurlu yanaşma kimi hesab olunurdu və dil öyrənməni kontentdən uzaqlaşdırırdı [1].

“Bütöv dil təlimi” yanaşmasının kökləri tədrisdə oxunu, qiraəti təşviq edən “Whole language modeli”nə (bütöv dil modeli) gedib çıxırdı. Bu modellə əlaqəsi olan yanaşmalardan biri də “dil təcrübəsi” (language experience) olmuşdur. Bu yanaşma tələbələrin oxu prosesinə gətirdikləri biliklərdir. Dil təcrübəsi yanaşmasında şifahi və yazılı nitq, eləcə də oxu və yazı arasında möhkəm bağlantı vardır. “Mən deyə biləcəyim hər şeyi yaza bilərəm. Mən yaza biləcəyim hər şeyi oxuya bilərəm” [2]. Bütöv dil təliminin formalaşmasında bir çox dilçilərin rolu olmuşdur. Bu termin ilk dəfə olaraq, oxu prosesi barədə nəzəri perspektivləri vermək üçün Cerom Harste və Karolin Burke (1971) tərəfindən irəli sürülmüşdür. 90-cı illərdə isə Brokman, sonralar isə Riçard C. və Rodger T. bu yanaşma barədə fikirlərini irəli sürmüşlər. Tədris metodu sinifdə tədris materiallarını təqdim etmək üçün müəllimlər üçün olan bir fəaliyyət tərzidir. “Dildən istifadə həmişə sosial kontekstdir və həm şifahi, həm də yazılı nitqə şamil olunur” [2, 523].

Bütöv dil yanaşması öyrənmənin bütün aspektləri əsasında olduğuna görə “oxumaq və yazmaq yanaşması” adı olaraq götürülmüşdür. Dinləmə, danışma, düşünmə, yadda saxlama, oxu və yazı bu yanaşmada eyni zamanda sinxron olaraq baş verir. “Bütöv dil təlimi sinfində seçim təbiidir, çünki, fəaliyyət tərzlərini, tədris materiallarını və ünsiyyət tərəfdaşlarını seçmək bacarığı olmadan, tələbələr öz məqsədləri üçün dili istifadə edə bilməzlər” [2, 526].

Riçard və Şmitə görə, dil bacarıqları inteqrasiya olunmuş halda tədris olunmalıdır. Yəni oxu, yazı, dinləmə və danışıq kimi dil bacarıqları kombinə olunmuş halda həyata keçirilməlidir. Bütöv dil təlimi öyrənənlərin artıq danışa bildiyi dilin biliklərinin əsasına söykənir. Birinci dərsdə, fasilitator öyrənənləri yaza biləcəkləri nəyisə deməyə dəvət edir. Öyrənənlər məna yaradır və şifahi olaraq ilk cümlələrinin strukturunu formalaşdırırlar. Bundan sonra fasilitator yazılı nitqin necə formalaşdığını başa düşməyə kömək edir və onlara öz

fikirlərini yazmağı və oxumağı öyrədir.

Bütöv dil təlimi yanaşması oxu və yazının real ünsiyyətə fokuslanmaqla təbii olaraq öyrənilməsini təklif edir. Bu yanaşma həm müəllimi və həm də öyrənənləri dil istifadəsində məna və dərketməyə diqqətin yönləndirilməsini təklif edir. Mənanın ifadəsi istənilən hər hansı bir dildə ən vacib məsələlərdəndir. Oxu və ya öz təcrübələri ilə assosiasiya edə bilən tələbə üçün mənalı olmalıdır. Bu motivasiyaedici, məqsədli və öyrənənlər üçün pozitiv təcrübə olmalıdır. "Öyrənənlər özlərinin fəaliyyətlərində məqsəd görməlidirlər və müəllimin deyil, onların məqsədi olmalıdır" [3].

Bütöv dil təlimi xarici dilin təlim-tədrisini interaktiv olaraq görür. Bu perspektiv daha çox sosial olub dilin insanlar arasında bir rabitə vasitəsi olduğunu qeyd edir və burada oxu və yazı arasında interaktivliyin olduğunu iddia edir. Bütöv dil təlimi yanaşmasının digər bir yanaşması dilə sosial prizmadan baxılmasıdır. Çünki dildən istifadə zamanı bu ünsiyyətdə məlumatı ötürən və məlumatı qəbul edən tərəf vardır. Mətnlər mənanı başqalarına çatdırılması üçün tərtib olunur. Bütöv dil təlimi siniflərində dinləyicilər təbii olaraq real aləmdə olduğu kimi sosiallaşır və beləliklə də, mənalı təcrübə yaradırlar. Bütöv dil təlimində əsas diqqət yazılı mətnlərin müəllifləri ilə ünsiyyətin və söhbətinin autentikliyinə yönəlmişdir. Məsələn, "üzrxahlıq" üçün sosiolinqvistik işarələrə yiyələnmək bütöv dil təlimi autentik real situasiyanın olmasını tələb edir. Bütöv dil təlimi həmçinin dili psixolinqvistik olaraq daxili interaktivlik, eqosentrik nitq və fikirləşmək üçün vasitə kimi görür.

Vatson Qudmanın bütöv dil tədrisi yanaşmasını silsilə fəaliyyətlərdən daha çox bütöv fəlsəfi anlayış kimi görür [3, 47]. Bütöv dil tədrisi öyrənənlər və öyrənmək, müəllim və tədris, dil və kurikulum ideyaları əsasında təlim-tədris baxışıdır. Deməli, bütöv dil tədrisi anlayışı təlim-tədris metodundan daha çox öyrənmə fəlsəfəsidir. Dil hər zaman mənalı məqsədlər üçün istifadə olunmuş və autentik funksiyaları icra edən bir varlıq kimi qiymətləndirilir.

Bütöv dil yanaşmasının əsas öyrənmə nəzəriyyəsinin bünövrəsində humanistik və konstruktiv tədris dayanır. Bütöv dil təliminin autentik, individuallaşmış, özünə istiqamətlənmiş, kollaborativ və pluralistik olduğu iddia olunur. Bütöv dil təliminin bu kimi xarakteristikaları öyrənənlərin diqqətini tədris materiallarına cəlb etdiyinə və onların motivasiya olunmasında köməklik göstərdiyinə inanılır. Konstruktiv öyrənmə nəzəriyyəsi biliyin sosial olaraq konstruktiv olduğunu qeyd edir. Beləki, konstruktiv öyrənənlər ümumi layihələr üzrə qarışıq qruplarda "məna yaradır", "nəyisə etməklə öyrənir", və "kollaborativ olaraq işləyir". Burada biliyin tələbələrə verilməsindən daha çox müəllim tələbələrlə onların qarşılıqlı sosial kontekstində bilik və məna yaradılmasında əməkdaşlıq edir.

Müəllim bilik ötürəndən daha çox fasilitator və aktiv iştirakçı kimi dərs prosesində iştirak edir. Müəllim tələbələrə öyrədərkən dərs planına uyğun

deyil, daha çox baş verən öyrədilə bilən anı gözləyir. Müəllim kollaborativ təlimə dəstək verən mühiti yaradır. Müəllim öyrənənlərlə iş planı üzərinə danışıqlar aparmaq kimi vəzifəsi vardır.

Öyrənənlər əməkdaşlıq edənlər olub, yoldaşları və müəllimlə, eləcə də oxuduqları mətnlərin müəllifləri ilə əməkdaşlıq edir. Tələbələr eyni zamanda qiymətləndiricilərdir. Onlar müəllimin köməyi ilə özlərinin və digər öyrənənlərin fəaliyyətini qiymətləndirir. Tələbələr həmçinin tədris materiallarını və dərs fəaliyyətlərini müəyyənləşdirənlərdir.

Bütöv dil təlimi təlim-tədris metodu deyil, o dili tam kimi görən yanaşmadır. Hər bir dil müəllimi hər bir sinfin tələblərinə uyğun olaraq, yanaşma tətbiq edə bilər. Bütöv dil təliminin üstünlükləri dil öyrənənlərin maraq və ehtiyaclarına uyğun olan təcrübə və fəaliyyət tərzlərinə diqqətin ayrılmasındadır. İkinci digər müsbət cəhəti isə, autentik materiallardan istifadənin təşviq edilməsi və nəticə etibarilə dörd dil bacarığının inkişafıdır. Lakin tənqidçilər bunu bütöv ESL yanaşmasının rədd edilməsi kimi görürlər və ESL-ə təbii dil prinsiplərinin tətbiqini təklif edirlər.

Heald-Taylor [4] bütöv dil təlimi yanaşmasının ESL dinləyicilərinə köməklik göstərə bilən 8 fəaliyyət növünü təqdim etmişdir:

- qarışıq bilik və bacarığa malik qruplar bir yerdə öyrənə bilərlər;
- öyrənmə strategiyaları dinləyici yönümlü olub, davamlı olaraq təcrübə toplamaqdan ibarətdir;
- şifahi dil, oxu və yazı fəaliyyətləri tamamilə inteqrasiya edilir və eyni zamanda inkişaf edir;
- bacarıqların səviyyəsi tamamilə individual olur;
- tələbələr öz ingilis dili bacarıqlarını oxu və yazı proseslərində inkişaf etdirirlər;
- tələbələr prosesə cəlb olunmaqla danışmaq, oxumaq və yazı bacarıqlarını artırırlar.

Bütöv dil təliminin əsas mühüm strategiyalarından biri də oxu, yazı və dil dərslərinin idarə olunmasıdır. Hər dəfə auditoriya toplandıqda, müəllim dinləyicilərə bacarıqlarının inkişaf etdirilməsi üçün fəaliyyət metodlarını, oxu, yazı, eləcə də, diskussiyadan necə istifadə edəcəyi ilə bağlı planlama aparmalıdır. Dərsin planlamasında müəllimin rastlaşdığı çətinliklərdən biri də, hər bir dinləyicinin maraq və bacarıqlarına uyğun dərsin qurulmasıdır. Adətən, tipik oxu dərsləri müxtəlif səviyyələrə malik olan dinləyicilərdən ibarət olur. Bu, eyni zamanda qrup üzvünün hər birinin fərqli maraq dairəsi ilə bağlıdır. Ənənəvi oxu və yazı dərslərində, müəllim dərsə rəhbərlik edir və dinləyicilər isə bilik və bacarıqlarından asılı olmayaraq mətn kitabında onu izləyirlər. Dinləyicilər sıra və ya dairəvi masa ətrafında otura bilər, lakin onlar müəllimə diqqətlərini yönləndirərək, birlikdə eyni şeyi öyrənməyə cəhd göstərirlər.

Müəllim, adətən, öyrənmə prosesini yazı lövhəsinin önündə duraraq monitorinq edir və dinləyicilərə köməklik etmək məqsədilə sinifdə hərəkət edir. Dinləyicilər fəal olaraq birlikdə kiçik qruplarda fəaliyyət göstərir və bir-birilərinə öyrənməkdə köməklik göstərir. Onlar bütöv qrupla birlikdə müzakirələrdə iştirak edir və beyin həmləsi kimi texnikaları yerinə yetirirlər. Dinləyicilər eyni zamanda fərdi olaraq özlərinin yazı və oxu layihələri üzərində çalışırlar. Fasilitator öyrənmə prosesində sinifdə hərəkət edərək dinləyicilərin sullarına cavab verməklə idarə edir.

Bütöv dil tədrisinin nəzəri aspektlərini ümumiləşdirərək onun əsas prinsiplərinin aşağıdakılar kimi iddia etmək olar:

- süni və fərdi oxu bacarıqları üçün tərtib olunmuş mətn və çalışmalar deyil, daha çox autentik ədəbiyyatın istifadə olunması;
- tələbələrin maraq və təcrübələri ilə uyğunlaşmayan səhnələşdirilmiş hadisələrdənsə, real və təbii hadisələrə diqqətin verilməsi;
- real mətnlərin böyük maraqla oxunması (xüsusilə bədii mətnlərin);
- anlama və real məqsədlər üçün oxu fəaliyyətlərini yerinə yetirilməsi;
- real auditoriya üçün yazmaq və yazı bacarıqlarını sadə praktiki çalışma kimi yerinə yetirilməməsi;
- öyrənənlərin mənaların kəşf edilməsi vasitəsilə proses olaraq yazmaq;
- müəllimin yaratdığı mətnlər deyil, tələbələrin yaratdığı mətnlərin istifadəsi;
- oxu, yazı və digər bacarıqların inteqrasiya olunması;
- tələbəyönümlü öyrənmə: öz dünyalarını başa düşmək üçün tələbələrə özləri oxumaq və yazmaq istədiklərini seçmək səlahiyyəti verilir;
- digər öyrənənlərlə birgə olaraq oxu və yazının həyata keçirilməsi.

***Ədəbiyyat***

1. *B.Gail Heald-Taylor Three paradigms for literature instruction in grades 3 to 6 https://www.jstor.org/stable/20201649*
2. *Rigg, P. Whole language in TESOL. TESOL quarterly 25(3) p. 521-542.*
3. *Whiteson, V.A whole language approach, New York, 1998, p.346.*

**C.Ş.Asini**
**Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti**
***cumsudhesen@gmail.com***

# YENİYETMƏLƏRİN ZORAKILIĞA MEYİL ETMƏSİNƏ TƏSİR EDƏN AİLƏ FAKTORLARI

***Xülasə***

*Yeniyetmələrin zorakılığa meyil etməsində ailənin təsiri böyükdür. Ailə münasibətlərində zorakılığın normallaşdırılması yeniyetmələrin aqressiv davranışa alışmasına səbəb yaradır. Uşaqlar ailə içində şəxsiyyətlərini, davranışlarını formalaşdırdıqları üçün ailədəki münasibətlər əsas rol oynayır. Ailədə zorakı mühitin olması uşağın gələcəkdə zorakı davranışları bir başqasına yönəltməsinə səbəb ola bilər. Həmçinin, kifayət qədər diqqətin olmaması, düzgün tərbiyyə və normaların olmaması, ailədə aqressiv davranışın modelləşdirilməsi yeniyetmələr arasında zorakılığa səbəb ola bilər. Ailədə sağlam münasibətlərin və ünsiyyətin olması yeniyetmənin zorakılığa meylini azalda bilər.*

# СЕМЕЙНЫЕ ФАКТОРЫ, ВЛИЯЮЩИЕ НА НАСИЛИЕ ПОДРОСТКОВ

***Резюме***

*Влияние семьи на склонность подростков к насилию велико. Нормализация насилия в семейных отношениях приводит к привыканию подростков к агрессивному поведению. Отношения в семье играют ключевую роль, поскольку дети формируют свою личность и поведение в семье. Наличие насилия в семье может привести к тому, что ребенок в будущем перенаправит агрессивное поведение на кого-то другого. Также к насилию среди подростков могут привести отсутствие достаточного внимания, отсутствие должного воспитания и норм, моделирования агрессивного поведения в семье. Наличие здоровых отношений и общения в семье может снизить склонность подростка к насилию.*

# FAMILY FACTORS INFLUENCING ADOLESCENT VIOLENCE

***Summary***

*The influence of family on adolescents' tendency to violence is great. The normalization of violence in family relationships leads to adolescents becoming accustomed to aggressive behavior. Family relationships play a key role as children shape their personality and behavior within the family. The presence of violence in the family can lead to the child redirecting aggressive behavior to someone else in the future. Also, violence among adolescents can be caused by lack of sufficient attention, lack of proper education and norms, and modeling of aggressive behavior in the*

*family. Having healthy relationships and communication within the family can reduce a teenager's tendency to engage in violence.*

***Açar sözlər:*** *yeniyetmə, zorakılığa meyil, ailənin uşaqlara mənfi təsirləri, yeniyetmələrə qarşı zorakılıq*

***Ключевые слова:*** *подросток, склонность к насилию, негативное влияние семьи на детей, насилие над подростками*

***Key words:*** *adolescent, propensity for violence, negative effects of the family on children, violence against adolescents*

**Mövzunun aktuallığı:** Yeniyetməlik, şəxsiyyətin və davranışın formalaşdığı önəmli bir dövrdür və bu prosesdə ailə mühüm rol oynayır. Ailə münasibətləri, ünsiyyət tərzi, valideyn rəftarı, ailədə yaşanan şiddət və travma kimi faktorlar yeniyetmələrin zorakılığa meyil etməsinə təsir edə bilər. Zorakı ailə mühitinin olduğu yerdə böyüyən uşaqlar zorakılığın normal davranış forması olduğunu hesab edərək bunu başqalarına qarşı tətbiq edə bilərlər.

**Mövzunun elmi yeniliyi:** Son illərdə kütləvi informasiya vasitələrinin, xüsusilə sosial şəbəkələrin istifadəsinin genişlənməsi ilə zorakılıq aktlarının çoxaldığı görülmüşdür. Ailədə zorakılıq və ya travmatik təcrübələr yeniyetmələrdə zorakılığa meyli artıra bilər.

**Mövzunun nəzəri və praktiki əhəmiyyəti:** Məqaləni ümumi psixologiya, ailə psixologiyası, sosialogiya, pedaqogika, sosial iş sahəsi üzrə təhsil alan tələbələr istifadə edə bilərlər.

Zorakılıq insanlıq tarixi qədər qədim anlayışdır. İnsan davranışında zorakılığa meylin olması və onun yaranma səbəbləri ilə bağlı bir çox amillər qeyd olunur. İzlərinə tarix kitablarında, ilkin psixoloji araşdırmalarda rast gəlinən bu amillərin insanın başqaları ilə qeyri-sağlam münasibətləri, özünü düzgün ifadə etməməsi, anlaşılmazlıq, öz istəklərini yerinə yetirməsi və başqalarına zərər vermək ehtiyacı kimi bir çox fərqli səbəblərdən qaynaqlandığı iddia edilir.

Bu gün elm dünyası zorakılıq fenomenini reallıq kimi qəbul etsə də, onu bir şəkildə azaltmaq, hətta tamamilə aradan qaldırmaq üçün səylər göstərir. Sivilizasiya, inkişaf və müasirlik kimi anlayışlar sosial və fərdi zorakılığın olmaması ilə əlaqələndirilsə də [Le Bon, 2005], bu gün şiddətin varlığını və yayılmasını düşündüyümüz zaman yanlış təsəvvürlə qarşılaşdığımız görünür. Bunun üçün zorakılıq və təcavüzün bütün aspektlərini öyrənmək və anlamağa çalışmaq lazımdır. Qəzetlərdə və televiziyalarda hər gün şahidi olduğumuz hadisələrdən də anlaşıldığı kimi, bu, zorakılığın artma tendensiyasını tam anlamaq üçün araşdırılması lazım olan bir çox amillərin olduğunu göstərir.

Zorakılıq, aqressiya, qəzəb və antisosial davranış kimi anlayışları nəzərdən keçirərkən bu anlayışların bir-birini əvəzlədiyi görülsə də

[Ferrington, 2004], bu anlayışlara multidisiplinar bir yanaşmaya ehtiyac var. Ümumdünya Səhiyyə Təşkilatının qeyd etdiyi kimi, şiddət - bu, xəsarət, ölüm, psixoloji zərər ilə nəticələnən və ya nəticələnəcək təhlükə kimi müəyyən edilir. Ümumdünya Səhiyyə Təşkilatına görə, insanlara qarşı şiddət 3 kateqoriyada təsnif edilir: özünə zorakılıq, şəxsiyyətlərarası zorakılıq və kollektiv zorakılıq [ÜST, 2013]. Zorakılıq etinasızlıq və sui-istifadə, psixoloji təzyiq, cinsi zorakılıq və fiziki zorakılıq kateqoriyalarında qiymətləndirilir. Bəzən məqsədyönlü, bəzən də məqsədsiz davranış kimi özünü göstərə bilən zorakılıq, törədənin və ya qurbanın belə fərqində olmadığı şəkildə baş verə bilər [Gözütok, 2008]. Zorakılıq aktı insana fiziki, psixoloji və ya sosial ziyan vuran düşmənçilik, qəzəb, güc və təzyiq hisslərinə səbəb olan fərdi və ya kollektiv hərəkətlər kimi qiymətləndirilir [Budak, 2000].

Biz buna sosial nöqteyi-nəzərdən baxsaq, demək olar ki, qaydaları pozan davranışları ehtiva edən hər şey zorakılıq sayılır. Müəyyən mənada gücdən istifadəni nəzərdə tutan zorakılıq anlayışı fiziki və ya psixoloji meyarlara görə başqasına vurulmuş zərər kimi qiymətləndirilir. İnsanın psixoloji sağlamlığına mənfi təsir göstərən, onu əsəbiləşdirən, təzyiq və ya təhdid hissi yaradan hər hansı münasibət və ya davranış psixoloji zorakılıq kimi qəbul edilir. İnsanın mənəvi dəyərlərinə qarşı yönəlmiş və onun mənəvi həyat tərzinə təhlükə yaradan hər hansı münasibət və ya davranış mənəvi zorakılıq sayılır. Bir şəxsin qanun vasitəsilə öz hüquqlarını əldə etməsinə mane olmaq və ya ümumbəşəri hüquq normalarına zidd olaraq qanunu şəxsə qarşı şərh etmək hüquqi zorakılıqdır. Qanunla iqtisadi fəaliyyətə müdaxilə etmək və şəxsi başqalarına verilən iqtisadi dəstəkdən məhrum etmək iqtisadi zorakılıq hesab olunur.

Zorakılıq və təcavüz anlayışlarına dair araşdırmalarda bioloji əsaslı təsirlər, ekoloji-mədəni təsirlər, idrak proseslərini prioritetləşdirən eklektik xüsusiyyətlər və təsirlər qeyd edilir [4].

Bioloji təsirlərə əsaslanan baxışlar aqressiya aktını instinktiv kimi qiymətləndirir, lakin zorakılığın instinktiv enerjinin yığılmasını stimullaşdıran daxili və xarici stimullar nəticəsində baş verdiyini müdafiə edir. Hormonal təsirlər bioloji əsaslara baxan qiymətləndirmələrdə ön plana çıxır [1].

Freydə görə, insanın həyatında baş verən bütün hadisələr həyat və ölüm instinkti ilə bağlıdır. Həyat instinkti - ölüm instinkti seksuallıq və cinsi davranış vasitəsilə ifadə edilir, təcavüz və dağıdıcı reaksiyalarla təmsil olunur. Ümumiyyətlə qəbul edilir ki, insanın həyatında baş verən bu hadisələr bu iki instinkt uyğunlaşdıqda və ya ziddiyyət təşkil etdikdə baş verir [Dacko, 1989].

Sosial öyrənmə nəzəriyyəsi zorakılığın instinktiv davranışdan çox öyrənilmiş davranış olduğunu göstərir [7]. Bu yanaşmaya görə aqressiya modelləşdirmə yolu ilə baş verir. Uşaq ailədə olan zorakı davranışı diqqətlə

müşahidə edir, gördüklərini mənimsəyir və sonra zorakılıq formasında bunu bir başqasına tətbiq edə bilir.

Zorakılığa meyil adətən iki amil baxımından nəzərdən keçirilir: fərdi və ətraf mühit faktorları. Zorakılığa meyli sosial, mədəni və iqtisadi kontekstdə nəzərdən keçirməklə yanaşı, fərdi, əxlaqi və ətraf mühit faktorları bu fenomenin başa düşülməsində mühüm rol oynayır. Zorakı davranışı ekoloji çərçivədə qiymətləndirilir. Hər bir insanın fərdi, ailə, ətraf mühit və sosial xüsusiyyətləri ön plana çıxır. Buna uyğun olaraq medianın və cəmiyyətin zorakılığa həssaslığı ekoloji faktorlar hesab edilərkən, sosial faktorlar, tərbiyə, maarifləndirici çatışmazlıqlar kimi müəyyən edilir. Fərdi amillər fərdin yaşadığı ruhi sıxıntı əsasında qiymətləndirilərkən, ailə faktorları, ailədaxili ünsiyyət və qarşılıqlı əlaqə, ailədaxili münaqişələr və nizam-intizam tətbiqləri mühüm faktorlar kimi qəbul edilir [7].

Ailə nəinki uşağın dünyagörüşündə və həyata oriyentasiyasında mühüm sosial element kimi çıxış edir, həm də onun fərdi inkişafında psixoloji cəhətdən əsas rol oynayır.

Bu mənada, şiddət yönümlü uşaqların sağlam ailə funksiyasına malik olmadığı göstərilmişdir [Kılıç, 2012]. Ailədaxili zorakılığın şahidi olmaq, aşağı səviyyədə ailə dəstəyi və düzgün olmayan valideynlik davranışı nəticəsində aqressiv davranışla əlaqələndirilir [Mazefsky & Farrel, 2005]. Təcavüzkar davranışa məruz qalan insanların yetkinlik dövründə ciddi davranış pozğunluqları nümayiş etdirdiyini və öz uşaqlarına qarşı gələcəkdə daha çox qəzəb və aqressiv davranış nümayiş etdirdiyini göstərən araşdırmalar var [Frias-Armenta, 2002; Dilillo, Tremblay və Paterson, 2000]. Ailədə müşahidə edilən zorakılıq depressiya və travma sonrası stress pozğunluğu kimi psixi sağlamlıq problemlərinə səbəb olduğu kimi, uşaqlıqda məişət zorakılığını müşahidə etmək və ya ona məruz qalmaq da münaqişənin həlli forması kimi zorakılığın daxililəşdirilməsi mənbəyi hesab olunur [İbiloğlu, 2012]. Təcavüz və məişət zorakılığını dəstəkləyən münasibət uşaqlarda aqressivliyə qarşı müsbət münasibət inkişaf etdirməyə kömək edə bilər, aqressiya ilə bağlı öz-özünə effektivliyin inkişafına kömək edə bilər və həmçinin ətraf mühitlə ünsiyyət üçün istifadə olunan ümumi strategiya kimi aqressiv davranışın ortaya çıxmasına səbəb ola bilər. Aqressiv davranış nümayiş etdirən yeniyetmələrin ailələrində aparılan müqayisəli araşdırmalar göstərir ki, bu ailələr problem həll etmə, ünsiyyət, rol bölgüsü və emosional reaksiyalar baxımından daha çox problem yaşayırlar [Avcı & Güçray: 2010]. Bununla belə, bəzi tədqiqatlar belə nəticəyə gəlib ki, media və həmyaşıd təsirləri ailədaxili münaqişədən daha çox zorakılığa münasibətə təsir göstərir [Avci və Güçray, 2013].

Problemə məktəblərdə zorakılıq nöqteyi-nəzərindən yanaşdıqda, bu, müəllim və tələbələrdən gələn və fiziki, emosional, cinsi və kiber xüsusiyyətləri özündə birləşdirən geniş kontekstdə baş verir [Miller & Kraus:

2008]. Məktəb zorakılığının mənbələri arasında ən mühüm amillərə şagirdlərin sosial-iqtisadi səviyyəsi, məktəbin strukturu və yerləşdiyi yer daxildir. Bu mənada məktəbdəki zəif nəticə, ailənin parçalanması, uşaqlıq travması, ailə münasibətlərindəki qeyri-adekvat və qeyri-sağlam münasibətlər əsas risk faktorları kimi qəbul edilir [Ferrington, 2004].

Yeniyetməlik dövründə aqressiv davranışı struktur və qazanılmış, struktur aqressiyaya ayıran Dakoya görə paranoya kimi pozğunluqlar nəticəsində yaranan reaktiv və əsəbi bir temperament aqressiya kimi müəyyən edilir. Öyrənilmiş aqressiya təsadüfi bir vəziyyət nəticəsində yaranan reaksiyalar kimi müəyyən edilir. Fiziki travma və sonrakı psixotik pozğunluqlar aqressiyaya səbəb olan xarakter pozuntularına səbəb ola bilər. Yeniyetməlik dövründə aqressiya və zorakılıq qızlarda oğlanlara nisbətən daha az olsa da [Ferrington, 2004], ev zorakılığına məruz qalaraq böyüyən uşaqların yeniyetməlik dövründə aqressiya və antisosial davranışlara daha çox meylli olduğunu göstərən araşdırmalar var [Smith: 2009].

Zorakılıq sosial bir hadisədir. "Sosial öyrənmə" nəzəriyyəsində vurğulandığı kimi, aqressivlik və zorakılıq öyrənilmiş davranışlardır və vaxtında müdaxilə edilmədikdə, lazımi tədbirlər görülmədikdə, uzun müddətdə ictimai quruluşda geri dönməz yaralar yarada biləcəyi məlumdur [Ayan, 2007].

İlk sosial institut olan ailənin uşaqların tərbiyəsi zamanı müsbət sosial davranışlara yiyələnməsində, cəmiyyətdə sağlam münasibətlərin formalaşmasında və qorunub saxlanmasında böyük əhəmiyyəti vardır. Uşaqlar tərbiyə zamanı ilk növbədə valideynlərini nümunə götürdükləri üçün onlara müsbət nümunə olmaq lazımdır. Uşaqların sağlam mühitdə böyüyüb yetişmələri və düzgün ünsiyyət qura bilmələri üçün onları bəzi mənfi davranışlardan uzaq tutmaq lazımdır.

***Ədəbiyyat***


1. *Anderson, C.A., & Bushman, B.J. (2002). Human aggression. Annual Review of Psychology. 53, 27-51.*
2. *Avcı, A. (2010). Eğitimde şiddet olgusu lise öğrencilerinde şiddet, saldırganlık ve ahlaki tutum ilişkisi, Marmara Üniversitesi, Sosyal Bilimler Enstitüsü, İstanbul.*
3. *Avcı, R. & Güçray, S.S. (2010 ). Şiddet Davranışı Gösteren ve Göstermeyen Ergenlerin Ailelerinin Aile İşlevleri, Aile Bireylerine İlişkin Problemler, Öfke ve Öfke İfade Tarzları Açısından İncelenmesi. Kuram ve Uygulamada Eğitim Bilimleri, 10(1), 45-76.*
4. *Avci, R. & Güçray, S.S. (2013). Ebeveynler Arası Çatışma, Akran ve Medya Etkileri ile Ergenlerdeki Şiddet Davranışı Arasındaki İlişkiler: Şiddete Yönelik Tutumların Aracı Rolü. Kuram ve Uygulamada Eğitim Bilimleri, 13(4),1995-2015.*

5. *Ayan, S. (2007). Aile içinde şiddete uğrayan çocukların saldırganlık eğilimleri. Anatolian Journal of Psychiatry, 8, 206-214.*
6. *Balkis, M., Duru, E. & Buluş, M. (2005). Şiddete yönelik tutumların, özyeterlik, medya, şiddete yönelik inanç, arkadaş grubu ve okula bağlılık, duygusu ile ilişkisi. Ege Eğitim Dergisi, 6 (2), 81-97.*
7. *Bandura, A. (1978). Social learning theory of aggression. Journal of Communication, 28, 12- 29.*
8. *Bert, S.C., Guner, B.M, & Lanzi, R.G. (2009). The ınfluence of maternal history of abuse on parenting know-ledge and behavior. Family Relations; 58, 176-187.*
9. *Büyüköztürk, Ş., Kiliç E., Akgün Ö.E., Karadeniz, Ş. & Demirel, E. (2009). Bilimsel Araştırma Yöntemleri. Ankara: Pegem Yayıncılık.*
10. *Berkowitz, L. (1993). Aggressiveness-Its Causes, Consequences And Control. New York: McGraw-Hill.*
11. *Budak, S. (2000). Psikoloji sözlüğü. Ankara: Bilim ve Sanat Yayınları.*
12. *Burger, J.M. (2006). Kişilik, (Çev: İ. D. E. Sarıoğlu) 1. Basım, İstanbul: Kaknüs Yayınları.*
13. *Bilgin, B. (2000). İslam ve Çocuk. Ankara: DİB Yayınları. COREY, G. (2008). Psikolojik Danışma, Psikoterapi Kuram ve Uygulamaları (Çev: T. Ergene). Ankara: Mentis Yayıncılık.*
14. *Çakır, K. & Şen, E. (2012). Psikolojik doğum sırasına göre adil dünya inancı. Sosyal Bilimler Enstitüsü Dergisi. 12(1), 57-69.*
15. *Daco, P. (1989). Çağdaş Psikolojinin Olağanüstü Başarıları. (Çev. O. A. Gürün) İstanbul: İnkılap ve Aka.*
16. *Doğan, İ. (2008). Sosyoloji, Kavram ve Sorunlar. 8. Baskı. Ankara: Pegem Akademi Dilillo, D., Tremblay, C.G. & Paterson, L. (2000). Linking childhood sexual abuse and abusive pareting: The mediating role of maternal anger. Child abuse & Neglect, 24(6), 767- 779.*
17. *Ergişi, A. & Köksal Akyol, A. (2009). Yedi-Oniki Yaş Çocuklarında Davranış ve Uyum Sorunlarının İncelenmesi. Çağdaş Eğitim Dergisi, 34(368), 13-19.*

**Ə.Ə.Əzimova**
**Bakı Slavyan Universiteti**
***efsane_1998@list.ru***

# XARİCİ DİL TƏDRİSİNDƏ KOMPÜTER TEXNOLOGİYASININ ROLU

***Xülasə***

*Məqalədə xarici dil, xüsusi olaraq da, günümüzün ən vacib hissəsinə çevrilən ingilis dili və texnologiyadan bəhs olunur. Məqalə xarici dilin tədrisində müxtəlif kompüter texnologiyalarından istifadə məsələsinə həsr edilmişdir. Müasir kompüter texnologiyalarının üstünlükləri və çatışmazlıqları xarakterizə olunur. Məqalədə təhsilin kompüterləşdirilməsi və bunun xarici dilin tədrisinə təsiri, həmçinin, müasir texnologiyadan istifadə edilərək xarici dilin öyrədilməsinin üstünlükləri də qeyd olunmuşdur. Bundan əlavə, məqalədə yeni informasiya texnologiyalarının aktuallığı və bunun şagirdlər və tələbələrin ünsiyyət, yaradıcılıq, tədqiqat bacarıqlarının inkişafına təsiri kimi məsələlərə də toxunulmuşdur. Məqalədə təbiət elmləri tələbələrinə xarici dilin tədrisi prosesində kompüter texnologiyalarından istifadə təcrübəsi də təsvir edilmişdir.*

# РОЛЬ КОМПЬЮТЕРНЫХ ТЕХНОЛОГИЙ В ОБУЧЕНИИ ИНОСТРАННОМУ ЯЗЫКУ

***Резюме***

*В статье говорится об иностранном языке, особенно английском языке и технологии, которая является важнейшей частью современности. Статья посвящена вопросам использования различных компьютерных технологий в преподавании иностранного языка. Создаются преимущества и недостатки современных компьютерных технологий. В статье упоминается компьютеризация образования и ее влияние на обучение языку, а также преимущества обучения иностранному языку с использованием современных технологий. Кроме того, в статье представлены актуальные и дополнительные возможности. новых информационных технологий, творчества, творчества. Также было затронуто влияние исследовательских навыков. В статье также описан опыт использования компьютерных технологий в процессе обучения иностранному языку с учетом особенностей естественных наук.*

# THE ROLE OF COMPUTER TECHNOLOGY İN FOREİGN LANGUAGE TEACHİNG

***Summary***

*The article talks about the foreign language, especially the English language and technology, which is the most important part of today. The article is devoted to*

*the issues of using different computer technologies in the teaching of a foreign language. It creates the advantages and disadvantages of modern computer technologies. The article mentions the computerization of education and its effect on language teaching, as well as the advantages of teaching a foreign language using modern technology. In addition, the article describes the actual and additional features of new information technologies, creativity, creativity. The impact of research skills has also been touched upon. The article also describes the experience of using computer technologies in the process of teaching a foreign language to the characteristics of natural sciences.*

***Açar sözlər:*** *ingilis dili, kompüter texnologiyası, internet, xarici dil tədrisi*
***Ключевые слова:*** *английский язык, компьютерные технологии, интернет, преподавание иностранного языка*
***Key words:*** *english language, computer technology, internet, foreign language teaching*

Son zamanlar ali təhsil müəssisələrinin tələbələrinin xarici dil dərslərinə marağının azalması tendensiyası müşahidə olunur. Ənənəvi təhsil formaları informasiyanın müasir qavranılmasının arxasında əsaslı şəkildə dayanır: tələbələr lazımi materialı abstrakt şəkildə öyrənir, dərs zamanı sosial şəbəkələrdəki xəbərlərə gizlicə baxmağa üstünlük verirlər. Ənənəvi təhsil prosesində tələbələr çox vaxt özünü ifadə və özünü tanıma ehtiyaclarını reallaşdırmaq imkanından məhrum olurlar. Praktiki məşğələ, əsasən, müəllimin təklif etdiyi materialın şagirdlərin qabiliyyətini, meylini, maraqlarını nəzərə almadan passiv mənimsəməyə, qaydaları əzbərləməyə yönəlib. Hesab edirik ki, müasir tədris prosesində maraqlı, qeyri-standart tədris formalarından istifadə etmək lazımdır ki, bu da, fikrimizcə, tələbələrin xarici dili öyrənməyə, itirilmiş marağını bərpa etməyə imkan verəcəkdir. Müəllim müəyyən dərəcədə standart praktiki dərsdən uzaqlaşmalı, ona diqqəti cəlb edə biləcək, şagirdlərin fəallığını gücləndirəcək, onları fəaliyyətə, düşünməyə, axtarışa sövq edə biləcək yeni bir şey təqdim etməlidir.

Xarici dillərin öyrənilməsi prosesinin təkmilləşdirilməsinin ən səmərəli yollarından biri təhsil sistemində kompüter və internet texnologiyalarından istifadədir. Təhsilin kompüter-informasiya modeli xarici dillərin ənənəvi tədris metodları sistemindən müasir açıq təhsil sisteminə keçid mərhələsinin bir növüdür. İnformasiya texnologiyalarının istifadəsi mütəxəssis hazırlığı prosesinin tətbiqi üçün əsasdır. Kompüter texnologiyası dil öyrənmə təcrübələrini artırmaq üçün innovativ alətlər və resurslar təqdim etməklə xarici dillərin tədrisində mühüm rol oynayır. Kompüter texnologiyasının xarici dil təhsilinə inteqrasiyası həm tələbələrə, həm də müəllimlərə çoxsaylı faydalar təqdim edərək, dillərin öyrədilməsi və öyrənilməsində inqilab etdi.

Xarici dillərin tədrisində kompüter texnologiyasından istifadənin əsas üstünlüklərindən biri interaktiv və cəlbedici tədris materialları təqdim etmək

bacarığıdır. Dil öyrənmə proqramı, onlayn platformalar və multimedia resursları tələbələrə dinamik və immersiv mühitdə dinləmə, danışma, oxuma və yazma bacarıqlarını tətbiq etməyə imkan verir. Bu interaktiv alətlər tələbələrə praktiki dil bacarıqlarını inkişaf etdirməyə kömək edən doğma danışanlarla söhbətlər və ya virtual mədəni təcrübələr kimi real həyatdakı dil ssenarilərini simulyasiya edə bilər.

Bununla yanaşı, kompüter texnologiyası fərdi tələbə ehtiyaclarına və üstünlüklərinə uyğunlaşdırılmış fərdi öyrənmə təcrübələrinə imkan verir. Uyğunlaşan təlim sistemləri tələbələrin tərəqqisini izləyə, təkmilləşdirmə üçün sahələri müəyyən edə və hədəflənmiş rəy və dəstək verə bilər. Bu fərdiləşdirilmiş yanaşma tələbələrə öz sürətləri ilə öyrənməyə və diqqət tələb edən xüsusi dil bacarıqlarına diqqət yetirməyə imkan verir.

Kompüter texnologiyası xarici dil siniflərində tələbələr və müəllimlər arasında ünsiyyəti və əməkdaşlığı asanlaşdırır. Onlayn kommunikasiya vasitələri, video konfrans platformaları və sosial media şəbəkələri tələbələrə müxtəlif mədəni mənşəli həmyaşıdları ilə ünsiyyət qurmağa, orijinal kontekstlərdə dil bacarıqlarını tətbiq etməyə və birgə layihələrdə iştirak etməyə imkan verir. Bu rəqəmsal kommunikasiya kanalları dil öyrənənlər arasında mədəni mübadilə, mədəniyyətlərarası anlaşma və qlobal vətəndaşlığı təşviq edir.

Bundan əlavə, kompüter texnologiyası dünyanın hər yerindən geniş bir sıra orijinal dil resurslarına çıxış təklif edir. Onlayn kitabxanalar, rəqəmsal arxivlər, multimedia məlumat bazaları və təhsil saytları tələbələri hədəf dildə çoxlu orijinal mətnlər, audiovizual materiallar, xəbər məqalələri, ədəbi əsərlər və mədəni əsərlərlə təmin edir. Bu müxtəlif resursları tədqiq etməklə tələbələr linqvistik biliklərini genişləndirə, mədəni anlayışlarını dərinləşdirə və tənqidi düşünmə bacarıqlarını inkişaf etdirə bilərlər.

Nəticə etibarilə, kompüter texnologiyası interaktiv öyrənmə təcrübələrini gücləndirməklə, fərdiləşdirilmiş təlimatı təmin etməklə, ünsiyyət və əməkdaşlığı təşviq etməklə və orijinal dil resurslarına çıxışı təmin etməklə xarici dillərin tədrisində çoxşaxəli rol oynayır. Rəqəmsal alətlərin və resursların gücündən istifadə etməklə, müəllimlər tələbələrə xarici dillərdə bacarıq əldə etməyə imkan verən dinamik və cəlbedici dil öyrənmə mühitləri yarada bilərlər.

Yeni informasiya texnologiyalarından istifadə ingilis dilinin tədrisində tələbə mərkəzli yanaşmanı həyata keçirməyə imkan verir. Yeni informasiya texnologiyalarından istifadənin aktuallığı, ilk növbədə, inkişaf etdirici təhsilin səmərəliliyinin artırılmasında pedaqoji ehtiyaclardan, xüsusən də tələbələrin müstəqil öyrənmə fəaliyyətlərində bacarıqlarını inkişaf etdirmək, tədqiqat və yaradıcılıq bacarıqlarını inkişaf etdirmək ehtiyacı ilə diktə olunur.

M.K.Ammosova adına Şimal-Şərqi Federal Universitetinin Biologiya və Coğrafiya fakültəsinin tələbələrinə ingilis dilini tədris edərkən kompüter texnologiyalarından istifadə edilmiş və belə bir təcrübə aparılmışdır. Dərslər zamanı tələbələrə eyni vaxtda iki formatda məlumatlar təqdim olunub. Dərsin birinci yarısı ənənəvi formada - dərsliklərə uyğun olaraq nəzəri əsasların izahı ilə keçirildi. Dərsin ikinci yarısında tələbələr video və audio materiallara baxaraq və dinləyərək (yazılı və yazısız), ingilis dilli internet saytlarının məzmununu öyrənərək, həm müəllim, həm də tələbələr tərəfindən hazırlanmış materialları nəzərdən keçirərək təcrübədə əldə etdikləri məlumatları mənimsəmişlər. Hər dəfə materialları dinlədikdən və baxdıqdan sonra tələbələr əldə etdikləri məlumatı şərh edirdilər və xüsusilə, belə iş zamanı sözlərin tərcüməsini əzbərləməyə ehtiyac yox idi. Audio, video materiallardan, internet saytlarından istifadə sayəsində şagirdlərin bir qismi tərcüməni təsvirlə, bəziləri rus dilinə oxşar səslə əlaqələndirir, digərləri isə başqa situasiyalarda bu sözlə qarşılaşdıqları anları xatırlayırdılar. Biz aşkar etdik ki, təbiət elmləri tələbələri audio axını və başlıqlarla, yəni məşhur filmlərdən parçalarla birlikdə informasiyanın vizual qavranılmasına ən çox meyllidirlər. Onlar üçün ev tapşırığının yaradıcı hissəsi seçdikləri mətnləri tərcümə etməkdən ibarət idi. Beləliklə, bir qayda olaraq, tələbələr ingilis dilini öyrənmək prosesinə təbii şəkildə cəlb olunur və işə maraq göstərirlər. Kompüterdən təlim prosesinin bütün mərhələlərində - yeni materialın izahı zamanı, konsolidasiya, təkrar, nəzarət zamanı istifadə oluna bilər.

Təhsilin kompüterləşdirilməsi müasir təhsil sisteminin bütün komponentlərinə və xüsusən də, “Xarici dil” fənninə əhəmiyyətli təsir göstərir. Kompüterdən istifadə edərək xarici dilin öyrədilməsi bir sıra üstünlüklərə malikdir:

1. Təlimin fərdiləşdirilməsi təmin edilir;
2. Tələbələrin kompüterə marağı təlim prosesi üçün yüksək motivasiyaya səbəb olur;
3. Tələbələr kompüterlə həvəslə dialoq aparır, onların ümumi kompüter və dil mədəniyyəti yüksəlir;
4. Birbaşa əks əlaqə yaratmaq imkanı var;
5. Səhvləri təkrar edərkən kompüter mənfi emosiyalar göstərmir;
6. Məşğələlərin və təlimlərin səmərəli icrasını təmin edir [1, s.143].

Fənn üzrə hazır tədris kompüter proqramlarını ənənəvi dərsə uyğunlaşdırmaq çox çətindir, çünki onlar həmişə fənnin iş proqramına, tədrisdə metodik məqsədlərə və didaktik prinsiplərə uyğun gəlmir.

“Xarici dil” fənninin özəlliyi ondan ibarətdir ki, burada tədris məzmununun aparıcı komponenti elmin əsasları deyil, fəaliyyət metodları - müxtəlif nitq fəaliyyəti növlərinin öyrədilməsidir. Kompüterlə işləyərkən müəllim istər-istəməz dərsin bütün strukturunu və onun məqsədini dəyişir.

Tədris prosesində kompüterin müvafiq rolunu və yerini müəyyən etmək, əsas anlayışları aydınlaşdırmaq, metodiki və texniki aspektləri təqdim etmək lazımdır. Kompüterlə işləmək təkcə öyrənməyə marağı artırmağa kömək etmir, həm də tədris tapşırıqlarının təqdimatını çətinlik dərəcəsinə görə tənzimləməyə, habelə düzgün həll yollarını təşviq etməyə imkan verir. Bundan əlavə, kompüter öyrənməyə mənfi münasibətin ən vacib səbəblərindən birini- materialın başa düşülməməsi və ya bilik problemi səbəbindən uğursuzluğu tamamilə aradan qaldırmağa imkan verir. Məhz bu cəhət bir çox kompüter təlim proqramlarının müəllifləri tərəfindən təmin edilir. Kompüterdə işləyərək tələbə lazımi köməyə arxalanaraq problemin həllini başa çatdırmaq imkanı əldə edir [4, s.22].

Cəmiyyətimizin kompüterləşməsi bu ağıllı maşınları gündəlik həyatda istəyən və istifadə edə bilən insanların getdikcə daha çox olmasına gətirib çıxarır. Kompüterlər həyatı asanlaşdırır və daha maraqlı edir. İnternetin ingilis dilinin öyrənilməsini növbəti səviyyəyə qaldıra biləcəyi üç sahə var. Bunlar rabitə, informasiya və nəşrdir. Ünsiyyət elektron poçtdan istifadə etməklə həyata keçirilir [3, s.36].

İnternet resurslarından istifadə imkanları çox böyükdür. Qlobal internet dünyanın istənilən yerində tələbələr və müəllimlər üçün lazım olan istənilən məlumatı əldə etmək üçün şərait yaradır: regionşünaslıq materialları, qəzet və jurnallardan məqalələr, lazımi ədəbiyyat və s. internetdəki informasiya resurslarından istifadə edərək onları tədris prosesinə inteqrasiya etməklə praktiki dərsdə bir sıra didaktik problemləri daha effektiv həll etmək mümkündür:

- müxtəlif mürəkkəblik dərəcələrində onlayn materiallardan birbaşa istifadə etməklə oxu bacarıq və bacarıqlarını inkişaf etdirmək;
- monoloq və dialoq şifahi nitq bacarıqlarını təkmilləşdirmək;
- həm aktiv, həm də passiv lüğətinizi müasir xarici dilin lüğəti ilə doldurmaq;
- mədəni biliklərlə, o cümlədən nitq etiketi, ünsiyyət şəraitində müxtəlif xalqların nitq davranışının xüsusiyyətləri, öyrənilən dilin ölkəsinin mədəniyyətinin xüsusiyyətləri, adət-ənənələri ilə tanış olmaq [2, s.38].

Beləliklə, kompüter texnologiyası kömək edir:

- passiv dinləyiciləri cəlb etmək;
- praktiki məşğələlərin daha əyani olmasını;
- tələbələri materialla müstəqil işləməyə alışdırmaq;
- ani rəy təmin etmək;
- cavab qorxusu kimi mənfi psixoloji faktoru aradan qaldırmaq;
- psixoloji mexanizmlərin (təxəyyül, diqqət, yaddaş) inkişaf səviyyəsini artırmaq.

Xülasə olaraq qeyd etmək lazımdır ki, kompüter texnologiyalarından istifadənin üstünlüyü müəllim və şagirdin axtarış və yaradıcı fəaliyyət metodlarına keçididir. Bu, tələbələrin linqvistik səriştəsinin, dinləmə, danışma, oxuma bacarıqlarının formalaşmasına və inkişafına təsir göstərməyə, yazmağı təkmilləşdirməyə və yaradıcı, sosial cəhətdən fəal şəxsiyyət yetişdirməyə kömək edir. Kompüter texnologiyalarından istifadə müəllimi gündəlik işlərin əhəmiyyətli hissəsindən, məsələn, fərdi məşqlərin tamamlanmasının yoxlanılmasından, frontal sorğudan və çoxlu dil materialının təqdim edilməsindən azad etməyə imkan verir. Kompüter texnologiyasından istifadə dərsi cəlbedici və həqiqətən müasir edir, təlim fərdiləşir, nəzarət və yekunlaşdırma obyektiv və vaxtında aparılır.

Müasir şəraitdə xarici dillərin tədrisi prosesinə getdikcə daha yüksək tələblər qoyulur. İnformasiyanın həcmi sürətlə artır və onların saxlanması, ötürülməsi və emalının müasir üsulları artıq effektiv deyil. Kompüter texnologiyaları isə öyrənmə məhsuldarlığının artırılması üçün geniş imkanlar yaradır.

***Ədəbiyyat***

1. *Апатова Н.В. Информационные технологии в школьном образовании. M.RAO, 1994, с. 143*
2. *Дмитриева Е.И. Дидактические возможности компьютерных телекоммуникационных сетей для обучения иностранным языкам // Иностранные языки в школе. 1997, № 4, с. 22-26 .*
3. *Печерский А.В. Интернет учит новый язык // Компьютерра. 1999, № 27-28, с. 36-39.*
4. *Громов Г.Р. Очерки информационной технологии. M.İnfoArt, 1993, с. 336.*

**А.М.Расулов**
**Бакинский Славянский Университет**
***rasulov_aga@bk.ru***

# ФОРМИРОВАНИЕ ЭКОЛОГИЧЕСКОЙ КУЛЬТУРЫ У ДОШКОЛЬНИКОВ

***Резюме***

*Статья посвящена проблеме формирования экологической культуры в детских садах для ознакомления дошкольников с окружающим миром. Приводятся краткие сведения об экологическом воспитании детей дошкольного возраста. Объясняется сущность понятия «экологическое воспитание» дошкольников, показаны перспективы становления и развития экологического образования, исследуются методы и формы организации экологического образования. Анализируются уровни сформированности экологической культуры дошкольников, а также активные методы и формы в организации экологического воспитания дошкольников.*

# MƏKTƏBƏQƏDƏR YAŞLI UŞAQLARDA EKOLOJİ MƏDƏNİYYƏTİN FORMALAŞDIRILMASI

***Xülasə***

*Məqalə məktəbəqədər yaşlı uşaqlarda ətraf aləmlə tanış olmaq üçün uşaq bağçalarında ekoloji mədəniyyətin formalaşması probleminə həsr edilmişdir. Məktəbəqədər yaşlı uşaqların ekoloji tərbiyəsi haqqında qısa məlumat verir. Məktəbəqədər yaşlı uşaqlar arasında "ekoloji tərbiyə" konsepsiyasının mahiyyəti açıqlanır, ekoloji təhsilin formalaşması və inkişaf perspektivləri göstərilir, ekoloji təhsilin təşkili metodları və formaları araşdırılır. Məktəbəqədər yaşlı uşaqların ekoloji mədəniyyətinin formalaşma səviyyələri, həmçinin məktəbəqədər yaşlı uşaqların ekoloji tərbiyəsinin təşkilində fəal metod və formalar təhlil edilir.*

# THE FORMATİON OF ECOLOGİCAL CULTURE AMONG PRESCHOOL CHİLDREN

***Summary***

*The article is devoted to the problem of the formation of ecological culture in preschool children in the classroom to familiarize themselves with the outside world. İt provides brief information about the environmental education of preschoolers, shows the formation and development prospects of environmental education, explores the methods and forms of organizing environmental education for preschoolers. The levels of formation of environmental culture of preschool children, as well as active methods and forms in the organization of environmental education of preschool children education of are analyzed.*

***Ключевые слова:*** *дошкольники, окружающий мир, экологическая культура*
***Açar sözlər:*** *məktəbəqədər yaşlı uşaqlar, ətraf aləm, ekoloji mədəniyyət*
***Key words:*** *preschoolers, environment, ecological culture*

Дошкольное детство – период особенного эмоционального контакта ребенка с природным миром. Непосредственное общение с природой благотворно влияет на развитие ума и чувств ребенка. Прививая ребенку любовь к растениям и животным, мы воспитываем одно из таких важных человеческих качеств как гуманность. Для дошкольной педагогики экологическое образование – это направление, которое появилось на рубеже 80-х и 90-х годов XX века.

Экологическое воспитание дошкольника — это и есть познание живого, которое рядом с ребенком, во взаимодействии со средой обитания и выработка на этой основе правильных форм взаимодействия с ним. Важнейшим условием воспитания у детей гуманного отношения к природе является осознание ими себя как части живой природы. Экологическое воспитание дошкольников прежде всего направлено на формирование положительного отношения ребенка к окружающей среде – земле, воде, флоре, фауне. Научить детей любить и беречь природу, бережно использовать природные ресурсы – главные задачи экологического воспитания.

При этом дети учатся быть ответственными за сохранение природы. Важно при этом научить их умению наблюдать за природными явлениями, различать растения и животных, давать им некоторые базовые характеристики. Все это рассматривается в традиционно сложившемся программном разделе «Ознакомление детей с природой», являющимся базовой основой.

Ребенок активно познает окружающий мир и усваивает извне способы, смыслы и нормы человеческой деятельности, сам для себя достраивает смысловые поля существующих социоприродных отношений и его полноценное личностное развитие возможно только при осуществлении самостоятельной деятельности в соответствии с усвоенными им нормами и эталонами [4].

Уже к трем годам у детей складывается определенное отношение к различным сторонам окружающей действительности, основанное на личном опыте, а также информации, которую ребенок получил от окружающих его взрослых. По мере взросления ребенка его субъективные отношения содержательно обогащаются и качественно

изменяются. Они имеют специфику, обусловленную психологическими особенностями данного возраста и сложившейся социальной обстановкой, в которую включен ребенок. Отсюда и возникает многообразие отношений к окружающей действительности, в том числе и к природе. Но они могут носить как позитивный, так и негативный характер. Именно поэтому в дошкольном возрасте возникает необходимость целенаправленной работы по формированию у ребенка позитивной связи с природным окружением [2]. Научить ребенка с ранних лет жить в ладу с окружающей средой – это не простая, но очень важная задача, которая стоит перед воспитателями и родителями.

Психологические исследования Л.С.Выготского, В.В.Давыдова, А.В.Запорожца, А.Н.Леонтьева и др. доказывают, что отношение дошкольника к миру, включая и природу, в значительной степени построено на рациональной основе. Это целиком относится и к миру природы, где главную роль играют детские эмоции и чувства [6].

На ранних стадиях развития отношения ребенка к условиям окружающей среды обусловлены его жизненными потребностями, степенью удовлетворения и неудовольствия. Постепенно в процессе взаимодействия с окружающим миром выделяется у ребенка и эмоциональное отношение, которое проявляется в привязанности, любви, симпатии, а также и их противоположностей – неприязни, вражды, антипатии. Таким образом, именно это отношение опирающееся, прежде всего на чувства ребенка, в значительной мере определяет характер его взаимодействия с реальным окружением на протяжении всего дошкольного детства. Вместе с тем постепенное обогащение социального опыта потребностей и интеллектуальное развитие детей влекут за собой содержательное изменение их отношений. Здесь речь идет прежде всего о формировании у дошкольников интересов, которые базируются на познавательных потребностях детей и их активности в познании окружающего их мира.

Формирование экологической культуры у детей дошкольного возраста является основной целью экологического образования. Она в свою очередь способствует усвоению практического и духовного опыта взаимодействия человека с природой, обеспечивает выживание человечества и его развитие. Проявления самые разнообразные – это может быть и эмоциональная отзывчивость детей на состояние растений и животных, интерес к природным объектам, желание и умение заботиться о живом существе, а также учитывать их особенности как живых существ. Природа понимается здесь не только как отношение к человеку, окружающая среда – она включает в себя и человека. Отношение к природе тесно взаимосвязано с отношениями человека в

семье, в обществе, на производстве, тут задействованы и межличностные отношения. Эти отношения охватывают науку, политику, идеологию, эстетическую, нравственную, художественную и другие сферы. Ответственное отношение к природе является сложной характеристикой личности, включающая понимание законов природы, которые определяют жизнь человека, проявляется в соблюдении правовых и нравственных принципов природопользования, пропаганде идей правильного природопользования, охране природы, а также борьбе с тем, что отрицательно отражается на окружающей природе. Дети везде и всегда соприкасаются с природой. Для правильного восприятия детьми явлений природы необходимо направить процесс ее восприятия [7].

Основная цель экологического образования – формирование экологической культуры, развитие экологического сознания, экологической ответственности как меры свободы человека в отношениях с окружающей средой, границы которой определяются законами устойчивого равновесия. Следует отметить, что экологическая культура – это становление осознанно-правильного, эмоционально - положительного отношения непосредственно к самой природе во всем ее многообразии.

Экологическая культура, по мнению Т.Т.Федорова – «мера и способ соединения человека с природой посредством познания, преобразования и регулирования общественной деятельности» [3]. Она является отображением целостного понимания мира и включает целый комплекс различного вида деятельности человека. Экологическая культура основывается на эмоциональной отзывчивости, на стремлении человека жить в гармонии с окружающей природой, быть ответственным за ее состояние.

Необходимость начала экологического образования еще в дошкольном возрасте не раз подчеркивалось педагогами. Во-первых, рассмотрение экологического образования как непрерывного и систематического процесса. Во-вторых, актуальность формирования основополагающих принципов экообразования в наиболее благоприятные периоды взаимодействий детей с окружающей природой тоже является важнейшим фактором образования.

Система развития непрерывности экологического образования определятся следующими целями: 1) воспитание начальной формы экологической культуры в личностном отношении детей, понимание ими элементарных взаимосвязей в природе, а также и взаимодействий человека с природой, понимание самоценности всего живого; 2) вырабатывание практического навыка гуманно-созидательных и эмоционально-чувственных взаимодействий с природными объектами,

что тоже предопределяет экологическую культуру. В этом и заключается основная сущность экологического образования [1].

По мнению исследователя С.Н.Николаевой под экологической культурой понимается становление у ребенка правильных и осознанных отношений к объектам природы, которые составляют его непосредственное окружение.

Основы экологической культуры формируются на качестве личности следующим образом:

- формируются отношение и первичные знания о природе, ее единство, значение для жизни человека;
- формируются интеллектуальные и практические умения посредством различных детских игр;
- воспитываются ценностные ориентации экологического характера;
- формируются мотивы, потребности, привычки целесообразных поведений и деятельности, способность нравственного суждения, с помощью различной игровой деятельности;
- участие в активной практической деятельности по охране окружающей среды.

Экологическая культура предполагает базовые основы развития личности, которое представляет собой формирование эмоционально-окрашенного отношения и духовно-нравственного сознания дошкольника к природе [8].

В повседневной жизни знакомство с окружающей природой происходит во время ежедневных прогулок. Это относится к основам эковоспитания детей дошкольного возраста, которое предполагает непосредственный контакт с природными материалами или с живыми объектами, т.е. песком, водой, листьями, плодами, домашними животными и домашними птицами. Важно, чтобы дети понимали, что уход за ними необходим и направлен на удовлетворение жизненных потребностей растений и животных, что каждый организм живет, растет, развивается. Общение дошкольников с живыми объектами пробуждает такие чувства, как душевность, бескорыстие, доброту, гуманность, т.е. духовность нравственного порядка [5].

Подытоживая все вышесказанное, следует отметить, что экологическая культура является воспитанием эмоционально-эстетической культуры. Заинтересованность к природе, ко всем живым организмам, например, к различным растениям, животным - насекомым, птицам, рыбам, земноводным, пресмыкающимся, млекопитающим и так далее, зарождается у детей еще в дошкольном возрасте. И это вполне обосновано, потому что именно в этом возрасте у них уже проявляется интерес к самому себе, развиваются основные понятия о живой и

неживой природе, также развиваются элементарные чувства ответственности за все живое.

***Литература***

1. *Бобылева Л.Д. О программе экологического воспитания старших дошкольников. // Дошкольное воспитание, 2016, №7, с.76-78.*
2. *Виноградова Н.Ф. Экологическое воспитание младших школьников: Проблемы и перспективы. – М.: «Начальная школа», 2007, 254 с.*
3. *Владышевский Д.В. Экология лесных птиц и зверей. - Новосибирск: «Наука», 1980, 264 с.*
4. *Гончарова Е.В. Современные технологии экологического образования периода дошкольного детства. – Ростов-на-Дону: РГПУ, 2016, 288 с.*
5. *Зайнуллина Г.Ф. Экологическое воспитание детей дошкольного возраста // Актуальные вопросы современной педагогики, 2016, № 9, с.62-66.*
6. *Запорожец А.В. Воспитание эмоций и чувств у дошкольника: Пособие для воспитателя детского сада. – М.: «Просвещение», 1985, 176 с.*
7. *Масленникова О.М. Филиппенко А.А. Экологические проекты в детском саду. - М.: «Учитель», 2011, 232 с.*
8. *Николаева С.Н. Методика экологического воспитания дошкольников. – М.: «Академия», 2014, 184 с.*

**R.S.Heydərova**
**Azərbaycan Dövlət Pedaqoji Universiteti**
***rehimehyderova@gmail.ru***

# AZƏRBAYCANIN QRAFİK RƏSSAMLARI ƏZİM ƏZİMZADƏ VƏ ARİF HÜSEYNOVUN YARADICILIĞINDA TARİXİ JANRLI ƏSƏRLƏRİN SƏCİYYƏVİ CƏHƏTLƏRİ

***Xülasə***

*XX əsrdə Azərbaycanda realist qrafikanın tanınmış nümayəndələrindən biri olan Əzim Əzimzadənin müxtəlif dövrlərdə yaratdığı tarixi şəxsiyyətlərə həsr etdiyi portret əsərlərinin bədii xüsusiyyətləri öz əksini tapmışdır. Bununla bərabər həmçinin Əzim Əzimzadə məktəbinin tanınmış nümayəndəsi və onun yaradıcılığından məharətlə istifadə edərək öz əsərlərinin üslubunda əks etdirən xalq rəssamı Arif Hüseynov yaradıcılığında da müvcud tarixi şəxsiyyətlərə həsr olunmuş bir çox portretlərin təsvir və təhlili öz əksini tapmışdır. Hər bir rəssamın əsərlərinin bədii keyfiyyətləri bütün dövrlərdə öz əhəmiyyətini qoruyub saxlayacaqdır.*

# ХАРАКТЕРИСТИКА ИСТОРИЧЕСКИХ ЖАНРОВЫХ ПРОИЗВЕДЕНИЙ АЗЕРБАЙДЖАНСКИХ ГРАФИКОВ АЗИМА АЗИМЗАДЕ И АРИФА ГУСЕЙНОВА

***Резюме***

*В статье XX века один из известных Азербайджанский представителей реалистической графики Азим Азимзаде, отразил художественные особенности своих портретных работ, посвященных историческим личностям, созданных в разные периоды. В то же время отражены описание и анализ многих портретов, посвященных историческим личностям, в творчестве Арифа Гусейнова, известного представителя школы Азима Азимзаде и народного художника, использовавшего свое творчество в стиле своих произведений. Художественные качества произведений каждого художника сохранят свою значимость во все времена.*

# CHARACTERISTIC ASPECTS OF HISTORICAL GENRE WORKS CREATED BY AZERBAIJAN GRAPHIC ARTISTS AZIM AZIMZADE AND ARIF HUSEYNOV

***Summary***

*The artistic features of the portrait works dedicated to historical personalities by Azim Azimzade, a prominent representative of realistic graphics in Azerbaijan in the 20th century, have found their reflection in various periods. Additionally, Arif Huseynov, a renowned artist of the Azim Azimzade School, skillfully incorporates*

*historical figures into his own works, reflecting their style and creativity. The artistic qualities of each painter's works will maintain their significance throughout different periods.*

***Açar sözlər:*** *qrafika, janr, karikatura*
***Ключевые слова:*** *графика, жанр, карикатура*
***Keys words:*** *graphics, genre, cartoon*

Təsviri sənətin qrafika növü rəssamlarımızın yaradıcılığında xüsusi yer tutur. Milli qrafika sənətimizin inkişafında Əzim Əzimzadənin, Arif Hüseynovun, Maral Rəhmanzadənin, Qəzənfər Xalıqovun, Rasim Babayevin, Elmira Şahtaxtinskayanın və bir sıra rəssamların adını qeyd etmək olar. Rəssamlar müxtəlif janrlı məzmunlu qrafik əsərlərlə təsviri sənətimizə öz töhvələrini vermişlər. Bütün qrafik rəssamların yaradıcılığında tarixi janrın özünəməxsus yeri və bədii xususiyyətləri vardı. Rəssamların əsərlərində bu janra xas ortaq məqamlar olduğu kimi, tamamən fərqli yanaşmalar da mövcuddur. Rəssamın əsərlərində vətən təəssübkeşliyi, vətən sevgisi, xalqın həyatı, qayğıları, həmçinin adət-ənənələr və s. mövzular yer almışdır. Azərbaycanın tarixi şəxsiyyətlərinin obrazlarını isə hər bir rəssamın yaradıcılığında izləmək mümkündür.

Azərbaycanın ilk xalq rəssamı Əzim Əzimzadə ölkəmizin rəssamları arasında fəxrimiz olaraq yaddaşlarda qalmış sənətkarlarımızdandır. Əzim Əzimzadə xüsusilə satirik qrafikanın və karikaturanın yaradıcısı olmuşdur. Rəssamın bədii irsi keçən əsrin sadə xalq kütləsi üçün əlçatan, aydın ifadə tərzinə malik maraqlı rəsmlər olmuşdur. Onun özünəməxsus bir yolu vardır ki, plakatlarda, satirik jurnallarda, dəzgah qrafikasına aid əsərlərdə, teatr səhnə dekorasiyası, aktyorların geyimləri üçün yaratdığı eskizlərdə tarixi məqamlar öz bədii əksini tapmışdır.

Rəssamın qrafik əsərlərində müxtəlif sosial siniflərə aid olan insanlar təsvir olunmuşdur. Onların üz cizgiləri çox peşəkarcasına, dəqiqliklə verilərək xarakterik simalar canlandırılmışdır. Cəlbedici və maraq oyadıcı obrazlar tarixiliklərini özlərində əks etdirirlər. Əzimzadənin zəngin yaradıcılıq irsi ölkəmizin bir çox muzeylərində qorunub saxlanılır. Həmçinin rəssamın şəxsi ev muzeyi də vardır ki, burada mühafizə olunan bir-birindən maraqlı əsərlər gələn insanlar tərəfində böyük maraqla izlənilir.

Rəssamın yaradıcılığında karikatura çox mühüm bir hissəni əhatə edir. Karikatura janrına dair əsərləri 1906-1931-ci illərdə Molla Nəsrəddin jurnalında çap olunmuşdur. Daha sonralar isə rəssam bir çox jurnallarda çalışmışdır. Əsərləri bütün jurnallarda demək olar ki, satirik janrda olmuşdur. Rəssamın ilk işi olan Molla Nəsrəddin jurnalı uzun müddət fəaliyyətdə olduğu dövrdə Əzimzadənin satirik rəsmin və karikaturanın inkişafı elə bu jurnal ilə püxtələşmiş və yayılmışdır. O yaratdığı əsərlər vasitəsi ilə dövrün abu-

havasını, dini, yaşayış şəraitini öz düşüncələri ilə ifadə etmiş və satirik münasibət bildirmişdir.

Yad Avropa ölkələrinin ölkəmizə qarşı olan təcavüzkar davranışları rəssamın əsərlərində özünü göstərmişdir. Buna misal olaraq "Uçuruma kim aparır", "Çin və imperalizm" və s. əsərləri göstərmək olar. Rəssamın əsərlərində olan bədiilik, səlistlik, rəng lokonikliyi, parlaqlıq bunların hər biri onun işlərinin gözəlliyindən xəbər verir. Cızdığı rəsmlərin hər birində həyatdan götürdüyü şəxslərin, hadisələrin dəqiqliklə, təbiliklə obrazlarını canladıra bilmişdir. Bu cəhətlər rəssamın yaradıcılıq üslubunu sadə xalq kütlələrinə sevdirir, rəssamın ustalığından xəbər verir.

Ə.Əzimzadə ölkəmizin bir çox ziyalılarını və tanınmışlarını rəsm etmişdir. Onların arasında rəssamın daxilən özünə yaxın bildiyi Hüseyn Cavid, Mikayıl Rəfibəyli, Süleyman Rüstəm və başqaları aiddir. Əzimzadə bu portretləri yaradarkən dostlarının xarici görünüşü ilə yanaşı həm də, daxili aləmlərini açmağa nail olmuşdur. Onların üz cizgilərini, duruşlarını tam dəqiqliklə çəkməklə onların daxili dünyalarını dərindən duyaraq, onu önə çəkərək tamaşaçıya çatdırmışdır.

Rəssamın zəngin yaradıcılıq irsi, fəaliyyəti boyu gördüyü işlər yaşayıb yaratdığı dövrün və gələcək nəsillərin estetikasında, təlim-tərbiyəsində çox böyük rol oynamışdır. Rəssam əsərlərində canlı parlaqlıq və dekorativlik izlənilir. Onlar qısa formatlı rəsmlər olsa da, məzmunlu, baxımlı, maraqlı süjetə malikdirlər.

Əzimzadənin dəzgah qrafikasına aid olan əsərlərinin əksəriyyətini məişət rəsmləri əhatə edirdi. Rəssam bu əsərlərində qeyri-bərabər olan qanunlardan, mənasız və əhəmiyyətsizləşmiş ənənələrdən ibarət olan dövrü təsvir etmişdir. Ölkənin gündəmində olan problemləri öz əsərlərində çox acınacaqlı şəkildə göstərmişdir. Bunlara bariz nümünə olaraq 1930-cu illərdə yaradılmış "Kasıb evində toy", "Varlı evində toy", "Varlı evində qurban bayramı" əsərlərini qeyd etmək olar. Rəssam ölkəsində insanların həyat tərzini, sosial təbəqələşməni, sosial ziddiyətləri əsasən milli koloritli kompozisiyalarda daha qabarıq şəkildə izləyicilərə çatdırmışdır. Həmçinin o ölkəsinin adət-ənənələrini çox yaxşı bildiyindən onun fikirlərində bu açıq-aydın şəkildə hiss olunmuşdur. Əzimzadənin akvarellə işlədiyi bir çox rəsm əsərlərində bunlar çox kəskin görünür.

Əzimzadə qadınların həyatda mövqeyini bədii obrazlarla çox gözəl vurğulayan rəssam olmuşdur. Onun qadın azadlığı haqqında fikirləri dövrünə görə çox rəğbətləndirici olmuşdur. Bu mövzuya adi çoxlu əsərlər işləmiş, işlədiyi əsərlərdə qadın azadlığı, xor görülən qız uşaqları, təhsildən yayındırılaraq evləndirilən kiçik yaşlı qız uşaqlarından bəhs olunmuşdur. Bunlara da misal olaraq "Evdə qız doğulub", "Arvadını döyən kişi", "Təzə arvad alırlar" kimi əsərləri göstərmək olar. Qadınlara qarşı olan haqsızlıq,

qadınların acınacaqlı durumu dəfələrlə təsvir olunmuşdur. XX əsrin əvvəlləri rəssamın qadınların həyatının müxtəlif məqamlarını əks etdirən qrafik əsərləri tarixin yaddaşında xüsusi yer tutmuşdur.

Əzimzadə portret janrında Səlahəddin Əyyubi, Məhəmməd Fizuli kimi bir sıra tarixi şəxsiyyətlərin obrazlarını yaratmışdır. Tarixdə iz qoyan görkəmli insanların şəxsiyyətlərinə olan marağı ona bu janrda əsərlər yaratmağa sövq etmişdir. Fizulinin portretini işləyən rəssam təsvirdə şairin simasını mükəmməl cizgilərlə təsvir etmiş və əsalətini mükəmməl formada ortaya çıxarmışdır. Rəssam duhanın daxili aləmini duyulacaq dərəcədə üz cizgilərində açmışdır.

Əzim Əzimzadə Köhnə Bakı adında qrafik rəsmlər işləmişdir. Yaratdığı rəsmləri silsilə formasında ardıcıl qələmə almışdır. Rəssam bu silsilə əsərində ölkənin hər bir fərdinin - fəhləsindən tutmuş ölkənin ən kübar xanımına qədər təsvir etmişdir. O bu silsilədən rəsmlərində çəkdiyi şəxslərin gündəlik həyatlarını, həyat şəraitlərini, işlərini müşahidə etmiş, yəni, olanları yaxından öyrənmiş və belə bir silsilə ortaya çıxarmışdır. Rəsmləri çəkərkən xalq kütləsinin içərisində olmuş, onlarla hər bir mövzuda söhbətlər aparıb fikirlərini öyrənmişdir. Bu təsvirlərdə yaşayış, geyimlər, peşələr ən xırda nüansa qədər dəqiq və səmimiliklə ilk baxışdan dövrün insanları haqqında dolğun təəssüratlar yaradır.

Rəssamın yaratdığı Bakı silsilə əsərləri Mirzə Ələkbər Sabirin poeziyası ilə uyğunlaşdırılıb. Şairin “Hophopnaməsinə” illüstrasiyalar işləyən ilk rəssam Əzimzadə olmuşdur. “Hophopnamə” əsərində də, əsas məsələ cahilliyin, cəhalətin yaranmasına şərait yaradan, xalqa zülm edən, onun rifahını istəməyən tamahkarları, acgözləri satira obyektində atəşə tutulmasıdır. Bir çox şeirlərə aid Əzimzadənin illüstrasiyaları vardır. “Hophopnaməyə” verdiyi illüstrasiyalarda obrazların poetik cəhətdən ruhlarını daha dərindən başa düşməyə kömək etmişdir. “Hophopnamə”nin bir-birindən maraqlı məqamları rəngli litoqrafiyalarla təsvir olunmuşdur. Bu litoqrafiyaların Azərbaycanın kitab qrafikasının qızıl fondunda özünəxsus dəyəri vardır.

Əzim Əzimzadənin ənənələrini öz əsərlərində və yaradıcılığında davam etdirən qrafik rəssamlarımızdan biri Arif Hüseynovdur. Ölkəmizdə və günümüzdə ən tanınmış rəssam-qrafiklərdəndir. Rəssamın Azərbaycanın tarixi şəxsiyyətlərinə, bütövlükdə ölkəmizin tarixi hadisələrinə həsr olunmuş qrafik əsərlərindən 45 silsilə xarakterli epopeya əsərini misal göstərmək olar. Epopeyada ölkəmizin mədəniyyəti, incəsənəti, memarlığı, keçmiş adət-ənənələri və tarix boyu başına gələn bir sıra hadisələr təsvir olunmuşdur. Xalq rəssamı Arif Hüseynov Qarabağ mövzusunu çox dərindən araşdırmış, onun tarixən davam edən ağrı-acısını daxilən keçirdiyi hisslərin fonunda bədii məzmunlu rəsmlərdə təsvir etmişdir. O, yaradıcılığının 6 ilə yaxın dövrünü sırf bu mövzuya həsr etmişdir. Ölkəmizin acınacaqlı taleyindən, tarixi faktlarından

ibarət olan bədii-sənədli qrafik əsərlər "Qarabağnamə - tarixin səhifələri" adlanır. Rəssam Azərbaycanımızın igid övladlarından, generallarından, xalqa sadiq olan dövlət xadimlərindən bəhs edən möhtəşəm bir epopeya yaratmışdır.

Bu silsilədən rəssamın yaratdığı simaların real, xarakterik əlamətli obrazlarında sənətkarın fərdi üslubunun müniatür sənətinə xas yeni yaradıcı baxışı hiss olunur. Epopeyada yer alan güllələnmiş abidələrdən - Şuşadan gətirilən Üzeyir bəyin, Bülbülün, Natəvanın portretlərində qrafik rəsm faciəvi keçmişlə bu gün arasında körpü rolunu oynayır. Təsvir olunan əsərlərdə qəhramanların hər birinin sifət cizgiləri dəqiq, duruşları əzəmətli görünüşlüdür. Rəssamın əsərləri üçün əsas xüsusiyyətlərindən biri də odur ki, kompozisiyalarda hər bir element aydın, səlis, ahəngdar təsvir olunmuşdur. Onun təsvir etdiyi Xan qızı Natəvanın gözəlliyi insanı valeh edir. Arif Hüseynov qadının mərdliyini, sadiqliyini, dözümlülüyünü qrafik cizgilərlə peşəkarlıqla ifadə etmişdir. Sənətkarın qələmə aldığı Üzeyir Hacıbəyovun portretində nəciblik, əsalət duyulası dərədəcədə aydın və ifadəlidir. Bəstəkarın ciddi, düşündürücü baxışları onun obrazını vurğulayan xarakterik cəhətlərdəndir. Əsərlərin bu qədər nəfis, həssaslıqla bədii həlli Qarabağın mədəni tarixi haqqında məlumat daşıyıcılığına malikdir.

Arif Hüseynovun kitab qrafikası sahəsində ağlasığmayacaq qədər çox işləri vardır və gördüyü bütün işlər çox gözəl şəkildədir. Arif müəllimin yaratdığı bütün qafik işlərində insana xas olan bütün hisslər sevgi, nifrət, ehtiras, tamah - hər bir hiss lokal formada ifadə olunmuşdur. Yaradıcılığ dövründə gördüyü işlərdə yuxarıda da adlarını sadaladıqlarımız haqqında danışdığımız, əsərlərində də, tarix boyu yaşayıb yaratmış ölkəmiz üçün özünü fəda etmiş şəxsiyyətləri təsvir etməyə can atmışdır. Hər birimizin üzlərini əzbərə bildiyimiz şəxsiyyətlərdən Üzeyir Hacıbəyovun, Xurşudbanu Natavanın və s. simalarını yaradarkən rəssam çox sərt cizgilərdən istifadə etmişdir. Onun üçün dünya ya ağ, ya da qara olduğundan gördüyü işlərdə eyni ilə ağ və qara fonda işlənmişdir. Gördüyü qrafik işlər bu illərə aid olsa da onun işlərində əvvəlinci illərin abu havası duyulurdu.

Rəssamın "Azərbaycan nağılı" bədii sərgisinə həsr etdiyi Üzeyir Hacıbəyovun portretinə nəzər saldığımız zaman çox incə işçiliklə işləndiyini görə bilərik. Tam mərkəzdə bəstəkar təsvir edilmiş arxa fonda isə qədim qala divarları, müxtəlif nağıllardan götürülmüş təsvirlər verilmişdir. Həmçinin əsərdə göstərilən təsvirlər milli mədəniyyətimizi də təmsil edir. Verilmiş qadın və kişi fiqurlarında qədim zamanlarda ölkəmizdə istifadə olunam baş örpəyi, kişi papaqları təsvir olunmuşdur ki, bu da milli geyimlərimizdən xəbər verir. Arif Hüseynov burada saf sevgini, sehirli dünyanı, milli mədəniyyətimizi verdiyi təsvirlərdə təmsil etmişdir. Əlində papağı ilə rəsm edilən Üzeyir Hacıbəyov isə əllərini qovuşdurmuş şəkildə dərin düşüncələrə qərq olmuşdur. Öz gözəlliyi ilə hər kəsi məftun edən tovuzquşu şəkilə ayrı bir gözəllik

qatmışdır. Ən yuxarı hissədə arxa fonda təsvir olunmuş Qız qalası və İçərişəhərin gözəl mənzərəsi ilə ölkəmizin memarlığından xəbər verir.

Rəssamın ürəyində olan Qarabağa olan məhəbbət aydın şəkildə görülməkdədir. Xan qızı Natəvanı təsvir edən rəssam bunun timsalında "Qarabağ Şuşa qadınları" adlı əsərdə qələmə almışdır. Əsərdə mərkəzdə bir əlini başına götürmüş fikirlərə qərq olunmuş qadın fiquru təsvir olunmuşdur. Arxa fonda isə Şuşadan olan mənzərələr və bir çox qadın fiqurları verilmişdir. Qadının gözəlliyi, mərdliyi, cəsarətli duruşu rəssamın əsərində bariz şəkildə göstərilmişdir.

Rəssamın Qarabağ haqqında işlədiyi əsərlərində işləmə texnikası gel qələm effektini xatırladır. İşlərdə köhnə fotoşəkillərdən, basmadan, qravuradan istifadə olunur. Rəssamın Qarabağın ən gözəl incisi olan xarıbülbülü təsvir etmişdir. Çəkdiyi rəsmlərin kompazisiyasında xarıbülbülə xüsusi yer ayırmışdır. Bitkinin gözəlliyinə gözəllik qataraq onu qələmə alan rəssam onun gözəlliyini, zərifliyini xüsusi cizgilərlə qələmə almışdır. Rəssamın "Qarabağnaməsi" bədii təfəkkür deyildir, hər biri real yaşanmışlıqdır.

Təsviri sənət tariximizdə özünəməxsus dəsti xətti olan iki müxtəlif dövrdə yaşayıb yaratmış qrafik rəssamların yaradıcılıq irsini araşdıraraq müəyyən nəticələr əldə etdim. Əzim Əzimzadə və Arif Hüseynovun yaradıcılıqlarında vətən sevgisi, onun keşməkeşli tarixi, görkəmli şəxsiyyətləri, adi insanları qrafik təsvirlərdə böyük səmimiyyətlə təsvir edilmişdir. Qrafik əsərlər mərasimlər, oyunlar, bayramlar, hadisələr, insanlar, adət-ənənələrlə əlaqəli olmaqla tarix bədii obrazlı şəkildə əks etdirmişdir. Ailə ortamları, bayram süfrələri, isti ailə tabloları sosial sinif fərqləridə açıq şəkildə təsvir olunmuşdur. Qadınlardan bəhs olunan işlər hər iki rəssamın yaradıcılığında vardır. Qadın azadlığının olmamağı, qızlarımızın təhsilinə önəmsiz yanaşmalar, onların erkən yaşda evlənmələri bunların hər biri rəssamlar tərəfindən kəskin dildə qınanılmış və işlərində öz əksini tapmışdır. Bu nəticəyə gəlmək mümkündür ki, keçmiş dövrün rəssamı ilə bugünki günümüzdə yaşayıb yaradan rəssamın düşüncələri heç də fərqli deyildir. Bütün dövrlərdə eyni mövzular aktual olaraq qalmışdır və rəssamlar tərəfindən dəfələrlə müraciət oluna bilmişdir.

***Ədəbiyyat***

1. *Azərbaycan incəsənəti. Bakı, İşıq, 1992, s. 344*
2. *Arif Hüseynov "Qarabağnamə tarixinin səhifələri" Bakı. Təhsil. 2021, səh. 55-73.*
3. *Nəcəfov M. Ə.Əzimzadə. İşıq, Bakı - 1980, s.67.*

**M.A.Nəbiyeva**
**Azərbaycan Dövlət Pedaqoji Universiteti**
***nbiyeva2001@gmail.com***

# AZƏRBAYCANDA MÜƏLLİM HAZIRLIĞININ TARİXİNƏ DAİR

***Xülasə***

*Cəmiyyətin daim inkişafını təmin edən və zaman keçsə də, yenə də ehtiyac duyacağımız bir peşə olan müəllimliyin tarixinə qısa baxış atılması olduqca əhəmiyyətli mövzulardan biridir. Hələ ibtidai icma cəmiyyətində ovçuluq, yığıcılıq kimi gündəlik yaşam tərzlərinin öyrədilməsindən başlayan bu peşə öz inkişaf yolunu antik dövlətlərdə tapdı. Zaman keçdikcə pedaqoqları dini ruhanilər əvəz etsələr də, müasir dövrdə fikirlərin, dünyagörüşünün, cəmiyyətinin inkişafının nəzərə alınması artıq müəllim hazırlığında inqilab etdi və müəllim olmaq istəyənlərin lisenziyalaşdırılmasına başlandı. Müəllim hazırlığının tarixi yolu müasir dövrümüzdə bilik, bacarıq və bir çox sahələrdə ixtisaslaşmış müəllim kadrlarının meydana çıxmasına səbəb oldu. Hətta texnoloji sahələrdə olan yeniliklər müəllim hazırlığında böyük və əhəmiyyətli rol oynamağa başladı.*

# К ИСТОРИИ ПОДГОТОВКИ УЧИТЕЛЕЙ В АЗЕРБАЙДЖАНЕ

***Резюме***

*Одной из важнейших тем является краткий взгляд на историю педагогики, обеспечивающей постоянное развитие общества и являющейся профессией, которая, несмотря на время, будет нам необходима. Эта профессия, начавшаяся с обучения повседневному образу жизни, такому как охота и собирательство в первобытно-общинном обществе, нашла свой путь развития в древних государствах. Хотя со временем учителей заменило религиозное духовенство, учет идей, мировоззрений и развития общества в наше время произвел революцию в подготовке учителей, и началось лицензирование тех, кто хочет стать учителями. Исторический путь подготовки учителей привел к появлению в современную эпоху учителей, обладающих знаниями, навыками и специализирующихся во многих областях. Даже инновации в технологических областях стали играть большую и важную роль в подготовке учителе.*

# ON THE HİSTORY OF TEACHER TRAİNİNG İN AZERBAİJAN

***Summary***

*Taking a brief look at the history of teaching, which ensures the constant development of society and is a profession that we will still need despite the passage*

*of time, is one of the most important topics. This profession, which started with the teaching of daily lifestyles such as hunting and gathering in primitive community society, found its way of development in ancient states. Although teachers were replaced by religious clergy over time, the consideration of ideas, outlook and development of society in modern times has revolutionized teacher training and licensing of those who want to become teachers has begun. The historical path of teacher training led to the emergence of teachers with knowledge, skills and specialized in many fields in our modern era. Even innovations in technological fields began to play a big and important role in teacher training.*

***Açar sözlər:*** *müəllim, müəllim hazırlığı, təhsil, pedaqoq, təhsil tarixi*
***Ключевые слова:*** *учителъ, подготовка учитель, образование, педагог, история образования*
***Key words:*** *teacher, teacher training, education, educator, educational history*

*"Əgər biz həkimlərə öz sağlamlığımızı etibar ediriksə, müəllimlərə uşaqlarımızın əxlaqını, ağlını, ruhunu və bütün bunlarla bərabər öz vətənimizin gələcəyini etibar edirik" - rus pedaqoqu K.D.Uşinski* [1, s. 3].

İnsan yarandığı gündən bəri öz yaşamını davam etdirməsi üçün nələrisə öyrənməyə məcbur olmuşdur. Bu məcburiyyət onların öz yaşamlarını davam etdirməsi, cəmiyyətdəki dəyişikliklərə öyrəşməsi və bu yenilikləri daha da inkişaf etdirməsi üçün vacibdir. Bu hadisələrin kökündə də öyrənmə və öyrətmə prosesi dayanır. Hər iki prosesin həyata keçirilməsi isə müəllimin vəzifəsidir. Müəllimliyin bir fəaliyyət kimi meydana çıxması ta qədim zamanlara dayanır. Hələ qədim dövrlərdə peşələrin yaranmadığı bir vaxtda insanlar qida əldə etməyi, təhlükələrdən qorunmağı yeni nəsillərə öyrədirdi. Bu öyrətmə prosesinin həyata keçirilməsi əslində bir vaxtlar həmin şəxslərin özlərinin təcrübələri əsasında öyrəndikləri bacarıqları ötürməsi ilə baş verirdi. Lakin cəmiyyət formalaşdıqca bilik və bacarıqlar artıq məsul şəxslər tərəfindən ötürülməyə başladı. Bir sözlə "Müəllimlik" peşəsi yavaş-yavaş meydana çıxdı.

Müəllimlik özü elə bir peşədir ki, digər peşələrin yaranması da ondan asılıdır. Müəllimlər ölkənin inkişafında, ixtisaslı insan resurslarının yetişdirilməsində, cəmiyyətdə sülhün təmin olunmasında, fərdlərin sosiallaşmasında, cəmiyyətin mədəniyyət və dəyərlərinin gənc nəsillərə ötürülməsində aparıcı rol oynayır [2, s.2]. Bir sözlə müəllimlik peşəsinin var olması, cəmiyyətimizin yaşamının davam etdirməsi mənasını daşıyır.

Qədim dövrlərdə müəllim hazırlığı çox vaxt qeyri-rəsmi idi və şagirdlik modelləri ilə aparılırdı. Qədim dövrdə Azərbaycanda müəllimlik peşəsi ilə bağlı məlumatlar çox az yayılmışdır. Professor Fərrux Rüstəmov "Pedoqoji fikrin inkişaf tarixi" əsərində Avestada təlim tərbiyə ilə bağlı məqama toxunarkən Atropatenadan yazmışdır. O Abdulla Fazilinin "Atropatena" əsərini

istinad gətirərək yazır ki, Atropatenada uşaqların təhsilləndirilməsi atalarının vəzifəsidir [3, s.102]. Bu da onu deməyə imkan verir ki, Atropatenada müəllimlik vəzifəsi ilk olaraq valideynin üzərinə düşür.

Erkən orta əsrlərdə müəllimlik peşəsində fərqlilik meydana çıxdı. Artıq bir çox dinlərin meydana gəlməsi və dövlətlərin dini mövzulara önəm verməsi müəllimlik peşəsinə də təsirsiz ötüşmədi. Din xadimləri həmin dövlətlərdə müəllimlik vəzifəsinə yiyələnən şəxslər olmuşdur. O cümlədən Azərbaycanda islam dininin geniş yayılması ilə tədris prosesləri mədrəsələrdə mollalar tərəfindən aparılırdı.

XVIII əsrin sonlarından etibarən müəllimliklə bağlı olan düşüncələr dəyişməyə başladı. Artıq inkişafa doğru getdikcə tədris müəssisələrində dərs deyən müəllimlərin din xadimlərindənmi ibarət olmalı, yoxsa dünyəvi şəxs olması ilə bağlı fikir ayrılıqları ortaya çıxdı. Məhz elə buna görə də həmin dövrdə əsas qarşıda duran məsələ müəllimlik peşəsi üçün lazımi şəxslərin seçilməsi və irəli sürülməsi üçün vahid sistemin yaradılması idi. Ümumiyyətlə, XVIII əsrin sonlarından etibarən müəllimlik lisenziyası məcburi hal almışdır. Bu sənədlər dövlət tərəfindən və ya dövlət tərəfindən səlahiyyətləndirilmiş orqanlar tərəfindən müəyyən kriteriyalara cavab verən şəxslərə verilirdi [4]. Artıq peşəkarlaşma sahəsində müəllim hazırlığı mərkəzlərinin yaradılması həm müəllimlərin, həm də dövlətin fəaliyyətinin nəticəsidir.

XIX əsrdə Azərbaycanda milli ziyalılarımızın səyi nəticəsində təhsilləndirmə sahəsində aparılan islahatlar həyata keçirilmişdir. “Yeni üsullu məktəblər” və ya “üsuli-cədid məktəbləri” 1860-1890-cı illərdə istifadəyə verilmişdir. Molla məktəblərindəki tədrisin insanları cahilliyə sürüklədiyini anlayan M.Ə.Sabir ilk belə müasir tipli məktəbi Şamaxı şəhərində açmışdır. Şamaxıda açılan yeni üsullu məktəbin fəaliyyətinin bəhrəsi olaraq, ardıcıl şəkildə üsuli-cədid məktəbləri Naxçıvanda Məhəmməd Tağı Sidqi, İrəvanda Mirzə Həsən Rüşidiyyə, Şuşada Mir Möhsün Nəvvab tərəfindən fəaliyyətə başlamışdır. Belə məktəbləri bitirən şəxslər daha sonra yeni üsul və metodlarla müəllim kimi fəaliyyət göstərmişlər.

Ölkəmizdə müəllim kadr hazırlığı ilə məşğul olan ilk müəssisə 1876-cı ildə fəaliyyətə başlayan Qori müəllimlər Seminariyası olmuşdur. Bir müddət davam edən çar rusiyasının ruslaşdırma siyasətinin təsiri nəticəsində bu seminariyada tədris rus dilində aparıldı. Həmçinin seminariya Zaqafqaziya ölkələrini əsas tutaraq fəaliyyətə başlasa da, rus, gürcü və erməni bölmələri açılmışdı. Lakin bu zaman Azərbaycan bölgələrində açılacaq məktəblərində azərbaycanlı müəllimlərə böyük ehtiyac yaranmışdı. Bu da azərbaycanlılar üçün ayrıca 1879-cu ildə A.O.Çernyayevskinin rəhbərliyi ilə Azərbaycan bölməsinin açılması ilə nəticələndi. Azərbaycanlılardan ibarət müəllim kadrlarının hazırlanması bu şöbənin üzərinə düşürdü. Hətta seminariyada ehtiyacı olan tələbələrə təqaüd verilməsi də nəzərdə tutulmuşdur ki, bunun

qarşılığında həmin tələbələr 4 il ərzində kənd məktəblərində müəllimlik etməli idilər. Bu addım həm tələbələrin maddi ehtiyacını ödəmiş, həm də kənd məktəblərində ixtisaslaşmış müəllimlər tərəfindən dərs deyilməsi nəticəsində savadsızlığın qarşısının alınması nəzərdə tutulmuşdur. İlk dəfə seminariyaya 32 nəfər qəbul olundu. Bunlardan 24-ü A.O.Çernyayevski tərəfindən yerlərdə seçilərək dəvət olunmuş, qalanları isə öz arzusu ilə gəlmişdi. Azərbaycan şöbəsinin rəhbəri Çernyayevski şəxsən özü bölgələri gəzərək şagirdlərin özləri və valideynləri ilə danışaraq onları seminariyaya getməyə həvəsləndirirdi. Seminariyaya qəbul edilməmişdən öncə tələbələr imtahan prosesinə cəlb edilirdi. Çernyayevskinin bütün səyləri nəticəsində Firudin bəy Köçərli, Rəşidbəy Əfəndiyev, Səfərəlibəy Vəlibəyov, Əliş bəy Tahirov, Mahmudbəy Mahmudbəyov, Cəlil Məmmədquluzadə, Nəriman Nərimanov, Üzeyir Hacıbəyov, Müslüm Maqomayev, Museyib İlyasov, Süleyman Sani Axundov, Bədəlbəy Bədəlbəyov, Azad Əmirov, Əhmədağa Mustafayev, və onlarca başqaları seminariyanı bitirərək Azərbaycanın müxtəlif bölgələrində müəllimlik peşəsi ilə məşğul olmuşlar. Hətta onlardan bəziləri məsələn, Firudin bəy Köçərli elə seminariyada qalaraq Azərbaycan şöbəsində tələbələrə Azərbaycan dili dərsi keçmişlər. Azərbaycan öz müstəqilliyini elan etdikdən sonra 1918-ci ildə seminariyanın Azərbaycan şöbəsi Qazax şəhərinə köçürüldü və burada müəllim kadrlarının hazırlığına davam edildi.

XX əsrin əvvələrində Azərbaycanda müəllim hazırlığı öz yeni mərhələsinə qədəm qoydu. Azərbaycan SSR Xalq Komissarları Sovetinin sədri olan Nəriman Nərimanovun 1921-ci il dekreti ilə ali təhsil müəssisəsi təşkil edildi. Bu ali təhsil müəssisəsi müxtəlif zaman dilimlərində "Ali kişi Pedaqoji İnstitutu", "Azərbaycan Dövlət Ali Pedaqoji İnstitutu", "V.İ.Lenin adına Azərbaycan Dövlət Pedaqoji İnstitutu", "V.İ.Lenin adına Azərbaycan Dövlət Pedaqoji Universiteti", "Nəsirəddin Tusi adına Azərbaycan Dövlət Pedaqoji Universiteti" və nəhayət 1991-ci ildən bugünə kimi "Azərbaycan Dövlət Pedaqoji Universiteti" adını daşıyan pedaqoji kadr hazırlığı ilə məşğul olan universitetdir. 103 illik tarix yolunda çətinliklərə baxmayaraq, Azərbaycanda təhsilin, elmin, milli dəyərlərimizin inkişaf etməsində böyük rola malik olan pedaqoq hazırlığında öz əhəmiyyətini qoruyub saxlamışdır. Ənənələr sadiq, yeniliklərə açıq olan ADPU-nun əsas istiqamət xətti öz sahəsində yetərincə bilik və bacarıqlara sahib, milli şüura malik olan, gələcəkdə şagirdlərinə vətənpərvərlik duyğusunu aşılaya bilən, daim öz inkişafı üçün çalışan, peşəsinə sevgiylə yanaşan, təhsil sahəsində ən son yeniliklərlə tanış olan müəllimlər yetişdirməkdir. Hal-hazırda Filologiya, Tarix və Coğrafiya, Riyaziyyat, Kimya və Biologiya, İncəsənət və Fiziki tərbiyə, Məktəbəqədər təhsil, Fizika, İbtidai təhsil fakültələri üzrə pedaqoq hazırlığı həyata keçirilir. Şəki, Cəlilabad, Quba, Ağcabədi, Şamaxı regionlarında fəaliyyətdə olan filialları ilə birgə Bakı şəhərində ADPU-nun Səbail, Gənclik, Nəsimi və Təbriz kampusları

mövcuddur ki, bu da ölkəmizdə müəllim kadr hazırlığında əlçatanlığı təmin etmiş olur.

***Ədəbiyyat***

1. *M.İlyasov. Müəllimin pedaqoji ustalığı. Bakı – 2013.*
2. *K.Karataş. Öğretmenlik mesleğine kuramsal bir bakış. Elektronik Eğitim Bilimleri Dergisi, N$^{0}$ 9 (17), s. 39-56, 2020.*
3. *F.Rüstəmov. Pedaqoji fikrin tarixi. Bakı, "Nasir" nəşriyyatı, 2003, 242 səh.*
4. *https://www.academia.edu/55362290/The_teaching_profession_in_Europe_historical_and_sociological_analysis*

**L.Q.Abdullayeva**
**Azərbaycan Dövlət Pedaqoji Universiteti**
***abdullayeval795@gmail.com***

# SİNİFLƏR ÜZRƏ ƏHALİ MÖVZULARININ TƏDRİSİNDƏ CİS-DƏN İSTİFADƏ METODİKASI VƏ ONUN TƏDRİSDƏ ƏHƏMİYYƏTİ

***Xülasə***

*Müasir dövrdə xəritə tərtibinin təkmilləşdirilməsi kartoqrafiyanın kosmik informasiya texnologiyalarından ən mükəmməli - CİS vasitəsilə inkişafına zəmin yaratmışdır. Xəritələşdirmə zamanı toplanan baza məlumatlarının təhlili əsnasında əhali üçün təhlükə yaradan proseslər proqnozlaşdırılır, əlaqədər qurumlar məlumatlandırılır, müvafiq tədbirlər həyata keçirilir. CİS demoqrafik dəyişikliklərin, cəmiyyətin həyatına təsir edən coğrafi proses və hadisələrin öyrənilməsində mühüm əhəmiyyətə malikdir. Bu məqalənin məqsədi məktəb coğrafiyasında əhali ilə bağlı mövzuların tədrisində CİS-dən istifadə metodikası və əhəmiyyətindən bəhs etməkdir.*

# МЕТОДИКА ИСПОЛЬЗОВАНИЯ ГИС В ПРЕПОДАВАНИИ НАСЕЛЕННЫХ ПРЕДМЕТОВ НА КЛАССАХ И ЕЕ ЗНАЧЕНИЕ В ОБРАЗОВАНИИ

***Резюме***

*В наше время совершенствование картографического дизайна создало основу для развития картографии посредством самой совершенной из космических информационных технологий – ГИС. В ходе анализа базовых данных, собранных при картировании, прогнозируются процессы, представляющие угрозу для населения, информируются соответствующие учреждения и принимаются соответствующие меры. ГИС важна при изучении демографических изменений, географических процессов и событий, влияющих на жизнь общества. Цель данной статьи – рассказать о методологии и важности использования ГИС при преподавании предметов, связанных с народонаселением, в школьной географии.*

# THE METHODOLOGY OF USING GIS IN THE TEACHING OF POPULATION SUBJECTS ON CLASSES AND ITS IMPORTANCE IN EDUCATION

***Summary***

*In modern times, the improvement of map design has created the basis for the development of cartography through the most advanced of space information technologies – GIS. During the analysis of the base data collected during the mapping, processes that pose a threat to the population are predicted, related*

*institutions are informed, and appropriate measures are implemented. GIS is important in the study of demographic changes, geographical processes and events affecting the life of society. The purpose of this article is to talk about the methodology and importance of using GIS in teaching subjects related to population in school geography.*

***Açar sözlər:*** *CİS, xətti model, radial model, sahilboyu model, ArcGis, Qgis, proyektor, kompüter, Google Earth, demoqrafik göstərici, orta ömür müddəti, əhalinin sıxlığı*

***Ключевые слова:*** *ГИС, линейная модель, радиальная модель, прибрежная модель, ArcGis, Qgis, проектор, компьютер, Google Earth, демографический показатель, продолжительность жизни, плотность населения*

***Key words:*** *GIS, linear model, radial model, coastal model, ArcGis, Qgis, projector, computer, Google Earth, demographic indicator, life expectancy, population density*

Coğrafi İnformasiya Sistemləri (CİS) yer səthinin müəyyən sahələri haqqında məlumatlardan ibarət olan verilənlərin toplanması, saxlanması və emalına xidmət edən xüsusi bir sahədir. CİS-in predmeti coğrafi tədqiqatlar və kəşflərdən toplanmış məlumatlar əsasında tərtib olunan xəritələr üzərindəki informasiyalardan ibarətdir. Zaman keçdikcə xəritələrin tərtib olunmasında yeni-yeni üsullar meydana çıxmış və həmçinin xəritələrdən istifadənin də daha səmərəli yolları tədqiq olunub, araşdırılıb üzə çıxarılmışdır. Coğrafi tədqiqatların hüdudları genişləndikcə, dünya miqyasında aparılan araşdırmaların tədqiqat metodları artdıqca xəritələrin informasiya yükü də obyektiv olaraq dəyişilməyə məruz qalmışdır. Xəritələrin kəmiyyət və keyfiyyət mövqeyindən gözlənilmədən dəyişilərək artması isə öz növbəsində informasiya axınının artaraq qloballaşması, eyni zamanda elmin bütün sahələrinə, hətta məktəb coğrafiyasına da tətbiq edilməsinə şəraitin yaradılması baxımından mühüm rola malik olması deməkdir. Hazırkı dövrdə xəritələrə olan tələbat da dəyişilmişdir. Müasir zamanda xəritələr, coğrafi obyektlərin təsviri məqsədindən daha çox ətraf mühitdə mövcud vəziyyətin öyrənilməsi, sistemləşdirilməsi, təhlili və insanlarla ətraf mühit arasında olan tarazlığın qorunması üçün zəruridir ki, bunu da məktəb coğrafiyasında həyata keçirilən təlimin həyatla inteqrativ şəkildə əlaqələndirilməsi prinsipi doğruldur. Müasir CİS xəritələrində əks olunan informasiyalar əsasında elə məsələlərə cavab tapmaq mümkündür ki, köhnə xəritələrdə bunu etmək mümkün olmazdı [4, s.9].

Hal-hazırda coğrafiya elmi, məktəb coğrafiyasında xəritələrin tərtibi və istifadəsi prosesinin tədqiqat obyekti tamamilə fərqli mövzudan açıqlanma tərzinə sahibdir. Əvvəllər tərtib edilən xəritələrdə əsas məsələ ondan ibarət idi ki, hansı coğrafi obyekt harada yerləşir. Müasir dövrdə isə bu sual dəyişərək

aşağıdakı məzmunu almışdır: coğrafi xəritədəki obyektlər niyə oradadır və burada verilən məlumatlardan gələcək proqnozlaşdırmalar üçün necə istifadə etmək olar? Proqnozlaşdırmaların aparılması insan və ətraf mühit əlaqələrinin gələcək illərdə modelləşdirilməsinin təşkili bizə geniş imkanlar yaradır. Hazırda gələcəyin tədqiqatçılarını yetişdirən məktəblərdə coğrafi xəritənin lazım olduğu, vacib əyani vəsait baxımından müstəsna rola malik olduğu tədris mərkəzlərində xəritələrin tərtibində və istifadəsində elm və texnikanın nailiyyətlərindən geniş istifadə etmək dövrümüzün tələbatına çevrilmişdir.

Coğrafi informasiya sistemləri artıq məktəb coğrafiyasının hər sahəsinə daxil olduğu kimi, eyni zamanda dünya əhalisi ilə bağlı demək olar ki, bütün anlayışların tədrisində, dəyişən demoqrafik göstəricilərin, inkişaf edən mədəni dəyərlər, inanclar, dəyişən mühitin qarşılıqlı əlaqəsi də interaktiv CİS xəritələrində əks olunma baxımından diqqət mərkəzindədir. Ətraf mühitdə insanların qarşılıqlı əlaqəsini araşdırmaq üçün sosial-iqtisadi, məsafədən zondlama məlumatlarının inteqrasiyası, müasir dərsliklərdə CİS müasir texnologiyalarının tətbiqi zəruri faktordur. Müxtəlif siniflər üzrə əhali ilə bağlı mövzuların tədrisində CİS-dən istifadə etmək metodikasına nəzər salaq.

VI sinifdə əhalinin yerləşməsi: Sosial-iqtisadi, iqlim və sair amillərlə bağlı yaşayış məskənlərinin fərqli formalarından bəhs edən dərsdə CİS texnologiyalarından necə istifadə etmək olar? Sözü gedən dərs növü ilkin biliklərin təməlinin qoyulduğu altıncı sinifdə olduğundan burada CİS texnologiyasından istifadə etmək, əsasən fənn müəlliminin üzərinə düşəcəkdir. Müəllim hər hansı bir CİS proqramında (ArcGis, Qgis və s.) hazırladığı mövzuya uyğun xəritələri lazımi cihaz və avadanlıqlarla nümayiş etdirərək, mövzunu tədris edə bilər. Bu avadanlıqlara kompüter, proyektor və s. nümayiş məqsədli cihazlar daxil edilə bilər.




Əhalinin sıxlıq göstəricisi və iqlim, təbii zona xəritələrindəki məlumatlara əsasən baza informasiyalar tutuşdurulur, fəaliyyət hissəsindəki “Xəritəyə əsasən əhalinin yerləşməsini təhlil edin” tapşırığı şagirdlərlə birgə müzakirə edilir. Daha sonra müzakirə əsnasında digər suallar şagirdlərə təqdim edilir:

1. Əhalinin məskunlaşması üçün hansı amillərin rolu mühüm əhəmiyyət kəsb edir?
2. Əhalinin yer kürəsində qeyri-bərabər yerləşməsinə hansı amillər təsir edir?
3. Əhalinin seyrək və sıx yerləşdiyi ərazilər harada yerləşir? Bu ərazilərdə yaşamağın yaratdığı problemləri müəyyən edib, müqayisəli şəkildə təhlil edin.

VII sinif dərsliyində "Əhalinin yerləşməsi", "Dünya əhalisinin dil tərkibi", "Əhalinin məskunlaşması" praktik dərs mövzusunda şagirdlərə bir neçə tapşırıq verilir.

Tapşırıq 1. Əhalinin yerləşməsinə təsir edən müxtəlif məskunlaşma modellərini tapmaq üçün CİS proqram texnologiyasından istifadə edin.

Beləliklə şagirdlər Dünyanın vizual görüntüsünün əks olunduğu "Google Earth" proqramından istifadə edərək müxtəlif yaşayış məntəqələrindən məskunlaşma modellərinin görüntüsünü əldə etdilər. Bu görüntülərdən əldə olunan məlumatlara əsasən şagirdlər yaşadığı məntəqənin-şəhər, kənd, qəsəbənin məskunlaşma modelini qurmağı mənimsəyirlər. Əldə etdikləri məlumatlara istinad edərək yaşadığı məntəqənin gələcəkdə hansı istiqamətdə inkişaf edə biləcəyini proqnozlaşdırırlar.



**Xətti model**



**Radial model**



**Sahilboyu model**

IX sinif Coğrafiya dərsliyində Dünya əhalisinin yaş-cins tərkibi: Əmək ehtiyatları mövzusunda şagirdlər müəllimləri ilə birgə CİS proqramının məlumat bazasındakı dünya əhalisinin orta ömür müddəti xəritəsindən istifadə edərək müxtəlif məntəqələr üzrə əhalinin ən aşağı və ən yuxarı orta ömür müddətinə malik olan ölkələrini qruplaşdırdılar və yaş şkalasını kiçikdən-böyüyə rəng tündləşməsi ilə ifadə etdilər.




**Dünya əhalisinin orta ömür müddəti**

Şagirdlər bu rəqəm və göstəricilərdən istifadə edərək dünyanın İEÖ və İEOÖ-ni fərqləndirir, ölkələrin sosial-iqtisadi inkişaf səviyyəsi ilə orta ömür müddəti arasındakı əlaqəni aşkar edirlər.

Əhali ilə bağlı mövzularda CİS proqram texnologiyasından istifadə edərək xəritələr tərtib etmək, proqnozlar aparmaq gələcəkdə inkişaf perspektivlərini operativ, müfəssəl formada əldə etməyə zəmin yaradacaqdır.

***Ədəbiyyat***

1. *https://sedac.ciesin.columbia.edu/maps/gallery/search?facets=theme:population&facets=region:global*
2. *http://www.geo-ref.net/ph/aze.htm*
3. *https://youtu.be/ypRiFhfMys0?si=ufLxasyMlGxmIrVr*
4. *Arif Mehdiyev, Amin İsmayılov, Coğrafiya İnformasiya Sistemləri, Bakı - 2011.*
5. *Apatova N.V. Məktəb təhsilində informasiya texnologiyaları. M., 1994.*
6. *Təhsil sistemində yeni pedaqoji və informasiya texnologiyaları / Ed. E.S. Polat və başqaları M.: Akademiya, 2000.*

**F.R.Balaağa-zadə**
**Azərbaycan Dövlət Pedaqoji Universiteti**
***fatimabalaagazadeh@gmail.com***

# ƏQLİ MƏHDUDİYYƏTLİ UŞAĞI OLAN AİLƏLƏRLƏ SOSİAL İŞ

***Xülasə***

*Hal-hazırkı dövrdə uşaqlar arasında əqli məhdudiyyətlilik geniş bir şəkildə yayılmışdır. Məqalədə də uşaqlarda əqli məhdudiyyəti yaradan səbəblər, onun dərəcələri, ailələrin bu vəziyyətə münasibəti, valideynlərin üzləşdiyi fiziki, psixi, sosial, iqtisadi problemlər, mövcud vəziyyətlə bağlı ailələrə müxtəlif istiqamətli sosial iş yardımın göstərilməsi haqqında geniş məlumat verilmişdir. Əqli məhdudiyyətli uşağı olan ailələrə sosial işçi dəstəyi böyük əhəmiyyət daşıyır. Çünki, bu dəstək həm uşaqların, həm də ailələrin həyat şəraitin yaxşılaşdırılmasında xüsusi rol oynayır.*

# СОЦИАЛЬНАЯ РАБОТА С СЕМЬЯМИ С УМСТВЕННО-ОТВЛИВЫМИ ДЕТЯМИ

***Резюме***

*Умственная отсталость среди детей сегодня широко распространена. В статье также представлена обширная информация о причинах умственной отсталости у детей, ее степенях, отношении семей к этой ситуации, физических, психических, социальных и экономических проблемах, с которыми сталкиваются родители, а также оказании различной социальной работы семьям. связанные с текущей ситуацией. Большое значение имеет поддержка социальных работников семей, в которых есть дети с психическими отклонениями. Потому что эта поддержка играет особую роль в улучшении условий жизни как детей, так и семей.*

# SOCIAL WORK WITH FAMILIES WITH MENTALLY DISABLED CHILDREN

***Summary***

*Mental retardation among children is widespread nowadays. The article also provides extensive information about the causes of mental retardation in children, its degrees, the attitude of families to this situation, the physical, mental, social, and economic problems faced by parents, and the provision of various social work assistance to families related to the current situation. Social worker support for families with mentally disabled children is of great importance. Because this support plays a special role in improving the living conditions of both children and families.*

***Açar sözlər:*** *əqli məhdudiyyət, əqli məhdudiyyətin dərəcələri, ailədəki problemlər, sosial iş, sosial işçi dəstəyi*

***Ключевые слова:*** *умственное отсталость, степени умственной отсталости, проблемы в семье, социальная работа, помощь социального работника*

***Key words:*** *mental retardation, degrees of mental retardation, problems in the family, social work, social worker support*

Əqli gerilik, inklüziv bir anlayış olaraq, uşaqlarda intellektual fəaliyyət və uyğunlaşma prosesindəki bacarıqlarının yaşıdlarından geri qalması ilə xarakterizə olunan məhdudiyyətdir.

Əqli məhdudiyyəti olan uşaqlar:

- körpəlikdə yaşıdlarından fərqli olaraq daha gec oturur, iməkləyir, yeriyirlər;
- gec danışır və ya danışanda çətinlik çəkirlər;
- xatırlamaqda çətinlik çəkirlər;
- reaksiya verməyin lazım olduğunu başa düşmürlər;
- proseslərin nəticəsinə adekvat reaksiya verməyə bilərlər;
- məntiqli düşünməkdə çətinlik çəkirlər [3, s.20].

Əqli məhdudiyyətli uşaqlarda bu məhdudiyyət müxtəlif səbəblərdən yarana və fərqli dərəcədə inkişaf edə bilər.

Uşaqlarda əqli məhdudiyyətin yaranma səbəbləri 3 qrupa ayrılır:

1. Doğumdan əvvəl (prenatal) səbəblər: qeyri-düzgün qidalanma, hamiləlik dövründə istifadə edilən bəzi dərmanlar, hamiləlik dövründə qızdırma xəstəliyi, bakterial və viral infeksiyalar, müxtəlif və sistematik xəstəlikləri, həddindən artıq stress və yorğunluq, siqaret, alkoqol və narkotikdən istifadə, qohum evliliyi, qan uyğunsuzluğu və s.
2. Doğum zamanı (perinatal) səbəblər: doğumun normal şəraitdə və mütəxəssis həkim tərəfindən həyata keçirilməməsi, tez və ya gec baş verən doğum, çətin və uzun doğum prosesi, doğum zamanı uşağın oksigensiz qalması və s.
3. Doğumdan sonrakı səbəblər: düzgün qidalanmama, qeyri-sağlam mühitdə yaşama, ciddi kəllə-beyin zədələnməsi və s.

Uşaqlarda əqli məhdudiyyətin müxtəlif dərəcələri müşahidə olunur:

- Yüngül dərəcəli əqli məhdudiyyət;
- Orta dərəcəli əqli məhdudiyyət;
- Ağır dərəcəli əqli məhdudiyyət;
- Çox ağır dərəcəli əqli məhdudiyyət.

Yetkin şəxslərin cəmiyyətdə ən anlamlı və bir o qədər məsuliyyətli rolu, təbii ki, valideynlikdir. Şəxslərin bu rolda uğurlu olmasının böyük hissəsi məhz onların sahib olduğu uşaqdan asılı olaraq dəyişir. Ailənin ən mühüm vəzifəsi

uşağı sevmək, qorumaq, ehtiyaclarını qarşılamaq və ən əsası onun hərtərəfli inkişafını dəstəkləyən mühit və şəraitin yaradılmasıdır.

Ailədə əqli məhdudiyyətli uşağın doğulması ana-atanın, həmçinin digər ailə üzvlərinin həyatına əsaslı şəkildə təsir edən bir hal olaraq qiymətləndirilir. Belə ki, uşaq baxımındakı çətinliklər, rolların dəyişməsi, səhiyyə xərcləri, gəlir səviyyəsinin aşağı düşməsi, iqtisadi narahatlıq, psixoloji vəziyyətdəki dəyişiklik (stress) və s. ailənin yükünü ağırlaşdırır.

Əqli məhdudiyyətli uşaq və ailəsi cəmiyyət tərəfindən o qədər də müsbət qarşılanmadığına görə, onlar bu vəziyyətlə demək olar ki, tək başına mübarizə aparırlar. Məhz bu səbəbdən, onlar cəmiyyətdə risk qrupu olaraq dəyərləndirilirlər.

Əqli məhdudiyyətli uşağı olan ailələrin rastlaşdığı problemlər:

- Psixoloji problemlər – onlar uşaqlarının məhdudiyyətli olduğunu öyrəndikləri zaman qarışıq hisslər keçirirlər. Hər insanın fərqli şəxsi keyfiyyətləri, hər ailənin özünəməxsus xüsusiyyətləri olduğu üçün ailələrin keçirdiyi hisslərdə həm oxşarlıq, həm də fərqliliklər müşahidə olunur. Ailələr özlərini davamlı olaraq uğursuz, yetərsiz və bədbəxt hiss edirlər. Cəmiyyətin gözləntiləri və insanların vəziyyətlə bağlı düşüncələri ailələrin özlərini pis valideyn olaraq hiss etmələrinə səbəbiyyət yaradır. Ailələrin vəziyyətlə bağlı yaşadıqları şok, dərin kədər, günahkarlıq hissi, qəzəb və yas abu-havasının olması halı ən çox rastlaşılan psixoloji problem olaraq görülür. İlk başlarda inkar, günahlandırma, utanma, ümidsizliyə düşmə, həm özünə, həm də övladına yazığı gəlməsi hissi bütünlükdə ailəni təsiri altına alaraq uzunmüddətli stressin yaranmasına şərait yaradır. Stress halının dərinləşməsi ailə üzvlərində, xüsusilə də ana və atanın depressiyaya düşməsi ilə nəticələnir.

- Sosial problemlər – ətraf mühitindən gələ biləcək neqativ reaksiyalar, ailə üzvlərinin məhdudiyyətli uşaqlarından utanması nəticəsində cəmiyyətdən uzaqlaşma ailənin başına gələ biləcək ciddi sosial problemlər olaraq qiymətləndirilir. Bu hal ailənin yaşam standartlarını daha da çətinləşdirir. Çünki, uşağa uzun zamanın ayrılması valideynlərin sosial fəaliyyətinə əsaslı şəkildə təsir edir. Əqli məhdudiyyətli uşağın intellektual vəziyyəti, ailənin sosial-iqtisadi durumu, valideynlərin keçirdikləri hisslər, onların evdə yaratdığı abu-hava, cəmiyyətin uşağa qarşı göstərdiyi münasibət, ana və atanın uşağın ehtiyaclarını qarşılamaq məqsədi ilə gördükləri tədbirlər planı ailənin uşağı necə qəbul etdiklərini ortaya çıxarır.

- Fiziki problemlər – əqli məhdudiyyətli uşağa sahib ailələrdə ailə üzvlərinin vəzifə və baxım öhdəliklərində fərqliliklər müşahidə olunur. Araşdırmalar nəticəsində məlum olmuşdur ki, uşaq kiçik yaşlarında olarkən onun baxımında ana və atanın rolu eyni səviyyədə olsa da, uşaq böyüdükcə əsas öhdəlik ananın üzərinə düşür. Bu zaman analar sosial həyatdan uzaqlaşır

və özünə qapanır. Ətraf mühitdən uzaqlaşmaq fiziki problemlərlə yanaşı, onların psixoloji və sosial vəziyyətinə də təsir edir.

- İqtisadi problemlər – əqli məhdudiyyətli uşağın olması ailədə gəlir səviyyəsinin aşağı düşməsinə səbəb olur. Belə ki, valideynlərdən biri, əsasən də analar uşağa qulluq məqsədi ilə işdən ayrılmağa məcbur olurlar. Xəstəxana, tibbi müayinələr, baxım, dərman və s. ailələri əlavə xərclərlə üz-üzə qoyur.

Sosial iş insanların sağlamlığının və rifahının yaxşılaşdırılması, insanların başqalarından asılı olma hallarının aradan qaldırılması, ailə bağlarının gücləndirilməsi, şəxslərin, ailələrin, qrupların və ya icmaların sosial fuksiyalarını müvəffəqiyyətlə yerinə yetirə bilməsi məqsədi ilə həyata keçirilən fəaliyyətlər toplusudur.

Əqli məhdudiyyətli uşağı olan ailələrlə sosial işin həyata keçirilməsi həm uşağın, həm də ailə üzvlərinin mövcud şəraitdən daha az zərər görməsində xüsusi əhəmiyyət daşıyır. Ailələrlə sosial işin üç əsas istiqaməti mövcuddur:

- Ailə rəhbərliyi – fərdin səmərəli şəkildə inkişafına və qənaətbəxş uyğunlaşmalar həyata keçirməsinə şərait yaradan planların tərtib olunmasına və qərarlar verməsinə zəmin yaradan bilik və bacarıqlar qazanmasını təmin edən sistemli və professional yardımdır.

Ailə rəhbərliyinin fəaliyyəti 2 istiqamətlidir:

1. Ailələrə psixoloji dəstək göstərib onları bu vəziyyətə alışdırmaq və əqli məhdudiyyətli uşaqlarının onlar tərəfindən qəbul edilməsini təmin etmək. Əqli məhdudiyyətli uşaqların xüsusiyyətlərinin yaxşı bilindiyi və qəbul edildiyi ev mühitində əlaqələr daha sağlam olur və uşağın inkişafına yönəlir.

2. Valideynləri məktəblərdə uşaqlarına təqdim edilən təhsil proqramları mövzusunda məlumatlandıraraq uşaqlarının təhsilinə töhvə vermək. Bu zaman uşaqlar məktəbdə öyrəndikləri bilik və bacarıqları evdə tətbiq edir ki, bu da həm uşağın, həm də valideynlərin həyat şəraitini yaxşılaşdırır.

- Ailə məsləhəti – əqli məhdudiyyətli uşağın ana və atası arasında yaranan problemlərin həll olunmasına istiqamətlənən bir prosesdir. Bu proses bilikli və təcrübəli şəxs tərəfindən həyata keçirilir. Məsləhət ana və ataların dilə gətirməkdən çətinlik çəkdiyi əsəb, günahkarlıq, düşmənlik kimi hisslərin sərbəst şəkildə ifadə edə bilmələrinə şərait yaradır. Ailələrə özləri və övladları üçün düzgün planın tərtib olunmasına kömək edir, valideynlərin öz bacarıqlarına inanmalarına və ətraf mühitlə daha çox əlaqədə olmalarına kömək edir. Bu da ailə daxilində sosial problemlərin ortaya çıxma riskini xeyli azaldır.

- Ailə təhsili – məktəb şəraitində təhsil ala bilməyən uşaqların həyatında xüsusi rol oynayır. Ailə təhsilinin əsas fəaliyyəti aşağıdakı məsələlər yönəlib:

- ana və ataların uşaqlarına müvafiq bacarıqları öyrədə bilmələri;
- mövcud problemlərin öhdəsindən gələ bilmək;
- uşağa daha yaxşı nəzarət edə bilmək;

- uşaqla əlaqələrini müsbət istiqamətdə inkişaf etdirə bilmək və s.

Ailə rəhbərliyi, ailə məsləhəti və ailə təhsili proseslərinin hər biri öz sahəsində bilikli və təcrübəli olan şəxslər tərəfindən və hər bir mərhələ bir-biri ilə qarşılıqlı əlaqələr çərçivəsində həyata keçirilir. Birlikdə bir bütün olaraq qiymətləndirilən bu fəaliyyətlərin əsas məqsədi ailənin uşağın məhdudiyyətinə razı gəlməsi, təhsil və sosial mövqedən uşağına necə kömək edə biləcəyini öyrənməsi və məktəb ilə əməkdaşlıq çərçivəsində çalışmağı qəbul etməsidir.

***Ədəbiyyat***

1. *Ç.Kara. Zihinsel ve fiziksel çocukların rehabilitasyonunun yönetimi ve ailelerin rolü. İstanbul – 2013.*
2. *Əlil və sağlamlıq imkanları məhdud olan uşaqların aşkarlanması üzrə metodik vəsait. Bakı - 2013, 36 s. https://www.isim.az/kitablar/Elil%20ve%20saqlamliq%20imkanlari%20metodik%20vesait%20FINAL.pdf*
3. *İnklüziv siniflərdə təlimin təşkili. Oxu materialı. Bakı - 2018, 68 s. http://www.tipii.edu.az/noduploads/document/8588_oxu-materiali-inkluziv-tahsil.pdf*
4. *H.Canarslan. Engelli çocuğa sahip ailelerin yaşam kalitesinin incelenmesi. Edirne – 2014.*

**R.B.İsmayılxanova**
**Azərbaycan Dövlət Pedaqoji Universiteti**
***aismayilova@gmail.com***

# ŞAGİRDLƏRİN EKOLOJİ TƏRBİYƏSİNİN MƏZMUNU VƏ ƏHƏMİYYƏTİ

***Xülasə***

*Məqalədə şagirdlərin ekoloji tərbiyəsinin məzmunu, əhəmiyyəti, hələ qədimdən Azərbaycan folklor nümunələrində, "Avesta"da, "Qurani-Kərim"də, hətta orta əsr ədiblərinin əsərlərində təbiətin qorunması, ətraf mühitə qayğı haqda qiymətli fikirlər irəli sürmüşdür.*

# СОДЕРЖАНИЕ И ЗНАЧЕНИЕ ЭКОЛОГИЧЕСКОГО ОБРАЗОВАНИЯ СТУДЕНТОВ

***Резюме***

*В статье содержание и значение экологического воспитания студентов, драгоценные идеи об охране природы и заботе об окружающей среде излагаются на примерах азербайджанского фольклора с древнейших времен, в «Авесте», «Коране-Кариме» и даже в произведениях средневековых писателей.*

# CONTENT AND SIGNIFICANCE OF ENVIRONMENTAL EDUCATION OF STUDENTS

***Summary***

*In the article, the content and importance of environmental education of students, precious ideas about nature protection and care for the environment were put forward in the examples of Azerbaijani folklore from ancient times, in "Avesta", "Quran-Karim", and even in the works of medieval writers.*

***Açar sözlər:*** *ekologiya, ekoloji tərbiyə, qoruqlar, Qırmızı kitab, flora, fauna, təbii təlakət, istiləşmə, canlı təbiət, torpaq, hava*

***Ключевые слова:*** *экология, экологическое образование, заповедники, Красная книга, флора, фауна, природная катастрофа, потепление, живая природа, почва, погода*

***Key words:*** *ecology, environmental education, reserves, Red Book, flora, fauna, natural disaster, warming, living nature, soil, weather*

Müasir dünyamızın ekoloji problemlərlə üz-üzə qaldığı bir zamanda şagirdlərin ekoloji tərbiyəsi xüsusi aktuallıq kəsb edir. Hal-hazırda ekoloji tərbiyə tək bir ölkənin, bir millətin yox, bütün bəşəriyyətin problemidir.

Ekologiya sözünün yunancadan tərcüməsi: "oykos"- ev, məkan, vətən, "loqos" isə elm mənasında işlədilir. ***Ekologiya*** **-** canlı təbiətin ayrı-ayrı komponentləri ilə xarici aləmin qarşılıqlı münasibətlərini öyrənən elmdir. ***Ekoloji tərbiyə*** isə təbiətin qorunmasına dair bilik, bacarıq və vərdişlərə yiyələnmə prosesidir.

Hələ qədim zamanlardan Azərbaycan xalqının folklor nümunələrində - "Avesta"da, "Qurani-Kərim"də, Məhəmməd peyğəmbərin kəlamlarında, hətta dahi Nizaminin əsərlərində təbiətin qorunması, ona xüsusi qaygı göstərilməsi ilə bağlı qiymətli fikirlər yer almaqdadır. Əsas səbəb ondan ibarətdir ki, insan cəmiyyəti üçün təbiət həm qida, həm də yaşayış mənbəyidir. Odur ki, hər bir cəmiyyətin görkəmli nümayəndələri təbiətə xüsusi qayğı göstərilməsini və onu qorumağı vacib hesab etmişlər. Hər bir dünya dövlətlərində olduğu kimi, Azərbaycan Respublikasında da ağacların kəsilməsini, heyvanların, quşların məhv edilməsini qanunla qadağan etmişlər.

1750-ci ildə təbiətin qorunması haqqında ilk qanun Babilistan padşahı Hammurapi tərəfindən qəbul edilmişdir. Hətta bizim eramızdan əvvəl 240-cı ildə Hindistan hökmdarı Aşoka da anadan olandan altı aya qədər yaşı olan heyvanların öldürülməsini fərman verərək qadağan etmişdir. Eyni zamanda mühafizəsi vacib olan heyvanların adı da həmin fərmanda öz əksini tapmışdır.

Odur ki, şagirdlərə başa salmaq lazımdır ki, hər bir insan təbiətlə ağıllı rəftar edərsə, təbiət bütün nemətlərini onların önünə sərər, əksinə, təbiətə laqeyd münasibət olarsa, təbiət insanları cəzalandırar. Təbiət dedikdə biz havanı, suyu, torpağı, torpağın yeraltı-yerüstü sərvətlərini nəzərdə tuturuq.

Meşələrin qırılması hansı fəsadları verə bilər? Bunu şagirdlərə əsasən valideynlər və müəllimlər izah etməlidirlər. Belə ki, meşələr insanların oksigen yaradan resursları olduğundan meşələrə laqeydlik oksigen çatışmazlığına, torpağın aşınmasına, kölgəsevən bitkilərin məhvinə yol açar.

Torpaqların aşınması yer sürüşmələrinə, böyük fəlakətlərə, böyük yaşayış məskənlərinin, hətta şəhərlərin dağılmasına, milyonlarla insanın məhv olmasına səbəb olar. Odur ki, harada sürüşmələr baş verirsə, orada meşələr salınır ki, torpaq sürüşməsinin qarşısı alınsın. Ona görə də bizim ölkədə hər il "Hərəyə bir ağac əkək" kampaniyası keçirilir. Həmin gün bütün idarə və müəssisə işçiləri ağac əkmək üçün səfərbər olurlar.

Təsadüfi deyildir ki, indi Azərbaycanın bir çox guşələrində qoruqlar yaradılmışdır. Bu qoruqların yaradılmasında əsas məqasəd kökü kəsilmək üzrə olan quşların, heyvanların, bitkilərin qorunmasıdır. Adı dünyanın "Qırmızı kitab"ına düşmüş bu canlılar qanunla qorunur və qanunu pozaraq icazəsiz ov etmək fikrinə düşənlər cəzalandırılır.

İstənilən fənn müəllimi tədris etdiyi fənndən asılı olmayaraq yeri gəldikcə təbiətin qorunmasının vacib olduğunu öz şagirdlərinə izah etməli və onu öz evi, öz canı kimi qorumağı tövsiyyə etməlidir.

Təbiətdə insanların laqeyd münasibəti sayəsində ölü çaylar, ölü dənizlər yaranır. Bu da ekoloji fəlakət ilə nəticələnə bilər.

Bildiyimiz kimi, insan oksigensiz yaşaya bilməz. Biz də oksigeni təbiətdən alırıq. Texnikanın yüksək inkişafı da artıq insanın özünə qarşı çevrilmişdir. Xüsusilə ağır sənayedən düzgün istifadə edilməməsi bəşər cəmiyyətini məhvə aparır. Tikilən zavodların, fabriklərin insan həyatını məhv edən qazlarının atmosferə buraxılması, qalaktikaya göndərilən kosmik gəmilərin verdiyi fəsadlar, müharibələr nəticəsində atılan atom bombaları, sınaqdan keçirilən nüvə silahları azon təbəqəsini zədələdiyindən artıq iqlim dəyişiklikləri - soyuqlaşmalar, istiləşmələr baş verir ki, bu da insan həyatına təhlükə yaradır. Cürbəcür xəstəliklərin yaranması, insan ölümlərinin artması artıq adi hal almağa başlamışdır. Günəşdə baş verən partlayışlar özü ilə birlikdə xəstəliklər gətirir. Bu səbəbdən də təbiətlə cəmiyyət arasındakı qarşılıqlı əlaqələrin vacib sahələrini şagirdlərə öyrətmək lazımdır.

Şagirdə başa salmaq lazımdır ki, təbiəti qorumaq özü özünü qorumaq deməkdir. Şagirdlər ekoloji tərbiyə prosesində Vətən haqqında, doğulduqları doğma yurdları haqqında, Vətənin canlı, cansız sərvətləri - florası, faunası haqqında məlumatlara sahib olurlar, torpağın qorunmasının, əkilib-becərilməsinin vacibliyini dərk edirlər. Hətta "Kitabi-Dədə Qorqud" dastanında deyildiyi bu hikmətli kəlamı da şagirdlərə xatırlatmaq lazımdır. "Torpağı qorumadınsa, onu becərməyinə dəyməz, əgər becərmədinsə, onu qorumağına dəyməz".

Müasir dövrümüzdə bəşəriyyətin ən qlobal problemi insanların ətraf mühitə olan laqeyd münasibətidir. Şagirdlərə başa salmaq lazımdır ki, təbiəti qorumaq, onun yeraltı, yerüstü sərvətlərindən qənaətlə istifadə etmək lazımdır. Axı biz bu təbiəti, onun sərvətlərini qorumasaq, gələcək nəsillərə necə bir təbiət qoyub gedəcəyik. Gələcək nəsillərə çiçəklənən, ekoloji cəhətdən saf, təmiz təbiət qoyub getməliyik. Əks halda gələcək nəsil deyilən bir varlıq qalmaz, məhv olub gedər. Yəni, təbiətə laqeyd münasibət gələcək nəsillərin məhvi deməkdir.

Şagirdlərin ekoloji tərbiyəsi ilə məşğul olmaq o deməkdir ki, onlara planlı və məqsədyönlü şəkildə təsir edilsin. Şagirdləri elə ruhda tərbiyə etmək lazımdır ki, son nəticədə onlar doğma Vətəninin təbiətinin zənginliklərini, gözəlliklərini dərindən başa düşərək düzgün qiymətləndirə bilsinlər. Yaşadığı şəhərin, rayonun, qəsəbənin, kəndin təbiətinə, ətraf mühitinə qayğıkeş, doğma münasibət bəsləsinlər. Ekoloji tarazlığın, təbii müvazinətin pozulmasına icazə verməsinlər. Torpağın, havanın, suyun çirklənməsinə, müxtəlif tipli tullantılarla zəhərlənməsinə, coğrafi landşaftın korlanmasına qarşı barışmaz olsunlar.

Sadaladığımız bu problemlər haqqında şagirdləri onların öz səviyyələrinə və qavrama qabiliyyətlərinə uyğun şəkildə bilik, bacarıq və

vərdişlərlə silahlandırmaq günün ən aktual məsələlərindən biri olmalıdır. Şagirdlərdə təbiətə, ətraf mühitə məhəbbət hissi aşılamaq, onları əməli və psixoloji cəhətdən hazırlamaq ekoloji tərbiyənin əsas məzmununu və məqsədini təşkil etməlidir. Bu vəzifələr də ekoloji tərbiyənin əsas vəzifələrini bir-biri ilə şərtləndirir və əlaqələndirir. Hər bir şagirdi elə yetişdirməliyik ki, təbiəti, ekologiyanı qorumaq onların mənəvi borcuna çevrilsin. Onlara verilən ekoloji tərbiyə sayəsində məktəblilər insanı canlı aləmin bir hissəsi olduğunu dərk edirlər.

Şagirdlərə veriləcək ekoloji tərbiyənin aşağıdakı vəzifələri vardır:

- Şagirdlər ekoloji bilik, bacarıq və vərdişlərlə silahlandırılır;
- Şagirdlərə təbiətlə necə davranmağın, təbii sərvətlərdən necə istifadə etməyin yolları öyrədilir;
- Şagirdlər təbiətin "gənc dostları" kimi tərbiyə edilir;
- Şagirdlərdə təbiəti qorumaq üçün məsuliyyət hissləri formalaşdırılır;
- Şagirdlərə təbiətin mühafizəsi ilə ölkə iqtisadiyyatının ayrılmaz olduğunu və bunun üçün yeraltı və yerüstü sərvətlərin qorunmasının vacibliyini başa salmaq lazımdır.

Bütün bunlar üçün şagirdlərdə ekoloji dünyagörüşü formalaşdırmaq vacibdir. Onlarda ekoloji dünyagörüşünün tərbiyə olunması prosesində təbiətin mühafizəsinə aid mənəvi məsuliyyət formalaşdırmaq vacibdir. Belə olduğu halda onlar təbiəti qorumağı, mühafizə etməyi özlərinin müqəddəs borcu hesab etməlidirlər. Onlar anlamalıdır ki, bu dünya hamımızın müştərək evimiz, müştərək süfrəmizdir və bu süfrə çox təmiz, çox müqəddəsdir. Odur ki, təbiətə canıyanan, qayğıkeş münasibət bəsləməlidirlər.

Beləliklə, hər bir şagird yaşından asılı olmayaraq, bilməlidir ki, təbiət bizim Vətənimizdir və biz onu göz-bəbəyimiz kimi qorumağa borcluyuq. Azərbaycanın böyük şairi Məmməd Aslanın da dediyi kimi: "Vətən gözdür, biz kiprik, gözümüzün keşiyini çəkirik".

### *Ədəbiyyat*

1. *Ə.Ağayev, Y.Talıbov, A.Eminov, İ.İsayev. Pedaqogika. "Adiloğlu" nəşriyyatı. Bakı - 2006, s.184*
2. *Ə.Ağayev. Pedaqoji fikrimiz - dünənimiz,bu günümüz. Bakı - 2000.*
3. *Ə.Əliyeva, İ.Əliyeva, A.Əzizova, V.Qazıyev. İnsan və cəmiyyət. Metodik vəsait. Bakı – 2004.*
4. *Verdiyeva Ə.İ. "Məktəbdənkənar tərbiyə müəssisələrində şagirdlərin peşəyönümünün məzmun, forma və yolları" Nam.dis.. ADRU. 1998. 165 səh.*

**S.N.Alicəfərzadə**
**Azərbaycan Dövlət Pedaqoji Universiteti**
***soltan.a0171@gmail.com***

# TƏLİM PROSESİNDƏ MƏKTƏBDAXİLİ QİYMƏTLƏNDİRMƏNİN ƏHƏMİYYƏTİ

***Xülasə***

*Ölkənin gələcəyi əsasən təhsil sistemi və tədris planı ilə müəyyən edilir. Hal-hazırda təhsil sistemi cəmiyyətin sosial-iqtisadi inkişafına böyük təsir göstərir. Beləliklə, təhsilin keyfiyyətini izləmək üçün məktəbdaxili imtahanların istifadəsi çox vacibdir. Təhsilin proqnozlaşdırılmasının əsas komponenti qiymətləndirmədir. Bu, tədris prosesinin qiymətləndirilməsinə və məlumatların metodik toplanması və təhlili yolu ilə bu sahədəki imkanların müəyyənləşdirilməsinə imkan verən təhsilin keyfiyyətinə nəzarət üçün metodik bir yanaşmadır. Qiymətləndirmə prosesinin vacib bir hissəsi olan sertifikatlaşdırma başqa bir vacib təhsil prosedurudur. Nəticədə şagirdlərin nailiyyətlərinin obyektiv qiymətləndirilməsi təhsil səviyyəsinin qiymətləndirilməsi üçün vacibdir. Bu səbəbdən qiymətləndirmənin nəticələri faydalı bir başlanğıc nöqtəsi kimi qəbul edilməlidir. Şagirdin öyrənmə nəticələri bütün təhsil səylərinin zirvəsini təmsil etdiyi üçün bu nəticələrdən istifadə edərək müəllimlərin, təhsil müəssisələrinin, inzibati strukturların və bütövlükdə təhsil sisteminin səmərəliliyini qiymətləndirmək mümkündür. Bir çox fərqli qiymətləndirmə növü, modeli və metodu var, lakin heç bir model mükəmməl deyil. Dünyadakı təhsil rəhbərləri ölkələrinin təhsil sistemini öz ehtiyaclarına görə qiymətləndirirlər. Bu qiymətləndirmələri apartmaq üçün hər bir ölkədə müvafiq idarəetmə orqanı müvafiq fəaliyyət planı, təlim proqramı və əməliyyat strukturu hazırlamalıdır. Məktəbdaxili qiymətləndirmə akademik tərəqqini izləyir, bilik və bacarıqları mövzu standartlarına uyğun qiymətləndirir və dövlət tələblərinə nəzarət edir.*

# ВЛИЯНИЕ ВНУТРИШКОЛЬНОЙ ОЦЕНКИ НА КАЧЕСТВО ОБРАЗОВАНИЯ

***Резюме***

*Будущее страны во многом определяется системой образования и учебной программой. В настоящее время система образования оказывает большое влияние на социально-экономическое развитие общества. Таким образом, очень важно использовать внутришкольные экзамены для контроля качества образования. Основным компонентом прогнозирования образования является оценка. Это методический подход к контролю качества образования, позволяющий оценивать учебный процесс и выявлять возможности в данной области посредством методического сбора и анализа данных. Сертификация, которая является важной частью процесса оценки, является еще одной важной образовательной процедурой. Следовательно, объективная оценка*

*достижений учащихся имеет важное значение для оценки уровня образования. Поэтому результаты оценки следует рассматривать как полезную отправную точку. Поскольку результаты обучения учащегося представляют собой вершину всех образовательных усилий, с помощью этих результатов можно оценить эффективность учителей, учебных заведений, административных структур и системы образования в целом. Существует множество различных типов, моделей и методов оценки, но ни одна модель не является идеальной. Руководители образования во всем мире оценивают систему образования своей страны в соответствии со своими потребностями. Для проведения этих оценок соответствующий руководящий орган в каждой стране должен разработать соответствующий план действий, программу обучения и операционную структуру. Внутришкольная оценка отслеживает успеваемость, оценивает знания и навыки в соответствии со стандартами предмета и контролирует государственные требования.*

# THE EFFECT OF İNTERNAL SCHOOL ASSESSMENT ON THE QUALİTY OF EDUCATİON

***Summary***

*The educational system and curriculum play a significant role in determining the future of a country. Currently, the education system has a substantial impact on the socio-economic development of society. Therefore, it is crucial to use intra-school exams to monitor the quality of education. Assessment is the main component of education forecasting. This is a methodological approach to quality control in education. It involves evaluating the educational process and identifying opportunities for improvement through the methodical collection and analysis of information. Certification is an important part of the assessment process. It is necessary to provide an objective assessment of students' achievements to determine the level of education. Therefore, the assessment results should be considered a useful starting point. They allow for the evaluation of the effectiveness of teachers, educational institutions, administrative structures, and the educational system as a whole in achieving the pinnacle of all educational efforts: the student's learning outcomes. While there are many different types, models, and methods of evaluation, no model is perfect. Education leaders worldwide evaluate their country's education system based on their specific needs. To conduct these assessments, the governing body in each country must prepare an appropriate action plan, training program, and operational structure. Intra-school assessments monitor academic progress, assess knowledge and skills according to subject standards, and track state requirements.*

***Açar sözlər:*** *keyfiyyətli təhsil, təlim nəticələri, məktəbdaxili qiymətləndirmə, monitorinq, standart*

***Ключевые слова:*** *качественное образование, результаты обучения, внутришкольная оценка, мониторинг, стандарт*

***Key words:*** *quality education, learning outcomes, intra-school assessment, monitoring, standard*

Məktəbdaxili qiymətləndirmənin əsasını təşkil edən şagird irəliləyişlərinin monitorinqi sistemi dərs ili ərzində şagirdin təlim, müəllimin tədris fəaliyyətini fənn üzrə müəyyən olunmuş təlim nəticələrinin əldə olunmasına istiqamətləndirən və dərs ilinin sonunda hər iki tərəfin fəaliyyətini qiymətləndirməyə imkan verən texnologiya kimi düşünülmüşdür. Yerli ümumi məktəb təhsilini yaxşılaşdırmaq məqsədi ilə sistemin modernləşdirilməsi üçün bir sıra vacib mövzuları özündə cəmləşdirən qiymətləndirmə mövzusunda davam edən geniş müzakirələr, məsələn, qiymətləndirmə üçün yeni təlimatlar, tələbə performansının qiymətləndirilməsinin monitorinqinə əsaslanan müəllimlərin diaqnostik qiymətləndirmələri, hər bir fənn üzrə kiçik yekun qiymətləndirmələr və oxşar xarakterli digər mövzular araşdırdığımız mövzunun aktuallığını təsdiqləyir [1, s.8].

Monitorinq və qiymətləndirmə mövzusu Azərbaycan pedaqoji elmində getdikcə daha çox əhəmiyyət kəsb edir. Respublikanın müxtəlif tədris proqramlarında nəzəri və praktik əsasları, problem və qiymətləndirmə metodları çoxsaylı tədqiqat işlərində, dərsliklərdə, məqalələrdə və dissertasiyalarda işıqlandırılmışdır. Azərbaycandan olan pedaqogika mütəxəssisləri bu mövzularda çoxsaylı nəşrlər dərc ediblər. Çox sayda elmi nəşrə baxmayaraq, Azərbaycanda elmi-pedaqoji ədəbiyyatın öyrənilməsi göstərir ki, hazırda respublikanın orta məktəblərində şagirdlərin nailiyyətlərinin qiymətləndirilməsinin monitorinqinin əlaqələndirilməsi üçün yenilənmiş sistem yoxdur. Bu, təhsil təcrübəsinin səviyyəsinin yüksəldilməsi üçün zəruri şərtdir [2, s.22].

Qiymətləndirmə, təhsil standartlarının nə qədər yaxşı, peşəkar və effektiv tətbiq olunduğunu qiymətləndirmək üçün istifadə olunan bir vasitədir. Təhsil tələblərinə uyğun olaraq qiymətləndirmə standartları hazırlanmışdır. Qiymətləndirmə adlanan xüsusi bir tədqiqat sahəsi, yüksək keyfiyyətli və uğurlu nəticələr əldə etmək üçün proqramla bağlı ictimaiyyətin maraqlarını nəzərə almaq da daxil olmaqla bir sıra dəyişənləri nəzərə alır. Bunun bir hissəsi həm də müəllimin fəaliyyətinin şagirdlərin tələblərinə cavab verib-vermədiyini və tədris planına, dərs planlarına və dərsliklərə lazımi düzəlişlərin edildiyini qiymətləndirmək üçün imkanlar yaratmaqdır [7, s.8].

“Azərbaycan Respublikasının ümumi təhsil sistemində Qiymətləndirmə Konsepsiyası” 13 yanvar 2009-cu ildə təsdiq edilmişdir. Bu sənəddə təhsilin keyfiyyətini necə müəyyənləşdirmək, tədris və təhsil prosesini necə inkişaf etdirmək və təhsildə nailiyyətləri necə qiymətləndirmək barədə etibarlı tövsiyələr var. Konsepsiya məktəbdaxili, milli və beynəlxalq qiymətləndirmə sistemlərinin inkişafı üçün əsas prinsipləri, məqsədləri və komponentləri müəyyənləşdirir. İcra mexanizmlərini, lazımi tədbirləri və gözlənilən nəticələri təsvir edir [1, s.6].

Şagirdlərin öyrənmə nəticələri təhsilin keyfiyyətini müəyyən edən əsas amildir. Bu nəticələrin obyektiv qiymətləndirilməsi mükəmməlliyin etibarlı əlaməti hesab olunur. Buna görə şagirdlərin fəaliyyətinin obyektiv qiymətləndirilməsi təhsilin keyfiyyətini müəyyənləşdirmək üçün əsasdır. Bununla birlikdə, şagirdin yekun nəticələri bütün təhsil sisteminin nəticəsini müəyyənləşdirir. Nəticədə müəllimlər, eləcə də təhsil müəssisələri, inzibati qurumlar və bütövlükdə ölkənin təhsil sistemi tərəfindən həyata keçirilən tədris fəaliyyətinin səmərəliliyini qiymətləndirmək mümkündür. Aydın və obyektiv danışmaq, emosional və ya qərəzli terminologiyadan qaçmaq və lazım olduqda dəqiq, mövzu yönümlü lüğətdən istifadə etmək çox vacibdir. Aydın, qısa sözlər və məntiqi məlumat axını ilə yanaşı, məzmun standart akademik üslub və formatlaşdırma ilə də uyğun olmalıdır [2, s.59].

Şagirdlərin fəaliyyətini qiymətləndirmək üçün üç istiqamət müəyyənləşdirilmişdir: milli, beynəlxalq və məktəbdaxili. Bunlar yeni qiymətləndirmə sisteminin bir hissəsi olan alt sistemlərdir. Məktəbdaxili qiymətləndirmənin öyrənilməsi ən geniş xarakterizə olunanı və əhəmiyyətlisidir. Məktəb performansının monitorinqi sisteminin məqsədi tədris ili ərzində şagirdlərin tədris fəaliyyətinə rəhbərlik etmək, müəllimlərin müəyyən fənlər üzrə təlim məqsədlərinə çatmasına dəstək vermək və tədris ilinin sonunda hər iki tərəfin fəaliyyətinin qiymətləndirilməsini təşviq etməkdir [4, s.14].

Fənn standartlarına əsaslanan bilik və bacarıqların qiymətləndirilməsi dövlət təhsil standartlarını və təlim nəticələrini də nəzərə alan məktəbdaxili qiymətləndirmələrdən istifadə etməklə aparılır. Həyata keçirildikdə aşağıdakı istiqamətlər müşahidə olunur:

1. Məktəb səviyyəsində müəllimlər və rəhbərlik şagirdlərin fəaliyyətini qiymətləndirir. Bu mərhələdə şagirdlərin nailiyyətlərini qiymətləndirmək üçün yazılı və şifahi qiymətləndirmələrdən istifadə olunur. Bu qiymətləndirmələr iki şəkildə aparılır: formativ olaraq, müntəzəm və davamlı qiymətləndirmələr yolu ilə və mikro cəmləmə yolu ilə qeydlər və bölmələr vasitəsilə. Bundan əlavə, yarım illik makro summativ qiymətləndirmələr aparılır.
2. Tədris proqramı çərçivəsində qiymətləndirmə. Bu, tələbələrin təlim məqsədlərinin müvafiq məzmun standartlarına uyğun olub olmadığını öyrənmək üçün edilir.
3. Ümumi təhsil səviyyələrində yekun attestasiya mərkəzləşdirilmiş imtahanlar şəklində aparılır, ardınca müvafiq tədris planı təlimatının dərc edilməsi aparılır. Məktəbdaxili qiymətləndirmə qiymətləndirmənin formalaşdırıcı, yekunlaşdırıcı və diaqnostik formalarından istifadə etməklə aparılır. Qiymətləndirmə prosedurdur. Şəffaflıq, ədalət, komanda işi və qarşılıqlı razılıq bu prosedurda aydın görünür. Bundan əlavə, əlaqələrin təmin edilməsi və nəzarət edilməsi lazım olan bir zəncir prosesidir. Nəticədə

qiymətləndirmə protokolları standartlaşdırılır və vahid sistem kimi fəaliyyət göstərir.

Azərbaycanda təhsil islahatlarının həyata keçirilməsi prosesində tədrisin təməl daşı kimi xidmət edən, təhsildə məzmun sahəsi məsələlərinin artan əhəmiyyətini, təhsil sisteminin inkişafında şagirdlərin bilik, bacarıq və vərdişlərinin qiymətləndirilməsini nəzərə alan tədris proqramı hazırlanıb təsdiq edilib. Kurikulum anlayışı lüğətlərə görə "kurs" və ya "elm" mənasını verən latın terminidir. Kurikulum termini tez-tez sənayeləşmiş ölkələrdə mütərəqqi təhsil modeli kimi də istifadə olunur və qiymətləndirmə ilə bağlı mövzuları, həmçinin tələb olunan minimumu, tələb olunan təhsil standartlarını və tələbələrin təhsil səviyyəsinə olan tələbləri əhatə edir.

Müasir məktəbdə müxtəlif diaqnostik metodlardan istifadə olunur. Hətta müəllimlər müxtəlif diaqnostik vasitələr yaradır və istifadə edirlər. Buna görə müəllimlərin və məktəb rəhbərlərinin peşə mədəniyyətinin əsas şərtlərindən biri qiymətləndirmə nəzəriyyəsinin əsas fikirləri ilə tanış olmaqdır [3, s.22].

Qiymətləndirmənin aid olduğu sahənin məqsədləri bu sahədə necə istifadə olunduğunu müəyyənləşdirir. Təhsilin məqsədi təhsildə istifadə olunanlar da daxil olmaqla bütün qiymətləndirmə formalarının mənbəyidir. Təhsilin məqsədi milli adət-ənənələrə, demokratik dəyərlərə, fərdi azadlıqlara və vətənpərvərliyə, eləcə də Azərbaycan mədəniyyətinə hörmət edən özünü təmin edən, zəngin təsəvvürlü və müstəqil vətəndaş və fərdləri yetişdirməkdir. Buraya geniş dünyagörüşü olan insanları öyrətmək, layihələri və fikirləri qiymətləndirmək və uğurlu təşəbbüslərə və ictimai həyata töhfə verə biləcək nəzəri və praktik məlumatlar əldə etmək də daxildir. Dövlət və ictimaiyyət tələbələrdən fərqli təhsil səviyyələrini tələb edir və dövlət təhsil standartları bu tələblərə əsaslanır və daim yenilənir [1, s.13].

Təhsil standartlarının effektivliyinin, qərəzsizliyinin və tətbiq səviyyəsinin qiymətləndirilməsi əhəmiyyətli təsir göstərir. Nəticədə məzmun standartları qiymətləndirmə standartları üçün əsas rolunu oynayır. Müxtəlif şərtlərdən asılı olaraq həyata keçirilə bilən xüsusi fəaliyyətlərdən biri qiymətləndirmədir. Effektiv və üstün nəticələr əldə etmək üçün proqramla əlaqəli ictimai maraqlar düzgün nəzərə alınır. Qiymətləndirmə standartlarının məqsədi öyrənmə prosesini izləmək, çatışmazlıqları erkən müəyyən etmək və sonra onları düzəltmək və təkmilləşdirmək olmalıdır [6, s.3].

Ölçülə bilən xüsusiyyətlər müəyyən bir məqsəd nəzərə alınmaqla qiymətləndirilir. Bu problemlər tələbə fəaliyyətinin qiymətləndirilməsində diqqət mərkəzindədir [2, s.54]:

- şagirdlərin qabiliyyətlərinin, vərdişlərinin və biliklərinin mövcud səviyyəsi;
- şagirdlərin göstərdiyi mövcud müstəqillik və fəaliyyət dərəcəsi;

- dərsliklərdən və digər təhsil mənbələrindən istifadə etmək bacarığı;
- əldə etdikləri bilikləri qiymətləndirmək, şərh etmək və tətbiq etmək bacarığı.

Şagirdlərin fəaliyyətini qiymətləndirməkdə əsas məqsəd onların deklarativ, prosedur və kontekstual bilik səviyyələrini təhlil etməklə onların güclü və zəif tərəflərini dəqiq müəyyən etməkdir. Öyrənilmiş biliklərə əlavə olaraq, qiymətləndirmədə tələbələrin cəmiyyətdə iştirak etmələri və aktiv vətəndaş rolunu qəbul etmələri üçün lazım olan qabiliyyətlərin inkişafı, insan hüquqları və demokratik prinsiplərin təsdiqlənməsi də nəzərə alınmalıdır [5, s.10].

İnkişaf baxımından qiymətləndirmənin tətbiqini təmin edən əsas standartlar qiymətləndirmə prinsipləridir. Beləliklə, real praktikada bu anlayışlara hörmət edən insanlar, onların düzgün tətbiq edilməsini və sürətli tətbiqini son dərəcə vacib hesab edirlər. Şagirdlərin fəaliyyətinin qiymətləndirilməsi uyğunluq, qarşılıqlı qiymətləndirmə, aktuallıq və etibarlılıq, inkişafa istiqamətlənmə, şəffaflıq və qarşılıqlı əməkdaşlıq anlayışlarına əsaslanır.

***Ədəbiyyat***

1. *Abbasov Ə. Şagird nailiyyətlərinin qiymətləndirilməsinin pedaqoji əsasları. Bakı: "CN POLİGRAFİYA", 2023, 100 səh.*
2. *Mehrabov A. Azərbaycan təhsilinin müasir problemləri. Bakı, "Mütərcim", 2007, 223 səh.*
3. *Əhмədov A., Şərifov T., Abbasov Ə. Şagird nailiyyətlərinin qiymətləndirilməsi. "Kurikulum" jurnalı, 2008, №1.*
4. *Mərdanov M. və b. Təhsil sistemində monitorinq və qiymətləndirmə. Bakı, "Çaşıoğlu", 2003.*
5. *Azərbaycan Respublikası ümumi təhsil sistemində Qiymətləndirmə Konsepsiyası. "Azərbaycan müəllimi" qəzeti, 2011.- 4 mart.- s.10-11.*
6. *Azərbaycan Respublikası ümumi təhsil sistemində Qiymətləndirmə Konsepsiyası. "Azərbaycan müəllimi" qəzeti, 29 iyul 2006-cı il.*
7. *Azərbaycan Respublikası ümumi təhsil sistemində Qiymətləndirmə Konsepsiyası. "Azərbaycan müəllimi" qəzeti, 6 fevral 2009-cu il.*

**R.E.Həqiqətli**
**Azərbaycan Dövlət Pedaqoji Universiteti**
***heqiqetlireside@gmail.com***

# BAL VERİLMƏDƏN ÖYRƏNMƏ PROSESİNİN TƏŞKİLİ

***Xülasə***

*Qiymətləndirmə geniş termin olub öyrənmənin necə getdiyini yoxlayan bir prosesdir. Biz əksər hallarda qiymətləndirməni bal vermək kimi başa düşsək də, əslində qiymətləndirmə zamanı bal verilməsi zəruri deyil və onun müxtəlif üsul və vasitələri vardır. Aparılan tədqiqatlar bal verilməni psixologiyaya təsiri baxımından müsbət qiymətləndirmir və öyrənmək üçün daxili motivasiyanı məhv etdiyini hesab edir. Bütün bunlara baxmayaraq bal verilməməsi müəyyən kontekstlərdə valideynlər və cəmiyyət tərəfindən birmənalı qarşılanmaya bilir və onları bu prosesə hazırlamaq üçün müvafiq tədbirlərin görülməsi zəruridir. Ümumilikdə, konstruktiv rəy verilməsi, özünüqiymətləndirmə, təhsilalanların akademik vərdişlərinin müzakirəsi bal verilmədən öyrənmədə əsas qiymətləndirmə strategiyaları hesab olunur.*

# ОРГАНИЗАЦИЯ ПРОЦЕССА ОБУЧЕНИЯ БЕЗ ОЦЕНОК

***Резюме***

*Оценка – это широкий термин и представляет собой процесс, который проверяет, как продвигается обучение. Хотя в большинстве случаев мы понимаем оценку как выставление баллов, на самом деле баллы при оценивании выставлять не обязательно и существуют разные методы и средства. Проведенные исследования не оценивают положительного влияния оценок на психологию и полагают, что они разрушают внутреннюю мотивацию к обучению. Несмотря на все это, отсутствие баллов не может быть воспринято однозначно родителями и обществом в определенных контекстах, и необходимо принять соответствующие меры для их подготовки к этому процессу. В целом, предоставление конструктивной обратной связи, самооценка и обсуждение академических привычек учащихся считаются основными стратегиями оценивания при безоценочном обучении.*

# ORGANIZING THE LEARNING PROCESS WITHOUT GRADING

***Summary***

*Assessment is a broad term which monitors the learning process. Although we often think of assessment as grading students, in fact, it is not necessary to grade one's knowledge. The studies conducted do not evaluate grading positively in terms of its impact on psychology and believe that it destroys intrinsic motivation to learn. Despite all the facts about grading, some societies, especially parents can disagree with this point of view, therefore it is vital to take appropriate measures to prepare*

*them for the process. In general, giving constructive feedback, self-assessment, and discussing students' academic habits are considered to be the main assessment strategies in non-graded learning.*

***Açar sözlər:*** *qiymətləndirmə, bal verilmədən öyrənmə, psixoloji təsir, akademik nailiyyət*

***Ключевые слова:*** *оценивание, внеклассное обучение, психологическое воздействие, академическая успеваемость*

***Key words:*** *assessment, non-graded learning, psychological impact, academic achievement*

Keçmiş ənənələrin təsiri ilə təhsil kontekstində "qiymətləndirmə" əksər hallarda yalnız ədədi qiymətin verilməsi kimi başa düşülür. Müasir ədəbiyyatda isə qiymətləndirmə şagird nailiyyəti barədə informasiya toplamaq kimi tərif edilir [6, s.116]. Qiymətləndirmə təkcə şagirdə qiymət yazmaq üçün deyil, bütün sinfin inkişafını izləmək və lazım gəldikdə təlim proqramına dəyişiklik etmək ehtiyacını üzə çıxartmağa da kömək edir. Hazırda qiymətləndirmədə əsas məqam son nəticə (bal) deyil, təhsilalanın öyrənmə prosesidir. Bütün bunları nəzərə alaraq öyrənmə zamanı bal verilməsinin əhəmiyyəti diqqət mərkəzindədir. Balla qiymətləndirmənin əsrlərlə davam edən tarixinə baxmayaraq bu gün çoxları balın psixologiyaya zərər verdiyini hesab edir. Hazırkı dövrdə ABŞ-ın ən qabaqcıl ali təhsil ocaqlarından olan Braun Universiteti tələbələrin ümumi orta müvəffəqiyyət göstəricilərini hesablamır, bal şkalasında "D"-dən istifadə etmir və kəsilənlərin ballarını qeydiyyata almır. Hətta 200 ildən çox qiymətləndirmə tarixinə malik olan Yel Universiteti belə hazırda öz qiymətləndirmə sistemində dəyişikliklər etməyə davam edir [1, s. 159-166].

"Bal olmadan" öyrənmə barədə əksər hallarda düşünülən yanlış mülahizələrin belə bir maraqlı izahı verilib:

Bal olmadan öyrənmə təhsilalanlara yüksək gözləntilərin qoyulmaması və onlardan hərtərəfli, dəqiq öyrənmənin tələb edilməməsi demək deyil. Bal olmadan öyrənmə zəif bilik və bacarıqlara sahib şagirdlər üçün lazımi addımların atılması məqsədini də güdmür. Hər şeydən daha vacib olaraq isə bal olmadan öyrənmə müəllimlərin qiymət yazmaq və rəy bildirmək məsuliyyətinin üstündən götürülməsi demək deyil. Burada əsas məsələ təhsilalanların cavabının onların balına təsiri ilə bağlı davamlı olaraq qorxu və stress altında qalmadan öyrənib inkişaf etməsinə kömək edən öyrənmə mühitinin yaradılmasıdır [5, s.151].

Müxtəlif iqtisadi vəziyyətə, azsaylı etnik qruplara, mədəniyyətlərə mənsub olan təhsilalanlar onsuz da müəyyən səbəblərdən özünəgüvən ilə bağlı problem yaşayırlar və mühitə uyğunlaşmaqda çətinlik çəkirlər. Öyrənmə zamanı balın verilməməsi isə şərait yaradır ki, bu qədər narahatlığa qiymətlə

bağlı stress də əlavə edilməsin və təhsilalanlar öz öyrənmə prosesində iştiraka həvəsli olsunlar. Bal sisteminin kəskin tənqidçisi olan Alfi Kön bal və motivasiya arasında mənfi əlaqənin olduğunu belə izah edir: “Xarici motivasiya (daha yaxşı qiymət xatirinə oxumaq) nəinki daxili motivasiyadan (öyrənmək üçün oxumaq) fərqlənir, eləcə də onu məhv edir” [3, s.2]. Öyrənmə zamanı bal verilməməsi imkan verir ki, bilik və bacarığından asılı olmayaraq bütün şagirdlər “mən bilmirəm”, “səhv cavablandırsam, qiymətim aşağı düşər” kimi düşüncələrdən uzaqlaşıb fikirlərini sərbəst şəkildə ifadə etsinlər, öyrənmə prosesində daha çox risk alsınlar və bütün bunların nəticəsində də özünə daha çox güvənən və yaradıcı fərdlər kimi yetişə bilsinlər.

**Öyrənmə zamanı bal verilməməsi bütün hallarda yaxşıdırmı?**

Bal olmadan öyrənmənin tərəfdarları hesab edirlər ki, qiymətləndirmələrin sayını azaltmaq təhsilalanların öyrənməsinə təkan verəcək və onların psixi sağlam və xoşbəxt hiss etmələrinə səbəb olacaq [3, s.5].

Bütün bunlara baxmayaraq Kanadanın Ontario əyalətində təsadüfi üsulla seçilmiş orta məktəb müəllimlərilə aparılan “bal verilmədən öyrənmə” təcrübəsi bu siyasətlə bağlı tamamilə müsbət nəticələrə malik deyil. Müsahibədən keçən müəllimlər bu üsulun şagirdmərkəzli olduğunu və onları dəstəklədiyini hesab edir. Halbuki müəllimlərin şagirdləri “bal vermədən” qiymətləndirməsi şagirdlərin, valideynlərin və həmkarlarının qiymətləndirmə ilə bağlı gözləntilərini qarşılamayıb. Belə ki, bir çox hallarda valideynlər müəllimdən övladına qiymət yazılmasını tələb edir və ya övladından nəyi öyrəndiyini deyil, neçə qiymət aldığını soruşur. Tədqiqat göstərir ki, yeni qiymətləndirmə strategiyasının şagirdlərin akademik nailiyyətinə müsbət təsirini görən müəllimlər valideynlər və başqalarının bal verilməsilə bağlı təzyiqlərinə məruz qalsalar belə, yeni sistemə üz çevirmirlər. Beləliklə, təklif edilir ki, məktəb cəmiyyətinin, valideynlərin və şagirdlərin qiymətləndirmə ilə bağlı gözləntilərini dəyişmək üçün onların maarifləndirilməsi, lazımi söhbətlərin aparılması bu sahədə öz müsbət təsirini göstərə bilər [4]. Bu isə öz növbəsində müəllim-şagird-valideyn üçbucağı arasında ünsiyyətin inkişafına öz töhfəsini verəcək.

McMorran və Ragupathi (2020) isə hesab edir ki, əmək bazarında işçinin akademik nailiyyətinə qoyulan tələblər, eləcə də valideynlərin övladlarının akademik nəticələri ilə qürurlanmaq arzuları ali təhsil müəssisələrində qiymətləndirmələrin sayını azaltmaq cəhdlərinə mane olan səbəblərdəndir.

Öyrənmə zamanı bal verilməməsi ilə bağlı digər problem bal olmadığı təqdirdə təhsilalanların öyrənmə prosesi barədə hesabatlılığı təmin etməyin çətinliyi ilə bağlıdır. Əksər hallarda tələbələr qiymətləndirilməmələrindən sui-istifadə edərək tapşırırqlarını tamamlamır və ya yerinə yetirmirlər. Amma müşahidə olunur ki, qiymətləndirmə vasitəsi kimi protokoldan və ya

rubriklərdən (əvvəlcədən müəyyənləşdirilmiş meyarlara əsasən qiymətləndirmə) istifadə edilməsi həm təhsilalanların öyrənmə prosesi barədə hesabatlılığa imkan verir, həm də onları dərsə yönəldir [7, s. 150-157].

**Bal verilmədən qiymətləndirmənin təşkili**

İllərlə standartlara əsaslanan öyrənmə və qiymətləndirmədən istifadə edən Miçiqan Dövlət Universitetinin müəllimi Artur Çiravalli onun qiymətləndirmə məsələsinə baxış bucağını tamamilə dəyişdirən iki tapıntı ilə qarşılaşdığını qeyd edir.

Artur Çiravallinin birinci tapıntısı Rut Butlerin təhsilalanlara geridönüş (feedback) etməklə bağlı 3 növ yanaşması ilə əlaqədar idi. Butler geridönüşün 3 növünü qeyd edir: 1. yalnız bal verməklə; 2. şərh bildirmək; 3. şərhlə birlikdə bal vermək. Butlerin tədqiqatının nəticələri göstərir ki, təhsilalanları yalnız balla qiymətləndirdikdə onlar baldan asılı olaraq ya özlərinə çox arxayın hiss edirlər, ya da həvəsdən düşürlər. Şərhlə birlikdə bal vermək də effektiv nəticə göstərmədi; təhsilalanlar əksər hallarda şərhə əhəmiyyət vermir, təkcə bala fokuslanırlar. Təəccüblüsü budur ki, yalnız şərh bildirilən tələbələr öz təlim nəticələrində ən çox irəliləyiş nümayiş etdiriblər.

İkinci tapıntı isə Con Hatinin təhsilalanların özünüqiymətləndirməsinin bu sahədə edilən müdaxilələr arasında ən effektivi olması ilə bağlı araşdırma nəticəsidir. Müəllimlər təhsilalanlara aydın meyarlara əsasən özlərini qiymətləndirməyi öyrətməklə onlara öz öyrənmələrinə nəzarət və idarə etməyi və ömürboyu öyrənmə vərdişlərini aşılayırlar [2, s.1]

Burns və Frangiosa (2021) öz qiymətləndirmə modellərini hazırlayarkən 3 məşhur nəzəriyyəyə əsaslanıblar. Birinci nəzəriyyə Butlerə məxsus olub tapşırıq əsaslı rəyin (feedback) fərdə fokuslanan rəydən daha effektiv olmasını müdafiə edir. Belə ki, təhsilalanı tənqid edən ikinci növ qiymətləndirmədən fərqli olaraq tapşırıq əsaslı qiymətləndirmə görülən işə fokuslanır və "onu necə daha yaxşı etmək olar?" sualına konstruktiv cavab axtarır. Burns və Frangiosanın istinad etdiyi növbəti nəzəriyyə Blum taksanomiyasıdır. Onlar hesab edirlər ki, spesifik məzmunu əhatə edən bilik və bacarıqların 6 mərhələli Blum taksanomiyasına müvafiq meyarlarının hazırlanması (rubriklər) təhsilalanların öyrənmə prosesini izləməkdə mühüm rol oynayır. Üçüncü istinad edilən nəzəriyyə Con Svellerin idraki yük (cognitive load) nəzəriyyəsidir. İdraki yük qısamüddətli yaddaşın bir dəfəyə özündə saxlaya bildiyi informasiyanın həcmi ilə əlaqədardır və o, daxili (intrinsic load), kənar (extraneous load) və qəbul edilmiş (germane load) yük kimi təsnifatlaşdırılır. Daxili yük tapşırığın çətinliyi ilə əlaqədar olub şəxsdən və onun keçmiş bilik, bacarıqlarından asılıdır. Kənar yük məlumatın necə təqdim edilməsi ilə əlaqədar olub məzmunun təşkil edilməsindən asılıdır və təlim prosesi düzgün təşkil edildikdə təhsilalanları çətin tapşırıqları yerinə yetirməyə motivasiya edir. Nəhayət, müəllim şagirdin daxili və kənar idraki

yükünü azaltmalı və qəbul edilmiş idraki yükə (informasiyanın uzunmüddətli yaddaşda saxlanması) fokuslanmalıdır.

Bütün bunları nəzərə alan Burns və Frangiosa öz qiymətləndirmə modellərini tərtib edirlər. Onlar modeli tətbiq etməzdən əvvəl bir növ şagird və valideynləri yeni modelə hazırlamaq üçün onlarla modelin yararlılığı barədə və dəstək üçün söhbət aparırlar. Burns və Frangiosa şagirdlərin bilik və bacarıqlarını ölçmək məqsədilə "Mən bacarıram..." sözləri ilə başlayan meyarları olan performans əsaslı rubriklər hazırlamışdı. Məzmunu praktikaya tətbiq etmək məqsədilə meyarlar bilik və performans əsaslı bacarıqlar olaraq fərqləndirilirdi. Meyarlar şagirdlərin nə edə biləcəyinə və ya bilməli olduqlarına əsaslanan məqsədyönlü ifadələrdən ibarət idi. Bundan əlavə, şagirdlərin öyrənməsinə nəzarət etmək üçün onlara müxtəlif növ qiymətləndirmə formaları (layihə əsasında, bölmə ilə bağlı test, şifahi təqdimat, kumulyativ imtahan (rübün əvvəlindən bəri keçilənlərin hamısı ilə bağlı test), portfolio) təklif olundu, bu isə şagirdlərə seçim azadlığı vermək və hər şagirdlərin fərdi müxtəlifliyini nəzərə alaraq onları eyni qəlibə salmamaq baxımından yaxşı təklif idi. Buraxılan və tamamlanmayan tapşırıqları icra etmək məqsədilə isə təkrarlar həyata keçirilirdi. Bundan başqa, şagirdlərin akademik vərdişləri (məs: punktuallıq, iştirak səviyyəsi, tapşırıqların yerinə yetirilməsi kimi akademik nailiyyəti dəstəkləyən davranışlar) konfrans keçirilərək müzakirə olunurdu. Təhsil kreditlərinin qəbul olunması məsələsinə gəldikdə isə rubriklərdə əksini tapan standartlara uyğun ədədi ballar və krediti qəbul etmək üçün minimum tələblər müəyyənləşdirilirdi.

Təhsilalanların "pis qiymət almaq" ilə bağlı stress və narahatlıq səviyyəsini azaldıb onların öyrənməyə qarşı daxili motivasiyasını stimullaşdıran "bal verilmədən öyrənmə"nin tərəfdarlarının sayı artmaqdadır. Əksər tədqiqatlar bu cür öyrənmənin təhsilalanlara akademik risk almağa kömək etdiyini, onlarda özünəgüvən hissini və öyrənməyə həvəsi artırdığını vurğulasa da, "bal verilməməsi" keçmiş ənənələrlə bağlı olaraq müəyyən problemlərə də yol açır. Əksər hallarda öyrənmə prosesinə deyil, övladının neçə bal aldığına köklənən valideynlər bal verilməməsini birmənalı qarşılamır. Eləcə də, bal olmadan təhsilalanların öyrənmə fəaliyyəti barədə hesabatlılığı təmin etmək məsələsi çətinlik törədən məqamlardandır və bundan istifadə edən şagird və tələbələr tapşırıqları yerinə yetirməyə bilirlər. Deyilənlərlə yanaşı, əmək bazarında işçinin akademik nailiyyətinə qoyulan tələblər də problemlər sırasındadır. Xoşbəxtlikdən, tədqiqatçılar bu çətinliklərə müəyyən həll yolları təklif etməyə çalışmışlar. Onlar qiymətləndirmə ilə bağlı valideynlərdə formalaşmış qəlibləşmiş fikirləri aradan qaldırmaq məqsədilə məktəb rəhbərliyinin valideynlərlə mütəmadi söhbətlər təşkil etməsinin çıxış yolu olacağına inanırlar. Hesabatlılıq məsələsinə gəldikdə, aydın meyarlara

əsaslanan performans əsaslı rubriklərin hazırlanması, buraxılan və tamamlanmayan tapşırıqları icra etmək məqsədilə təkrarların həyata keçirilməsi, şagirdlərin akademik vərdişləri barədə isə konfransların keçirilməsi təklif olunur.

***Ədəbiyyat***

1. *Schinske, J., & Tanner, K. (2014). Teaching more by grading less (or differently). CBE - Life Sciences Education, 13(2), 159-166.*
2. *Chiaravalli, A. (2019, May 30). Teachers Going Gradeless - Teachers Going Gradeless - Medium. Medium. https://medium.com/teachers-going-gradeless/teachers-going-gradeless-50d621c14cad*
3. *McMorran, C., & Ragupathi, K. (2020). The promise and pitfalls of gradeless learning: Responses to an alternative approach to grading. Journal of Further and Higher Education, 44(7), 925-938.*
4. *Whitmell, T.E.T. (2020). Teachers Navigating Their Experiences of" Going Gradeless" in Ontario, Canada. University of Toronto (Canada).*
5. *Burns, E., & Frangiosa, D. (2021). Going gradeless, grades 6-12: Shifting the focus to student learning. Corwin Press.*
6. *Ağayeva, S. (2022). Kurikulum metodika pedaqogika. Təhsil Nəşriyyat-Poliqrafiya.*
7. *De Jesús, A., & Moldavan, A.M. (2022). Book Review: Going Gradeless, Grades 6-12: Shifting the Focus to Student Learning. Excelsior: Leadership in Teaching and Learning, 14(2), 150-157.*

**A.M.Paşazadə**
**Azərbaycan Dövlət Pedaqoji Universiteti**
***iamayselpashazade2000@gmail.com***

# LİNQVİSTİKADA KANADA VARİANTININ XÜSUSİYYƏTLƏRİ

***Xülasə***

*Kanada İngilis dili kifayət qədər az sayda danışan tələb edir və nisbətən qısa bir tarixə malikdir – "Kanada ingilis dili" termini ilk dəfə 1854-cü ildə meydana gəlib. Bir variant olaraq o, adətən ya Britaniya və Amerika xüsusiyyətlərinin qarışığı və ya **moose milk** kimi qəribə terminlərin saxlandığı yer kimi təsvir edilmişdir. Bununla belə, Richard Bailey müşahidə etdiyi kimi: Kanada ingilis dilinin Şimali Amerika ingilis dilinin bir variantı (New England, New York danışığı) kimi meydana gəldiyi ümumi şəkildə qəbul edilir.*

# ХАРАКТЕРИСТИКА КАНАДСКОГО ВАРИАНТА В ЛИНГВИСТИКЕ

***Резюме***

*Канадский английский имеет довольно небольшое количество носителей и имеет относительно короткую историю — термин «канадский английский» впервые появился в 1854 году. В качестве варианта его обычно описывают либо как смесь британских и американских особенностей, либо как родину странных терминов, таких как лосиное молоко. Однако, как замечает Ричард Бэйли: Принято считать, что канадский английский возник как вариант североамериканского английского (Новоанглийская, Нью-Йоркская речь).*

# CHARACTERISTICS OF THE CANADIAN VARIANT IN LINGUISTICS

***Summary***

*Canadian English requires a fairly small number of speakers and has a relatively short history - the term "Canadian english" was first mentioned in 1854. As a variant, it is usually described as either a mixture of British and American features, or as the home of strange terms such as moose milk. However, as Richard Bailey observes: It is generally accepted that Canadian English arose as a variant of North American english (New England, New York speech).*

***Açar sözlər:*** *Kanada ingilis dili, Amerika ingilis dili, Britaniya ingilis dili, varaint, ingilis dili*

***Ключевые слова:*** *Канадский английский, американский английский, британский английский, вариативность, английский язык*

***Key words:*** *Canadian english, American english, British english, varaint, english*

İngilis dilinin dünyada bu qədər geniş yayılması, beynəlxalq bir dil kimi qəbul olunması və gündən-günə inkişaf etməsi dilçilik elmini daim onu və variantlarını araşdırmasına vadar edir. İngilis dili çox geniş və zəngin dildir. Artıq əsrlər boyudur ki, onun araşdırılması aparılır. İngilis dilinin bir çox variantları var. Məhz bu məqalə də ən geniş yayılmış variantlardan biri olan Kanada variantının araşdırılmasına həsr olunmuşdur.

Kanada ingilis dili, Kanadada istifadə olunan ingilis dilinin bir növüdür. Kanadalılıq, Kanadada yaranan və ya Kanadada xüsusi bir məna daşıyan söz və ya ifadədir.

Kanada ingilis dili ilə Amerika ingilis dili arasında bəzi oxşarlıqlar var, eyni zamanda Kanadada danışılan ingilis dili ilə Birləşmiş Krallıqda danışılan ingilis dili bir sıra ortaq xüsusiyyətlərə malikdir.

Kanada rəsmi olaraq ikidilli bir ölkədir, faiz nisbəti ilə çoxluq ingilis dilinin payına düşür: 2016-cı il siyahıya alınmasına əsasən ingilis dilini əhalinin 58,1% bildiyini halda, yalnız 20,8%-i fransızca danışanlardan ibarət idi, qalanları isə heç bir rəsmi dili bilmirdi [1, s.13].

Kanada ingilis dilinin ən geniş yayılmış növü Kanadanın bütün qərb və mərkəzi əyalətlərində danışılan Standart Kanada ingilis dilidir, bu standart Kanada ingilis dili həmçinin orta və ya daha yüksək səviyyəli ailələr arasında və bir çox digər əyalətlərdə də danışılır. Standart Kanada ingilis dili Atlantik Kanada ingilisindən fərqlidir, onun ən diqqətəlayiq alt hissəsi *Newfoundland* ingilis dili və *Quebec* ingilis dilidir. Bu dillər arasındakı vurğu fərqləri şəhər mərkəzlərində yaşayanlarla kənd yerlərində yaşayanlar arasında da hiss edilə bilər.

Kanada ingilis dili əksər cəhətdən Amerika ingilisinə yaxın olmasına baxmayaraq, Şimali Amerika ingilis dili kimi təsnif edilə bilər, Amerika ingilis, ingilis ingilis və digər variantların Kanada ingilis variantına təsiri 1950-ci illərdən bəri sistematik tədqiqatların davamlı diqqət mərkəzində olmuşdur. Tarixi boyu o, iki güclü xarici normanın, Britaniya İngilis və Amerika İngilis dillərinin təsirinə məruz qalmışdır, deməli, bu normaların nisbi prestiji və onların Kanada ingiliscəsinə təsiri sosial və siyasi şəraitə uyğun olaraq dəyişmişdir.

Standart Kanada və Ümumi Amerika ingilis dilləri təxminən oxşar fonemik xüsusiyyətləri bölüşürlər, baxmayaraq ki, onların bəzi fonetik fərqlilikləri də vardır.

Kanadalıların və amerikalıların, xüsusilə Standart Kanada və Qərbi Amerika Birləşmiş Ştatları ingilis dilləri 1980-cı illərdən bəri bəzi oxşar sait

dəyişikliyinə məruz qalır və bunların tələffüzlərini fərqləndirməkdə çətinlik çəkirlər.

"Kanada ingilis dili" termini ilk dəfə Müqəddəs A. Constable Geikie tərəfindən 1857-ci ildə Kanada institutuna müraciətində təsdiq edilmişdir. Şotlandiya əsilli kanadalı Geikie, Britaniyadan gələn mühacirlərin danışdığı düzgün ingilis dili ilə müqayisədə, bu dili "korlanmış dialekt" adlandırarkən növbəti yüz il ərzində Kanadada hökm sürəcək olan Anqlosentrik münasibəti əks etdirdi [3, s.180].

Kanadada ingilis dilinin daha əvvəlki formaları ilə bağlı aparılan araşdırmalar nadirdir, lakin tarixi dilçiliklə bağlı işlərlə əlaqələr yaratmaq olar. Kanada ingilis dili üzrə diaxronik işin icmalı və ya diaxronik olaraq müvafiq işlərə ümumi baxış Dollingerdir.

2000-ci illərə qədər, adətən bütün şərhçilər Kanada ingilis dilinin tarixində "xarici dil" tarixindən, (məsələn, social və siaysi) mübahisə etmişlər. İstisna leksika sahəsində olmuşdur, Avis və digərləri Kanadalıların Tarixi Prinsipləri lüğətində öz sitatları vasitəsi ilə real vaxt tarixi məlumatlarını təqdim edirdi. 2000-ci illərdən başlayaraq, tarixi dilçilər tarixi dil məlumatları ilə erkən Kanada ingilis dilini öyrənməyə başladılar.

Dollinger *Courpus of Early Ontario English, 1776-1849* ilə Kanadada ingilis dili üçün tarixi korpus linqvistik yanaşmasına öncülük etmiş, XVIII və XIX əsrlərdə Ontario üçün inkişaf ssenarisini təklif etmişdir. 2015-ci ildə Reuter, Ontariodan XIX əsrə aid bir qəzet korpusundan istifadə edərək, Dollingerdə (2008) tərtib edilən ssenarini təsdiqlədi.

Tarixən, Kanada ingilis dilinə Kanada nəzakəti kimi tanınan sinif əsaslı sosiolekt daxildir. XIX və XX əsrin əvvəllərində yuxarı sinif prestijinin göstəricisi kimi qəbul edilən Kanada nəzakəti İngilis ingilis dilinin tələffüzünün bəzi xüsusiyyətlərinin istifadəsi ilə qeyd edildi, nəticədə Amerika Birləşmiş Ştatlarında orta Atlantik vurğu ilə tanınan orta Atlantik aksentinə bənzər, lakin eyni olmayan bir vurğu yarandı. Bu dialekt İkinci Dünya Müharibəsindən sonra damğalandı və film, televiziya və ya radio sənədli filmlərində istifadə olunan arxiv qeydləri xaricində müasir Kanada həyatında demək olar ki, heç vaxt eşidilmədi [2, s. 50].

İngilis dilinin Kanada orfoqrafiyası, iki dominant variant olan İngilis və Amerikan xüsusiyyətlərini özündə birləşdirir və bəzi yerli xüsusiyyətləri də əlavə edir. Bir çox söz üçün həm Amerikan, həm də İngilis orfoqrafiyası qəbul edilə bilir. Kanada ingiliscəsində orfoqrafiya regional və sosial dəyişikliklərlə birlikdə dəyişir, bəlkə də ingilis dilinin iki dominant variantından biraz daha çox dəyişir, ancaq 1970-ci illərdən bəri ümumi tendensiyalar ortaya çıxmışdır.

**International English Spelling Chart**

| United States | Canada | United Kingdom | Australia |
|---|---|---|---|
| color | colour | colour | colour |
| center | centre | centre | centre |
| realize | realize | realise/ize | realise |
| analyze | analyze | analyse | analyse |
| traveling | travelling | travelling | travelling |
| defense | defence | defence | defence |
| computer program, concert program | computer program, concert program | computer program, concert programme | computer program, concert program |
| gray | grey | grey | grey |
| fulfill | fulfil(l) | fulfil | fulfil |
| aging | ag(e)ing | ageing | ag(e)ing |

Kanada orfoqrafiya qaydaları qismən Kanadanın ticarət keçmişi ilə açıqlana bilər. Məsələn, *cheque* sözünün ingilis dilindəki yazılışı çox güman ki, Kanadanın bir zamanlar ingilis dili iqtisadiyyat qurumları ilə olan vacib əlaqələri ilə bağlıdır. Digər tərəfdən isə, Kanadanın avtomobil sənayesi yarandığı gündən etibarən Amerikan firmalarının hakimiyyətində olmuşdur, bu da Kanadalıların nəyə görə avtomobillər və onların hissələri üçün Amerikan terminologiyasını (məsələn, *truck* əvəzinə *lorry*, *gasoline* əvəzinə *petrol*, *trunk* əvəzinə *boot*) istifadə etdiklərini açıqlamaqdadır [5, s.98].

Kanadanın siyasi tarixi də onun orfoqrafiyasına təsirsiz ötüşməmişdir. Kanadanın ilk baş naziri John A.Macdonald bir dəfə Kanadanın Baş Qubernatoruna hökumət sənədlərinin ingilis üslubunda yazılmasına göstəriş verən şurada sərəncam verməyi tövsiyə etmişdi.

Kanadanın rəsmi orfoqrafiyası üçün müasir istinad, Kanada Parlamentinin Hansard transkriptləri üçün istifadə olunan orfoqrafiyasıdır. Bir çox kanadalı redaktorlar Kanada Oxford Lüğətindən, ümumilikdə Kanada İngiliscəsinin redaktə edilməsində orfoqrafiya fəsli ilə birlikdə və lazım olduqda (kontekstdən asılı olaraq) bir və ya bir neçə digər istinaddan istifadə edirlər.

XX əsrin müəyyən bir hissəsində bəzi Kanada qəzetləri amerikan orfoqrafiyasını qəbul etdi, (məsələn, *color* sözü İngilis əsaslı *colour* sözündən fərqli olaraq). Ən əhəmiyyətli tarixi orfoqrafiya məlumatlarından bəziləri Dollinger (2010) və Grue-də tapıla bilər [4, s.104].

Ədəbiyyat uzun müddət Standart Kanada İngilis dili və regional variant anlayışlarını birləşdirdi. Bəzi regional dialektlər Standart Kanada İngilis dilinə yaxın olsa da, onunla eyni deyil. Məsələn, kənd yerindən olan orta səviyyəli natiq standart Kanada ingiliscəsində danışa bilər, lakin Chambersin tərifini nəzərə alsaq, belə bir şəxs kənd mənşəyinə görə qəbul edilən siyahıya daxil

edilməyəcəkdir. Şimali Amerika ingilis dili atlası, ABŞ-ın regional variantı üçün ən yaxşı mənbə olsa da, Kanada regional dəyişikliyi üçün yaxşı mənbə deyil, çünki onun təhlili yalnız Kanada dilində danışanlara əsaslanır. Boberqin (2005, 2008) tədqiqatları dialekt zonalarının delimitasiyası üçün ən yaxşı məlumatları təqdim edir. Onların lüğət və fonetikaları böyük ölçüdə üst-üstə düşür.

Şimali Kanadadan olan *First Nations* və İnuitlər, ilk dillərinin fonologiyasından təsirlənən Kanada İngilis dili versiyasını danışırlar. Bu bölgələrdəki avropalı kanadalılar nisbətən yeni gələnlərdir və cənub Kanada ingilis dilindən fərqli bir dialekt yaratmayıblar [2, s.135].

Ümumiyyətlə, *First Nations Canada* İngilis ləhcələri dil itkisi və dilin canlanması arasında dayanır. British Columbia ən böyük dil müxtəlifliyinə malikdir, çünki Kanadada danışılan yerli dillərin təxminən yarısı burada danışılır. Vilayətdə danışılan dillərin əksəriyyəti az sayda danışanlara görə təhlükə altındadır. Müəyyən dərəcədə dialektlər ingilis dilinin əsas müstəmləkə dili olduğu tarixi kontekstləri əks etdirir. Dialektlər həm də yerli kimliyin və həmrəyliyin linqvistik damğalanma ilə nəticələnən depidginizasiyanın və dekreolizasiyanın gec yaranmalarının nəticəsidir. Bu ləhcələrin yüksək təbəqəli ingilislər və yerli əhali arasında istifadə edilməsi nəticəsində bir *lingua franca* kimi inkişaf etdirildiyi müşahidə edilir və bunun nəticəsi olaraq müxtəlif dialektlər standart ingilis dili ilə yaxınlaşmağa başladı.

***Ədəbiyyat***

1. *Allen, Harold B. Canadian-American speech differences along the middle border. Journal of the Canadian Linguistic Association, 1959.*
2. *Burnett, Wendy. Linguistic resistance on the Maine – New Brunswick border. Canadian Journal of Linguistics, 2006.*
3. *Bailey, Richard W. The English language in Canada, 1959.*
4. *Avis, Walter S. The contemporary context of Canadian English, 1986.*
5. *Ayearst, Morley. A note on Canadian speech, 1959.*

**A.Ş.Zərbəli**
**Azərbaycan Dövlət Pedaqoji Universiteti**
***aytaczrbli@gmail.com***

# SAĞLAMLIQ İMKANLARI MƏHDUD UŞAQLARIN TƏHSİL VASİTƏSİLƏ CƏMİYYƏTƏ ADAPTASİYASINDA VALİDEYNLƏRİN ROLU

***Xülasə***

*Bu məqalənin məqsədi uşaqların cəmiyyətə adaptasiyasının əsas mərhələlərində valideynlərin roluna diqqət çəkməklə sağlamlıq imkanları məhdud uşaqların cəmiyyətə uyğun şəkildə adaptasiyasında, valideynlərin təhsil prosesində fəal iştirakının və müəllimlə əməkdaşlığının əhəmiyyətini vurğulamaqdır. Sağlamlıq imkanları məhdud olan uşaqların valideynləri üçün yaranan çətinliklər və həyat təcrübəsi və valideynlərin sağlamlıq imkanları məhdud uşaqlarına dəstək olmağa təsir edən amillər ətraflı şəkildə müzakirə edilir. Bundan başqa, məqalə Azərbaycan Respublikası Qanununda təyin olunan valideynlərin hüquq və vəzifələrini əks etdirərək valideynlərin təhsil prosesində daha fəal iştirakını təşviq etmək üçün qanuni çərçivənin rolu barədə məlumat verir.*

# РОЛЬ РОДИТЕЛЕЙ В АДАПТАЦИИ ДЕТЕЙ С ИНВАЛИДНОСТЬЮ К ОБЩЕСТВУ ЧЕРЕЗ ОБРАЗОВАНИЕ

***Резюме***

*Цель данной статьи – привлечь внимание к роли родителей на основных этапах адаптации детей к обществу, подчеркнуть важность активного участия родителей и сотрудничества с педагогами в адаптации детей с ограниченными возможностями здоровья к обществу. Подробно обсуждаются проблемы и жизненный опыт родителей детей с ограниченными возможностями, а также факторы, влияющие на поддержку родителями своих детей с ограниченными возможностями. Кроме того, в статье представлена информация о роли нормативно-правовой базы, стимулирующей более активное участие родителей в образовательном процессе, отражающей права и обязанности родителей, определенные в Законе Азербайджанской Республики.*

# ROLE OF PARENTS IN ADAPTATION OF CHILDREN WITH DISABILITIES TO SOCIETY THROUGH EDUCATION

***Summary***

*The purpose of this article is to draw attention to the role of parents in the main stages of children's adaptation to society, and to emphasize the importance of*

*active participation of parents and cooperation with teachers in the adaptation of children with disabilities to society. The challenges and life experiences of parents of children with disabilities and the factors influencing parents' support for their children with disabilities are discussed in detail. In addition, the article provides information on the role of the legal framework to encourage more active participation of parents in the educational process, reflecting the rights and duties of parents defined in the Law of the Republic of Azerbaijan.*

***Açar sözlər:*** *cəmiyyətə adaptasiya, validеyn, uşaq, təhsil*
***Ключевые слова:*** *адаптация к обществу, родитель, ребенок, образование*
***Key words:*** *adaptation to society, parent, child, education*

Təlim-tədris prosesinin keyfiyyətinin təmin olunması və səmərəli nailiyyətlərin əldə edilməsi bilavasitə uşaqların səmərəli şəkildə cəmiyyətə adaptasiyasından asılıdır. Bu baxımdan müasir dövrdə sağlamlıq imkanları məhdud uşaqların cəmiyyətə adaptasiyasında müəllimlərlə yanaşı, valideynlərin də rolu böyükdür.

Hər bir uşağın cəmiyyətin bərabərhüquqlu üzvü olması və hərtərəfli inkişafı üçün təhsil vacibdir. Bu, eyni zamanda kimliyindən asılı olmayaraq hər bir vətəndaşın konstitusional hüququdur [8]. Sağlamlıq imkanları məhdud uşaqların cəmiyyətə adaptasiyası vasitəsilə təhsilin keyfiyyətini təmin edən bir çox amillər vardır ki, bunlardan başlıcası valideynlərin təhsil prosesində fəal iştirakı və təhsil müəssisəsi ilə yaxından əməkdaşlıq etməsidir.

Ancaq valideynlər çox vaxt bu proseslərdə müəyyən səbəblərə görə uğursuz olurlar: laqeydlik, informasiya çatışmazlığı və s. nədənsə bu prosesdən kənarda qalırlar və təhsilə töhfə verə bilmirlər. Onların övladları isə bunun mənfi nəticələriylə isə qarşılaşmalı olurlar [2].

Valideynlərin təhsil prosesində aktiv iştirakı, uğurun əsasını qoyan ən əhəmiyyətli amillərdən biridir. Lakin müəyyən hallarda valideynlər, müstəqil təhsil və öyrənmənin təşviq edilməsi üçün lazım olan dəstəyi göstərməkdə çətinlik çəkirlər. Bu çətinliklər arasında valideynlərin laqeydlik göstərməsi, öz təhsil biliklərini yeniləməkdə çətinlik çəkmələri və uşaqların təhsil prosesinə dair mövcud olan dəyişikliklərdən xəbərsiz olması da yer alır.

Sağlamlıq imkanları məhdud olan uşağa qayğı göstərmək valideynlər üçün çoxlu çətinliklər yaradır, məsələn, uşağın vəziyyətinin müalicəsi üçün əlavə maliyyə yükləri, uşağın problemli davranışı ilə məşğul olmaq və əlilliklə bağlı sosial stiqma [4]. Nəticə etibarı ilə, əlilliyi olan uşaqların valideynləri əlilliyi olan uşağı olmayan valideynlərə nisbətən daha çox fiziki sağlamlıq əlamətləri, mənfi təsirlər və daha pis psixoloji rifah yaşayırlar [2].

Cəmiyyətlərin demoqrafik göstəriciləri göstərir ki, əlillərin ümumi əhali içərisindəki yeri və problemləri böyük əhəmiyyət kəsb edir. Əlilliyin

səbəblərini araşdırmaq, eləcə də mövcud əlillərin sağ qalma, müdafiə və iştirak hüquqlarını yaxşılaşdırmaq mühüm ehtiyacdır. Əlilliyi olan şəxslərin hər sahədə inkişaf etmələrini və ictimai həyatda fəal və məhsuldar insanlar kimi iştirakını təmin etmək müasir sosial siyasətin bir ölçüsüdür [7].

Sağlamlıq imkanları məhdud olan uşaqların valideynlərinin məktəblə - müəllim və məktəb rəhbərliyi ilə qarşılıqlı əməkdaşlığı və onun idarə olunmasında iştirakı təkcə onların vətəndaş və valideyn olaraq hüququ yox, həm də vacib bir prosesdir. Çünki bir uşağı ən yaxşı tanıyan onun valideynləridir. Xüsusilə ibtidai sinifdə valideynlərin müəllimlə və zərurət yarandıqda məktəb psixoloqu ilə yaxın pozitiv münasibətdə olması vacibdir. Pozitiv münasibət dedikdə valideynlərin müəllimlərə dəstəkverici münasibət göstərməsi, yaranmış çətinliklər zamanı onu qınamadan problemlərin birgə həllinə cəhd etmək nəzərdə tutulur. Valideyn-müəllim-şagird üçbucağında xoş münasibətlərin olması təhsilin keyfiyyətinə müsbət təsir göstərir [2]. Valideynlər, həmçinin icma üzvlərini ianə verməyə təşviq etməklə məktəb və ya uşaq bağçasının lazımi maliyyə və texniki resurslara malik olmasını təmin etmək üçün müxtəlif vasitələrdən istifadə edərək töhvələr verə bilərlər. Bundan başqa təhsil müəssisələrinin idarə olunmasında iştirakçılıq da sosial nəzarətin həyata keçirilməsi və təhsil müəssisələrinin özünütənzimləməsi baxımından da önəmlidir. Lakin məktəbin (bağçanın) idarəolunmasında iştirakçılıq qətiyyən proseslərə lazımsız müdaxilə olmamalıdır. Məktəbin inzibati idarəçiliyində və ictimai fəaliyyətində iştirak məktəb rəhbərliyinə uyğun olaraq fərdi qaydada və ya valideynlər birliyi vasitəsilə həyata keçirilməlidir [1].

Ailələr dinamik fəaliyyət göstərən vahidlərdir, onlar eyni zamanda daim sabitlik və tarazlıq vəziyyətlərindən inkişaf və dəyişiklik vəziyyətlərinə keçirlər. Fərdlər və onların ailələri vahid sistem daxilində inkişaf edir, daim tarazlığa can atır. Amma təəssüf ki, sağlamlıq imkanları məhdud uşağın doğulması və ya sonradan bu problemin yaranması ailə sabitliyində ciddi disbalans yaradır və ailə çətin ekzistensial təcrübə keçir [3]. Ümumiyyətlə valideynlər sağlamlıq imkanları məhdud uşaqlarına qayğı, təhsil və nəzarətdə mərkəzi və ən mühüm tərəfdir. Bu böyük rola baxmayaraq, bu istiqamətdə aparılan tədqiqatlara baxdıqda bəzi hallarda bunun əksini müşahidə edirik. Valideynlərin sağlamlıq imkanları məhdud uşağın böyüdülməsi ilə bağlı nümunələri ilə məşğul olan peşəkar institutlar çarəsizlik və böhran reaksiyalarından tutmuş ailə tərəfindən mövcud vəziyyətin qəbul edilməsi reaksiyalarına qədər geniş spektrli nümunələri təsvir edir [3].

Təhsilin keyfiyyətinə təsir göstərən mühüm amillərdən biri də müəllim-valideyn əməkdaşlığıdır. Bu əməkdaşlıq əlilliyi olan uşaqların təhsili üçün xüsusi əhəmiyyət kəsb edir. Təhsil və inkişaf prosesi təkcə məktəbdə getmədiyi üçün bu proses bütün mühitlərdə davamlı olaraq tətbiq edilməli olan məsələdir [3].

Uşaqlar vaxtlarının əksər hissəsini daha çox məktəbdə (yaxud bağçada) və evdə keçirdiyindən bu iki mühit arasında keyfiyyət baxımından uyğunluğun olması uşağın sabit psixo-emosional inkişafında və yaxşı təhsil almasında mühüm rol oynayır. İki mühit arasında uyğunluğun təşkil edilməsi üçün həmin mühitlərdə, yəni məktəb və evdə uşağın təlim-tərbiyəsinə məsuliyyət daşıyan tərəflərin – müəllim və valideynlərin yaxından əməkdaşlıq etməsi vacibdir [5]. Müəllim-valideyn əməkdaşlığı müəllimlə valideynlər arasında sadə ünsiyyət deyil. Bu cür ünsiyyət hər halda təbii olaraq baş tutur. Əməkdaşlıq müəllim və valideyn arasında ümumi ünsiyyət və münasibətdən daha geniş anlayışı əhatə edir və keyfiyyətcə də fərqlənir. Səmərəliliyinin əldə olunması üçün aşağıdakı faktorlar nəzərə alınmalıdır:

a) qarşılıqlı anlaşma, inam, etibar, yardım və hörmət;
b) vahid bir məqsədə xidmət etmək;
c) tərəflərin vəzifə və öhdəliklərini müəyyən etmək;
d) şagirdin təlim, tərbiyə və inkişafına birlikdə dəstək olmaq və s.

Azərbaycan Respublikasının Təhsil Haqqında Qanununun 34-cü maddəsində valideynlərin və ya digər qanuni nümayəndələrin, yəni qəyyumların hüquq və vəzifələri aşağıdakı kimi öz əksini tapmışdır [8]:

a) hüquqları:

- övladları üçün təlim- tərbiyə müəssisəsini seçmək;
- təhsil prosesinin təşkili, tədrisin keyfiyyəti, övladlarının dərsə davamiyyəti, təhsilə marağı və davranışı haqqında məlumat almaq;
- təhsilalanların hüquqlarını müdafiə etmək, təhsil müəssisəsinin idarə olunmasında iştirak etmək;
- təhsil müəssisəsi ilə əməkdaşlıq etmək, tədris prosesinin təkmilləşdirilməsi və maddi-texniki bazasının yaxşılaşdırılması üçün təkliflər irəli sürmək və könüllü yardımlar etmək.

b) vəzifələri [8]:

- övladlarının erkən yaşlarından fiziki, əxlaqi və intellektual inkişafına şərait yaratmaq, onların icbari ümumi orta təhsil almasının təmin olunması və mənəvi yetkinliyi üçün məsuliyyət daşımaq;
- övladlarını humanistlik, vətənpərvərlik, azərbaycançılıq, əməksevərlik, öz dilinə, ədəbiyyatına və tarixinə, milli-mənəvi və ümumbəşəri dəyərlərə hörmət ruhunda tərbiyə etmək.

Qeyd edək ki, şagirdlərin yaxşı təhsil alması təkcə müəllimdən asılı deyil. Təlim yanaşması və tədris metodikası nə qədər təsirli olsa da, müəllimin təkbaşına onlarla uşağa keyfiyyətli təlim verməkdə çətinliklərlə üzləşməsi labüddür [4]. Bu işdə müəllimə anlayış göstərmək və dəstək olmaq vacibdir. Bu məqsədlə valideynlər sinifdənxaric və məktəbdənkənar tədbirlərlərin təşkilində müəllimə köməklik göstərə, məktəbin icma ilə əməkdaşlığına töhfə verə, hətta zəruri hallarda təlim prosesində belə müəllimə müəyyən dəstək

göstərə bilərlər. Uğurlu müəllim-valideyn əməkdaşlığı müəllimlərdə motivasiya və öz peşəsinə rəğbət oyadır ki, bu da birbaşa şagirdlərin təhsilinə müsbət təsir göstərir.

Valideynlərin bu sahədə daha fəal iştirak etməsi üçün təlimat və təlim proqramları təşkil edilə bilər ki, bu təlimatlar da öz növbəsində valideynlərə müstəqil öyrənməyə və tədqiqat bacarığını inkişaf etdirməyə nail olmağa kömək edə bilər. Həmçinin onlara təlimat vermək və mövcud təhsil sistemində baş verən dəyişikliklər barədə informasiya vermək valideynlərin məlumat səviyyələrini yaxşılaşdıra bilər və onları övladlarının təhsilində daha səriştəli olmağa sövq edə bilər. Əlavə olaraq, valideynlər öz övladlarının təhsil prosesinə daha fəal şəkildə dəstək olmaq üçün müxtəlif təhsil resurslarından və təhsil təşkilatlarından istifadə etməlidirlər. Təhsil seminarları, valideyn iclasları və təhsilə dair müxtəlif fəaliyyətlər kimi tədbirlər valideynlərin təhsil prosesinə daha fəal iştirak etmələrini təmin edə bilər [2]. Bu cür addımlar atıldıqda, valideynlər övladları üçün daha sağlam bir təhsil mühitinin yaradılmasına kömək etməklə yanaşı, onların müstəqil düşünmə bacarıqlarını inkişaf etdirmələrinə və öyrənmə prosesində daha uğurlu olmalarına da kömək edəcəklər.

Yekun olaraq belə nəticəyə gələ bilərik ki, təhsil prosesində valideynlərin fəal iştirakı, uşaqların səmərəli cəmiyyətə adaptasiyasını və nailiyyətlərinin əldə edilməsini sürətləndirən ən əhəmiyyətli amillərdən biridir. Sağlamlıq imkanları məhdud olan uşaqların təhsili məsələsində valideynlərin rolu daha da çox artmaqdadır. Əlilliklə yaşayan uşaqların valideynləri üçün həyatın müxtəlif aspektlərində qarşılaşdıqları müxtəlif çətinliklərə baxmayaraq, onların aktiv iştirakı və dəstəyi, uşaqlarının sağlam təhsil almasında əhəmiyyətli rol oynayır.

Sağlamlıq imkanları məhdud olan uşaqların valideynləri ilə bağlı ortaya çıxardığımız faktlardan biri də əlilliyi olan uşaqların valideynlərinin çox zaman daha yaxşı fiziki sağlamlığa və daha pis psixoloji duruma sahib olduğudur. Əlilliyi olan uşaqların təhsil prosesində valideynlərinin özünün və övladlarının potensialının tam istifadəsini təmin etməklə isə onlar bu məsələdə də daha yaxşı vəziyyətdə ola bilərlər.

Sağlamlıq imkanları məhdud olan uşaqların valideynləri üçün müstəqil öyrənmə və tədqiqat bacarığını inkişaf etdirmək, valideynləri öz övladlarının təhsil prosesində daha səriştəli və müstəqil olmağa dəstək olmağa sövq edir. Təhsil seminarları, valideyn iclasları və təhsilə dair müxtəlif fəaliyyətlər kimi tədbirlər, valideynlərin öyrənmə prosesinə daha fəal şəkildə qatılmağını təmin edir. Bundan başqa, valideynlər vahid mühitin yaradılmasına, müəllim-valideyn əməkdaşlığının təkmilləşdirilməsinə və təhsilin keyfiyyətinin artırılmasına dəstək olmalıdırlar. Bu, həm müəllimlər, həm də valideynlər

arasında qarşılıqlı anlaşma, yardım və hörmətə əsaslanmalıdır. Təhsilin nailiyyətlə və effektivliklə sürətləndirilməsi üçün tərəflər arasında qarşılıqlı münasibətin formalaşdırılması və yaxın əməkdaşlıq əhəmiyyətli rol oynayır.

Valideynlər öz övladlarının təhsilində daha fəal iştirak etmək üçün təlimat və təlim proqramlarından istifadə etməlidirlər. Bu, valideynlərin məlumat səviyyələrini yaxşılaşdırmağa və öyrənmə prosesində daha səriştəli olmalarına kömək edir. Valideynlərin öz öyrənmə və tədqiqat bacarıqlarını inkişaf etdirmələri, övladlarının təhsilində daha səriştəli və müstəqil olmalarına dəstək olmağa nail olur.

Həmçinin yekun olaraq nəzərə almaq lazımdır ki, valideynlər öz övladlarının təhsil prosesinə daha fəal şəkildə dəstək olmaq üçün müxtəlif təhsil resurslarından və təhsil təşkilatlarından istifadə etməlidirlər. Bu, valideynlərin öz övladları üçün daha sağlam bir təhsil mühitinin yaradılmasına kömək etməklə yanaşı, onların müstəqil düşünmə bacarıqlarını inkişaf etdirmələrinə və öyrənmə prosesində daha uğurlu olmalarına da kömək edir. Bu cür addımlar atıldıqda, valideynlər övladları üçün daha effektiv və məmnun edici bir təhsil təmin edərək cəmiyyətə adaptasiyalarına və səmərəli nailiyyətlər əldə etmələrinə kömək edir.

***Ədəbiyyat***


1. *BMT, 2030-cu ilədək dayanıqlı inkişaf sahəsində gündəlik, 25 sentyabr 2015.*
2. *Ha J, Hong J, Seltzer MM, Greenberg JS. Age and gender differences in the well-being of midlife and aging parents with children with mental health or developmental problems: Report of a national study. Journal of Health and Social Behavior. 2008; 49(3): 301-316.*
3. *Kandel, I., and Merrick, J. (2003) The birth of a child with disability. Coping by parents and siblings. TheScientificWorldJOURNAL 3, 741-750.*
4. *Lecavalier L., Leone S., Wiltz J. The impact of behaviour problems on caregiver stress in young people with autism spectrum disorders. Journal of Intellectual Disability Research. 2006; 50(3):172-183.*
5. *Özen, Yener. (2017). İŞİTME ENGELLİ ÇOCUKLARIN TOPLUMA UYUMU VE REHBERLİĞİN ÖNEMİ (HEARING IMPAIRED CHILDREN'S COMMUNITY HARMONY AND THE IMPORTANCE OF GUIDANCE ). Researcher: Social Science Studies. 5. 293-316.*
6. *Sağlamlıq imkanları məhdud şəxslərin təhsili (xüsusi təhsil) haqqında Azərbaycan Respublikasının 5 iyun 2001-ci il tarixli, 136 – IIQ nömrəli Qanunu.*
7. *Toplumsal Gelişme ve Değişme Sürecinde Sosyal Hizmet (2001), Hacettepe Üniversitesi Sosyal Hizmetler Yüksekokulu Yayını, Ankara.*
8. *https://e-qanun.az/framework/4353*

**A.N.Həsən**
**Azərbaycan Dövlət Pedaqoji Universiteti**
***arzuajdarli@gmail.com***

# MÜƏLLİMLƏRİN MOTİVASİYASINA TƏSİR EDƏN AMİLLƏR

***Xülasə***

*Motivasiya müasir psixologiya, idarəetmə və təhsil elmlərində geniş şəkildə araşdırılan məsələlərdəndir. Müəllimlərin motivasiyası xüsusilə təhsil sahəsində tədqiqatların predmeti olmuşdur. Menecerlər müəllimlərin fəaliyyətini stimullaşdırmaq üçün müxtəlif motivasiya vasitələrindən istifadə edir. Əsas motivasiya vasitələri kimi isə əmək haqqı, müəllimlik peşəsinə inamın möhkəmləndirilməsi, demokratik rəhbərlik üslubunun tətbiq edilməsi, idarəetmədə şəffaflı karyerasının inkişaf etdirmə imkanlarının yaradılması əsas götürülə bilər.*

# ФАКТОРЫ, ВЛИЯЮЩИЕ НА МОТИВАЦИЮ УЧИТЕЛЕЙ

***Резюме***

*Мотивация – одна из широко исследуемых тем в современной психологии, менеджменте и педагогических науках. Мотивация учителей была предметом исследований, особенно в сфере образования. Потому что правильное определение потребностей учителей и факторов, мотивирующих их поведение, необходимо менеджерам образования, чтобы понять, какие экономические или другие стимулы могут им лучше всего способствовать. Менеджеры могут использовать различные мотивационные инструменты для стимулирования производительности учителей. В качестве основного средства мотивации заработная плата, укрепление доверия к педагогической профессии, применение демократического стиля управления, прозрачность управления, создание возможностей для подъема по карьерной лестнице и т.д. можно отметить.*

# FACTORS AFFECTING TEACHERS' MOTIVATION

***Summary***

*Motivation is a widely researched topic in contemporary disciplines of psychology, management, and education science. Teachers’ motivation has also been a subject of education policy and management research, as the proper identification of teachers’ needs and factors motivating their behaviour is necessary in order for educational managers and policy makers to understand which economic or other incentives could contribute to their better work performance. Managers and policy makers can use a variety of motivational tools to keep teachers productive. The main*

*motivating tools which differ depending on motivating factors are salary, bonuses, self-assertion, the opportunity to move up the career ladder.*

***Açar sözlər:*** *motivasiya, müəllimlərin motivasiya edilməsi, stimullaşdırma*
***Ключевые слова:*** *мотивация, мотивация учителей, стимулирование*
***Key words:*** *motivation, motivation of teachers, stimulation*

Motivasiya (latınca movere - hərəkət etdirmək, itələmə deməkdir) dedikdə tələbatların təmin olunması ilə əlaqədar olaraq insanı fəaliyyətə təhrik edən amillər nəzərdə tutulur. Motivasiya insanlara təsir edən və peşə fəaliyyətində nailiyyətlər əldə etmələrini stimullaşdıran bir prosesdir və eyni zamanda onların istiqamətini müəyyən edən bacarıqlarından, dünyagörüşündən, eləcə də düşüncələrindən, ümidlərindən, inanclarından, bir sözlə, arzularından yaranır. İnsanın fəaliyyətində motivasiya çox mühüm rol oynayır.

Peşəkarlıq və səriştəlilik müəllimin peşə fəaliyyətinin əsas atributlarından biridir. Onun formalaşmasının əsası müəllim hazırlığı prosesində qoyulur. Buna görə də müəllimin pedaqoji peşəkarlığının və səriştəliliyinin formalaşmasına pedaqoji təhsil illərindən, yəni peşə biliklərinin aşılanması prosesindən başlanılmalıdır. Peşə bilikləri peşə fəaliyyətinin nəzəri və praktik əsaslarının mənimsənilməsindən ibarət olduğundan pedaqoji fəaliyyətin səviyyəsinə də ciddi təsir göstərir. Peşə biliklərinin formalaşdırılması prosesinin müasir tələblər səviyyəsində təşkil edilməsi, məzmunlu və peşəkarlıqla aparılması tələbələrdə peşəkarlıq və səriştəliliyin ilk elementlərinin yaranmasında böyük rol oynayır. Ali məktəbdə bu istiqamətdə formalaşmış olan bilik, bacarıq və vərdişlər pedaqoji fəaliyyətdə peşəkarlıq və səriştəliliyin özünü göstərməsi ilə müşayət olunur. Buna görə də gələcək müəllimlərdə peşəkarlıq və səriştəliliyin yüksək səviyyədə olmasına nail olmaq üçün onlarla ilk növbədə pedaqoji-psixoloji hazırlığın aparılmasına böyük ehtiyac vardır. Bu hazırlıq içərisində motivlərin formalaşdırılması xüsusi yer tutur [5].

Ümumiyyətlə, pedaqoji işçilərin motivasiyasının təmin edilməsində onların davranışlarını və bunun səbəblərini bilmək lazımdır. Hər davranışın arxasında bir istək və qarşısında bir məqsəd var. Məqsədlərə çatmaq üçün insanların ehtiyacları təmin edilməlidir [3].

Təhsilin keyfiyyətinin artırılmasında pedaqoji heyətin motivasiya ilə fəaliyyəti vacib rol oynayır. Motivasiya həm müəllimin, həm də təhsil müəssisəsinin fəaliyyətinə təsir edir. Təhsil müəssisəsində pedaqoji heyəti stimullaşdırmaq istəyən təhsil meneceri işçilərin münasibət və davranışlarını,

istək və ideyalarını, hisslərini, onlara təsir edən daxili və xarici amilləri nəzərə almalıdır.

Pedaqoji heyətin motivasiyasında iki mühüm amil əsas rol oynayır: daxili amil və xarici amil. Şagird və tələbələrin dərsə olan marağı, müəssisə kollektivi və rəhbərlik arasında müsbət münasibətlər, rəhbərliyin öz müəllimlərinə ehtiyac duyduqlarında dəstək olmaları, müəllimə qiymət verilməsi, müəllimlərin şagird və tələbələrin inkişafında yaratdığı fərqin təqdir olunması, təlimin effektiv həyata keçirilməsi üçün təhsil müəssisələrinin otaqlarında kifayət qədər alət və avadanlıqların olması müəllimləri həvəsləndirən və fəaliyyətlərində müsbət irəliləyişlər yaradan əhəmiyyətli xarici amillər hesab olunur [2].

Müəllimlik peşəsindən zövq almaq, tələbələrə sevgi, tələbələrə faydalı olmaq fikri, vətənə, millətə sevgi, güclü məsuliyyət hissinin olması, çətin işlərə nail olmaq istəyi və s. daxili amillərdir.

Ali təhsil müəssisələrində çalışan professor-müəllim heyətinin motivasiyası bir neçə amillərlə bağlıdır:

**Öyrənmək və inkişaf:** Müəllimlər öyrənməyə, yeni məlumatlar öyrənməyə beynəlxalq tədqiqat sahəsində iştirak etməyə maraqlıdırlar. Universitetlərdə tədqiqat layihələri, beynəlxalq və respublika səviyyəli konfranslar və seminarlar kimi tədbirlərlə onların inkişafını dəstəkləyərək bu motivasiyanı artırmağa çalışılmalıdır.

**Tələbələrlə əlaqə:** Müəllimlər tələbələrlə əlaqə qurmaq, onların öyrənmə prosesinə dəstək olmaq və müvafiq sahədə inkişaf etməsinə kömək etmək istəyirlər. Tələbələrlə müntəzəm əlaqə yaratmaq və onların elmi nailiyyətlər qazanmasına kömək etmək və eləcə də, təhsildə nailiyyətlər əldə etmək müəllimlərin işində təsirli olduğunu hiss etmələrini təmin edir.

**Araşdırma və yaratıcılıq imkanları:** Ali təhsil müəssisələrində müəllimlər öz tədqiqatlarını aparır və yaradıcılıqlarını inkişaf etdirmək üçün imkanlar əldə edirlər. Bu, müəllimlərin öz sahələrində istedadlarını göstərmələrini və öz potensiallarını maksimum səviyyəyə çıxarmaq üçün onları stimullaşdırır və elmi fəaliyyətlərini optimallaşdırır.

**Mükafatlandırma və tanıma:** Universitetlər, müəllimlərinin əməkdaşlığı və uğurları üçün müxtəlif həvəsləndirici tədbirlər həyata keçirdir. Bu, onların motivasiyasını artırmaq üçün effektiv bir yollardan biridir.

**Karyera imkanları:** Müəllimlər universitetdə karyera imkanları, əlavə ödənişlər, sıralama və mükafatlar kimi əlavə maddi və mənəvi vasitələrdən istifadə edirlər.

İşlərinə marağı və təcrübələrinin artırılması, onları işə daha da bağlı olmalarına və daha da məsuliyyətli hiss etmələrinə şərait yaradır. Ayrıca, müəllimlərin işlərində uğurlu olmaları və müvəffəqiyyətlərə nail olmaları, öz məqsədlərinə çatmaq üçün əlavə motivasiya verir. Universitetlərdə tərbiyə

işinin təşkili, təlim texnologiyalarının və dərs materiallarının, tədris prosesinin inkişaf etdirilməsi, tədqiqat və yaradıcılıq imkanlarının verilməsi kimi fəaliyyətlər də müəllimlərin motivasiyasını artıra bilər. Son olaraq, mükafatlandırma sistemləri və karyera imkanları da müəllimləri təşviq etməklə yanaşı onların motivasiyasına müsbət təsir edir.

Bütün bu amillər kompleks şəkildə ali təhsil müəssisələrinin professor-müəllim heyətinin təlimin keyfiyyətini yüksəltməsinə kömək edir.

Öyrənənlərin təlimə maraqsız yanaşması, təlim otağında dərs materiallarının və avadanlıqlarının olmaması, müəllimin ailə problemləri, rəhbərliyin laqeydliyi və ya həddən artıq yorucu tələbkarlığı motivasiyanı azaldır, müəllimin iş əmsalını aşağı salır. Səriştəyə əsaslanmayan, əmək bazarında yetərincə rəqabətli olmayan əmək haqqı sistemi və maddi stimullaşdırma mexanizmlərinin adekvat olmaması təhsildə müəllim amilinin inkişafına mənfi təsir göstərə bilir. Bununla yanaşı idarəçinin müəllimlərə yanaşmasında demokratik və ya avtoritar idarəetmə üsullarında istifadəsi işçilərə müsbət və ya mənfi təsir göstərir.

Müəllimlik peşəsinə hörmətin azalması fikri, müəllimlərin yaşadığı emosional problemlər, gördükləri işə inamsızlıqları, müəllimin özünü dəyərsiz hiss etməsi də motivasiyanı azaldan daxili amillərdir.

Müəllimlərin motivasiyasının artmasında və öz işlərində uğurlu olması üçün onların xarici motivasiya mənbələrinin gücləndirilməsində bacarıqlı məktəb rəhbərlərinin olması vacib şərtlərdən sayıla bilər. Bu baxımdan ölkəmizdə təhsil sistemində bir sıra müsbət addımlar atılmışdır. Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyasında üçüncü strateji istiqamət təhsildə nəticələrə görə cavabdeh, şəffaf və səmərəli idarəetmə mexanizmlərinin yaradılmasını nəzərdə tutur. Bu istiqamət təhsil sistemində tənzimləmə və idarəetmənin qabaqcıl beynəlxalq təcrübə əsasında müasirləşdirilməsi, təhsil müəssisələrində nəticəyönümlü və şəffaf idarəetmə modelinin, təhsilin keyfiyyətinin təminatı və idarə olunması üzrə yeni məlumat və hesabat sistemlərinin yaradılması kimi hədəfləri əhatə edir [4].

Mühitin təlim, təhsil və tərbiyə işlərinin səviyyəsinin yüksəldilməsində güclü amillərdən biri olması müəllimlərin yaradıcılığına, yenilikçi olmağına da onun böyük təsiri vardır. Xüsusən gənc müəllim yeni işləməyə başladığı məktəbdə yenilikçi bir mühitlə qarşılaşdıqda, müəllimlərin yeniliyə meylli və yaradıcılıqla məşğul olduğunu gördükdə, belə bir mühit onda da yenilikçi və yaradıcılıq motivlərinin yaranmasına və inkişafına mühüm təsir göstərir. O da özünün qüvvə və bacarığından istifadə edərək yeniliklərdən geri qalmamağa, yenilikçi müəllim kimi fəaliyyətlə məşğul olmağa can atır. Yenilikçi və yaradıcı mühitin səciyyələndiyi başlıca xüsusiyyət müəllimlərin yeni təlim metodlarını, müasir təhsil texnologiyalarını tətbiq etməklə məktəbdə fəal bir

təhsil mühitinin yaradılmasıdır. Müəllimlər yenilikləri izləyir, qabaqcıl təcrübəni öyrənir, tətbiq edir və peşəkarlıqlarını artırmağa çalışırlar [5].

Bilik və bacarıqlarını davamlı artıran müəllimlər təhsilalanların nailiyyətlərinə əlavə töhfə verirlər. Peşəkarlığa əsaslanan stimullaşdırıcı əmək haqqı sisteminin olmaması, təhsil müəssisəsi səviyyəsində idarəetmənin qeyri-effektivliyi, müəllim hazırlığı üzrə infrastrukturun zəif olması müəllimin fəaliyyətinə təsir edən amillər sırasındadır. Bu baxımdan təhsil islahatı uğurla aparılan ölkələrdə müəllim peşəkarlığının inkişafı üçün stimulların yaradılmasına və müəllim hazırlığının təkmilləşdirilməsinə xüsusi diqqət yetirilir.

***Ədəbiyyat***

1. *file:///C:/Users/User/Downloads/Factors_Increasing_Teachers_Motivation_T.pdf*
2. *file:///C:/Users/User/Downloads/Teachers_Background_Factors_and_Its_Rela.pdf*
3. *file:///C:/Users/User/Downloads/Motivation_Factors_of_Teachers%20(1).pdf*
4. *Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası*
5. *İlyasov M.İ. Müəllimin pedaqoji ustalığı. Bakı: Elm və təhsil, 2013.*

**G.Z.Hüseynova**
**Azərbaycan Dövlət Pedaqoji Universiteti**
***gunelhuseyinova9@gmail.com***

# FƏAL COĞRAFİYA DƏRSLƏRİNDƏ ŞAGİRD FƏALİYYƏTİNİN TƏŞKİLİNİN OPTİMAL YOLLARI

***Xülasə***

*"Fəal coğrafiya dərslərində şagird fəaliyyətinin təşkilinin optimal yolları" adlı məqalədə təlimin təşkilinin prinsipləri, sağlam müəllim-şagird münasibətlərinin qurulması, sinfin effektiv şəkildə idarə olunması, düzgün öyrənmə mühitinin yaradılması və bir sıra məsələlərdən bəhs edilir. 9-cu sinif coğrafiya dərsliyi və metodiki vəsaitindən istifadə etməklə şagird fəaliyyətinin optimal təşkili yollarından və bu dərsin təşkil edilməsindən şagirdin qazanacağı bilik, bacarıq və vərdişlərdən bəhs edilir, eləcə də dərslikdəki qrafik-sxem və cədvəllərdən nümunə göstərilir. Təlimin həm dərs həm də dərsdənkənar təşkilati formaları haqqında məlumat verilir. Şagird fəaliyyətinin optimal təşkil edilməsinin şagirdin nəticələrinə təsiri qeyd edilir.*

# ОПТИМАЛЬНЫЕ СПОСОБЫ ОРГАНИЗАЦИИ ДЕЯТЕЛЬНОСТИ УЧЕНИКОВ НА АКТИВНЫХ УРОКАХ ГЕОГРАФИИ

***Резюме***

*В статье «Оптимальные способы организации деятельности учащихся на активных занятиях по географии» рассматриваются принципы организации обучения, построения здоровых взаимоотношений между преподавателем и учениками, эффективного управления классом, создания правильной учебной среды и ряд других вопросов. С помощью учебника географии и методического пособия для 9 класса рассмотрены пути оптимальной организации деятельности учащихся и те знания, умения и навыки, которые учащийся получит от организации данного урока, а также примеры графиков и таблиц в учебном материале. учебник показан. Представлена информация как об учебной, так и о внеклассной организационной форме обучения. Отмечается влияние оптимальной организации студенческой деятельности на результаты обучения.*

# OPTIMAL WAYS OF ORGANIZING STUDENT ACTIVITY IN ACTIVE GEOGRAPHY LESSONS

***Summary***

*The article "Optimal ways of organizing student activity in active geography classes" discusses the principles of organizing training, building healthy teacher-student relationships, effective classroom management, creating the right learning*

*environment, and a number of other issues. Using the 9th grade geography textbook and methodical tools, the ways of optimal organization of student activities and the knowledge, skills, and habits that the student will gain from the organization of this lesson are discussed, as well as examples of graphs and tables in the textbook are shown. Information is provided about both the curricular and extracurricular organizational forms of training. The effect of the optimal organization of student activity on the student's results is noted.*

***Açar sözlər:*** *kurikulum, fəal dərs, dialoji təlim, müəllim-şagird münasibətləri, fasilitator*

***Ключевые слова:*** *учебная программа, активный урок, диалогическое обучение, отношения учитель-ученик, фасилитатор*

***Key words:*** *curriculum, active lesson, dialogic learning, teacher-student relationship, facilitator*

Müasir təhsil sistemi demokratik humanist prinsiplər üzərində qurulur. Ölkəmizdə ilk dəfə olaraq tələbyönümlü kurikulumlar hazırlanmışdır. Kurikulum sistemi tətbiq edilməzdən əvvəl müəllim dərsi avtoritar ünsiyyət əsasında qururdu. Müəllim ev tapşırıqlarını yoxlayır, köhnə dərsi soruşur, yeni dərsi izah edir, qiymətləndirmə edib ev tapşırığı verib dərsi yekunlaşdırırdı. Dərsin məqsədi əzbər xarakter daşıyırdı. Lakin müasir dövrdə bu tip dərs şagirdlərin tələbatını ödəmir. Yeni nəsil daha çox araşdıraraq öyrənir və öyrəndiklərini tətbiq etməklə biliklərini bacarığa çevirirlər.

Azərbaycanda hazırlanmış kurikulumlar təhsilin məqsədini, məzmununu, təlim strategiyasını, qiymətləndirmə mexanizmlərini əhatə edir. Müasir dövrdə tədris şagirdlə yanaşı valideynlərin də tələbatlarına və istəklərinə uyğun qurulur.

Şagird fəaliyyətinin optimal təşkili üçün bir sıra məsələlər qarşılıqlı olaraq aparılmalıdır. Bunlar müəllim-şagird münasibətlərinin sağlam qurulması, dərsin şagirdin yaş və psixologiyasına uyğun olması, fəal iş üsullarından və iş formalarından geniş istifadə edilməsi, təlimin təşkili prinsiplərinin nəzərə alınması dərsin təkcə sinif daxilində yox, həmçinin sinif xaricində də keçirilə bilməsi nəticəsində əqli və praktiki fəaliyyətlərini formalaşdırmasına yönəlməlidir.

***Fəal təlim aşağıdakı prinsiplər əsasında qurulur:***

1. Dialoji təlim prinsipi hər bir şagirdin fəaliyyətə cəlb edilməsini, potensial imkanlarının üzə çıxarılmasını təmin edir;
2. Şəxsiyyətə yönəlmiş təlim şagirdin şəxsiyyətinin inkişaf etdirilməsi uğruna onun maraqlarına uyğun qurulmasıdır;
3. Fəal idrak prinsipi şagird idrakının inkişaf etdirilməsinə yönəlməsidir;

4. Qabaqlayıcı təlim prinsipi şagirdin real həyata hazırlanması, müasir dövrün durmadan dəyişən tələblərinə ayaq uydurması məsələsini qarşıya qoyur;

5. İnkişafetdirici təlim prinsipi şagirdin potensial imkanlarının formalaşdırılması məsələsini qarşıya qoyur;

6. Əməkdaşlıq prinsipi "müəllim-şagird", "şagird-şagird" münasibətlərinin sağlam qurulmasını qarşıya qoyur"

7. Çeviklik prinsipi şagirdlərin dövrün dəyişən tələbləri nəzərə alınmaqla təlim-tərbiyə prosesinin təşkil edilməsini, təlim texnologiyalarının sistematik olaraq seçilməsi və təzələnməsi məsələsinə üstünlük verilir.

***Müəllim şagird münasibətlərinin qurulması.***

Müəllim-şagird münasibətləri xüsusi həssaslıqla yaradılmış sinif mühitində qarşılıqlı hörmət və əməkdaşlıq əsasında qurulmalıdır. Nəzərə alsaq ki, müasir dövrdə məlumat mənbələri, internet resurslarından istifadə imkanları genişlənmişdir və eləcə də şagird diqqətini cəlb etmək nisbətən çətinləşmişdir.

Ənənəvi tədrisdə şagirdin məlumat mənbələri müəllim, dərslik və başqa mənbələr idi. Müasir dövrdə isə bu mənbələr hədsiz genişlənmişdir. Şagirdlər internet resurslarından, ensiklopediyalardan, məqalələrdən, elmi-tədqiqat nəticələrindən istifadə edə bilərlər. Öyrənmə mühiti təkcə sinif yox, sinifdənxaric də ola bilər, məsələn, səyahətlər, ekskursiyalar, muzeylər, sərgilər və s.

Fəal təlimin təşkili formalarının əsası dərsin təşkil edilməsidir. Dərs standart və qeyri-standart formada təşkil edilə bilər. Şagird fəaliyyətinin optimal təşkil edilməsi üçün standart dərslərlə yanaşı bəzən yarış dərslər, işgüzar oyunlar, rollu oyunlar və s. bu kimi qeyri-standart şəkildə keçirilməsi mümkündür, amma bu o demək deyil ki, bütün dərslər bu sistemlə keçirilməlidir. Səbəb həm bu tip dərslərin çox vaxt aparması, yüksək səviyyədə əmək sərf edilməsi, bəzən yorucu olmasıdır. Həmçinin şagirdlərdə yüksək nəticənin əldə edilməsi məqsədi daşımadığı üçün hər dərsin qeyri-standart formada keçirilməsi effektiv olmayacaqdır.

Şagird fəaliyyətinin optimal təşkili motivasiya mərhələsindən başlayır. Motivasiya şagirdin diqqətini cəlb etməli, əsasən açıq tipli suallarla müraciət edilməli "probemli vəziyyət" yaradılmalıdır. Qeyri-adi, diqqət cəlbedici, fəaliyyətə sövqedici olmalı, şagirdin idrakını fəallaşdırmalı, yaradıcı düşüncəsini formalaşdırmalıdır.

***Bəs düzgün öyrənmə mühiti necə qurulmalıdır?***

- Şagirdin öyrənmə xüsusiyyəti, bacarıqları nəzərə alınmalıdır;
- Şagird öyrənmə məqsədini aydın başa düşməlidir;
- Resurslardan, texnologiyalardan və digər vasitələrdən düzgün istifadə edilməlidir;
- Şagirdlə düzgün ünsiyyət qurulmalıdır;

- Rəy verərkən mənfi mənalı ifadələr yerinə şagirdi inkişafa sövq edən ifadələrdən istifadə edilməlidir və rəy gələcəyə yönəlməlidir;
- Sinif otağına düzgün gözlənti, prosedur və qaydalar tərtib edilməlidir;
- Şagird fəaliyyətinin optimal təşkili üçün qapalı suallardan çox açıq tipli suallara yer verilməlidir və sualların çətinlik səviyyəsinə əsasən vaxt düzgün təyin edilməlidir;
- Sinif birgə öyrənmə mədəniyyəti əsasında qurulmalı, şagirdlərin bir-birinə rəy vermə bacarığı inkişaf etdirilməlidir;
- Şagirdin əldə etdiyi uğurlarının müsbət qiymətləndirilməsi ilə yanaşı uğursuzluqlarının da qiymətləndirilməsi lazımdır.




9-cu sinif coğrafiya dərsliyində "Günəş işığı və istiliyinin Yer kürəsində paylanması" mövzusunda fəaliyyət hissəsində verilmiş tapşırıqlar şagirdlərdə diaqram üzərində iş, şəkil üzərində, xəritə üzərində iş, günəşin düşmə bucağının, eləcə də düşmə bucağına əsasən yamacın meylliliyinin hesablanması məsələlərinin həlli bacarıqlarını şagirdlərdə formalaşdırır.

**Şəkil üzrə iş**

Şəkildə təsvir edilən dağ 40° şimal en dairəsində yerləşir və günün günorta vaxtıdır.

**Müzakirə edin:**

1. A və B nöqtələri müvafiq olaraq dağın hansı yamacında yerləşir?
2. Hansı yamacda yazda qar örtüyü daha tez əriyir?




**1. Sentyabrın 23-də verilən şəhərlərdə vaxta uyğun olaraq Günəşin göründüyü və kölgələrin düşdüyü istiqaməti müəyyən edin:**

| Günün vaxtı / Şəhərlər | Saat 10:00 | | Saat 12:00 | | Saat 16:00 | |
|---|---|---|---|---|---|---|
| | Günəş | Kölgə | Günəş | Kölgə | Günəş | Kölgə |
| Bakı | | | | | | |
| Sidney | | | | | | |
| İstanbul | | | | | | |
| Qahirə | | | | | | |
| Braziliya | | | | | | |

Şagirdlərə günəş radiasiyası, onun növləri, Yer kürəsində paylanması haqqında məlumat verilir. Şagirdlərin planetin orbit xətti boyunca və öz oxu ətrafında hərəkətinin səbəb və nəticələrinə dair nəzəri və praktiki bilikləri dərinləşdirilir. Onlar günün uzunluğunun hesablanması, qurşaq vaxtının, günəş şüalarının düşmə bucağının təyini, yer səthinə gələn və ondan əks olunan günəş radiasiyasının miqdarının təyin edilməsinə dair praktik vərdişlərə yiyələnirlər.

Fəal təlimdə dərslərlə yanaşı, digər formalardan da istifadə olunur. Bunlara seminar məşğələlərini, praktikumları, ekskursiyaları, fakültətiv məşğələləri, əlavə məşğələlər və məsləhətləri, ev tapşırıqlarını, təlimin sinifdənxaric formalarını göstərmək olar. Bütün bunlar təlimin əsas forması olan dərslə bərabər və əlaqəli şəkildə həyata keçirilməlidir.

Sinfin effektiv şəkildə təşkil edilməsi həm şagirdin akademik uğurlarının yüksək olmasına, həm bacarıqlarının formalaşmasına, həm də sağlam psixoloji mühitdə öyrənməsinə səbəb olur. Təlim hər şeydən əvvəl, şagirdləri elm ilə dərindən silahlandırmağa, əqli və praktiki fəaliyyətlərinin inkişafı üçün bilik, bacarıq və vərdişlərə yiyələnmələrinə xidmət edir.

***Ədəbiyyat***

1. *9-cu sinif Coğrafiya dərsliyi.*
2. *9-cu sinif Coğrafiya metodiki vəsait.*
3. *Oqtay Alxasov Coğrafiyanın tədrisi metodikası.*
4. *Zülfiyyə Veysova - Fəal/interaktiv təlim.*
5. *TAİM - Kurikulum, metodika və pedaqogika, 2024.*
6. *https://muallim.edu.az/news.php?id=5988*

**N.R.Mirzəyeva**
**Azərbaycan Dövlət Pedaqoji Universiteti**
***hasanlinarminr@gmail.com***

# XARİCİ DİL DƏRSLƏRİNDƏ UĞURLU DƏRS PLANININ TƏRTİBİ

***Xülasə***

*Xarici dil dərslərində dərsi planlaşdırma olduqca vacibdir. Dərs planları hər bir müəllim tərəfindən fərqli formada tərtib olunur. Demək olar ki, heç bir dərs planı eyni olmur. Uğurla tərtib edilmiş hər bir dərs planı müəllim və tələbə üçün uğurlu tədris deməkdir. Bunun üçün bəzi məqamlar vardır ki, müəllim dərs planını hazırlayarkən bu məqamları nəzərə almalıdır. Həmin məqamlar dərs planının tərtibində müəllimlər üçün bir yol göstəricisidir. Beləliklə, müəllim dərsi planlaşdırarkən təkcə dərsin strukturunu deyil həmçinin, tələbələrin maraq və istəklərini də nəzərə almalıdır. Müəllim planı tərtib edərkən diqqətli olsa və mühüm xüsusiyyətləri nəzərə alsa, uğurlu bir dərs planı alınacaqdır.*

# РАЗРАБОТКА УСПЕШНОГО ПЛАНА УРОКА НА УРОКАХ ИНОСТРАННОГО ЯЗЫКА

***Резюме***

*Планирование урока очень важно на уроках иностранного языка. Планы уроков составляются каждым учителем в разной форме. Почти ни один план урока не похож на другой. Каждый успешно разработанный план урока означает успешное обучение как для учителя, так и для ученика. Для этого есть некоторые моменты, которые учитель должен учитывать при составлении плана урока. Эти пункты являются руководством для учителей при составлении плана урока. Таким образом, при планировании урока учителю следует учитывать не только структуру урока, но также интересы и пожелания учащихся. Успешный план урока будет получен, если учитель будет внимателен при составлении плана и учтет важные особенности.*

# DEVELOPING A SUCCESSFUL LESSON PLAN IN FOREIGN LANGUAGE LESSONS

***Summary***

*Lesson planning is very important in foreign language classes. Lesson plans are prepared by each teacher in a different form. Almost no lesson plan is the same. Every successfully designed lesson plan means successful teaching for teacher and student. For this, there are some points that the teacher should take into account when preparing the lesson plan. Those points are a guideline for teachers in the preparation of the lesson plan. Thus, when planning a lesson, the teacher should take into account*

*not only the structure of the lesson, but also the interests and wishes of the students. A successful lesson plan will be obtained if the teacher is careful when designing the plan and takes into account the important features.*

***Açar sözlər:*** *xarici dil dərsi, dərs planı, tədris, tədrisin təşkili, uğurlu dərs planı*

***Ключевые слова:*** *урок иностранного языка, план урока, преподавание, организация обучения, успешный план урока*

***Key words:*** *foreign language lesson, lesson plan, teaching, organization of teaching, successful lesson plan*

Keyfiyyətli dərs planlarının yaradılması həm yeni müəllimlər, həm də təcrübəli müəllimlər üçün vacibdir. Düzgün tərtib edilmiş dərs planları dərsləri daha maraqlı edə, dərsi daha yaxşı təşkil etməyə kömək edə və tələbələrin öyrənməsini daha da təkmilləşdirə bilər.

Dərs planı dərsin strukturunu ehtiva edir. Dərs planları vacibdir, çünki onlar hər bir dərs üçün müəyyən bir tərkib və məqsəd yaradır. Yaxşı tərtib olunmuş dərs planı müəllimlər üçün sanki xəritəyə bənzəyir, onlara hər dərs üçün açıq bir məqsəd və düzgün istiqamət verir. Dərs planı olmadan müəllimlər materialdan yan keçə və ya daha da pisi, vacib məqamları tamamilə unuda bilərlər. Müəllimlər hər dərsi planlaşdırmaq üçün vaxt ayırdıqda, tələbələrin arxayın və səmərəli öyrənməsini təmin edə bilərlər. Bir çox müəllimlər hesab edirlər ki, dərs planı onlara tədris zamanı lazım olan yön də verir. Onların aydın bir yol xəritəsi olduqda, onlar çarpaz əlaqələr və ya digər diqqəti yayındıran amillərdən qaça bilərlər. Bu struktur proqnozlaşdırıla bilən və ardıcıl mühit yaratmaqla, tələbənin öyrənməsinə də müsbət təsir göstərə bilər.

Yaxşı dərs planı təkcə strukturu və istiqaməti təmin etmir, həm də müəllimlərə hər dərsdə nəyə nail olmaq istədikləri barədə fikir verir. Dərsin məqsədini aydın şəkildə ifadə etməklə müəllimlər vaxtlarından mümkün qədər səmərəli istifadəni təmin edə bilərlər. Bu, tələbələrə materialı daha səlis mənimsəməyə və daha çox məlumatı uzun müddətdə saxlamağa imkan verir [3, s.11].

Dərs planı müəllimlərin daha mütəşəkkil və hazırlıqlı olmasına kömək edir. Müəllimin uğurunda mühüm amil düzgün təşkilatçılıq və hazırlıqdır. Hərtərəfli dərs planı ilə müəllimlər hər bir dərs üçün hazırlıqlı olduqlarından əmin ola bilərlər. Müəllim dərsə hərtərəfli hazır olduqda materialları, tələbələrin irəliləyişini, dərsin gedişatını rahatlıqla izləyə bilir. Əlavə olaraq hazırlıqlı olan müəllim öz vaxtını səmərəli və effektiv istifadə edir. Buna görə də yaxşı hazırlanmış və mütəşəkkil müəllimlər öz tələbələrinə yüksək keyfiyyətli təlim verə bilirlər.

Dərs planı dərsi əvəz edən müəllim üçün faydalı bələdçi ola bilər. Dərsi əvəz edən müəllimlər çox vaxt sinfi, məktəbi, dərsin mövzusunu, sinifdəki tələbələri və hətta ola bilər ki, sinifdə tədris edən müəllimi tanımırlar. Hərtərəfli olan dərs planı əvəzedici müəllim üçün böyük kömək ola bilər. Həmin müəllimlərin tam gün və ya hətta bir neçə gün ardıcıl olaraq məktəbə təyin olunması qeyri-adi hal deyil, bu da onların vaxtlarını müxtəlif dərsləri tədris etməklə doldurmalı olduqlarını bildirir. Bu hallarda, dərslərin necə getdiyi və ya hansı mövzuların digərlərinə nisbətən daha ətraflı əhatə olunduğu barədə öz həmkarlarından əlavə məlumat almasalar, hər sinifdə tədrisi necə davam etdirəcəyini bilmək çətin ola bilər. Təfərrüatlı dərs planı müəllimləri aylar, hətta illər ərzində tədris müddətində nələr keçəcəkləri ilə təmin etmiş olmur.

Dərs planı müəllimlərə fikri yayındırmamağa və ya fikir dağınıqlığı yaranıbsa, tez bir zamanda bunu idarə etməyə kömək edir. Sinifdə bir çox şey müəllimin diqqətini yayındıra bilər. Müxtəlif səbəblərdən dərsdə planlaşdırılmış fəaliyyətlər ardıcıllıqla davam etməyə bilər. Əgər hər hansı bir səbəbdən dərs plana uyğun getmirsə, yenidən plana qayıtmaq çətin ola bilər. Bu o deməkdir ki, planlar son anda dəyişə bilər. Belə olduqda müəllim diqqətli olmalıdır ki, plana yenidən qayıtdıqda qarışıqlıq olmasın. Bir çox amillər müəllimin öz dərs planında stabil qalmasını çətinləşdirə bilər. Ancaq bunun da öhdəsindən gəlmək üçün bir çox yollar var. Bunun bir yolu taymerdən istifadə etməkdir. Dərsin hər bölməsi üçün taymerdən istifadə etmək və o sönəndə növbəti işə keçmək vaxtı daha rahat idarə etməyə köməkçi ola bilər. Bu, müəllimləri plandan kənara çıxmamağa və onları dərsin hər bir hissəsi üçün nə qədər vaxt ayırmalı olduğunu bilməyə köməklik göstərir. Başqa bir yol ehtiyat planın olmasıdır. Əgər dərsi yayındıran bir şey ortaya çıxarsa, ötürülən dərs üçün başqa bir dərs təyin etmək uyğun ola bilər. Beləliklə, həm müəllim tədrisi yarım qoymur, həm də tələbələr lazım olan bütün materialı əldə etmiş olurlar. Son yol çevik olmaqdır. Dərs zamanı nəzarət edə bilmədiyiniz məsələlər baş verərsə, onları tənzimləməyə çalışmaq lazımdır. Bu bəzən çətin ola bilər, amma yadda saxlamaq lazımdır ki, hər şey həmişə plana uyğun getməyə bilər. Əgər müəllimlər bunları yadda saxlaya bilərsə, onlar hər zaman plan üzərində rahat irəliləyə bilərlər [2, s.21].

Hər bir dərs planı müəllimlərə dərslərini daha yaxşı idarə etməyə kömək olur. İstənilən müəllim deyə bilər ki, onların işinin ən çətin tərəflərindən biri atdıqları addımın sürətidir. Müəllimlər nisbətən qısa müddət ərzində böyük miqdarda məlumat ötürməli və bunu tələbələri maraqlandıran şəkildə etməlidirlər. Belə olduqda onların köməyinə yaxşı tərtib olunan dərs planı gəlib çatır. Xüsusilə mürəkkəb bir mövzunun tədrisi zamanı, bu faydalı ola bilər.

Bundan əlavə, dərs planı müəllimə öz addımlarını izləməyə və materialın üzərində çox tez və ya çox yavaş işləmədiklərinə əmin olmağa kömək edə bilər. Dərs planları öz tədrisində effektiv olmaq istəyən müəllimlər üçün mühüm vasitədir.

Yeni müəllim və ya təcrübəli pedaqoq olmağınızdan asılı olmayaraq, dərsin planlaşdırılması işinizin vacib hissəsidir. Yaxşı işlənmiş dərs planı sizə mütəşəkkil olmağa, vaxta qənaət etməyə və tələbələrin fəal öyrənən olmasını təmin etməyə kömək edər.

Dərs planı sinifdə aparılan müzakirələr və debatlar üçün bir vasitəçi ola bilər.

Müəllimlərin planı və konkret məqsədləri olduqda, onlar sinifdə aparılan mövzunu daha yaxşı istiqamətləndirə və nəzarət edə bilərlər. Plan olmadan, müzakirə qarışıq və səmərəsiz ola bilər. Bunun əksinə olaraq, yaxşı qurulmuş dərs planı müzakirəni davam etdirməyə və daha dərindən başa düşməyə kömək edə bilər.

Bundan əlavə, dərs planı müəllimlərə tələbələrini yaxşı debat mövzuları ilə təmin etməyə kömək olur. Yaxşı idarə edildikdə, müzakirələr və debatlar canlı, fəal və cəlbedici olur və bütün iştirakçılar üçün əla öyrənmə fürsəti yaradır.

Dərs planı hər bir başlanğıc nöqtəsi kimi istifadə edilə bilər. Yaxşı işlənib hazırlanmış dərs planı uğurlu öyrənmə təcrübəsi üçün vacibdir, çünki o, həm müəllimləri, həm də tələbələri istiqamətləndirmək üçün yol xəritəsini təmin edir. Dərs planları gələcək tədqiqatlar üçün mühüm başlanğıc nöqtəsi ola bilər. Müəllimlər dərsin məqsədlərini aydın şəkildə ifadə etdikdə, bilik və anlayışlarındakı boşluqları daha asanlıqla müəyyən edə bilərlər. Bu, onlara öz tədqiqatlarını, tədrislərini təkmilləşdirmək üçün lazım olan məlumat və resurslara yönəltməyə imkan verir.

Tələbələr həmçinin dərs planlarından tədqiqat layihələri üçün başlanğıc nöqtəsi kimi istifadə edə bilərlər. Müəyyən bir dərsdə əhatə olunacaq əsas anlayışları və bacarıqları aydın şəkildə müəyyən etməklə, tələbələr müvafiq məlumat və resursları daha asan tapa bilərlər. Beləliklə, dərs planları müəllimlərin və tələbələrin ətrafdakı dünyanı daha yaxşı dərk etmək səylərinə dəstək olmaqda mühüm rol oynayır.

Dərs planı həmçinin tələbələr arasında tənqidi təfəkkürün stimullaşdırılmasına kömək edir. Hər bir müəllimin bildiyi kimi, müvəffəqiyyətli tədris üçün dərs planları vacibdir. Dərs planı yalnız mövzuların hansı ardıcıllıqla tədris edilməsini deyil, həm də tələbələrin bacarıq və qabiliyyətlərini nəzərdə tutur. Plan tələbələrin tənqidi təfəkkürünə təkan verməsinin mühüm yollarından biri onları material haqqında düşünməyə təşviq edən xüsusi suallar və ya tapşırıqlardır. Tələbələrdən sadəcə olaraq müəyyən bir mövzu haqqında bildikləri faktları sadalamağı tələb etmək əvəzinə,

məsələn, dərs planı onlardan bu faktların müxtəlif şərhlərini nəzərdən keçirməyi və ya hadisələrin necə fərqli ola biləcəyi barədə fərziyyə irəli sürməyi tələb edə bilər. Dərs planları öyrənməni bu şəkildə strukturlaşdırmaqla tələbələrə həm sinif daxilində, həm də sinifdən kənarda faydalı olacaq tənqidi düşünmə bacarıqlarını inkişaf etdirməyə kömək edə bilər [3, s.12].

Dərs planı tələbələri material haqqında mühüm suallar verməyə yönləndirə bilər. Dərsin məqsədlərinə uyğun sualları diqqətlə formalaşdırmaqla müəllimlər tələbənin öyrənməsini təşviq edə və bütün tələbələrin materialla məşğul olmaq imkanının əldə edilməsini təşkil edə bilərlər. Bundan əlavə, sualların verilməsi öyrənmə prosesinin vacib hissəsidir, çünki bu, tələbələrə öz bilikləri üzərində düşünməyə və onların anlayışlarındakı boşluqları aşkar etməyə imkan verir. Sualların verilməsi həm də tənqidi düşüncəni inkişaf etdirir və tələbələri müxtəlif perspektivləri kəşf etməyə təşviq edir. Tələbələri suallar verməyə təşviq etməklə, dərs planları öyrənmənin təşkilində mühüm rol oynaya bilər.

Nəhayət, dərs planları tələbələrinin istər tədris ərzində, istərsə də tədrisdən kənar uğur qazanmasını təmin etmək istəyən hər bir müəllim üçün mühüm vasitədir.

Tələbələrin özlərinin başa düşməsini qiymətləndirməyə kömək etməklə, müəllimlər bütün tələbələrin öyrənmək və inkişaf etmək imkanının olmasında mühüm rol oynayırlar.

***Ədəbiyyat***

1. *Harmer, J. (2001). The practice of English language teaching. Harlow: Pearson Education. Chapter 22.*
2. *Savage, J. (2015). Lesson planning: key concepts and skills for teachers. London and New York: Routledge.*
3. *Ullman, E. (2011). How to plan effective lessons. Education Update, 53(10).*
4. *Haynes, A. (2010). The complete guide to lesson planning and preparation. New York: Continuum International Publishing Group.*
5. *https://ioannanifli.wordpress.com/2021/08/31/lesson-planning-and-its-importance-to-effective-language-teaching/*
6. *https://edulearn2change.com/article-effective-lesson-planning-procedures-and-tips/*

**S.X.Heybətova**
**Azərbaycan Dövlət Pedaqoji Universiteti**
***seriyyeh19@mail.ru***

# İBTİDAİ SİNİFLƏRDƏ DƏRSƏ VERİLƏN MÜASİR TƏLƏBLƏR

***Xülasə***

*Sosial inkişafın indiki mərhələsi ibtidai təhsilə yeni tələblər qoyan bir sıra xüsusiyyətlərlə səciyyələnir. Əvvəllər ənənəvi vəzifə şagirdə onun sosiallaşması və cəmiyyətdə səmərəli iştirakı üçün zəruri olan müəyyən miqdarda bilik, bacarıq və vərdişlərin verilməsindən ibarət idi. Müasir dövrdə təhsilin vəzifəsi şəxsiyyətin inkişafına, şagirdlərdə elə keyfiyyət və bacarıqların formalaşmasına yönəldilmişdir ki, gələcəkdə ona nəyisə müstəqil öyrənməyə, yeni fəaliyyət növlərini mənimsəməyə və nəticədə həyatda uğur qazanmağa imkan verməlidir.*

# ТРЕБОВАНИЯ К СОВРЕМЕННОМУ УРОКУ В НАЧАЛЬНЫХ КЛАССАХ

***Резюме***

*Современный этап общественного развития характеризуется рядом особенностей, предъявляющих новые требования к начальному образованию. Раньше традиционной задачей было дать ученику определенный объем знаний, умений и навыков, необходимых для его социализации и эффективного участия в жизни общества. В современное время задача образования ориентирована на развитие личности, формирование у учащихся таких качеств и умений, которые в будущем должны позволить им учиться чему-то самостоятельно, осваивать новые виды деятельности и, как следствие, добиваться успеха в жизнь.*

# REQUIREMENTS FOR THE MODERN LESSON IN PRIMARY CLASSES

***Summary***

*The current stage of social development is characterized by a number of features that impose new requirements on primary education. Previously, the traditional task was to provide the student with a certain amount of knowledge, skills and habits necessary for his socialization and effective participation in society. In modern times, the task of education is focused on the development of personality, the formation of such qualities and skills in students that in the future should allow them to learn something independently, master new types of activities and, as a result, succeed in life.*

***Açar sözlər:*** *ibtidai sinif, müasir dərs, tələblər, təkmilləşdirmə yolları, dərslərin formaları*

***Ключевые слова:*** *начальный класс, современный урок, требования, пути совершенствования, формы уроков*

***Key words:*** *primary class, modern lesson, requirements, ways of improvement, forms of lessons*

Məktəb illəri şagirdləri həyata və məhsuldar işə hazırlamağa imkan verir. Bunun üçün müəllimlər tədris prosesini və dərsi elə təşkil etməlidirlər ki, şagirdlərin yeni biliklərin mənimsənilməsinə və praktikada səmərəli istifadəsinə yönəlmiş müstəqil yaradıcı işə tam cəlb olunmasını təmin edə bilsinlər. Nəticədə, aşağıda qeyd olunan tələblərə cavab vermək üçün təlimlər təşkil edilməlidir:

- şagirdlərə öyrənilən materialı şüurlu, möhkəm və dərindən mənimsəmək imkanı vermək;
- şagirdlərdə həyata hazırlaşmağa kömək edən güclü bilik və bacarıqlar yaratmaq;
- fənlərin tədrisinin pedaqoji təsirini artırmaq, şagirdlərdə müəyyən şəxsiyyət xüsusiyyətlərinin formalaşmasına kömək etmək;
- şagirdlərin çoxşaxəli inkişafına, xarakter və qabiliyyətlərinin təkmilləşdirilməsinə töhfə vermək;
- şagirdlərdə sabit xarakter xüsusiyyətləri kimi müstəqil yaradıcılığa və təşəbbüsə meyil, habelə həyatda qarşılaşdıqları problemlərin həllinə qeyri-ənənəvi yanaşma bacarığı yaratmaq;
- müstəqil öyrənmək, yeni biliklərə yiyələnmək və mövcud bilikləri dərinləşdirmək, ədəbi mənbələrlə işləmək, o cümlədən zəruri bacarıqlara yiyələnmək və onlardan praktiki fəaliyyətdə sərbəst istifadə etmək vərdişlərini inkişaf etdirmək;
- şagirdlərdə öyrənmə motivasiyası yaratmaq, idrak fəaliyyətinə marağı öyrənmək, yeni biliklər əldə etmək istəyini artırmaq, həmçinin onlarda təlim haqqında müsbət təsəvvür yaratmaq [1, s.158].

Dərs prosesində sinif fəaliyyətinin əsas istiqamətləri aşağıdakılardır:

1. **Müəllim və şagirdlərin dərsdə məqsədyönlü işinin gücləndirilməsi.** Müəllimin mühüm məqsədlərindən biri dərs zamanı şagirdləri fəal zehni işə cəlb etməkdir. Bu məqsədə tez və effektiv şəkildə nail olmaq üçün hər bir dərsi diqqətlə planlaşdırmalı, xüsusən də dərsin strukturunu təsvir etməli, cari məsələlərə daha yaxşı cavab verən optimal metodları və təlim vasitələrini seçməlidir.

2. **Bütün dərslərdə təlim vaxtından səmərəsiz istifadəyə yol verilməməsi.** Tənəffüs zamanı dərs zamanı tələb olunan əyani vəsaitlər, məlumat kitabçaları və kitablar hazırlanmalı, dərs masalarına düzülməlidir.

Bundan əlavə, şagirdlər üçün maraqlı tapşırıqlar verilə bilər, bununla da onları sinifdə fəal işləməyə həvəsləndirmək mümkündür. Şagirdlər üçün dərs zamanı frontal sürətləndirilmiş testin müxtəlif üsullarından - yazılı testlər, kartlar, vərəqlər - anketlərdən istifadə etmək məqsədəuyğundur.

3. **Şagirdlərin idrak təşəbbüsünün və yaradıcılıq fəallığının artırılması.** Sinifdə təlim texnologiyası vasitələrindən istifadənin incəlikləri şagirdlərin idrak təşəbbüsünü artıran problemli situasiyaların qurulması üsulları ilə əlaqədardır. O cümlədən, materialın, faydalı bilik və bacarıqların mənimsənilməsinə kömək edir. Bundan əlavə, şagirdlər dərsliklər və xüsusi ədəbiyyat: lüğətlər, məlumat kitabçaları, həmçinin cədvəl, diaqrammatik və ya kartoqrafik formada təqdim olunan qrafiklər və məlumatlarla müstəqil iş aparmalıdırlar.

4. **Pedaqoji prosesin optimallaşdırılması.** Təhsil müəssisəsinin imkanlarını və müəyyən sinfin ehtiyaclarını nəzərə alaraq, məhdud təlim vaxtında təhsil problemlərini daha effektiv şəkildə həll etməyə imkan verən təhsil prosesinin qurulmasının optimal yolunun seçilməsi mütləqdir.

5. **Subyektdaxili və fənnlərarası əlaqələrin həyata keçirilməsi.** Yeni materialı öyrənərkən şagirdləri materialın mənimsənilməsində əsas rol oynayan əvvəlki (əsas) bilikləri yeniləmək və daha da gücləndirmək məqsədilə tapşırıqlar həll etməyə sövq etmək lazımdır. Şagirdlər bu cür bilikləri təlim zamanı və ya fərdi tədqiqatların bir hissəsi kimi, müəyyən fənni və ya əlaqəli fənləri tədris edərkən əldə edirlər. Onların siyahısına terminlər, təriflər, müxtəlif düsturlar, tədris materialını tam başa düşməyə və mənimsəməyə imkan verən anlayışlar daxil ola bilər. Bununla belə, əsas biliklərin yenilənməsi ilə yanaşı, onun təkmilləşdirilməsi də eyni vaxtda baş verməlidir: qeyri-kafi və ya səthi biliklər olduqda, o, əlavə olunmalı və dərinləşdirilməli, dar biliklər genişləndirilməli, yanlış biliklər düzəldilməlidir. Fənlərarası əlaqələrin həyata keçirilməsi şagirdlərin əldə etdikləri biliklərin ümumiləşdirilməsinə və sistemləşdirilməsinə kömək edir. Xüsusilə, fənlərarası əlaqələr bir neçə məktəb fənləri çərçivəsində müxtəlif aspektləri öyrənilən obyektlər haqqında sistemli bilikləri tam öyrənməyə imkan verir [3, s.49].

Təlimin başlanğıcı əsas mərhələdir. Bu proses şagirdlərin "işgüzar ruhu"nu formalaşdırmağa imkan verir. Bu mərhələnin məqsədlərinə aşağıdakılar daxildir:

- şagirdlərdə düzgün psixoloji münasibətin formalaşdırılması;
- sinifdə lazımi müsbət atmosferin yaradılması [3, s.50].

Biliklərin yenilənməsi mərhələsində şagirdlərin yeni bilikləri "kəşf etməyə" imkan verəcək bilik və bacarıqları təkrarlanır. Burada şagirdlərə koqnitiv çətinlik yaradan tapşırıqlar verilir. Şagirdlər müəllimin dəstəyi ilə hansı konkret biliklərin çatışmadığını və tapşırığı uğurla həll etmək məqsədilə

nə etmək lazım olduğunu öyrənməlidirlər. Dərsin bu mərhələsində müəllim aşağıdakı üsullardan biri ilə problemli vəziyyət yarada bilər:

- şagirdlərə yalnız dərs mövzusunu tam mənimsədikdən sonra həll oluna bilən tapşırıqlar vermək;
- seçilmiş dərs mövzusunun nəzəri və praktiki əhəmiyyəti haqqında danışmaq və ya müzakirə etmək [2, s.29].

Dərsin bu mərhələsinin əsas məqsədi şagirdlərdə düzgün emosional əhval-ruhiyyə formalaşdırmaq, onları yeni mövzunun uğurla öyrənilməsinə hazırlamaq, öyrənilən materialın mənimsənilməsini artırmaqdır. Aktuallaşdırma mərhələsinə dərsin mövzusu üzrə mühüm sualların qoyulması və problemli vəziyyətlərin yaradılması daxildir. Məqsəd təlim prosesinin əvvəlcədən planlaşdırılmış nəticəsidir. Məqsədləri təyin etməzdən əvvəl müəllim aşağıda qeyd olunanları icra etməlidir:

- mövcud təhsil standartının və təlim proqramının şərtlərinin hərtərəfli öyrənilməsi;
- şagirdlərin idrak fəallığını artırmaq üçün planlaşdırılmış dərs mövzusu çərçivəsində bilik və bacarıqlar sisteminə tələblərin öyrənilməsi;
- şagirdin öyrənməli olduğu təlim fəaliyyətinin metodlarının seçilməsi;
- təlimi müvəffəqiyyətlə başa vurmaq üçün şagirdin şəxsi motivasiyasını gücləndirməyə kömək edən təlimatların müəyyən edilməsi [2, s.36].

Məqsədi formalaşdırdıqdan sonra o, təlim metodları və vasitələrini, tədris prosesinin məzmununu, həmçinin şagirdlərin həyata keçirdikləri fərdi işlərin formatını seçərkən təlimata çevrilir.

Tədris məqsədlərini 3 kateqoriyaya bölmək olar:

- təhsil (təlim, maarifləndirmə);
- inkişaf;
- tərbiyə [5, s.66].

Təlim məqsədləri aşağıdakıları əhatə edir:

- şagirdlərə sistemli biliklər, habelə ümumi təhsil almağa və digər məktəb fənlərini, praktikada tətbiq olunan bacarıqları öyrənməyə imkan verən faydalı bacarıqların ötürülməsi;
- tədris olunan fənlər çərçivəsində şagirdlərdə müstəqil öyrənmək və onlarda idrak fəaliyyətini inkişaf etdirmək bacarığını inkişaf etdirmək;
- dərsin mövzusu ilə bağlı mövcud bilikləri yoxlamaq;
- tədris olunan materialı ümumiləşdirmək;
- şagirdlərə yaradıcı tapşırıqlar verməklə yeni materialın mənimsənilməsinə nəzarət etmək;
- əldə edilmiş biliklərdən praktiki sahədə istifadə etmək bacarığını inkişaf etdirmək;
- koqnitiv müstəqilliyi və yaradıcılığı inkişaf etdirmək [5, s.71].

Dərsin əsas təlim məqsədinin müəyyən edilməsi konkret dərs üçün mövzunun seçilməsini nəzərdə tutur. Tərbiyə işinin hər bir sahəsini əks etdirir: intellektin, əxlaqın, hüquqi şüurun, estetik ideyaların, məhsuldar işləmək bacarığının və ətraf mühitə qayğının inkişafı. Həmçinin, bu məqsəd şagirdlərin əhatə etdikləri materialdan əldə etdikləri əxlaqi və etik qaydaların mənimsənilməsini nəzərdə tutur [4, s.49].

Beləliklə, hər bir müəllim, digər vəzifələrlə yanaşı, mahiyyətcə tədqiqat vəzifəsi - dərsinin diaqnostikasını həyata keçirmək, paradiqmalar və konsepsiyalar sistemindəki yerini müəyyən etməkdir. Bu suala cavab verdikdən sonra müəllim təhsilin inkişafının mövcud tendensiyalarına uyğun olaraq öz konseptual bazasını seçməyə və ya inkişaf etdirməyə başlaya biləcəkdir.

Ümumiyyətlə, tədris fəaliyyəti məqsəd və məzmun baxımından dəyişikliklərə məruz qalır. Yeni pedaqoji metod və vasitələr işlənib hazırlanmağa, tətbiq olunmağa başlayır. Bununla belə, hansı transformasiyaların baş verməsindən asılı olmayaraq, dərslər yenə də tədris prosesinin əsas forması rolunu oynayır. Şagirdləri maraqlandırmaq üçün dərslərin formatını dəyişməyə nail olan müəllimlər onları fəal təlimə cəlb etməyə çalışırlar. Müəllim dərs prosesində bilavasitə vəzifələrdən xilas olmur, lakin dərsləri olduğu kimi saxlamaqla tədris prosesini fərqli şəkildə qura bilir.

***Ədəbiyyat***

1. *Əhmədov H.H., Zeynalova N.E. Pedaqogika. Bakı, “Elm və təhsil”, 2019, 352 səh.*
2. *Безрукова В.С. Всё о современном уроке в школе: проблемы и решения. Книга 3: здоровье сберегающий урок. М.: Сентябрь, 2006, 176 стр.*
3. *Ибрагимов Г.И. Концепция современного урока // Школьные технологии, № 2, 2008, стр.48-52.*
4. *Кульневич С.В., Лакоценина Т.П. Анализ современного урока. Ростов: Изд-во «Учитель», 2004, 228 стр.*
5. *Макарова Т.Н. Учебный процесс: планирование, организация и контроль. М.: Педагогический поиск, 2012, 160 стр.*

**C.A.Rəsulzadə**
**Azərbaycan Dövlət Pedaqoji Universiteti**
***resulzadecefer3@gmail.com***

# ALİ PEDAQOJİ MƏKTƏBLƏRDƏ TARİXİN TƏDRİSİNDƏ TƏLƏBƏLƏRDƏ İNFORMASİYA VƏ KOMMUNİKASİYA KOMPETENSİYASININ FORMALAŞDIRILMASI PROBLEMLƏRİNİN PEDAQOJİ ƏDƏBİYYATDA QOYULUŞU

***Xülasə***

*Məqalədə ali pedaqoji məktəblərdə tarixin tədrisində tələbələrdə informasiya və kommunikasiya kompetensiyasının formalaşdırılması problemlərinə toxunulmuş, problemin pedaqoji ədəbiyyatda qoyuluşuna, müəlliflərin fikir və düşüncələri ilə aydınlıq gətirilmişdir. Tələbələrdə informasiya və kommunikasiya kompetensiyasının formalaşdırılması prosesində təhsilin humanitarlaşdırılması problemi önə çəkilmiş, İKT və psixoloji-pedaqoji şəraitin də rolu və əhəmiyyəti xüsusi vurğulanmışdır.*

# ПОСТАНОВКА ПРОБЛЕМЫ ФОРМИРОВАНИЯ ИНФОРМАЦИОННО-КОММУНИКАЦИОННОЙ КОМПЕТЕНТНОСТИ У СТУДЕНТОВ ПРИ ПРЕПОДАВАНИИ ИСТОРИИ В ВУЗАХ В ПЕДАГОГИЧЕСКОЙ ЛИТЕРАТУРЕ

***Резюме***

*В статье затронуты проблемы формирования информационно-коммуникативной компетентности студентов при преподавании истории в вузах, а также уточнено место проблемы в педагогической литературе с учетом идей и размышлений авторов. В процессе формирования информационно-коммуникативной компетентности у студентов была выделена проблема гуманитаризации образования, особо подчеркнута роль и значение ИКТ и психолого-педагогических условий.*

# PUTTING THE PROBLEMS OF FORMING INFORMATION AND COMMUNICATION COMPETENCE IN STUDENTS IN THE TEACHING OF HISTORY IN HIGHER PEDAGOGICAL SCHOOLS IN PEDAGOGICAL LITERATURE

***Summary***

*In the article, the problems of formation information and communication competence in students in the teaching of history in higher pedagogical schools were*

*touched upon, and the problem's placement in the pedagogical literature was clarified with the authors' ideas and thoughts. In the process of formation of information and communication competence in students, the problem of humanitarianization of education was highlighted, and the role and importance of ICT and psychological and pedagogical conditions were specially emphasized.*

***Açar sözlər:*** *təhsilin humanitarlaşdırılması, psixoloji və pedaqoji şəraitin kompetensiyaların formalaşmasında əhəmiyyəti, İKT-nin tətbiqi*
***Ключевые слова:*** *гуманизация образования, значение психолого-педагогических условий в формировании компетенций, применение ИКТ*
***Key words:*** *humanization of education, the importance of psychological and pedagogical conditions in the formation of competencies, application of ICT*

**Mövzunun aktuallığı:** Müasir dünyanın ən mühüm tələblərindən də biri təhsilin modernləşdirilməsidir. Təhsil elə bir sahədir ki, bu sahə dayanmadan inkişafda olmalıdır. Dövrün bütün yenilikləri ilk növbədə təhsil sistemində tətbiq edilməlidir. Lakin müasirləşmə, özü ilə bağlı müəyyən tələbləri və problemləri də özü ilə gətirir. XXI əsrin BMT tərəfindən "psixologiya-insan" əsri elan edilməsi, bütün sahələrdə insan amilinin ön plana çıxması ilə əlaqədardır. Müasir dövrün ali məktəb tələbələri, 30-40 il əvvəlin tələbələrindən köklü sürətdə fərqlənir. Çünki, təhsil sisteminin müasir dövrün yeni qaydalarına uyğunlaşdırılmasına ehtiyacı vardır. Humanistləşmə, təhsildə pedaqoji və psixoloji mühitin sağlamlaşdırılması bu günün əsas yerinə yetirilməli olan problemlərinə çevrilmişdir. Məhz bu amillər mövzunun aktual olmasının əsasını təşkil edir. Problem ilə bağlı aparılan hər bir tədqiqat və araşdırma bu sahədə olan boşluğun doldurulmasında mühüm əhəmiyyət kəsb edir.

Humanitar və ya humanist sözlərinin kökü, latınca "human", yəni insan mənasını verir. Təhsilin humanistləşdirilməsi təhsil müəssisəsindəki bütün proseslərin humanist mənalarla doldurulması, onların uyğunlaşdırılması, şagirdlərin bacarıqlarının inkişafı və üzə çıxarılması üçün əlverişli şəraitin yaradılması kimi qəbul edilir.

Bu baxımdan N.M.Çedjemovanın fikri diqqətəlayiqdir. N.M.Çedjemovanın fikrincə, humanitarlaşdırma dedikdə, təkcə təhsil proqramlarının humanitar xarakterli kurslarla doyması deyil, həm də tələbələrdə dünya mədəniyyətinin vahid mədəniyyətə birləşmək məqsədi ilə mənimsənilməsi ehtiyacının formalaşdırılması nəzərdə tutulur [1, s.3].

Həqiqətən də, təhsilin humanitarlaşdırılması ilk öncə tələbənin şəxsi inkişafını ön planda tutur, şəxsiyyət və mədəniyyətin bütün idrak-fəaliyyət, əxlaqi-etik və estetik komponentlərini özündə birləşdirir. Tələbələrdə

informasiya və kommunikasiya kompetensiyalarının formalaşdırılmasının faydalılıq səviyyəsi təhsilin humanitarlaşdırılmasının effektivliyindən asılıdır.

Y.M.Yejova təhsilin humanistləşdirilməsi məsələsinə təhsilin humanitar paradiqması nöqteyi-nəzərindən yanaşmış və ilk öncə tələbənin - gələcək mütəxəssisin mövqeyini, statusunu və özünə hörmətini vacib saymışdır. Müəllif, təhsilin humanitarlaşdırılması probleminə aşağıdakı prizmalardan yanaşmışdır:

1) tələbənin təhsil fəaliyyətinə onun uğuru prizmasından yanaşılması;

2) pedaqoji prosesdə şəxsi inkişafın xarici ilkin şərtlərinin işlənməsi (təhsil strategiyaları, prosesin məzmun-təşkilati, metodoloji aspektləri);

3) təhsilin informativ və kommunikativ aspektlərinin yenilənməsi [2, s.5].

Tələbələrdə informasiya və kommunikasiya kompetensiyaları, onların cəmiyyətdə özlərini "kəşf etmək"də və digər insanlarla münasibət qurmaqda, status və mövqeyini formalaşdırmaqda yardımçı olur. İnsan digərləri ilə münasibətdə olarkən - sosiallaşma şəraitində inkişaf edir. Y.M.Yejovanın problemlə bağlı mövqeyi bu fikri bir daha təsdiqləyir ki, təhsildə insan amili doğrudan da vacibdir. Təsadüfi deyildir ki, BMT XXI əsri "İnsan və psixologiya əsri" elan etmişdir.

T.Q.Xolopova tələbələrdə informasiya və kommunikasiya kompetensiyasının formalaşdırılması prosesində qarşıya çıxan problemlərdən danışarkən, o aşağıdakıları diqqət mərkəzinə gətirir və bu problemləri həll etmək istəyində olduğunu bildirir:

1) tələbənin pedaqoji yönümünün inkişafında humanitarlaşma prinsipindən kifayət qədər istifadə edilməməsi;

2) pedaqoji elmdə təhsilin humanitarlaşdırılması üçün şəraitin yetərincə inkişaf etdirilməməsi [3, s.5].

Təhsildə tələbənin subyektiv fəaliyyətinin aktivləşməsi, müsbət tələbə motivasiyasının inkişafının təmin edilməsi təhsilin humanitarlaşdırılması probleminin həlli istiqamətində atılan müsbət addım kimi dəyərləndirilə bilər.

Tələbələrdə informasiya və kommunikasiya kompetensiyasının formalaşdırılması prosesində qarşıya çıxan vacib problemlərdən biri də psixoloji və pedaqoji cəhətdən əlverişli şəraitin formalaşdırılmasıdır. Bu baxımdan İ.Q.Smirnovanın məsələ ilə bağlı fikri diqqəti cəlb edir. Smirnova əsərində yazır: Təhsildə tələbələrin informasiya-kommunikasiya səriştəsinin formalaşmasına kömək edən əsas amillərdən biri pedaqoji şərtlərin düzgün seçilməsidir. Müəllif, pedaqoji şərtlərə aşağıdakı amilləri nümunə göstərir:

1) tələbələrin müstəqil kommunikativ fəaliyyətinin təşkili;

2) informasiya və kommunikasiya səriştəsinin inkişaf etdirilməsinin məzmunu, üsulları, formaları, vasitələri və s. formalaşdırılması üçün hazırlanmış proqramın həyata keçirilməsi;

3) müəllimin yüksək səviyyədə informasiya və kommunikasiya səriştəsi [4, s.9].

Ümumiyyətlə, bu proses tələbə, müəllim və təhsil sahəsində qəbul edilmiş sənədlərin birgə fəaliyyəti və bu fəaliyyətin qanunauyğunluğunun təmin edilməsi şəraitində uğurla həyata keçirilə bilər. Çünki, burada ilk öncə müəllimin öz kommunikativ bacarıqlarını inkişaf etdirməsi və daha sonra tələbənin fəaliyyətinin motivləşdirilməsi problemi qoyulur. Tələbə və müəllim arasındakı kommunikativ və informasiya mübadiləsi təhsil sənədləri ilə tənzim edilir.

İ.V.Stasyukeviç informasiya və kommunikasiya kompetensiyasının formalaşdırılması prosesində qarşıya çıxan vacib problemlərə münasibət bildirərək, problemlərin həllini hazırlanmış metodologiyanın uğurla həyata keçirilməsində və bunun üçün əlverişli şərtlər yaradılmasında görür. Müəllif yazır: "Hazırlanmış metodologiyanın uğurla həyata keçirilməsi üçün əsas şərtlər bunlardır:

1) kommunikativ cəhətdən zəngin dil mühitinin yaradılması;
2) təlim məzmununun didaktik uyğunlaşdırılması;
3) təlimin kommunikativ yönümlü olması;
4) müstəqil işin həcminin artırılması;
5) tədris prosesinin kompüter dəstəyi;
6) kommunikativ bacarıqların mənimsənilməsinin monitorinqi;
7) şəxsiyyətyönümlü yanaşmanın tələblərinə uyğun olaraq tədris-metodiki dəstək" [5, s.10].

İ.V.Stasyukeviçin məsələ ilə bağlı fikrini təhlil edəndə açıq-aşkar görünür ki, müəlifin proses üçün qoyduğu həyata keçirilməli olan şərtlər, əslində məsələ ilə bağlı əsas problemləri özündə ehtiva edir.

Bu deyilənlərdən belə nəticəyə gəlmək olar ki, tədris prosesində informativ və kommunikativ kompetensiyaların formalaşdırılması müasir dövrdə artıq vacib bir tələbata çevrilmişdir. Bu tələbatın ödənilməsinə olan ehtiyac psixoloji və pedaqoji şəraitin kompetensiyaların formalaşdırılmasındakı əhəmiyyətini artırır.

İ.A.Zyuzyukina təhsildə informasiya və kommunikasiya komepetensiyalarının formalaşdırılması üçün, bu mühitin yaradılmasını və bunun üçün də İKT-dən istifadənin problemin həlli baxımından vacib olduğu qəanətindədir. Müəllif yazır: "Müasirləşmə prosesi tələbələrdə müxtəlif mənbələrdən istifadə edərək müstəqil bilik əldə etmək bacarığını əhatə edən səriştənin inkişafını tələb edir. Müasir pedaqoji texnologiyalar tələbə səriştəsinin, o cümlədən kompüter və dizayn texnologiyalarının formalaşmasına kömək edir [6, s. 1].

K.Q.Musayeva problemə münasibət bildirərək İKT-dən istifadənin yeni dövr təhsili üçün yerinə yetirilməli olan zərurətə çevrildiyini göstərir. O,

tələbələrdə informativ və kommunikativ kompetensiyaların formalaşdırılması prosesində çıxış yolunu İKT-dən istifadədə görür. Müəllif yazır: "Araşdırmalar göstərir ki, ali məktəb müəllimlərinin tədris prosesində informasiya-kommunikasiya texnologiyalarının nailiyyətlərindən istifadə daha çox aşağıdakı zərurətləri doğruldur:

1) təlimin keyfiyyətinin yaxşılaşdırılması;
2) təlimin fərdiləşdirilməsi;
3) təlim prosesində şüurlu mənimsəməyə motivasiya yaradılması;
4) fasiləsiz təhsil imkanı;
5) təhsildə əməkdaşlıq mühitinin formalaşdırılması.

Müəllif daha sonra qeyd edir ki, müasir dövr ali təhsil müəssisələrində fəaliyyət göstərən müəllimlər mütləq şəkildə müntəzəm və hərtərəfli İKT-dən istifadə bacarıqlarına yiyələnməli və iş üsullarını mənimsəməlidirlər [7, s.3-4].

Ümumiyyətlə, internetin, kompüter avadanlıqlarının, proqramlarının təlimdə formalaşdırdığı mühiti və verdiyi töfhəni nəzərə almaqla, təhsil prosesində İKT-dən istifadə tələbələrin peşə hazırlığı probleminin şüurlu həllinə kömək olduğunu və onları bacarıq və vərdişlərinin formalaşdırdığını söyləyə bilərik. Bütün bacarıq və vərdişlər isə, informativ və kommunikativ kompetensiyaların sayəsində təşəkkül tapır.

**Məqalənin elmi yeniliyi:** Mövzunun səciyyəvi cəhətləri ümumiləşdirilərək, onu mahiyyətinə aydınlıq gətirilmişdir. Müasir dövr yenilikləri ilə bərabər, yerinə yetirilməsi vacib və əhəmiyyətli olan bir çox problemləri də gətirir. Ali pedaqoji məktəblərdə, tələbələrdə informasiya və kommunikasiya kompetensiyalarının formalaşdırılması yeni dövrün qaçılmaz tələbinə və ehtiyacına çevrilmişdir. Bu baxımdan məqalədə təhsilin humanistləşdirilməsi probleminə toxunulmuş, bu istiqamətdə göstərilən fəaliyyətdə sağlam psixoloji və pedaqoji şəraitin və İKT texnologiyalarının tətbiqi problemlərinin də nəzərə alınması göstərilmişdir.

**Problemin işlənmə səviyyəsi:** Ali pedaqoji məktəblərdə tələbələrdə informasiya və kommunikasiya kompetensiyasının formalaşdırılmasındakı problemlər mövzusu pedaqoji ədəbiyyatda əhəmiyyətli məsələlərdən birini təşkil edir. Çünki, kompetensiyaların formalaşdırılması prosesində yarana biləcək problemlərin həll edilməsinə dair addımların atılması təhsil prosesinin faydalılıq, effektivlik faizinin yüksəkdilməsində, təhsil sistemində yeni dövr tələblərinin ödənilməsində böyük müsbət təsiri ola bilər. Problemə dair müxtəlif müəlliflərin araşdırmalarına rast gəlmək mümkündür. Müəlliflərdən İrina Zyuzyukina kompetensiyalaşdırma prosesində İKT-dən istifadəni ön plana çəkirsə, İrina Smirnova və Tatyana Xolopova isə təhsildə humanitarlaşma və pedaqoji-psxoloji cəhətdən sağlam mühitin yaradılması probleminə toxunur. Problemin həllində müəllimlərin İKT savadlılığının

artırılması effektiv çıxış yollarından biri kimi sayıla bilər. Məhz bu amillər problemin işlənmə səviyyəsini yüksək tutmağa sövq edən səbəb kimi göstərmək mümkündür.

**Məqalənin nəzəri əhəmiyyəti:** Məqalədə müzakirə olunan problemli məsələlər, əldə olunan nəticələr, vacib və əhəmiyyətli qeydlər tələbələrin kompetensiyalarla silahlandırılması və tarixin tədrisi metodikası elminin problem nöqteyi-nəzərindən inkişafına şərait yaradır.

**Məqalənin praktiki əhəmiyyəti:** Ali məktəbdə təhsil alan tələbələrdə informasiya və kommunikasiya kompetensiyalarını inkişaf etdirməkdə qarşıya çıxa biləcək problemləri aşkar etməyə, onları təhlil edib, aradan qaldırılması yollarını öyrətməklə təlim prosesinin faydalılığını təmin etməkdir. Məqalədə irəli sürülən müddəa və nəticələrdən tarix müəllimləri gündəlik pedaqoji fəaliyyətlərində istifadə edə biləcəklər.

Məqalədə ali məktəblərdə təhsilalanlarda informasiya və kommunikasiya kompetensiyalarının formalaşdırılmasında qarşıya çıxan problemlər nələrdir?, Problemlərin həlli yolları hansılardır? kimi suallara aydınlıq gətirilmişdir. Bu prosesdə təhsilin humanitarlaşdırılması və ya humanistləşdirilməsinin əhəmiyyətindən, müəllim tərəfindən psixoloji və pedaqoji şəraitin düzgün seçilməsindən, müəllim yaradıcılığının və müasir təhsil sistemində İKT sahəsində bilikli olmanın faydalarından bəhs edilmişdir.

***Ədəbiyyat***

1. *Чеджемова Н.М.; «Психолого-педагогические аспекты гуманитаризации образовательною процесса в современном вузе»; Автореферат; Владикавказ - 2004; 28 с.*
2. *Ежева Ю.М.; «Педагогическое проектирование гуманитаризации образовательного процесса в вузе»; Нижний Новгород – 2008; 27 с.*
3. *Холопова Т.Г.; «Гуманитаризация образовательного процесса как средство развития педагогической направленности студента»; Оренбург 2007; 23 с.*
4. *Смирнова И.Г.; «Педагогические условия формирования информационно-коммуникативной компетенции студентов в образовательном процессе вуза»; Воронеж-2011; 23 с.*
5. *Стасюкевич И.В.; «Формирование коммуникативных компетенций у студентов неязьпсового вуза»; Ставрополь-2005; 24 с.*
6. *Зюзюкина И.А.; «Использование ИКТ в образовательном процессе»; 13.07.2012.; 4 с.*
7. *Musayeva K.Q.; "Təhsil prosesində İKT-dən istifadənin zəruriliyi"; "ADPU Ümumi Pedaqogika kafedrasının Təhsil, təhsilin təşkili və idarə edilməsinin müasir problemləri: reallıqlar, perspektivlər" mövzusunda elmi-praktik konfransın materialları"; Bakı - 2017; s.41-44.*

**M.F.Bağışova**
**Azərbaycan Dövlət Pedaqoji Universiteti**
***mbagishova@gmail.com***

# TƏLİM PROSESİNDƏ FƏNLƏRARASI İNTEQRASİYA

***Xülasə***

*Təlim və tədris prosesində hansı metod və üsullardan istifadə edilməsi kimi məsələlər qədimdən bu günə qədər geniş müzakirə mövzusu olmuş və tədqiqatçıların diqqətini özünə cəlb etmişdir. Müasir dövrümüzdə elm və texnologiyanın sürətli inkişafı özü ilə yeni yanaşmaların ortaya çıxmasına və daha qədim dövrlərdə tətbiq edilən yanaşmaların yenidən yararlılıq qazanmasına şərait yaratmışdır. Bu gün tədrisdə geniş istifadə edilən yanaşmalardan biri də fənlərarası inteqrasiyadır. Məqalədə tədris prosesində fənlərarası inteqrasiya prosesinin tətbiq edilməsi, tədris prosesində fənlərarası əlaqələrin tənzimlənməsi, xüsusilə orta məktəblərdə şagirdlərin fənlərarası yanaşmadan istifadə edilərək öyrədilməsi və öyrənmə prosesinin maraqlı və keyfiyyətli olmasına müsbət təsiri barədə məlumat verilmişdir.*

# МЕЖДИСЦИПЛИНАРНАЯ ИНТЕГРАЦИЯ В ОБРАЗОВАТЕЛЬНОМ ПРОЦЕССЕ

***Резюме***

*Вопросы о том, какие методы и приемы использовать в процессе преподавания и обучения, с древних времен были предметом широкой дискуссии и привлекали внимание исследователей. В наше время бурное развитие науки и техники создало условия для появления новых подходов и повторного использования подходов, применявшихся в прежние времена. Одним из широко используемых подходов в преподавании сегодня является междисциплинарная интеграция. В статье приведены сведения о применении процесса межпредметной интеграции в учебном процессе, регулировании межпредметных связей в учебном процессе, обучении учащихся с использованием междисциплинарного подхода, особенно в общеобразовательных школах, а также о положительном влиянии процесса обучения на его интересность и качество.*

# INTERDISCIPLINARY INTEGRATION IN THE EDUCATIONAL PROCESS

***Summary***

*Issues such as which methods and techniques to use in the teaching and learning process have been a subject of wide discussion since ancient times and have attracted the attention of researchers. In our modern times, the rapid development of science and technology has created conditions for the emergence of new approaches and the re-use of approaches applied in older times. One of the widely used*

*approaches in teaching today is interdisciplinary integration. The article provides information on the application of the interdisciplinary integration process in the teaching process, the regulation of interdisciplinary relations in the teaching process, teaching students using an interdisciplinary approach, especially in schools, and the positive effect of the learning process on being interesting and qualitative.*

***Açar sözlər:*** *təlim, təhsil prosesi, fənlərarası inteqrasiya, fəndaxili inteqrasiya, inteqrasiya*

***Ключевые слова:*** *образование, процесс обучения, междисциплинарная интеграция, интрадисциплинарная интеграция, интеграция*

***Key words:*** *education, teaching process, interdisciplinary integration, intradisciplinary integration, integration*

Müasir dövrümüzdə müzakirə edilən mövzulardan biri məhz təlim prosesinin idarə edilməsi və bu proses zamanı istifadə edilən metodların istifadəsi və seçilməsi prosesidir. Bu proses qədim zamanlardan müzakirə edilmiş, müasir dövrümüzdə isə müxtəlif yanaşmalar və fikirlər mövcud olmuşdur. Ali təhsil müəssisələri, orta məktəblər və digər təhsil müəssisələrində dərslərin və mühazirələrin təşkil edilməsi və dərslərin quruluşu haqqında bir sıra məlumatlar vardır. Müasir dövrümüzdə isə istər ölkəmiz, istərsə də xarici ölkələrdə təhsilin keyfiyyətinin artırılması və inkişaf etdirilməsi, yeni metod və üsullardan istifadə edilməsi məsələləri önəm daşıyır. Hazırda tədqiqatçılar və təhsil mütəxəssisləri ənənəvi dərs metod və üsullarının əleyhinə çıxış edir və müasir metodların istifadəsinin əhəmiyyətini vurğulayırlar və bu istiqamətdə fəaliyyət göstərirlər.

Tədrisdə yaranan və müasir dövrümüzdə istifadə edilən anlayışlardan biri də inteqrasiyadır. İnteqrasiya – təhsil islahatının əsas prinsiplərindən biri olub, əlaqələr şəraitində ümumiləşmiş biliklərin verilməsi üçün əlverişli şərait yaradan bir vasitədir [1]. Ümumtəhsil məktəbləri və ali təhsil ocaqlarında, tərəqqi və tədqiqatın daha effektiv şəkildə təbliğ edilməsi məqsədi ilə fənlərin məzmunu, strategiyaları və fənlərarası əlaqələrin düzülməsi üçün inteqrasiyadan istifadə olunur.

“İnteqrasiya” sözü latın dilində “integer” – “bütöv”, “bütövləşmə” anlamına gəlir və əslində, bu sözün etimologiyası inteqrasiyanın siyasi məzmun və missiyasını daha aydın ifadə edir. “İnteger” sözündən yaranan “integratio” sözü də latın dilində “bərpa”, “tamamlanmış” mənasını verir [1].

Fənlərarası inteqrasiya, müxtəlif elmi sahələr arasında tərəqqi və tədqiqatın daha geniş auditoriyaya çatdırılmasına nail olmağı hədəfləyən bir əməliyyat və tədqiqat sahəsidir. Bu prinsip, müxtəlif fənlər və sahələrdə fəaliyyət göstərən ekspertlərin bir araya gəlməsini tələb edir. Onlar, müstəqil bacarıqlarını və biliklərini paylaşaraq, daha geniş bir perspektivdə məsələlərin

həllinə nail olmağa çalışırlar. Fənlərarası inteqrasiya əsasən müxtəlif əsaslı tədqiqat və təhsil sahələrində tətbiq edilir. Əvvəlcə, bu prinsip müxtəlif fənlər üzrə mütəxəssislərin bir araya gəldiyi tədqiqat qruplarını təşkil etməyi tələb edir. Bu qruplar, müxtəlif elmi bacarıqları və təcrübələri əhatə edərək, ən əhəmiyyətli, kompleks və qarışıq problemlərin həllinə nail olmağa çalışır. İnteqrasiyanın bu növü müstəqil fənlərin və sahələrin bir-biri ilə əlaqəli şəkildə və inkişaf etməsi üçün ən optimal əlaqələndirilməsini təmin edir. Bu, müxtəlif elmi təcrübə və bacarıqların bir-biri ilə birləşdirilməsini, yeni məlumatların yaradılmasını və daha ətraflı nəticələrin əldə edilməsini mümkün edir.

Fənlərarası inteqrasiya termini müxtəlif fənləri və təhsil sahələrini birləşdirərək təhsilin tək bir tərəfini yaratmağı hədəfləyir. Bu, müxtəlif fənlərin və təhsil sahələrinin təməl müəllim müəyyən edənləri bir-biri ilə əlaqələndirərək və onların tələbələrinə uyğun olaraq təhsil planı tərtib etməklə baş verir. Bu proses bir neçə fərdi təhsil sahəsinin bir araya gəlməsini təmin edərək və onların bacarıqlarını və məlumatlarını birləşdirərək təhsilin keyfiyyətini artırmağı hədəfləyir. İnteqrasiya, tələbələrin təhsil proqramında müxtəlif fənlərlə maraqlanmağını və bu fənləri təhlil etməyini təşviq edir. Bu proses tələbələrə həm geniş perspektiv və həm də əsas bacarıqlar əldə etməyə imkan verir. Fənlərarası inteqrasiya, tələbələrin real dünyada müxtəlif fənləri necə əlaqələndirə biləcəyini göstərərək onları problemləri həll etməyə və müxtəlif məsələlərə müstəqil şəkildə yanaşmağa hazırlayır. Bu, tələbələrin müxtəlif sahələrdə daha böyük bacarığa və biliklərə sahib olmalarına kömək edir.

Müasir dövrdə inteqrasiya, qlobal təhsil sahəsində ən mühüm yerlərdən birini tutur. Cəmiyyətin sürətli və dəyişkən dinamikasını izləmək və bu dinamikaya uyğun şəkildə inkişaf etmək üçün birləşmələr yaratmaq və ümumiləşdirmələr aparmaq ən effektiv strategiyalardan biri kimi qəbul edilir. Başqa cür desək, inteqrasiya, müasir təhsilin sadə epitetlərindən biri kimi yox, qlobal təhsilin əsas elementlərindən biri kimi qiymətləndirilməlidir. “Təhsildə inteqrasiya dəb, növbəti kampaniya deyildir. O, bu gün insan fəaliyyətinin bütün sferasını xarakterizə edən, əks etdirən bir tendensiyadır” [1].

İnteqrativ tədris ideyası müəyyən bir fənn hüdudlarında tədrisin təşkil edilməsi kimi anlaşıla bilər. Bu üsul, tələbələrin bilik sintezini ehtiva edə biləcək hər hansı fəaliyyət istisna olmaqla, fənlərin ayrıca tədrisini nəzərdə tutur. Digər tərəfdən, mütərəqqi təhsil yanaşması ilə ortaya çıxan fənlərarası tədris, ümumiyyətlə, müxtəlif fikirləri mənalı şəkildə birləşdirərək ənənəvi fənn sahələrinin təqdimatı kimi müəyyən edilə bilər. Fərqli sahələri bir araya gətirən araşdırmalara nəzər saldıqda göründüyü kimi, bu yanaşma uzun müddətdir ki, mövcuddur. Türkiyəli tətqiqatçı alim M.Yalçın (2013) fənlərarası yanaşmanı iki və ya daha çox fənnin və ya təhsil sahəsinin birləşməsi və ya əhatə dairəsi kimi ifadə etdiyi halda, Cakobs (2009) onu bir konsepsiya, mövzu

və ya təcrübəni formalaşdırmaq üçün müxtəlif fənlərin metodoloji biliklərindən istifadə edən kurikulum yanaşması kimi müəyyən edir [4]. Müəllim fənlərarası yanaşmanın əsasını təşkil edən biliklərə uyğun olaraq bir çox fənləri birləşdirir və ya əlaqələndirir.

Tədris prosesində fəndaxili və fənlərarası inteqrasiyanın təmin edilməsi bilik və bacarıqların şagirdlər tərəfindən daha asan mənimsənilməsi, dərslərin daha inteqrativ formada təşkili və uşaqlarda yaradıcılıq, tədqiqatçılıq bacarıqlarının gücləndirilməsi üçün önəmlidir. Fənlərarası inteqrasiya bir neçə fənnə aid olduğu ortaq bilik və bacarıqların sintezi olmaqla yanaşı, bir fənnə aid anlayışların və metodların digər bir fənnin tədrisində istifadəsini nəzərdə tutur. Belə inteqrasiya müxtəlif fənlər arasında məntiqi əlaqələrin qurulmasına kömək edir. Bundan başqa, bu proses eyni bir bacarığın ayrı-ayrı fənlər vasitəsilə daha da təkmilləşdirilməsini təmin etmək məqsədilə təlim prosesinin keyfiyyətinin artırılmasına şərait yaradır. Fənlərarası və fəndaxili münasibətlərin, sadəcə əlaqə deyil, inteqrasiya xarakteri daşıması bu münasibətlərin daha sıx və möhkəm olmasına, onun bütöv bir prosesə çevrilməsinə kömək edir. Bundan başqa, fənlərarası və fəndaxili inteqrasiya şagirdləri interaktiv öyrənməyə yönəldir, onların təbiət, cəmiyyət və insanlar haqqında qarşılıqlı əlaqələr şəraitində qurulmuş biliklərə yiyələnməsini stimullaşdırır. Bu prinsip ayrıca təhsil sahəsində də tətbiq olunur, tələbələrə müxtəlif fənlərdə və sahələrdə qəbul olunan məlumatları birləşdirib təfərrüatlı təhsil almalarını təmin edir.

Fənlərarası inteqrasiya, ictimai və iqtisadi sahələrdə də müxtəlif bilik və bacarıqların bir araya gətirilməsini və problemlərin ən effektiv şəkildə həll edilməsini hədəfləyir. Bu yolla, fənlərarası inteqrasiya, mütəxəssislər arasında əməkdaşlığı təşviq edir və müxtəlif sahələr üzrə fikirləri və təcrübələri birləşdirərək, daha müasir və əhəmiyyətli nəticələr əldə etmək imkanı yaradır. Fənlərarası inteqrasiya haqqında tədqiqat və çalışmalar kifayət qədərdir. Bu araşdırmalar müxtəlif elmi sahələrlə bağlıdır və fərqli formalarla nəticələnmişdir.

Fənlərarası inteqrasiya, ictimai və iqtisadi sahələrdə də müxtəlif bilik və bacarıqların bir araya gətirilməsini və problemlərin ən effektiv şəkildə həll edilməsini hədəfləyir. Bu yolla, fənlərarası inteqrasiya, mütəxəssislər arasında əməkdaşlığı təşviq edir və müxtəlif sahələr üzrə fikirləri və təcrübələri birləşdirərək, daha müasir və əhəmiyyətli nəticələr əldə etmək imkanı yaradır. Fənlərarası inteqrasiya haqqında tədqiqat və çalışmalar kifayət qədərdir. Bu araşdırmalar müxtəlif elmi sahələrlə bağlıdır və fərqli nəticələrlə nəticələnmişdir.

Məsələn, Vilyam H. Nevelin 1998-ci ildə nəşr etdirdiyi "Fənlərarası tədqiqat: proses və nəzəriyyə" kitabında inteqrasiya və inteqrasiyanın məşhur növləri və fənlərarası inteqrasiya haqqında yazmışdır. Fənlərarası tədqiqat

prosesləri haqqında məlumatları özündə ehtiva edən bu kitab tədqiqatçının "fənlərarası inteqrasiya müxtəlif sahələrdə tətbiq edilə bilər və bu proses nəticəvericidir" fikrini vurğulayırdı. O, həmçinin "fənlərarası intqrasiyanın müxtəlif fənlər arasında necə və hansı üsullarla istifadə edilə biləcəyi" haqqında fikirlərini də paylaşır və hansı nəticələrin əldə oluna biləcəyi haqqında təhlillər aparırdı [8].

Digər bir tətqiqatçı L. Marqaret də fənlərarası inteqrasiya prosesini araşdırmış və maraqlı fikirlər səsləndirmişdir. O öz tədqiqatında təhsil sahəsinə dair müxtəlif mənbələr və resurslar barədə məlumatlar vermiş və bu tədqiqatlar zamanı inteqrasiya prosesindən söhbət açmışdır. Onun araşdırmalarına görə təhsil prosesində fənlərarası inteqrasiyanın tətbiq edilməsi eyni zamanda tədqiqat və müxtəlif fərdi keyfiyyət və bacarıqların inkişafına şərait yaradır. O qeyd edirdi ki, "fənlərarası inteqrasiya müstəqil düşünməni inkişaf etdirir" [7]. Həmçinin alim tədqiqat və müstəqil düşüncə kimi müsbət keyfiyyətlərin formalaşması və ya inkişaf etdirilməsində fənlərarası inteqrasiyanın müsbət təsirindən bəhs edirdi.

Fənlərarası inteqrasiya ilə bağlı yanaşmalardan biri də amerikalı alim J.Kleinin yanaşması olmuşdur. O öz kitabında bu barədə müxtəlif fikirlər və yanaşmalarla çıxış etmişdir. Onun tədqiqatında "fənlərarası əlaqələrin və əməkdaşlığın nə olduğunu və bunun hansı şərtlərlə mümkün olması"nın müzakirəsi də öz əksini tapırdı [3]. O, təhsil və təhsil ilə bağlı digər sahələrdə də inteqrasiyanın gücünü vurğulayır, lakin bu prosesin asan olmadığını da qeyd edirdi.

Bu mövzuda digər tətqiqatçı alim J.T.Jillin də fikirləri də maraq doğururdu. Belə ki, o, "Enhancing Interdisciplinary Collaboration in Sustainability Research" adlı və müəllifi olduğu kitabda fənlərarası inteqrasiya prosesi haqqında məlumat verir və bu prosesin effektivliyindən danışırdı. Belə ki, o qeyd edirdi ki, bir çox müxtəlif sahələrdə inteqrasiya tətbiq edilə bilər. Həmçinin, o bu prosesin necə effektiv şəkildə tətbiq edilməsi haqqında və qlobal problemlərin həllində necə rol oynaması haqqında öz düşüncələrini vurğulayırdı. O, təhsil sektorundan əlavə, "qlobal müstəqil məsələlər, əsasən ətraf mühitin müdafiəsində" də inteqrasiyanın müsbət cəhətlərindən danışırdı. "Fənlərarası inteqrasiyanın təhsildə önəmi təhsilalanların müstəqil bacarıqlarının artırılmasıdır və bu fənlərin hərtərəfli qavranılmasında faydalıdır" [5]. Bu tədqiqat inteqrasiyanın müxtəlif sahələrdə tətbiqi yolları və təhsil sahəsində fəaliyyətlərin inkişafı ilə əlaqəli maraqlı müzakirələri özündə əks etdirirdi.

Beləliklə, təcrübə və araşdırmalar göstərir ki, tədrisdə fənlərarası inteqrasiya bilavasitə şagirdlərin biliklərinin və müxtəlif fərdi bacarıqlarının artırılmasına və tədris prosesi zamanı maraqlı və effektiv təlim mühitinin yaradılmasına xidmət edir. Fənlərarası inteqrasiyanın mahiyyəti və özü

haqqında alimlərin fikirləri ilə tanış olduqdan sonra bu prosesin tədris prosesində tətbiqi və tətbiqi nəticələri haqqında ətraflı müzakirələrə nəzər salaq:

Fəndaxili inteqrasiya, bir fənnin aşıladığı anlayışın, bilik və bacarıqların əlaqələndirilməsini təmin etməklə yanaşı, həmin fənn üzrə müxtəlif faktların ümumiləşdirilməsi və müəyyən qədər sistemləşdirilməsi prosesi ilə məşğuldur [2]. Bu, təlim prosesi zamanı mövcud və zəruri olan müxtəlif materialın ayrı-ayrılıqda tədris vahidlərində ümumiləşməsi və cəmləşməsi, həmçinin fənnin məzmun strukturunun dəyişdirilməsi anlamına gəlir. “Fənlərarası inteqrasiya, spiralvari bir quruluşa əsaslanan konsentrik prinsip ilə fənlər arasında ardıcıl münasibətlərin dərk edilməsini təmin edir” [6]. Bu, təhsilalanların fənlər və ya mövzular haqqında ilkin məlumatları əhatə etmələri, daha dərin və geniş məzmunda fikir mübadilələri aparmaları, ideya və fikirlərini təkminləşdirmələri anlamına gəlir və bu kimi bacarıqların təkminləşdirilməsinə istiqamətlənir.

Fənlərarası əlaqələr yalnız məlumatları birləşdirməklə qalmır, həm də bu prosesi daha sıx və möhkəm əlaqələnmiş şəkildə təşkil edir. Bu, təlimin interaktiv mühitdə formalaşdırılmasına nail olmağa və təcrübələrin daha çox əldə edilməsinə yönəlib. Fənlərarası inteqrasiya, tədqiqat bacarıqlarını və meylləri stimullaşdırmaqla yanaşı, təhsilalanlara tənqidi düşüncə bacarığını aşılayır. İnteqrativ biliklərin təhsilverənlər tərəfindən sistemli və səmərəli şəkildə öyrədilməsi, tədrisin müstəqil bacarıqların və biliklərin birləşdirilməsi ilə nəticələnməsi, təhsilalanlarının tədqiqat bacarıqlarının artırmasına nail olur.

Fənlərarası inteqrasiya həm də öyrənənlərin təhsilində interaktiv mühitin yaradılmasına kömək edir. Bu mühitdə təhsilalanlar müxtəlif sahələr üzrə təcrübə və bacarıqları birləşdirərək daha geniş perspektivə sahib olmağa çalışır. İnteqrasiyanın tətbiqi, təhsilalanların müxtəlif fənlərdə və sahələrdə daha geniş bacarıq və bilik sahibi olmalarına kömək edir. Bu prinsip təhsil sahəsində də tətbiq edilir və tələbələrə müxtəlif fənn və sahələrdə qəbul olunan məlumatları birləşdirərək təfərrüatlı təhsil almalarını təmin edir. Fənlərarası inteqrasiya, ictimai və iqtisadi sahələrdə də müxtəlif bacarıq və biliklərin birləşdirilməsini və problemlərin effektiv şəkildə həllini hədəfləyir. Bu yolla, fənlərarası inteqrasiya, mütəxəssislər arasında əməkdaşlığı təşviq edir və müxtəlif sahələrdən gələn fikirləri və təcrübələri birləşdirərək, daha müasir və əhəmiyyətli nəticələr əldə etmək imkanı yaradır.

Beləliklə, fənlərarası əlaqələrin yaradılması tədrisdə fənnlərin öyrənənlər tərəfindən daha effektiv şəkildə mənimsənilməyə xidmət edir. Nəticədə, tədris prosesi həm təhsilalanlar, həm də təhsilverənlər üçün faydalı olur. Bundan əlavə, bu kimi əlaqələrin formalaşdırılması cəlbedici və maraqlı, eyni zamanda daha təsirli və əlaqəli bir mühit formalaşdırmaqda kömək edir. Fənlərarası əlaqələrin tədris prosesində ardıcıl və sistemli şəkildə tətbiqi

ümumi təhsilin keyfiyyətinin inkişafına xidmət edir. Belə bir tədrisin yaradılması və tətbiqi təhsilalanların yalnız tədris müddətində deyil, həm də həyat boyu öyrənməyə hazır olmalarına kömək edərək onları tədris və təhsilə stimullaşdırır, bununla da XXI əsrin tələblərinə cavab verən tədris prosesinin təmin edilməsinə xidmət edir.

***Ədəbiyyat***

1. *Abbasov Ə., Əhmədov A. Ümumi təhsildə inteqrasiya: Müasir yanaşmalar // Kurikulum 2013. AZƏRBAYCAN MÜƏLLİMİ (muallim.edu.az)*
2. *Gür, T.M. (2003). Araştırma ve eğitiminde disiplinlerarasılık. İstanbul: Sabancı Üniversitesi Yayınları.*
3. *J.T.Klein,"The Strength of Weak Cooperation: An Attempt to Understand the Meaning of Interdisciplinary Studies, 1990.*
4. *Jacobs, H.H. (1989). The growing need for interdisciplinary curriculum content. Interdisciplinary curriculum: Design and implementation, 1-11.*
5. *Jill J.F., Handbook of Transdisciplinary Research, 2008, p. 448.*
6. *M.Həsənov, Ş.Ağayev, V.Məmmədova, Y.Fərzəliyeva., "Fənlərarası inteqrasiya", MM-S Müəssisəsi, Bakı - 2013, səh 64.*
7. *M.M.Latta, Interdisciplinary Education: A Guide to Resources, 2006, p. 233*
8. *William H. Newell, Interdisciplinary Research: Process and Theory, 1998, p.25*
9. *Yalçın, M. (2013). Biyoloji dersinde disiplinlerarası çalışmaların öğrenme üzerine etkilerinin incelenmesi. Eğitim ve Öğretim Araştırmaları Dergisi, 2(3), 117-122.*

**S.K.Mahmudova**
**Azərbaycan Dövlət Pedaqoji Universiteti**
***mahmudovasurayya28@gmail.com***

# MÜASİR MƏKTƏBLƏRDƏ QİYMƏTLƏNDİRMƏ VƏ MONİTORİNQİN MAHİYYƏTİ

***Xülasə***

*Məqalədə müasir məktəblərdə qiymətləndirmə və monitorinqin mahiyyəti araşdırılmışdır. Qiymətləndirmə təhsilin keyfiyyətinin idarə edilməsinin elementinə çevrilirsə, o zaman qiymətləndirmənin məqsədi sadəcə olaraq fəaliyyətdəki çatışmazlıqları aşkar etmək olmamalıdır. Monitorinq isə təlim nəticələrinin effektivliyinin yoxlanılması və qiymətləndirilməsi vasitəsidir: obyektlərin, hadisələrin, proseslərin vəziyyətinin onların qiymətləndirilməsi, nəzarəti və ya proqnozlaşdırılması məqsədi ilə xüsusi təşkil edilmiş, sistemli şəkildə müşahidəsi. Təhsildə monitorinq və qiymətləndirilmə prosesləri şagirdlərin təhsil nailiyyətləri səviyyələrinin proqnozlaşdırılmasını və inkişafını təmin edən pedaqoji prosesin vəziyyətinin izlənilməsi sistemləridir.*

# ПРИРОДА ОЦЕНИВАНИЯ И МОНИТОРИНГА В СОВРЕМЕННЫХ ШКОЛАХ

***Резюме***

*В статье рассматривается сущность оценивания и мониторинга в современной школе. Если оценка становится элементом управления качеством, то целью оценки не должно быть просто выявление недостатков в работе и наказание за них. Мониторинг – это средство проверки и оценки эффективности результатов обучения: специально организованное систематическое наблюдение за состоянием объектов, событий, процессов с целью их оценки, контроля или прогнозирования. Мониторинг и оценка педагогического процесса представляют собой системы мониторинга состояния педагогического процесса, обеспечивающие прогнозирование и развитие уровней учебных достижений обучающихся.*

# THE NATURE OF ASSESSMENT AND MONITORING IN MODERN SCHOOLS

***Summary***

*The essence of assessment and monitoring in modern schools is examined in the article. If evaluation becomes an element of quality management, then the goal of evaluation should not be simply to detect and punish deficiencies in performance. Monitoring is a means of checking and evaluating the effectiveness of training results: a specially organized, systematic observation of the state of objects, events, processes*

*for the purpose of their evaluation, control or prediction. The teaching monitoring and evaluation process are systems for monitoring the state of the pedagogical process, which ensure the prediction and development of the educational achievement levels of students.*

***Açar sözlər:*** *qiymətləndirmə, monitorinq, təhsil keyfiyyəti, məktəb, şagird*
***Ключевые слова:*** *оценка, мониторинг, качество образования, школа, ученик*
***Key words:*** *assessment, monitoring, quality of education, school, student*

Təhsildə strateji idarəetmənin formaca fərqlənən konseptual modelləri mövcuddur. Ən çox yayılmış daxili güclü və zəif tərəflərin, xarici təhdidlərin və imkanların daimi təhlilinə, aydın siyasət və fəaliyyət planlarının işlənib hazırlanmasına əsaslanan klassik modeldir. Başqa bir yanaşma, məlumatlara əsaslanmadan strateji idarəetmədir ki, bu da ona gedən yolda maneələri tanıyıb aradan qaldırmaqla təhsil üçün müəyyən xətti qurmağa imkan verir [6, s.529].

Strateji idarəetmənin müxtəlif konsepsiyaları üçün ümumi xüsusiyyət əsas mərhələlərin həyata keçirilməsidir. Belə ki, qiymətləndirmə və keyfiyyətə nəzarət mərkəzi yerlərdən birini tutur. Bir tərəfdən, vəziyyətin qiymətləndirilməsi və onun təhlili həmişə fəaliyyətin planlaşdırılması, onun təşkili və qarşıya qoyulmuş vəzifələrin həyata keçirilməsi mərhələsindən əvvəl olur. Digər tərəfdən, idarəetmə dövrü nailiyyətlərin və uğursuzluqların, habelə onlara səbəb olanların qiymətləndirilməsi və təhlili mərhələsi ilə başa çatır.

Beləliklə, idarəetmə prosesində qiymətləndirmənin rolunu müəyyənləşdirərək, qiymətləndirmə və keyfiyyətə nəzarəti idarəetmənin davamlılığını müəyyən edən ən vacib mərhələlərdən birinə çevirir. Bu yanaşma ilə öz fəaliyyətinin keyfiyyətini yüksəltməyə istiqamətlənir və qiymətləndirmə prosesinin obyektindən olan şəxs onun subyektinə çevrilir ki, bu da öz fəaliyyətində özünüqiymətləndirmə hazırlığının inkişaf etdirilməsi prosesinə təkan verir.

İ.Cavadova görə, qiymətləndirmə zamanı motivasiya yaradarkən mütləq öz işinin yüksək keyfiyyətinə olan istək olmalıdır [1, s.8]. Qiymətləndirmə şagirdlərin fəaliyyətlərini düzəltmək üsuludur, onun köməyi ilə müəllim şagirdin hazırlıq səviyyəsini müəyyən edir. Hər bir dövlətin öz qiymətləndirmə sistemi var. Beləliklə, Azərbaycanda bu, beş ballıq sistemdir. Digər ölkələrdə doqquz, on, on iki ballıq, bəzi Afrika ölkələrində isə hətta otuz və yüz ballıq sistemlər mövcuddur. Bununla belə, bu cür sistemlər həmişə əsaslandırılmır. Şagirdin fəaliyyətinin qiymətləndirilməsi üçün əsas nəticə - nəzarətin nəticəsidir, eyni zamanda müəyyən şagird işinin həm keyfiyyət, həm də kəmiyyət göstəriciləri nəzərə alınır. Kəmiyyət göstəriciləri ən çox qiymətlərlə, keyfiyyət göstəriciləri isə öz növbəsində "əla", "yaxşı" və s. kimi dəyər mühakimələrində qeydə alınır.

Qəbul edilmiş və başa düşülən qiymətləndirmə meyarlarının hazırlanması da qiymətləndirmə prosedurunun həyata keçirilməsinə peşəkar yanaşmanın vacib məqamlarından biridir. Əlbəttə ki, ümumi tanınan xüsusiyyətlərin müəyyən siyahısı və fəaliyyətin qiymətləndirilməsi üçün ümumi meyarlar olmalıdır. Lakin hər bir konkret təhsil müəssisəsində onun xüsusiyyətlərindən və missiyasından asılı olaraq xüsusiyyətlərin prioriteti fərqli ola bilər.

Azərbaycan təhsil sisteminin modernləşdirilməsinin istiqamətlərindən biri tədris texnologiyalarının, nəzarət vasitələri və üsullarının, təhsilin keyfiyyətinin idarə olunması formalarının təkmilləşdirilməsidir [3, s.68]. Təhsilin indiki inkişaf mərhələsi isə təlim proqramlarının keyfiyyətinin qiymətləndirilməsi üçün ümummilli sistemin yaradılmasını tələb edir. Son illər ölkəmizdə təhsilin keyfiyyətinin qiymətləndirilməsi üçün sistemlər yaradılmağa başlandı ki, bu da təhsil nailiyyətlərinin qiymətləndirilməsini təmin edən vahid konseptual və metodoloji əsası olan təşkilati və funksional strukturların məcmusudur. Məktəblilərin fərdi və şəxsi xüsusiyyətlərinin, habelə təhsilin nəticələrinə təsir edən amillərin müəyyən edilməsidir. Yaranan sistem həm şagirdlərin təhsil nailiyyətlərinin, həm də tədris prosesinin keyfiyyətinin qiymətləndirilməsini nəzərdə tutur. Eyni zamanda, təhsilin keyfiyyəti dedikdə faktiki əldə edilmiş təhsil nəticələrinin normativ tələblərə, sosial və şəxsi gözləntilərə uyğunluq dərəcəsini əks etdirən təhsil sisteminin ayrılmaz xüsusiyyəti kimi başa düşülür. Buradan belə nəticə çıxır ki, təhsilin keyfiyyəti təlimin keyfiyyəti ilə eyni deyil.

Müasir şəraitdə buna nail olmaq üçün təhsil proqramlarının və xidmətlərinin müvafiq keyfiyyətini, nəzarətin obyektivliyini və təhsil fəaliyyətinin nəticələrinin qiymətləndirilməsinin etibarlılığını təmin etmək lazımdır. Bunun üçün təhsil müəssisələrindən asılı olmayaraq, təhsilin keyfiyyətinin qiymətləndirilməsi üçün ümummilli sistem mövcuddur. O, təhsil müəssisələrinin və subyektlərinin təhsil fəaliyyətinin səmərəliliyini və məsuliyyətini artırmaq üçün təsirli və etibarlı vasitəyə, bütün təhsil sisteminin vəziyyətinin göstəricisinə çevrilərək aşağıdakı məqsədləri müəyyən edir:

- davamlı təhsil üçün təhsil müəssisələrinə qəbulda obyektivliyin və ədalətliliyin təmin edilməsi;
- vahid təhsil məkanının gücləndirilməsi;
- təhsil xidmətlərinin vacib qərarlar qəbul edə bilmələri üçün məlumatlılığının artırılması;
- dövlət attestasiya xidmətinin inkişafı;
- təhsilin keyfiyyətinin yüksəldilməsi üçün əsaslı qərarların hazırlanması və qəbul edilməsi [5, s.93].

Monitorinq prosesində təhsil sisteminin zamanla əlaqəli inkişaf tendensiyaları, habelə qəbul edilmiş qərarların nəticələri aşkarlanır. Monitorinq

çərçivəsində həyata keçirilən pedaqoji tədbirlərin müəyyən edilməsi və qiymətləndirilməsi həyata keçirilir. Eyni zamanda, pedaqoji sistemin fəaliyyətinin faktiki nəticələrinin onun son məqsədlərinə uyğunluğu barədə məlumat verən əks əlaqə verilir.

Monitorinq fəaliyyətinin özünəməxsus xüsusiyyətləri var. Birincisi, monitorinq obyektləri dinamikdir, obyektin vəziyyətində müxtəlif dəyişikliklərə səbəb ola biləcək xarici təsirlərə məruz qalır. İkincisi, monitorinqin həyata keçirilməsi obyektin xüsusiyyətlərinin daimi monitorinqinin təşkilini, onun vəziyyətinin öyrənilməsini və qiymətləndirilməsini nəzərdə tutur. Üçüncüsü, izləmənin təşkili obyektin parametrlərin, meyarların və göstəricilərin seçilməsini təmin edir. Məhz bu özəllik təhsilin keyfiyyətinin monitorinqi ilə nəzarət arasında əsas fərqi müəyyən etməyə kömək edir.

Monitorinq təhsil müəssisəsinin həyatının müxtəlif aspektlərinə təsir göstərir:

- təhsil prosesinin məqsədlərini, təhsil və tərbiyə işlərinin planlarını təyin etməyin mümkünlüyünün təhlili;
- kadrlarla iş və müəllimlərin yaradıcılıq fəaliyyəti üçün şərait yaradılması;
- tədris prosesinin təşkili;
- nəzarətin praktiki yardım göstərilməsi ilə birləşdirilməsi;
- şagirdlərin təlim və tərbiyəsində sağlamlığa əsaslı yanaşma [4, s.58].

Yuxarıda göstərilənlərə əsasən, monitorinq funksiyalarını müəyyən etdik:




**Şəkil 1. Monitorinqin funksiyaları**

Monitorinqin əsas vəzifəsi nəticə ilə qarşıya qoyulan məqsədlər arasında uyğunsuzluğun səbəblərini və miqyasını müəyyən etməkdir. Təsnifat üçün meyar kimi mahiyyəti, metodoloji və oriyentasiya xüsusiyyətlərini götürərək, monitorinqin əsas növlərini müəyyən edərək, onların hər birinin qısa təsvirini aşağıdakı cədvəldə təqdim edirik [7, s.86]:

**Cədvəl 1.**

**Monitorinqin əsas növləri**

| Seçim işarəsi | Adı | Xüsusiyyəti |
|---|---|---|
| Məzmununa görə | - Didaktik<br>- Maarifləndirici<br>- Sosial-psixoloji<br>- İdarəetmə fəaliyyəti | Mövzu təhsil prosesinin neoplazmalarıdır. Şagirdlərin təhsili, onların tərbiyəsi üçün şəraitin yaradılmasında dəyişiklikləri nəzərə alır. Şagirdin şəxsiyyətinin sosial-psixoloji uyğunlaşma səviyyəsini göstərir. Müxtəlif idarəetmə alt sistemlərində dəyişiklikləri qeyd edir. |
| İstifadə olunan metod və üsulların təbiətinə görə | - Statistik<br>- Qeyri-statistik | Yaranan məlumat sistemi riyazi emala məruz qalır. Qəbul edilən məlumat sisteminin riyazi emalının mümkünsüzlüyüdür. |
| İstiqamət üzrə | - Proses<br>- Fəaliyyətin təşkili üçün şərtlər<br>- Nəticələr | Son məqsədin həyata keçirilməsinə təsir edən amillərin mənzərəsini təqdim edir. Planlaşdırılmış fəaliyyət normasından, fəaliyyətin rasionallıq səviyyəsindən, zəruri resurslardan kənarlaşmaları müəyyən edir. |

Təhsil sisteminin fəaliyyəti ilə bağlı etibarlı nəticələr əldə etmək və monitorinq vasitəsilə onun effektivliyini müəyyən etmək məqsədilə bir sıra şərtlərin yerinə yetirilməsi vacibdir. Bəziləri monitorinqlə, digərləri isə monitorinqdən sonrakı prosedurlarla əlaqədardır [2, 284]:

**Cədvəl 2.**

**Keyfiyyətə nəzarət texnologiyası**

| I mərhələ<br>Hazırlıq | II mərhələ<br>Monitorinqin keçirilməsi | III mərhələ<br>Məlumatların işlənməsi və qərarların qəbulu |
|---|---|---|

| | | |
|---|---|---|
| - monitorinq üçün sifarişin formalaşdırılması;<br>- monitorinq obyektinin müəyyən edilməsi;<br>- monitorinqin metodiki təminatı;<br>- meyarların və göstəricilərin müəyyən edilməsi;<br>- işçi layihə və ya proqramın yaradılması;<br>- monitorinq aparan personalın təlimatlandırılması. | - iş proqramına uyğun olaraq seçilmiş metodlardan istifadə etməklə sistemin diaqnostikası;<br>- toplanması və təhlili, nəticələrin saxlanması. | - riyazi və statistik daxil olmaqla məlumatların emalı;<br>- alınan məlumatların təhlili, ümumiləşdirilməsi və sistemləşdirilməsi;<br>- yekun sənədin hazırlanması;<br>- qərar qəbulu;<br>- məlumatların istifadəsini aktivləşdirən tədbirlər kompleksi, o cümlədən monitorinq üçün informasiya dəstəyi. |

Monitorinqin həyata keçirilməsi üçün meyarlar öncədən müəyyən edilir və sistemin vəziyyəti, onda keyfiyyət və kəmiyyət dəyişiklikləri haqqında vahid təsəvvürü təmin edən göstəricilər toplusu araşdırılır. Diaqnostika vasitələri seçilmiş meyarlara uyğun olaraq müəyyən edilir ki, bu da obyektin real vəziyyətinin gözlənilən nəticələrə uyğunluq səviyyəsini müəyyən etməyə kömək edir. Alınan məlumatlar diqqətlə emal tələb edir, sistemin vəziyyəti və inkişafı haqqında məlumatlar müntəzəm olaraq sistemləşdirilir. Əlaqəni təmin etmək üçün davam edən proseslər haqqında məlumatın müntəzəm və vizual təqdimatı lazımdır. Monitorinq prosesi zamanı toplanan məlumatlar obyektivlik, dəqiqlik, tamlıq və kifayət qədərlik tələblərinə cavab verməlidir. Təhsil sisteminin vəziyyətinin və inkişafının təhlili və proqnozlaşdırılması üçün informasiya təminatının təşkili düzgün idarəetmə qərarlarının hazırlanmasına kömək edəcəkdir.

Yuxarıda göstərilən şərtlərə əməl olunması sayəsində prosessual monitorinq tədqiqat və praktiki imkanlar baxımından bu prosesin idarə edilməsinə təsir və korreksiyanın universal mexanizminə çevrilir.

***Ədəbiyyat***

1. *Cavadov İ. Ümumtəhsil məktəblərində monitorinq və qiymətləndirmə üzrə işin sistemi. Bakı, 2006, 150 səh.*
2. *Mərdanov M., Ağamalıyev R., Mehrabov A., Qardaşov T. Təhsil sistemində monitorinq və qiymətləndirmə. Bakı, Çaşıoğlu, 2003, 416 səh.*

3. *Namazov N. Təhsildə keyfiyyət əsas devizimizdir // Azərbaycan məktəbi: Elmi-nəzəri, pedaqoji jurnal, №5 (sentyabr-oktyabr), 2017, səh. 68 -70.*
4. *Абакумова Н.Н. Система мониторинга в образовании: учебное пособие. Томск, 2018, 140 стр.*
5. *Болотов В.А., Ефремова Н.Ф. Система оценки качества образования: Учебное пособие. М.: Логос, 2017, 192 стр.*
6. *Чернявская А.П., Гречин Б.С. Современные средства оценивания результатов обучения: учебно-методическое пособие. Ярославль: изд-во ЯГПУ, 2015, 918 стр.*
7. *Шишов С.Е. Мониторинг качества образовательного процесса в школе: монография. М.: Инфра-М, 2016, 448 стр.*

**"Magistrant" dövri elmi jurnalında nəşr olunmaq məqsədi ilə təqdim edilən məqalələr üçün**

# TƏLƏBLƏR

- "MAGİSTRANT" dövri elmi jurnalında magistraturada təhsil alan magistrantların nəşr olunmamış elmi məqalələri qəbul edilir. Məqalə **Azərbaycan, ingilis, türk və ya rus** dilində jurnalın elektron ünvanına – **j.magistrant@adpu.edu.az**, **(müvafiq kafedra iclasının qərarı və elmi rəhbərin müsbət rəyi ilə)** göndərilir.
- Məqalə **Microsoft Word** proqramında Times New Roman şrifti ilə 12 pt. ölçüdə 1,0 intervalla yazılmalıdır. Səhifə ölçüləri: sağdan və soldan 2,0 sm, yuxarıdan 2,5 sm, aşağıdan 2,2 sm olmalıdır.
- **Başlıq** ortada qara və böyük hərflərlə yazılmalıdır.
- Məqalənin quruluşu: müəllifin adı, ata adı və soyadı, iş yeri, elmi dərəcəsi və elmi adı, üç dildə açar sözlər və xülasə (70-100 sözdən ibarət, 11 pt. ilə) ədəbiyyat siyahısı. Hər üç dildə yazılmış xülasələr bir-birinin eyni və məqalənin məzmununa uyğun olmalıdır.
- Məqalədə verilən **şəkil, rəsm, qrafik və cədvəllər** düzgün, aydın və mətn içərisində olmalı, onlara aid olan yazılar altında yazılmalıdır.
- Məqalənin həcmi **4-7 səhifə (15000-18000 işarə)** həcmində qəbul edilir.
- **İstinadlar** mətn içərisində kvadrat mötərizədə göstərilməklə məqalənin sonunda əlifba sırası ilə nömrələnməlidir. Məsələn: [5, s.152].
- Ədəbiyyat siyahısında verilən hər bir istinad haqqında məlumat tam və dəqiq olmalıdır. İstinad olunan mənbənin biblioqrafik təsviri onun növündən (monoqrafiya, dərslik, elmi məqalə və s.) asılı olaraq verilməlidir. Simpozium, konfrans materiallarına və ya tezislərinə istinad edilərkən məqalə və ya tezisin adı göstəriməlidir.
- Redaksiya düzəlişlər etmək üçün məqaləni müəllifə qaytara bilər.
- Məqalədə verilən hər hansı bir elmi yenilik, tezis və s. üçün müəllif şəxsən məsuliyyət daşıyır.
- Jurnalda dərc olunmayan məqalə geri qaytarılmır.

*Çapa imzalanmış 05.04.2024*
*Kağız formatı 60x84  1/16, çap vərəqi 23*
*Sifariş 90, sayı 100*

*ADPU-nun nəşriyyatı*
*Bakı, Ü.Hacıbəyli küçəsi, 68*
*Tel: (+912)493-74-10*
*E-mail: poliqrafiya@mail.ru*